**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu**

**Naxçıvan Dövlət Universiteti**

**Naxçıvan Müəllimlər İnstitutu**

# "AZƏRBAYCANDA TƏHSİL SİYASƏTİNİN PRİORİTETLƏRİ: MÜASİR YANAŞMALAR" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANSIN

# M A T E R İ A L L A R I

**Naxçıvan şəhəri, 25 noyabr 2016- cı il**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU**

# "AZƏRBAYCANDA TƏHSİL SİYASƏTİNİN PRİORİTETLƏRİ: MÜASİR YANAŞMALAR" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANSIN

# M A T E R İ A L L A R I

***Naxçıvan şəhəri, 25 noyabr 2016- cı il***

“Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq elmi konfrans Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.02.2016-cı il tarixli, 17/17/4939-11 nömrəli razılıq məktubuna, Azərbaycan Respublikasının Təhsil naziri 26 fevral 2016-cı il tarixli 120 nömrəli əmrinə əsasən keçirilir.

**BURAXILIŞA MƏSUL**:

**Emin Əmrullayev,**

Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru

vəzifəsini icra edən

**ELMİ REDAKTOR:**

**Akif Abbasov,**

pedaqogika üzrə elmlər doktoru, professor

“Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan şəhəri 25 noyabr 2016-cı il. Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzinin, nəşriyyatı, 2016, 326 səh.

# BEYNƏLXALQ ELMİ KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

***Furudin İsa oğlu Qurbanov*** – Azərbaycan Respublikası Təhsil nazirinin müavini - *sədr*
***Saleh Heydər oğlu Məhərrəmov*** – Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, biologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi – *həmsədr*
***Emin Eldar oğlu Əmrullayev*** – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru vəzifəsini icra edən – *həmsədr*
***Oruc Qafar oğlu Həsənli*** – Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi - *həmsədr*
***K. Suha Aydın*** – Nersin Universitetinin rektoru, doktor, professor – *üzv*
***Yekaterina Lvovna Kudryavtseva*** - Çoxdillilik və Mədəniyyətlərarası Mərkəzin əməkdaşı, pedaqoji elmlər namizədi (Karlspue-Hüstro, Almaniya) – *üzv*
***Dr. Oskar Raifovich–Riabov*** – Əqli İnteqrasiya İnstitutu, Vena, Avstriya - *üzv*
***Yelena Yefimovna Merzon*** – pedaqoji elmlər namizədi, Kazan Federal Universitetinnəzdindəki Yelabuqa İnstitutunun direktoru – *üzv*
***İrina Faqimovna Sibqatullina*** – Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzü, psixologiya elmləri doktoru, Tatarıstan Muxtar Respublikası Təhsilin İnkişafı İnstitutunun professoru (Kazan, Rusiya) - *üzv*
***Yuliya Aleksandrovna Natskeviç*** – Omsk Əlavə Təhsil Mərkəzinin direktoru, Rusiya Federasiyası -*üzv*
***Davud İbrahimoğlu*** – Türkiyə Respublikası, İstanbul Esenyurt Universiteti, dosent, doktor – *üzv*
***İsmayıl İsrafil oğlu Əliyev*** - "Naxçıvan" Universitetinin rektoru, pedaqogika üzrə elmlər doktoru, professor – *üzv*
***Surə Seyid*** - Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent - *üzv*
***Ənvər Məhəmməd oğlu Abbasov*** - Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent - *üzv*
***Faiq Şaban oğlu Şahbazlı*** - Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru - *üzv*
***Akif Nurağa oğlu Abbasov*** – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor – *üzv*
***Fərahim Balakişi oğlu Sadıqov*** - Bakı Elm və Təhsil Mərkəzinin prezidenti, pedaqogika üzrə elmlər doktoru, professor – *üzv*
***Mübariz Əsgər oğlu Nuriyev*** – Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, fizika üzrə fəlsəfə doktoru, dosent – *üzv*
***Yaqub Yaqub oğlu Məmmədov*** – Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, riyaziyyat üzrə elmlər doktoru, professor – *üzv*
***Hümeyir Hüseyn oğlu Əhmədov*** – – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru – *üzv*
***Həsənəli Eyvazlı*** – Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent - *üzv*
***Azad Sevindik oğlu Novruzov*** – Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent - *üzv*
***Vahid Məhəmməd oğlu Rzayev*** – Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent - *üzv*

**Furudin Qurbanov.** Qlobal təhsil vasitəsi ilə inkluziyanın və inteqrasiyanın təşviqi..............................11
**Saleh Məhərrəmov.** 50 yaşlı ali təhsil məbədi - Naxçıvan Dövlət Universiteti........................................14
**Юлия Александровна Нацкевич**. Место и роль дистанционного конкурсного движения школьников в образовательном процессе.........................................................................................................16
**Akif Abbasov**. Ailə tərbiyəsinin hüquqi əsasları.........................................................................................19
**İntiqam Cəbrayılov.** Pedaqoji tədqiqatlara verilən tələblər təhsil siyasətinin prioriteti kimi..................22
**Доктор Оскар Раифович-Рябов, Елена Мерзон.** Образовательное пространство как элемент брендинга территории.............................................................................................................................24
**Сергеевна Анна Соловьева.** Становление новой системы школьного образования в России.......26
**Mirhəsən Eminov.** Müasir elmi yanaşmalar baxımından şəxsiyyətyönlü təhsilin vətəndaş yetişdirmək imkanları.....................................................................................................................................................28
**Кудрявцева Екатерина Львовна, Салимова Дания Абузаровна, Шершун Светлана Евгеньевна.** Билингвальное образование в Азербайджане как путь к формированию «человека мира».........................................................................................................................................................30
**İradə Əmirəliyeva.** Multikultural təhsilə keçidin bəzi məsələləri..............................................................35
**Qurban Qurbanlı.** Tədris lüğətinin mikrostrukturuna dair.........................................................................37
**Rauf Hacıyev.** Kredit-bank sisteminin investisiya maliyyələşdirilməsi problemlərinə dair müasir elmi tendensiyalar................................................................................................................................................38
**Həbibullah Əzizov**. Demokratiya və ya məktəbdən başlayan gələcəyimiz.............................................40
**Aygün Abbasova, Rauf Məmmədcan.** Azərbaycan Respublikasında etnik mənsublarla bağlı təhsil və dil siyasətinin inkişafı....................................................................................................................................41
**Vüsalə Salahova.** Hami üçün təhsil.............................................................................................................43
**Murat Kadifeci**. Keyfiyyətli təhsil və liderlik...............................................................................................44
**Çapay Quliyev.** Milli mənlik şüurunun pedaqoji və psixoloji əsaslarının müəyyənləşdirilməsi və yeni təhsil sistemində nəzərə alınmasının əhəmiyyəti.........................................................................................45
**Qəmər İsmayılzadə.** Təhsilin prioritet məsələləri: ibtidai siniflərdə şəxsiyyətyönlü təhsilin formalaşdırılması.........................................................................................................................................46
**Qabil Namazov.** İnsan inkişafına yönəlmiş müasir təhsil siyasəti.............................................................47
**Гюльчохра Ибрагимова.** Место ролевых игр в системе методов активного обучения, используемых с целью развития русской устной речи учащихся начальных классов азербайджанской школы.............................................................................................................................49

## *TƏHSİLDƏ İNNOVATİV TƏLİM METODLARI VƏ TEXNOLOGİYALARININ TƏTBİQİ*

**Yaqub Məmmədov, Zəminə Rüstəmova.** Təhsildə kompüter şəbəkələrindən istifadənin müasir aspektləri....................................................................................................................................................52
**Ирина Фагимовна Сибгатуллина.** Информальные методы в структуре международного последипломного образования.........................................................................................................................53
**Давыдова Наталия Николаевна, Дорожкин Евгений Михайлович**. Формирование кластерной интегрированной системы образовательных организаций в регионе..................................................56
**Firidə Mustafayeva.** İnnovativ metodlar.......................................................................................................58
**Tofiq Məmmədov**, **Ayxan Hüseynli.** İnformasiya-kommunikasiya texnologiyaları təlimin fərdiləşməsini təmin edən səmərəli vasitə kimi...............................................................................................................59
**Ülviyyə Aslanova.** Müasir pedaqoji texnologiyalardan istifadənin səmərəsi............................................60
**Dilarə Əsgərova.** Təhsil sahəsində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsini zəruri edən amillər.........................................................................................................61
**İsmət Məmmədova, Zeynəb Hüseynova**. Müasir pedaqoji texnologiyalar təlimin keyfiyyətinin yüksəldilməsində mühüm amil kimi.............................................................................................................62
**Mətanət Həkimi.** Yeni təlim texnologiyalarından istifadənin əhəmiyyəti.................................................64
**Həsən Nəcəfov, Şamil Hümbətov.** Müasir dövrdə informasiya cəmiyyətinin formalaşmasında İKT-nin rolu...............................................................................................................................................................65
**Fərqanə Abbasova**. Tədrisin səmərəsinin yüksəldilməsində təlim vasitələrinin rolu...............................66
**Yeganə Muradova**. Müasir dövrün qlobal problemlərinin doğurduğu böhranlar və onlara yanaşmada İKT-nın rolu..................................................................................................................................................67
**Tahirə Bağırova.** Təlimdə İKT-dən istifadəni zəruri edən amillər............................................................69

**Zülfiyyə Vəliyeva**. Təhsildə innovativ metodlardan istifadə......70
**Аида Гасымова, Дурия Идаятзаде**. Современные подходы и технологии во время преподавания русского языка......71
**Güldanə Bəhmənova.** İngilis dili dərslərində müasir texnologiyalardan istifadənin üstünlükləri......72
**Nuridə Əhmədova.** Tarixin tədrisində innovasiyalardan istifadə......73

## *TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ*

**Xudayar Sultanlı.** Ali məktəbin mühüm vəzifələrindən biri: tələbələrin ekoloji maariflənməsi və ekoloji tərbiyəsi......75
**Vidadi Bəşirov.** Heydər Əliyev irsində milli-mənəvi dəyərlər sisteminin yeri......76
**Dilqəm Quliyev, Yusif Babanlı, Siyab Qulubəyli**. Fiziki tərbiyə sisteminin təkmilləşdirilməsi yüksək ixtisaslı bədən tərbiyəsi və idman mütəxəssislərinin hazırlanmasının şərti kimi......79
**Lalə Məmmədli.** "Aldanma sözlərə" romanın materiallarından istifadə etməklə şagirdlərdə düşmənə nifrət hissinin aşılanması......80
**Emilya Hüseynova.** Məktəbin tərbiyə sistemində yuxarı sinif şagirdlərinin fəal vətəndaşlıq mövqeyi tərbiyəsinin yeri......81
**Sona Sadıqova.** Məktəbəqədər təhsil müəssisələrində hərbi-vətənpərvərlik tərbiyəsi işinin təşkili......83
**Lalə Allahverdiyeva.** Uşaqların əxlaq tərbiyəsində ailənin rolu......84
**Ülviyyə İsmayılova.** Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi baxımından pedaqoji prosesin prinsiplərindən faydalanmağın əhəmiyyəti......85
**Tahirə Hüseynova**. Mənəvi mədəniyyətin mahiyyəti və elmi nəzəri əsasları......86
**Əli Cabbarov.** Ekskursiyaların tərbiyəvi funksiyalarından istifadə......87
**Solmaz Cabbarova.** Valideyn nümunəsinin ailə tərbiyəsinin səmərəliliyinə təsiri......88
**Sevinc Vəliyeva.** Kiçik yaşlı məktəblilərin ekoloji mədəniyyətinin formalaşdırılması......89
**İsmayıl Mürsəlov.** Musiqi vasitəsilə gənc nəslin estetik tərbiyəsi......90
**Günay Şirəliyeva.** Məktəbdə əmək tərbiyəsinin əhəmiyyəti, şagirdlərə əməyə və əmək adamlarına hörmət hissinin aşılanması......91
**Fəridə Səmədzadə.** Ailə ənənələri məktəbəqədər yaşlı uşağın mənəvi tərbiyəliliyinin əsası kimi......92
**Kifayət Məmmədova.** Fiziki mədəniyyət məşğələlərində oyunların məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşmasında rolu......93
**Şəhla Süleymanova**. Natamam ailələrdə övlad tərbiyəsində yaranan çətinliklər......95
**Həbib Məmmədov.** Fiziki tərbiyənin elmi-nəzəri əsasları......96
**Mehparə Əhmədova.** Məmməd Araz yaradıcılığı ailədə yeniyetmələrə vətənpərvərlik hisslərinin aşılanması vasitəsi kimi......97
**Qızıltac Şahbazova.** Milli şüurunun formalaşması mənəvi tərbiyənin ilkin şərti kimi......99
**Zülfiyyə Şiriyeva.** Vətəndaşlıq tərbiyəsi şəxsiyyətin sosiallaşması komponenti kimi......100
**Zeynab Mehdiyeva**. Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması......101
**Şəfiqə Tahirova.** Uşaqların halallıq tərbiyəsində ailənin rolu......102
**Vəfa Həsənli.** Rəşid bəy Əfəndiyevin vətənpərvərlik görüşlərinə nəzəri baxış......103
**Tünzalə Məmmədova.** İbtidai sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasında musiqinin rolu......104
**Kəmalə Məmmədova.** Şəxsiyyətin formalaşmasında sosial fəallığın rolu......106
**Xurşud İsmayılova.** Mədəniyyət abidələri şagirdlərin tərbiyə olunması vasitəsi kimi......106
**Vüsalə Vahidova.** Yeniyetmələrin təlim-tərbiyəsində valideyn komitəsinin rolu......107
**Əhliman Dadaşzadə.** Ailə tərbiyəsinin səmərəli yolları......108
**Pərvanə İmanova.** Məktəbəqədər yaşlı uşaqlarda mədəni davranış, ünsiyyət və fəaliyyətin tərbiyə edilməsi......109

## *PSİXOLOGİYA, KORREKSİYA PEDAQOGİKASİ, İNKÜLİZİV TƏHSİL*

**Oruc Həsənli.** Ağlın psixoloji əsasları......111
**Ramiz Əliyev.** Qloballaşma şəraitində müəllim-tələbə münasibətlərinin psixoloji xüsusiyyətləri......113
**Наталья Валентиновна Наумова, Гумеир Ахмедов.** Психолого-педагогическое применение методов суггестии в практико-ориентированном подходе......114
**Davut İbrahimoğlu.** Orta okul öğrencilerinde saldırganlık ve şiddet eğilimlerinin araştırılması......116

**Мерзон Елена Ефимовна.** Психолого-педагогическое прогнозирование развития технических способностей школьников.....117
**Gültac Əliyeva.** Psixodiaqnostika və məktəb psixoloqunun fəaliyyətində onun yeri.....120
**Elxan Bəylərov.** İstedadlı uşaqların təhsilinin psixoloji-pedaqoji problemləri.....121
**Акиф Гулиев, Элмира Юзбашева.** Половая дифференциация дошкольников.....123
**Validə Əliyeva.** Təlim prosesində insanların bir-birilərini qavramasının psixoloji mexanizmi.....125
**Solmaz Həsənli.** Müasir kontekstdə sosiallaşmanın aktual psixoloji problemləri.....126
**Eldəniz Həsənli.** Biznesin əsasları fənnində "Biznesin sosial-psixoloji aspektləri" mövzusunun tədrisinə dair.....127
**Hüseyn Mirzəyev.** Pedaqoji prosesdə təhsilin keyfiyyətinin modernləşdirilməsində müəllim-şagird münasibətlərinin psixoloji xüsusiyyətləri.....128
**Лала Иманова.** Проблемы обучения умственно отсталых детей.....130
**Fərid Süleymanov.** Xüsusi təhsil ehtiyacları olan uşaqların inklüziv təhsil üçün seçilməsi.....131
**Джафар Гулиев.** Мультикультурализм и стратегия инклюзивного образования в контексте государственной политики Азербайджана.....132
**Könül Quliyeva.** Ünsiyyət psixologiyasının bəzi məsələləri.....133
**Aynur Abdullayeva.** Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin yaranması tarixi və inkişaf mərhələləri.....134
**Cavid Əliyev.** Kollektiv üzvləri və rəhbər tərəfindən qərarların qəbul olunmasının sosial-psixoloji xüsusiyyətləri.....136
**Sevinc Kərimova.** Müasir təhsil və müəllimlərin psixopedaqoji qabiliyyətlərinin inkişafının əsas istiqamətləri.....136
**Aygün Əzimova.** "Ölüm instinkti" və ya susidal davranışın motivasiyasına dair.....138
**Təhminə Cabbarova.** Qloballaşmanın müəllim-şagird münasibətlərinə təsirinin psixoloji xüsusiyyətləri.....140
**Kamalə Salamova.** İnsanların bir-birinə bağlanma üslubunun psixoloji xüsusiyyətləri.....142
**Raziyə Quliyeva.** Şagirdlərin yaradıcı təxəyyülünün inkişaf problemləri.....144
**Aynur İskəndərova**. Praktik psixoloq üçün tələb olunan şəxsi keyfiyyətlər və peşə bacarıqları.....145
**Zeynəb Bağırova.** Məktəb psixoloqunun vəzifələri.....146
**Gülnarə Qurbanova.** Şəxsiyyətin inkişafı prosesi.....150
**Gülər Şahbazova.** Tolerant düşüncənin formalaşdırılması.....150
**Nicat Əliyev**. Yeniyetmələrin psixoloji xüsusiyyətləri və qarşılıqlı münasibətlərə onun təsiri.....151
**Nüşabə Məmmədova**. Məktəb psixoloqunun müəllimlərlə apardığı psixoloji maarifləndirmə işi.....152
**Гюнель Ахмедова.** Концепции одаренности в Соединенных Штатах Америки.....153
**Мая Джафаргулиева.** Мультикультурализм и стратегия инклюзивного образования в контексте государственной политики Азербайджана.....154
**Sevinc Orucova.** Təlim prosesində müəllim-şagird münasibətlərinin psixoloji xüsusiyyətləri.....155
**Zəhra Əliyeva.** İdman məşğələlərində ibtidai sinif şagirdlərinin iradə tərbiyəsi ilə bağlı görülən işlərin məzmunu.....156
**Salatın Hacıyeva.** Sağlamlıq imkanları məhdud insanların cəmiyyətdə qarşılaşdıqları əsas çətinliklər.....158

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

**Fərahim Sadıqov**. Muğamlar və onların pedaqoji əsasları.....160
**Fərrux Rüstəmov.** Karl Rocersin didaktik ideyalarının təşəkkülü və nəzəri-metodoloji əsasları.....161
**Kamal Camalov.** "Molla Nəsrəddin" jurnalının müxbir üzvü Üzeyir Hacıbəyov.....162
**Sevinc Kərimova, Xəzəngül Babayeva.** Nəbati yaradıcılığında tərbiyə məsələləri.....164
**Tamilla Vahabova.** XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı.....165
**Vahid Rzayev.** Sofiya xanım Stasyuleviçin məktəbi.....166
**Abbas (Abbasov) Cilovdarlı.** Azərbaycanın yeni elmi inkişaf dövrünün başlanması.....168
**Gülmira Hacıyeva.** Əliqulu Qəmküsar yaradıcılığında mövhumatçılığın tənqidi.....169
**Kifayət Əhmədova.** Azərbaycan mütəfəkkirləri, psixoloq və pedaqoqlarının əsərlərində ailə tərbiyəsi və ailədəki münasibətlər problemi.....170
**Şirinbəyim Oruclu.** Xalq pedaqogikasında şəxsiyyət problemi.....172
**Xatirə Qocayeva.** Məmməd Əmin Rəsulzadənin irsində təhsil-tərbiyə məsələləri.....173

**Vüsalə Qurbanova.** Azərbaycanda orta ixtisas pedaqoji təhsil: təşəkkülü və inkişafı (1920-1991-ci illər)........................................................................................................................................175
**Mehriban Quliyeva.** Fəqir Ordubadinin "Hekayəti-cavan mərdi-kürd" satirasının dil üslubu......................................................................................................................................176
**Rönət Süleymanov.** Ümumtəhsil məktəblərində Üzeyir Hacıbəylinin həyatı və yaradıcılığının öyrədilməsi.....................................................................................................................................178
**Günel Məmmədova.** Sultan Məcid Qənizadə irsində təhsil-tərbiyə məsələləri......................................179
**Qarifat Dadaşova.** Pedaqogika elminin inkişafinda Qərb pedaqoji fikrinin təsiri: Yan Amos Komenski..................................................................................................................................180
**Саида Пашаева.** Прогрессивные идеи Азербайджанского просветительства конца XIX-начала XX века........................................................................................................................................182
**Aynur Məmmədova, Sevinc Zeynalova.** XXI əsrdə Azərbaycan dövlət təhsil siyasətinin yeni prioritetləri haqqında mülahizələr.........................................................................................183

## *PEDAQOJİ KADR HAZIRLIĞININ AKTUAL PROBLEMLƏRİ.*

## *MÜƏLLİMİN PEDAQOJİ USTALIĞI*

**Севиндж Ахундова.** К проблеме педагогического профессионализма современных учителей....185
**Nəzakət Mehdiyeva.** Müəllimin tədris fəaliyyətinin və təlim ehtiyaclarının qiymətləndirilməsi təcrübəsindən...........................................................................................................................186
**Yusif Babanlı.** Bədən tərbiyəsi müəlliminin işinin səciyyəvi xüsusiyyətləri və kadrların hazırlanması..............................................................................................................................188
**Anar İsmayılov**. Təhsil konsepsiyasının reallaşdırılmasında XXI əsr müəllim hazırlığı modeli...........189
**Manaf Səmədzadə.** Pedaqoji ixtilafların səbəbləri və xüsusiyyətləri.....................................................191
**Novruz Qasımov.** Müəllim kadrları cəmiyyətin ən şərəfli kadrları kimi...............................................193
**Hicran Əliyeva.** Musiqi fənnini tədris edən müəllimin metodik hazırlığı...............................................194
**Təranə Haşımova**. Müəllimin kommunikativ mədəniyyəti.........................................................................195
**Sevinc Əliyeva**. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması yolları................................................196
**Ceyran Həsənova.** Müəllimin pedaqoji fəaliyyətinin istiqamətləri..........................................................197
**Səməngül Abdullayeva.** Müəllim nüfuzu...................................................................................................198
**Сабина Гаджиева.** Роль учителя в образовании школьников.................................................................199
**Nailə Şükürova.** Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması yolları..............................................200
**Aysel Zeynallı.** Magistrantların müasir təlim texnologiyaları vasitəsilə müəllimlik fəaliyyətinə hazırlanmalarında tədris prosesinin imkanları.........................................................................................201
**Şirməmməd Qulubəyli**. Rəqabət qabiliyyətli pedaqoji kadrların hazırlanmasında tələbəyönlü təhsilin roluna dair......................................................................................................................................203

## *İSTEDADLI UŞAQLARLA İŞ*

**Talıb Paşayev, Eyvaz Məmmədov**. İstedadl uşaqlarla işin xüsusiyyətləri...............................................205
**Нигяр Мурадова**. Экспертное сопровождение талантливых школьников...................................205
**Sevda Alxasova.** İstedadlı uşaqlarla işin xüsusiyyətləri...............................................................................207
**Almara Hümbətova**. İstedadlı uşaqların təhsilinin prioritet məsələləri......................................................208
**Nəzakət Əsgərova.** İstedadlı uşaqların müəyyənləşdirilməsi təcrübəsi......................................................209
**Xanım Salayeva**. İstedadlı uşaqların innovativ təliminin təşkili xüsusiyyətləri..........................................210
**İlhamə Əsədova.** İstedadlı şagirdlərlə işin təşkilində özünüauditin fəaliyyət istiqamətləri.....................211
**Könül Mikayılova, Sevda Namazova.** İstedadlı uşaqlarla bağlı inkişaf proqramları və beynəlxalq təcrübənin öyrənilməsi......................................................................................................................213
**Səbuhə Hüseynova.** Azərbaycanda istedadlı şagirdlərin inkişafinda müəllimin rolu..............................214

## *TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ*

**Şahismayıl İsmayılov**. Şagird nailiyyətlərinin qiymətləndirilməsi..........................................................216
**Динара Асадова, Инара Джафарова.** Современный подход в оценивании младших школьников в обучении иностранного языка..............................................................................................................217
**Arzu Mehrəliyeva** Texnologiya dərslərində şagirdlərin biliklərinin testlə yoxlanılması.........................217

**Xuraman Nağızadə**. "Həyat bilgisi" fənninin tədrisində şagird nailyyətlərinin qiymətləndirilməsi və onun nəticələrinin təhlili......219
**Elnarə Məhərrəmova.** Coğrafiya fənninin tədrisində qiymətləndirmə......222
**Günay Cəlilova.** Kimya dərslərində müasir qiymətləndirmə......223
**Zəhra Bağırova**. Formativ qiymətləndirmənin üsul və vasitələri......225

## *METODİKA: FƏNLƏRİN TƏDRİSİ*

**Ənvər Abbasov.** Təhsilin yeni məzmununun yaradılması problemi......228
**Akif İmanlı**. Sintaktik təhlil zamanı qarşıya çıxan bir çətinlik haqqında......229
**И.А. Веревкин, И.Н. Веревкина.** Технология проблемного диалога как средство формирования универсальных учебных действий в начальной школе......230
**Şahin Tağıyev.** Fənlərarası əlaqə məktəblilərin hərbi xidmətə hazırlanmasında başlıca vasitələrdən biri kimi......234
**Əbülfət Pələngov.** Tənliklərin həllində və qrafiklərin qurulmasında kompüterlərdən istifadə......235
**Mübariz Əmirov.** Tarix müəlliminin məktəb mühazirəsinə hazırlanmasının didaktik əsasları......237
**Asif Axundov, Rauf Sultanov, Gülnarə Sultanova.** İbtidai siniflərə hazırlıqla əlaqədar məktəbəqədər yaşlı uşaqlarda ətraf aləmlə tanışlığa dair biliklərin formalaşdırılmasının prinsipləri......238
**Александр Григорьевич Козленко.** Классификация моделей и использование моделей разных типов в обучении биологии в основной школе......240
**Heydər Cəfərov.** Təhsilin məzmununun təkmilləşdirilməsinin valeoloji və didaktogen problemləri...243
**Sədaqət Həsənova**. Çağdaş təhsilin keyfiyyətinə təsir edən bəzi problemli qrammatik mövzular haqqında......245
**Laləzar Cəfərova.** Məktəbəqədər təhsildə yeni yanaşmaların tətbiqi günün tələbi kimi......246
**Bilal Həsənli.** IX sinif ədəbiyyat dərsliyi üzrə təlimin təşkili xüsusiyyətləri......247
**Bibixanım İbadova**. İbtidai siniflərdə Azərbaycan dili təliminin məzmununun xüsusiyyətləri......249
**Məmməd Kazımov.** Texnologiya fənləri üzrə təcrübə məşğələləri aparılan tədris emalatxanalarına verilən tələblər......251
**Nərminə Məmmədova**. Müasir tədris avadanlıqları və resurslardan istifadənin dəstəklənməsi sistemi - "Elektron məktəb" modeli......253
**Malik Qurbanov.** Modul proqramlarının peşə-ixtisas təhsili sahəsində tətbiqi məsələləri......255
**Şərafət Baxışova.** Məktəbəqədər təhsilin məzmununa yeni yanaşmalar......256
**Rəbiyə Qəniyeva.** İngilis dili dərslərində şagirdlərin idrak fəallığını təmin edən şərtlər......258
**Emilya Həsənova**. VII siniflərin təsviri incəsənət dərsliklərinin incəsənətə dair dərs-söhbətlərin aparılması baxımından imkanları......259
**Musa Piriyev, Hilal Qasımov, Daşqın Qənbərov.** Naxçıvan Muxtar Respublikasında yayılmış gülçiçəklikimilər fəsiləsinin nadir və məhv olma təhlükəsində olan növlərinin şagirdlərə tanıdılması...260
**Vüsalə Firdovsi.** Ümumtəhsil məktəblərində riyaziyyatın elektron əsaslarla tədrisinin aktual problemləri......262
**Sevil Cavadova**. İnteqrativlik ədəbiyyat fənninin əsas tədris prinsiplərindən biri kimi......263
**Sevda Həsənova.** Musiqi məşğələləri və məktəblilərin ekoloji təhsili......264
**Ülviyyə Abbasova.** Təhsildə prioritet istiqamətlərdən biri – multikulturalizmin tədrisi......265
**Arifə Əliyeva**. Dərslik probleminə müasir yanaşma......267
**İlahə Qafarova.** Məktəbəqədər təhsil üzrə təlim nəticələrinə verilən tələblər......268
**Təranə Seyidova.** Uşaq bağçalarında rabitəli nitqin inkişafı......269
**Xuraman Səlimova.** Texnologiya fənninə aid praktik tapşırıqların qiymətləndirilməsi......270
**Günel Qocayeva.** Biologiya fənn kurikulumunun maraqli cəhətləri......272
**Günel Orucova**. Təlim keyfiyyətinin yüksəldilməsində taksonomiyanın rolu......273
**Elnarə Seyidova.** Məktəbəqədər yaşlı uşaqlar üçün didaktik oyunların rolu......274
**Nazim Əhmədov.** "Büdcə sistemi" fənnində "Naxçıvan Muxtar Respublikasının büdcəsi" mövzusunun tədrisinə dair......275
**Nəzakət Məmmədova.** Biologiya fənninin təlimində fəndaxili və fənlərarası inteqrasiya......277
**Vüsalə Əliyeva.** Ümumtəhsil məktəblərində riyaziyyatın elektron əsaslarla tədrisinin aktual problemləri......278
**Elyanə Kərimova.** Riyaziyyat fənninin tədrisi zamanı istifadə olunan fəal təlim üsulları......280
**Tərbiyə Quluyeva.** Müasir və ənənəvi təlim prinsiplərinin qarşılıqlı əlaqəsi......281
**Zeynəb Məmmədova**. Təlimin təşkilinin müasir prinsipləri......282

**Kəmalə Həşimova**. Təhsilin milli və bəşəri dəyərlər əsasında təşkili....................................................283
**Sevil Bəhrəmova.** Tarix dərslərində bilik və bacarıqların qiymətləndirməsinə aparan yol....................284
**Leyla Zeynalova.** İngilis dilində felin tədrisi zamanı Azərbaycan dili materialları ilə müqayisədən istifadə məsələsi. .........................................................................................................................285
**Əli Həsənov, İsmət Həsənov.** VII siniflərdə coğrafiyadan "Coğrafi kordinatlar" mövzusunun tədrisi zamanı məqsədlərin və təlim nəticələrinin müəyyən edilməsi..............................................................286
**Orxan Cəfərov.** Orta məktəbdə riyaziyyatdan sinifdənxaric məşğələlərdə şagirdlərin nəzəri biliklərinin dərinləşdirilməsi.........................................................................................................................287
**Sevinc Nəzərova.** Fizika fənninin tədrisinin əsas prinsipləri.................................................................289
**Şəhla Mirzəyeva.** "Kitabi-Dədə Qorqud" dastanı və qeyri-standart dərslər...........................................290
**Məftun Əliyev**, **Nazilə Mahmudova**. VISUAL BASIC-də sadə hesablama proseslərinin öyrədilmə metodikasının təhsilə tətbiqi.................................................................................................................291
**Sədaqət Əliyeva**. Etnodidaktik amillərin əhəmiyyəti..............................................................................292
**Rövşən Həsənov.** Qeyri-səlis cəbrdə istifadə olunan simvollar və işarələmələr haqqında......................294
**Yeganə Məmmədova.** Təhsildə innovasiya nədir?.................................................................................295
**Yeganə Hüseynova.** Keyfiyyətli təlimin təşkili problemi........................................................................296
**Əntiqə Seyidova, Azad Gəncəliyev**. Kimya və riyaziyyat fənlərinin əlaqəli tədrisi..............................297
**Gülzar Quluyeva.** Şagirdlərin idrakı fəaliyyətində müasir dərs tiplərinin rolu.....................................298
**Humay Alıkişiyeva.** Düzgün tələffüz üzərində iş.....................................................................................299
**Çinarə Rzayeva**. İbtidai siniflərdə folklor nümunələrinə verilən yer və folklorun tədrisinə münasibət.........................................................................................................................................300
**Fatma Hacıyeva.** İbtidai siniflərdə hesab materialı ilə şagirdlərin konkret-induktiv təfəkkürünün inkişafı..............................................................................................................................................302
**Şəhla Həsənova**. İbtidai siniflərdə riyaziyyat dərslərinin təşkili metodikası...........................................303
**Gülnarə Tanrıverdiyeva.** Tarixin tədris keyfiyyətinin yüksəldilməsi....................................................304
**Əhruz Mahmudova**. Azərbaycan dili dərslərində Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrində işlədilən xüsusi adlardan istifadə imkanları haqqında.........................................................305
**Təranə Mirzəyeva.** Esse şagird yazısı kimi.............................................................................................306
**İlqar Abdullayev, Ramil Tanrıverdi.** Azərbaycan tarixi dərslərində ikt və fənlərarası əlaqə təcrübəsindən.......................................................................................................................................307
**Elmin İmanov, Könül Həsənova.** Azərbaycan tarixi və ingilis dili dərslərində ikt və fənlərarası əlaqə təcrübəsindən.......................................................................................................................................308
**Məlahət Məmmədova, Vasif Piriyev.** Gənclərin çağırışaqədərki hazırlığı və biologiya dərslərində fənlərarası əlaqə təcrübəsindən..............................................................................................................309
**Lalə Məhərrəmzadə, Zəminə Əsədova.** İngilis dili dərslərində İKT və fənlərarası əlaqə təcrübəsindən.......................................................................................................................................310
**Hürü Kərimova.** Pedaqoji prosesdə təlimin qanun və qanunauyğunluqlarının nəzərə alınmasının keyfiyyətə təsiri................................................................................................................................311
**Vəfa Fərmanlı, Ayna Səfərəliyeva.** Ədəbiyyat dərslərində ikt və fənlərarası əlaqə təcrübəsindən.......313

## *TƏHSİLİN İDARƏ OLUNMASI TEXNOLOGİYASI*

**Piralı Əliyev.** Ümumtəhsil məktəbinin təlim-tərbiyə işləri üzrə direktor müavininin idarəetmə işinin istiqamətləri..........................................................................................................................................314
**Sahib Məmmədov**. Tələbə auditoriyasının idarə olunması.....................................................................316
**Rahim Sadıqov.** Menecmentin prinsipləri səmərəli idarəetmənin əsası kimi.........................................318
**Fərəh Hüseynova**. Ümumi təhsil məktəblərinin "dövlət-ictimai" xarakterdə idarə edilməsində direktorun səriştəsi.............................................................................................................................................320
**Mətanət Qurbanova.** Təhsilin təşkili və idarə olunması üzrə kadr hazırlığında yeni mərhələ................322
**Müjkan Məmmədzadə.** Tələbələrdə idarəetmə mədəniyyətinin formalaşdırılması üzrə işin məzmunu...........................................................................................................................................324
**Bəyimxanım Məmmədova.** Orta ixtisas təhsili müəssisələrində akademik məsləhətçi: vəzifələri və fəaliyyətinin xüsusiyyətləri..................................................................................................................325

# QLOBAL TƏHSİL VASİTƏSİ İLƏ İNKLUZİYANIN VƏ İNTEQRASİYANIN TƏŞVİQİ

**Furudin Qurbanov,**
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*
E-mail: firudin.qurbanov@edu.gov.az

***Açar sözlər:*** *inkluziya, inteqrasiya, təhsil, ekolojiləşdirilmə, təhsilin ekojiləşdirilməsi, humanistləşdirmə, təhsilin humanistləşdirilməsi, qlobal problemlər*
***Ключевые слова****: инклюзия, интеграция, образование, экологизация, экологизация образования, гуманизация, гуманизация образования*
***Keywords:*** *inkluziya, integration, education, greening, greening education. humanization, humanization of education*

Təcrübə göstərir ki, təhsilin inkişafı cəmiyyətdə siyasi, sosial sabitliyin təmin edilməsində, mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır. Təhsilli insanlar siyasi həyatda daha sağlam, daha konstruktiv mövqe tutur, asanlıqla konsensus əldə etməklə münaqişələri daha asan həll edirlər. Təhsilsiz və ya aşağı təhsilli insanlar isə asanlıqla ayrı-ayrı qrup maraqlarının alətinə çevrilirlər.

Təhsil mədəniyyətin ən vacib göstəricisi hesab olunur. O, mədəniyyət səviyyəsini həm əks edir, həm də onu inkişaf edir. Nəzərə alsaq ki, hər xalqın öz mədəniyyəti var, o zaman ayrı-ayrı ölkələrin təhsil sistemləri çox unikaldır.

Lakin dünyəvi təhsilin sosial mədəniyyət sahəsi ilə əlaqəsindən başqa elm ilə də sıx əlaqəsi var. Elm isə beynəlmiləldir, onun tərkibi bütün cəmiyyətlərdə invariantdır. Bundan başqa, insanların qavrama psixologiyasında, ayrı-ayrı fənlərin tədrisi metodikasında və digər pedaqoji məsələlərdə ümumi cəhətlər var. Bunların hamısı təhsil problemində ümumbəşər və milli birliyi şərtləndirir.

Hazırda dünyəvi problemlərin kontekstində təhsil əsaslarının başa düşülməsi cəmiyyətin sabit inkişafının lazımi şərtidir. Milli təhsil sistemlərinin məqsədləri, ümumi tərkibinin təyin edilməsində bəşəriyyətin ümumplanetar tələbini ən müxtəlif səviyyələrində nəzərə almaq lazımdır.

Təhsilin müvafiq konsepsiyasının seçilməsi, ümumilikdə, və bütövlükdə cəmiyyətin üstünlük təşkil edən dəyərcə dünyagörüşü məqsədlərindən, sərvətindən, mənəvi ehtiyacların müxtəlifliyindən asılıdır. Mürəkkəblik bu determinasiyaedici amillərin strukturunun həmişə birmənalı və bərabər olmamasındadır. Buna görə təhsilin ümumi strategiyası, metodologiyasının aşkarlanmasında, həmçinin ayrı-ayrı fənlərin tədrisində müxtəlif fərdi, metodoloji məsələlərdə bəzi problemlər yaranır. Bu cəhətdən təhsilin bütöv konsepsiyasının, onun tərkibinin, istiqamətlərinin hazırlanması, özü əsaslı və kompleksli elmi bir problem kimi meydana çıxır.

Təhsil ənənəvi olaraq insanın təbiət və sosial mədəniyyət mühitinə adaptasiya olunması, insan fəaliyyətinin bütün sahələrinin gələcəkdə inkişaf etməsi üçün lazım olan sistemləşdirilmiş bilik, bacarıq və təcrübələrin mənimsəməsi prosesi kimi meydana çıxır. Təhsil dəyəri müxtəlif mövqelərdən baxıla bilər: sosial, iqtisadi, şəxsi və s. Görünür ki, onun əsas dəyəri fərdin sosiallaşmasındadır. Sosiallaşma – mahiyyətə görə, bir nəsildən digər nəslə sosial mədəniyyət təcrübəsinin keçməsi, şəxsiyyətin cəmiyyətdə həyata uyğunlaşması deməkdir. Bu proses vasitəsilə mədəniyyət cəmiyyətin yeni üzvlərini formalaşdırır. Bunun üçün cəmiyyət ümumi mədəniyyətin formalaşmasına və yayılmasına səbəb olan müvafiq institut sistemlərini yaradır. Bu xarakterdə olan ən vacib institutlara tədris-tərbiyə müəssisələri aid olunur.

Nəzərə almaq lazımdır ki, təhsilin tərkibinin təyin olunma problemi elm və sosial təcrübənin inkişaf mərhələləri ilə adətən əlaqələndirilən uzunmüddətli tarixi ənənəyə malikdir. Hər dövrdə təhsilin tərkibinin təyin edilməsi məsələlərinin həll edilməsinin özünə xas xüsusiyyəti var. Həyəcanla keçirilən vaxtımız postindustrial cəmiyyət dövrünə keçid kimi səciyyələnir. Bu cəmiyyətin əsas fərqləndirici cəhətləri, onun sosial-iqtisadi və iqtisadi inkişafın oriyentasiyası, təhsilin yüksək informatlaşdırılması və ekolojiləşdirilməsi baş verəcək.

Bu hal BMT sənədlərində göstərildiyi kimi, insan fəaliyyətinin məqsədini, ən müxtəlif sahələrdə onun tərkibini qəti dəyişəcək. Əgər insan həyatının kəmiyyətcə göstəriciləri müxtəlif informasiya texnologiyaları ilə təyin olunacaqsa, o zaman keyfiyyət göstəriciləri – təbiət mühitinin vəziyyətinə dair

daim diqqət kimi belə üstün olan şüurdakı requlyativlərlə, Yer üzündə həyatın unikallığı və şəxsi dəyərinin dərindən anlamasından irəli gələn biosferə ehtiyatlı münasibət ilə təyin olunacaq.

Qlobal problemlərin həll edilməsi, onların aradan qaldırılması üçün cəmiyyəti hansı tip insanın formalaşmasından asılıdır. Fərdi şüurun, insanın mənəvi təsəvvürlərin inkişaf səviyyəsi, onun şəxsiyyətlərarası əlaqələrinin xüsusiyyəti və genişliyi, sosial həyata daxil olma dərəcəsi, insanların dəyər məqsədlərini, həyat fəaliyyətinin motivlərini təyin edirlər. Bu "məsuliyyətli şüuru" adlanan şəxsiyyətin formalaşması üçün lazım olan hissələri, cəmiyyət təhsil vasitəsilə verə bilər.

Hazırda insan, cəmiyyət və təbiət, daha aydın formada onların inkişaf perspektivləri haqqında biliklər məcmusu bədii və fəlsəfi, dini və elmi dərk etmə, insan fəaliyyətinin müxtəlif sahələrinin inteqrasiyasının qarşılıqlı əlaqəsinin sistemyaradıcı amili olacaq. Bu, ilk öncə, birtərəflik şüuru ilə, və mahiyyətə görə, mədəniyyətin inkişafının texnokratik təmayülünün perspektivsizliyi ilə əlaqədardır.

İstənilən profilli mütəxəssisdə yüksək ümumi mədəniyyətin olması nəinki arzu olunan xarici keyfiyyətdir, həm də xüsusi, məqsədyönlü formalaşmada ehtiyacı olan xassə olan onun fəaliyyəti üçün lazımi və atributivdir. Əlbəttə, bu mürəkkəb, geniş prosesdə təyinedici rol ətraflı düşünülmüş təhsilə məxsusdur.

Fərdin təfəkkür üslubu və onun təlim verilməsinin xüsusiyyətləri arasında birbaşa əlaqə var. Buna görə fərdin hərtərəfli inkişaf etməsi, mədəni və elmi görüş dairəsinin hər cür genişlənməsi əsasında onun yaradıcı qabiliyyətlərinin aktivləşdirilməsi lazımdır. İstənilən peşəkar hazırlıq şəxsiyyətin hərtərəfli inkişafından başlamalıdır – "şablon təfəkkür" probleminin həll edilməsinin əsas vasitəsidir.

Bu planda təhsil sistemi şiddətlənən inteqrativ prosesləri elastik təsvir etməlidir, elmlərin inkişafının ümumi metodları, onların əsaslarına diqqəti artırmalıdır.

Əlbəttə, təhsil könüllü olaraq mənəviyyata aparır. Ancaq hərtərəfli təhsil, zərif insan mədəniyyətini həqiqətən inkişaf edə biləcək baza kimi xidmət edir.

İndiki dövrün xüsusiyyəti ictimai inkişafın şiddətli dinamikasında, yeni sosial hadisələr (əvvəl göstərildiyi kimi, milli ədavət və s.) ilə toqquşmadan ibarətdir. İctimai şüurda ənənəvi stereotiplərin sınması baş verir.

Bu sosial dinamikanın tezləşməsi, ideoloji stereotiplərin dağılması, cəmiyyətin siyasətləşməsi prosesi, təhsilin himanistləşdirilməsi baxımından tələbləri daha da artırır. Təhsilin himanistləşdirilməsi hazırda əsas məsələ kimi qarşıda durur.

Himanistləşdirilmiş təhsilin sistemyaradıcı amili kimi, bizim fikrimizcə, azad inkişaf və öz bacarıqlarının ifadə edilməsinə dair insan hüquqları olmalıdır. Təhsilin himanistləşdirilməsi belə halda ayrı-ayrı fərdlərin bacarıqlarının meydana çıxmasına dair oriyentasiya deməkdir. Təhsil prosesi insanın yüksəlməsinə, onun potensial imkanlarının açılmasına kömək etməlidir. Bu zaman təhsil istənilən vəziyyətlərdə insan xoşbəxtliyinin ictimai münasibətlərinin yüksək meyarı kimi hesab etməyə imkan verir.

Hazırda həm təhsil, həm də elm üçün inkişafın variativ yolları daha xarakterik olur. Elm təfəkkürün istiqaməti üsulundan daha çox çıxır. Dünyadakı real proseslər əsasən qeyri-müntəzəmdir, buna görə alternativlik, tamamlama prinsipləri elmi dərk etmənin aparıcı vasitələridir. İndi dərk edilir ki, elmiliyi həmişə birmənalılığa, mücərrədliyi isə monistikliyə oxşatmaq olmaz. Elmdə müxtəlif, çox vaxt bir-birini inkar edən konsepsiya və nəzəriyyələrin olması tamamilə müntəzəm hadisədir və o, təhsil sistemində öz əksini tapmalıdır.

Müasir dövrdə böyüyən nəslin məqsədyönlü təhsilinin zəruri olması tamamilə aydın olur. Təhsil tərkibi möhkəm informasiya-ekoloji cəmiyyətin yüksək humanistik, texnoloji və ekoloji mədəniyyətlə təşəkkül tapmasını təmin etməlidir. Bunun üçün, görünür, digər stereotip təfəkkür və davranışla olan yeni hərtərəfli təhsil almış insanlar lazımdır.

Ola bilsin, təhsilin ən vacib məqsədlərindən biri insanın inkişaf problemləri üzrə lazımi bilik komplekslərinin, onun sosial və təbiət mühiti ilə əlaqəsinin formalaşması olur. Bu fərdin, onun tarixinin müxtəlif mərhələlərində cəmiyyəti dərk etməyə, mədəniyyət fenomenini, şəxsi yaşayışın və bəşəriyyətin şərtlərini anlamağa kömək etməlidir.

Cəmiyyətin sosial quruluşu, siyasi sistemi tarixə görə həmişə təhsilin xüsusiyyətlərinə, onun məqsəd və tərkibinə təsir edirdi. Demokratiya təhsil prosesinə əsasən yeni məqamları daxil edə bilir. Sərt, birmənalı formalardan palliativ tədris formalarına keçid baş verir.

Bəşəriyyət yeni təfəkkür üsulunun formalaşma əsrini yaşayır, onun məzmunlu əsasını qlobal ideyalar təşkil edir. Bu mürəkkəb, geniş proses bir sıra amillər ilə təyin edilir, onlara ən azı aiddir: iqtisadi, siyasi sahələrdə bəşəriyyəti inteqrativ tendensiyalarda konsolidasiya edən; həqiqətin vahid surətini təyin edən təbii elmi və humanitar biliklərin sintezi; insanların həyat tərzi, onların dünyaya görünüşü dəyişdirən informasiya, kommunikativ texnologiyaların inkişaf olunması.

Bununla əlaqədar olaraq qlobal şüurun tərkibi ənənəvi anlayışlarda və təsəvvürlərdə, onların həcm və tərkibinin genişlənməsi vasitəsilə, yaxud prinsipial olaraq digər kateqorial strukturların inteqrasiyaedən qlobal ideyaların yaranması əsasında formalaşması vasitəsilə cəmləşə bilər.

Cəmiyyətin hərtərəfli inkişafı təhsil strukturlarının fəaliyyəti ilə bağlıdır. Yeni imperativlərə cavab verən elm və texnika, iqtisadiyyat və siyasət, incəsənət və ədəbiyyat təhsilin məqsəd və tərkibinin dəyişməsində mümkündür. Təsadüfi deyil ki, sabit inkişaf üzrə müvafiq beynəlxalq və milli hüquqi sənədlərin qəbul edilməsindən sonra ilk öncə təhsil sisteminin islah edilməsi zəruriyyəti hesab olunur. İnsanın yaşaması və tərəqqisi üçün atribut kimi təhsil sabit inkişafın paradiqmasına uyğun olan dəyərlərə yenidən istiqamətlənməlidir. Təhsil qlobal dəyişikliklərin əsas amili hesab olunur, indi söhbət bütün səviyyələrdə təhsil sistemində sabit inkişaf məsələlərinin inteqrasiyası haqqında gedə bilər.

Sabit inkişafın təmin edilməsi üçün təhsil sisteminin formalaşması insana, cəmiyyətə və təbiətə bütövlüklə yanaşmaya, müasir elmi bilik birliyi, humanistik dəyərcə dünya görünüşünə əsaslanan təhsil modelinə keçidi güman edir.

Təsadüfi deyildir ki, Azərbaycanın təhsil siyasətində gənc nəslə tolerantlıq, bəşəri və mədəni dəyərlərə hörmət aşılanması əsas yer tutur. Ölkəmizdə milli və ümumbəşəri dəyərlərin, insan hüquqları və azadlıqlarının, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması təhsil sahəsində dövlət siyasətinin əsas prinsipi kimi müəyyənləşdirilmişdir. Azərbaycan dövləti irqindən, dilindən, dinindən, milliyyətindən asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

Ölkəmizdə tarix boyu etnik və dini azlıqlar sərbəst yaşamış və heç bir təzyiqə məruz qalmamışdır. Onlara öz mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün bütün şərait yaradılmışdır. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizin ümumtəhsil məktəblərində tədris Azərbaycan dili ilə yanaşı, rus və gürcü dillərində də aparılır. Bununla yanaşı, milli azlıqların sıx yaşadığı bölgələrdə onların öz ana dillərinin öyrənilməsi üçün müvafiq imkanlar yaradılmışdır.

Beləliklə, müasir cəmiyyətdə təhsil qabaqlama xarakteri daşıyır. O, gələcəyə, himanistləşdirilmə məqsədlərinə, insanların həyat keyfiyyətini artırmağa yönəldilib, sürətli tempdə inkişaf etməli, sosial fəaliyyətin digər sahələri ilə müqayisədə konservativ olmamalıdır. Sistemyaradıcı istiqamətlərin sabit inkişaf marağında təhsilin əsas dolğun istiqamətləri arasında həyat dəyərinin şərtlərinin aşkar edilməsi olmalıdır. Nəticədə, hər şey insan üçün, onun gələcəyi üçün, insanların ləyaqətli yaşaması üçün və biosfera kimi insan varlığının belə atributunun saxlanması üçün olunur.

**ƏDƏBİYYAT**

1. Abbasov A.N. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünasliq materiallarından istifadənin sistemi: Ped.elm.dok. ...dis. Bakı, 2005
3. X.H. Sultanlı. Tələbələrdə ekoloji mədəniyyətin formalaşdırılması: Monoqrafiya. Bakı: Mütərcim, 2015

# 50 YAŞLI ALİ TƏHSİL MƏBƏDİ - NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**Saleh Məhərrəmov,**
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi*

Azərbaycanın qədim elm, mədəniyyət və ictimai fikir mərkəzlərindən olan Naxçıvanda cəmiyyət həyatının inkişafında, iqtisadi-mədəni yüksəlişdə Naxçıvan Dövlət Universitetinin böyük yeri və rolu vardır. Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına 1967-ci ildə 3 ixtisas üzrə 102 nəfər tələbə qəbul olunmuşdur. Naxçıvan filialında birinci il cəmi 3 nəfər ştatda olan müəllim çalışırdı. 1972-ci ildə ADPİ-nin Naxçıvan filialının bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır.

Azərbaycan SSR Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli qərarı ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Dövlət Universitetinə çevrilmişdir. Müxtəlif illərdə Naxçıvan Dövlət Universitetinə tarix elmləri namizədi, dosent Əli Əliyev (1904-1997), coğrafiya elmləri namizədi, dosent Səfərəli Babayev (1923-2003), texnika elmləri doktoru, professor İsrafil Məmmədov (1924-1995), tarix elmləri doktoru, professor İsak Məmmədov (1925-2011), kimya elmləri doktoru, professor Qasım Hüseynov (1940), AMEA-nın həqiqi üzvü, akademik İsa Həbibbəyli (1949) rəhbərlik etmişlər.

Hazırda biologiya elmləri doktoru professor Saleh Məhərrəmov (1965) Naxçıvan Dövlət Universitetinin rektorudur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 12 iyun 2002-ci il tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir. Azərbaycan xalqının ümummil lideri Heydər Əliyev müxtəlif vaxtlarda (1974, 1992 və 1999-cu illərdə) 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İham Əliyev Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və Konservatoriyasının açılışında iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov universitetin inkişafına daim böyük qayğı göstərir. Hazırda Naxçıvan Dövlət Universitetində 12 fakültədə 58 ixtisas üzrə bakalavr, 43 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı həyata keçirilir. Ümumilikdə universitetdə 6 min nəfərə yaxın tələbə təhsil alır. Tələbələr sırasında 12 ölkədən 300 nəfərdən çox xarici vardır.

Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olan müəllimlər arasında akademik, elmlər doktoru və fəlsəfə doktorlarının sayı durmadan artır. Universitetdəki «Regionun inkişafı problemləri» laboratoriyasında qədim diyarın tarixi, mədəniyyəti və iqtisadiyyatı öyrənilir. Bu ali təhsil ocağında fəaliyyət göstərən «Heydər Əliyev Universiteti» müasir gəncliyin milli dövlətçilik və vətənpərvərlik ruhunda formalaşmasında mühüm əhəmiyyətə malikdir. Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet Xəstəxanası, Olimpiya idman mərkəzi, 2 stadion, Baytarlıq Təbabəti klinikası və müasir tipli Tələbə evi yerləşir. Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq tələbələr üçün 3 mərtəbəli sosial xidmət mərkəzi, müasir tipli universitet qonaq evi tikilərək xidmət üçün açılmışdır. Tədrisin təşkilində beynəlxalq təcrübənin öyrənilməsinə ciddi əhəmiyyət verən Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin tələbələri illərdən bəridir ki, Türkiyə Cümhuriyyətinin İzmit Kocaeli, Kayseri Ərciyəz, Ərzurum Atatürk, Elazığ Frat, Qars Qafqaz universitetlərinin, İran İslam Respublikasındakı Təbriz Tibb Universitetinin xəstəxanalarında təcrübə keçirlər.

Baytarlıq fakültəsinin müəllimləri və tələbələri Türkiyədəki Qars Qafqaz və Ərzurum Atatürk universitetlərinin, İran İslam Respublikasındakı Urmiya Universitetinin baytarlıq ixtisası sahəsindəki geniş imkanlardan səmərəli şəkildə istifadə edirlər. Mühəndis və memarlıq fakültəsinin Təbriz şəhərinin maşın-traktor zavodları, memarlıq şəbəkəsi ilə, Bələdiyyə və biologiya ixtisaslarının Mərənd şəhər bələdiyyəsi və balıqçılıq təsərrüfatı idarələri ilə əlaqələri elmin inkişafına və tədris prosesinin zənginləş-məsinə əhəmiyyətli töhfələr verir. Tələbələrimizin Şota Rustaveli adına Batumi Dövlət Universitetinin bazasında botanika, turizm və arxeologiya üzrə keçdikləri yay istehsalat təcrübəsi əlaqələrimizin regional müstəvidəki yeni imkanlarına işıq salır.

Universitetdə 3 internet mərkəzi, "Qeyrət" nəşriyyatı, Media mərkəzi, televiziya studiyası (UTV), «Elmi əsərlər» jurnalı, «Yenifikir» qəzeti, "Nuh çıxan radiosu" və bir neçə muzey fəaliyyət göstərir. Universitetin «Elmi əsərlər» jurnalı Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və beynəlxalq kod almışdır. Naxçıvan Dövlət Universitetində 100 MB gücəmalik Wi-Fi campus simsiz internet şəbəkəsindən istifadə olunur .Naxçıvan Dövlət Universiteti Amerika Birləşmiş Ştatları, İngiltərə, Çin, Rusiya, Fransa, Almaniya, İspaniya, Cənubi Koreya, Rusiya, Türkiyə, Misir Ərəb Respublikası, Pakistan, İran, Özbəkistan və digər ölkələrin ali məktəbləri ilə geniş əlaqələrə malikdir.

2014-cü ildə Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər təşkilatının (AKTAM) Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirdiyi "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsində **Naxçıvan Dövlət Universiteti 799 balla Azərbaycan Ali Təhsil Müəssisələri içərisində Birinci Yerə layiq görülmüşdür.**

Tədris prosesini Avropa standartları və Azərbaycan təhsil qanunvericiliyinə uyğun quran universitetdə 2015-2016-cı tədris ili daha yaddaqalan olmuşdur. Cənubi Koreyanın KOİKA şirkəti ilə birlikdə Naxçıvan Dövlət Universiteti üçün "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrakstrunun yaradılması" layihəsinin açılış mərasiminin keçirilməsi və Elektron Universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşmüşdür. Elektron təhsil, Onlayn Sənəd dövriyyəsi, Akademik İdarəetmə və s. kimi təhsilinin idarəedilməsi modellərini özündə birləşdirən Elektron Universitet nəinki təhsilin elektron vasitələrlə həyata keçirilməsini, eyni zamanda elektron imtahanları da əhatə edir.

Naxçıvan Dövlət Universitetinin kitabxanası ölkədə ayrıca korpusda yerləşən yeganə ali məktəb kitabxanasıdır. 200 minə yaxın kitabxana fondu olan kitabxanada "PROLİB" avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə sistemi vasitəsilə bu günədək 3500 adda 30.000 sayda kitabın elektron kataloqu yazılmış, 5000-dən artıq kitabın isə tammətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilmişdir. Yeni nəsil gəncliyin hərtərəfli inkişafını təmin etmək üçün Naxçıvan Dövlət Universitetində yaradılmış Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə turizm assosiasiyası, Tələbə İnformasiya Mərkəzi, Tələbə teatr və opera studiyaları, xor, vokal və rəqs qrupları, İdman klubu səmərəli fəaliyyət göstərir. Ali təhsil ocağının tələbə təşkilatları universitetdə tələbələrin yaradıcılıq axtarışlarının, bilik və bacarıqlarının, dünyagörüşünün, təşkilatçılıq qabiliyyətlərinin daha da inkişaf etdirmələrinə, asudə vaxtlarının səmərəli təşkilinə geniş imkan yaradır.

Naxçıvan Dövlət Universitetinin SİFE komandası Azərbaycan çempionu kimi ABŞ-ın Los-Angeles şəhərində və Malayziyada dünya birinciliyində iştirak etmişdir. Bundan başqa, universitetin hazırladığı «Arşın mal alan» operettası Rusiyanın Novosibirsk şəhərində, Türkiyə Cümhuriyyətinin Ərzurum, Samsun, Qars, Ərdəhan, Qara Dəniz Texniki Universitetlərində, Gürcüstan Respublikasının Axaltsixi Universitetində uğurla nümayiş etdirilmişdir. Ali təhsil ocağının futbol komandası ölkəmizin ali məktəblərinin birinciliyində çempionluq qazanaraq Azərbaycanı Ukraynada və Polşada təmsil etmişdir.

Beynəlxalq əlaqələrin daha da inkişaf etdirilməsində, elm və təhsil sahəsində qazandığı nailiyyətlərə görə Naxçıvan Dövlət Universiteti 2009-cu ildə Avropa Rektorlar Klubu tərəfindən «Minilliyin Universiteti» adına layiq görülmüşdür.

Naxçıvan Dövlət Universiteti Avropa Rektorlar Klubunun, Asiya Universitetlər Assosiasiyasının, Qara Dəniz Hövzəsi Universitetlər Birliyinin, Avrasiya İpək yolu Universitet Rektorları Cəmiyyətinin və Qafqaz Universitetlər Birliyinin üzvüdür. Beynəlxalq təşkilatlarla əlaqələr Naxçıvan Dövlət Universitetində tədris prosesində və elmi-tədqiqat işlərinin təşkilində, habelə idarəetmədə dünya təcrübəsindən yaradıcı şəkildə faydalanmağa imkan yaradır.

Naxçıvan Dövlət Universiteti TEMPUS proqramı üzrə 8 beynəlxalq layihənin iştirakçısıdır. Bundan başqa, Naxçıvan Dövlət Dövlət Universitetində Erasmus-Mundus proqramı əsasında tələbə mübadiləsi həyata keçirilir. İndiyədək 30-a yaxın tələbə bu mübadilə proqramı çərçivəsində Avropanın tanınmış universitetlərində təhsil almışlar.

İndiyədək Naxçıvan Dövlət Universitetinin 35 minə yaxın məzunu olmuşdur. Məzunlar arasında yüksək vəzifəli dövlət adamları, deputatlar, ali rütbəli hərbçilər, görkəmli elm xadimləri vardır.

Naxçıvan Dövlət Universitetinin 25 illik, 30 və 40 illik yubileyləri dövlət səviyyəsində qeyd olunmuşdur. Naxçıvan Dövlət Universiteti möhkəm milli əsaslara malik olan, dövlətçilik təmayüllü və dünyaya inteqrasiya etmiş müasir tipli ali məktəbdir. Dünya birlyində və ölkənin ali təhsil sistemində özünəməxsus yeri olan Naxçıvan Dövlət Universiteti daim yeniləşmək və inkişaf etmək istiqamətində tarixi yolunu davam etdirməkdədir.

## МЕСТО И РОЛЬ ДИСТАНЦИОННОГО КОНКУРСНОГО ДВИЖЕНИЯ ШКОЛЬНИКОВ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

**Юлия Александровна Нацкевич,**
*директор Центра дополнительного образования г. Омск, РФ*
E- mail: natzkevich@nic-snail.ru

В настоящее время в России на государственном уровне осуществляется поддержка одаренных школьников. Одной из наиболее эффективных форм работы по выявлению, развитию и поддержке одаренных детей является олимпиадное движение. Эволюция олимпиадного движения как формы поддержки одаренности и появление сети Интернет в образовательных учреждениях России привели к возникновению конце 90-х годов XX века дистанционного конкурсного движения, рассчитанного на школьника любого уровня способностей. Сегодня ДКДш находит применение не только как самостоятельное конкурсное направление, оно эффективно может быть использовано и в образовательном процессе: в урочной, внеурочной деятельности и для самообразования школьников.

Nowadays Russian Government supports gifted students at the state level. One of the most effective ways of identification, development and support of gifted students is subject Olympiad movement. The development of subject Olympiads as a form of support of gifted students and the advent of the Internet in the educational institutions of Russia in the late of 1990s led to the rise of the Distance Competitive Movement for students of any ability level. Today DCM is not only an independent educational competitive field; it can be used in education done either in the classroom, or outside of class hours, or for student's self-education.

**Ключевые слова:** дистанционное конкурсное движение школьников, дистанционные конкурсы, массовые дистанционные обучающие конкурсы.

Дистанционное конкурсное движение школьников выделилось из олимпиадного движения школьников, и на протяжении 20 лет развивается как самостоятельное направление. Сегодня в основе ДКДш лежит обучение. И конкурсы в формате МДОК (массовые дистанционные обучающие конкурсы) становятся определяющими будущий вектор развития ДКДш.

*Массовый дистанционный обучающий конкурс (далее, МДОК) - это дистанционный конкурс, удовлетворяющий следующим условиям:*

1. *В конкурсе участвует значительное количество детей.*
2. *Посредником между участником и организаторами конкурса является сайт - платформа для регистрации в конкурсе, получения заданий и информации об итогах участия.*
3. *Конкурсные задания направлены на получение нового знания в разных предметных областях.*
4. *Представляет собой соревнование в поиске и создании новых знаний через игровые технологии.*

Рассмотрим место дистанционного конкурсного движения в образовательном процессе. Существует большое количество определений понятия «образовательный процесс», все они обладают сходными чертами и содержанием. Следующее определение является общепризнанным и будет употребляться в данной статье:

*«Образовательный процесс - это совокупность учебно-воспитательного и самообразовательного процессов, направленная на решение задач образования, воспитания и развития личности в соответствии с государственным образовательным стандартом».*

Данное определение разбивает образовательный процесс на два взаимодополняющих процесса:

- учебно-воспитательный (педагогический);
- самоообразовательный.

Определим место дистанционного конкурсного движения в каждом из данных процессов в отдельности.

В соответствии с федеральным государственным образовательным стандартом основного (ФГОС) общего образования РФ основная образовательная программа, которая рассматривается как документ, определяющий учебно-воспитательный процесс, реализуется как через учебный план (урочная деятельность), так и через внеурочную деятельность. Урочная деятельность обучающихся регламентируется учебным планом и проходит в рамках урока. Внеурочная деятельность является дополнительной и позволяет педагогу индивидуализировать образовательный маршрут обучающегося. Возможности использования заданий дистанционных конкурсов в урочной деятельности представим в таблице (Таблица 1).

*Таблица 1. Возможности использования заданий дистанционных конкурсов в урочной деятельности*

| № | Цель использования заданий дистанционных конкурсов в урочной деятельности | Возможности заданий дистанционных конкурсов для достижения цели |
|---|---|---|
| **1** | Повышение мотивации обучающихся к теме занятия | Задания дистанционных конкурсов составляются в занимательной форме, которая помогает поддерживать интерес обучающихся к решению задания и, следовательно, к учебному предмету. Кроме того, в заданиях содержатся нестандартные факты по заявленной теме конкурса, которые не изучаются в школьном курсе.<br>Возможно использование:<br>• В начале урока перед сообщением темы урока<br>• В конце урока для повышения мотивации к теме следующего занятия |
| **2** | Обеспечение возможностей обучающихся самостоятельно осуществлять деятельность учения, ставить учебные цели, искать и использовать необходимые средства и способы их достижения | Задания дистанционных конкурсов составлены таким образом, что решение и ответ не лежат на поверхности. При решении, обучающемуся необходимо выполнить несколько мыслительных операций, в том числе самостоятельно определить учебные цели, средства и способы их достижения. |
| **3** | Обеспечение возможностей обучающихся контролировать и оценивать процесс и результаты деятельности | Процедура проведения дистанционного конкурса предполагает не только проверку решений участников, но и предоставление ответов на каждое задание после опубликования итогов конкурса. Обучающийся, выполнивший задание, получает возможность оценить результат своей деятельности по предоставленным ответам. |
| **4** | Предоставление дополнительных нестандартных заданий для обучающихся | Задания дистанционных конкурсов могут быть предложены для решения обучающимся в качестве дополнительных заданий по теме урока. |

Немаловажной составляющей учебно-воспитательного процесса является внеурочная деятельность. Именно внеурочная деятельность позволяет в наибольшей степени достигать метапредметных результатов. Возможности использования заданий дистанционных конкурсов во внеурочной деятельности представим в таблице (Таблица 2).

*Таблица 2. Возможности использования заданий дистанционных конкурсов во внеурочной деятельности*

| № | Цель использования заданий дистанционных конкурсов во внеурочной деятельности | Возможности заданий дистанционных конкурсов для достижения цели |
|---|---|---|
| 1 | Проведение внеклассного мероприятия | Каждый дистанционный конкурс является целостным мероприятием по школьному предмету и заявленной теме. В дистанционном конкурсе содержатся задания разной сложности, ориентированные на среднестатистического обучающегося. Кроме того, конкурсные работы проверяет независимая экспертиза. |
| 2 | Развитие одарённых обучающихся | Задания дистанционного конкурса являются не типовыми и предполагают творческий подход к решению. |
| 3 | Организация профессионального самоопределения обучающихся старших классов | Большой выбор дистанционных конкурсных заданий по всем школьным предметам даёт возможность будущему выпускнику попробовать свои силы в любой предметной области и получить объективную оценку своих возможностей. |
| 4 | Развитие креативного мышления обучающихся | Творческие (открытые) задания дистанционного конкурса составлены как открытые задачи и могут быть использованы в качестве исследовательских и изобретательских задач. ТРИЗ-педагогика говорит о том, что системное решение таких задач позволяет развивать креативное инновационное мышление. |
| 5 | Организация исследовательской и проектной деятельности | Решение творческого (открытого) задания может быть организовано как исследование или проект обучающегося. Кроме того, существуют дистанционные конкурсы, в рамках которого участнику необходимо провести исследование по предложенным пунктам и представить его результат. |

Наиболее эффективным можно назвать учебно-воспитательный процесс, построенный таким образом, что обучающийся является активным его участником. Для того, чтобы повысить уровень развития УУД и творческий потенциал учащихся, эффективным методом является интеграция урочной и внеурочной деятельности.

Образовательный процесс также содержит в себе элементы и самообразования. Самообразование это - образование, получаемое вне стен образовательных учреждений, с помощью самостоятельного изучения материала. Участие школьников в дистанционном конкурсе - это, в том числе, и возможность их самообразования, так как дистанционные конкурсы позволяют:

1. Выполнять задания дистанционного конкурса без привязки к местоположению участника и могут осуществляться в любом месте, где есть доступ к сети интернет, в том числе вне стен учебного заведения.
2. Выполнять задания дистанционного конкурса, самостоятельно осуществляя постановку учебных целей и самостоятельное определяя способы и средства их достижения.
3. Во время выполнения заданий дистанционного конкурса не только использовать школьные знания, но расширить и углубить знания по предмету за счет использования разнообразных источников.

*Итак, задания дистанционного мероприятия можно эффективно использовать в образовательном процессе: учебно-воспитательном (в урочной и внеурочной деятельности) и самообразовании.*

**ЛИТЕРАТУРА**

1. Иванов, Д.А. Определения основных понятий, содержащихся в ФГОС / Д.А.Иванов [Электронный ресурс] // Портал информационной поддержки руководителей образовательных учреждений. Режим доступа: http://www.menobr.ru/article/36129-opredeleniya-osnovnyh-ponyatiy-soderjashchihsya-v-fgos (дата обращения 07.08.2016).
2. Киселев, С.А. Особенности подготовки учеников к дистанционным олимпиадам как средство формирования умений работы с информацией [Электронный ресурс] / С.А. Киселев // Социальная сеть работников образования. Режим доступа:http://nsportal.ru/shkola/istoriya/library/2014/09/25/osobennosti-podgotovki-uchenikov-k-distantsionnym-olimpiadam-kak (дата обращения 10.09.2016).
3. Коджаспирова, Г.М. Педагогический словарь. М., 2005. – 94 с.

4. Кристинина, Е.И. Интеграция урочной и внеурочной деятельности в учебном процессе (из опыта работы) [Электронный ресурс] / Е.И.Кристинина // Педагогическое мастерство: материалы VI междунар. науч. конф. (г. Москва, июнь 2015 г.). — М.: Буки-Веди, 2015. — С.100-104. – Режим доступа: http://moluch.ru/conf/ped/archive/151/8132/ (дата обращения 12.09.2016).

5. Нацкевич Ю.А. Массовые дистанционные обучающие конкурсы (МДОК) – современный ресурс для самообразования школьников [Электронный ресурс] / Ю.А. Нацкевич // Московский международный салон образования. М., 2016. Режим доступа: http://2016.mmco-expo.ru/program/s/30485/?lang=ru (д

## AİLƏ TƏRBİYƏSİNİN HÜQUQİ ƏSASLARI

**Akif Abbasov,**

*pedaqogika üzrə elmlər doktoru, professor,*

*əməkdar müəllim*

E-mail: prof.akif@mail.ru

***Açar sözlər:*** *ailə tərbiyəsi, hüquqi əsaslar, Uşaq hüquqları konvensiyası, sərəncam, qanun, ailə hüququ, valideyn, uşaq*

***Ключевые слова:*** *семейное воспитание, юридические основы, конвенция о правах ребенка, постановление, закон, семейное право, родитель, ребенок*

***Key words:*** *family education, the legal basis, the Convention on the Rights of the Child, regulation, law, family law, parent, child*

Ailə cəmiyyətlə, dövlət və ictimai təşkilatlar, eləcə də müəssisələrlə sıx surətdə bağlıdır. Odur ki, o, dövlətin və ölkənin ictimai həyatında baş verən bütün dəyişikliklərə həssaslıqla yanaşır. Ailədaxili proseslər də, öz növbəsində, cəmiyyətə təsir edir. Ona görə də dövlət və cəmiyyətin daim ailəyə qayğı göstərməsi vacibdir. Respublikamızda bu baxımdan ailənin möhkəmləndirilməsi, maddi-rifah halının yaxşılaşdırılması üçün zəruri tədbirlər görülür.

Ailə tərbiyəsinin hüquqi əsasını ailə hüququ təşkil edir. Ailə hüququ isə Azərbaycan Respublikasının Konstitusiyasında, ailə, nikah, uşaq hüquqları və uşaqların mühafizəsi haqqında qanunvericilik və normativ sənədlərdə öz ifadəsini tapır. İlk növbədə Azərbaycan Respublikasının Konstitusiyası diqqət mərkəzində dayanmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında ailə tərbiyəsinin hüquqi əsaları Konstitusiyanın ayrı-ayrı maddələrinə və "Təhsil haqqında" qanuna söykənir. Dövlət təhsil sistemi vətəndaşların ümumi və peşə hazırlığını, onların mənəvi və fiziki inkişafını təmin edir.

Azərbaycan Respublikasının Konstitusiyası uşaqların tərbiyəsinə qayğı göstərməyi, onların təhsilinə və tərbiyəsinə məsuliyyətlə yanaşmağı, sağlamlıqlarını, istirahətini təmin etməyi, şəxsiyyətinə hörmət bəsləməyi və s. bir vəzifə olaraq valideynlərin üzərinə qoyur.

Ölkəmizin Əsas Qanununun "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddəsində deyilir: "I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir" (1).

"Təhlükəsiz yaşamaq hüququ" adlı 31-ci maddə bütün vətəndaşlara, o cümlədən ailəyə, ailə üzvlərinə və uşaqlara şamil edilir (I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. II. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır).

Nikah hüququ, təhsil hüququ, əmək hüququ və digər hüquqlar barədə eyni sözləri demək mümkündür.

Respublikamızda aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı ilə təminatı diqqət mərkəzindədir. Bu iş 2006-cı il iyulun 1-dən fəaliyyətə başlamış "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən həyata keçirilir. Sistemin fəaliyyətini yaxşılaşdırmaq üçün respublika Nazirlər Kabineti özünün 2006-cı il 2 fevral tarixli 32 nömrəli Qərarı ilə "Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları" və "Ailənin orta aylıq gəlirinin hesablanması Qaydası"nı təsdiq etmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə aztəminatlı ailələrə birdəfəlik yardımlar da göstərilir. Aztəminatlı ailələrin tam aktiv dövlət dəstəyi ilə təmin olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sosial Dəstək Fondu"nun yaradılması kimi mühüm bir məsələni qaldırıb.

Uşaqların ailədə tərbiyəsinin hüquqi əsasını təşkil edən sənədlərdən biri də “Azərbaycan Respublikasının Ailə Məcəlləsi”dir. 3-cü maddədə “Məcəllə”nin qarşısında dayanan vəzifələr öz əksini tapmışdır. Onların bir qismi uşaqlarla bağlıdır. Fikir verək: ailədə uşaqların ictimai tərbiyə ilə üzvi əlaqədar şəkildə vətənə sədaqət ruhunda tərbiyə edilməsi; ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi və hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi; ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması; uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi” (2).

Bu dövlət əhəmiyyətli mühüm sənəddə “Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ (maddə 49); “Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ” (maddə 50); “Uşağın müdafiə hüququ (maddə 51); “Uşaqların tərbiyəsi və təhsilində valideynlərin hüquq və vəzifələri” (maddə 58); “Uşaqların hüquq və mənafelərinin müdafiəsi sahəsində valideynlərin hüquq və vəzifələri” (maddə 59); “Valideynlik hüquqlarının həyata keçirilməsi” (maddə 60) və s. özünə yer almışdır.

Ölkəmizin Prezidenti 2 aprel 2002-ci il tarixdə "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının “Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültativ protokoluna qoşulmaq barəsində” Azərbaycan Respublikasının qanununu imzalamışdır. Həmin protokolla bağlı Milli Məclisimizin qərarında deyilir: “Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: Azərbaycan Respublikası "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokoluna qoşulsun” (3).

Həmin qanunun tələbləri belədir ki, uşaqlar cinsi və fiziki istismardan, uşaq alverindən qorunsunlar. Oxuyuruq: “M a d d ə 1 . İştirakçı dövlətlər, bu Protokolda nəzərdə tutulduğu kimi, uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasını qadağan edəcəklər. M a d d ə 2 . Bu Protokolun məqsədləri üçün: a) uşaq alveri uşağın hər hansı bir şəxs, yaxud şəxslər qrupu tərəfindən mükafat və ya hər hansı digər haqq müqabilində başqa bir şəxsə yaxud şəxslər qrupuna verilməsi vasitəsi olan hər hansı akt və ya əqd deməkdir; b) uşaq fahişəliyi ... uşaqdan seksual xarakterli fəaliyyətdə istifadə olunması deməkdir; c) uşaq pornoqrafiyası real və ya modelləşdirilmiş aşkar cinsi hərəkətlər edən uşağın hər hansı vasitələrlə istənilən təsviri, yaxud əsasən uşağın cinsi orqanlarının başlıca olaraq seksual məqsədlər üçün istənilən təsviri deməkdir” (3).

Azərbaycan Respublikası Prezidentinin hələ 14 yanvar 1998-ci il tarixli Fərmanına əsasən ölkəmizdə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə öz mövcudluğu dövründə bu istiqamətdə mövcud problemlərin həlli ilə bağlı məqsədyönlü fəaliyyət göstərmişdir. Fəqət ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli şəkildə kompleks həllinə olan ehtiyac vahid dövlət idarəetmə orqanının formalaşdırılmasını zərurətə çevirdi. Beləliklə, ölkə Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitə ailə, qadın və uşaq problemləri üzrə işlərlə bağlı dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Komitənin vəzifələrinə daxildir: 1. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq; 2. Dövlətin ailə siyasətini həyata keçirmək; qaçqın və məcburi köçkün qadınların, uşaqların, aztəminatlı ailələrin sosial problemlərini öyrənmək və onların həlli üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaq; ailə başçısını itirmiş şəhid ailələrinin, tək anaların, xüsusilə əlil qadınların və uşaqların problemlərinin dövlət orqanları tərəfindən həlli məqsədi ilə müvafiq vəsatətlər qaldırmaq” (4) və s.

Öz vəzifələrini yerinə yetirmək məqsədilə komitənin bir sıra hüquqları vardır. Onlara diqqət yetirək: “1. Sağlam ana, sağlam uşaq prinsiplərini həyata keçirmək, uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması istiqamətində hüquqi biliklərin öyrənilməsini təmin etmək; 2. Dövlət qadın siyasətinin həyata keçirilməsi, uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi, onların hüquqlarının və qanuni mənafelərinin qorunması, sosial müdafiəsi istiqamətində normativ hüquqi aktlarla müəyyən olunmuş vəzifələrin strukturuna daxil olan bölmələr tərəfindən yerinə yetirilməsinə nəzarət etmək, aidiyyəti dövlət orqanlarından həmin istiqamətdə olan vəzifələrin icra vəziyyəti ilə bağlı məlumatlar almaq (4) və s.

Uşaqların ailədə tərbiyəsinin hüquqi əsaslarını bundan başqa beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanmış və 1990-cı ildə qəbul olunmuş bir sıra sənədlər təşkil edir. Bu sahədə “Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin olunması haqqında ümumdünya Bəyannaməsi” və bu “Bəyannamənin həyata keçirilməsi üzrə fəaliyyət planı”nı qeyd etmək mümkündür.

Qəbul olunub ki, uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafından ötrü o, ailə mühitində yaşamalı, xoşbəxtlik, məhəbbət və anlama atmosferində böyüdülməlidir. Yalnız belə şərait uşaqlar müstəqil həyata hazırlana və ümumbəşəri ideallar ruhunda tərbiyə oluna bilər.

Bu sənədlərdə uşağın hüquqlarının, sağlamlığının müdafiəsi, ərzaq və qida ilə təmin olunması üzrə tədbirlər öz əksini tapıb. Həmin beynəlxalq sənədlər də ailə tərbiyəsindən, valideynlərdən ötrü əsas olmalıdır.

Uşaqların həyatına və sağlamlığına təminat verən sənədlər sırasında BMT Baş Məclisinin 44-cü sessiyasında 1989-cu il noyabrın 20-də qəbul edilmiş *"Uşaq hüquqları haqqında beynəlxalq konvensiya"* mühüm yer tutur. Dövlət və valideynlər həmin sənədlərə istinadən ailədə elə şərait yaratmalıdırlar ki, uşaqlar bir şəxsiyyət və vətəndaş kimi özlərini rahat hiss etsinlər, azad yaradıcı həyat sürsünlər. Ata-analar bu yolla öz övladlarının azadlıqlarını, şərəf və ləyaqətlərini qorumuş olurlar.

Valideynlər "Uşaq hüquqları haqqında beynəlxalq Konvensiya"nın həyata keçirilməsinin xüsusən üç tələbini yerinə yetirməlidirlər: 1. Onun əsas maddələrindən xəbərdar olmalı; 2. Sənəddə öz ifadəsini tapmış hüquqları başa düşməli; 3. Onların reallaşması üçün çalışmalıdırlar.

Konvensiya ailə tərbiyəsindəki avtoritarizmdən uşaq olmağı tələb edir, uşaqlarla qarşılıqlı münasibətləri yüksək mənəvi-hüquqi əsasda qurmağı nəzərdə tutur. Uşağın fikrinə, baxışlarına və şəxsiyyətinə hörmətlə yanaşmaq təkcə ailədə ümumbəşəri mədəniyyət normaları kimi deyil, həm də hüquq normaları kimi qəbul olunmalıdır. "Uşaq hüquqları haqqında beynəlxalq Konvensiya"da deyilir:

"Maddə 2: 1. İştirakçı dövlətlər uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidələrindən, milli, etnik və ya sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğum şəraitindən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən, onların yurisdiksiyası daxilində hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onları təmin edirlər.

Maddə 3: 1. Uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir.

2. İştirakçı dövlətlər uşağın valideynlərinin, qəyyumlarının və ya qanuna görə onun üçün məsuliyyət daşıyan digər şəxslərin hüquq və vəzifələrini nəzərə alaraq, uşağı onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə təmin etməyi öhdələrinə götürür.

3. İştirakçı dövlətlər təmin edirlər ki, uşaqların qayğısına qalmaq və ya müdafiəsi üçün cavabdeh olan idarələr, xidmətlər və orqanlar səlahiyyətli orqanların qoyduqları normalara, o cümlədən təhlükəsizlik və səhiyyə, onların işçi heyətinin say tərkibi və yararlığı, habelə mötəbər nəzarət baxımından cavab versinlər" (5).

Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, BMT "Uşaq hüquqları haqqında beynəlxalq konvensiya"ın tələblərinə və digər beynəlxalq hüquq normalarına uyğun olaraq respublikamızda "Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edilmişdir (6). Bu qanun ölkəmizdə uşaqların hüquqlarına və azadlıqlarına, uşaqlarla bağlı dövlət siyasətinin başlıca prinsiplərinə, onların müdafiəsi istiqamətində dövlət orqanlarının, başqa hüquqi və fiziki şəxslərin vəzifələrinə aydınlıq gətirir.

Məsələn, "Qanun"unu "Uşaqların hüquq bərabərliyi" adlanan 6-cı maddəsində deyilir: "Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir. Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

Maddə 14. Hər bir uşağın vicdan, fikir və söz azadlığı vardır. Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar" (6).

Ailədə qarşılıqlı münasibətlər heç də böyüklərin tələbləri, uşaqların isə kor-koranə tabe olması əsasında deyil, şəxsiyyətlərin bərabərhüquqluluğu, hüququn subyektlərinin eyni hüquqlu olması prinsipinə əsasən qurulmalıdır.

Ata-analar çalışmalıdırlar ki, uşaq şəxsiyyətinin formalaşdırılması üzrə işin məramı qanuna, başqa insanların hüquqlarına hörmətli münasibət tərbiyə olunması yönəlsin.

Ailədə uşaqların tərbiyəsinin əsas prinsiplərindən biri öz uşaqlarına münasibətdə ata və analara eyni hüquq və vəzifələrin verilməsidir. Bu, qanunvericilikdə öz əksini tapıb. Bu prinsip uşaqların mənafelərinin və maraqlarının gözlənilməsi üçün ən yaxşı şəraiti təmin edir, uşaqları valideyn

xudpəsəndliyindən müdafiə etməyə təminat verir, obyektiv, ağıllı qərarların qəbul olunması üçün baza rolunu oynayır.

Valideynlər yetkinlik yaşına çatmamış uşaqlarını, həmçinin əmək qabiliyyəti olmayan və köməyə ehtiyacı olan uşaqlarını saxlamağa borcludurlar. Uşaqların maddi baxımdan təminatı da ata-ananın mənəvi borcudur. Uşaqlara münasibətdə - onların saxlanması və tərbiyəsi kimi borclarını yerinə yetirməyən valideynlərə qarşı sərt tədbirlər nəzərdə tutulur. Valideynlər uşaqlarla amansız rəftar etdikləri, onların tərbiyəsini və təhsilini öz başına buraxdıqları, bununla övladlarına mənəvi və fiziki zərbə vurduqları təqdirdə onlar valideynlik hüquqlarından məhrum oluna bilərlər. Azərbaycan Respublikasının "Ailə Məcəlləsi"nin 64-cü maddəsində bu barədə deyilir: " 1. öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; 2. alimenti qəsdən ödəmədikdə; 3. heç bir üzrlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən götürməkdən imtina etdikdə; 4. valideynlik hüquqlarından sui-istifadə etdikdə; 5. uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə; 6. xroniki alkoqol və narkomaniya xəstəsidirsə; 7. uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə" valideynlik hüququndan məhrum edilirlər (7).

Belə hallarda uşaqlar dövlət müəssisələrində tərbiyə alırlar.

Bütün yuxarıda deyilənlərdən belə bir qənaətə gəlirik ki, ailə tərbiyəsinin hüquqi əsaslarının aydın təsəvvür edilməsi valideynlərin tərbiyə işlərini düzgün qurmalarına yardımçı olur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009.
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. https://www.google.az/search?client=opera&q=Azərbaycan+Respublikasının+Ailə+Məcəlləsi.+Bakı%3A&sourceid=opera&ie=UTF-8&oe=UTF-8
3. "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültativ protokoluna qoşulmaq barəsində" Azərbaycan Respublikasının qanununu (2 aprel 2002-ci il tarixli).
4. az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_Ailə,_Qadın_və_Uşaq_Problemləri_üzrə_Dövlət_Komitəsi
5. Uşaq hüquqları haqqında beynəlxalq Konvensiya. http://www.miqrasiya. nakhchivan. az/ru/images/stories/konvensiyalar/7.pdf
6. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8,
7. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. http://www.e-qanun.az/code/10


## PEDAQOJİ TƏDQİQATLARA VERİLƏN TƏLƏBLƏR TƏHSİL SİYASƏTİNİN PRİORİTETİ KİMİ


**İntiqam Cəbrayılov,**

*pedaqogika üzrə elmlər doktoru, professor*

E-mail: intiqamcebrayilov@mail.ru



***Açar sözlər:*** *pedaqoji tədqiqat, tədqiqatçı, tələb, təhsil, siyasət, prioritet, keyfiyyət, struktur, amil, təlim, proses, müəllim, məktəb, problem*

***Ключевые слова***: *педагогическое исследование, исследователь, требование, образование, политика, приоритеты, качество, структура, фактор, обучение, процесс, учитель, школа, проблема*

***Key words:*** *pedagogical research, researcher, demand, education, policy, priorities, quality, structure, factor, training, process, teacher, school, problem*


Araşdırmalar göstərir ki, təhsil siyasətinin prioritetləri sırasında elmi tədqiqatlar, tədqiqat işlərinin aparılmasına verilən tələblər mühüm yer tutur. Bu baxımdan pedaqoji tədqiqatlar da, o cümlədən bu tədqiqatlardan alınan elmi nəticələr də təhsil siyasətinin aparılmasında xüsusi rol oynayır.

Həm fiziki, həm də zehni əmək tələb edən elmi-pedaqoji tədqiqatın aparılması olduqca məsuliyyətli bir prosesdir. Çünki tədqiqat işləri ilk növbədə cəmiyyətin, millətin və dövlətin maraqlarına uyğun aparılmalı, alınan nəticələr milli və bəşəri dəyərlər zəminində inkişafa xidmət etməlidir. Ona görə də tədqiqat və tədqiqatçılar qarşısında müəyyən tələblər qoyulur. Məhz həmin tələblər çərçivəsində tədqiqat işlərinin aparılması məqsədəuyğun ciddi elmi nəticələrin əldə olunmasına geniş imkanlar yaradır.

Tədqiqatın keyfiyyətinə verilən tələblər aşağıdakı şəkildə ifadə oluna bilər:

1) tədqiqatın məzmun tamlığı – mövzunun düzgün seçilməsi, həcmi, genişliyi, zənginliyi; 2) tədqiqatın dəqiqliyi – heç bir səhvə yol vermədən nəticəyə yaxınlaşmaq, tədqiqat mövzusunun baza anlayışlarını təşkil edən faktları, mühüm müddəaları dərk edərək seçə bilmək; 3) tədqiqatın ədalətliliyi – tədqiqatda iştirak edən müxtəlif tərəflərlə ünsiyyət yaratmaq, bütün məsələlərin həllində düzgün mövqedə olmaq bacarığı; 4) tədqiqatın dərinliyi – aparılan tədqiqat işinin mahiyyətini, səbəb və nəticə əlaqələrini araşdırmaq; 5) tədqiqatın şüurluluğu – istifadə edilən faktların, müddəaların düzgünlüyünə əmin olmaq, onları arqumentləşdirmək; 6) tədqiqatın elmiliyi – tədqiqat mövzusunu təhlil etmək, elmi əsaslara istinad edərək tətbiqə hazırlaşmaq; 7) tədqiqatın ümumiləşdirilməsi – tədqiqat mövzularını bloklar üzrə üzləşdirmək, prosesdə inkişaf və dinamikanı götürmək; 8)tədqiqat nəticələrinin praktikada istifadə olunması – tövsiyələrin hazırlanması, tətbiq üçün üsul və priyomları seçə bilmək bacarığının olması.

Pedaqoji tədqiqatların strukturu, eyni zamanda onun təşkili ölkədə aparılan digər tədqiqat xüsusiyyətlərini də özündə ehtiva edir. Tədqiqat prosesində aşağıdakı pedaqoji, psixoloji, sosioloji, fizioloji, təbii və genetik amillər nəzərə alınır:

Tədqiqatda nəzərə alınan pedaqoji amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- maddi-texniki baza, idarəçiliyin təşkili, məktəbəqədər müəssisədən gələn uşaqların hazırlıq səviyyəsi, davamiyyətin səviyyəsi, təlim proqramlarının keyfiyyəti, məktəbdənkənar müəssisələrin fəaliyyəti, şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji problemləri, dərslik və dərs vəsaitləri, metodik vəsaitlərlə təminat, məktəbin ictimaiyyətlə əlaqəsi və valideynlərin maarifləndirilməsi.

Nəzərə alınması zəruri hesab edilən fizioloji amillər isə aşağıdakılardır:

- uşağın qeyri-normal inkişafı, görmənin, eşitmənin zəif olması və s.

Bunlarla yanaşı uşağın məktəbəhazırlığı, fərdi xüsusiyyətlər, yaş xüsusiyyətlərilə bağlı dəyişikliklər, qarşılıqlı münasibətlər (şagird-şagird, şagird-müəllim və müəllim-valideyn, pedaqoji kollektiv münasibətlərinin öyrənilməsi və s.) kimi psixoloji amillər və digər məsələlərin nəzərə alınması vacibdir.

Ən vacib məsələlərdən biri tədqiqatçıların şəxsi keyfiyyətlərinə verilən tələblərin nəzərə alınmasıdır. Bu baxımdan elmi-pedaqoji araşdırmalar aparan tədqiqatçıların şəxsi keyfiyyətlərinə də xüsusi tələblər qoyulur. Belə ki, tədqiqatçının dünyagörüşünə malik olması, tədqiq edəcəyi sahəni mükəmməl bilməsi, obyektiv və ədalətli olması, şəxsi hisslərinə qapılmaması, ünsiyyət qurmağı bacarması, tədqiqat apardığı zaman proseslərə müdaxilə etməməsi, tədqiqat nəticələrini elmi cəhətdən əsaslandırması və digər zəruri keyfiyyətləri özündə əks etdirməsi vacibdir.

Təcrübə göstərir ki, qeyd olunan məsələlərin nəzərə alınması həqiqətən, elmi tədqiqat işlərinin, əldə olunan elmi nəticələrin nəzəri və praktik baxımdan əhəmiyyətini xeyli artırır. Bu da cəmiyyətin real tələbatlarının ödənilməsinə, təhsil siyasəti sahəsində yeni uğurların qazanılmasına zəmin yaradır.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Pedaqogika (müxtəlif konspekt və sxemlər). Bakı: Mütərcim, 2007.
2. Cəbrayılov İ.H. Magistr proqramı üzrə kadr hazırlığı problemləri: Metodik vəsait. Bakı: BQU-nun nəşri, 2013.
3. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı: Mütərcim, 2007.
4. Hüseynzadə R.L. Magistr dissertasiyası: Metodik vəsait. Bakı: Nurlan, 2009.
5. Kazımov N.M. Tətbiqi pedaqogika. Bakı: Çaşıoğlu, 2010.
6. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr , 2009.
7. Kərimov Y.Ş. Pedaqoji eksperiment // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2007, № 2
8. Kərimov Y.Ş. Pedaqoji eksperiment // ARTPİ-nin Elmi əsərləri, 2007, № 1
9. Qəşəmoğlu Ə. Sosioloji araşdırma aparanlara kömək: Metodik vəsait. Bakı: Tərəqqi və Demokratiya Fondu, 2001.
10. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogikanın metodologiyası və elmi tədqiqat metodları // Elmi tədqiqatlar, 2002, № 1
11. Глас Дж., Стенли Дж. Статистические методы в педагогике и психологии. М.: Прогресс, 1976.

# ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО КАК ЭЛЕМЕНТ БРЕНДИНГА ТЕРРИТОРИИ

**Доктор Оскар Раифович-Рябов**
*Институт Интеллектуальной Интеграции, Вена, Австрия*
office@rbs-ifie.at,
**Елена Мерзон,**
*кандидат пед.наук, доцент кафедры педагогики*
*Елабужский Институт. Казанский Федеральный Университет*
Elena.Merzon@kpfu.ru

В современном мире любая территория конкурирует с другими территориями за привлечение потребителей и ресурсов. В условиях глобализации, постоянного роста конкуренции маркетинг территории, её имидж и бренд выходят на первый план при выборе территории различными целевыми группами как объекта удовлетворения своих потребностей. В этой связи все большее число территориальных образований целенаправленно формирует собственный бренд, который обуславливает экономическую, инвестиционную и туристическую привлекательность территории.

Бренд территории – это идея, объединяющая жителей и служащая основой для общения города с внешним миром. Составляющими бренда являются такие сферы, как спорт, экология, качество городского управления, проектная культура, архитектура, мифология (история города), мероприятия-символы, наука, ландшафт, комфортность среды. Образовательные пространства территорий, сами по себе, конечно, могут быть автономны по содержанию и формам. Но если они территориально обустроены в виде образовательных объектов, визуальных форм архитектуры и дизайна, способов привлечения населения к образовательным программам и мероприятиям, то становятся полноценными элементами бренда.

Так же как и обучающие пространства, бренд оказывает определенное воздействие на жителей территорий. Мы выделяем четыре вида восприятия бренда по показателям образовательного пространства:

– Функциональное восприятие. Это неповторимые характеристики территории, а также восприятие полезности образовательных объектов и их ассоциация с брендом;

– Ментальное восприятие. Это самовосприятие и самоидентичность жителей, а также готовность к преобразованиям и участию в образовательных проектах территорий;

– Духовное восприятие. Имеет отношение к общей системе, частью которой является ценность человека и смыслов жизни;

– Социальное восприятие. Это способность отождествлять себя с конкретной общественной группой. Оно отражает отношения между участниками образовательных мероприятий и той общественной группой, принадлежать к которой они мотивированы.

Общими характеристиками проектов, продвигающих бренд территорий через формирование системного, цикличного и законченного образовательного пространства, является горизонтальная сетевая структура взаимодействия и социальное партнерство между всеми участниками образовательной интеллектуальной интеграции. Общим становится поэлементный «узловой» подход к организации интеграционной образовательной сети. Собственно так и формируется интеллектуальный потенциал и бренд территории.

Архитектура бренда территории строится на основе структур территориальных суббрендов: структуры геральдических символов территории, инвестиционных брендов (брендов свободных экономических и инновационных зон, наукоградов, технопарков); брендов исторических личностей и/или «людей паблисити»; брендов памятников культуры и архитектуры; корпоративных и товарных брендов; брендов социальных организаций (вузов, театров, библиотек); шоу-брендов (парков, кино, ресторанов, торговых центров); брендов событий (выставок, семинаров, конференции, салонов, саммитов, олимпиад, конкурсов, чемпионатов).

Таким образом, с одной стороны, базируясь на ресурсах территории, бренд является частью общего потенциала территории. С другой стороны, укрепление бренда территории за счет активного использования маркетингового инструментария и маркетинговой политики по привлечению потребителей может увеличить эффективность использования ресурсов территории или территориального потенциала.

Можно заключить, что бренд территории выполняет важную роль в развитии привлекательности территории для ее потенциальных потребителей за счет формирования

дополнительной потребительской ценности, которая, в свою очередь, создает дополнительную экономическую стоимость территории.

В условиях, когда все большее число территорий мира включается в конкурентную гонку, поиск уникальных элементов брендирования приобретает особую остроту. Использование образовательных качеств территории может иметь актуальную уникальность.

Кроме того, в означенный период происходит переосмысление роли образования в общественной жизни. Преобразования в политике, экономике, культуре, в труде, в личной жизни вызвали необходимость радикальной перестройки системы образования, его целей, содержания, форм, методов, средств и всей его организации в соответствии с новыми требованиями. Происходят изменения в структуре занятости населения, возрастает доля умственного труда в производстве, уменьшается потребность общества в малоквалифицированном труде, остро встает вопрос о поиске дополнительных источников, внутренних резервов экономического роста территорий. Одним из таких источников является уровень образования населения. Повышения квалификационных потенциалов населения становится фактором долгосрочного устойчивого экономического развития. Уровень образования, профессионализм, обучаемость и креативность работника, способность и готовность к самовыражению, уважение культурного и языкового разнообразия становятся наиболее ценными качествами человека. Однако, не все страны в условиях перехода к экономике знаний могут реализовать общую доступность образования. Причин много, территориальная недоступность, финансовая и др.

Еще одним поводом пересмотреть роль образования в современном обществе стала миграция. Миграционные процессы приобрели глобальные масштабы, охватив различные сферы общественной жизнедеятельности. Процессы миграции вызывают разрушение традиционных национальных и культурных связей в обществе. Причиной является прежде всего социальная дезадаптация мигрантов. Проблемы адаптации вызваны тем, что мигранты социализировались в другой этно- и социокультурной среде, они не обрели привычки, нормы общения, типичные модели поведения, которые характерны принимающей стороне. Мигранты ранее имели иные социальные статусы, выполняли иные социальные роли. Нерешенные проблемы культурной и этнической самоидентификации вызывают эмоциональное напряжение. А оно в свою очередь вызывает нежелание и неспособность принимать ценности культуры другого этноса, его язык. Вопросы толерантности, безопасности и доверия в ситуации вынужденного соседства различных культурных диаспор в системе единого городского организма являются одними из самых сложных с точки зрения организации территорий.

Возникает необходимость в интегральном исследовании функции образования, развития и организации элементов окружающей среды с целью обеспечения равенства возможностей для каждого жителя в возможности интеллектуального роста и творческого потенциала независимо от места проживания, пола, нации, языка, социального статуса, психофизиологических возможностей. Формирование нравственных, интеллектуальных, культурных и эстетических качеств населения.

В связи со всем вышеизложенным, мы предлагаем по-новому взглянуть на возможность создания специальных образовательных пространств на той или иной территории, которые помогали бы людям приобретать новые знания и умения, а так же формировать навыки социального поведения, воздействовать на поведение человека в обществе. Под образовательными пространствами нами подразумеваются пространства, предназначенные для развития интеллектуальных, социально-нравственных и поведенческих навыков разных групп населения в условиях мультикультурного общества.

По сути, речь идет об особой миссии территории – обучать человека в различных контекстах знания.

Наш интерес к образовательному пространству соответствует современным направлениям развития «образовательного общества». Современное образование отделяется от понятия формальных институтов и переходит из них в социокультурную интегральную среду для обучающих территорий. Примером тому могут служить города Японии (Какелава), Англии (Уоррингон), Австрии (Вена), Германии (Мюнхен, Берлин), Ирландии (Лимерик), России (Москва, Казань, Иркутск), Финляндии (Хельсинки), Франции (Тулуза) и т.д. Система подобных диад может иметь цикличность и законченность, если следовать стратегии, что город способен обучать и формировать собственное образовательное пространство как элемент собственного бренда.

**Список библиографических ссылок**

1. Рябов О.Р. Образовательные пространства города как элемент брендинга территории // Известия Известия КГАСУ, 2016, № 3, с. 56-61
2. Рябов О.Р. Сохранение культурного и образовательного наследия в качестве элемента брендирования территорий// Материалы IV-й Международной научно-практической конференции «Культурное наследие в XXI веке: сохранение, использование, популяризация». Казань, 2016, с. 197-201
3. Сибгатуллина И.Ф. Психологическая безопасность, культура и качество жизни в мегаполисе. Казань: Новая школа, 2011, 160 с.
4. The Brand of Territory: Theoretical Approaches to Creation and Promotion // World Applied Sciences Journal, 2013, 26, p. 529-532
5. Riabov O. Educational urban environment // MULTIDIMENZIONALITA východisko rozvoja súčasnej špeciálnej pedagogiky, zborník vedeckých príspevkov. Bratislava, 2015, p. 367-373
6. Концептуальные подходы в управлении развитием территории / И.Р. Гафуров, М.Р. Сафиуллин // Маркетинг: теория и практика: сб. матер. Всерос. науч.-практ. конф. Казань, 2005, с. 14-18
7. Инвестиционная привлекательность региона / И.Р. Гафуров // Управление риском. – 2005, № 1, с. 2-

## СТАНОВЛЕНИЕ НОВОЙ СИСТЕМЫ ШКОЛЬНОГО ОБРАЗОВАНИЯ В РОССИИ

**Сергеевна Анна Соловьева,**
*кандидат филологических наук,*
*учитель английского языка*
*МАОУ гимназии № 99;*
*Екатеринбург, Россия*
E-mail: anna_soloveva87@mail.ru

***Ключевые слова:*** *образование, Россия, профессиональный стандарт, ФГОС, метапредметность*
***Key words****: education, Russia, professional standard, GEF metasubject*

Общепризнано, что человек становится способным к созидательной деятельности в определённой сфере труда и творчества, к общению с другими членами общества посредством многообразных форм личностных и деловых контактов, основанных на общечеловеческих социальных и нравственных нормах, только благодаря образованию.

В настоящее время в России идет становление новой системы образования. В связи с этим требуется поиск таких методов и форм работы, которые смогли бы способствовать повышению качества и уровня педагогической компетентности учителей и педагогического коллектива в целом, а также оказанию реальной помощи педагогам в развитии их мастерства как комплекса профессиональных умений и знаний.

Нет иного пути, кроме образования, чтобы подготовить индивида к самой высокой, по словам Максима Горького, должности на земле – быть человеком. Без образования и воспитания невозможно обеспечить и профессиональную подготовку человека, дать ему навыки в определённой отрасли труда.

Одной из первых ступеней в образовательном и воспитательном процессах является школа. Безусловно, школа испытывает на себе влияние общего социального климата, политических, правовых, экономических, культурных, экологических и других воздействий. Она как относительно автономная система может пассивно приспосабливаться к тем или иным изменениям или, напротив, активно влиять на окружающую её среду.

В настоящее время кризисное состояние образования, о чем активно говорят политические деятели, представители общественности и учителя, стало особенно заметным на фоне социально-экономических и политических перемен, происходящих в России. В общественном сознании созрело понимание того, что образование может и должно сыграть ключевую роль в решении перспективного развития личности, социальных институтов, общества в целом. Официальным признанием этой роли стало законодательное провозглашение сферы образования в нашей стране в качестве приоритетной.

Одним из результатов интенсивной проработки теоретических и практических вопросов приведения образовательной сферы в соответствие с требованиями времени, с новыми задачами, которые ставит перед школой XXI век, стала разработка общеобразовательных стандартов.

В соответствии с Федеральным законом № 309 от 5 декабря 2007 года Федеральные государственные образовательные стандарты (ФГОС) обеспечивают: 1) единство образовательного пространства Российской Федерации; 2) преемственность основных образовательных программ начального общего, основного общего, среднего (полного) общего, начального профессионального, среднего профессионального и высшего профессионального образования.

Федеральным законом от 1 декабря 2007 года N 309-ФЗ была утверждена новая структура государственного образовательного стандарта. Теперь каждый стандарт включает 3 вида требований: 1) требования к структуре основных образовательных программ, в том числе требования к соотношению частей основной образовательной программы и их объёму, а также к соотношению обязательной части основной образовательной программы и части, формируемой участниками образовательного процесса;2) требования к условиям реализации основных образовательных программ, в том числе кадровым, финансовым, материально-техническим и иным условиям; 3) требования к результатам освоения основных образовательных программ.

Учитывая сложность и актуальность задач, которые сегодня предстоит решать учителю в условиях введения ФГОС, различными издательствами предлагаются материалы, способствующие более глубокому осмыслению и реализации в практической деятельности идей и концептуальных положений федерального государственного образовательного стандарта общего образования.

В Федеральной целевой программе развития образования на 2016-2020 годы (утвержденной 23 мая 2015 г. № 497) сказано, что «необходимым условием внедрения нового содержания и технологий общего образования являются компетентные педагогические и руководящие кадры. Поэтому в рамках задач данной программы будут осуществлены меры по повышению профессионального уровня педагогических работников общеобразовательных организаций, в том числе обеспечено сопровождение внедрения профессиональных стандартов педагога и руководителя, апробированы современные модели педагогического лидерства, эффективного преподавания».

В 2013 году был утверждён «Профессиональный стандарт педагогов (воспитателей, учителей) в сфере дошкольного, начального общего, основного общего и среднего общего образования». С 1 января 2017 года профессиональный стандарт педагога вступит в силу.

Согласно Профессиональному стандарту, педагогическая эффективность это — достижение требований ФГОС (различных уровней образования и категорий детей) посредством реализации педагогической деятельности по проектированию и реализации образовательного процесса, а также по проектированию и реализации основных общеобразовательных программ.

Сохранение фундаментального научного ядра, которым всегда отличалось российское образование, поворот от школы передачи знаний к школе, проектирующей творческие способности личности, возврат школе воспитательной функции, утраченной за последние 20 лет, преемственность подходов и принципов в построении стандартов начальной, основной и старшей школы – вот основные положительные сдвиги, как показывает практика последних 4-5 лет, которые внес ФГОС в деятельность школы.

Наиболее актуальным является положение ФГОС о деятельностном характере образования и четко сформулированные требования к результатам обучения в виде личностных, метапредметных и предметных результатов.

Термины «метапредмет», «метапредметность» имеют глубокие исторические корни, впервые об этих понятиях речь вел еще Аристотель. В отечественной педагогике метапредметный подход получил развитие в конце XX века в работах Ю.В. Громыко, А.В. Хуторского и, наконец, в 2008 году был заявлен как один из ориентиров новых образовательных стандартов.

Установленные стандартом новые требования к результатам обучающихся, вызывают необходимость в изменении содержания обучения на основе принципов метапредметности как условия достижения высокого качества образования. Учитель сегодня становится конструктом новых педагогических ситуаций, новых заданий, направленных на использование обобщенных способов деятельности и создание учащимися собственных продуктов в освоении знаний.

## REFERENCES

1. Аксенова Н. И. Метапредметное содержание образовательных стандартов/ Н. И. Аксенова // Педагогика: традиции и инновации: материалы междунар. заоч. науч. конф. (г. Челябинск, октябрь 2011 г.). Т. I. — Челябинск: Два комсомольца, 2011.
2. Официальный ресурс Министерства образования и науки Российской Федерации. [Электронный ресурс]. Режим доступа: http://минобрнауки.рф.
3.Официальный сайт ФГОС [Электронный ресурс].
Режим доступа: http://standart.edu.ru/catalog.aspx?CatalogId=3386.
4. Постановление Правительства РФ от 23 мая 2015 года N 497 «О Федеральной целевой программе развития образования на 2016-2020 годы». Режим доступа: http://www.consultant.ru
5. Профессиональный стандарт. Педагог (педагогическая деятельность в дошкольном, начальном общем, основном общем, среднем общем образовании). Утвержден приказом Министерства труда и социальной защиты Российской Федерации от 18 октября 2013 г. № 544н, г. Москва. Режим доступа: http://www.rg.ru/2013/12/18/pedag0g-d0k.html.
6. Федеральный государственный стандарт начального общего образования /М-во образования и науки Рос. Федерации. М.: Просвещение, 2010.

# MÜASİR ELMİ YANAŞMALAR BAXIMINDAN ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLİN VƏTƏNDAŞ YETİŞDİRMƏK İMKANLARI

**Mirhəsən Eminov**,
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail:mirhesenemin@yahoo.com

***Açar sözlər:*** *insan kapitalı, şəxsiyyətyönümlü təhsil, əməkdaşlıq, yaxşı nümunə, təhsil sistemi, əxlaq normaları, milli-mənəvi dəyərlər*

***Ключевые слова:*** *человеческий капитал, личностно-ориентированное образование, сотрудничество, хороший пример, система образования, моральные нормы, национально-нравственные ценности*

***Key words:*** *human capital, person-oriented education, cooperation, a good example, education system, moral standards, national and spiritual values*

Yeni təhsil sisteminin formalaşdırılmasının başlıca məqsədini Ulu öndər Heydər Əliyev belə ifadə etmişdir: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır"[2, 1]. "Təhsil qanunu"nda da bu fikir xüsusi müddəa kimi təsbit olunmuşdur.

Vətəndaş və şəxsiyyət yetişdirmək üçün pedaqoji prosesdə təhsilin şəxsiyyətyönlü prinsipindən istifadə olunmalıdır. Şəxsiyyətyönlü təhsil tədris prosesində hər bir öyrənənə onun qabiliyyətinə, meylinə, bacarıqlarına, maraqlarına, subyektiv təcrübəsinə, fəaliyyətinə, təhsilinə, qazandığı bilik və bacarıqları reallaşdıra bilmək səriştəsinə və davranışına uyğun olaraq təlim verilməsini nəzərdə tutur. Şəxsiyyətyönlülük uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. Həyatda ona lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə olaraq qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlanmalıdır. Təlimin məzmununda və həyata keçirilməsində bu cəhətlərin nəzərə alınması vacib sayılır. İndi ümumtəhsil məktəblərində həyata keçirilən kurikulum islahatının mühüm vəzifələrdən biri şəxsiyyətyönlü təhsil sisteminə nail olmaqdır.

Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmunun yaradılması müasir tələblərə uyğun həyata keçirilərsə, şagirdlərin şəxsiyyət kimi inkişafı və həyatda səmərəli fəaliyyət göstərməsi üçün vacib olan

yüksək səviyyədə bilik, bacarıq, dəyər, keyfiyyət və vərdişlər, bütövlükdə kompetensiyalar formalaşdırmaq mümkün olar. Şagirdlərin müxtəlif fənlər və kompüter savadı üzrə əsas kompetensiyalara müvafiq olaraq tənqidi təfəkkür, yaradıcı yanaşma, təşəbbüskarlıq, problemlərin həlli, qərarların qəbul edilməsi kimi metokompetensiyalara malik olması onların şəxsiyyətyönlü ruhda təhsilinin səviyyəsindən asılıdır. Fikrimizcə, şəxsiyyətyönlü təhsilin əsas vəzifəsi şəxsiyyətin imkanlarının zaman və məkan daxilində düzgün qiymətləndirilməsindən və təhsilin fərdiləşdirilməsindən ibarət olmalıdır. Belə ki, şəxsiyyətyönlülük ilk növbədə öyrənənlərə bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. İnformasiya bolluğu, texnologiyaların çoxçeşidliliyi şəraitində şəxsiyyətin inkişaf tendensiyalarına və təhsilə münasibət dəyişir. Yəni öyrənən təlim zamanı bilik, bacarıq və müvafiq səriştələr əldə etməklə yanaşı, informasiya cəmiyyətinin fəal üzvünə çevrilməli, kommunikativ bacarıqlara yiyələnməli, ən başlıcası, təbiətin ona bəxş etdiyi yaradıcılıq imkanlarını inkişaf etdirməlidir. Təlim prosesində istinad edilən (şəxsiyyətyönlülük, diferansiallaşdırma və fərdiləşdirmə, idrak fəallığı, əyanilik, əməkdaşlıq, nəticəyönlülük) prinsiplərin həyata keçirilməsi ilk növbədə müəllimin insani keyfiyyətlərindən - humanistlik, xeyirxahlıq, dözümlülük, düzlük, ədalətlilik, obyektivlik, əliaçıqlıq, insanlara hörmət göstərmək, özünə tənqidi münasibət, yüksək mədəniyyətli olmasından, eləcə də müəllimin mühüm peşə keyfiyyətlərindən - əməksevərliyindən, intizamından, məsuliyyətli olmasından, qarşıya məqsəd qoymaq və ona nail olmaq yolunu seçməyi bacarmasından, mütəşəkkil, qətiyyətli, əzmkar olmasından, öz peşə səviyyəsini, pedaqoji ustalığını daima inkişaf etdirməsindən, şagirdlərə yanaşma tərzindən, əməyinin keyfiyyətini sistemli və planauyğun yüksəltməsindən və səriştəli olmasından asılıdır. Nə qədər müasir texnologiyalardan istifadə olunsa da, müəllim amili pedaqoji prosesdə əvəzolunmaz bir qüvvə kimi qalmaqdadır [2, 3 ]. Psixoloqların fikrincə, müəllim təlim prosesində yüksək nəticə əldə etmək üçün əvvəlcə dərs dediyi şagirdlərin fərdi xüsusiyyətlərini psixoloji cəhətdən öyrənməli, onları nəzərə almaqla bu və ya digər pedaqoji üsullardan yaradıcı şəkildə istifadə etməlidir [4, 78].

Təlimin müvəffəqiyyəti, şagird şəxsiyyətinin formalaşması, bütövlükdə təhsilin uğur qazanması şagirdlərin müəllimə olan münasibətindən çox asılıdır. Şəxsiyyətyönlü təhsilin həyata keçirilməsində valideynlərin də təhsil səviyyəsinin yüksək olması çağdaş dövrün verdiyi imkanların düzgün qiymətləndirilməsində və nəticə olaraq övladlarının gələcək həyatının dövrün tələblərinə cavab verəcək səviyyədə formalaşmasında böyük rol oynayır. Məsələn, ananın təhsil səviyyəsi yüksək olarsa, uşaqlara qulluğun, onların təlim-tərbiyəsinin və qidalanmasının keyfiyyəti yaxşılaşar, onların təlimlə bağlı problemləri vaxtında və düzgün həll olunar və s.

Bu gün hər bir valideyn, müəllim və bütövlükdə bütün maarif işçiləri təlim-tərbiyəsi ilə məşğul olduqları hər bir öyrənənin fərdi xüsusiyyətlərini diqqətlə öyrənməli, onların qabiliyyətlərinə uyğun peşə və yaxud ixtisas seçmələrinə köməklik göstərməlidirlər. Öyrənənlərin təhsilinə belə yanaşılarsa yüksək keyfiyyətli, dərin və hərtərəfli biliyə, mədəniyyətə və mütərəqqi dünyagörüşünə malik gələcəyin dəyərli vətəndaşlarını və şəxsiyyətlərini yetişdirmək olar. Çünki, hər hansı bir dövlətin, xalqın gələcəyi həmin dövlətin gənclərinin təhsil səviyyəsi ilə şərtlənir .

Bütün bunlar deməyə əsas verir ki, çağdaş zamanımızda milli dəyərlərə malik vətəndaş formalaşdırmağın yolu şəxsiyyətyönlü təhsildən keçir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, s. 26
2. “Azərbaycan müəllimi” qəz., 2016, 3 sentyabr
3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Dərslik. Bakı: Çinar-Çap, 2002.
5. Motilal Sharma. Role of the youth in promoting peace. Conference on "Building Sustainable Peace and Democracy, 5-10 November 2000, Phnom Penh, Kingdom of Cambodia

# БИЛИНГВАЛЬНОЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ КАК ПУТЬ К ФОРМИРОВАНИЮ «ЧЕЛОВЕКА МИРА»

**Кудрявцева Екатерина Львовна,**
*PhD (кандидат. пед. наук)*
*Международный методсовет по многоязычию и межкультурной коммуникации*
*Карлсруэ-Гюстро, Германия*
E-mail: info@bilingual-online.net
**Салимова Дания Абузаровна,**
*доктор филолог. наук, профессор*
*Казанский федеральний университет*
*Елабуга, Россия*
E-mail: daniya.salimova@mail.ru
**Шершун Светлана Евгеньевна,**
MA Project Business manager
*ITC Professional Development*
*Вееризе, Эстония*
E-mail: *shershun_sveta@mail.ru*

.

***Ключевые слова***: *билингвальное образование, обучение длинною в жизнь, русский как иностранный, русский как другой родной язык (херитажный язык), русский как неродной язык, дву- и многоязычие, модульные учебно-методические пособия, интеграция*

***Key words:*** *bilingual education, training long in life, Russian as foreign, Russian as other native language (heritage language), Russian as nonnative language, two-and multilingualism, modular educational and methodical grants, integration*

В начале статьи нам кажется необходимым напомнить основные различия между языковым и билингвальным образованием:

- билингвальное образование направлено на формирование системной межкультурной коммуникативной компетенции во всех ее составляющих (я-, социо-, медиа-, этно- и интеркультурная и -лингвальная компетенции как единое целое) [1]; тогда как целеполагание языкового образования находится в сфере языковой (лингво-) компетенции;




Илл. 1: Состав коммуникативной компетенции в поликультурном многоязычном сообществе (не вкл. лингвокомпетенция как «оперативная», «инструментальная», а не смысловая, содержательная)

- билингвальное образование является междисциплинарным и пронизывает все предметные области [4, 2]; языковое же - сосредоточено в области преподавания и изучения иностранного языка;

- в рамках билингвального образования идет погружение (метод иммерсии) в общение на языке в рамках соответствующей культуры; в языковом образовании идет изучение языка, «грамматикализование»;

- билингвальное образование предполагает наличие в одной аудитории учащихся с разным уровнем владения языком, разной образовательной историей (естественные билингвы, благоприобретенное двуязычие, учащиеся с опытом и без опыта освоения и изучения др. языков); для языкового образования необходима гомогенность аудитории;

- билингвальное образование нацелено на всестороннее развитие личности, успешно активно агирующей и реагирующий в поликультурном и полилингвальном сообществе [5]; языковое образование ориентировано на людей только временно и ненадолго покидающих «зону комфорта» и рассматривающих межкультурную коммуникацию с позиции пользователя.

Из всего сказанного выше ясно, что билингвальное образование практически противопоставлено языковому обучению (термин «языковое образование» кажется нам неверным, не отражающим сущности описываемого явления). Наиболее полная на сегодняшний день система билингвального образования дана в CLIL.

| **Критерии различения** | **Билингвальное образование** | **Языковое образование** |
|---|---|---|
| Целеполагание | Быть способным на само-выражение в рамках данной этнолингвокультуры | Овладение языком на определенном уровне лингвокомпетенции (для решения профзадач) |
| Задачи | Обучаться и самореаизо-вываться на двух языках во взаимодействии двух более или менее разнозначных культур | Овладеть языком и познакомиться с иной культурой |
| Язык как | Средство самовыражения, самоопределения и получе-ния образования/ инфор-мации | Изучаемый предмет |
| Самоопределение ч/з язык | Да, как представителя данной этнокультуры, диаспоры… | Нет |
| Педагогическое значение | Интеграция языка и содержания образования | Явное изучение языка |

Илл. 2: Различия между билингвальным и языковым образованием

Какие требования выдвигаются билингвальным образованием к аудитории (от детского сада, школы и вуза до центров дополнительного образования)?

- принцип дидактической культуросообразности;

- принцип проблемно-поисковых и проблемных форматов обучения (например, в технологии «перевернутого класса»);

- принцип приоритета образовательного сотрудничества педагога и учащегося и самообразования;

- принцип интегративности и интерактивности в междисциплинарном моделировании поликультурного образовательного пространства;

- принцип дидактического содружества традиционной и интернет-педагогики;

- принцип учёта образовательных прав личности при моделировании педагогической культурной среды;

- принцип индивидуального подхода с учетом всех факторов, могущих оказать позитивное воздействие на образовательный процесс или негативно повлиять на него (например, специфики родной этнолингвокультуры учащихся при изучении и обучении иностранному языку).

Основа билингвального образования – это этноориентированный подход к обучению языку как неродному (другому родному) и воспитанию билингвальной личности с детского возраста, в школе и развитие данной системы для вуза. Три опоры т.о.:

- Язык как устойчивый показатель этноса. Но этнос более изменчив, нежели структура языка. Однако, язык – живой организм, отражающий (во временной лупе) культурные, социальные и др. изменения.

- Взаимоотношения языка и культуры по В. фон Гумбольту: «Язык – это хранилище народного духа, объединенная духовная энергия народа, чудесным образом запечатленная в

определенных звуках... Ни одно понятие не живет вне языка, определение человеком предмета одновременно определяет самого человека».

- Язык формирует мировоззрение носителя, менталитет, национальный характер, идеологию (гипотеза Э. Сепира и Б. Уорфа)

Только если носитель языка одновременно является носителем культуры, то языковые знаки приобретают способность выполнять функцию знаков культуры и тем самым служат орудием представления основных установок культуры (Е.М. Верещагин, В.Г. Костомаров. В.В. Воробьев).

Вывод для нас: Необходимо обучать детей языкам исключительно с учетом этнокультур их носителей как родных и только через культуру (традиции, обряды...) [1, 2, 4]

Что нужно предпринять для преобразования существующей системы образования в билингвальную?

1) Реализовать как в юридическом (разработка правовых норм, стандартов и пр.), так и в практическом (подготовка и переподготовка кадров) плане систему образования как преемственную от дошкольного через школьное (гимназическое, с распределением учащихся, не ориентированных на высшее образование самое позднее после 8 класса в профтехобразование) к вузовскому звену; с учетом разветвленной и общедоступной системы дополнительного и самообразования (неформального образования «длинною в жизнь»). Т.о. билингвальное образование будет осуществляться в «треугольнике взаимной интеграционной сохранности» [5] учащегося и общества и допускать т.о. регулярное согласование индивидуальных компетенций первого с потребностями последнего.

2) Учитывать в юридическом (облегчение системы приема на работу и обучение) и практическом (обеспечение аутентичного для данного этноса бытового контента) плане необходимость участия в качестве педагогов, менеджеров и т.д. в билингвальной системе образования граждан иных, нежели Азербайджан государств; а также поликультурный контингент самих учащихся, стремящихся к сохранению и возрождению своей этнокультуры. Только путем интеграции структур, содержания и исполнителей системы европейского билингвального образования в систему образования Азербайджана возможно ее обогащение и конкурентоспособность ее выпускников в мире [6].




Илл. 6: Интеграция как основа и результат внедрения системы билингвального образования

3) Глобализация образования, ускорение темпов и объемов информационного контента, рост роли IT-составляющей и передача около 60% образования в сферу неформального и самообразования (Болонской процесс), - все это требует раннего овладения детьми аспектами интеркультурной медиа-компетенции. Для педагогов это означает отказ от классической классной системы обучения и переход к использованию новых технологий: «перевернутого класса», проектной деятельности как основы занятия, геймификации обучения, междисциплинарного подхода к объектам и явлениям осваиваемой действительности, практикоориентированного образования с ведущей ролью учащегося, а не педагога (тьютора); не говоря уже об активном

продвинутом использовании IT-платформ (расширения образовательного пространства в моделируемый совместно с учащимися онлайн-класс Moodle, Google...) [2, 3].




Илл. 7: Лестница самоактуализации личности в процессе успешного билингвального (само)образования

4) Не последнюю роль играет и необходимость рамочных программ, обеспечиваемых модульными УМК [2]. Что такое модульность, например, дидактического материала, можно увидеть на примере инновативных игротеки «Дети мира» или интерактивного «Календаря-портфолио дошкольника». Это наличие индивидуальных для каждой возрастной и целевой группы блоков работы с одним и тем же визуальным, текстовым... контентом, завершающихся различными результатами и имеющими в качестве одного из эффектов креативизацию, деклиширование сознания ученика. Такие модульные пособия могут быть расширены и дополнены самими пользователями (так, игротека «Дети мира» за полгода внедрения в разных странах мира обрела психологические, командообразовательные, социологический и линвокультурный модули, созданные ее пользователями с соответствующей профориентацией).

Еще одна особенность инновационных УМК для билингвального образования: они не переводятся с языка на язык, а взаимодополняются; содержательно, формально и визуально адаптируются к этнокультуре носителей каждого из языков как родного. В противном случае (при переводе контента с языка на язык без этнолингвокультурной адаптации) не срабатывает метод иммерсии (погружения в культуру через регулярное политематическое общение на языке), необходимый для реализации в т.ч. самообразования.




Илл. 8: Состав образовательной самокомпетенции (60% в общем объеме билингвального образования)

Можно было бы упомянуть о необходимости носителей языка и культуры как родных в качестве педагогов различных дисциплин; о роли тандем-партнерств учащихся в онлайн- и

оффлайн-режиме; о важности выхода из «зоны комфорта» как для учеников, так и для педагогов за счет реализации программ академической мобильности и т.д. Но мы думаем, что уже данный перечень будет способствовать осознанию системы билингвального образования как сущностей для формирования би- и интерлингвокультурной личности человека XXIго столетия – как «человека мира» [7, 8].




Илл. 9: Пазловая структура билингвальной личности (красным цветом – «зоны внимания» для педагога и родителей; зеленым цветом – «зоны потенциала» для образовательной деятельности билингва)

Главное – помнить и реализовывать в педагогической практике, что билингвальная и полилингвальная личность – не просто владение двумя и более языками, а иной тип мировосприятия и самореализации в мобильном, глобальном поликультурном мире (при котором языки – всего лишь инструменты, а не самоцель).

**ЛИТЕРАТУРА**

1. Зеленина Т.И., Салимова Д.А., Кудрявцева Е.Л. Использование сказок при освоении родного и изучении иностранных языков в дошкольном и школьном возрасте// Интерпретация текста: лингвистический, литературоведческий и методический аспекты VIII Международная науч. конф.: сб. ст.. под ред. Г. Д. Ахметовой. 2015. С. 146-149.
2. Кудрявцева Е., Берсенева М.С. Учебно-методические комплексы для изучения русского языка и культуры России в поликультурной аудитории// Русский язык как неродной: новое в теории и методике. Материалы IV международной научно-методической конференции. 2015. С. 49-68.
3. Кудрявцева Е.Л. Диалог культур на основе анализа и интерпретации м/ф «Контакт» (1978, режиссер В.И. Тарасов) на продвинутом этапе обучения русскому языку и культуроведению России// Русский язык как неродной: новое в теории и методике материалы IV международной научно-методической конференции. 2015. С. 256-265.
4. Кудрявцева Е.Л. Проект «Великие русские иностранцы» как средство реализации личностно-развивающего образования// Муниципальное образование: инновации и эксперимент. 2016. № 6. С. 28-30.
5. Кудрявцева Е.Л., Салимова Д. Неформальное образование в системе «треугольника» взаимной интеграционной сохранности дву- и многоязычных учащихся// Актуальные проблемы изучения и преподавания РКИ в вузе в условиях интернационализации образования. Материалы II Международного семинара, посвященного 15-летию академического сотрудничества Тверского государственного университета с университетами Финляндии. Министерство образования и науки Российской Федерации Федеральное государственное бюджетное образовательное учреждение «Тверской государственный университет». Тверь, 2015. С. 348-355.
6. Кудрявцева Е.Л., Салимова Д.А. Методические и геополитические статусы русского языка: русский как родной, неродной, один из родных и иностранный// Вестник Центра международного образования Московского государственного университета. Филология. Культурология. Педагогика. Методика. 2015. № 4. С. 130-138.
7. Мартинкова А.А., Кудрявцева Е.Л. Интернационализация vs. национализация: тенденция к национализации в эпоху глобализации (на материале чешского и русского языков)// И.А. Бодуэн де Куртенэ

и мировая лингвистика Международная конференция (V Бодуэновские чтения): труды и материалы. Под общей редакцией К.Р. Галиуллина, Е.А. Горобец, Г.А. Николаева. 2015. С. 186-188.

8. Мартинкова А.А., Кудрявцева Е.Л. Реализация процессов лингвистической интернационализации в русскоязычной билингвальной среде// Жанр. Стиль. Образ. Актуальные вопросы современной филологии. Межвузовский сборник статей с международным участием. Киров, 2016. С. 156-161.

## MULTİKULTURAL TƏHSİLƏ KEÇİDİN BƏZİ MƏSƏLƏLƏRİ

**İradə Əmirəliyeva,**
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail:amiraliyeva_i@mail.ru

***Açar sözlər:*** *qloballaşma, multikulturalizm, multikultural təhsil, təhsil sistemi, ali təhsil*
***Ключевые слова:*** *глобализация, мультикультурализм, мультикультурное образование, система образования, высшее образование*
***Key words:*** *globalization, multiculturalism, multicultural education, education system,higher education*

Bütün dünyada multikultural təhsilə keçmək aktual məsələ kimi qarşıda durur.

Bu gün dünya təhsil təcrübəsində iki tendensiyanın formalaşdığını əminliklə söyləmək mümkündür. Bir tərəfdən, xalqların həyatında təhsilin rolu durmadan artır, digər tərəfdən isə - təhsildə və onun strukturlarında böhran müşahidə olunur. Bir sıra ölkələrdə multikultural proseslərin təsiri altında yaranan yeni təhsil tipinə keçid prosesi gedir. Bununla bağlı keyfiyyət baxımından yeni sistemin – multi kultural təhsil sisteminin fəaliyyətinin və inkişafının əsaslarının, qanunauyğunluqlarının öyrənilməsinə yönəldilmiş tədqiqatlar intensiv şəkildə inkişaf edir.

Bununla yanaşı, cəmiyyətin bütün sahələrini bu və ya digər şəkildə əhatə edən qloballaşma proseslərinə baxmayaraq, heç də hər bir ölkə aktiv mövqe tutmağa, dünya təhsil bazarına inteqrasiya etməyə çalışmır. Belə bir sual yaranır: əgər bir sıra ölkələr tərəfindən təhsilin yeni növünün – multimədəni təhsil sisteminin strukturlaşdırılmasına münasibətdə get-gedə daha çox laqeydliyin göstərilməsi müşahidə olunursa, ali təhsil sistemi ilə nə baş verəcəkdir. Bu laqeydliyin əsas səbəbləri nədən ibarətdir və yaranmış vəziyyətdən çıxış yolları hansılardır? Axı qloballaşmadan bəhs edərkən, biz bu və ya digər şəkildə, keçmişə qayıdışı olmayan və qlobal dəyişiklikləri özündə ehtiva edən prosesi nəzərdə tuturuq.

Bu hadisənin mahiyyətinin dərk edilməsində doğru vurğulanan aksentlərdən yalnız onun mənfi cəhətlərinin deyil, həm də müsbət cəhətlərinin dərk edilməsi asılıdır. Qloballaşmanın yaradıcı proses rolunda çıxış etdiyi hədlər çərçivəsində onun nüfuz dərəcəsini keyfiyyət baxımından qiymətləndirmək çox vacibdir. Lakin qeyd etmək lazımdır ki, qloballaşma ümummilli səviyyəli problemləri həyati vacib problemlər səviyyəsinə çıxarmışdır. Axı o, ictimai həyatın milli və multimədəni tərəflərinə əhəmiyyətli dərəcədə toxunmuş və cəmiyyətin beynəlmiləlləşdirilməsi səviyyəsinin daimi artımını müəyyən etmişdir.

Bu baxımdan təhsildə qloballaşmaya sistemlərin zorla yaxınlaşdırmasına əsaslanan biliklərin universallaşdırılması prosesi kimi deyil, daha çox nailiyyətlərin mənimsənilməsi prosesi kimi baxmaq lazımdır. İnkişaf edən multikulturalizm və təkmilləşdirmə şərtlərində sistemin yaradılması üçün ali məktəblər koordinasiya mərkəzi rolunu oynayır.

Lakin formalaşan müasir vəziyyət aşağıdakı şəkildə ifadə oluna biləcək bir sıra problemlərlə xarakterizə olunur:

1. Elmin müxtəlif səviyyəli inkişafının nəticəsində multimədəni təhsil sisteminin şərhində müxtəlif traktovkaların mövcudluğu.

2. Müxtəlif ölkələrdə multimədəni təhsil sisteminin işlənib hazırlanması probleminin əhəmiyyətli dərəcədə fərqləndirilməsi. Yəqin ki, hər bir ölkə bu problemin həll edilməsində müxtəlif dərəcədə maraqlıdır, ona görə də əsas çətinliklərdən biri bütün ölkələrin bu məsələnin həll edilməsində səfərbər olmasıdır.

3. Multimədəni təhsil sisteminin işlənib hazırlanması üçün ölkələr arasında elmi biliklərin inteqrasiyasının qeyri-qənaətbəxş səviyyəsi.

4. Multimədəni təhsil sahəsində ali peşə məktəbinin məqsədyönlü hazırlanması sisteminin olmaması.

Bununla əlaqədar milli sistemlərin müqayisəsinin zəruri olduğu meyarları ayıraq və əsas problemləri müəyyən edək:

1. Nəsillərin mədəni dəyərlərinin və mənəvi ideallarının tarixi varisliyinin həyata keçirilməsi; milli mədəniyyətin qorunub saxlanması, yayılması və inkişaf etdirilməsi; xalqların tarixi və mədəni irsinə hörmətlə (ehtiramla) yanaşmağın tərbiyə edilməsi. Bu problemin həll edilməsi zamanı vahid dəyərlər sisteminə hər bir ölkədə fərdi baxışın olması və ali məktəbin bu problemin həllinə hazır olması hesabına vahid dəyərlər sisteminin yaradılması meyarlarını müəyyən etmək lazımdır.

2. Vətəndaş cəmiyyəti şərtlərində hüquqi, demokratik dövlətin sosiallaşa bilən, şəxsiyyətin hüquq və azadlıqlarına hörmət edən, yüksək mənəviyyata malik olan və milli və dini tolerantlıq göstərən, digər xalqların dillərinə, ənənələrinə və mədəniyyətinə hörmət bəsləyən vətəndaşları, ölkədə vətənpərvər insanları tərbiyə etmək üçün şəraitin yaradılması. Bununla bağlı hər bir ölkədə vətənpərvərlik tərbiyəsi sistemlərinin təhlilinin aparılması və ümumi və fərqli cəhətlərin müəyyən edilməsi lazımdır.

3. Dünya mədəniyyətinə, ətrafdakı insanlara hörmətli münasibətin formalaşdırılması, bəşəriyyətin yaşaması, onun təhlükəsizliyi və davamlı inkişafı üçün şəxsi məsuliyyət hissinin tərbiyə edilməsi. Müxtəlif cəmiyyətlər arasında multimədəni münasibətlərin formalaşdırılması sisteminin işlənib hazırlanması istiqamətində sabit inkişaf sisteminin yaradılması və onun əsas meyarlarının müəyyən edilməsi haqqında məsələ bu və ya digər şəkildə meydana gəlir.

4. Cəmiyyətin informatlaşması və yeni elmi yanaşmaların inkişafı şərtlərində peşəkar inkişafa və peşəkar hərəkətliliyə malik ola bilən yüksək səviyyədə bilikli insanların və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması. Görünür ki, köhnə pedaqoji elmin tendensiyalarına istiqamətlənmə yeni növ ali məktəbi – “multikultural” ali təhsil müəssisəsini yaratmağa imkan vermir.

5. Dünyanın bir bütün şəklində anlaşılması və müasir elmi dünya görüşünün, etnoslararası münasibətlər mədəniyyətinin inkişaf etdirilməsi üçün imkanların formalaşması çərçivəsində müqayisə edilən ölkədə bu problemin həll edilməsi zamanı inteqrasiya mexanizmlərindən istifadə edilməsi haqqında məsələlər aydınlaşdırılmamış şəkildə qalmaqdadır.

6. Təhsilin insanın bütün həyatı boyunca fasiləsizliyi və qabaqlayıcı xarakter daşıması. Bu zaman meydana çıxan problemdən ən başlıcası – təlim-tərbiyə prosesinin bütün mərhələlərində multimədəni təhsilin həyata keçirilməsi üçün varisliyin təşkil edilməsidir.

Meydana gələn sualların əhəmiyyətli sayda olması miltimədəni təhsil sisteminin yaradılması prosesini ləngidən bir sıra problemlərin həll edilməməsini göstərir: aksioloji xarakterli (daxili və xarici, milli və millətlərarası dəyərlər), mental-elmi xarakterli (sistemin yeni elmi yanaşmalara müvafiqliyi) və texnoloji xarakterli (müasir elmin tendensiyalarının nəzərə alınması ilə pedaqoji instrumentarinin yaradılması) problemlər.

Lakin yaranmış vəziyyətdə, multimədəni təhsilin bir sıra ölkələr üçün “əfsanə” olaraq qaldığı bir zamanda, hər bir insan cəmiyyətinin dəyərlərinin təhlil edilməsinə müvafiq olaraq, müasir elmin tendensiyalarının nəzərə alınması ilə vahid texnoloji pedaqoji instrumentarinin tapılması haqqında məsələlər birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu, multimədəni təhsil sisteminin işlənib hazırlanması məqsədinin həyata keçirilməsi üçün ölkələrdə əməkdaşlığa marağın yaradılması səbəb olmalıdır.

## ƏDƏBİYYAT

1. Байденко В. И. Болонский процесс: структурная реформа высшего образования Европы. М.: Исследовательский центр проблем качества подготовки специалистов; Российский новый университет,2002.

2. Понарина Н. Н. Глобализация высшего образования и проблемы интернационализации образовательных систем // Общество, социология, психология, педагогика. М.: Изд-во ХОРС. 2012, № 3

# TƏDRİS LÜĞƏTİNİN MİKROSTRUKTURUNA DAİR

**Qurban Qurbanlı,**
*Naxçıvan Dövlət Universitetinin dekanı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
E-mail:qurbanliqurban1@gmail.com

***Açar sözlər:*** *leksikoqrafiya nəzəriyyəsi, lüğət, lüğət məqaləsi, lüğətin mikrostruturu; nəzəri, praktik, parametrik və mətni yanaşmalar*

***Ключевые слова:*** *теория лексикографии, словарь, микроструктура словаря, словарная статья, структура, практический подход, теоретический подход, параметрический подход, текстуальный подход*

***Key words:*** *lexicogrphy theory, dictionary, dictionary article, microstructure of a dictionary, theoretical, practical, parametrical and text approaches*

Rusiya leksikoqrafiyasında lüğət məqaləsinin strukturnun öyrənilməsi təcrübəsi göstərir ki, bu sahədə müxtəlif istiqamətlər geniş yayılmışdır. 1. XX əsrin 70-ci illərində Rusiya dilçiliyində lüğət məqaləsinin nəzəri tədqiqatında yeni istiqamətlər meydana çıxmışdır. Bir sıra müəlliflər lüğət məqaləsini dildə söz kimi mürəkkəb linqvistik obyektin mövcudluğunun xüsusiyyətlərindən irəli gələn leksikoqrafik təsvirin nəzəri vəzifələri nöqteyi-nəzərdən baxılır. Dil və nitq qarşılaşdırılmasından çıxış edən P. N. Denisov belə hesab edir ki, lüğət məqaləsinin universal strukturu özündə dil və nitq əlamətlərini ehtiva edir. Birinci hissədə sözün formal və semantik xarakteristikası, o cümlədən, sintaqmatika ( söz ətrafı əlaqələr) və paradiqamatika (mənaca yaxın və əks sözlər) verilir. İkinci hissə isə sözün işlədilməsi kontekstlərindən ibarət olur (3, 28). N. Y. Şvedova da dil və nitqin analoji qarşılaşdırılmasına işarə edir ki, bu da sözün mərkəzəqaçma və mərkəzdənqaçma potensiallarının əsasında durur. Alim lüğət məqaləsini nəzərə almaqla morfoloji-semantik parametrlər və sintaktik nümunələri fərqləndirilir (6, 8). 2. Rusiyadakı praktik istiqamət XX əsrin 50-ci illərindən intensiv inkişaf etdirilir ki, bu da həmin dövr linqvistikası qarşısında qoyulmuş Qərbin leksikoqrafiya təcrübəsinin öyrənilməsi vəzifəsi ilə əlaqədar idi. Burada lüğət məqaləsi strukturunun informativ mövqedən öyrənilməsi aparıcı olmuşdur. Bu aspektdən bəzi tədqiqatçılar lüğət məqaləsində beş zona ayırırdılar. Bu, 1) təsvir olunan leksikoqrafik vahidin ümumi statusu ( lüğət məqaləsinə giriş), 2) morfoloji, 3) semantik , 4) sintaktik və 5) leksik-sintaktik məlumatlar zonalarıdır. Hər bir zona bölmələrinə və alt bölmələrinə ayrılır. Belə bir strukturun çatışmazlığı, fikrimizcə , strukturun ilkin beş zonaya ayrılması və onların qarşılıqlı əlaqəsinin təsviri üçün əsasların mövcud olmamasındadır . Hazırda bu istiqamətin ilkin vəzifələrindən biri universal faydalı struktura malik elektron lüğətin yaradılmasıdır. Buna lüğət məqaləsinin strukturlaşdırılmasının köməyi ilə nail olunur ki, bu da söz haqqında informasiyanın əsas növlərini (tərcümə variantları, sabit söz birləşmələrində istifadə edilməsi, sinonimləri, antonimləri və digər) ayırmağa imkan verir. Söz haqqında informasiyanın hər bir elementi digər lüğət məqaləsinə hiper istinad ola bilər. Hiper istinadlar sistemi kompüterin "siçanına" bir toxunuşla zəruri informasiyaya dərhal daxil olmaq imkanı verir (5, 5). Praktik istiqamət çərçivəsində sistem leksikoqrafiyası fəal inkişaf edir. Dil işarəsinin çoxtərəfli mövcudiyyət olmasından çıxış edən Rusiya alimi Y.D. Apresyan sözün təsvirinin altı semiotik əhəmiyyətli aspektini qeyd edir: 1) işarələyən, 2) morfologiya, 3) semantika, 4) praqmatika, 5) kommunikativ xassələr, 6) sintaktika. Leksikoqrafik informasiyanın bu növlərindən hər birinin öz alt növləri vardır ki, onlar da informasiyanı daha kiçik elementlərinə bölünməsinə imkan verir. Belə yanaşmada lüğət məqaləsi hər birinin öz işarəsi olan və daha kiçik alt zonalara dərin ierarxik xırdalanmağa imkan verən " nizamlanmış zonalar çoxluğudur ". 3. Lüğət məqaləsi strukturunun digər tədqiqat istiqamətini lüğət məqaləsi və bütövlükdə lüğətin informasiya tərəfini tədqiq edərək informasiyanın ən kiçik elementlərini aşkarlamağa çalışan alimlərin əsərləri təşkil edir. Belə elementlər " eksikoqrafik parametrlər " adlandırılır. Leksikoqrafik informasiyaya daha dolğun parametrik yanaşma Y. N. Karaulovun əsərlərinə xasdır. Onun tərəfindən təklif olunmuş iki mərhələli linqvistik konstruksiyalaşdırma metodu (leksikoqrafik informasiyanın analizi və sintezi), sonuncu mərhələdə leksikoqrafik parametrlər qruplarının lüğət informasiyasının analizi nəticəsində alınmış əsasda lüğət məqaləsi strukturunu kifayət qədər dəqiq şəkildə ayırmağa imkan verir (4, 196). Y.N. Karaulovun parametrik konsepsiyasının bəlli çatışmazlığı kimi onun tərtib etdiyi parametrlər cədvəlinin bitkin olmamasını göstərmək olar ki, müəllif bunun da bu istiqamətdə gələcəkdə aparılacaq tədqiqatların gedişində tamamlana biləcəyini qeyd edir. 4. Rusiyanın bir çox dilçi

alimləri mətn nəzəriyyəsi adlandırılan istiqamətdə fəal çalışmışlar. İnamla təsdiq etmək olar ki, Rusiya leksikoqrafiyasında lüğət məqaləsi strukturunun mətn linqvistikası mövqeyindən tədqiqatı kifayət qədər geniş populyarlıq qazanmışdır. Real nəticələri və produktiv ideyaları əks etdirən çoxlu sayda əsərlər mövcuddur. Lüğət məqaləsinin yeni variantları meydana çıxır, lüğət məqaləsi mətn tipologiyası çərçivəsində ayrıca mətn növü kimi sistemli şəkildə dərk edilir. Lüğət məqaləsinin analizi əsasında və İ. R. Qalperinin mətnə verdiyi tərifdən (1) çıxış edərək O.V. Qryaznova lüğət məqaləsi mətninin əsas kateqoriyalarını belə sıralayır: informativlik, kogeziya , inteqrasiya, pressuppozisiya, prospeksiya , retrospeksiya, kontinium, üzvlənmə, modallıq, bitkinlik, praqmatiklik, kommunikativlik . Mətnin başlıca xarakteristikası kimi informativlik götürülür (2, 9). Bizcə, lüğət məqaləsinə mətn kimi, yəni sərlövhəli, bu sərlövhənin məzmununa münasibətdə məntiqi cəhətdən bitkin və ümumi məqsədyönlü və praqmatik olan əsər kimi baxılmasının bir sıra üstünlükləri vardır. Belə olduğu halda qrammatik və fonetik informasiyanın həcmi, mənaların izah edilmə üsulu və onların yerləşdirilməsi, misallar və sitatlardan istifadə olunması göstərir ki, lüğət məqaləsi mətni ümumi bitkinlik , məqsədyönlülük və praqmatiklik prinsipinə tabe olur, göstərilən qruplar çərçivəsində aparılan tədqiqatların istiqamətlərini ümumiləşdirməklə aşağıdakı şəkildə təqdim etmək olar: 1. Praktik istiqamət - praktikadan nəzəriyyəyə; 2. Nəzəri istiqamət - nəzəriyyədən praktikaya; 3. Parametrik istiqamət - vahiddən sistemə; 4. Mətni istiqamət - sistemdən vahidə.

Beləliklə, qeyd edilməlidir ki, Rusiya tədqiqatçıları bütün dörd istiqamət üzrə məhsuldar çalışmış və çalışmaqda davam edirlər ki, bu da təbii olaraq nəinki lüğət məqaləsi strukturunun müxtəlif konsepsiyalarının, həm də bu sahədə bir sıra digər problemlərin eyni zamanda mövcudluğundan irəli gəlir.

### ƏDƏBİYYAT

1. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981.
2. Грязнова О.В. Типы дефиниций в текстах словарных статей/ на материале специальных словарей английского языка/ Общие и частные проблемы функциональных стилей. М.: Наука, 1986.
3.Денисов П.Н. Об универсальной структуре словарной статьи// Актуальные проблемы учебной лексикографии: сб. статей / отв.ред. В. А.Редькин. М.: Наука, 1977.
4. Караулов Ю.Н. Русский язык и языковая личность. М.: Наука, 2006.
5. Селегей В.Электронные словари и компьютерная лексикография - htttp://www.lingvoda.ru/transforum/articles/ selegey_al.asp.-2003.
6. Шведова Н.Ю. Парадоксы словарной статьи// Русский язык. Избранные работы. М.: Языки славянской культуры, 2005.

## KREDİT-BANK SİSTEMİNİN İNVESTİSİYA MALİYYƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİNƏ DAİR MÜASİR ELMİ TENDENSİYALAR

**Rauf Hacıyev,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Universiteti*

***Açar sözlər**: maliyyə, bank, kredit, sahibkarlıq, iqtisadiyyat, maliyyələşdirmə.*
***Ключевые слова**: финансы, банк, кредит, предпринимательство, экономика, финансирование.*
***Keywords**: finance, banking, credit, entrepreneurship, economy, financing.*

Milli iqtisadiyyatın davamlı inkişafının təmin olunması bütövlükdə iqtisadiyyatın və onun real sektorunun investisiya maliyyələşdirilməsindən birbaşa asılıdır. İqtisadiyyatın real sektorunun inkişafı, maliyyə və sənaye kapitalının qarşılıqlı əlaqəsinin genişləndirilməsi, ölkədə innovasiya yönümlü sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi kredit-bank təşkilatlarının aktiv iştirakı olmadan mümkün deyil. Məhz bu aspektdən kredit-bank sisteminin səmərəli fəaliyyət mexanizmlərinin işlənib hazırlanması və tətbiqi mühüm əhəmiyyət kəsb edən məsələ kimi qarşıda durur. Buna uyğun olaraq da bazar

iqtisadiyyatının inkişafında mərkəzi mövqeyə və təkrar istehsal prosesinə əhəmiyyətli təsirə malik olan bank-kredit təşkilatlarının iqtisadiyyatda rolu artır. Hazırkı dövrdə bank-kredit təşkilatları tərəfindən əsas kapitala investisiya qoyuluşlarının aktivləşdirilməsinin qarşısında duran maneələrin üzə çıxarılması və bank sektorunda investisiya kreditləşdirilməsi və maliyyələşdirilməsinin prioritet istiqamətlərinin müəyyən olunması sahəsində dərin tədqiqatların aparılmasına ehtiyac vardır.

Son on il ərzində dünya iqtisadiyyatında baş verən maliyyə böhranı prosesləri bir çox ölkələrin iqtisadiyyatına ciddi təsir göstərdi. Regional və qlobal maliyyə böhranları dalğaları maliyyə, valyuta, bank xidmətləri bazarı, enerji daşıyıcıları bazarı, ipoteka kreditləri bazarını, ərzaq məhsulları bazarı, beynəlxalq münasibətlər sferası kimi çox saylı problemli bazarlar və fəaliyyət sahələrini əhatə etdi və dünya iqtisadiyyatının müxtəlif sahələrinin qarşılıqlı təsir və əlaqələrinin daha da gücləndiyini göstərdi. Nəticədə, bir çox ölkələrin bank sektorunun və fond bazarının qarşılaşdığı problemlər qaçılmaz şəkildə iqtisadiyyatın digər sahələrinin vəziyyətinə də öz təsirini göstərdi.

Bu baxımdan kredit-bank sisteminin səmərəli investisiya maliyyələşdirilməsi və dövlət tənzimlənməsi mexanizmlərinin işlənib hazırlanması və tətbiqi böhran meyllərinin yumşaldılmasına səbəb ola bilər.

Kredit-bank sisteminin formalaşması, inkişaf qanuna uyğunluqlarının öyrənilməsi və bank-kredit təşkilatlarının investisiya maliyyələşdirilməsinin mexanizm və xüsusiyyətlərinin təhlili əsasında milli kredit-bank sistemində investisiya maliyyələşdirilməsinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək zəruridir. Bunun üçün aşağıdakı istiqamətdə tədqiqatların aparılmasına ehtiyac var:

- bank-kredit sisteminin fəaliyyəti və investisiya maliyyələşdirilməsi problemlərinin öyrənilməsinə dair müxtəlif nəzəri və metodoloji yanaşmaları sistemləşdirilməsi;
- bank-kredit təşkilatlarının investisiya maliyyələşdirilməsinin mexanizm və xüsusiyyətlərini üzə çıxarılması;
- ayrı-ayrı ölkələrin kredit-bank sistemlərinin formalaşması və təşəkkülü proseslərini təhlil edilməsi;
- Azərbaycan kredit-bank sisteminin formalaşması və inkişaf dinamikasının təhlili;
- Azərbaycanın bank sektorunun investisiya potensialını qiymətləndirilməsi;
- ölkənin bank sektorunda investisiya maliyyələşdirilməsinin müasir vəziyyətini təhlil edilməsi;
- bank-kredit təşkilatlarının investisiya maliyyələşdirilməsinin prioritet istiqamətlərini müəyyən edilməsi;
- milli bank sektorunun investisiya potensialının inkişaf perspektivlərini müəyyən edilməsi;
- investisiyaların maliyyələşdirilməsi və kreditləşdirilməsinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr işlənib hazırlanması.

Azərbaycan Respublikasında investisiya fəaliyyətinə təsir edən amillərin öyrənilməsinin daim aktual elmi problem olması bir sıra yerli iqtisadçıların tədqiqatlarında dəqiq əsaslandırır. İstənilən ölkənin iqtisadi inkişafının sürətlənməsi və müsbət dinamika alması onun müxtəlif sahələrinə investisiyaların cəlb edilməsindən birbaşa asılıdır. Bu amil müasir iqtisadi münasibətlər prosesində daha qabarıq hiss edilir. Lakin, demək olmaz ki, investisiyalar investorlar qarşısında problematik məsələlər qalmamışdır. Əgər belə olsa idi, investisiya fəaliyyətinə dair bu qədər müxtəlif səpkili tədqiqatlara ehtiyac hiss edilməzdi. Dünyada bəzən elə hallarla rastlaşmaq olar ki, ilk anda həmin hadisə və prosesləri iqtisadi qanunlar və maddi maraq prinsipi ilə izah etmək olmur. Demək ki, investisiya fəaliyyətinə təsir edən digər amillər də vardır. Bu amillərin öyrənilməsi elmi baxımından olduqca aktualdır.

# DEMOKRATİYA: VƏ YA MƏKTƏBDƏN BAŞLAYAN GƏLƏCƏYİMİZ

**Həbibullah Əzizov,**
*Qubadlı rauonu Xıdırlı*
*kənd tam orta məktəbin tarix müəllimi*
E-mail: hebibullah.ezizov@ mail.ru

***Açar sözlər:*** *demokratiya, təhsil, dövlət siyasəti, tolerant, multikulturalist*
***Ключевые слова:*** *демократия, образование, государственная политика, толерантность, мультикультуралист*
***Keywords:*** *democracy, education, state policy, tolerant, multiculturalist*

Demokratiya və buna aid ifadələr günümüzdə bəzən yerində və hətta yersiz işlənən sözlərdən və terminlərdən bəlkə də birincisidir. Yunancadan tərcümədə *xalq hakimiyyəti* mənasını versə də hazırda siyasi arena ilə bərabər təhsil sahəsi başda olmaqla bir çox sahələrdə ən çox işlənən sözlərdən biridir. Əslində demokratiya insana, onun şəxsiyyətinə və düşüncələrinə hörmətdir. İlk dəfə bu termin demokratiyanın yarandığı və beşiyi sayılan Yunanıstanda işlənməsinə, baxmayaraq (*klassik demokratiya)* bu gün dünyanın bütün ölkələrində istifadə edilir. Tarixdə Perikl və Solon ən qədim və əsl demokratlar kimi göstərilir. Qədim Yunanıstanda yaranan bu söz və ifadə bu gün Yunanıstanın sərhədlərindən aşaraq dünyanın hər yerinə yayılıb. Hazırda bu sözü və termini eşitməyən insan hər halda yoxdur. Cəmiyyətin bir parçası olan təhsil verənlər və təhsil alanlar da bu haqda kifayət qədər məlumatlıdırlar. Çünki demokratiya anlayış bütün sahələrə nüfuz etdiyi kimi təhsil müəssisələrində və təhsilə aid ədəbiyyatlarda ən çox işlənən sözlərdən biridir. Bu termin təhsil sahəsində son 15 ildə ən çox işlənən ifadələrdən biridir. Bu gün təhsilə aid mətbuatlarda və ədəbiyyatlarda "təhsil müəssisələrinin demokratik üsullarla idarə edilməsi", "məktəbdə demokratiya" və bunun kimi ifadələr işlənir. Əslində bu XXI əsr məktəbinə və təhsilinə xas anlayışlardır. Hər bir təhsil verən, valideyn, təhsil alan, məktəbin avtokratik üsullar ilə deyil, demokratik yolla, üsulla idarə edilməsinə tərəfdar çıxır və çıxmalıdırlar. Bu yolda artıq bəzi məktəblərdə "Kiçik Akademiya", "Şagird parlamenti" və bunun kimi şagird özünüidarə orqanları yaradılıb. Bu kimi şagird qurumları Azərbaycan təhsil müəssisələri ilə bərabər Türkiyə, ABŞ və RF-nın bəzi təhsil müəssisələrində də mövcuddur. Bütün bunların həyata keçirilməsində məqsəd şagirdlərə məktəb illərindən etibarən demokratiya, sərbəstlik, azadlıq kimi məfhumların aşılanmasıdır. Əslində bu bir zərurətdir, zamanın tələbidir.

Demokratik məktəbdə şagirdə məktəbin idarə edilməsində hüquq verilir. Bu sahədə şagird də təhsil müəssisəsinin rəhbərlərinə yardım edir. Bu yolla təhsil alan şagird müstəqil həyata ilk adamlarını atanda da demokratik dəyərlərə sahib bir şəxsiyyətə kimi formalaşmış olur.

Təhsilin demokratikləşməsi "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanununda da öz əksini tapmışdır. "Qanunun" 3-cü maddəsi Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərinin hansılar olduğunu bizə bildirir. Bu maddənin 3. 0. 2. bəndində təhsil sahəsində dövlət siyasətinin prinsiplərindən birinin də *demokratik* olduğu bildirilir. Şagirdin məktəb illərində demokratik dəyərlərlə yetişməsi biz təhsil işçilərinə və geniş anlamda Azərbaycan cəmiyyətinə nə verəcək? Sovetlər birliyi dağılanda anadan olan uşağın bu gün 25 yaşı var. Bu gənclər müstəqil Azərbaycanın yetişdirdiyi şəxslərdir. Amma cəmiyyətimiz sadəcə bu gənclərdən ibarət deyildir. Hələ də keçmişin fikirləri ilə yaşayan insanlar, rəhbərlər vardır. Əslində təhsil müəssisəsində demokratikləşmə şagirdin bir şəxsiyyət kimi formalaşmasına hesablanmış bir yoldur. Məktəb illərindən başlayaraq demokratik ənənələrlə böyüyən şagird gələcəkdə layiqli bir vətəndaşa çevriləcək. Onun üçün din, dil, irq, siyasi mənsubiyyət, cins fərqi olmayacaq. O məktəb illərindən əldə etdiyi dəyərlərlə hər bir fərdi bir gözlə görəcək. Amma məsələ ondadır ki, demokratik idarə etmə bütün cəmiyyəti əhatə etməlidir. Demokratiyanın hər yerə, hər bir insana, təhsil müəssisələri başda olmaqla hər bir müəssisəyə nüfuz etməsini hər bir vətəndaş istəməlidir. Ancaq baxmaq lazımdır ki, bütün cəmiyyət buna hazırdırmı və bunu necə qəbul edəcək? Hər hansı bir məktəbin demokratik dəyərlər şəraitində yetişən şagirdi bunu hər hansı bir qurumda, ən əsası ətrafında, ailədə, hətta görməlidir və tətbiq etməlidir. Bunlar bir biri ilə bərabər yürüməlidir. Əgər demokratiya

"ixrac" edən şagirdin ətrafı onun kimi olmasa, ona əngəl olsalar, o zaman o şagird (şəxs) ruhdan düşəcək və depressiv xəstəliklərə düçar olacaq.

Təhsilin və məktəbin demokratikləşməsi haqqında danışarkən Amerikalı tanınmış filosof və pedaqoq Con Dyui haqqında fikir söyləmək yerinə düşərdi. Həyatın və insan fəaliyyətinin hər sahəsində demokratiyanı görmək istəyən C. Dyui bunu təhsil müəssisələrində də görmək istəyirdi. C. Dyui "demokratik təhsil görmüş olanlar, ətraflarındakılara bir şeylər öyrədə bilənlər" fikrini müdafiə edirdi. Həmçinin bu nüansda Dyui "öyrədə bilər" dedikdə günümüz üçün daha aktual bir fikir olan "öyrənməyi öyrətmək" fikrini də nəzərdə tuturdu. 1924-cü ildə M. K. Atatürkün dəvəti ilə Dyui Anadoluya gəlmiş, 4 aylıq araşdırmadan sonra cəmi bir yaşı olan Türkiyə Cümhuriyyətinin təhsil "yolu"nun yaradılmasında Atatürkə yardım etmişdir.

Bəzi sosioloq, politoloq və siyasətçilər demokratiyanın "bol kisədən paylanmasına" qarşıdırlar. Onlar demokratikləşmə prosesinə istər təhsil müəssisələrində istərsə də cəmiyyətdə yavaş - yavaş, mərhələ - mərhələ gedilməsini məsləhət görürlər. Təhsil müəssisələrində də bu proses yavaş - yavaş olmalıdır *(Müəllif)*. Hələ də müasir məktəbdə avtokratik düşüncəli təhsil verənlər, valideynlər və rəhbərlər mövcuddur. Göründüyü kimi hələ gediləsi çox uzun yollarımız və görüləcək çox işimiz var. Amma bu çətinliklərdən qorxub geri çəkilməliyikmi? Məktəb və müəllim çox böyük ordu və ideologiya bazasıdır. Biz insanlar məktəb illərini, o illərdə baş verən acı - şirin hadisələri, sinif yoldaşlarımızı, məktəb illərində baş verən məsum sevgilərimizi, müəllimlərimizi və s. onilliklər keçsə də unutmuruq. *(İbtidai sinifdə təhsil alan uşaqların xarakter olaraq müəllimlərinə bənzədiyi də bir həqiqətdir: Müəllif)*. Deməli, nə olursa olsun və nə oluruqsa olaq məktəb illəri unudulmur. Ömür boyu öyrəndiyimiz informasiyaların əsas hissəsini biz orta məktəbdə alırıq. Ali məktəbdə öyrəndiklərimiz də orta məktəbdə öyrəndiyimizin genişlənmiş formasıdır. Deməli, məktəb və müəllim amili çox güclü bir amilidir . Bu müəssisələrdə əldə etdiyimiz məlumatlar *(əgər şagird olaraq əldə etsək və müəllim olaraq verə bilsək)* bir ömür pis və yaxşı olaraq yanımızda olacaq və bizimlə yaşayacaq. Deməli, demokratiya və demokratik düşüncələr də belədir. Əgər demokratiya və demokratik dəyərlər məktəbdən - *4 divar olaraq adlandırılan sinif otağından və aşağı siniflərdən başlasa* yaxın gələcəkdə gerçək mənada "demokratiya ixrac edən" ölkəyə çevriləcəyik. Çünki Azərbaycan tolerant, multikulturalist bir ölkə olduğu kimi həm də demokratik dəyərlərlə idarə edilən bir dövlətdir. Bunun üçün isə ölkəmizdə əlverişli mühit və tarixi şərait vardır.

**ƏDƏBİYYAT**


1. H. Hacızadə. Demokratiya: Gediləsi uzun bir yol. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi (FAR CENTRE), Bakı, 2001.
2. Ə. Ağayev. Seçilmiş pedaqoji əsərlər. I cild. Bakı: Mütərcim, 2011.
3. Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. Pedaqoji psixologiya. Bakı, 2010.


## AZƏRBAYCAN RESPUBLİKASINDA ETNİK MƏNSUBLARLA BAĞLI TƏHSİL VƏ DİL SİYASƏTİNİN İNKİŞAFI


**Aygün Abbasova,**
*Azərbaycan multikulturalizmi kafedrasının müəllimi*
*Bakı Slavyan Universiteti*
E-mail: *aygun2290@yandex.ru*
**Rauf Məmmədcan,**
*Bakı Slavyan Universitetinin dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*
E-mail: *haci.rauf@mail.ru*



***Açar sözlər:*** *multikulturalizm və birgəyaşayış,təhsil siyasəti, etnik-mədəni irs*
***Key words:*** *multiculturalism and coexistence, education policy, ethnic and culturalheritage*
***Ключевые слова:*** *мультикультурализм и сосуществование, образовательная политика, этно-культурное наследие*

Planetimizdə 2000-dən artıq xalq, millət və etnik qrup yaşayır. Hər bir dövlətdə birgəyaşayışın göstəricisi onun ərazisində yaşayan xalqlara münasibətdə, dil, din və adət-ənənələrinə hörmət, ana dillərində təhsil almalarının inkişafında özünü göstərir. Azərbaycan ərazisində sovet hakimiyyəti illərində milli azlıqların kompakt yaşadıqları regionlarda məktəblər açılmış, ayrı-ayrı xalqların dillərində qəzet, jurnal, kitablar, əlifbalar, nəşr edilib. 1932-1933-cü illərdə respublikamızın məktəblərində dərslər-rus, erməni, ləzgi, talış, tat və d. 16 dildə tədris olunsa da, bu proses uzun bir dövrü əhatə etməmiş, 30-cu illərinin əvvəllərindən bu addımlara son qoyulmuş oldu. Bu gün Azərbaycan Respublikası ərazisində yaşayan etnik mənsubların öz ana dillərində təhsili alması və təhsinin inkişaf etdirilməsi dövlətimizin əsas diqqət mərkəzindədir. "Təhsil haqqında" qanunun 6-cı maddəsi və "Dövlət dili" haqqında qanunun 3-cü maddəsinə əsasən təhsil milli azlıqların müxtəlif dillərində verilə bilər. Respublikamızın 13 rayonunda kompakt şəkildə yaşayan etniklərin uşaqları öz dil, adət və ənənələrini öyrənmələri üçün dövlət səviyyəsində hər-cür şərait yaradılmışdır. Respublikanın Quba, Qusar, İsmayıllı, Xaçmaz, Oğuz, Qəbələ rayonlarının 126 məktəbində 24670 şagird ləzgi, Lerik, Lənkəran, Astara, Masallı rayonlarının 246 məktəbində 26070 şagird talış, Balakən, Qəbələ, Xaçmaz, Zaqatala, Quba, Şamux rayonunun 32 məktəbində 4748 şagird avar, udin, tat, şaxur, yəhudi, xınalıq, kürd dillərini ibtidai siniflərdə oxuyarkən öyrənirlər. Ümumilikdə respublikamızın 407 məktəbdə etnik xalqların 55488 uşağı öz ana dillərini öyrənirlər.

Təhsil Nazirliyi Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında" Qanunun və Avropa Xartiyasının prinsiplərini əlində rəhbər tutaraq, etnik mənsubların dil, din, tarix və mədəniyyətlərinin öyrənilməsi istiqamətində Qanun çərçivəsində bütün imkanlardan istifadə edir. Sadalananlarla yanaşı, respublikamızda etnik xalqların təhsil və dillərinin təbliği üçün dövlət səviyyəsində geniş miqyaslı tədbir proqramları həyata keçirilir.

Əsrlər boyu Azərbaycan ərazisində 80-dən artıq etniklərin nümayəndəsi titular sayılan azəri türkləri ilə dinc və əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün respublikamızın ərazisində Altay ailəsinin türk qoluna məxsu-azərbaycanlılar, tatarlar, ahısqa türkləri; Hind-Avropa qoluna məxsus (tatlar, talışlar ,dağ yəhudiləri, kürdlər, ermənilər); Qafqaz qoluna məxsus (udilər, ləzgilər, avarlar, saxurlar, buduqlular, ingiloylar, qrızlar, xınalıqlar, ceklər); slavyan dil qrupu (rus, malakan, ukraynalılar) təmsilçiləri bərabər şəkildə yaşayırlar. "Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, həmçinin dilinin, dininin və mədəniyyətinin inkişafına dövlət yardımı "haqqında Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 16 sentyabr Fərmanı etniklərlə əlaqələrin yaxşılaşdırılması və hüquqi dövlətin yaradılması məqsədini daşıyır. Respublikamızda etnik mənsublarla bağlı 60-dək konvensiya Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya edilmişdir. Konstitusiyanın "Bərabərlik hüququ", "Dil haqqında" 25-ci, 44-cü və 45-ci maddələri milli azlıqların hüquqlarının qorunmasını təmin edir [1]. YUNESKO-nun 2005-ci il oktyabrın 20-də qəbul etdiyi "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq respublikamızda yaşayan etnik azlıqların təhsil almaq hüquqları Azərbaycan təhsilinin tərkib hissəsi kimi qorunur və inkişaf etdirilir [4].Hər ay Azərbaycan radiosunda talış, kürd, ləzgi dillərində 1 saat 20 dəqiqə, gürcü dilində 2 saat 40 dəqiqə, erməni dilində 1 saat 30 dəqiqə, rus dilində isə 15 saat verilişlər yayımlanır. Azərbaycan dövlət televiziyası rus dilində 1 ay ərzində 15 saatdan çox xəbərlər proqramı təqdim edir. Etnik mənsubların mədəni-etnik irsinin qorunub saxlanılması və inkişafi, xalqlar arasında tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə Heydər Əliyev Fondunun dəstəyi ilə İctimai Televiziya "Azərbaycan-doğma diyar" devizi ilə iki ildən bir etnik mənsubların festivalı, dil və təhsil yarışları keçirilir.

Respublika Prezidenti cənab İlham Əliyevin 2001-ci il Sərəncamı ilə hazırlanmış "Milli azlıqların hüquqlarının qorunması üzrə Azərbaycan hökumətinin hesabatı" Avropa Şurası tərəfindən müsbət qiymətləndirilməklə heç bir problemin olmadığını birmənalı şəkildə qeyd edirlər. Prezident İlham Əliyev 2014-cü il oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində qeyd etmişdir: "Multikulturalizm Azərbaycanda həyat tərzidir və bunun alternativi yoxdur. Biz çalışırıq ki, regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək".

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Konstitusiyası (Maddələr 21, 25, 44, 45). Bakı, 1995.
2. Dözümlülük prinsipləri haqqında Bəyannamə. UNESCO, 16 noyabr 1995-ci il. Tolerantlıq (sənədlər, konsepsiyalar). Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət komitəsi tərəfindən nəşr olunmuşdur. Bakı, 2014.
3. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997.

4. İlham Əliyev. 2014-cü il oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqi. Bakı, 2014.
5. Mehriban Əliyeva. Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti. Paris, 09.09.2015.
6. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

# HAMI ÜÇÜN TƏHSİL

**Vüsalə Salahova,**
*Bakı şəhəri, M. Mehdiyev adına 280 nömrəli*
*tam orta məktəbin ibtidai sinif müəllimi*
E-mail: salah_vus@mail.ru

***Açar* sözlər:** *bacarıq, xüsusi, qayğı, təlim, konsepsiya, fasiləsiz, təhsil*
***Ключевые слова:*** *умение,специальный,забота,обучение,концепция,непрерывный,образование*
***Key words:*** *ability ,special, care, traininq, conception, break, education*

Təhsilin beynəlxalq standartları Ali Təhsil üzrə Ümumdünya Konfransında (Paris, 1998-ci il) və Təhsil üzrə Beynəlxalq Forumda (Dakar, 2000-ci il) daha da inkişaf etdirilmişdir. Bu beynəlxalq tədbirlər bir daha göstərmişdir ki, təhsil hüququ əsas insan hüquqlarından biridir və bütün dövlətlər hamının keyfiyyətli, zamanla ayaqlaşan və insanların məhsuldar potensiallarını artıran təhsillə təmin olunmalarını təşkil etməlidirlər. Müxtəlif əqli və fiziki bacarıqlı uşaqların təhsil prosesinə inteqrasiyası kimi tanınan inklüziv təhsil yanaşması "hamı üçün təhsil" strategiyasının davamıdır. İnklüziv təhsilin mənası xüsusi ehtiyacı və ya məhdud fiziki imkanları olan uşaqların ümumi təhsil prosesinə inteqrasiyası haqqında ənənəvi təsəvvürlərdən bir qədər fərqlidir. Burada söhbət əslində ən müxtəlif xüsusiyyətləri və ehtiyacları olan (fiziki, sosial, intellektual və digər mənalarda!) uşaqların birgə tədrisə cəlb edilməsindən gedir. YUNESKO-nun müəyyən etdiyi inkluziv təhsilin əsas prinsipinə əsasən, "...məktəblər maddi, əqli, sosial, emosional və digər vəziyyətlərindən asılı olmayaraq bütün uşaqların ehtiyaclarını qarşılamalıdır, həm əlil uşaqları, həm də xüsusi istedadlı uşaqları, kimsəsiz və işləyən uşaqları, uzaq ərazilərdən və köçəri ailələrdən gələn uşaqları, etnik və mədəni azlıqların uşaqlarını, eləcə də əlverişsiz şəraitdə yaşayan və ya əhalinin həssas qruplarına aid olan uşaqları bərabər qaydada əhatə etməlidir. İnformasiyanın diffuziyası və intellektual kapitalın fiziki kapitalı üstələdiyi bilik iqtisadiyyatının tələb və təsirləri yenilikçi təhsilin yeni konsepsiyasının hazırlanması və həyata keçirilməsini zəruri edir. Belə bir konsepsiya hamı üçün təhsil sisteminin inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri edir:

- xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;
- xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının hazırlanması;
- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün İmkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi;
- məktəbəqədər və ümumi təhsil müəssisələri təhsil verənlərinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsilin təmin edilməsi;
- məktəbə hazırlıq inklüziv təhsilin (bir il) icbariliyinin təmin olunması;
- müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;
- ömür boyu təhsilə artan tələbatın ödənilməsi üçün kitabxana fəaliyyətinin modernləşdirilməsi və təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi;
- aztəminatlı ailələrdən olan uşaq və gənclər üçün bərabər təhsil imkanlarının yaradılması məqsədi ilə maddi dəstək sisteminin yaradılması;

XXI əsrin çağırışlarına cavab olaraq ölkələrin əksəriyyəti öz təhsil sistemlərinin modernləşdirilməsini o məqsədlə həyata keçirirlər ki, son nəticədə peşəkar təhsil sistemi insanların hər bir

üzvünün və cəmiyyətin inkişafına təkan versin və ölkə iqtisadiyyatının dinamik yüksəlişinin əsasında dursun.

**ƏDƏBİYYAT**

1. ”Azərbaycan 2020: Gələcəyə baxış ”İnkişaf Konsepsiyası.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
3. Z. Veyisova. Fəal təlim metodu haqqında” İnsan hüquqlarının tədrisi: Müəllimlər üçün metodik vəsait. Bakı, 2003.

## KEYFİYYƏTLİ TƏHSİL VƏ LİDERLİK

**Murat Kadifeci,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: kadifecimurat@yahoo.com

***Açar sözlər:*** *idarəetmə, təhsil, məktəb, lider, səriştə, bacarıq, nüfuz*
***Ключевые слова:****управление, образование, школа, лидер, мастерство, репутация*
***Key words:*** *management, education, school, leader, proficiency, skill, reputation*

Araşdırmalar göstərir ki, bu gün dünya ölkələrində təhsildə milli keyfiyyət göstəricilərinin artırılması hərəkəti başlamışdır. Son dövrlərdə həyatın hər sahəsində, xüsusilə təhsil sahəsində keyfiyyətin əldə edilməsi və davamlı inkişafı gələcək nəsil üçün bir ehtiyacdır. Ona görə də keyfiyyətli təhsil və təşkilatçılıq işlərinin hədəflərini təyinetmədə keyfiyyətli liderlik anlayışı əhəmiyyət kəsb etməkdədir.

Təhsildə mükəmməllik məktəblərdəki keyfiyyət deməkdir. Məktəbdəki keyfiyyət isə keyfiyyətli liderlik anlayışı ilə bilavasitə bağlıdır.

Hər bir insanın, psixologiyası və davranışı sosial mühitdən çox asılıdır. Sosial mühit isə yalnız eyni adamlardan deyil, kiçik və böyük qruplardan ibarətdir. Bu qruplar daxilində yaranan qarşılıqlı münasibət və hisslər onların davranışlarını müəyyən edir. Qrup üzvlərinin qarşısında ilk növbədə mənəvi gücü ilə nüfuz qazanmış şəxslər onları idarə edir, hərəkətlərini tənzimləyə bilir və öz arxalarınca aparmağı bacarırlar. İdarə etdiyi insanların da münasibəti liderə-rəhbərə müxtəlif cür olur. Avtokratik rəhbərlik qrup üzvlərinin fikir və ideyalarını nəzərə almadan müstəqil hərəkət edir. Əmr, göstəriş, təlimat, töhmət, təşəkkür onların qrup üzvləri ilə əsas əlaqə forması olur. Bu halda insanlar arasında qorxu, şübhə, xaos yaşanır. Nəticədə isə qrupdaxili etirazlar da yaranır.

Demokratik üsluba malik olan lider qrup üzvləri tərəfindən rəğbətlə qarşılanır. Bu cür liderlər daim qrup üzvləri ilə razılaşırlar. Qərar qəbul edərkən qrup üzvlərinin təkliflərini nəzərə alır. Qarşılıqlı inam, səmimiyyət fikir birliyinə və daxili razılaşmaya gətirib çıxarır. Belə rəhbərlərin, aparıcı qüvvələrin olduğu qruplardan ibarət cəmiyyət isə daha demokratik dayaqlara mənsub olur və cəmiyyət üzvlərinin milli-mədəni, irqi hüquq və azadlıqlarına dayanır.

Cəmiyyətin idarə edilməsi ilk növbədə ailədən başlayaraq təhsildə davam edir. “İdarəetmə anlayışı özündə müxtəlif institusional məfhumları və səviyyələri ehtiva edir. İdarəetmənin səmərəliliyi isə çoxkomponentli olması etibarilə sistemli prosesin qanunauyğun nəticəsidir.” [5, 104] Tarixi, sosial və mədəni proses olan idarəetmə psixologiya, ictimai münasibətlər, insan amili, hakimiyyət və nüfuz, motivasiya, həvəsləndirmə, işin məzmunu və iş şəraiti, rəftar və qarşılıqlı münasibət, səriştə kimi amillərdən istifadə edərək bütün sahələrdə olduğu kimi təhsildə də liderlərin nüfuzunu müəyyənləşdirir. Məktəbin idarə olunması menecment nöqteyi-nəzərindən bir elm və sənət növüdür. Keyfiyyətli təhsildə keyfiyyətli liderin rolu çox böyükdür. Məktəbi idarə edən şəxs “təhsil mədəniyyətini idarə edərək dəstəkləməlidir. Bu mədəniyyəti anlamağa çalışan bir idarəçi üçün onu anlaması və araşdırılması çox vacibdir. Məktəb müdirlərinin fəaliyyət və davranışları arasında yaxın bir əlaqənin olduğu təyin olunmuşdur.” [7, 127]

"Rəhbər pedaqoji kadrların hazırlanması, seçilib yerləşdirilməsi, onlardan düzgün istifadə (uyğun iş şəraitinin yaradılması və tabeçilikdə olanların elmi əsaslarla idarə olunması) edilməsi təhsil sisteminin inkişafının, onun məzmunun müasir tələblərə cavab verməsidir." [4, 58]

İnsanların birgə fəaliyyətinin səmərəliliyi əsasında öz işini quran məktəb lideri rəhbərlik etdiyi kollektivdə müəllim və şagirdlərdən ibarət böyük bir kütləni öz arxasınca aparmağı bacaran şəxs olmalıdır. O, insanlararası münasibətlərdən çıxış etməli, kollektivin əxlaq və davranış etalonlarını yüksək tərbiyəvi həyat normalarına uyğunlaşdırmalı və onları öz şəxsi nümunəsində arxasınca aparmağı bacarmalıdır. "Məktəb direktorunun bir rəhbər kimi özünütəsdiqində və nüfuzunun yüksəldilməsində onun şəxsi mənəvi keyfiyyətləri, peşəkarlığı ilə bərabər, qəbul etdiyi qərarların ədalətliliyi daha böyük rol oynayır... Ədalətli rəhbər hər zaman əməkdaşların hörmətini, etibarını qazanır, kollektivdə, cəmiyyətdə yüksək nüfuza malik olur... Direktor nüfuzunu şəxsi nümunəsi, biliyi, təşəbbüskarlığı və digər mənəvi keyfiyyətləri ilə qazanmalı və özünü bir rəhbər kimi təsdiq etməlidir." [3, 3]

Müasir məktəb direktorları idarəetmə nəzəriyyəsi və təcrübəsi ilə yaxşı tanışdırlar. Bu liderlər öz məktəblərində tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün təhsil sahəsində baş verən dəyişiklikləri və beynəlxalq təcrübədən öz fəaliyyətlərində istifadə edirlər.

**ƏDƏBİYYAT**


1. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010,
2. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: Təhsil, 2004.
3. Muradov A. Məktəb direktoru-rəhbər, pedaqoq, tərbiyəçi. "Azərbaycan müəllimi" qəz., 2011, 18 mart.
4. Məmmədzadə R.H., Abdullayev A.A., Kərimova F.Y. və b. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: Müəllim, 2008 .
5. Rzayev P.Q. İdarəetmə prosesində rəhbərliklə tabeçilikdə olanların qarşılıqlı münasibətlərinin etik-psixoloji xüsusiyyətləri // Azərbaycanın vergi jurnalı, 2014, № 1 S.104.
6. Akyüz Y. Çağdaş Okulda Etkili liderlik //Ege Eğitim Dergisi 2002, № 1
7. Çelik V. Türk Eğitim Sistemi ve Okul Yönetimi. Ankara: Pegem Akademi, 2009.


# MİLLİ MƏNLİK ŞÜURUNUN PEDAQOJİ VƏ PSİXOLOJİ ƏSASLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ YENİ TƏHSİL SİSTEMİNDƏ NƏZƏRƏ ALINMASININ ƏHƏMİYYƏTİ


**Çapay Quliyev,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail: chapay81@yahoo.com



***Açar sözlər:*** *mənlik şüuru, milli mənlik şüuru, pedaqoji-psixoloji əsaslar, milli maraqlar*
***Ключевые слова****: самосознание, национальное самосознание, педагогико-психологические основы, национальные интересы*
***Key words****: self-consciousness, national consciousness, pedagogical-psychological basis, national interests*


Azərbaycan Respublikasında həyata keçirilən Təhsil islahatlarına dair direktiv sənədlərdə yetişən nəslin milli mənəvi cəhətdən saflaşdırılması, onların mənəvi simasının formalaşdırılması ilə bağlı elmi müddəalar, tövsiyə və məsləhətlər geniş yer alır. Həmin dəyərli elmi ideyalar, səmərəli tövsiyə və məsləhətlər həm pedaqoqlar, həm də psixoloqlar qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin həlli zamanı yetişən nəslin milli mənlik şüurunun formalaşdırılması işinin həm pedaqoji əsaslarının, həm də psixoloji əsaslarının müəyyənləşdirilməsi başlıca şərtlərdən hesab olunur. Bu baxımdan milli mənlik şüurunun formalaşdırılması işinin pedaqoji və psixoloji əsaslarının müəyyənləşdirilməsinə diqqəti artırmaq vacibdir.

Milli ləyaqət, kollektivçilik, humanizm və digər əxlaqi kateqoriyalar şəxsiyyətin mənəvi təfəkkürünün aksiomaları kimi fəaliyyət göstərir. Müasir dövrdə əxlaqi sərvətlər insanların davranışının qəbul edilib-edilməməsi ilə deyil, onların nə dərəcədə davranışında özünə möhkəm yer tutması, nə qədər

real, həqiqi olması və şəxsiyyətlərarası münasibətlərdə davamlılığı ilə ölçülür. Konkret və zəruri normativ göstəriciləri – sosial həyatı idarə etməyə istiqamətləndirməyi, həyata keçirməyi təmin edir.

Bu baxımdan milli əxlaqi sərvətləri özündə ehtiva edən milli mənlik şüurunun yetişən nəslin nümayəndələrinin davranışında özünə möhkəm yer tutmasına çalışmaq lazımdır. Başqa sözlə desək yetişən nəslin nümayəndələri olan yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşdırılmasına təsir edən tərbiyəvi işlərin kompleks imkanlarından və psixoloji təsirin elmi əsaslarından məqsədyönlü, planlı və mütəşəkkil olaraq istifadə etmək lazımdır. Məhz belə olduqda onların milli ləyaqət hissləri qüvvətlənir, torpağı yad nəzərlərdən qorumağa yönələn milli qeyrəti güclənir və onlar Vətənin ərazi bütövlüyünü qorumağa xidmət edən əqidə saflığı nümayiş etdirirlər.

Azərbaycan xalqının həyatı, xarakteri, tərbiyə sistemi, milli adət-ənənələri, rəngarəng folklor nümunələri ilə dərindən tanış olan hər kəs təsdiq edə bilər ki, bu xalqın milli-mənlik şüuru, idealı özündə yüzlərlə ülvi, pak, nəcib keyfiyyətləri birləşdirir. Hansı ki, bu keyfiyyətləri valideynlər ailədə, müəllimlər və tərbiyəçilər isə təlim-tərbiyə müəssisələrində yetişən nəslin nümayəndələrinə aşılamalıdırlar. Bu, o deməkdir ki, hər hansı bir pedaqoji prosesdə tərbiyə olunanlara ilkin olaraq milli şüurun ilkin əxlaqi elementlərini aşılamağa çalışarkən bu işi məqsədyönlü olaraq başlamaq, planlı və mütəşəkkil olaraq həyata keçirmək lazımdır.

Bunun üçün ümumtəhsil məktəblərinin imkanları daha böyükdür. Ümumtəhsil məktəblərində təlim prosesində, sinifdən, dərsdən və məktəbdənkənar tədbirlərin hər birində belə imkanlardan səmərəli istifadə etmək daha məqsədəmüvafiqdir.

Ona görə ki, yetişən nəslin milli mənlik şüurunun formalaşdırılması yeni insan tərbiyəsinin mühüm şərti hesab olunur. Mənlik şüurunun isə məqsədyönlü, planlı və mütəşəkkil olaraq inkişafını şərtləndirən cəhətlər milli mənlik şüurunun formalaşmasına təkan vermiş olur. Bu şərtlə ki, ailədə məktəbin və ya əksinə, məktəb ilə ailənin, məktəblə sosial mühitin və bunların hər üçünün əlbir fəaliyyətinin pedaqoji-psixoloji əsasları düzgün müəyyənləşdirilsin. Məhz belə olan təqdirdə yetişən nəslin mənlik şüurunun inkişafı və bu zəmində onların milli mənlik şüurunun inkişafı müasir dövrün bütün tələblərinə rəğmən təmin edilmiş olar.

**ƏDƏBİYYAT**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı: Qapp-Poliqraf Koorporasiyası, 2003.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981.


## TƏHSİLİN PRİORİTET MƏSƏLƏLƏRİ: İBTİDAİ SİNİFLƏRDƏ ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLİN FORMALAŞDIRILMASI


**Qəmər İsmayılzadə,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: qemer_24@mail.ru



***Açar sözlər:*** *təhsil, ibtidai təhsil, şəxsiyyətyönlülük, formalaşma, inkişaf, strategiya*

***Key words:*** *education, primary education, personality-orientation, development, strategy*

***Ключевые слова:*** *образование, начальное образование, личностно-направленный, развитие, стратегия*


Müasir dövrdə təhsilin qarşısında çox mühüm, həyati əhəmiyyətə malik ümumbəşəri məqsəd və vəzifələr dayanır. Yeni insan şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafını təmin etmək, şəxsiyyətin formalaşması qanunauyğunluqlarını aşkara çıxarmaq və onu yönləndirmək müasir təhsilin əsas vəzifəsidir. Bu vəzifələrdən ən başlıcası insanın insana olan münasibətini formalaşdırmaqdır. Təhsilin şəxsiyyətyönlü və inkişafyönlü əsasda qurulması dövlətin əsas məqsədlərindən biridir.

"Azərbaycan 2020: Gələcəyə baxış" konsepsiyası və digər dövlət sənədlərində təhsilə və təhsilin şəxsiyyətyönlü qurulmasına xüsusi önəm verilir. Konsepsiyaya uyğun olaraq, 2013-cü ilin oktyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə

Dövlət Strategiyası" qəbul edilmişdir. Strategiya sənədində Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan və qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirlər nəzərdə tutulur.

Strategiya sənədində nəzərdə tutulan strateji tədbirlər ümumi təhsil sistemini hərtərəfli əhatə etməklə, ən ali bir dəyərə - şəxsiyyət formalaşdırmağa yönəlmişdir. Strategiya sənədində birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir (2).

Təhsilin 12 illik olması və Avropa Təhsil məkanına inteqrasiya tələb edir ki, bu sahədə ümumi təhsilin ilk səviyyəsindən etibarən sistemli iş aparılsın. Hələ məktəbəqədər təhsil pilləsindən təhsilin şəxsiyyətyönlü qurulması sahəsində ilk addımlar atılır. Kiçikyaşlı məktəblilərdə şəxsiyyətin ilkin mərhələsinin formalaşdırılması prosesinə başlanır. Bu iş öz davamlı uğurunu ibtidai təhsil səviyyəsində də davam etdirir. Nəticədə cəmiyyətin, dövlətin tələblərinə uyğun kamil şəxsiyyət formalaşır.

Təhsilin məzmununda ehtiva olunan bacarıqlar şagirdlərin idrakı imkanlarının genişləndirilməsini və onların hərtərəfli şəkildə inkişafını nəzərdə tutur. Görkəmli pedaqoq alim Ə. Abbasov şəxsiyyətyönlü kurikulumları təhlil edərkən deyir: "Şəxsiyyətyönlü kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlərinin, əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir" (1).

İbtidai siniflərdə şəxsiyyətyönlü təhsilin formalaşdırılması üçün təhsilalanların şəxsi keyfiyyətlərini müəyyənləşdirərək inkişaf etdirmək, onları öz maraq və meyllərinə uyğun bilik və bacarıqlarla silahlandırmaq lazımıdır. Şəxsiyyətyönlü təhsilin formalaşdırılması zamanı şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı əsas məqsəd kimi qarşıya qoyulur. İbtidai siniflər bu baxımdan daha xarakterikdir. Müəllim şagirdlərə bilik, bacarıq, vərdişlərlə yanaşı, həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır. Onlarda qarşılaşdıqları hadisələri təhlil etmək, hissələri birləşdirmək və dəyərləndirmək bacarıqları formalaşır. Sinifdə hər bir şagird özünü bərabərhüquqlu şəxsiyyət kimi dərk edir, yoldaşlarını şəxsiyyət kimi görür və özünə, onlara hörmət etməyə başlayır.

İbtidai siniflərdə şəxsiyyətin formalaşdırılması və təhsilin şəxsiyyət yönlü qurulması xüsusi sistemli fəaliyyətdir və müəllimdən gərgin əmək tələb edir. Təhsil kurikulumlarının tətbiqi, standartların reallaşdırılması, bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsi, eyni zamanda analiz, sintez və qiymətləndirmə kimi mürəkkəb təfəkkür əməliyyatlarının həyata keçirilməsi, şagirdlərin əxlaqi-mənəvi cəhətdən inkişaf etdirilməsi təhsilin şəxsiyyətyönlü şəkildə qurulması üçün vacib amillərdir.

**ƏDƏBİYYAT**

1. Abbasov Ə.M. Kurikulum Mərkəzi: qısa tarixi xülasə // Təhsil, 2012, № 4

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir http://www.president.az/articles/9779

## İNSAN İNKİŞAFINA YÖNƏLMİŞ MÜASİR TƏHSİL SİYASƏTİ

**Qabil Namazov,**
*Bakı Biznes Universitetinin dosenti*
E-mail: qabilnamazov-1949@mail.ru

***Açar sözlər:*** *təhsil , strateji, sinif, dərs, sistem, metod, dinamik*
***Ключевые слова:*** *образование, стратегия, класс, занятие, система, метод, динамический.*
***Key words:*** *edication, strategic, class, lesson, system, method, dynamic*

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. Gənc nəsillərin tədrisi, öyrədilməsi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdəndir. Hansı cəmiyyət ki, təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs səfərbər edə bilir və təhsilin ictimai həyatda mərkəzi rolunu dərk edərək qeyri-şərtsiz qəbul edir o cəmiyyət öz üzvlərinin firavanlığını təmin edir.

Təhsilin sosial əhəmiyyətinin digər bir göstəricisi ondan ibarətdir ki, cəmiyyət hər hansı böhranla üzləşdikdə, bu ilk növbədə öz əksini məhz təhsil sahəsində göstərir; təhsil və müəllimlər böhranın şiddətini üzərinə götürən ilk əzabkeş olurlar.

Təhsil ictimai həyatın bütün sahələrinə sirayət etdiyindən təhsil siyasətinin istiqamətləri də çoxşaxəli və strateji əhəmiyyətlidir. Təhsil sisteminin keyfiyyətini yüksəltməyə və uzunmüddətli inkişafa töhfəsini təmin etməyə çalışan təhsil siyasəti məktəblərin yerləşməsindən tutmuş siniflərin şagird sayınadək müxtəlif məqsəd və vəzifələrə xidmət edir.

Sinif dərs sistemi XVII əsrdə böyük çex pedaqoqu və humanist-yazıçısı Yan Amos Komenski tərəfindən irəli sürülmüşdü. Ümumi təhsil ideyasını əsaslandırmış Komenski ənənəvi tədris sisteminin əsasında duran didaktik prinsipləri də müəyyən etmişdi. XVIII əsrdə-XIX əsrin əvvəllərində bir çox maarifçi mütəfəkkirlərin, o cümlədən alman alimi Vilhelm Humboldtun səyləri nəticəsində alman universiteti modeli yaranmış və onun əsasında da həmin dövrdə Avropada universitet tədrisi yanaşması (mühazirə-seminar sistemi) formalaşmışdı. Bu sistem özündə “akademik azadlıq” ideyalarını, elmi tədqiqatların prioritetliyini və seminar məşğələləri zamanı professor və tələbələr arasında qarşılıqlı ünsiyyətə əsaslanan tədris metodlarını ehtiva edirdi.

Bununla yanaşı, sinif-dərs və mühazirə-seminar sistemləri təhsil filosoflarının davamlı tənqid obyekti olmuş və tədrisin daha mükəmməl formaları üçün axtarışlar heç vaxt səngiməmişdir. Müasir təlim texnologiyaları və vasitələri dövründə təhsil siyasətində dəyişikliklər baş verməkdədir. Bu keçid dövrü təhsilin “hazır biliklərin qəbulu” kimi başa düşülməsindən və pedaqoqun “hazır biliklərin daşıyıcısı” olması təsəvvürlərindən imtina edir. Yeni təsəvvürlərə görə, təhsil şəxsiyyətin nailiyyətidir, onun həyatda özünü realizə etməsi, şəxsi karyera qurması, əsas hüquq və azadlıqların istifadə etməsi üçün bir vasitədir. Universitetin alman alimi Vilhelm Humbold modelinin yaranmasından sonrakı 250 il ərzində texnoloji platforması (mühazirə-seminar yanaşması) dəyişməz qalmış ənənəvi təhsildə artıq tədrisin məzmunu, məqsədləri və metodlarına dair yanaşmalar sürətlə yenilənməkdədir . Buna görə də yeni tədris metodologiyaları və texnologiyaları sınaqdan keçirilir, öyrənənlərə yönəlmiş təhsilin məzmunu dəyişir, praktik fəaliyyətə əsaslanan tədris metodları istifadə olunur, ümumi və peşəkar təhsildə pedaqoqun rolu və ona olan tələblər dəyişir. İnnovativ texnologiyalara əsaslanan fəal və interaktiv pedaqoji metodlar passiv mühazirə-seminar modelini sıxışdırır.

| | XVII-XX əsr(250 il) | XXI əsr |
|---|---|---|
| Dəyərlər | Təhsil ictimai istehsal üçündür.<br>Təhsil həyata hazırlıq üçündür. | Təhsil insanın həyatda qabağa getməsi (karyera) üçündür.<br>Təhsil həyat boyunca davam edir. |
| Motivlər | Təhsil öyrənələr üçün məcburidir.<br>Pedaqoqun fəaliyyəti peşə borcunun icrasıdır. | Təhsil öyrənənlərin marağını, ruh yüksəkliyini artırmalıdır.<br>Pedaqoq öyrənənlərin inkişafında səmimi maraqlıdır. |
| Normalar | Pedaqoq tədrisin uğuruna görə məsuliyyət daşıyır (“pis şagird yox--dur, pis müəllim var”).<br>Pedaqoqun avtoriteti distansiya saxlamaqla, şagirdlərdən nizam-intizam və ciddi səy tələb etməklə formalaşır | Öyrənənlər təhsilinə görə məsuliyyət daşıyır.<br>(sən özün öyrənmək istəməsən, heç bir müəllim səni öyrədə bilməz)<br>Pedaqoqun avtoriteti onun şəxsi keyfiyyətinin hesabına yaranır. |

| | | |
|---|---|---|
| Məqsədlər | Təhsil elmi biliklərin qazanılmasına xidmət edir. | Təhsil insanda mədəniyyəti formalaşdırır və praktik səriştələr aşılayır. |
| İştirakçılar | Pedaqoq bilikləri ötürür.<br>Pedaqoq öyrənənlərdən üstündür. | Pedaqoq müstəqil öyrənmə üçün şərait yaradır.<br>Pedaqoq öyrənənlərin partnyorudur. |
| Metodlar | Hiyerarxik və avtoritar metodlar.<br>Fənlərin stabil strukturu.<br>Pedaqoqun rəhbərliyi altında qrup məşğələlərinə üstünlük verilir. | Fəal iştiraklı və müasir metodlar.<br>Fənlərin dinamik strukturu.<br>Öyrənənlərin müstəqil işinə önəm verilir. |
| Vasitələr | Əsas tədris vəsaiti dərslikdir. | Dərsliklə yanaşı müxtəlif informasiya, tele-kommunikasiya, ənənəvi və yeni (sosial) media resurslarından istifadə təşviq olunur. |
| Nəzarət və qiymətləndirmə | Nəzarət və qiymətləndirməni əsa-sən pedaqoq yerinə yetirir. | Öyrənənlərin özünü-nəzarəti və özünü qiy-mətləndirməsi. |

Peşəkar təhsil sisteminin təşkili prinsiplərinə təhsilin insaniliyi (şəxsiyyət yönümlü olması), təhsilin demokratikliyi (cəmiyyət və dövlət yönümlü olması), təhsilin qabaqcıllığı (müasir texnologiyalardan istifadə etməklə innovativ bilik və səriştələrin ötürülməsi) və təhsilin fasiləsizliyi (ömür boyu öyrənmə) daxildir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan maəllimi” qəz., 2013, 25 oktyabr
2. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
3. Z. Veyisova . Fəal ( İntraktiv ) təlim: Müəllimlər üçün vəsait. UNİCEF.

## МЕСТО РОЛЕВЫХ ИГР В СИСТЕМЕ МЕТОДОВ АКТИВНОГО ОБУЧЕНИЯ, ИСПОЛЬЗУЕМЫХ С ЦЕЛЬЮ РАЗВИТИЯ РУССКОЙ УСТНОЙ РЕЧИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ АЗЕРБАЙДЖАНСКОЙ ШКОЛЫ

**Гюльчохра Ибрагимова,**
*преподаватель русского языка*
*средней школы № 124*
E-mail:gulchoxra@yandex.ru

***Açar sözlər:*** *fəal təlim, interaktiv metodlar, nitq situasiyaları, emosional fon, süjetli-rollu oyunlar, nitq vərdişləri*
***Key words:*** *active learning, interactive methods, speech situations, emotional fon, subject-role games, speech habits*
***Ключевые слова:*** *активное обучение, интерактивные методы, речевые ситуации, эмоциональный фон, сюжетно-ролевые игры, речевые навыки*

Глобальные интеграционные процессы, охватившие мир, выдвигают свои требования процессу обучения. Не случайно наш век объявлен ЮНЕСКО «веком полиглотов».Современному обществу нужны высококвалифицированные специалисты в любой отрасли производства и науки с непременным знанием иностранных языков, способным представлять интересы своей организации и своей страны на международной арене. Такая формулировка общественного заказа ставит перед нами, учителями иностранных языков свои задачи. Ведь современному Азербайджану, успешно интегрируемому в мировое сообщество, нужны владеющие иностранными языками люди, способные в то же время принимать нестандартные решения, умеющие творчески мыслить и обладающие вероятностным мышлением. Традиционные методы обучения бессильны перед такими высокими требованиями. На смену им в современной школе пришли методы активного обучения, новое педагогическое мышление и инновационные технологии с модернизацией всей системы образования, которые нашли своё отражение в главном концептуальном документе – национальном курикулуме.

Работая в группах или парах учащиеся учаться взаимодействию: распределять обязанности, анализировать, ставить цели, выслушивать мнения друг-друга и выносить общее решение, учиться взаимовыручке и взаимоуважению, находить компромиссы. Ведь принципы проблемного обучения, на которые базируется современный урок, по мнению Смолкина А.М., «позволяет пробудить у обучаемых творческий интерес, а это в свою очередь побуждает их к активному самостоятельному и коллективному поиску новых знаний» [3;28].

Последовательное применение интерактивных методов обучения способствует повышению самооценки учащихся и их инициативности. В результате учащиеся получают более прочные знания, так как добывают их самостоятельно и сознательно под чутким руководством учителя.Среди современных интерактивных методов обучения для методики преподавания иностранных языков, и в частности русского языка как иностранного, важное место занимают ролевые игры. Сегодня во всём мире в обучении иностранным языкам предпочтение отдаётся коммуникативному методу. А для реализации этого метода в учебном процессе очень эффективны, на наш взгляд, именно ролевые игры, которые предполагают создание условий реального общения. Через воспроизведение участниками ролевой игры реальной практической деятельности людей создаются условия реального общения. Исполняя ту или иную роль учащийся оказывается в ситуации, когда необходимо выразить своё мнение, возразить, а может согласиться с чьим-то мнением, чем-то поделиться с собеседником, спросить его о чём-то. Такого рода речевые ситуации активизируют речемыслительные процессы и создают условия реального общения, что насыщает процесс обучения иностранным языкам сильной мотивацией, когда приобретённые речевые навыки и лексический запас находят своё применение в конкретной воссозданной речевой ситуации. Н.П.Аникеева видит сущность игры именно в том, «что здесь важен не результат, а сам процесс, процесс переживаний, связанных с игровыми действиями» [1;18].

К тому же в ролевых играх участвуют все учащиеся, независимо от их речевой подготовленности и активности. Ведь каждый получает свою роль и в момент, когда необходимо воспроизвести ту или иную фразу, учащийся вступает в игру, а значит в общение на изучаемом иностранном языке. В процесс общения, таким образом, включаются и учащиеся, которые имеют некие трудности во вступлении в контакт с одноклассниками, и учащиеся со слабыми речевыми навыками, испытывающие в связи с этим определённые комплексы, и дети с повышенной тревожностью. Именно положительный эмоциональный фон, который придают ролевые игры процессу обучения и помогает преодолевать все эти трудности психоэмоционального плана. По мнению Гринченко И.С. «технология проведения игр заключается в том, чтобы ребёнок мог самовыразиться, самоутвердиться, познать себя и других»[2;20].

Особое значение имеют ролевые игры в процессе обучения детей младшего школьного возраста. Ведь игра всё ещё занимает важное место в их деятельности. Она близка к ним по своей природе и применяемые в процессе обучения ролевые игры делают его доступным и полным положительного эмоционального настроя. Именно с помощью игры учитель мобилизует их умственные способности, сосредотачивает внимание маленьких школьников на учебном материале, что получается с большими затруднениями при монотонном представлении языкового материала на уроке русского языка как иностранного. Малыши вовлекаются в процесс живого общения с помощью знакомых им фраз и по ходу ролевой игры запоминают новые реплики, ведь именно в этом возрасте языки усваиваются очень эффективно и даже в какой-то степени самопроизвольно. Принято считать, что наиболее эффективные виды ролевых игр для данного этапа обучения - это сюжетно-ролевые игры, а также игры-драматизации. Это обусловлено, прежде всего, особенностями восприятия детей младшего школьного возраста, которое опирается в основном на эмоциональную сферу. Шишкин С.М. придаёт большое значение сюжету для ролевой игры на начальной ступени обучения иноязычному общению. Он считает, что «сюжет является организующим элементом игры»и «носит воспитательное значение» [4;83]. Участники ролевой игры оперативно продумывают свои реплики и в то же время внимательно слушают

собеседника, чтобы вовремя и правильно отреагировать на его речь. Таким образом, можно утверждать, что именно ролевые игры являются одним из самых эффективных методов активного обучения для развития иноязычной речи, а в нашем случае русского языка как иностранного, на начальном этапе обучения, так как этот метод позволяет учащимся, исполняя роли в предложенном сюжете, вступить в процесс живого общения, оперируя полученными речевыми навыками, достигнув при этом реальных результатов в деле применения полученных теоретических знаний, что является психологической особенностью детей именно этого школьного возраста.

**ЛИТЕРАТУРА**

1. Аникеева Н.П.Воспитание игрой. М., Просвещение,1987.
2. Гринченко И.С.Игра в теории, обучении, воспитании и коррекционной работе. М., ЦГЛ, 2002.
3.Смолкин А.М.. Методы активного обучения. Высшая школа, 1991.
4.Шишкин С.М. «Ролевая игра» и ее значение для начальной ступени обучения иноязычному общению. В сб.научн.трудов «Проблемы коммуникативного метода обучения иноязычной речевой деятельности». Воронеж, изд-во ВГПИ,1981.

# TƏHSİLDƏ İNNOVATİV TƏLİM METODLARI VƏ TEXNOLOGİYALARININ TƏTBİQİ

## TƏHSİLDƏ KOMPÜTER ŞƏBƏKƏLƏRİNDƏN İSTİFADƏNİN MÜASİR ASPEKTLƏRİ

**Yaqub Məmmədov,**
*Naxçıvan Müəllimlər İnstitutunun elmi işlər üzrə prorektoru,*
*riyaziyyat üzrə elmlər doktoru, professor.*
**Zəminə Rüstəmova,**
*NMİ-nin kredit mərkəzinin müdiri*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: yaqubmammadov@yahoo.com

***Açar sözlər:*** *şəbəkə, təhsil, resurs, kompüter, informasiya, kommunikasiya*
***Ключевые слова:*** *сеть, образование, ресурс, компьютер, информация, коммуникация*
***Key words:*** *network, education, resourse, computer, information, communication*

Hal-hazırda dünyada kompüter texnologiyasından ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi təhsil sahəsində də geniş tətbiq edilir. Müasir dövrümüzdə elmi və texnoloji inkişaflar bir tərəfdən yeni təhsil ehtiyacları yaratmaqda, digər bir tərəfdən də təhsil tətbiqlərinə yeni imkanlar təqdim etməkdədir. İnformasiya texnologiyalarının inkişafı müəllim və şagirdlərdə peşəkarlığa olan tələbatı yüksək səviyyədə artırmışdır. Müasir müəllim üçün İnternetdə lazımi məlumatı axtarmaq, iş üçün elektron poçtdan, elektron tədris resurslarından istifadə etmək, informasiya şəbəkələrini bilmək vacib və tələb olunandır. Gələcək müəllimlərin ümumi pedaqoji mədəniyyətinin bir hissəsi informasiya mədəniyyətidir. İnformatika sahəsində gələcək müəllimlərin hazırlanmasında əsas məqsədlərdən biri informasiya mədəniyyətini inkişaf etdirməkdir. Gələcək müəllimlər gündəlik peşəkar fəaliyyətləri ilə əlaqədar olaraq yerli və qlobal kompüter şəbəkələrindən istifadə etməlidirlər ki, yeni təhsil konsepsiyalarını, öz sahəsinə uyğun yeni bilikləri, informasiyaları və s. əldə edə bilsinlər, əldə edilən məlumatları təhlil etsinlər. Yerli və geniş sahəyə malik olan kompüter şəbəkələri, peyk və fiber - optik rabitə, qlobal informasiya mühitində informasiya mübadiləsi üçün proqram təminatı təhsildə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin həyata keçirilməsi üçün pedaqoji və erqonomik şəraiti inkişaf etdirir.

Kompüter şəbəkələri müasir təhsil üçün olduqca mühüm bir informasiya axtarışını həyata keçirir. Kompüter şəbəkələrinin xüsusi vasitələri, elektron poçt, web resurslar, telekonfranslar müəllimlərimizin pedaqoji fəaliyyəti üçün əvəzedilməzdir və bu vasitələrdən istifadə edərək tez bir zamanda informasiya axtarış sistemində dünya informasiya mənbələrindən maraqlı informasiyalar almaq olar.
Hal-hazırda internetdə mövcud təhsil informasiya resursları dərc olunur və burada:
Multimedia texnologiyalarının, kompüter şəbəkə sistemlərinin imkanlarının tədrisdə tətbiqi;
İntellekt qabiliyyətinin, habelə müəyyən bir bilik, bacarıq, təhsil səviyyəsinin müəyyən olunması;
Öz-özünə öyrənmə, özünü inkişaf, özünün təkmilləşdirilməsi üçün şəraitin yaradılması;
Müasir telekommunikasiya mühitində informasiya işinin idarə edilməsi və s. öyrənilir.
Kompüter şəbəkələrinin tədrisdə tətbiqi müəllimlərin pedaqoji fəaliyyətlərinin təkmilləşdirilməsi prosesində əsas vasitələrdən biri sayılır.

### ƏDƏBİYYAT

1. В.Г.Олифер, И.А.Олифер. Компьютерные сети. Принципы, технологии, протоколы. 3-е изд. СПб.: Питер. 2006.
2. Ю.Блек. Сети ЭВМ: протоколы, стандарты, интерфейсы.Перевод с англ. М: Мир, 1990.
Информатика. Учебник. 3-е изд. Под ред.проф. Н.В.Макаровой и др. Финансы и статистика. 2003.

# ИНФОРМАЛЬНЫЕ МЕТОДЫ В СТРУКТУРЕ МЕЖДУНАРОДНОГО ПОСЛЕДИПЛОМНОГО ОБРАЗОВАНИЯ

**Ирина Фагимовна Сибгатуллина**,
*доктор психологических наук, действительный член НК АПСН РФ*
*профессор кафедры общей и коррекционной педагогики и психологии*
*Института развития образования Республики Татарстан (Казань, Россия),*
*директор международных программ и проектов образования и науки*
*Института интеллектуальных интеграций (Вена, Австрия)*
www.rbs-ifie.at office@rbs-ifie.at

***Ключевые слова****: международное последипломное образование, интеллектуальные интеграции, интеграционное образование, информальные методы, качество жизни педагогических работников*

***Keywords:*** *international postgraduate education, intellectual integration, integration education, informal methods, the quality of life of teachers*

Малоизученность заявленной темы не означает, что информальные методы в системе образования взрослых не популярны. Отнюдь, они являются чрезвычайно эффективными в жизненной творческой активности взрослых всего мира. Международная и региональные системы развития образования взрослых достаточно прагматичны и регламентированы. С одной стороны, повышение профессиональной квалификации «признает» лишь то, что практически дает полезные результаты. С другой стороны, условия мирового информационного общества диктуют необходимость обновления формального теоретического знания в масштабах интернациональных интеллектуальных интеграций специалистов. Таким образом, совершенно естественно интегрируются, так называемые формальные и неформальные инструменты образования взрослых, с той долей необходимости, которое определяет инновации в стратегиях и тактиках развития профессионала. По крайней мере, такой подход хорошо поддается эмпирическому и статистическому анализу и регламентирует систему последипломного образования.

Часто формальный и неформальный подходы определяют декартову систему координат образовательного движения и приняты ЮНЕСКО (наряду и с информальным образованием).

«Вертикаль» задает поступательное и линейное продвижение человека по ступеням выстроенной системы образования от дошкольной до последипломной. Это базовое и дополнительное образование, в котором присутствует понятие диплома, сертификата.

«Горизонталь» задает бесконечное многообразие, не зависит от возраста и профессии, являет собой координату добровольческого взаимодействия людей в актуальных для них знаниях и общении и свободного от какого-либо сертифицирования и формального контроля. Информальный метод соотнесен с любой из координат вышеописанной декартовой системы, но всегда направлен вглубь, определяет качество координаты, лишенной регламентации и временной границы.

Информальное образование – это образование вглубь самого себя, свои смыслы жизни ,профессионального обучения и личностного развития. Именно вектор «вглубь» меняет сам характер системы, потому что влияет на «пространственный характер» всех координат. В этом контексте, двумерная система переходит в иное качество трехмерности. Так или иначе, современные андрогоги и акмеологи всего мира, шаг за шагом, приходят к пониманию информального образования как единственно верному, относительно улучшения собственного качества личностного и профессионального развития и достижений человека. Почему? Ответ ясен. Потому что мотивационная и деятельностная основа такого обучения, имеет высокие значения. Нельзя не отметить и факт того, что те, кто делает выбор информального подхода «в обучении себя» в определенной степени решают философско-терапевтическую задачу развития собственной взрослости.

Ниже мы приводим на рассмотрение профессиональных читателей конкретное содержание курса повышения квалификации для педагогов «Информальные методы интеграционного образования. Новое к качестве профессиональной жизни педагога». В этом курсе, мы, как его авторы, показали возможности «стыковки» координат в показателях компетентности современного педагога в формальных и информальных критериях.

Ожидаемыми результатами такого обучения, на наш взгляд, становятся:

- развитие профессиональных и личных компетенций в использовании информальных методов интеграционного образования, персональных форм улучшения качества жизни педагогических работников;

- освоение креативных механизмов использования профессионального и личного времени педагогов, элементарных психологических и физиотерапевтических приемов самопомощи для восстановления ресурсов и оздоровления;

- развитие межкультурной коммуникации, навыка милосердия и позитивных перспектив в новой коллегиальной лингвистической и социальной среде;

- овладение педагогами навыками «симфонического» взаимодействия, персональной рекреации (жизненной и профессиональной парковки;

- рефлексия чувства справедливости по отношению к собственному эмоциональному и физическому здоровью и индивидуальной ресурсности в профессиональной жизни;

- овладение педагогами информальными методами ритрита и резонансного сотворчества.

Мы долго размышляли о целевой аудитории такого курса в формате зарубежной стажировки и остановились на том, что это могут быть: учителя региональных и международных школ, педагоги дошкольного образования для билингвальных детей, преподаватели и студенты педагогических факультетов, работники институтов последипломного педагогического образования, школьные психологи, исследователи качества жизни, реабилитологи, менеджеры образования и администраторы инновационных проектов для педагогов.

Споры разработчиков курса были весьма динамичными, решался и главный вопрос об объеме программы и формах ее реализации. Ведь учить информальным методам формально невозможно. Так появилось понятие добровольного «педагогического круга». Идея круга возникла из образа «круги от брошенного камня».таких кругов у нас получилось пять.

**Круг первый. Качество жизни как интегральная характеристика – информальный подход.**

Образование по горизонтали / формальное, по вертикали / неформальное и вглубь / информальное. Информальное образование как олицетворение самопознания, лишенного строгой регламентации, пространственных и временных границ. Качество жизни педагога как система показателей, характеризующих степень реализации жизненных стратегий, удовлетворения жизненных потребностей. Познание соотношения и взаимодействия понятий качества жизни и уровня жизни в интеграционном образовании. Диссинхрония жизненных мотивов, профессиональных достижений и личностного удовлетворения.

Индикаторы качества жизни педагогов. Мировой рейтинг качества профессиональной жизни.

Улучшение качества жизни педагогов как национальная идея, социальный проект, направленный на увеличение возможностей самостоятельно решать свои проблемы, добиваться личного успеха и индивидуального счастья, минимизируя цену этого процесса, то есть сохраняя эмоциональное и физическое здоровье.

Институциональная модель распределения профессионального и личного времени.

*1 круг – комплексный психологический и физиотерапевтический тренинг.*

**Круг второй. Педагогика со смыслом. Валеологическая эстетика как информальный метод интеграционного образования**

Мужество быть педагогом, смыслы и честь профессиональной деятельности, эстетика профессионального и личностного взаимодействия. Логопедагогика Виктора Эмануила Франкла.

Что такое анализ личностных и профессиональных достижений с точки зрения экзистенциального анализа В.-Э. Франкла. Педагог в поисках смысла. Десять принципов логопедагогики. «Не заметить» или «вмешаться», как «не сорваться», три случая когда «нельзя» и три случая когда «надо».

Валеологическая эстетика как сфера эстетической науки, базирующаяся на принципах формирования, сохранения и укрепления здоровья профессионала.

Возможности валеологической эстетики: создание достойных человека условий труда и отдыха. Взаимоотношения «между» как смысл. Способность к адаптации в «изменяющихся обстоятельствах», оптимизация жизненных сил человека, раскрепощение его творческого, созидательного, миротворческого потенциала.

Механизмы создания эстетической среды, удовлетворяющей персонализированные запросы личности. Пешеходная прогулка по историческому центру Вены, самоанализ персональной эстетики жизни.

*2 круг – комплексный психологический и физиотерапевтический тренинг.*

**Круг третий. Информальные параметры резонансного сотворчества**

Избирательная направленность информальных методов образования и их феномены. Интегрированное согласование как интеллектуальная способность преодолевать жесткую заданность формального образования.

Основы резонансного подхода в педагогической практике и жизни педагога. Авторская концепция метода резонансного сотворчества (MRC: Resonante Cokreation, Sibgatullina I. / Gruessl S., Wien, 2002);

Резонансное сотворчество как предоставление профессиональных и жизненных возможностей.

Практика использования метода в работе с детьми /что такое преднаучный труд ученика/, пример развития потенциала и самореализации личности при изучении русского как иностранного.

Развитие межкультурной коммуникации, навыка милосердия и позитивных перспектив в новой коллегиальной лингвистической и социальной среде, овладение педагогами навыками «симфонического» взаимодействия, персональной рекреации.

Рефлексия чувства справедливости по отношению к собственному эмоциональному, физическому здоровью и индивидуальной ресурсности в профессиональной жизни, овладение педагогами информальными методами рит-рита и резонансного сотворчества.

*3 круг– комплексный психологический и физиотерапевтический тренинг.*

**Метод паркового ритрита как информальный метод самопознания индивидуальной ресурсности**

Сущность креативных механизмов использования профессионального и личного времени педагогов, элементарных психологических и физиотерапевтических приемов самопомощи для восстановления индивидуальных ресурсов и оздоровления.

Рефлексия чувства справедливости по отношению к собственному эмоциональному и физическому здоровью и индивидуальной ресурсности в профессиональной жизни; овладение педагогами принципами практического информального метода ритрита.

Авторская концепция метода паркового ритрита (MPR: Park Rit-rit).

Процедура паркового ритрита. Ритрит-состояние. Ритрит-диалог.

Инструменты метода паркового ритрита. Когнитивный, психотерапевтический, физиотерапевтический ритрит. Женский и мужской ритрит.

Практика использования метода в работе с детьми и взрослыми. Возможности использования метода в педагогической и психологической реабилитации. «Зеленая педагогика».

*4 круг – комплексный психолого-спортивный терренкур .*

**Пятый круг. Педагогика без границ. Что такое интеллектуальные интеграции в образовании. Информальные методы как движение вперед вместе**

Информальные методы образования взрослых как опыт и феномен культуры. Мышление и чувственность, дальновидность и комьюнити педагога. Сотрудничество с музеями, научными библиотеками, институтами содействия. Осознание миротворческой миссии педагога. Педагогика без границ. «Чужих детей не бывает».

*5 круг– комплексный социально-психологический тренинг.*

*Если читателя и коллег институтов последипломного образования взрослых заинтересовал наш подход, то надеемся на профессиональное взаимодействие.*

## СПИСОК БИБЛИОГРАФИЧЕСКИХ ССЫЛОК

1.Гордина О.В., Гордин А.И. Информальное и неформальное образование взрослых: вопросы теории и практики. Иркутск.: Изд-во ВСГАО, 2010, 184 с.

2.Сибгатуллина И.Ф. Образование устремленное в будущее//Педагогика, 2016, 7? с. 71-75

3. Сибгатуллина И.Ф., Рябов О.Р. Институциональная модель интеллектуальных интеграций // Сборник научных трудов Международного форума «Модернизация педагогического образования».

# ФОРМИРОВАНИЕ КЛАСТЕРНОЙ ИНТЕГРИРОВАННОЙ СИСТЕМЫ ОБРАЗОВАТЕЛЬНЫХ ОРГАНИЗАЦИЙ В РЕГИОНЕ.

**Давыдова Наталия Николаевна,**
*Российский государственный профессионально-педагогический университет, Екатеринбург, Россия.*
E-mail edscience@mail.ru
**Дорожкин Евгений Михайлович,**
*Российский государственный профессионально-педагогический университет, Екатеринбург, Россия.*
E-mail dorles@mail.ru

***Ключевые слова:*** *образовательный кластер, организационно-педагогическая модель, развитие субъектов кластерной интеграции*

***Key words:*** *education cluster, organizational and pedagogical model, the development of the subjects of the cluster integration*

Эволюция интеграционных процессов в мире, закономерности развития конкретных региональных интеграционных объединений, процессы глобализации и регионализации являются взаимосвязанными научными проблемами, имеющими множество современных интерпретаций. Так, в формате корпоративного управления интеграция рассматривается как управление особой организационной системой, сформированной в результате специализации, кооперации и диверсификации хозяйствующих субъектов, представленных в виде корпоративных структур, причем выход на новые уровни развития участников взаимодействия требует гибкого реагирования на требования рынка (Mokronosov A.G. & Vershinin A.A, 2014).. Это предполагает мобилизацию ресурсов участников интеграции, развитие философии корпоративного поведения, основанного на соблюдении корпоративной этики, репутации, знаний

Международный опыт управления инновационным и научно-техническим развитием регионов показывает, что сегодня на разных уровнях происходит объективный процесс синтеза научной, промышленной, экономической и социальной политики в форме специфических образований, получивших название инновационных кластеров, с целью создания и поддержания среды, благоприятствующей созданию и активному использованию нововведений в конкретных отраслях. Так, например, для стран ЕС характерно трехуровневое формирование инновационной политики, включающей в себя региональный компонент, национальный, а также наднациональный компонент, объединяющий все страны Евросоюза. При этом региональный компонент все в большей мере приобретает структурный, а не перераспределительный характер. Федеральному правительству принадлежит приоритет в области фундаментальных исследований, подготовки кадров, в том числе для сферы исследований и разработок, а регионы все в большей степени проводят в жизнь политику распространения инноваций (COM, 2003) .

Применительно к системе образования, по мнению В.С.Безруковой, интеграция может рассматриваться как:

- «высшая форма взаимосвязи» с нерасторжимостью различных компонентов, новые объективность, структура и функции объектов, вступающих в связь;
- «высшая форма выражения единства» всех составляющих, которые определяют содержание образования;
- создание крупных педагогических единиц за счёт объединения взаимосвязанных компонентов учебно- воспитательного процесса. (Безрукова, 1996)

Систематизируем возможные направления развития интеграционных процессов в сфере образования:

- достижение корпоративной эффективности за счет рациональной политики управления, совершенствования внутрикорпоративных процессов;

- получение синергии путем обеспечения углубления специализации образовательных процессов. В случаях вертикальной интеграции улучшается координация при использовании недорогих высокоспециализированных активов, в случаях горизонтальной снижаются транзакционные расходы, в результате чего достигается эффект масштаба. Результатом модернизации технической базы, обновления образовательных программ является инновационная синергия.

- диверсификация или выбор направлений развития. При долговременном спаде спроса, например, на конкретные образовательные услуги, снижается конкурентоспособность участников взаимодействия. В результате диверсификации вполне возможно сконцентрировать внимание на выпуск новых образовательных услуг, в большей степени, востребованной рынком в конкретное время.

- рост мобильности управления за счет возрастания роли децентрализованного управления путем делегирования полномочий (Давыдова, Синякова., Фоменко, 2014; Davydova, Dorozhkin, Fedorov & Konovalov ,2016).

Эффективность кластерной интеграции в образовании доказана теоретически и подтверждена многочисленными зарубежными и отечественными примерами. В работах Borgatti , S. & Foster, P (2003)., Brass D. J., Galaskiewicz J., Greve H. R. & .Tsai W.P., (2004), Pallotti, F., Lomi, A. &.Qual Quant, Mascia, D (2011) , Проскуриной Т. Л. (2011); Vos A., (2014) убедительно показано, что разные формы сетевого взаимодействия, в том числе кластерные, дают возможность участникам интеграционных процессов в разных странах развивать согласованные действия, делиться с помощью Интернета обновленным содержанием, технологиями и результатами деятельности.

На основании вышеизложенного введем понятие кластерной образовательной интегрированной системы как особой формы взаимодействия образовательных организаций, базирующихся в образовательном кластере, основанная на соблюдении корпоративной этики и согласовании интересов хозяйствующих субъектов сферы образования, направленная на максимально-полное использование имеющихся ресурсов и связей с целью получения синергетического эффекта. Данная структура позволяет адаптировать внутренние процессы хозяйствующих субъектов к региональным условиям, приспособить особенности участников кластера к внешним условиям и изменениям в рыночной образовательной среде. Кроме того, эту систему целесообразно рассматривать и как своеобразную коммуникационную площадку, в рамках которой ведется обсуждение проблем развития сферы образования региона образовательными, правительственными и научными кругами, так как именно достижение баланса интересов между участниками интеграционных взаимодействий является принципиальным условием, обеспечивающим устойчивость и конкурентоспособность корпоративных кластерных структур.

## REFERENCES

1. Mokronosov A.G., Vershinin A.A. Advanced development model of territorial human resources potential. *The Education and science journal.* 2014; 8 :19-32. DOI:10.17853/1994-5639-2014-8-19-32

2. Commission of the European Communities (2003). Innovation Policy: updating the Union's approach in the context of the Lisbnon strategy. Brussels*, COM*, 112 p Безрукова В.С. Проективная педагогика.. М.: Деловая книга. 1996, 344 с.

3. Давыдова Н.Н., Синякова М.Г., Фоменко С.Л. Тенденции развития социального партнерства в условиях сетевой кластерной интеграции // *Педагогический журнал Башкортостана*, 2014, № 5.,с. 36-46

4. Davydova, N.N., Dorozhkin, E.M., Fedorov, V.A. & Konovalova, M.E. (2016). Research and Educational Network: Development Management. *IEJME-Mathematics Education*, 11 (7), 2651-2665.

5. Borgatti S., & Foster P.(2003) . The Network Paradigm in Organizational Research: A Review and Typology. *Journal of Management* , 29(6), 991–1013

6. Brass D. J., Galaskiewicz J., Greve H. R. Tsai W. P.(2004), *Academy of management journal*, 47, 6, 795-817.

7. Pallotti, F., Lomi, A. & Mascia, D.Qual Quant (2011). From network ties to network structures: Exponential Random Graph Models of interorganizational relations.. *Quality & Quantity*, 2011, .1

8. Проскурина Т.Л., (2011). Образовательный кластер как региональная инновационная стратегия // *Образовательные технологии*. № 3, с. 53-63

9/ Vos A. (2014). East European Qualifications Frameworks Lead Reforms in Education. *The Education and science journal* 2014. no. 6,149-157, DOI: http://dx.doi.org/10.17853/1994-5639-2014-6-149-16

# İNNOVATİV METODLAR

**Firidə Mustafayeva,**
*ADPU-nun Şamaxı filialının Təbiət və pedaqoji fənlər kafedrasının müdiri*
E-mail: firide_mustafayeva.57@mail.ru

***Açar sözlər:*** *İnnovasiya, metodlar, tədris prosesi*
***Ключевые слова:*** *Инновации, методы, учебный процесс*
***Keywords:*** *Innovation, methods, educational process*

İnnovasiya - yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsi deməkdir. İnnovasiya termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. Termin elmi tədqiqatlarda, o cümlədə təhsildə XIX əsrlərdə meydana gəlmişdir.

Bu gün Azərbaycanın təhsil quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər, yeni pedaqoji texnologiyalardan istifadə, təhsildə innovasiyaların tətbiqi aparılan ardıcıl və davamlı təhsil siyasətinin nəticəsi kimi meydana çıxmışdır. Bu gün müasir təhsildə tələbə və şagirdlərin idraki inkişafının parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Təhsili bilavasitə inkişafyönlü bir proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevrilir.

Məlumdur ki, təhsil ictimai proses kimi hər bir cəmiyyətdə insanların maraqlarının təmin olunmasına xidmət edir. Belə də olmalıdır, çünki insan təhsil üçün deyil, təhsil insan üçündür. Cəmiyyətdə mövcud olan problemlərin həlli təhsildə əsaslı islahatların keçirilməsini tələb edir. Dəyişikliklər təhsilin məzmunundan, strukturundan tutmuş təlim metodikalarınadək, demək olar ki, bütün sahələri əhatə edir. Bu cəhətdən təhsil prosesində innovasiyalradan istifadə təhsilin keyfiyyətini yüksəltməklə bərabər, həm də iqtisadiyyatımızın, istehsal sahələrinin inkişafına təsir göstərmiş olur.

Ölkədə həyata keçirilən təhsil islahatı faktiki olaraq, yeni Milli Təhsil Sisteminin yaradılmasına yönəldilmişdir və onun əsasında müasir zamanda ən çox üstünlük verilən demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə və bir neçə digər vacib prinsiplər durur. Bu prinsiplərin həyata keçirilməsi şagirdin təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsi, onun şəxsiyyət kimi formalaşmasını, cəmiyyətdə mövcud olan təhsillə bağlı bir çox qurumların səylərinin şagirdin mənafeyi istiqamətinə yönəldilməsini nəzərdə tutur.

Məlumdur ki, ümumiyyətlə təlim üsulları təlim prosesinin səmərəliliyinə təminat yaradan güclü amilidir. Zaman dəyişdikcə, təhsil sistemi də dəyişir. Tədris proqramları, təlim üsulları da dəyişməli, müasir zamanın tələblərinə cavab verməlidir. Bu gün innovasiyalardan istifadə təhsil sahəsində aparılan islahatlardan irəli gəlmiş və fəal təlim metodikalarındandır.

Tədris prosesində innovativ metodların istifadə edilməsi şagirdlərin təhsilə biganəliyinin aradan qaldırılmasına, lazımi təfəkkür xüsusiyyətlərinin formalaşdırılmasına, deməli, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. İnnovativ metodlar təlimdə mexaniki yaddaşın deyil, təfəkkürün inkişafı, şagirdlərin fəal dərketmə mövqeyi, biliklərin müstəqil əldə edilməsi, tədqiqat və dərketmə üçün müvafiq şəraitin yaradılması, təbii öyrənmə fəallığının artırılmasına təkan verən problemli şəraitin yaradılması, biliklərin yaradıcı tətbiqi, ətrafdakılarla əməkdaşlıq etmək bacarığı, təfəkkürün müstəqilliyi və sərbəstliyi vacib amil kimi nəzərdə tutulur.

İnnovativ təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

İnnovativ metodların tətbiq edilməsi tədris müəssisəsində şəraiti dəyişərək şagirdlərin özünə inamını artırır, şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırır, təhsilə olan münasibət müsbət mövqe yaradır, biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, onlardan həyat məqsədlərinə çatmaq üçün istifadə etmək vərdişlərini formalaşdırır.

Dünya təcrübəsi göstərir ki, innovativ metodlarla təlim müəllim üçün dərsin keyfiyyətini artırmağa vacib bir vasitədir. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. İnnovativ metod həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Şagirdlərin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Beləliklə, innovativ metodlarla nəinki şagirdlər inkişaf edir, həm də müəllimlər təkmilləşir.

**ƏDƏBİYYAT**


1. Z. Veysova. FƏAL / İNTERAKTİV TƏLİM. Birləşmiş Millətlər Təşkilatının Uşaq fondu, 2007.
2. Учитель. М.: Политиздат, 1991.


# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI TƏLİMİN FƏRDİLƏŞMƏSİNİ TƏMİN EDƏN SƏMƏRƏLİ VASİTƏ KİMİ


**Tofiq Məmmədov**,
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
E-mail: tofiqm @ rambler.ru
**Ayxan Hüseynli,**
*Naxçıvan Müəllimlər İnstitutunun magistrantı*
E-mail: ayxanh@ rambler.ru



***Açar sözlər:*** *informasiya-kommunikasiya texnologiyaları, kompüter, təlim prosesi, təlimdə müasir texnologiyalardan istifadə, strateji hədəflər, təlimdə fərdiləşmə*

***Ключевые слова:*** *информационно-коммуникационные технологии, компьютер, процесс обучения, использование современных технологий обучения, стратегическая цель, индивидуализация обучения*

***Key words:*** *Information-communication texnology, computers, the use of modern teaching texnologies, strategic targets, teaching specializing*


Beynəlxalq aləmdə pedaqoji fəaliyyətlə məşğul olan alimləri bir məsələ düşündürür: «XXI əsrin məktəbi necə olmalı və onun təhsildə rolu nədən ibarət olmalıdır ki, gənc nəsli cəmiyyətə layiqli vətəndaş kimi yetişdirmək mümkün olsun?» Belə qənaətə gəlinmişdir ki, təhsil sistemində və fənlərin məzmununda əsaslı dəyişikliklər aparılmaqla yanaşı tədris prosesində ən yeni informasiya-kommunikasiya texnologiyaları vasitəsilə təlimin fərdiləşməsini təmin etməklə kifayət qədər müsbət nəticələr almaq mümkündür.

Son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə onun tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətp, layihələr və tədbirlər hazırlanıb həyata keçirilmişdir ki, bu da ölkənin təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərindən biri olmaqla təhsil müəssisələrində İKT infrastrukturunun qurulmasına yönəlmişdir.

Çin filosofu Konfutsi müəllim-şagird münasibətləri haqqında belə demişdir: «Alicənab müəllim şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır, arxasınca dartmır. Onda təlimə maraq oyadır, onu məcbur etmir. Ona yol göstərir, deməli yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o, şagirdi irəliyə aparır, arxasınca dartmır, deməli, onunla müttəfiqdir. Nə qədər ki, o, şagirdə yol açır, deməli, ona düşünmək imkanı verir».

Müəllim-şagird arasında belə vəhdətin yaradılmasında müəllimdən xüsusi qabiliyyət və bacarıq tələb olunur. Bəs necə etməli ki, Çin filosofunun arzuladığı kimi təlim prosesində bu göstərilən arzuolunmaz hallar aradan qaldırılmış olsun? Bu göstərilən mənfi halların aradan qaldırılmasında İKT-dən istifadə etməklə təlimin fərdiləşməsinin xüsusi rolu vardır. Təlimin fərdiləşdirilməsinin tədris prosesində təmin olunması başqa təlim prinsiplərinə nisbətən müəllim üçün bir qədər çox vaxt aparır. Müəllim hər bir şagird üçün proqramın tələblərini gözləməklə fərdi tapşırıqlar tərtib etməli olur. Sinifdə 20 şagird olarsa, hər şagirdə 5 tapşırıq hazırlansa, sinif üçün 100 tapşırıq hazırlamaq lazımdır. Öz işini sevən və yaradıcı fəaliyyətlə məşğul olan müəllim üçün bu bir o qədər də çətinlik törətmir. Riyaziyyat dərslərində bu işi təşkil etmək bir o qədər problem deyildir. Belə ki, riyaziyyat dərsliklərində kifayət qədər tapşırıqlar vardır. Bu tapşırıqları şagirdlərin sayına müvafiq olaraq tərtib etmək olar. Əgər çatışmazlıq olarsa əlavə ədəbiyyatlardan və ya müəllim tərəfindən də şagirdlərin bilik səviyyəsinə uyğun olaraq tərtib edilə bilər. Kifayət qədər kompüteri olan məktəblərdə bir şagirdə bir kompüter prinsipi ilə, təlimin fərdiləşməsi daha yaxşı təşkil olunar.

Təlimin İKT vasitəsi ilə fərdiləşdirilməsinin mahiyyəti ənənəvi dərslərdən fərqli olaraq şagirdlərin maraqlarına uyğun gəlməyən xüsusiyyətlərindən uzaqlaşmaq və fəal təlim metodlardan istifadə etməklə müasir dərslərin qurulmasına üstünlük verilməsi ilə xarakterizə olunur. İKT-vasitəsi ilə təlimi fərdiləşdirdikdə öyrədən və öyrənən arasında əməkdaşlığın təmin olunması meyl və maraqlar nəzərə alınmaqla bütün şagirdlər üçün əlverişli şəraitin yaradılması təmin olur. Müasir şəraitdə təlim prosesində İKT-dən istifadə etmədən təlimin fərdləşməsini müasir tələblər səviyyəsində təmin etmək qeyri-mümkündür. İKT-dən istifadə həm də fənn müəllimlərinin texniki bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərir. Bunun üçün hər bir fənn müəllimi müasir İKT-dan istifadə etməyi mükəmməl öyrənməsi və hər bir mövzunu hansı proqramda daha yaxşı tədris olunmasını dəqiq bilməsi vacibdir. Təlimin fərdiləşməsini İKT vasitəsi ilə təmin etmək üçün müəyyən hazırlıq işləri görmək lazımdır. Təlimin fərdiləşməsində sərbəst işlər əsasən üç formada aparılır: Gündəlik, rüblük və illik.

Gündəlik sərbəst iş - müəllim mövzunu izah etdikdən sonra həmin mövzuya aid şagirdlərin dərsi necə mənimsədiyini yoxlamağa xidmət edir. Bunun üçün müəllim əvvəlcədən hər bir şagird üçün kompyuterdə fərdi tapşırıqlar hazırlayır və kompyuterin yaddaşında saxlayır.

Rüblük sərbəst iş- rübün sonuna yaxın rüb ərzində öyrənilən mövzuların şagirdlər tərəfindən necə mənimsənilməsini müəyyən etmək məqsədilə aparılır.

İllik fərdi iş il ərzində öyrənilmiş mövzuların şagirdlər tərəfindən necə qavranıldığını müəyyən etmək üçün aparılır. Xarakterik tapşırıqlar «Elektron lövhə»də müəllim tərəfindən izah olunması zəruridir.

Tapşırıqlar tərtib edilərkən şagirdlərin bilik səviyyəsi nəzərə alınmalıdır. Şagirdlərin kompyuterləri müəllimin stolundakı kompyuterlə əlaqəli olmalıdır ki, şagirdlərin işinə müəllim tərəfindən nəzarət etmək mümkün olsun. Aparılan sorğular, müşahidələr göstərir ki, İKT vasitəsi ilə təşkil olunan dərslər şagirdləri çox maraqlandırmaqla yanaşı, həm də onların təlimə həvəsini artırır.

**ƏDƏBİYYAT**

1.www. edu.gov.az.
2. www.mektebli.president.az.

## MÜASİR PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN SƏMƏRƏSİ

**Ülviyyə Aslanova,**
*Bakı şəhəri Sabunçu rayonu 67 nömrəli*
*məktəbin ibtidai sinif müəllimi*
E-mail: ulya@mail.ru

***Açar sözlər:*** *tərbiyə, rol, tarix, məqsəd, vəzifə*
***Ключевые слова:*** *воспитание, роль, история, цель, задачи*
***Key words:*** *education, role, history, purpose, objectives*

Bu gün ölkəmizdə müasir təlim metodlarının təhlilinə xüsusi fikir verilir. Hazırki dövrdə təlim metodları təhsil, tərbiyəedici, inkişafetdirici, stimullaşdırıcı, nəzarət, qiymətləndirmə və b. funksiyaları yerinə yetirir, interaktiv metodlar (müsahibə, dialoq) öyrədən və öyrənənlər, həm də öyrənənlərin özləri arasındakı fəal, qarşılıqlı münasibətlərin daha geniş formada baş verməsini nəzərdə tutur. Əməkdaşlıq şəraitində təlim metodunun başlıca ideyası nəyi isə birlikdə icra etmək olmayıb, birlikdə öyrənməkdir. Bu prosesdə şagirdlər materialı birlikdə öyrənir, ayrı-ayrılıqda icra edirlər.

Digər bir aktual metod olan layihələr metodu şagird fəaliyyətinin müstəqilliyinə xidmət edir, fərdi, cüt, qrup halında, müəyyən zaman kəsiyi müddətində həyata keçirilir. Müxtəlif səviyyəli təlim metodu şəxsiyyətə yönəldilmiş təlim ideyasına əsaslanır. Bu metodun başlıca qayəsi təlimi şagirdlərin xüsusi qabiliyyətlərinə, istedadlarına, imkanlarına görə diferensiallaşdırmaq və fərdiləşdirməkdir.

Müasir texnologiyaların təlim prosesinə tətbiqi, eyni zamanda, hissi obrazların yaranmasına şərait yaradır. Şagirdlər informasiya və pedaqoji texnologiyaların köməyi ilə cisim və hadisələr haqqında verilən məlumatı dərk edərkən onlara müəyyən münasibət göstərirlər. Tədris materiallarının qavranılmasında, dərk olunub başa düşülməsində təbii ki, qavrayışın tamlığı, mənalılığı, çevikliyi və nisbi sakitliyi də mühüm əhəmiyyət daşıyır. Kompüter və digər texnologiyalardan istifadə zamanı şagirdlər həm də iradi səy göstərirlər. Şagirdlərdə iradənin bir sıra xüsusiyyətləri özünü büruzə verir. İnformasiya texnologiyalarının tətbiq olunduğu dərslərdə hər hansı bir qərar qəbul edərkən hər bir müəllim və şagirdlər məntiqi-psixoloji əməliyyatı yerinə yetirmə, funksional-dinamik və qərar qəbul etmə prosesinin formalaşdırılması istiqamətlərini nəzərə almalıdırlar.

Təlim uğurları təkcə şagirdin təlimə qabilliyi, bütövlükdə qabiliyyəti ilə deyil, həm də təlim motivasiyası ilə şərtlənir. Öyrənmə motivasiyası didaktik prosesin səmərəliliyini, məhsuldarlığını müəyyən edən, artıran amillər kimi prosesin aparıcı və hərəkətverici qüvvəsidir. Təbii ki, təlimdə şagirdin tələbat və maraqları, arzuları və emosiyaları, durumları və idealları da böyük rol oynayır.

Müasir pedaqoji texnologiyalardan tədris prosesində müxtəlif məqsədlər üçün, xüsusən təlimin səmərəliliyini yüksəltmək və onun keyfiyyətini artırmaq məqsədi ilə istifadəsi ən aktual problemlərdəndir. Təhsil sferasında səmərəlilik və keyfiyyət, təlim nəticələrinin əvvəlcədən müəyyən edilmiş normativlər əsasında şagirdlərin mənimsəmə səviyyəsini müəyyən edən ən vacib göstəricidir. Tədris prosesində təlimin səmərəliliyinin yüksəldilməsi, tədris-təlim prosesinin keyfiyyətinin artırılması yeni təlim və pedaqoji texnologiyalarının; interaktiv, fəal, kompyuter, internet, əməkdaşlıq, layihələr, müxtəlif səviyyəli, təlim, problemli təlim, inkişafetdirici təlim, pedaqoji oyun və modul texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlıdır.

Müasir dövrdə cəmiyyətdə intensiv olaraq dəyişən sosial-iqtisdi və mənəvi münasibətlər təhsil sisteminin və onun tərkib hissəsi olan müəllimlərin bu prosesə çevik, dinamik adaptasiya olunmasını tələb etdiyindən, ümidvaram ki, pedaqoji texnologiyalardan düzgün, yerində və məqamında istifadə müəllimlərin prioritetinə çevriləcəkdir.

**ƏDƏBİYYAT**

Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi // Tarix və onun problemləri, 2008.

## TƏHSİL SAHƏSİNDƏ YENİ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN SÜRƏTLƏNDİRİLMƏSİNİ ZƏRURİ EDƏN AMİLLƏR

**Dilarə Əsgərova,**
*“ Naxçıvan ” Universiteti*
E-mail: Dilara_asgarova@mail.ru

***Açar sözlər:*** *təhsil, informasiya kommunikasiya texnologiyaları, müəllim, şagird, bilik*
***Key words:*** *education, information communication technology, teacher, student, knowledge*
***Ключевые слова:*** *образование, информационно-коммуникационные технологии, учитель, студент, знание*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. O, dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, iqtisadi-biznes və sosial sektorlarla yanaşı həm də elm, təhsil, mədəniyyət sahələri və insanların gündəlik həyatına öz təsirini göstərir.Təhsil sahəsində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsini zəruri edən əsas 3 (üç) faktoru göstərmək olar:

**1-ci zəruri amil**– təsərrüfatın müxtəlif sahələri, həm də yeni ixtisaslar üzrə müasir tələblərə cavab verən yüksək ixtisaslı fəhlə və mütəxəssislərin peşə hazırlığının keyfiyyətinin yüksəldilməsinin zəruriliyi.

**2-ci zəruri amil** – kütləvi kompüter savadsızlığının ləğvinin zəruriliyi. Məlumdur ki, təlimin, savadlılığı müəyyənləşdirən «oxumaq, yazmaq, saymaq» kimi ənənəvi məzmunu yeni təfəkkür tərzinə uyğunlaşdırılmalı və yeni bacarıq və vərdişlərlə zənginləşdirilməlidir.

**3-cü zəruri amil** – təlim-tərbiyə prosesinin, təhsil sahəsində idarəetmənin, elmi-pedaqoji tədqiqatların və onların nəticələrinin pedaqoji təcrübədə tətbiqi keyfiyyətlərinin yüksəldilməsinin zəruriliyi.Yuxarıda sadalanan ilk iki faktor təhsil sistemınə verilən tələbləri xarakterizə edən xarici faktorlar, 3-cü isə təhsil sisteminin özünün daxili tələbatı ilə əlaqədardır. (1) **.**İ K T bilik və bacarıqlarına mükəmməl yiyələnməyin ən yaxşı yolu onun orta məktəbdən başlanmasıdır. Təhsilin ibtidai siniflərdən İ K T əsasında qurulması şagirdlərin gələcəkdə savadlı kadr kimi yetişməsində mühüm rol oynaya bilər. Təhsildə İ K T - nin tətbiqi şagirdlərdə ətraf aləmi informasiya baxımından təhlil etmək və müvafiq nəticələr çıxarmaq bacarıqlarının formalaşdırılmasına imkan yaradır. İnformasiya ilə işləmək bacarığı müxtəlif praktiki üsullara bələd olmağa, həmçinin, müasir texniki vasitələrlə informasiya mübadiləsi aparmağa kömək edir.(2).İ K T - nin dərslərdə tətbiqi təlimin motivasiyasını gücləndirir, şagirdlərin dərketmə fəaliyyətini aktivləşdirir. Həmçinin, İ K T innovativ tədris və öyrənmə imkanlarının təmin edilməsi üçün müəllimlərə böyük imkanlar yaradır. Təhsildə İ K T - nin bir faydalı cəhəti də var ki, istedadlı pedaqoqlar kompüter vasitəsilə öz tədris işlərini və yaradıcılıq fəaliyyətlərinin nəticələrini individuallaşdıra bilirlər. Müəllim standart dərsliklərdə olmayan, özü tərəfindən düşünülmüş maraqlı məsələ və tapşırıqları kompüterdə təqdimat şəklində hazırlaya bilər. Bəs İKT - dən necə istifadə etmək olar? İKT -dən istifadə etmək üçün biz “ Microsoft Powerpoint”, “Net Support School Tutor Console” proqramından, həmçinin də “Ağıllı lövhə”dən istifadə edə bilərik. Tədris prosesində interaktiv (ağıllı) lövhədən istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu , yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompyuterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə apara bilərik. Bu dediklərimizdən bu qənaətə gəlmək olar ki, müasir dövrümüzdə həqiqətən tədrisin İKT ilə aparılması tədrisin daha da yüksək səviyyədə aparılmasına gətirib çıxarır.

**ƏDƏBİYYAT**


1. ARTPİ-nin Elmi əsərləri, 2003, № 1
2. İnformasiya kommunikasiya texnologiyalarının və elektron resursların təhsildə istifadə imkanları . “Şərq qapısı” qəz., 2016, 08 yanvar
3. Qəhrəmanov. A. –Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun iştirakçıları üçün təlim materialı. Bakı, 2012.


## MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜHÜM AMİL KİMİ


**İsmət Məmmədova,**
*ARTPİ-nin böyük elmi işçisi*
*E-mail: ismet.memmedova@mail.ru*
**Zeynəb Hüseynova,**
*Naxçıvan Müəllimlər İnstitutunun laborantı*
E-mail: zizideniz@yahoo.com

***Açar sözlər**: fəal təlim, pedaqoji texnologiyalar, idrak fəallığı*
***Ключевые слова**: активное обучение, педагогические технологии, познавательная активность*
***Keywords:** activielearninq, pedagogical technologies, cognitive activity*

Təlimin keyfiyyətinə təsir edən amillərdən biri müasir pedaqoji texnologiyalardır. Təlim prosesi zamanı yüksək keyfiyyətlərə malik şagirdlərin yetişdirilməsi mexaniki hafizəyə deyil, tənqidi təfəkkürə istinad etməyi və idrakı fəallığın yüksəldilməsini tələb edir.

Müasir pedaqoji texnologiya dedikdə, əsasən, bütün pedaqoji prosesdə mövcud vasitələr, müxtəlif təlim-tərbiyə prosesləri, öyrətmə modelləri və metodları, idarəetmə, qiymətləndirmə və s. nəzərdə tutulur.

Müasir pedaqoji texnologiyaların tədris prosesinə tətbiq edilməsində əsas məqsəd ondan ibarətdir ki, şagirdlər çox qısa yolla heç bir səhvə yol vermədən nəticəyə yaxınlaşa bilsinlər.

Araşdırmalarda göstərilir ki, "tədrisdə texnoloji yanaşma tədris prosesini dəqiq idarə etməyə imkan verməklə bərabər, təhsil məqsədlərinin əvvəlcədən yüksək səviyyədə yerinə yetirilməsinə zəmin yaratmalıdır". Müəllim pedaqoji texnologiyaların tədris prosesinə tətbiqi üçün öz işini elə qurmalıdır ki, interaktiv təlim metodlarının imkanlarından ən optimal yollarla istifadə etməyə nail olsun. prof. Ə.Ə. Ağayev yazır: "Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir…Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin, onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın; onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll edə bilmək qabiliyyəti formalaşdırsın".

Fəal təlimdə şagird öz təlim fəaliyyəti ilə proqram çərçivəsində bilikləri mənimsəyir; onu əks etdirir; yenidən tətbiq edir və yadda saxlayır; uyğunluğu tapır. Müəllim qarşısına qoyduğu məqsədə biliyi bir başa şagirdlərə ötürmək üsulu ilə çatmır. O, bu məqsədə çatmaq üçün onların qarşısında elə suallar qoyur ki, onların özündə, birbaşa örtülü cavabları olur. Şagirdlərin bu suallara assosiativ cavabları onları bu gün nə öyrənəcəyinin əsasına gətirib çıxardır. Şagirdlərin qarşısına qoyulan suallar əsasən onların bilik dairəsində olur.

Fəal təlimdə şagirdlərin dərs fəaliyyəti müəllimin rəhbərliyi altında onun göstərdiyi istiqamətdə, cütlükdə, qrupda fəal (interaktiv) işlərdən ibarətdir. Onlar təlim materialını yeni formaya salaraq, onun altından xətt çəkir, dəyişdirir, eyniliyi və yaxud fərqi tapır, müqayisə edir, material axtarıb tapırlar. Ancaq bunun hamısı proqram çərçivəsində görülür.

Biz mütləq öz uşaqlarımızın fiziki, zehni inkişafı, dünyagörüşü, ailə tərbiyəsini, yaşadığı mühiti əsas götürərək bu metodları özümüzünküləşdirərək ondan istifadə etməyi bacarmalıyıq. Məhz bu zaman bizim təhsildə istədiyimiz nailiyyətləri əldə edə bilərik.

Hazırda təlimin başlıca vəzifələrindən biri şagirdlərə öyrənməyi öyrətmək, onların biliklərə şüurlu yiyələnmələrini təmin etməkdən ibarətdir. Təlim keyfiyyətinin artırılması, təlim-tərbiyədə istənilən nəticənin əldə olunması üçün müəllim ənənəvi metodlarla interaktiv metodların bütün imkanlarından istifadə etmək zəruridir. Müşahidələr göstərir ki, müəllim, hər şeydən əvvəl, şagirdlərdə elmə maraq və öyrənmək həvəsi yaradır, biliklərin mənimsənilməsi, möhkəmləndirilməsi və tətbiqi prosesində şagirdlərin müstəqilliyini təmin edir, onların istədikləri vaxt sözlərini deməyə, müqayisə etməyə, əqli nəticələr çıxarmalarına şərait yaradır. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin apardığı İslahatın əsas məqsədi, ana xətti təlim prosesində şagird təfəkkürünün inkişafı üçün ona bilik ötürməyi yox, bilik qazanmaq üçün şərait yaratmaqdır" və bu gün Azərbaycan təhsili qarşısında duran vacib məsələlərdən biri də yaddaş məktəbini təfəkkür məktəbinə çevirməkdir**".**

Müəllim təlim zamanı müasir pedaqoji texnologiyaların tətbiqinə nail olursa, o, təşkilatçılığı üzərinə götürməklə şagirdlərin fəallığını artırmış olur ki, bu da onların interaktiv fəaliyyətlərinin artmasına, inteqrativ bilik və bacarıqlarının dərinləşməsinə, intellektual səviyyələrinin yüksəlməsinə səbəb olur.

**ƏDƏBİYYAT**

1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, Mütərcim, 2010.
2. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.

3. Abbasov A.N. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.

## YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Mətanət Həkimi,**
*ADPU-nun Şamaxı filialının müəllimi*
E-mail: matanathakim@mail.ru

***Açar sözlər:*** *təlim, texnologiyalar, yaradıcılıq.*
***Ключевые слова:*** *обучение, технологии, творчество.*
***Keywords :*** *education, technology, creativity*

Təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqilliyini təmin etmək məqsədi ilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün yeni pedaqoji texnologiyalardan, yeni təlim metodlarından istifadə etmək çox faydalıdır.

Yeni təlim texnologiyalarının üstün cəhətlərini prof. Ə. Ağayev belə göstərmişdir: “. dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil, şagirdlər də yaradıcılıq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yeniliyə meyllilik güclənir”.

Təlim prosesini aktivləşdirmək, şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirmək, yaradıcılığa həvəsləndirmək və öyrənməyə maraq yaratmaq məqsədini güdən müəllim, şagirdi təlimə cəlb edəcək müəyyən metod, texnika və proseduralardan istifadə etməlidir. Şagird təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitinə tətbiq etməkdə yardım göstərməlidir. Yeni texnologiyalar tədris strategiyasının yerinə yetirilməsinə istiqamətləndirildiyindən, onlar nəzərdə tutulmuş təlim məqsədlərinə nail olmaqda əsas alət rolu oynayır.

Yeni texnologiyalar bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir: şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri, müəllim tərəfindən problemli şəraitin yaradılması, biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s. Qeyd edilən xüsusiyyətlər bəzi ənənəvi təlim metodlarında da olmuşdur, lakin yeni təlim metodları bütövlükdə göstərilən xüsusiyyətlərə əsaslanır.

Araşdırmalar göstərir ki, yeni təlim texnologiyaları aşağıdakı prinsiplərə əsaslandıqda şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə imkan verir:

-təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə;
-şagirdlərin sosial inkişafına səbəb olacaq kooperativ təlimə;
-biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına;
-bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə;
-müəllimin təşkilatçı, koordinator, bəzi hallarda arbitr rolunda çıxış etməsinə.

Tədqiqatçılar təlim texnologiyalarının komponentlərini və prinsiplərini də müəyyənləşdirmişlər. Təlim texnologiyasının komponentləri:

“1. Təlim məqsədlərinin qoyuluşu;
2. Tədris materiallarının və öyrədici əməliyyatların işlənib hazırlanması;
3. Əks əlaqənin nəticələrinə əsasən təlim əməliyyatlarının korrektə olunması;
4. Təlimin nəticələrinin cari və yekun qiymətləndirilməsi”.

Təlim texnologiyalarının tətbiqi prinsipləri:

1. Tərbiyəedici təlim prinsipi;
2. İnkişafetdirici təlim prinsipi;
3. Təlimdə müvəffəqiyyət qazanmaq prinsipi;
4. Şagirdlərdə əks əlagə prinsipi;
5. Müntəzəm olaraq təkrar etmək prinsipi;
6. Optimal psixi gərginlik prinsipi;
7. Şagirdlərin təlim prosesinə maksimum cəlb edilməsi prinsipi;
8. Təlimdə yaxın inkişaf zonasının oriyentasiyası prinsipi;
9. Müəllim və şagirdlərin vahid məqsədlər üçün birləşməsi prinsipi”.

**ƏDƏBİYYAT**

1. Ağayev Ə.A. Müasir təlim prosesi: nəzəriyyə və təcrübə məsələləri // Azərbaycan məktəbi, 2005, № 6
2. Əliyev A., Şıxıyev M. Riyaziyyat dərslərində interaktiv təlim metodlarından istifadə // Pedaqoji Universitet Xəbərləri, 2005, № 4
3. Qədimova X. İnteraktiv təlim metodlarının tətbiqi yolları. Bakı: Nur, 2003.

## MÜASİR DÖVRDƏ İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASINDA İKT-nın ROLU

**Həsən Nəcəfov,**
*Naxçıvan Universitetinin tyutoru*
**Şamil Hümbətov,**
*Naxçıvan Universitetinin müəllimi*
E-mail: h.necefov@nu.edu.az, shumbetov@nu.edu.az

***Açar sözlər:*** *informasiya, İKT, İKT-nin inkişafı, informasiya cəmiyyəti*
***Key Words:*** *information, information communication technology, development of information communication technology, information society*
***Ключевые слова:*** *информация, информационно-коммуникационные технологии, развитие информационно-коммуникационных технологий, информационное общество*

İnsan yarandığı gündən əvvəlcə maddələrə, sonra enerjiyə və nəhayət, informasiyaya sahib olmaq uğrunda mübarizə aparmışdır. Sivilizasiyanın ilk dövrlərində insana elementar bilik və bacarıqlar kifayət edirdisə, artıq cəmiyyət inkişaf etdikcə informasiyanın tədricən çoxalması nəticəsində insan şəxsi biliklərinin az olmasını hiss etməyə başladı. İnformasiyanı düzgün emal etmək və lazımi qərarlar qəbul etmək üçün insandan malik olduğu bilik və təcrübələri ümumiləşdirmək tələb olunurdu. Ona görə də o, müxtəlif qurğular düzəltməyə başladı. İnformasiyanın emalı üçün nəzərdə tutulan üsul və vasitələr meydana gəldi və onlar cəmiyyətdə ciddi dəyişikliklərə – informasiya inqilablarına gətirib çıxardı. Cəmiyyətin informasiyalaşdırılması prosesi cəmiyyətin hər bir üzvünə öz tələbatına uyğun informasiya almaq imkanı verir.

XX əsrin ortalarından başlayaraq informasiyanın həcminin artması hiss edilməyə başlandı. Hər gün yaranan yeni informasiya axınından düzgün faydalanmaq daha da çətinlik yaratmağa başladı və dünyada böyük informasiya gərginliyi yarandı. Cəmiyyət isə bütünlüklə bu informasiya toplusundan istifadə etmək bacarığında deyildi. İnformasiya böhranı cəmiyyəti yaranmış vəziyyətdən çıxış yollarını düşünməyə vadar etdi. Müxtəlif fəaliyyət sahələrində kompüterlərin informasiyanı emal və ötürülməsində müasir vasitələrin tətbiqi sənaye inkişafı mərhələsində yeni təkamül prosesinin informasiyalaşdırılmasının yaranmasına səbəb oldu.

İnformasiyalaşdırma - informasiya-kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə istifadəçilərin informasiya tələbatlarının ödənilməsi üçün optimal şəraitin yaradılması prosesidir. İnformasiya cəmiyyətinin maddi-texniki bazasını, kompüter texnologiyaları və şəbəkələri əsasında formalaşan müxtəlif növ sistemlər, informasiya texnologiyaları, telekommunikasiya vasitələri təşkil edir.

İnternet mediasının inkişafı, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. İnformasiya cəmiyyətinin maddi texniki bazasını, kompüter texnologiyaları və şəbəkələri əsasında formalaşan müxtəlif növ sistemlər, informasiya texnologiyaları və telekommunikasiya vasitələri təşkil edir. İKT-nin inkişafı sayəsində informasiya və bilik bazaları yaradılır. Ölkəmizdə aparılan islahatlar nəticəsində müasir texnologiyaların tətbiq sahəsi genişləndirilib, informasiya cəmiyyəti inkişaf edib, kompüter istifadəçilərinin sayı artmışdır. Cəmiyyətdə İKT-nin inkişafının genişləndirilməsi üçün ilk növbədə insanların İKT üzrə biliklərinin artırılması, həmçinin informasiyanın daha da geniş yayılmasına şərait yaradan ictimai mərkəzlərin fəaliyyəti və güzəştli şərtlərlə kompüterlərin əldə edilməsi imkanın yaradılması bariz nümunədir. İKT infrastrukturuna və xidmətlərinə münasib qiymətlərlə çıxışın təmin edilməsində informasiya cəmiyyətinin inkişaf

etdirilməsinin mühüm məsələlərindən biridir. Milli telekommunikasiya peyk xidmətlərinin genişləndirilməsi, ucqar yaşayış məntəqələrin yüksək sürətli internetlə təmin olunması da həmçinin informasiya cəmiyyətinin inkişafına öz təsirini göstərir. İnformasiya cəmiyyətinin inkişaf etdirilməsində dünya İKT təcrübəsindən istifadə etməklə yeni bilik və texnologiyaların yaradılması və yayılması əsas istiqamətlərdən biridir. Müasir dövrdə İKT-nin inkişaf etdirilməsində əsas amil kimi təhsilli gənc nəslin yetişdirilməsi və onların müasir dövrün texnologiyalarının fəal istifadəçiləri və yaradıcıları kimi formalaşması və inkişaf etdirilməsini göstərmək olar. Həmçinin İKT-nin təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, müəllimlərin kompüter biliklərinin artırılması, e-təhsil və distant təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi də əsas istiqamətlərdən biridir. Cəmiyyətin bütün üzvlərinin kompüterdən, internet xidmətlərindən, istifadə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi İKT-nin inkişafına öz töhfəsini verəcək və bundan geniş şəkildə istifadə edilməsinə şərait yaradacaqdır. Bununla da İKT istənilən fəaliyyət sahəsinə daha dərindən nüfuz edəcək, cəmiyyətin inkişafındakı rolunu əhəmiyyətli dərəcədə yüksəldəcəkdir.

**ƏDƏBİYYAT**

1.İCT .az
2.Wikipedia. az
3. e-qov.az
4. mincom az

## TƏDRİSİN SƏMƏRƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ TƏLİM VASİTƏLƏRİNİN ROLU

**Fərqanə Abbasova,**
*Bakı şəhəri Xəzər rayonu 181 nömrəli tam orta məktəbin direktoru*
E-mail: fargana@mail.ru

***Açar sözlər:*** *vasitə, məktəb, seçmək, dəyər, nəticə, oxu prosesi*
***Ключевые слова:*** *средство, школа, выбирать, ценность, результат, процесс чтения*
***Key words:*** *facilities, school, to choose, value, result, the reading process*

Ümumtəhsil məktəblərində təlimin səmərəsinin yüksəldilməsində təlim vasitələri də mühüm əhəmiyyət kəsb edir. Əslində, bu vasitələr öyrədənin öyrətmə, öyrənənin öyrənmə prosesində istifadə etdiyi texnologiyadır. Metod işi «necə görmək?», vasitə isə «nə ilə görmək» suallarına cavabdır. Müasir təlimdə makro və mikrotexnologiyaların: kompüter, internet, multimedia müşahidə vasitələri, ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklər, kompüter treninq proqramlarının daxil olduğu elektron-tədris-metodik komplekslərin istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Bütün sadalananlardan istifadə şagirdlərin müstəqilliyini, sərbəst fikir söyləyə bilmək qabiliyyətlərini, təfəkkür müstəqilliyinin inkişafını təmin etmək, onların informasiya cəmiyyətində gələcək həyata, müasir cəmiyyətin informasiyalaşması sayəsində meydana gələn sosiallığın həyata keçirilməsinə hazırlanması məqsədini daşıyır. Bununla müəllimlər həm də müasir pedaqoji texnologiya metodlarından və vasitələrindən ağılla istifadə edib, təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəldə bilərlər.

Müasir dövrdə innovasiyalar tədris proqramlarında qarşıya qoyulan təhsil məqsədlərinin daha səmərəli yerinə yetirilməsini nəzərdə tutan metod və vasitələr sistemi kimi nəzərdə tutulur.

Ötən əsrin 60-cı illərindən ABŞ, Böyük Britaniya, Almaniya, Rusiya, İtaliya, Yaponiya və başqa ölkələrdə təlimin texnoloji vasitələri kimi təhsil prosesinə gətirilən və az müddət ərzində böyük nəticələr əldə edilən təlim vasitələri, xüsusən kompüter, internet, veb şəbəkə, elektron öyrənmə vasitələri bu gün öyrədən və öyrənən arasında müntəzəm və operativ əlaqə, əks əlaqə, dialoq yaradan əhəmiyyətli vasitələr kimi təsbit olunmağa başlanmışdır. Bu texnoloji vasitələr elmi biliklərin didaktik dəyişməsinə, müəllim

və şagirdlərin, rəhbər işçilərin təhsil sahəsində innovasiyaları nəzərə almaqla tədris prosesinin elmi təşkilinə gətirib çıxarır.

Peşəkarcasına seçilmiş təlim vasitələri şagird və müəllimlərin müxtəlif fəaliyyət növlərində tətbiq olunur və hər bir şagirdin psixi inkişafına güclü təsir göstərir. Müəllim şagirdlərin idrak fəallığını gücləndirmək və təlimin səmərəsini yüksəltmək məqsədilə təlimə bir sıra pedaqoji texnologiyalar daxil edərək məktəblilərin psixi funksiyalarını da dəyişmiş olur.

Qavrama prosesində iştirak edən görmə və eşitmə analizatorları tədris materialı haqqında daha dolğun və dəqiqi təsəvvürlərin qazanılmasına imkan verir. Pedaqoji texnologiyalar vasitəsilə alınan məlumatlar həm də qısa müddətli hafizədən uzunmüddətli hafizə fonduna ötürülür. Təhlil-tərkib, ümumiləşdirmə, nəticə çıxarmaq əsasında qazanılmış materiallar saf-çürük edilir, daha əhəmiyyətliləri yaddaşda möhkəmlənir, az əzəmiyyətli olanlar isə yaddaşdan silinir.

Yuxarıda sadalanan təlim vasitələrinin kompleks istifadəsi sadalananlar şagirdin bilik, bacarıq səviyyəsinin artırılmasına, potensialının ortaya çıxarılmasına, ixtiyari diqqətinin təkmilləşməsinə, təfəkkürünün zənginləşməsinə təkan verə bilər.

**ƏDƏBİYYAT**

Bəylərov E.B. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair // Kurikulum, 2011, № 2

## MÜASİR DÖVRÜN QLOBAL PROBLEMLƏRİNİN DOĞURDUĞU BÖHRANLAR VƏ ONLARA YANAŞMADA İKT–nın ROLU

**Yeganə Muradova,**
*Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı*
E-mail: yeganə.muradova89@mail.ru

***Açar sözlər:*** *qlobal, İKT, planetar, təhsil, identiklik, antropogen, böhran*
***Ключевые слова:*** *глобальный, ИКТ, планетарный, образование, идентификация, антропогенный, кризис*
***Key words:*** *global, İCT, planetar, education, identification, antropogen, crisis*

Insan ilə təbiətin vəhdətinin pozulması nəticəsində yaranmış problemlər elmdə də qlobal problemlər adlanır. Qlobal problemlər bütövlükdə dünyaya, həm də onun regionlarına və ya ölkələrə aid olan planetar miqyaslı ümumbəşəri problemlər kompleksidir. Lakin qlobal problemlərin planetar xarakteri onların müxtəlif regionlarda spesifik şəkildə təzahürünü istisna etmir.

Ağır nəticələr doğura biləcək böhranlı vəziyyətlərin uzanması müasir dövrün bəzi qlobal proseslər üçün səciyyəvi əlamətidir. Təbii fəlakət xarakteri daşıyan böhranlar bəşəriyyətə qədimdən məlumdur. Bu cür böhranlar lokal xarakter daşıyır və zaman etibarilə məhdud olurdu, insan isə həmin böhranların səbəbkarı deyil, yalnız onların qurbanına çevrilir. Müasir zamanda isə böhranlar müəyyən mənada insanların fəaliyyətinin nəticəsidir. Bunlar antropogen böhranlardır. Xammal böhranı, enerji, ərzaq, ekoloji, demoqrafik və başqa böhranların hamısı maddi xarakterli hadisələrdir. Lakin elə böhranlar var ki, onlar insanın mənəvi aləminə təsir göstərir. Onlardan ən təhlükəlisi identiklik böhranıdır. Bu kimi böhranlar nəticəsində insan dünyada özünün missiyası haqqında aydın təsəvvürünü itirir. Bu problemlərdən təcrid olunmuş şəkildə, onların dinamika və təsirini nəzərə almadan müasir cəmiyyəti anlamaq qeyri-mümkündür.

Qlobal problemlərin həlli yollarının axtarışında fəlsəfə xüsusi rol oynayır. O, həmin problemlərin təhlilinə getdikcə daha fundamental şəkildə qoşulur, onların tədqiqinə də dünyagörüşü və metodoloji yanaşmaları müəyyənləşdirir.

Məhz qlobal problemlərin fəlsəfi təhlili onların elmi mövqedən öyrənilməsi və humanist baxımdan qiymətləndirilməsi üçün zəmin yaradır. Bu gün fəlsəfə həm “insan amilinin” reallığını, həm də onun sosial mənada şərtlənməsini nəzərə alan yeni dəyərlər axtarışına istiqamətlənməlidir.

Müasir dövrün qlobal problemləri çoxdur. Onlardan istilik nüvə müharibəsi problemi; təbii ehtiyatlardan səmərəli və kompleks şəkildə istifadə olunması; fəal demoqrafik siyasətin aparılması; ətraf mühitin mühafizəsi; sosial ədalətin təzahürləri; aclıq, yoxsulluq və s. aradan qaldırılması; elmi-texniki inqilabın nailiyyətlərindən səmərəli istifadə edilməsi; təhsil, maarif, səhiyyə və s. göstərmək olar. Şübhəsiz, bu problemləri təkcə bir ölkənin səyi ilə aradan qaldırmaq qeyri-mümkündür. Burada ümumdünya miqyasında əməkdaşlıq, ölkələrin əksəriyyəti ilə sıx, əməli qarşılıqlı fəaliyyət zəruridir.

Yuxarıda qeyd olanları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, müasir qlobal problemlərin yaranması səbəblərini aşağıdakı kimi üç qrupa ayırmaq olar:

I. İctimai inkişafın əzəli obyektiv ziddiyyətləri-cəmiyyət, insan və təbiət arasındakı ziddiyyət;

II. Cəmiyyətin ümumi böhranının güclənməsi;

III. Dünyanın müxtəlif regionlarında elmi-texniki inqilabın sürətli inkişafı.

Qlobal problemlərin yaranması səbəblərinin əbədi ziddiyyətlərlə, ya da elmi-texniki inqilabın ziddiyyətləri ilə əlaqələndirməklə yanaşı, alimlərin əksəriyyəti qlobal problemlərin yaranma səbəblərinin hər üç qrupunu qəbul edir.

Qloballıq irimiqyaslı anlayış olduğu üçün bütün dünyanın, bəşəriyyətin taleyinə toxunan problemləri özündə əks etdirir. Qloballaşmanın yaranmasında əsas səbəb kimi müasir informasiya texnologiyalarını da göstərmək olar.

Təhsilin informatlaşması probleminin həlli dünya təhsil təcrübəsində tarixən mühüm əhəmiyyət daşıyan və analoqu olmayan sistem problemidir. Bu gün deyə bilərik ki, təhsilin informatlaşması kimi qlobal əhəmiyyətli, mürəkkəb texnoloji problemin həlli bir sıra məsələlərin - təşkilati, texniki, elmi-metodik, layihələndirmə, kadr, maliyyə və s. kimi məsələlərin kompleks həllini tələb edir. Bəşər tarixində heç bir təhsil yeniliyi, təhsil islahatı, təhsil innovasiyası bu qədər inqilabi dəyişiklərə səbəb olmamış, bu qədər diqqət cəlb etməmişdir. Problemin ciddiliyi həm də onunla əlaqədardır ki, bu gün İKT elə bir sürətlə inkişaf edir ki, təhsil sistemi İKT-nin bu inkişafı ilə heç cür ayaqlaşa bilmir, inkişaf edərək heç cür ona çata bilmir. Təhsil sisteminə və ayrı-ayrı fərdlərin, qrupların, cəmiyyətin intellektual inkişafına, nəticə etibarilə ilə insan potensialının inkişafına, ölkələrin iqtisadi və texnoloji sıçrayışına ciddi təsir imkanı nəzərə alınaraq İKT-ilə bağlı bu problemin həlli ilə bütün sivil dünya ciddi sürətdə məşğuldur.

Müasir dövrdə dünyada cərəyan edən qloballaşma prosesinin gedişində təhsil əhəmiyyətli rola malikdir. Bu sahəsində mühüm pedaqoji innovasiyalar həyata keçirilməkdədir. Hal-hazırda bu yönümdə beynəlxalq layihələr çərçivəsində görülən işlər tədrisin mütərəqqi kommunikativ metodikalarının inkişafında mühüm rol oynamaqdadır. Texnologiya sahəsində dünyada aparıcı mövqelərdən birini tutan İntel şirkəti tərəfindən dünyanın bir çox ölkələrində həyata keçirilən təhsilin informatlaşması üzrə “İntel. Gələcək üçün təhsil” layihəsi bu baxımdan səciyyəvi mahiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010.
2. A. Şükürov Fəlsəfə. Dərslik. Bakı, 2008.
3. “Təhsildə qloballaşma və İKT” mövzusunda beynəlxalq Konfransın materialları. 17-19 may, Bakı: Azərbaycan, 2008.

# TƏLİMDƏ İKT-dən İSTİFADƏNİ ZƏRURİ EDƏN AMİLLƏR

**Tahirə Bağırova,**
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
E-mail:bagirova.taira@gmail.com

***Açar sözlər:*** *kompüter, internet resurslar, innovativ dərs modeli, İKT –dən istifadə bacarıqları, multimedia texnologiyaları*

***Ключевые слова:*** *компьютер, интернет ресурсы, инновационная модель урока, умения пользоваться ИКТ, мультимедийные технологии*

***Keywords:*** *computer, internet resources, innovative lesson model, the ability to use ICT, multimedia technology*

Müasir dövrdə təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların formalaşdırılması ilə yanaşı, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiya hazırlığını da təmin etməlidir. Bu məqsədlə istər orta, istərsə də ali məktəblərdə həyata keçirilən dərslərin keyfiyyət göstəricilərinin artırılması məqsədilə İKT-nin tətbiqi günün tələbinə çevrilmişdir. Belə ki, təhsilin inkişafı üzrə Dövlət strategiyasında da deyildiyi kimi, "İnformasiya – kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsil alanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal – interaktiv təlim metodları daha yüksək nəticələr verir". (1, 4).

Yeni təlim strategiyaları və fənn kurikulumlarının məzmunundan irəli gələn tələblər şagirdlərdə tənqidi və yaradıcı düşünmə, tətbiqetmə, problemi həll etmə bacarıqları ilə yanaşı, həm də müxtəlif mənbələrdən informasiyanı düzgün toplama və faydalı istifadə edə bilmə bacarıqlarını yüksəltməyi əsas hədəf kimi qarşıya qoyur. Bu tələblərin icrası məktəblərdə fənlərin tədrisi zamanı İKT-nin təlim prosesində tətbiqini zərurətə çevirir.

Müasir dərs modelini kompüter və internetsiz təsəvvür etmək mümkün deyil! Ölkəmizdə məktəblərin informasiyalaşdırılması üçün avadanlıq və proqram təminatlarının təşkili, elektron resursların müəllim və şagirdlərin istifadəsinə verilməsi, müəllimlərin İKT bacarıqlarının zənginləşdirilməsi məqsədilə müxtəlif təlimlərə cəlb olunması istiqamətində genişmiqyaslı layihələrin həyata keçirilməsi bu gün də davam etməkdədir.

İnformasiya və kommunikasiya texnologiyalarından istifadə təlimin effektivliyini artırmaqla yanaşı, şagirdlərdə biliklərə müstəqil yiyələnmək bacarıqlarını da inkişaf etdirir. Əgər lap yaxın keçmişdə təhsilalanlar məlumatı yalnız müəllimdən, dərslik və dərs vəsaitlərindən əldə edirdisə, hazırda onlar internet, e-kitablardan istifadə imkanlarına da malikdirlər. Buna görə də, öyrənənlərdə elektron resurslardan düzgün istifadə etmə, məlumatı əldə edə bilmə, əldə edilmiş məlumatın emalı, tətbiqi və təqdimatı bacarıqlarını formalaşdırmaq lazımdır. Onların bu sahədə bacarıq və qabiliyyətləri olmasa, işin təşkilinin səmərəsi olmaz. Deməli, informasiyanın sürətlə yeniləndiyi müasir dövrdə innovativ dərs modelinin təşkili və həyata keçirilməsi müəllimin konstruktiv, layihələndirici və s. bacarıqları ilə yanaşı, İKT üzrə hazırlığını da başlıca tələbə çevirir. Bu gün müəllim tədris etdiyi mövzularla əlaqəli internet sayt və portallardan lazımi biliklərin əldə edilməsi, müxtəlif səpkili təqdimatların, slaydların, e-test və tapşırıqların hazırlanması üçün proqramlardan, videofilm və animasiyaların tətbiqində multimedia texnologiyalarından, e- lövhə və e- poçtdan istifadə bacarıqlarına malik olmalıdır ki, şagirdlərini də bu istiqamətdə düzgün və səmərəli fəaliyyətə sövq edə bilsin.

Məktəb təcrübəsi ilə bağlı apardığımız araşdırmanın nəticələrinə görə təlim prosesində kompüter, internet və multimedia vasitələrindən səmərəli istifadə dərsi öyrənənlər üçün daha maraqlı, cəlbedici və yaddaqalan etməklə yanaşı, onlarda müstəqil bilik əldə etmə və tədqiqat aparma marağını artırır: belə mühitdə şagirdlər təşəbbüskarlığa və yaradıcı fəallığa daha həvəslə qoşulurlar. Sözsüz ki, belə interaktiv öyrənmə mühitinin təşkili, təhsilalanların motivasiyası, stimullaşdırılması və düzgün istiqamətləndirilməsi üçün müəllimin də bu sahədə öz peşəkar kompetensiyalarını daim inkişaf etdirməsi və artırması çox vacibdir.

Unutmayaq ki, gələcəyin rəqabətədavamlı qabiliyyətlərə, qlobal əmək bazarına çıxış imkanlarına malik, yeniliklərə çevik reaksiya verən, yaradıcı düşünən və problemlərin analitik həlli yollarını tapa

bilən kadrlarının formalaşdırılması məktəblərdən başlayır. Məhz, bu fakt müəllim hazırlığına diqqətin daha da artırılmasını günün başlıca tələbinə çevirir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr

2. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.

## TƏHSİLDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏ

**Zülfiyyə Vəliyeva,**
*ADPU-nun Pedaqoji təhsilin problemləri*
*ETL-nin elmi işçisi*
E-mail: zulfiyye-veliyeva@mail.ru

***Açar sözlər:*** *İnnovasiya, yeni pedaqoji texnologiyalar, metodlar*
***Ключевые слова:*** *Инновации, новые педагогические технологии, методы .*
***Key words:*** *Innovation, new teaching technologies, methods.*

İnsanlar hər bir dövlətin həqiqi sərvətidir və hər hansı sahədə aparılan inkişaf siyasəti məhz insanlara xidmət etməlidir. Müasir dövrdə hər bir xalqın, dövlətin gələcək taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları, bütün bunların da fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Funksional imkanları elm və təhsilin ictimai həyatın ən müxtəlif sahələrində tətbiqi yolu ilə gerçəkləşdirilən bu əvəzsiz kapital hazırkı mərhələdə fərd və ictimai toplumların, geniş mənada, xalqların gələcək inkişafının, yaşayış səviyyəsinin, habelə qazandığı nailiyyətlərin rəhni kimi çıxış edir . Azərbaycan təhsilində həyata keçirilən innovativ proseslər müəllimlərin qarşısında şagirdin bir şəxsiyyət kimi yetişdirilməsi vəzifəsini qoyur. Özünün milli kimliyini dərk edən və mənsub olduğu xalqın tarixi-mədəni irsini qoruyub saxlayan, gələcəkdə cəmiyyətdə tamhüquqlu bir vətəndaş olmağı bacaran şəxsiyyət yetişdirmək təhsilimizin ümdə vəzifəsinə çevrilib. Hər bir şagirdin şəxsiyyətə çevrilmə prosesi onun əvvəlcə bir vətəndaş kimi yetişdirilməsindən keçir. Hamı qəhrəman ola bilməz, amma hamı vətəndaş olmalıdır. Şagirdə öz hüquqlarını bildiyi kimi, qarşısında duran vəzifələri də vicdanla yerinə yetməyi öyrətmək müəllimlərin qarşısında duran bir vəzifə borcudur.XXI əsrin tələbləri baxımından təhsildə ənənəviliyin uğurları qorunub saxlanılmaqla yanaşı, innovasiyaların, yeni pedaqoji texnologiyaların tətbiqi təhsilin keyfiyyətini yüksəldən mühüm şərtlərdən hesab edilməlidir. Elə bu səbəbdən yüzlərlə yeni anlayışlar innovasiyalar kimi təhsilimizə daxil olmuşdur. Həyati bacarıqlara əsaslanan təhsil, kurikulum, elektron məktəb, İKT, distant təhsil, fəal və interaktiv metodlar, portfolio, Boloniya prosesi, sinergetik təhsil, konstruktiv təhsil, təhsildə sinektika və s. təhsilimizin yeni anlayışları olmaqla innovativ təhsilin mühüm sahələri və metodlarıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələni açmışdır. Bu dövlət sənədində təhsildə innovasiyalardan istifadəyə xüsusi diqqət yetirilmiş və deyilmişdir: "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur"

Təhsil müəssisəsi üçün müasir innovasiya proseslərinin idarə edilməsi kifayət qədər mürəkkəbdir, bu səbəbdən innovasiyalar sahəsində səriştəli məsləhət xidmətlərinə ehtiyac var.Bu prosesdə məqsədi təyinetmə, təhlil, planauyğun addımlar, pedaqoji texnologiyalar, yeniliyin təşkili, ekspert nəzarəti, bir sözlə, innovasion idarəetmənin bütün elementləri iştirak edir. Çalışmaq lazımdır ki, daha çox özünənəzarət və özünütənzimləmə elementləri olsun, nəinki kənardan tənzimləmə. İnnovasiya

proseslərini idarə edərək son nəticədə kollektivin inkişafını idarə etmək mümkündür. Təlim prosesində innovasiyalardan istifadə :

– təlim prosesində öyrənənin şəxsiyyətini ön plana çəkir; – uğurlu öyrədən-öyrənən, məktəb-ailə münasibətləri yaradır; – öyrənənlərin nailiyyətlərini qiymətləndirməyin üsul və vasitələrindən uğurla istifadə etmək; – qiymətləndirmə nəticələrinin təhlilinə əsasən müvafiq qərarlar qəbul etmək.

- öyrənmə prosesində öyrənənlərin şüurluluğu, fəallığı təmin edilir.

Cəmiyyətdə təhsilin, elmin inkişafı innovasiyaların tətbiqinə geniş imkanlar yaratmışdır. Bu isə öz növbəsində yeni ideyaların, elmi biliklərin, texnologiya və yüksək səmərəliliyə malik innovasiyaların tətbiqilə şagirdlərin intellektual səviyyəsinin yüksəlməsinə, onların müasir dünyada baş verən proseslərdəki yerini və rolunu müəyyənləşdirməyə imkan yaradır. Müasir müəllim daim təhsildə tətbiq edilən innovasiyalarla yaxından tanış olmalı, bilməli, anlamalı və tətbiq etməlidir.

**ƏDƏBİYYAT**

1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, 2013.
2. "Müəllim hazırlığının müasir problemləri, təhsildə elmi və texnoloji innovasiyalar". Beynəlxalq konfransı, AMİ, 26 - 28 noyabr, 2012.
3. "Müəllim hazırlığının müasir problemləri: Texnologiya, təhsil və inkişaf" Beynəlxalq konfransı. AMİ, 22 - 24 may, 2014.
4. Mehrabov A.O. "Pedaqoji texnologiyalar". Bakı, 2006.

## СОВРЕМЕННЫЕ ПОДХОДЫ И ТЕХНОЛОГИИ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА

**Аида Гасымова,**
*сотрудник ИПОАР*
**Дурия Идаятзаде**
*учитель русского языка лицея им. Зарифы Алиевой*
E-mail: aide_qasimova@box.az

***Açar sözlər:*** *müasir yanaşmalar, yeni texnologiyalar, effektif təlim, bacarıqların formalaşması, lüğət ehtiyatı*

***Ключевые слова:*** *современные подходы, новые технологии, эффективное обучение, формирование компетенций, словарный запас*

***Key words:*** *modern approache, new technologies, effective learnin, the formationof skills, vokabulary*

Цели современного урока – формирование таких компетенций, которые дадут мощный импульс в развитии обучающегося, повысят его самооценку, научат самостоятельно овладевать информацией. А для этого необходимо применение педагогом на уроках русского языка и литературы разнообразных форм и методов обучения. Каждый учитель знает, что приходится иногда по многу раз повторять с учащимися один и тот же материал по грамматике и все же он остается неусвоенным. Что же делать? Прежде всего нужны знания фонологической системы русского языка, понятие фонемы и умение различать ее сильные и слабые позиции в слове. Фонема в сильной позиции - ошибка исключена ,в слабой – внимание! –можно допустить ошибку. Необходимо использовать различные приемы, рассчитанные на механическое запоминание зрительного образа слова. Психология учит: чем чаще слово воспринимается зрительно, тем прочнее запоминается его графический образ. В своей работе я применяю неожиданной для учащихся постановкой или формулировкой вопроса, созданием проблемной ситуации, необычной формой проведения урока (опрос в виде интервью, путешествия в сказку и т.д.) и конечно же игры: «кто больше», «слово рассыпалось», «подберите пару», «аукцион», «слоговое лото», «слова-невидимки» и т.д.

Известно, что учащихся привлекает всегда все новое, необычное. А всякое познание начинается с удивления. Удивление же есть момент пробуждения интереса к изучаемой теме, к

самостоятельной работе. Главное в уроке, по-моему, постижение красоты языка, удивление перед его возможностями и – открытия, пусть маленькие, пусть не имеющие значение для науки. Вот когда ученик научится чувствовать язык, понимать, почему так, а не иначе говорят или пишут, тогда придет и желание «изловить» законы языка, т.е. через постижение красоты языка, его богатства, неисчерпаемых возможностей ученики придут к грамотной устной и письменной речи. Таким образом, поиск новых форм и методов обучения является обновлением содержания образования.

**ЛИТЕРАТУРА**

1. Гадимова . Х. Интерактивные методы обучения. Баку, 2005.
2. Равенский Ю.И. «Рассуждение проблемного характера». М., 2005.
3. Аббасов А.Н. Педагогика. Баку: Мутарджим, 2013.
4.Пашаев А., Рустамов Ф., Педагогика. Новый курс. Баку: Нурлан, 2007.
5. Махмутов М. И. Организация проблемного обучения в школе. М, 2007.
6. Вейсова З. Активное/интерактивное обучение. Баку, 2007.
7. Каганович С.Л. Новые подходы к школьному анализу поэтического текста. Газета «Литература», 2004, № 6

## İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

**Güldanə Bəhmənova,**
*Biləsuvar rayonu İsmətli kənd tam orta məktəbinin ingilis dili müəllimi*
E-mail:feride21@mail.ru

***Açar sözlər:*** *müasir texnologia, kompüter, animasiya, resurslar*
***Ключевые слова:*** *современные технологии, компьютер, анимация, ресурсы*
***Key words:*** *modern technology, computer, animation, resources*

Bu gün orta ümumtəhsil məktəblərində pedaqoji professionallığın ən vacib sahələrindən biri də təlimdə informatik keyfiyyəti artırmaq, İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaqdır. Müəllimlərin öz ixtisası sahəsində fundamental bilikləri təkcə pedaqogika və psixologiya sahəsində deyil, eyni zamanda informasiya sahəsində də təkmilləşməsi aktuallıq xarakteri daşıyır.

Xarici dil yeni fənn kurikulumları da bu sahədə müəllimlərindən konkret öyrətdiklərini fənnin struktur məzmununa və məqsədinə uyğun tədris etməyi, şagirdyönlü təlim modelini yaratmağı tələb edir.

Şagird müstəqilliyinə müsbət təsir edən ən mühüm vasitələrdən biri texnologiyaların köməyi ilə mövzunun mənimsənilməsidir. İngilis dili dərslərinin lazımi səviyyədə tədrisi üçün məhz şagirdlərin harmonik inkişafını təmin edən texnologiyaların təlimdə tətbiqi vacib şərtdir. İngilis dili dərslərinin müasir İKT üsulu ilə tədrisi şagirdlərin əməkdaşlıq şəraitində biliklərin əldə edilməsini dəstəkləyir və onlara seçdikləri vasitə və resurslardan istifadə etmək imkanı qazandırır. Mövzuların internetdən məlumat toplamaqla daha geniş aspektdə tədrisi şagird müstəqilliyini inkişaf etdirir və şəxsi anlayışlarını formalaşdırır. İngilis dilinin müasir texnologiyalarla tədrisi eyni zamanda şagirdlərin qavrama vərdişlərini müxtəlif istiqamətlərdə formalaşdırır. İnternetin köməyi ilə googl-un saytlarında, wikipediyalardan lazımlı mənbələri asanlıqla əldə edir, elektron portfoliosunu, şəxsi bloqlarını yaradırlar. İngilis dilinin autentik vasitələrlə öyrənilməsində daha çox iş kompüterin köməyi ilə həyata keçirilir.

İngilis dilini kompüterin köməyi ilə daha tez qazanmaq üçün müxtəlif mənbələr, proqramlar və oyunlar vardır ki, burada həm mətnləri, təsvirləri, səsləri və hərəkətləri yerinə yetirmək üçün şagirdlər üçün bütün istiqamətlər aydın şəkildə izah edilir. Elektron oyunlar, testlərlə tanış olur, didaktik materialların köməyini hiss edir və daim fəal kommunikasiyaya girirlər.

Son vaxtlar İKT-dən səmərəli istifadə üzrə müxtəlif elektron lövhələrin tədrisdə tətbiqi geniş vüsət almış və interaktiv lövhədən istifadə edilməsi dərsin əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində

kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. "Ağıllı" lövhələrin köməyi ilə istənilən mövzunu müxtəlif qurğuların köməyi ilə həyata keçirmək olur. Hərflərin, sözlərin, cümlələrin, mövzuların mənbələrdən seçilib səsləndirilməsi, yaddaşda saxlanması və möcüzəli ekranda nümayişi mühüm əhəmiyyətə malikdir. Şagirdlər dili praktiki bacarıq və təcrübələrlə qazanır, yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətlərini artırırlar.

"Ağıllı" lövhənin köməyi ilə eyni zamanda dərsin bütün əməliyyatların: gedişini, şablonları, modelləri kompüterin daimi yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək olar. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxan şagirdlər və ya təlimdən geri qalan uşaqlar üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, şagird iştirak edə bilmədiyi dərsin elektron variantı ilə sonradan tanış ola bilər və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər. Müəllimlər istəsə belə lövhələrin köməyi ilə tədris işlərini və yaradıcılıq fəaliyyətlərinin nəticələrini individuallaşdıra bilirlər, yəni tədqiqatyönlü tapşırıqlar əsasında araşdırıb tapdıqları məlumatları animasiya şəklində təqdimat şəklində hazırlaya bilər. Pedaqoji praktikada toplanmış təcrübələr əsasında hazırlanmış belə materiallar digər müəllimlər üçün də çox faydalıdır.

Elektron dərslər eyni zamanda şagirdlərdə fikir ardıcıllığını formalaşdırır, rabitəli nitqin yaranmasına imkan yaradır. İngilis dilində bu vacib şərtdir ki, şifahi nitqin qurulması zamanı fikir ardıcıllığı qırılmasın. Hər slaydda qoyulan məqsədlər və onlara uyğun qısa faktlar, şəkillər yorucu, uzun mətnlərin qısa şərhini verir, əsas ideyanı müxtəlif vasitələrlə mənimsədir. Slaydlarda sualların qoyulması şagirdləri daha çox düşünməyə motivə edir. Belə suallar ilk slaydlarda yönəldici xarakter daşıyır, sonrakı mərhələlərdə isə mövzunun açılmasına, tədqiqatın aparılmasına xidmət edir. Elektron dərslərin köməyi ilə şagirdlər tapşırıqları asan şəkildə mənimsəyir, dostlarının köməyi ilə səhvlərini tez aradan götürür, vizuallığa dəyər verir və yaradıcı işin planı ilə tanış olurlar.

Müasir ingilis dili dərslərində istifadə olunan müxtəlif səmərəli vasitələr müəllimlərə təqdim ediləcək, müxtəlif suallar ətrafında maraqlı diskussiyalar da aparılacaq.

**ƏDƏBİYYAT**


1. Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün Xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər).
2. Dudeney, G. & Hocly, N. (2008). *How to Teach English with Technology*. Essex: Pearson Longman.
3. V. Haqverdiyev, Orta məktəblərdə İKT-nin rolu. Azərbaycan Milli Elmlər Akademiyası, 2012.


## TARİXİN TƏDRİSİNDƏ İNNOVASİYALARDAN İSTİFADƏ


**Nuridə Əhəmədova,**
*Sumqayıt şəhəri 25 nömrəli tam*
*orta məktəbin tarix müəllimi*
E-mail:nuride.ahmadova@gmail.com



***Açar sözlər:*** *innovasiya, kompüter, bilik, bacarıq, idrak fəaliyyəti.*
***Ключевые слова:*** *инновация, компьютер, знания, умения, познавательная деятельность*
***Key words:*** *innovation, computer, knowledge, skills, cognitive activity*


İnnovasiyaların obyektinə bir neçə problem daxildir. Bunları öyrənməyə olan marağı artırmaq, təlimin sürətini yüksəltmək, vaxt itkisini necə aradan qaldırmaq və s. misal göstərmək olar. İnnovasiya cəmiyyətinin aparıcı qüvvəsi məhz təhsilsistemi olur.

İnnovativ təhsilin əsas məqsədi şagirdlərin qazandıqları bacarıqların tətbiqi əsasında əlavə biliklərin mənimsənilməsidir.

Tarix fənn kurikulumlarının obyekti hazırda və gələcəkdə şagirdlərin düşünülmüş şəkildə fəaliyyətləri üçün lazım olan bilik və bacarıqlardır. Bu fənlər fərdi və ictimai düşüncəni inkişaf etdirmək, şəxsiyyətli vətəndaş olmağı öyrətmək, keçmiş, indiki və gələcək zaman arasında bağlılığı başa düşmək üçün mühümdür.

Tarix fənlərinin tədrisinin təkmilləşdirilməsi məqsədilə texnologiyalardan istifadə ilə yanaşı layihə hazırlamaq, müzakirələr aparmaq, səhnələşdirməк təlimə marağı artırır. Video vasitələri kimi audio proqramları və lazer disklər, kompyuter proqramları, təhsil sahəsində texnologiyaların yeni formaları innovasiyalardan istifadə sahəsində mühüm rol oynayır.

V - IX siniflərin Azərbaycan tarixi proqramları ilə tanışlıqdan görünür ki, V sinifdə informasiya texnologiyalarından, audiovizual vasitələrdən istifadə öz əksini tapmamışdır. Digər siniflərdə isə istifadə edilməsi məsləhət bilinən informasiya texnologiyaları konkret göstərilmiş, Azərbaycan tarixi fənni üzrə yeni multimediya elektron dərslik hazırlanaraq müəllimlərin istifadəsinə verilmişdir.

Şagirdlərin güclü əyani, bədii, canlı təfəkkürə malik olduqlarını nəzərə alaraq keçilən dərslərə onların görmə, eşitmə duyğularını, emosiya və təsəvvürlərini cəlb edən metodlardan istifadə edilməsi xüsusi əhəmiyyətə malikdir.

Müəllim innovasiyaların köməyilə müxtəlif hazırlıqlı şagirdlərə fərqli yanaşma öyrətmə sistemini tətbiq etməklə qavrama qabiliyyətlərinə uyğun tapşırıqlar verə bilər. Uşaqları qruplara ayırmaqla kompüterdə optimal iş rejimi də qurmaq olar. Kompüter qarşısında təhsil alan şagird materialın verilmə və mənimsənilmə sürətini asan müəyyənləşdirə bilər. Uşağın öz sürət rejimində işləməsi yaxşı nəticə verir. Bu isə təlimdə əlverişli psixoloji iqlim yaradır. Müəllimin verdiyi suala sinifdəki şagirdlərin hamısı kompüter vasitəsilə eyni zamanda cavab verməklə dərs prosesində fəal iştirak edir, müəllimlər isə dərs boyu şagirdlərin fəallığını saxlaya bilirlər.

Müəllimin vəzifəsi şagirdin ən yaxşı keyfiyyətlərini inkişaf etdirməkdir, çünki innovasiyaların tətbiqi müəllimə tədris prosesini yenidən qurmağa, materialın mənimsənilməsinin keyfiyyətini gücləndirməyə, müxtəlif qabiliyyətli uşaqların eyni vaxtda işləmələrini təşkil etməyə imkan yaradır.

İnnovasiyaların tətbiqi ilə aparılan dərslər şagirdlər üçün çox cəlbedici və yaddaqalan olur. Multimediya vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, rəngarəng illüstrasiyalar şagirdlərin idrakına müsbət təsir göstərir və şagirdlərin müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyətini artırır.

**ƏDƏBİYYAT**

Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu). Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəşri, 2006.

## ***TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ***

# ALİ MƏKTƏBİN MÜHÜM VƏZİFƏLƏRİNDƏN BİRİ: TƏLƏBƏLƏRİN EKOLOJİ MAARİFLƏNMƏSİ VƏ EKOLOJİ TƏRBİYƏSİ

**Xudayar Sultanlı,**
*elmlər doktoru proqramı üzrə dissertant ,*
*ARTPİ*
E-mail: xudayar.sultanli@mail.ru

***Açar sözlər:*** *ali məktəb, tələbə, ekoloji maariflənmə, ekoloji tərbiyə, ekologiya*
***Ключевые слова:*** *высшая школа, студент, экологическое просвещение, экологическое воспитание, экология*
***Key words:*** *higher school, student, environmental education, environmental upbringing, ecology*

Hazırda respublikamızda insanların, o cümlədən tələbələrin ekoloji təhsilin, ekoloji maariflənmənin təşkili və ekoloji mədəniyyətin formalaşdırılması diqqət mərkəzində dayanır aktual bir problemdir. Ekoloji təhsil və tərbiyə elmi-tədqiqatların çox mühüm istiqamətlərindən biri hesab olunur. bu, səbəbsiz deyildir. Ekoloji təhsil və tərbiyə üzrə aparılan səmərəli iş tələbələrin şəxsiyyətinin formalaşdırılmasına böyük kömək göstərir.

Ekoloji təhsil mürəkkəb pedaqoji prosesdir. Respublikamızda ekologiya ilə bağlı məsələlər, daha səhih desək, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması dövlət siyasətinin mühüm sahələrindən biridir.

Ümummilli liderimiz Heydər Əliyev bu məsələnin əhəmiyyətini nəzərə alaraq, 2002-ci ildə "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu (1) imzalamışdır. Qanunda vətəndaşların ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsasları müəyyənləşdirilmişdir.

Yer üzünü əhatə edən ekoloji böhran, ekoloji tarazlığın pozulması ciddi addımların atılmasını tələb edir. Ekologiya ilə bağlı ölkəmizin də problemləri vardır. Mənfur düşmənimiz – ermənilər işğal etdikləri ərazilərimizdə abidələrimizi məhv etmiş, meşələrimizi yandırmış, çaylarımıza zəhərli maddələr axırmış və bu yaramaz əməllərini davam etdirməkdədirlər. Dünya ölkələri bütün bunlardan xəbərdar ola-ola tədbirlər görmürlər.

Bundan başqa, ölkəmizin bəzi vətəndaşları da təbiətin qədrini bilmir, ətraf mühiti çirkləndirir, ağacları qırır və s.

"Yaşıllıqların mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunu"nun layihəsi hazırlanmışdır. Həmin qanun layihəsinin on dördüncü maddəsində göstərildiyi kimi, "Yaşıllıqların mühafizə olunması hər bir vətəndaşın, fiziki və hüquqi şəxslərin borcudur" (2).

Yaşıllıqların mühafizəsi sahəsində həm dövlət, həm də ictimai nəzarətin həyata keçirilməsi lazım bilinir.

Bu sahədə işlərin uğurla həyata keçirilməsi əhalinin, o cümlədən təhsilalanların ekoloji maariflənməsini aktuallaşdırır. Həmin tədbirlər sırasında təhsilalanların ekoloji təhsil və ekoloji tərbiyəsi sahəsində tədqiqatların genişləndirilməsini də qeyd etmək mümkündür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ekoloji mühitin sağlamlaşdırılmasını öz fəaliyyətinin əsas istiqamətlərindən biri hesab edərək, bu sahədə zəruri tədbirlərin görülməsini vacib sayır. Belə ki, 2006-cı ilin sentyabr ayının 28-də "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair "2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı (3) təsdiqlənmiş və həmin plan həyata keçirilmişdir.

Lakin ümumtəhsil məktəblərinin şagirdləri və məzunlarının, bir çox tələbələrin ekologiya sahəsindəki bilikləri lazımi səviyyədə deyildir, onlarda qeyri-standart ekoloji vəzifələri həll etmək üçün zəruri olan yaradıcı təfəkkür zəif inkişaf edib, ekoloji təfəkkür zəif təşəkkül tapıb. Bu vəziyyətin səbəbini, yəni ekologiyanın əsasları ilə tələbələrin tanışlığının aşağı səviyyədə olmasının, onların ekoloji

mədəniyyətə lazımınca yiyələnməmələrinin günahını tələbələrin ekoloji təhsilinin və tərbiyəsinin həyata keçirilməsi üzrə müəllim hazırlığının yetərincə olmamasında görmək mümkündür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunduğu kimi, "Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir. Müvafiq stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsilə müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır" (4).

Bu sözlər tələbələrin ekoloji təhsili və tərbiyəsi üzrə iş aparan pedaqoji kollektivlərin üzvlərinə də aiddir.

Tələbələrin ekoloji biliklərə yiyələnmələri əsasən üç mərhələni özündə birləşdirir: a) informasiyanın aktuallaşdırılması, əvvəlki bilik və təcrübəyə əsaslanmaq; aktiv fəaliyyət üçün lazımi şəraitin yaradılması. b) yeni bilik və bacarıqlara yiyələnmə, onları öz malına çevirmək və vaxtilə öyrənilən proqram materialı ilə onların müqayisəsini aparmaq; c) Yeni bilik, bacarıq və vərdişlər qazanmaq, öz mövqeyi olmaq; özünün və başqalarının fəaliyyətini düzgün qiymətləndirmək qabiliyyəti.

Tələbələrin ekoloji mədəniyyəti başlıca olaraq özündə aşağıdakı cəhətləri ehtiva edir: insanda müvafiq bilik, bacarıq və məlumatların mövcudluğu, təbiətə qayğıkeş münasibətin tələbləri ilə uzlaşdırılmış praktik fəaliyyətə hazır olmaq və s.

Tələbələrlə ekoloji tərbiyə üzrə işlərin səmərəli şəkildə təşkilində müxtəlif fənn müəllimlərinin, ali məktəb ictimai təşkilatlarının, akademik qrup kuratorlarının, ali məktəb kitabxanaçılarının, habelə tərbiyə işləri üzrə prorektorların, gənclər təşkilatlarının, psixoloqların üzərinə mühüm vəzifələr düşür.

Ali məktəbdə tələbələri ekoloji mədəniyyətə yiyələndirmək məqsədilə təlim prosesinin və auditoriyadankənar tədbirlərin imkanlarından istifadə olunur.

Ali məktəblərdə daha çox İnsan və cəmiyyət, biologiya, coğrafiya, ədəbiyyat, Azərbaycan tarixi, pedaqogika, kimya və s. fənləri ekoloji təhsil və ekoloji tərbiyə baxımından zəngin imkanlar açır. Müəllimlər həmin imkanlardan bacarıqla istifadə etməlidirlər.

Ekoloji mədəniyyətini təşkili məqsədilə təlimdən sonrakı vaxtlarda müsabiqələrdən, görüşlərdən, tematik axşamlardan, disput və müzakirələrdən, ekskursiya və yürüşlərdən, söhbətlərdən faydalanmaq məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"
2. "Yaşıllıqların mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunu" (layihə). http://www.icazeler.gov.az/az/draft-laws/yashilliqlarin-muhafizesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu/
3. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair "2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"
4. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2013, 24 oktyabr


# HEYDƏR ƏLİYEV İRSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİNİN YERİ


**Vidadi Bəşirov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*
E-mail: vidadi.beshirov@mail.ru



***Açar sözlər:*** *milli-mənəvi dəyərlər, unikal mədəniyyət, şəxsi keyfiyyət, yaradıcı ömür, sağlam mühit*
***Ключевые слова:*** *национальные ценности, уникальная культура, личные качества, творческая жизнь, здоровая окружающая среда*
***Key words:*** *national values, unique culture, personal quality, creative life, healthy environment*

Bəşər tarixində unikal təfəkkür sahibi insanların həm şəxsi ömür yolu, həm də yaradıcı keyfiyyətləri özündə birləşdirən, məhsuldar fəaliyyət təcrübəsi həmişə gənc nəslə örnək olmuş, onların yaxşı insani keyfiyyətlər ruhunda püxtələşməsinə rəvac vermişdir. İnsan övladı yeni nəsil üçün zəngin əməli fəaliyyət sferasını həmişə diqqət mərkəzində saxlamış, bu istiqamətdə qabaqcıl texnologiyaya və rasional düşüncəyə zəmin yaratmaqla həmin keyfiyyətlər əsasında şəxsiyyət hazırlığını təkmilləşdirməyə imkan verən mənəvi dəyərlər sistemini bütün zaman kəsiyi üçün inkişafetdirici məqam hesab edərək, bu yolda məqsədyönlü təkamül prosesindən keçmişdir.

Ümumxalq və ümumdövlət səviyyəsində öz xalqının doğma milli-mənəvi dəyərlərini göz bəbəyi kimi qoruyub, bu sahədə öz nəzəri-pedaqoji konsepsiyasını daim uca tutmuşdur. Onun xalq ruhundan güc alan iti ağlı, zəka mədəniyyəti, fenomenal yaddaşı daim dillər əzbəri olmuş, böyüyən nəsil üçün qiymətli irs kimi dəyərləndirilmişdir. Xalqın milli mənlik şüuruna – milli iftixar, milli ləyaqət, milli özünüdərk, milli yaddaş qayəsi kimi diqqət yetirən Heydər Əliyev yaradıcı ömrünün bütün mərhələlərində milli qaynaqlara mehr-məhəbbət hissini uca tutmuş bu yolda ciddi araşdırmalar apararaq yeni-yeni prioritet istiqamətlər müəyyənləşdirmişdir.

Onun bu yönümdə olan çağırışları nəinki öz vətənində, hətta dünya birliyində, ayrı-ayrı ölkələrin tanınmış siyasətçiləri, elm və mədəniyyət xadimləri, yazıçılar və şairlər, Azərbaycan diasporunun üzvləri, media nümayəndələri tərəfindən də dəstəklənmiş, öz həqiqi, qanunauyğun qiymətini almışdır.

Heydər Əliyevin xalq mənəviyyatına, dini-mənəvi dəyərlərə bağlılıq fəaliyyətini səciyyələndirən baxışları məktəb və müəllim təcrübəsi üçün təhsilləndirici mənbədir. Onun xalq təsəvvürünə, milli mənəviyyata, böyük ədəb-ərkan dünyasına səyahət hissini bildirən elmi konseptual baxışların xüsusən pedaqoji elm və proses təcrübəsi üçün çox dəyərli təsiri olan ibrətamiz müddəalardan tapmışdır.

Gənc nəsli mənəvi-psixoloji mühit şəraitində, yaxşı insan olmaq məramı ilə böyütməkdə mənbəyini ailə, məktəb və ictimaiyyət birliyindən; məzmununu milli, ümumbəşəri və dini mənəvi dəyərlər sistemindən, metodologiyasını isə insan, təbiət, cəmiyyət vəhdətindən əxz etməyin milli-didaktik konsepsiyasını verən müdrik öndər bu hadisələrin kökündə xalq, millət olaylarına bələd olmağın, milli-mənəvi dəyərlər sistemini göz bəbəyi kimi qorumağın vacibliyini yeni, müasir baxışlarla ümumiləşdirən ideyalar carçısı kimi daim diqqətdə saxlamışdır. O bu yolda birmənalı olaraq mətin, iradi səy göstərib, bu mənbələrin araşdırılaraq müzakirə mövzusu olmağını dəfələrlə öz yaradıcı mövqeyində sübut etmiş, məruzə və nitqlərində həmin ideyalar əsaslı dəlillərlə hasilə gətirmişdir.

Bu imkanlardan ardıcıl, mütənasib şəkildə faydalanmağın tərbiyələndirici mahiyyətini də ulu öndər etiqad və inam baxımından dəyərləndirmək milli-mənəvi dəyərlər probleminin araşdırılması istiqamətində iş aparmağın sosial-mədəni həyat və cəmiyyət üçün həm də ümumxalq və ümumdövlət səviyyəli bir ideya, sosial birlik ünsürü olduğunu əsil həyat keyfiyyətləri kimi canlandırmışdır.

Ulu öndərin sosial-fəlsəfi, idraki-pedaqoji düşüncələrində milli-mənəvi dəyərlər sistemi – ideoloji mənbə kimi maarifləndirici məzmun mahiyyəti daşıyan kompleks tədbirlər təşkili üçün də həmişə aktual bir məsələ kimi irəli sürülmüşdür. O, bu məsələləri müasir tələblərə cavab verən səviyyədə, elmi-nəzəri konsepsiyadan, təhsilləndirici xarakterdən, inkişafetdirici istiqamətdən araşdırılmasının lüzumluluğunun digər ölkə xalqlar üçün də çox dəyərli anlatma mənbəyi xatırlayaraq yazırdı: “Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik” [3, s.3].

Müdrik öndərin bu tövsiyələrindən güc alan hər bir Vətən övladının əzəli məqsədi məhz, yeni ruhda azərbaycançılığı, türkçülüyü, islami dəyərlərə bələdçiliyi formalaşdıran ideya-əxlaqi fəzilətlərə sahib çıxmağın metodoloji əsası, didaktik performansı kimi qəbul etmək olar.

Çünki, müasir məktəbin vacib problemlərindən biri tarixi-pedaqoji irsin gənc nəslə öyrədilməsi ilə bağlıdır. Tarixi-milli dəyərlərin elmi əsaslarla öyrətməyin imkanlarını əhatə edən və yeni pedaqoji-metodik prinsiplər üzrə mənimsətməyi nəzərdə tutan orijinal üsul və vasitələrdən faydalanmağın zəruriliyi indi həmişəkindən daha vacibdir. Bu işdə şübhəsiz, ta qədim zamanlardan boy almış, xalq təfəkküründən, şifahi və yazılı sənət abidələrimizdən süzülüb yaradılmış, təcrübələr sınağından çıxmış,

milli-mənəvi dəyərlər sisteminin Heydər Əliyev irsindəki təhlil nümunələrinin məzmununu, mahiyyətini təbliğ edən pedaqoji-metodik yönümlü məsələləri müfəssəl şəkildə araşdırmaq, onların iş prinsiplərini üzə çıxarmaq, yaxşı və faydalı nə varsa, müasir təcrübədə onlara əsaslanmaq lazımdır.

Xalqın milli ruhuna bağlı bu dahi şəxsiyyətin tarixi-elmi, fəlsəfi-sosioloji, bədii-estetik, hüquqi-siyasi baxış və qayələrində bu problem ümdə yerdə durmuş, onun qayə və məqsədlərinin əsasını təşkil etmişdir.

Dövlətçiliyimizə, milli ihtişarımıza, azadlıq təşnəmizə, müstəqilliyimizə – milli vəzifələrimiz kimi baxan Heydər Əliyev bu sahədə əməli addımlar atmağın parlaq təcəssüm sahibi, ideya daşıyıcısı idi. Müstəqil Azərbaycanımızın xalq ehtişamına söykənən milli atributlarına – müstəqillik rəmzi olan üçrəngli milli bayrağımıza, gerbimizə, himnimizə hörmət bəsləməyi, onları daim əziz tutmağı, on uğrunda hər şeyə hazır olmağı hər bir Vətən övladının sənət və ləyaqət simvolu, milli vəzifəsi hesab etməyi təlqin yaradıcı kredosu milli təhsil və tərbiyəmizin ideya, məslək mənbəyi idi.

Böyüyən nəslin milli-mənəvi fəzilətlərə yiyələnmək hissinin inkişafını daim diqqətdə saxlayan Ümummilli lider Heydər Əliyev dönə-dönə xatırlatmışdır ki, doğma dilimizi bilmək, öyrənmək, sevmək, daim onun saflığını qorumaq, onun Dövlət dili səviyyəsində tətbiqi və inkişafına nail olmaq, cəmiyyətdə yayım arealını genişləndirmək, ümumxalq və ümumdövlət mənafeyindən dəyərləndirmək lazımdır. Heydər Əliyev bununla bağlı öz müdrik tövsiyələrini belə əsaslandırır: “Şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışmağımıza görə öz dilimizin zənginliyini öz gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu həqiqətdir. Ona görə də bunu heç bir şeyə dəyişmək olmaz. Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşünə malik olmaqdır. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir.

Başqa dilləri öyrənərkən öz dilimizi heç vaxt unutmayın və öz dilimizi heç vaxt başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz.” [2]

Bu gün gənc nəslə etik-mənəvi dəyərlərin ən bariz nümunələrini çatdırmaq olduqca nəcib və şərfli iş olmalıdır.

Xüsusən, Heydər Əliyevin ədalət, şərəf, ləyaqətin gözlənilməsi, xeyirxahlıq, sadəlik, təvazökarlığın tətbiqi, lovğalıq, təkəbbürlülük və şər qüvvələrə qarşı mübarizə, yoldaşlıq və dostluq, insan mənəviyyatını pardaqlayan öyüd və nəsihətlər müasir və gələcək milli pedaqoji fikir tariximizin silinməz salnaməsidir. Öz dəyərli mükamilələrində bu cür həssas, xeyirxah olmağın ictimai məzmununu əsil təəssübkeş vətəndaş qeyrəti ilə nizamlayan Heydər Əliyev bu məsələdə də gənclər üçün mütərəqqi ola biləcək tövsiyələr vermiş, bu günün ictimai siqlətinə tuş edən ideyalar aşkarlayaraq yazmışdır.

“Biz öz milli-mənəvi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.” [1, 7]

Böyük mütəfəkkir, görkəmli tarixi sima olan Heydər Əliyevin ideya-mənəvi iradəsində təkamül tapan əsil insan və vətəndaşın zəruri keyfiyyətlərinin başlıca istiqamətlərini, tarixi-mədəni gerçəkliklərini öyrənmək və ondan müasir təlim-tərbiyə təcrübəsində istifadə olunması meyarlarını müəyyənləşdirmək, bu qiymətli mütərəqqi dəyərlərdən faydalanmağın müvafiq sistemini yaratmaq indi ən ümdə strategiya olmalıdır.

Bunu isə bizdən həyatın özü tələb edir.

**ƏDƏBİYYAT**

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. “Azərbaycan müəllimi” qəz., 1996,. 6 fevral
3. Bəşirov V.P. Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1870-1920-ci illər). Bakı: Oka-Ofset, 2008.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. V cild. Bakı, 1998.

# FİZİKİ TƏRBİYƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YÜKSƏK İXTİSASLI BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN MÜTƏXƏSSİSLƏRİNİN HAZIRLANMASININ ŞƏRTİ KİMİ

**Dilqəm Quliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor*
*ADBTİA*
E-mail: d.quliyev @ mail.ru
**Yusif Babanlı,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ADBTİA*
E-mail: yusif.babanli@ mail.ru
**Siyab Qulubəyli,**
*ADBTİA-nın magistrantı*
E-mail:Siyab_qulubeyli@yahoo.com

***Açar sözlər:****dərs yükü, fizioloji həyat, ali məktəb, əqli yorğunluq, fiziki hazırlıq, bədən tərbiyəsi, idman, fiziki təmrin, qeyri-ixtisas, tələbə kontingenti.*

***Ключевые слова:*** *учебная нагрузка, физиологическая жизнь, высшее учебное заведение, умственная усталость, физическая подготовка, физкультура, спорт, физическое упражнение, неспециализированный, студенческий контингент.*

***Key words:*** *practice load, physiological life, high school, mental.tiredness, physical training, physical culture, sport, physical exercise, nonspecialized, student's contingent.*

Son zamanlar tələbələrin sağlamlıqlarının qorunması müstəqillik illərində ən ümdə vəzifələrdən biri olaraq daha çox diqqət tələb edir.

Dərs yükünün həcmi, çətinliyi və xəstələnmə səbəbləri arasında olan müəyyən qanunauyğunluqlar müəyyən edilir. Orqanizmin əsas fizioloji həyat fəaliyyəti qanunauyğunları nəzərə alınmadan, əməyin rasional təşkili olmadan dərs prosesinin intensivliyinin yüksəlməsi əqli yorğunluğ ilə bağlı tələbələrin spesifiki xəstələnmələrinə gətirib çıxarır.

Müəlliflərin ən çoxu tibbi tədqiqatlar və pedaqoji müşahidələr əsasında belə bir nəticəyə gəlirlər: tələbələrin sağlamlıqlarının möhkəmlənməsi sistematik və müntəzəm fiziki tərbiyə məşğələləri vasitəsilə həyata keçirilir və bütün tədris ili müddətində ali məktəb şəraitində onların keçirilməsi zəruridir. (P.A. Nazarov, 1984; A.İ. Kloçkova, L.V. Suxorukix, 1985; F.Y. Kirsis, V.A. Linaberq, K.P. Rudzits, 1985).

Bədən tərbiyə və idman məşğələlərinə ayrılan vaxtın həcminə aid olan tədqiqatların təhlilindən I-II kurslarda aparılan 2 məcburi və 2 fakültativ, eyni zamanda III-IV kurslarda 4 fakültativ dərs yükləri tələbə-gənclərin fiziki inkişaf və fiziki hazırlığının optimal səviyyəsinin əldə edilməsi üçün kifayət olmadığı aydın olur. Bütün müəlliflər yekdilliklə bu nəticəyə gəlirlər. Onların hamısı məcburi fiziki tərbiyə məşğələlərinin həftədə 4 saata kimi artırılmasının məqsədəuyğunluğunu sübut edir. Bəziləri saatların miqdarının həftədə 6-8 saata kimi artıraraq əlavə və müstəqil məşğələlərin əlavə edilməsini təklif edirlər. Bununla yanaşı, ( Y.İ. Yevtuşok, 1974; V.N. Nesterov, 1974; V.B. Zinçenko, 1975; A.Z. Liyepinş, V.A. Linaberq, K.R. Rudzits və b. 1982) yuxarı kurslarda məcburi məşğələlərin əlavəedilmə zəruriliyini sübut edərək, 2 il bədən tərbiyə və idman məşğələlərindən fiziki hazırlığının kifayət qədər dinamiki artımın olmamasından bəhs edirlər. ( N.N. Peresvetov, A.R. Camalov, 1970; B.B.L. Skeriyaviçene, 1973; Z.A. Veqertas, A.P. Pyatronis, 1985 ).

Ali məktəblərdə məcburi məşğələlərin daxil olunmasında etibarən hal-hazırda proqram çərçivəsində tədqiqatın metodika və formasının təkmilləşdirilməsi üzrə tədqiqatlar davam edir.

Dərs prosesinin müxtəlif forma və istiqamətləri üzrə tələbə kontingentinin tədqiqi ilə məşğul olarkən müəlliflərin çox hissəsi ümumi fiziki hazırlıq qruplarında məşğələlər ilə müqayisədə ( Z.A. Krekoten, 1974; İ.V. Lopatin, 1982; Y.İ. Yevtuşok, E.M. Snastin, 1982 ) idman istiqamətli fiziki təmrinlə yerinə yetirilən məşğələlərin tələbələrin orqanizminin iş qabiliyyəti və fiziki inkişafının yüksəlməsinə daha yaxşı təsir göstərmə nəticəsinə gəlmişlər.

Ali məktəbdə fiziki tərbiyəyə belə yanaşma tələbələrin davamiyyət və fəallığının yüksəlməsinə imkan verir. Aparılan elmi-metodiki ədəbiyyatın xülasəsindən görünür ki, tələbə gənclərin fiziki tərbiyəsi üzrə aparılan tədqiqatlar son zamanlar daha çox artır. Bu, yüksək ixtisaslı mütəxəssislərin

hazırlığı, ali təhsilin yüksəlməsi, təlim-tərbiyə prosesinin məzmununun daim yenilənməsi ilə şərtlənmişdir.

Fiziki tərbiyə proqramının gələcək təkmilləşdirilməsinin əsas istiqaməti dərs prosesinin intensivləşməsi və məşğələlərə idman istiqamətinin verilməsindən ibarət olmalıdır.

**ƏDƏBİYYAT**


1. Алиханов И.И. Техника и тактика в вольной борьбе. М.ФИС, 1968.
2. Бабаев М. Развитие классической и вольной борьбы в Азербайджане, за 40 лет. Баку: 1960.
3. Боголепов В.А. Основы тактической подготовки проведения некоторых приемов в классической борьбе: Автореф. дисс. … канд. пед. наук –М.: 1958.
4. Qurbanov X.K. İdman güləşinin taktikası. Bakı: Azərbaycan, 1991.
5. Quliyev D.Q. Ümumtəhsil məktəbələrində Azərbaycan milli güləşi: Metodik vəsait. Bakı: ADBTİA-nİn mətbəəsi, 1993.
6. Quliyev D.Q. Milli güləş: Dərslik. Bakı: RİZA, 2003.


## "ALDANMA SÖZLƏRƏ" ROMANININ MATERİALLARINDAN İSTİFADƏ ETMƏKLƏ ŞAGİRDLƏRDƏ DÜŞMƏNƏ NİFRƏT HİSSİNİN AŞILANMASI


**Lalə Məmmədli,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: lale23@mail.ru



***Açar sözlər**: "Aldanma sözlərə", erməni vəhşiliyi, düşmənə nifrət, roman, işğalçı*
***Ключевые слова:** "Не верь словам", варварство, ненависть к врагам, роман, окупант*
***Keywords:** "Do not believe the words", barbarism, hatred of the enemies, a novel, occupiers*


Erməni faşistləri havadarlarının köməyilə torpaqlarımızın beşdə bir hissəsini zəbt etmiş, azərbaycanlılara olmazın işgəncələr verərək, onları öz doğma torpaqlarından didərgin salmış, işğal etdikləri ərazilərdə vəhşiliklər törədərək, insanları öldürmüş, abidələrimizi, şəhər və kəndlərimizi xarabazarlıqlara çevirmişlər.

Son on illiklərdə ermənilərin xalqımıza qarşı yeritdikləri soyqırımı təsvir edən bir sıra bədii, elmi-kütləvi əsərlər yaradılmış, filmlər çəkilmiş, pyeslər yazılmışdır. "Fəryad", "Haray", "Girov", "Qala", "Yalan", "Seçilən", "Ağ atlı oğlan" bədii filmləri; Ağarəhimin ssenarisi əsasında ekranlaşdırılmış "Canavar balası" və "Qırmızı qar" televiziya filmləri; Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Xəcalət" romanları; Elçin Hüseynbəylinin "Əsrlər" povesti; Zəlimxan Yaqubun "O günü çox gözləyirəm", "Xocalım, ay Xocalım", "Layla, Xocalım, layla" şeirləri; Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi" poeması və s. nümunə göstərilə bilər.

Təlim prosesində və sinifdənxaric tədbirlər zamanı həmin əsərlərin imkanlarından istifadə etməklə şagirdlərdə vətənpərvərlik hisslərini, mübarizlik, igidlik, cəsarət, qorxmazlıq və s. bu kimi keyfiyyətlərini inkişaf etdirməklə yanaşı, onlarda düşmənə nifrət hissləri aşılanmalıdır.

Həmin əsərlər sırasına yazıçı Akif Abbasovun "Aldanma sözlərə" romanının da özünəməxsus yeri vardır. Romanda azərbaycanlıların öz doğma yurd-yuvalarından - əzəli Azərbaycan torpaqları ola, hazırda Ermənistan ərazisi sayılan ərazilərdən qovulmaları və bu zaman dinc əhalinin misli görünməmiş vəhşiliklərlə qarşılanmaları, işgəncələrə məruz qalmaları parlaq boyalarla qələmə alınır.

Qayınatasının (Nizamın) və qayınanasının (Fatmanın) gözləri qarşısında evin gəlini Gözəlin namusuna təcavüz etmək istəyirlər. Gözəl ermənilərin əlindən qurtulmaq, ismətini qorumaq üçün məcburiyyət qarşısında qalıb sirkə içərək özünü öldürür. Nizam kişi beli sındırılaraq öldürülür. Səməd də min işgəncə ilə qətlə yetirilir. Ermənilər azərbaycanlıların evlərinə od vururlar.

Romandan parçalar:

*Az sonra ermənilər – kimisinin əlində tüfəng, kimisinin əlində məşəl, balta, tapança, yaba, qumbara Nizamın evini üzük qaşı kimi dövrəyə aldılar. Onları tapa bilməyib evə od vurdular.

*Sergey üzünü Nizam kişiyə tutaraq dedi:

-Ara, dinmirsən? İndi pikirləş indi sənə hansı cəzanı verək? Dilin yoxdur? Onda özümüz seçərik… Deyin, görək, ay uşaqlar

- Başını kəsək.
- Yandıraq.
- Gözlərini çıxardaq.
- Dilini, qulaqlarını, burnunu kəsək, ovub gözlərini çıxaraq, sonra buraxaq, getsin…
- Qollarını, qıçlarını baltalayaq
- Diri-diri yerə basdıraq.
- Ağaca mismarlayaq.
- Qarnını yaraq…

Ermənilər saydıqca Fatma fəryad qoparır, ağı deyir, göz yaşı axıdırdı. Suren ona acıqlandı:

- Səsini kəs qancıq! Bu gündən sizin hamınız üçün var. Növbənizi gözləyin.

Sergey:

- Mənim fikrimdə tutduğun heç birinizin ağlına gəlməyib. Bu əclaf erməni qanı axıdıb, ən ağır cəzaya layiqdir.

Sergey ağacın aşağıya enən budağına müştəri gözü ilə baxıb qımışdı:

- Ara, Nizam, sən məni yaraladın, Samveli öldürdün. Adamı elə öldürməzlər. Sənə elə cəza verəcəyəm ki, bu, tarixə düşsün. Açın onu Vazgen, Albert, yapışın bu murdar oğlu murdarın ayaqlarından. Aqambek, Zori, siz də qollarından yapışın. İndi arxası üstə atın bunu ağacın üstünə.

Ermənilər Nizamın çabalamasına məhəl qoymayıb onu budağın üstünə aşırdılar. İki nəfər ayaqlarından, iki nəfər qollarından yapışıb növbəti əmri gözlədilər. Sergey qaliblərə məxsus əda ilə:

- İndi isə sındırın bu əbləhin belini.

Əmr yerinə yetirildi. Qırılan belin xırçıltısı aydın eşidildi və eyni zamanda dəhşətli ağrıya tablaşa bilməyən Nizam kişinin bağırtısı bütün meşəni başına götürdü, yeri-göyü lərzəyə gətirdi.

Yuxarıdakı nümunələrlə tanış olan şagirdlər ermənilərin necə alçaq, qəddar, qaniçən, vəhşi xislətli məxluq olduqlarını, Azərbaycan və Türkiyə torpaqları hesabına öz ərazilərini genişləndirmək, "Böyük Ermənistan" yaratmaq kimi sərsəm xülyaya düşdüklərini görür, onlara sonsuz nifrət bəsləyirlər.

**ƏDƏBİYYAT**

A.N. Abbasov. Aldanma sözlərə (roman). Bakı: Mütərcim, 2007.

## MƏKTƏBİN TƏRBİYƏ SİSTEMİNDƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİ TƏRBİYƏSİNİN YERİ

**Emilya Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: emilyahus.@gmail.com

***Açar sözlər:*** *tərbiyə sistemi, yuxarı sinif şagirdi, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi, milli mənəvi dəyərlər, milli ənənələr*

***Ключевые слова:*** *система воспитания, старшеклассник, гражданство, гражданская позиция, активная гражданская позиция, национальные нравственные устои, национальные традиции*

***Keywords:*** *system of upbringing, a high school student, nationality, citizenship, active citizenship, national moral values, national traditions*

Ümumtəhsil müəssisələrinin ümdə vəzifələrindən biri də yuxarı sinif şagirdlərində fəal vətəndaş mövqeyinin formalaşdırılmasıdır. Şagird üzərində nəzarətin zəifləməsi, təhsilalanlara müstəqilliyin verilməsi şəraitində müəllimin, tərbiyəçinin, valideynin rolunun azaldılması ona gətirib çıxara bilər ki, şagird öz şəxsi inkişafının sübyektinə çevrilə bilər. bu isə, yolverilməzdir. Hər şey, hər bir tədbir qədərincə olmalıdır.

Təhsilin əvvəlki ideoloji bazasından, təhsilin köhnə dəyərlər sistemindən imtina, təhsilin siyasiləşdirilməsindən və ideolojiləşdirilməsindən vaz keçmək və bütün bu işləri tələsik və qeyri-

peşəkarlıqla görmək məqsədyönlü, sistemli və planlı şəkildə həyata keçirilməsi tələb olunan tərbiyə prosesindən təhsilin imtina etmək demək olardı. İndi tez-tez belə fikir səslənir ki, ayrıca tərbiyə prosesi deyilən anlayış yoxdur, o, təlim prosesində həyata keçir. Bu mülahizədə də müəyyən çatışmazlıqlar var. Məgər uşaq anadan olanda ona təlim keçirik? Aristotel, Nəsirəddin Tusi tərbiyə işinə əsərlər həsr etmişlər. Son dövrlərdə professor Zahid Qaralovun üç cildlik "Tərbiyə" monoqrafiyaları nəşr edilib.

Ona görə də deyə bilərik ki, tərbiyə pedaqoji prosesin müstəqil, gərəkli tərkib hissəsidir, insanın, o cümlədən məktəblilərin və əlbəttə ki, yuxarı sinif şagirdlərin təşəkkül tapıb formalaşmasının qüdrətli vasitəsidir.

Bu mənada yuxarı sinif şagirdlərində digər məsələlərlə yanaşı fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Şagird şəxsiyyətinin tərbiyə olunması fasiləsiz həyata keçən bir prosesdir. Yəni dərsdə, tənəffüsdə, ictimai yerlərdə, məktəblilərin asudə vaxtlarında, ailədə bu işlə məşğul olunur.

Ölkə vətəndaşın tərbiyə olunması onun erkən yaşlarından və ailədən başlanır. Bu sahədə valideynlər ilk tərbiyəçilərdir. Onlar vətəndaşlığa aid uşaqlarında sadə təsəvvürlər yaradırlar. Aparılmış məqsədyönlü iş nəticəsində uşaqlar başa düşürlər ki, onlar Vətəni, onun təbiətini, maddi və mənəvi sərvətlərini sevməlidirlər, qanunun tələblərini gözləməlidirlər, Vətəni müdafiə etmək onların müqəddəs borcudur, bizim ölkənin Konstitusiyası ilə onlara təhsil almaq, istirahət etmək, böyüyəndə işləmək, müalicə olunmaq, ailə qurmaq və s. hüquqlar verilib. Həm də onların üzərinə müəyyən vəzifələr qoyulub. Bu vəzifələri də yerinə yetirməlidirlər.

Məktəb illərində vətəndaşlıq tərbiyəsi üzrə işlər daha sistemli, məqsədyönlü şəkil alır. Məktəblilər, o cümlədən yuxarı sinif şagirdləri müxtəlif fənlərin (o cümlədən Azərbaycan tarixi, Həyat bilgisi, İnsan və cəmiyyət, Azərbaycan Respublikasının Konstitusiyasının əsasları, ədəbiyyat və s.) və sinifdənxaric tədbirlərin (mühazirə, söhbət, müsabiqə, görüşlər, tematik axşamlar, ekskursiyalar, yarışlar, müzakirə, disput və s.) köməyilə maariflənir, bir şagird və ölkə vətəndaşı öz hüquq və vəzifələrini aydın dərk edir, xalqımızın adət və ənənələri və mədəniyyəti, respublikamızın uğurları ilə tanış olur, nailiyyətlərimizdən iftixar hissi keçirir, fəal vətəndaşlıq mövqeyinə yiyələnməyə çalışırlar.

Yuxarı sinif şagirdlərində fəal vətəndaş mövqeyinin tərbiyəsi olunması Azərbaycan təhsil sisteminin qarşısında dayanan mühüm məqsədlərdən biridir.

Fəal vətəndaş mövqeyi tərbiyəsinin uğurla həyata keçirilməsi bu sistemin qurulması prinsiplərində asılıdır. Burada azərbaycançılıq və xəlqilik prinsipləri başlıca prinsiplər kimi özünü göstərir.

Məktəb güclü tərbiyəedici təsisatdır. Tədris müəssisəsində mədsədyönlü işlər aparılır. Tərbiyə prosesi xüsusi hazırlıqlı, təhsilli, səriştəli şəxslər – pedaqoji kollektiv üzvləri tərəfindən həyata keçirildiyindən idarə olunan prosesdir. Bu idarəetmədə müəllimin xüsusi rolu və əməyi var. O, fəal vətəndaş mövqeyi tərbiyəsi üzrə işin məqsədini, vəzifələrini, məzmununu, vasitələrini, prosesin təşkili formalarını müəyyənləşdirir, müəyyən prinsiplərə əsaslanır, vəziyyətdə asılı olaraq müvafiq tərbiyə metodlarını tətbiq edir, müəyyən tərbiyəlilik meyarları seçir.

Fəal vətəndaş mövqeyi tərbiyəsi prosesində həm strateji, həm də taktik məqsədlər müəyyən olunmalıdır. *Strateji məqsədlərə* vətəndaş borcu və məsuliyyəti, vətəndaş hüquq və azadlıqlarına, vəzifələrinə, qanuna hörmət kimi ümuməhəmiyyətli vətəndaş keyfiyyətlərin formalaşdırılması daxildir.

Taktik məqsədlər tərbiyə prosesinin şəraitini, şərtlərini və vəzifələrini nəzərə almaqla müəyyən olunur.

## ƏDƏBİYYAT

1. Гордеева ИН. Формирование у школьников качества гражданина и патриота http://festival.1september.ru/articles/517865/

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ HƏRBİ-VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Sona Sadıqova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ADPU- nun baş müəllimi*
E-mail: sonasadig@mail.ru

***Açar sözlər:*** *uşaq, ailə, vətən, hərbi vətənpərvərlik tərbiyəsi*
***Key words:*** *child, parent, family, house, kindergarten, teacher, game*
***Ключевые слова:*** *дети, родители, семья, дом, детский сад, учитель, игра*

Müstəqil Azərbaycan Respublikasının təhlükəsizliyi onun silahlı qüvvələrinin hazırlığından asılıdır. Odur ki, məktəbəqədər dövrdən hərbi-vətənpərvərlik tərbiyəsinin aşılanması günün ən aktual tələblərindəndir.

Ümummilli liderimiz Heydər Əliyev 1996-cı ilin fevralında gənclərin birinci forumunda söylədiyi nitqdə gənclərlə məşğul olan bütün təşkilatların, ictimaiyyətin diqqətini bu mühüm məsələyə cəlb edərək demişdir: «... Azərbaycan ərazisinin bir qisminin Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində işğal edildiyinə, respublikamızın ərazi bütövlüyü pozulduğuna görə milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq, hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun» (27).

Həqiqətən, güclü ordu yaratmaq, vətəni, doğma torpağını canından artıq sevən gənclər yetişdirmək istəyiriksə, bu prosesin məktəbə qədər yaşlardan başlayaraq, orta təhsilin bütün pillələrində, ali məktəbdə, ailədə, cəmiyyətdə, hərbi hissələrdə davam etdirilməsi lazımdır.

Ailədə başlayan hərbi-vətənpərvərlik tərbiyəsi məktəbəqədər müəssisələrdə ardıcıl, sistemli təşkil olunmalıdır. Həm də bu işin təşkilində uşaq bağçasının bütün kollektivi iştirak etməlidir. Dövlət atributlarının, o cümlədən himnin öyrədilməsi ilə yanaşı, təlim prosesində və təlimdənkənar vaxtlarda Vətən haqqında, torpaq və onun müqəddəsliyi haqqında, mənfur düşmənlərimizin törətdikləri faciələr haqqında, xalqımızın qəhrəman oğulları və şəhidlər haqqında söhbətlərin aparılması vacib tərbiyə istiqamətlərindəndir. Hərbi-vətənpərvərlik tərbiyəsi uşaq bağçalarında epizodik olmamalıdır. Müasir dövrdə hər bir müvafiq məşğələnin, eləcə də proqram məzmununun ilk məqsədi hərbi-vətənpərvərlik tərbiyəsi olmalıdır.

Uşaqlara verilən məlumatlar onların mənəvi dünyasının, əqidəsinin formalaşmasına kömək edir, müsbət əxlaqi keyfiyyət aşılayır. Uşaqlar bağçaya qədəm qoyduqları ilk günlərdən Vətən, Vətənin müdafiəsi, Milli Ordu haqqında təlim-tərbiyə materialları ilə tanış olurlar. Bu ilk tanışlıq nəticəsində uşaqlarda Vətənimizin gözəlliyi, yerüstü və yeraltı sərvətlərlə zənginliyi, Milli Ordunun vətənimizin sərhədlərinin keşiyində dayanması haqqında anlayışlar təşəkkül edir. Eyni zamanda uşaqlarda belə bir fikir də yaranır ki, onlar böyüyəndə milli ordu sıralarında hərbi xidmətə gedəcək və Vətəni müdafiə edəcəklər. Onlar dərk edirlər ki, hərbi texnikaya yiyələnmədən Vətəni müdafiə etmək çətindir.

Hərbi-vətənpərvərlik tərbiyəsi vətənpərvərlik tərbiyəsinin ayrılmaz hissəsidir. Hərbi-vətənpərvərlik tərbiyəsi ümumxalq vətənpərvərliyi və fəal vətənpərvərliyin təcəssümüdür. O, vətənin müdafiəsinə hazır olmağı tələb edir. Hərbi-vətənpərvərlik tərbiyəsinin məqsədi Vətəni qorumaq, onu yadellilərdən xilas etmək üçün lap erkən yaşlardan uşaqların hərbi işə, hərbi oyuna, hərbi fəaliyyətə meylini artırmağa, bunu kiçik yaşlardan başlamağa, onlarda hərbi-vətənpərvərlik tərbiyəsi haqqında ilkin təsəvvürlərin formalaşmasına xidmət edir. Hərbi-vətənpərvərlik tərbiyəsi ilə əlaqədar tərbiyəçilərə daha çox tövsiyə, metodik məsləhətlər verilməlidir, uşaqlar arasında hərbi ruh, əhval-ruhiyyə yaratmaq vacibdir. Hərbi-vətənpərvərlik tərbiyəsini uşaqlara aşılamaq üçün məqsəd aydınlığı əsas şərtdir. Tərbiyəçi apardığı tədbirin mahiyyətini, məzmununu uşaqlara aşılamağın yollarmı əvvəlcədən istiqamətləndirməlidir.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı: Azərbaycan, 1996.
2. Əliyeva T.S. İbtidai sinif şagirdlərinin hərbi-vətənpərvərlik tərbiyəsi: Ped. elm. nam. ... dis. avtoref. Bakı: 1997.

# UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

**Lalə Allahverdiyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: lali@mail.ru

***Açar sözlər:*** *ailə, uşaq, tərbiyə etmək, şəxsiyyət, əxlaq*
***Ключевые слова:*** *семья, ребёнок, воспитывать, личность, мораль*
***Key words:*** *family, kids, educate, personality, morality*

Şəxsiyyətin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Ailədə böyüyən uşağın hərtərəfli, nümunəvi, əxlaqlı biri kimi yetişdirilməsi ailənin başlıca funksiyalarındandır.

Bütün tarixi dövrlərdə dünya xalqlarının öz etnik münasibətlərinə uyğun əxlaqi qanunları mövcud olmuşdur. Azərbaycan xalqının da özünəməxsus əxlaq normaları mövcuddur.

Cəmiyyətin inkişaf tarixində elə bir dövr olmamışdır ki, orada yaşlı nəslin nümayəndələri gənc nəslin tərbiyəsi qayğısına qalmamış olsun.

Xalq arasında əxlaq sözü çox vaxt ismətli, iffətli, ədəbli, tərbiyəli sözlərinin sinonimi kimi də işlədilir. Nəcib əxlaqlı adam haqqında bu kimi fikirlər də səsləndirilir: "O, əsl adamdır", "insan adamdır, təbiəti, xasiyyəti yaxşıdır", "ədəb-ərkan sahibidir" və s. Bütün bu anlayışlar, söz və ifadələr eyniyyət təşkil etməsələr də, mənaca bir-birinə yaxındırlar. Onların hamısı, əslində, insanın mənəviyyatına, dərin daxili aləminə aid sifətlər toplusunu əhatə edir. Bu sifətlər tarix boyu təşəkkül tapıb müəyyənləşir və insanların ailəyə, öz-özlərinə, başqalarına, əməyə, cəmiyyət və s. olan münasibət və rəftarını nizama salır. Məlum olduğu kimi, etika elmi də əxlaqın mahiyyətini təqribən bu cür mənalandırır, ona insanın davranış prinsip və normalarının məcmusu kimi baxır.

Nəsrəddin Tusi də "əxlaq normaları"nı müəyyən etmişdir. Hansı ki, bu əxlaqi normalar uşaqların davranışının, ünsiyyətinin, insanlara, cəmiyyətə olan bütün münasibətlərinin tənzimlənməsinə xidmət edir. N. Tusinin pedaqoji ideyaları ailədə uşaqların əxlaq tərbiyəsinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

N. Tusinin yoldaşlıq haqqında, kiminlə oturub-durmaq haqqında olan nəsihətləri hər bir valideyn və müəllim üçün, bir növ, böyük məktəbdir. Hər valideyn övladının kiminlə dostluq və yoldaşlıq etməsini öz nəzarəti altında saxlamalı və övladının dostluq etdiyi uşağın ailəsini aramalı, axtarmalı, onu dərindən öyrənib yaxşı tanımalıdır.

Aristotel özünün "Əxlaq" və "Məqulat" əsərlərində demişdir ki, pis adamlar təlim və tərbiyə əsasında yaxşılaşa bilərlər, bunun qəti və həmişə belə olacağını demək çətindir. Hər halda nəsihət, məsləhət, təlim, tərbiyə ardıcıl olsa və ədalətli tənbehlə əlaqələndirilsə, nəticəsiz qalmaz. Bəziləri var ki, çox tez tərbiyələnirlər və fəzilətin təsiri dərhal, vaxt gözləmədən özünü göstərir. Elələri də var ki, onların fəzilətə doğru hərəkətləri, tərbiyəyə doğru sürətləri yavaş və ləng olur.

Hər bir ailədə tərbiyə alan uşaq ilk növbədə, aid olduğu nəslin genini daşıyır ki, bu da onun əxlaqına təsir edən amildir. Nəslin davamçısı olan hər uşaq, həmin nəslin yaxşı və pis xüsusiyyətlərini öz davranışında, tərbiyəsində büruzə verir.

Ailədə qoyulmuş qaydaların əhəmiyyətini uşaqlar başa düşərkən onlara əməl olunması şüurlu intizamdır. Şüurlu intizam isə borc və məsuliyyət hissi ilə bağlıdır. Ailə qarşısında borc və məsuliyyət hissi duyan yeniyetmə, gənc ailədə müvafiq əxlaq normalarına dəqiq və müntəzəm şəkildə əməl etməyə çalışır. Şüurlu intizam borc və məsuliyyət hisslərinin gənc nəslə aşılanmasında müvəffəqiyyəti artırmaq üçün ailə ilə məktəb əlbir iş aparmalıdır.

Uşaqların gələcək həyatının stimullaşmasında əxlaq tərbiyəsinin mühüm əhəmiyyəti vardır ki, ailə bu sahədə aşağıdakıları etməlidir:

- məktəbəqədər yaş dövründən başlayaraq valideynlər uşaqlara örnək xarakterli mənəvi keyfiyyətlərin planlı və mütəşəkkil şəkildə aşılanmasını təmin etməlidir;

- valideynlər uşaqlara mütəmadi və nümunəvi davranışla, əxlaqi normalarla milli-mənəvi dəyərlərimizlə səsləşən etnopedaqoji nümunələrin öyrədilməsini mümkün qədər ardıcıllıqla həyata keçirməlidir;

- uşaqların yanında yalan danışmaq, iki üzlülük, oğurluq, yaltaqlıq etmək onlarda yenicə yaranan mənəvi keyfiyyətlərin bünövrəsini dağıtmaq deməkdir. Bu səbəbdən bu cür hallara yol vermək olmaz.

Sadalanan fikirlərdən aydın olur ki, əxlaq tərbiyəsinin bünövrəsi ailədə qoyulur. Ailənin dinamik inkişafı, əxlaqi mənəvi cəhətdən formalaşmasının əsasında düzgün tərbiyə dayanır. Ailə ənənələri əsasında inkişaf edən mənəvi normalar yalnız ailə üzvlərinin normal davranışı nəticəsində formalaşır.

**ƏDƏBİYYAT**


1. Camalov K.H., Allahverdiyeva L.Z. Ailədə tərbiyə üsullarının tətbiqi zamanı etnopedaqoji materiallardan istifadə imkanları. Bakı: Elm və təhsil, 2014.
2. Əliyev İ.İ Azərbaycan etnopedaqogikası: Magistr hazırlığı üçün dərs vəsaiti. Bakı: Elm və təhsil, 2009.
3. Xacə Nəsrəddin Tusi. Əxlaqi-Nasiri / Farscadan tərcümə edən: R. Sultanov. Bakı: Elm, 2005.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika: Mühazirə kursu. Bakı, 2013.


## SİNİFDƏNXARİC TƏDBİRLƏR ZAMANI YENİYETMƏLƏRDƏ MÜSTƏQİLLİYİN İNKİŞAF ETDİRİLMƏSİ BAXIMINDAN PEDAQOJİ PROSESİN PRİNSİPLƏRİNDƏN FAYDALANMAĞIN ƏHƏMİYYƏTİ


**Ülviyyə İsmayılova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
E-mail: ulviyy.ismayilova@mail.ru



***Açar sözlər:*** *sinifdənxaric iş, müstəqillik, yeniyetmə, yeniyetmənin müstəqilliyi, prinsip, pedaqoji prosesin prinsipləri,*

***Ключевые слова:*** *внеклассные мероприятия, самостоятельность, подросток, самостоятельность подростка, принцип, принципы педагогического процесса*

***Keywords:*** *extra-curricular activities, independence, teenager, teenage independence, principle, principles of pedagogical process*


İstər təlim prosesində, istərsə də sinifdənxaric tədbirlərin gedişində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi son dərəcə vacibdir. Müstəqil fikrə, müstəqil təfəkkürə, müstəqil fəaliyyət göstərməyə qabil olan şəxs heç zaman çətinliklə qarşılaşmır. Daha doğrusu, qarşısına çətinlik çıxdıqda onun öhdəsindən gəlməyi bacarır. Belə şagirdlərdə təxəyyül də inkişaf etmiş olur. Onlar bu və ya digər məsələnin həlli zamanı qəti hərəkət edir, beyinləri işləyir, yollar tapırlar. Sinifdənxaric işin bu və ya digər forması üzrə tədbirlər (söhbət, görüş, müzakirə, disput, müsabiqə və s.) həyata keçirildikdə məktəblilərə tapşırıqlar verilməli, onların qüvvəsindən maksimum dərəcədə çox istifadə edilməlidir.

Pedaqoji prosesin müvafiq prinsiplərinin pedaqoji kollektiv üzvlərinin imkanlarından faydalanmaq yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsinə böyük kömək göstərir.

Pedaqoji ədəbiyyatda, "Pedaqogika" dərsliklərində təlimin, tərbiyənin, ümumiyyətlə, pedaqoji prosesin bir sox prinsiplərinə münasibət bildirilir. Biz mövcud prinsipləri saf-çürük edərək, təhlil süzgəcindən keçirərək, sinifdənxaric tədbirlərin təşkilində aşağıdakı prinsiplərə əsaslanmağı məqsədəuyğun hesab edirik:

1. Sinifdənxaric tədbirin həyatla əlaqəsi prinsipi.
2. Xəlqilik və millilik prinsipi.
3. Sinifdənxaric tədbirin təlim prosesi ilə əlaqələndirilməsi prinsipi.
4. Müəllim və yeniyetmənin əməkdaşlığı prinsipi.
5. Yeniyetmələrin aktiv fəaliyyətinin təşkili prinsipi.
6. Sinifdənxaric tədbirlərin təşkili zamanı demokratizim və humanistləşdirməyə əsaslanma prinsipi.
7. Yeniyetmələrin müstəqilliyinin təmin olunması prinsipi.
8. Yeniyetmələrin təşəbbüskarlığının nəzərə alınması prinsipi.

9. Yeniyetmələrin yaş, fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması prinsipi.
10. Tərbiyəvi təsirlərdə vahidliyin gözlənilməsi prinsipi.
11. Hörmət və tələbkarlıq prinsipi.
12. Yeniyetmələrin müsbət keyfiyyətlərinə əsaslanmaq prinsipi.
13. Yeniyetməyə inam və etibar prinsipi.
14. Yeniyetmələrin müstəqil fəaliyyətinə nəzarət prinsipi.

Fikrimizcə, ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri yeniyetmələrlə sinifdənxaric tədbirlər təşkil edərkən yuxarıdakı prinsiplərdən kompleks şəkildə faydalandıqları təqdirdə bir yandan təhsilalanların müstəqilliyinə nail olunur, digər tərəfdən sinifdənxaric tədbirin səmərəliliyi təmin edilir.

**ƏDƏBİYYAT**

A.N. Abbasov. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.

## MƏNƏVİ MƏDƏNİYYƏTİN MAHİYYƏTİ VƏ ELMİ NƏZƏRİ ƏSASLARI

**Tahirə Hüseynova,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail:tahirehuseynova@gmail.ru

***Açar sözlər:*** *Azərbaycan, mədəni mədəniyyət, mərdlik, mənəviyyat, ənənə*
***Key words:*** *Azerbaijan, cultural culture, courage, morality, tradition*
***Ключевые слова:*** *Азербайджан, культурная культура, мужество, мораль, традиция*

Mənəvi mədəniyyət xalqın həyat tərzindən, insanların birgə yaşayışından doğan ümummilli və ayrılıqda hər bir fərdin baxışlar sistemidir. Deyə bilərik ki, mənəvi mədəniyyəti təşkil edən komponentlər xalqın sosial-mədəni, dini və mənəvi həyatı və həyat tərzindən meydana gəlmişdir. Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlər onun sosial həyatında, milli məişətində, mədəniyyətində, inam və əxlaqi məziyyətlərində etiketləşərək, ta qədim dövrlərdən indiyə kimi yaşaya-yaşaya gəlib bu günlərimizə çıxmışdır.

Mənəviyyat ərəb sözüdür, məna sözündən əmələ gəlmişdir. İnsanın mənası dəyəri, qiyməti mənasındadır. İnsanın özü onun mənəviyyatı ilə, mənəvi mədəniyyəti ilə ölçülür.

Azərbaycan cəmiyyətində xalqın özünə məxsus olan və mənəvi keyfiyyətləri canlandıran dostluq və yoldaşlıq, mərdlik və ədalətlilik, böyüyə hörmət və kiçiyə qayğı, ata-anaya ehtiram, humanistlik, qonaqpərvərlik və səxavətlilik, namusluluq və qeyrətlilik, vətən və el, doğma torpaq və yurd təəssübkeşliyi, birlik və vəhdət insanın mənəviyyatı, mənəvi etiketləridir.

Azərbaycan xalqının yaratdığı əxlaqi-mənəvi dəyərlər tarixən dəyişmiş, onun etnik varlığının, tarixi mövcudluğunun ilkin dövründə mənəvi həyatı inkişaf etdirən xalqın aparıcı nümayəndələri maddi və milli-mənəvi dəyərlər yaratmışlar. Milli-mənəvi, əxlaqi sahədə qazanılanlar heç vaxt itmir, etnik birliyin hər bir fəal qurucusu özünü əcdadlarının tutduğu xəttin mədəni davamçısıdır və o bu mənəvi mədəniyyətə öz əlavələrini etmişdir.

Bu gün yeni nə isə edilən bir şey onu ifadə edir ki, keçmiş mədəni irs itməmiş, o, insanın özündədir və o inkişaf edir daim zənginləşir. Bununla da keçmiş heç vaxt itmir, indi də toplanır və gələcəyə doğru hərəkət edərək yaşayır.

Prof. S. Xəlilov düzgün olaraq göstərir ki, "mənəviyyat" və "mədəniyyət" anlayışlarını qarşılaşdırmış olsaq, görərik ki, mədəniyyət sferasına aid olan, yəni insanın əməli fəaliyyəti ilə bağlı olan bir çox hadisələr mənəvi-əxlaqi məzmun daşıyır. Elmin, ədəbiyyatın, incəsənətin, dinin və hətta siyasi-hüquqi fəaliyyətin əxlaqi-mənəvi aspektləri vardır. Mənəvi mədəniyyət məhz bu iki böyük həcmli anlayışın kəsişmə sahəsini əhatə edir.

E. Mustafayev mənəvi mədəniyyəti fikir hesab edir və yazır ki, insanların buna mənəvi mədəniyyətə həmişə ehtiyacı vardır. Bunlar əzəldən insan təbiətinə qoyulmuşdur. Lakin onlar bir növ mənəvi instinktlər, hələ açılmamış, aydınlaşmamış mənəvi anlayışlar hesab olunur. Zaman keçdikcə belə mənəvi anlayışlar insanda onun şəxsiyyəti, daxili aləmi, individual seçiminə uyğun olaraq tam formalaşır.

Bir sözlə, xalqın aparıcı hissəsi etnik birliyin yaratdığı əxlaq mənəvi mədəniyyəti inkişaf etdirərək onu yaşadır. Mənəvi mədəniyyət insan həyatına daxil olaraq onu mənsub olduğu xalqın ideallarına qovuşdurur, bir şəxsiyyət kimi formalaşdırır.

Mənəvi mədəniyyəti xalq, cəmiyyət, insanlar yaradır, şəxsiyyət isə onu mənimsəyərək formalaşır, yetişən gənc nəsil onu öyrənərək tərbiyələnir. Milli-mənəvi dəyərləri mənimsəyən insan onu özününküləşdirir, təkmilləşdirir və zənginləşdirir.

## EKSKURSİYALARIN TƏRBİYƏVİ FUNKSİYALARINDAN İSTİFADƏ

**Əli Cabbarov,**
*iqtisad üzrə fəlsəfə doktoru*
*"Naxçıvan" Universiteti*
E-mail: acabbarov@mail.ru

***Açar sözlər:*** *turizm; ekskursiya, dərketmə, təəssürat, mənəvi inkişaf*
***Ключевые слова:*** *туризм, экскурсия, познание ,впечатление, моральное развитие*
***Key words:*** *tourism, excursion, acknowledgment, impression, mental growth*

Ekskursiyalar turizm məhsulunun mühüm bir hissəsi, səyahətlərin əsas motividir. Ekskursiya fəaliyyəti təsadüfən keçirilən bir iş olmayıb, turistlərin tələbatlarının ödənilməsi üçün dəqiq müəyyən olunmuş məqsədyönlü bir tədbirlər sisteminin bir hissəsidir. Ekskursiya və onun mahiyyəti haqqında ilk elmi fikirlər yüz ildən çox bir dövrə təsadüf etsə də yalnız kütləvi turizmin yayılması ilə ona elmi yanaşmalar başlamışdır. Ekskursiya bir dərketmə prosesidir. Məhz onun vasitəsilə obyekt haqqındakı qiyabi təsəvvürlər reallığa çevrilir. Bu baxımından ekskursiya zamanı insanların ətrafı dərk etməsi, daha dərin məlumatlara yol açılması vacibdir. Psixoloji proses kimi ekskursiyaların təşkili zamanı iki əsas dərketmə prosesindən keçilir. Bunlardan biri hiss edib dərketmə, ikincisi məntiqi dərketmədir. Hər iki proses zamanı ekskursantda təsəvvür yaranır.

Ekskursiya praktikasında təsəvvür yaratma ekskursantların şüurunda yeni təəssüratlar formalaşdırmaq, onların yaddaşında gerçəkliyin əks olunması imkanı yaradır. Ekskursiyanın səmərəsi pedaqoji proses kimi bələdçi və ekskursantın fəallığından çox asılıdır. Ekskursiya zamanı mühüm pedaqoji vəzifələrdən biri verilən informasiyanın yaddaşda möhkəmləndirilməsidir. Bunun üçün bələdçinin qarşısında verdiyi informasiyanın əvvəlcə verilmiş informasiya ilə müqayisəsi, verilmiş informasiyanın seçilməsi və yekun nəticəyə gəlinməsi vəzifələri durur.

Bunun üçün bələdçi həm də pedaqoq kimi konstruktiv olmalı, təşkilatçılıq qabiliyyətinə sahib olmalı və yüksək dərəcədə ünsiyyətcil olmalıdır. Bələdçi ilə ünsiyyət, onun tövsiyələri və qeydləri turistlər tərəfindən onların mənəvi və estetik zövqlərinə görə dəyişilir, onların təhsilinə, tərbiyəsinə və dünyanı dərk etməsinə öz təsirini göstərir. Bu zaman ətraf mühitin, təbii gözəlliklərin, tarixi zənginliklərin insanlara, xüsusən gənc nəslə öyrədilməsi zamanı ekskursiyaların imkanlarından istifadə mühüm əhəmiyyət kəsb edir.

Ekskursiyanın pedaqoji əsasları ilk növbədə onun didaktik prinsiplərində görünür. Bu prinsipə görə ekskursiyanın elmiliyi, ideyalılığı və həyatla bağlılığı, obyektin əlçatanlığı, ekskursiyanın ümumi sistematikliyi, onun başa düşülənliyi və inandırıcılığı əsas götürülür. Elmilik kimi ekskursiyalarda təqdim olunan obyektin elmi maraq kəsb etməsi, onun hər hansı bir ideyaya xidmət etməsi, nə zamansa baş vermiş real həyati faktlara əsaslanması, onun hər hansı bir fantastik səviyyədə deyil müasir elmin və texnologiyanın səviyyəsi ilə, əlçatan yerdə olması ilə, ekskursiya elementlərinin bir-birini tamamlaması ilə, turistlərin sahib olduğu mədəni səviyyə və dünyagörüşünə görə başa düşülən və təsvir etdiyi hal, hadisə və ya fakta görə, real inandırıcılığa görə seçilir.

Ekskursiya həm də tərbiyə prosesinin sürətləndirilməsinə və eyni zamanda ləngidilməsinə səbəb ola bilər. Ekskursiyanı aparan bələdçi-pedaqoq hər şeydən əvvəl öz ekskursantlarına mənəvi inkişaf, kollektiv hərəkətlərə hörmət, öz xalqına və digər xalqlara sevgi kimi dərin mənəvi keyfiyyətlər aşılamalıdır.

**ƏDƏBİYYAT**


1. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı: Mütərcim, 2004.
2. А.П. Дурович, Н.И. Кабушкин, Т.М. Сергеева и др. Организация туризма: Учеб. пособие / Под общ. ред. Н.И. Кабушкина и др. Мн.: Новое знание, 2003.
3. Хуусконен Н.М. Практика экскурсионной деятельности. СПб.: Герда, 2006.


## VALİDEYN NÜMUNƏSİNİN AİLƏ TƏRBİYƏSİNİN SƏMƏRƏLİLİYİNƏ TƏSİRİ


**Solmaz Cabbarova,**

*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*

E-mail:solmazcabbarova@mail.ru



***Açar sözlər:*** *ailə, valideyn, uşaq, nümunə, nüfuz, mədəniyyət.*

***Key words:*** *family, child, parent, sample, reputation, culture.*

***Ключ слова:*** *семья, родитель, ребенок, образец, репутация, культура.*


Ailə uşaq üçün ən yaxşı qarşılıqlı münasibət və ünsiyyət ocağıdır. Ailə çox mühüm sosiallaşma amili, tərbiyənin subyekti, uşağın özünün inkişafı , özünü təsdiqidir. Uşaq məhz ailədə ilk dəfə olaraq sosial qarşılıqlı əlaqədə olur, özü üçün insani münasibətlər aləmi açır, özünü tərbiyə subyektinə çevrilir. Bu zaman ailə həmçinin uşağın şəxsiyyət kimi inkişafı prosesində neqativ, mənfi təsirlər də göstərə bilir ki, buna səbəb ailədaxili konfliktlər, ailənin maddi vəziyyəti, güc və zorakılığın tətbiqi, uşağın inkişafına psixi travmaların təsiri, nəhayətdə uşağın tərbiyəsinə valideynlərin mənfi münasibətləridir.

Normal ailə atmosferinin yaradılması o deməkdir ki, valideynlər uşaqları tərbiyəsi üzrə öz borc və məsuliyyət hissini dərk etsin, ata və ana arasında münasibətlər qarşılıqlı hörmətə əsaslansın, uşaqlar ailə təsərrüfatının həlli məsələlərinə cəlb edilsin, istirahət, idman, turizm, birgə gəzintilər ağıllı, əlverişli və münasib şəkildə təşkil olunsun. Ailə birlikdə musiqi dinləmə, kitab mütaliəsi ilə məşğul olsun, incəsənət və mədəniyyət tədbirlərinə, teatr və kinoya getsin və s. Bütün bunların həyata keçirilməsi, müsbət həlli isə valideynlərin , ailənin yaşlı üzvlərinin biliyi, bacarığı və rəhbərlik üslubunun səviyyəsindən asılıdır.

Valideyn nümunəsi və avtoriteti (nüfuzu) sosial varisliyin mühüm mexanizmi kimi yaşlı nəslin yetişən nəslə mənəvi əxlaqi təcrübəsinin ötürülməsidir. Valideyn nümunəsi sosial təcrübənin spesifik formasıdır. Ata və ana uşağın gözündə bu avtoriteti qoruyub saxlamalıdır.

Ailədə uşağın yüksək mənəvi əxlaqi tərbiyəsi üçün ata və ananın nümunəsi uşaq üçün avtoritet olmalıdır. Valideynin həqiqi nüfuzu o zaman yaranır ki, o həm də siyasi və vətəndaşlıq keyfiyyətlərinə malik olsun. Uşaq bilməlidir ki, onun valideynlərindən hər ikisi, yaxud hər hansı biri ictimai fəaliyyəti görüşləri ilə fərqlənir. Bu zaman uşaq valideynlərinin uğurları ilə fəxr edir.

Valideynin işini layiqincə həyata keçirmək üçün nüfuz ilk özül, bünövrədir. Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi üzrə işin məqsədyönlü təşkili üçün pedaqoq-müəllimlərlə ailənin əməkdaşlığına xüsusi önəm vermək lazımdır. Pedaqoqların valideynlərlə qarşılıqlı əlaqələrinin formalaşdırılması təhsil müəssisələrinin sosial siyasətinin prioritet istiqamətini təşkil edir. Təhsil vətəndaşın formalaşmasında əhəmiyyətli rol oynayır. Lakin unutmaq olmaz ki, məhz erkən yaşlardan uşaqlarda əxlaqi dəyərlər, o cümlədən, vətəndaşlıq keyfiyyətləri formalaşdırılır, həyat tərzinin ağılla və bacarıqla qurulmasının istiqaməti müəyyənləşdirilir. Ancaq təcrübə göstərir ki, bir çox valideynlər uşaqların tərbiyəsi sahəsində xüsusi biliklərə malik deyillər. Onlar ailədaxili əlaqə və münasibətləri qurmaqda çətinliklərlə rastlaşırlar.

Beləliklə, aydın olur ki, ailə institutunda uşaqların tərbiyəsinin müvəffəqiyyətini təmin etməyin çox mühüm amili kimi valideyn nümunəsi, onun rəhbərlik xüsusiyyəti, avtoriteti çox zəngin məzmuna və mahiyyətə malik pedaqoji hadisədir. Valideyn nümunəsi hamının qəbul etdiyi əhəmiyyətə və mahiyyətə malik olmaqla təsirli tərbiyə amili və pedaqoji takt kimi hərəkət qaydaları, fəaliyyət üsuludur.

**ƏDƏBİYYAT**


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblərin magistratura pilləsi üçün dərslik. Bakı: Mütərcim, 2016.
2. Əliyev H. Ailə və məktəb ənənələri sağlam nəsil tərbiyə edir. Bakı: Maarif, 1988.

3. Калейдоскоп родительских собраний / Под ред.Н.А. Алексеевой. М.: Гардарика, 2001.

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN EKOLOJİ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Sevinc Vəliyeva,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail:seva@mail.ru

***Açar sözlər:*** *həyat bilgisi, ekologiya, şagird, tərbiyə, məktəb, məktəbli*
***Key words:*** *life skill, ecology , pupil, bringing up, school, schooler*
***Ключевые слово:*** *знание жизни, экология, ученик, воспитание, школа, школьник*

Keçmiş inkişaf mərhələsində yaşamış ekoloji problemlərin bünövrəsi üzərində inkişaf edən müasir problemlər XX əsrin axırıncı onilliklərdən başlayaraq qlobal xarakter almışdır. Bu gün ümumbəşəri və ümummilli mahiyyət daşıyan təbiəti mühafizə və təbii sərvətlərdən səmərəli istifadə məsələlərinin həllində ümumtəhsil məktəblərində ekoloji tərbiyə və ekoloji mədəniyyətlərin formalaşdırılması, kiçik yaşlı məktəblilərin ekoloji biliklərinin genişləndirilməsi işinin səmərəli təşkili mühüm əhəmiyyətə malikdir. Məktəb ibtidai sinifdə keçirilən ana dilinin tədrisi prosesində ekoloji təlim –tərbiyə işinin səmərəli təşkili pedaqoji tərbiyə sisteminin mühüm tərkib hissəsini təşkil edir. (1, 43)

Müasir şəraitdə ümumtəhsil məktəblərində ekoloji bilikləndirmə və ekoloji tərbiyə işinin təşkili təlim-tərbiyə sisteminin mühüm tərkib hissəsi olmaqla, həyat bilgisi, ana dili və başqa fənlərin tədrisində həyata keçirilir. Bu istiqamətlərin hər biri struktur elementləri. məzmunu, forma və məqsədə nail olma metodlarına görə səciyyəvi və ümumi əlamətlərinə malik olmaqla, ekoloji təlim-tərbiyə sistemində fənlərarası əlaqədə geniş iştirak edirlər.

Həyat bilgisinin və ana dilinin tədrisi prosesində və eləcə də sinifdənkənar keçirilən tədbirlər zamanı ekoloji təlim-tərbiyə işinə sistemli yanaşma onun keyfiyyətinə müsbət təsir göstərir, elementlər arasındakı qanunauyğunluğu, qarşılıqlı əlaqələri, struktur və metodları müəyyən edir və onun təşkilinə əlverişli şərait yaradır.

Həyat bilgisi və ana dilinin fənlərinin tədrisində ekoloji təlim-tərbiyə prosesində ilk növbədə yerli təbii şəraitin öyrənilməsinə diqqət yetirilir. Eyni zamanda bu fənnin tədrisi prosesində ətraf mühitin vəziyyəti, orada baş verən antropogen dəyişikliklər, mövcud ekoloji problemlər yerli şəraitlə müqayisəli şəkildə araşdırılır. (3, 60)

Həyat bilgisinin tədrisində (ekoloji baxımdan) daha çox diqqət müxtəlif ərazilərdə olan təbiət elementlərinə (relyef, iqlim, torpaq, bitki örtüyü və heyvanlar aləmi), öz aralarında və təbiətlə onlar arasındakı qarşılıqlı əlaqə və təsir xüsusiyyətlərinə, insanların təsiri ilə onlarda baş verən dəyişikliklərə yönəldilir. Ətraf mühit, onun müasir ekoloji vəziyyəti, bu sahədə insanın rolu məsələləri müəyyənləşdirilərkən mövzu kompleks şəkildə təhlil olunur və nəticə çıxarılır.

Ümumtəhsil məktəblərində “ Həyat bilgisi”nin tədrisi zamanı ətraf mühitlə canlı orqanizmlərin bir-biri əlaqəsi, onların ətraf mühitə, ətraf mühit və insanların canlı orqanizmlərə təsiri və əlaqələrinə aid xeyli proqram mövzuları verilmişdir. Məsələn, III sinif “Həyat bilgisi” dərsliyində “Yerin bitki örtüyü”, “Adi gözlə görünməyən canlılar”, “Yeraltı və yerüstü sərvətlərimiz”, “Bol nemətli yurdumuz”, II sinif “Həyat bilgisi” dərsliyində “Təbiəti qoruyaq”, “Günəş işıq və istilik mənbəyidir”, “bizi əhatə edən mühit” və s. mövzular şagirdlərə təbiət və onun elementləri, ətraf mühitin vəziyyəti, insanların təbiətə təsiri, təbiətin mühafizəsi haqda dərin biliklər verilməsinə, onların ekoloji tərbiyəsinin formalaşmasına kömək edən mövzulardır. Bu mövzuların tədrisində kiçik yaşlı məktəblilər hava, su, torpaqların çirklənməsi, bitki və heyvanlar aləminin məhv olmasının qarşısının alınmasına, onların mühafizəsinə yönəldilmiş tədbirlər haqqında geniş məlumata yiyələnirlər.

Bütün bunlar məktəblilərdə təbiətə qayğılı münasibəti daha da gücləndirir, onların ekoloji tərbiyəsinin inkişafina müsbət təsir göstərir.

**ƏDƏBİYYAT**

1. O. Həsənli, T. Bəylərov. Şagirdlərin ekoloji tərbiyəsi Bakı: Mütərcim, 2007.
2. Həyat bilgisi: Ümumtəhsil məktəblərinin II sinfi üçün dərslik. Bakı, 2012.
3. Həyat bilgisi: Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. Bakı, 2013.

# MUSİQİ VASİTƏSİLƏ GƏNC NƏSLİN ESTETİK TƏRBİYƏSİ

**İsmayıl Mürsəlov,**
*Naxçıvan Dövlət Universitetinin kafedra müdiri*
E-mail:admin@endu.edu.az

***Açar sözlər :*** *musiqi, estetika, nəğmə, dərslik, şagird*
***Key words :*** *music, aesthetiks, text-book, pupil, song*
***Ключевые слова :*** *музыка, эстетика, пение, учебник, ученик*

Gənc nəslin estetik tərbiyəsi sistemində musiqinin yerini və əhəmiyyətini əsaslı şəkildə müəyyənləşdirmək üçün ilk növbədə elmi-pedaqoji ədəbiyyatda problemin qoyuluşu məsələlərini öyrənmək zəruridir. Bu baxımdan pedaqogika elminin əsaslarını müəllimlərə, tərbiyəçilərə çatdıran dərslik və dərs vəsaitlərini diqqət mərkəzinə gətirmək tələb olunur.

Müxtəlif vaxtlarda ali məktəblər üçün nəşr olunmuş "Pedaqogika", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası" dərsliklərinin "Estetik tərbiyə" bölmələrində musiqinin estetik təsir imkanları ilə əlaqədar irəli sürülən fikir və müddəalar da problem vaxtından mühüm əhəmiyyət kəsb edir. Buna görə də problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu məsələlərini öyrənərkən öncə respublikamızda müxtəlif vaxtlarda çap olunmuş pedaqogika dərsliklərinə və dərs vasitələrinə diqqət yetirməli olduq.

"Estetik tərbiyə üçün istifadə olunan vasitələrdən biri də musiqi dinləməkdir. Bu, nəğmə və musiqi dərslərində olduğu kimi, sinifdənkənarda da aparıla bilər. Musiqi dinləmək vasitəsilə uşaqlar musiqi əsərlərini şüurlu qavramağı və onları qiymətləndirməyi öyrənirlər " . Burada problem baxımından diqqəti cəlb edən iki əsas cəhət daha qabarıq şəkildə nəzərə çarpır. Birinci, musiqinin əsas estetik təsir vasitələrdən biri olması. İkinci, musiqidən həm dərs, həm də sinifdənxaric məşğələlərdə istifadə edilməsinin əhəmiyyəti.

Çox haqlı olaraq qeyd olunur ki, musiqi dinləmək vasitəsilə uşaqlar müxtəlif janrlı musiqi əsərlərini şüurlu surətdə qavramağı və onları qiymətləndirməyi, yəni həmin nümunələr haqqında fikir-mühakimə yürütməyi öyrənirlər. Dərs vəsaitinin estetik tərbiyə bölməsində diqqəti cəlb edən cəhətlərdən biri də incəsənətə böyük üstünlük verilməsi, incəsənətin sosial mahiyyətini geniş planda nəzərə çatdırılmasıdır.

"İncəsənət təbiət və cəmiyyəti əks etdirməkdən başqa, onları həm də izah edir və həqiqəti dərk etməkdə böyük rol oynayır. İncəsənət ümumi mədəniyyəti yüksəldir, görüş dairəsini genişləndirir və dünya görüşünü formalaşdırır. Lakin incəsənətdə gözəlliyi yalnız seyr etməklə kifayətlənmək olmaz. Buna görə də estetik tərbiyə şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməli, onların aldıqları bilik, bacarıq və vərdişləri tətbiq etməyi öyrətməlidir" .

Göründüyü kimi burada çox mühüm bir məsələnin üzərində dayanılıb. İncəsənətin mənəvi-estetik mahiyyəti, şəxsiyyət mədəniyyətinin, ümum estetik mədəniyyətinin inkişafında çox böyük rol oynaması konkret fikir və müddəalarla nəzərə çatdırılır.

**ƏDƏBİYYAT**

1. M.C. Cəfərov. Estetik tərbiyə Ailə və məktəb. Bakı: Maarif, 1967
2. Ə. Həşimov I-IV sinif şagirdlərinin estetik tərbiyəsi. Bakı: Azərnəşr, 1967

# MƏKTƏBDƏ ƏMƏK TƏRBİYƏSİNİN ƏHƏMİYYƏTİ, ŞAGİRDLƏRƏ ƏMƏYƏ VƏ ƏMƏK ADAMLARINA HÖRMƏT HİSSİNİN AŞILANMASI

**Günay Şirəliyeva,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş-müəllimi,*
*filologiya üzrə fəlsəfə doktoru,*

***Açar sözlər:*** *müəllim, əmək, əxlaq, tərbiyə, oyun*
***Ключевые слова:*** *учитель, труд, мораль, воситание, игра*
***Key words:*** *teacher, work, ethics, education, act*

Əmək tərbiyəsi əməyə, əmək adamlarına, əməyin nəticəsinə düzgün münasibət formalaşdırmaq, şagird psixoloji cəhətdən əməyə hazırlamaq deməkdir. Fəaliyyəti oyun, təlim və əmək növlərinə bölürlər. Əmək fəaliyyətin elə bir növüdür ki, nəticədə hökmən məhsul əldə edilməlidir. Oyun prosesində isə məhsul əldə edilmir. Əmək düşünülmüş plan əsasında həyata keçirilir, insanın sağlamlığına, onda yaxşı keyfiyyətlərin formalaşmasına və inkişafına müsbət təsir göstərir. Əmək tərbiyəsinin iki məqsədi var: əxlaqi məqsəd və praktik məqsəd. Əxlaqi məqsəd odur ki, əmək tərbiyəsi şagirdləri psixoloji cəhətdən əməyə hazırlayır, onlar xalq üçün işləməyə hazır olur, əməksevər ruhda böyüyürlər. *Praktik məqsəd* baxımından isə şagirdlər əmək alətləri ilə tanış olmalı, bu alətlərdən istifadə etməyə aid ilkin bacarıqlara yiyələnməli, özlərinin fiziki qüvvələrini inkişaf etdirməlidirlər. Məktəbdə əmək tərbiyəsinin aşağıdakı vəzifələri vardır: 1. Şagirdlərdə əməyə, əmək adamlarına hörmət, zəhmətə xor baxanlara isə nifrət hissi aşılamaq. 2. Gənc nəsli əməksevərlik ruhunda yetişdirmək. 3. Əməyin quruculuq işlərindəki və insanın şəxsi həyatındakı rolunu məktəblilərə düzgün dərk etdirmək. 4. Əmək fəaliyyətinə uşaqların psixoloji hazırlığını təmin etmək, onları özlərinə şüurlu surətdə peşə seçməyə sövq etmək. 5. Şagirdlərdə əmək intizamını və əmək mədəniyyətini formalaşdırmaq və s. bu vəzifələr məktəbdə ilk növbədə təlim prosesində (tədris fənləri, xüsusilə əmək təlimi dərsləri vasitəsilə) həyata keçirilir. Bu vəzifələr həm də məktəblərarası tədris-istehsalat kombinatlarında, tədris-istehsalat emalatxanalarında, tədris sexlərində, ictimai-faydalı iş prosesində həyata keçirilir. Məktəblərdə uşaqların əməyə hazırlığı lap I sinifdən başlayır, müxtəlif faydalı əşyalar hazırlayırlar. Yuxarı siniflərə doğru şagirdlər istehsalatın müxtəlif sahələrində əmək təcrübələrinə yiyələnirlər. Onlar əldə etdikləri məhsulun bir hissəsini dövlətə təhvil verib məktəb üçün ictimai fond yaradırlar.

2*. Şagird əməyinin növləri. Uşaqların əmək fəaliyyətinə cəlb etmənin vasitə və yolları*

Şagirdlərin əsas əməyi təlim əməyidir. Bundan başqa şagird əməyinin üç növü vardır: özünəxidmət əməyi, ictimai-faydalı əmək, məhsuldar əmək. Özünəxidmət əməyinə "məişət əməyi"də deyilir. Uşağın əmək həyatı əməyin bir növündən başlayır. Özünəxidmət əməyin uşağın ailədə valideynlərinə köməyi, bazarlıq etməsi, pal-paltarı yuyub ütülənməsi və bunun kimi işlər, məktəbdə isə sinif otağının, kabinet və laboratoriyaların təmizliyini təmin etməsi daxildir. İctimai-faydalı əmək növünə ictimai baxımdan daha əhəmiyyətli işlər (xeyriyyəçilik fəaliyyəti, kənd və şəhərlərin yaşıllaşdırılması, təbiət və mədəniyyət abidələrinin qorunması və s.) daxildir. Bu cür işlər maddi gəlir, qazanc, təmənna xatirinə deyil, insanlıq naminə görülür, ona görə də uşaqlarda nəcib əxlaqi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır. Məhsuldar əmək bilavasitə maddi sərvətlər yaradılmasına yönələn və haqqı ödənilən əməkdir. Uşaqları əmək fəaliyyətinə cəlb etmənin vasitə və yolları bunlardır: 1. Uşaqlara müxtəlif növ ictimai əmək tapşırıqları vermək. 2. Əmək məsələlərinə həsr edilmiş yığıncaqlar keçirərək uşaqlara əməyin əhəmiyyətini dərk etdirmək. 3. Onların əməklə bağlı dərnəklərə (təcrübəçilik, gənc təbiətçilər, texniki yaradıcılıq və s.) cəlb olunmasını iməciliklərdə iştirakını təşkil etmək. 4. Zəhmət adamları ilə görüşlər keçirmək. 5. Şagirdlərin əməyə münasibətini və gördükləri işlərin nəticələrini əks etdirən stend, sərgi, albom və s. tərtib etmək.

***3. Əmək tərbiyəsinin təşkilinə verilən tələblər.***

1. Uşaqlar təlim prosesində qazandıqları bilikləri praktik işdə tətbiq etməlidirlər. 2. Şagird əməyinin təşkilində tərbiyəvi məqsəd ön plana çəkilməlidir. 3. Əmək şagirdin yaşına, gücünə, zehni inkişaf səviyyəsinə və psixoloji inkişafına uyğun olmalıdır. 4. Əmək tərbiyəsi fasiləsiz və sistematik

aparmalıdır. 5. Şagirdlərin əməyini təşkil edərkən fərdi formaya nisbətən əməkdaşlıq prinsipi əsasında kollektiv formaya üstünlük verilməlidir. 6. Əmək prosesində şagirdlərin təşəbbüsü, özfəaliyyəti, şəxsi yaradıcılığı tətbiq edilməlidir. 7. Şagirdlərin əməyi məqsədyönlü, şüurlu fəaliyyət olmalı və regionların real tələbatı ilə əlaqələnməlidir.

***4. Peşəyönümü***

Peşəyönümü əmək tərbiyəsinin yekunlaşdırıcı mərhələsidir. Məktəbdə peşəyönümü şagirdləri şüurlu surətdə peşə seçməyə hazırlamağa, peşə sahələri ilə tanış etməyə, onlarda peşə maraqlarını və meyillərini formalaşdırmağa yönəldilən fəaliyyətdir. Peşəyönümü aşağıdakı komponentləri əhatə edir: 1. Peşə məlumatı; 2. Peşə maarifi; 3. Maraq, meyl və qabiliyyətlərin öyrənilməsi və inkişaf etdirilməsi. 4. Peşə məsləhəti və peşə seçilməsi. 5. Peşə uyğunlaşması. Məktəbdə peşəyönümü həm tədris prosesində, həm də sinifdənxaric işlər prosesində həyata keçirilir. Fənlərin təlimində bu imkan daha genişdir. Hər bir şagirdin peşə seçməkdə müstəqil, azad olduğu ona başa salınmalıdır. Uşaq bilməlidir ki o xalqın ehtiyacı ilə, həmçinin özünün şəxsi səhhəti ilə, psixoloji xüsusiyyətləri və. s ilə əlaqədar olaraq peşə seçməkdə sərbəstdir.

**ƏDƏBİYYAT**

1. N. Kazımov. Məktəb pedaqogikası, Bakı, 2002.
2. N. Kazımov. Pedaqogika. Bakı, 2004.

## AİLƏ ƏNƏNƏLƏRİ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN MƏNƏVİ TƏRBİYƏLİLİYİNİN ƏSASI KİMİ

**Fəridə Səmədzadə,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: feridesemedzade@box.az

***Açar sözlər:*** *məktəbəqədər təhsil, ailə ənənələr, yaş dövrləri, tərbiyə*
***Ключевые слова:*** *дошкольное образование, нравственное воспитание, возрастные периоды, воспитание*
***Key words:*** *pre-school education, moral urbringing, customs and traditions, age periods, upbringing*

Ailə ənənələri tarixən təşəkkül tapmış normaların məcmusudur. Məktəbəqədər yaşlı uşaqlar üçün də ilk ictimai mühit hesab olunur. Uşaqların ailə ənənələri ilə ilk tanışlığı da məhz ailədən başlanılır. Uşaqlar bu yaşlarında nə öyrənirlərsə gələcək də həmin hisslərin daha da yüksək səviyyədə tərənnümü ilə səciyyələnmiş olurlar. Belə ki, uşağa onun vətəni, el-obası, milli adət və ənənələri barəsində məlumat verilməsi gərəkli və vacib əməllərdən sayılır. Ənənələr mühüm dəyərlərdəndir. Adət və ənənələr milləti dünyada tanıdır və onu digər xalqlardan fərqləndirir.

Ailə ənənələrini uşaqlarda formalaşdırmaq üçün məsuliyyət hiss edən valideynlər öz övladlarında nə kimi keyfiyyətlər tərbiyə etmək lazım olduğunu aydın surətdə dərk edib, ardıcıl olaraq bu dəyərləri onlara aşılayırlar. Ailə ənənələrini uşaqlarda formalaşdırmağın ən təsirli vasitəsi şəxsi nümunədir. Şəxsi nümunənin bu işdə həlledici rol oynadığını başa düşən valideynlər övladlarında formalaşdırmaq istədikləri dəyərləri özləri ifadə etməyə səy edir və ümumiyyətlə, onların təbliği ilə müntəzəm olaraq məşğul olurlar.

Hər bir ailədə özünün ənənəsinin olması ən yaxşı cəhətdir. Özünün ənənəsi olan ailələr çoxdur və bu ənənələrin kiçik məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsinə təsirini qüvvətləndirməkdə xeyli müsbət əhəmiyyətə malikdir. Ailədə uşaqlarda formalaşdırılan mənəvi tərbiyədə uşaqları konkret müsbət keyfiyyətlər ilə yanaşı, onların özünütəhsil və özünütərbiyə yolu ilə özünüinkişafına meyllənmələrini artırmaq daha çox fayda verər. Məsələn, əgər uşaqlara bir xalq nağılı, yaxud digər şifahi xalq ədəbiyyatı nümunəsi oxunarsa, iş bununla bitməməlidir.

Konkret nümunələr əsasında uşaqlarla istər bayramların keçirilməsi, yaxud hüznlü günlərin qeyd olunması, tərbiyəvi əhəmiyyətli əsərlərin müzakirəsi digər hər hansı vətəndaşlıq qüruru yarada bilən tədbirlər vasitəsi ilə yeni ənənələri adətə çevirərsə, bu, kiçik yaşlı uşaqların davamlı inkişafına güclü təsir göstərər. Çünki K.D. Uşinskinin təbirincə desək, adət tərbiyə qüvvəsinin əsasıdır, tərbiyə fəaliyyətinin mənbəyini təşkil edir.

Milli-dini fərqlərə baxmayaraq, bütün tip ailələrdə ad günlərinin, toyların, yasların keçirilməsi, uşaqların və ya ailə üzvlərindən birinin uğurlu işinin (ali məktəbə daxil olmaq, müsabiqələrdə qalib gəlmək) qeyd edilməsi eyni dərəcədə fərəhlə qarşılanır, hamıda yüksək fəallıq duyğularını oyadır.

Məktəbəqədər yaşlı uşaqlarda mənəvi tərbiyənin formalaşdırılmasında ailə ənənələrinin başlıca rolu onlarda elə şəxsi keyfiyyətlər və xassələri formalaşdırmaqdır ki, onlar həyat yolunda rast gəldikləri çətinliklərə, maneələrə mənəvi baxımdan dözümlü ola bilsinlər və onları aradan qaldıra bilsinlər.

İnsan mənfi mənəvi keyfiyyətlərdən uzaq olduğu müddətdə insan sayılır. Bu səbəbdən də mənəvi tərbiyə uşaq həyatında çox mühümdür. Uşaq mənəvi tərbiyəsi əsasən bir neçə mərhələdə formalaşır. İlkin olaraq mənəvi tərbiyə genetik, yəni valideynlərindən ona irsən keçən tərbiyədir. Sonra isə məktəbəqədər yaş dövründə olan mənəvi tərbiyə və ailə ənənələri ilə onları edilməsi çox mühümdür. Həmin müddətdə uşaqlarda formalaşdırılan mənəvi tərbiyə bütün həyatı boyu onunla birlikdə olur, o həyatını həmin tərbiyə üzərində qurur. Odur ki, valideynlər bu yaşdakı mənəvi tərbiyəyə xüsusi diqqət göstərməlidirlər. Bir çox alimlərin fikrincə, uşaqların tərbiyəsi 5 yaşına qədər artıq tamamlanır. Bu yaşa qədər alınan tərbiyə də həmin uşağı bütün həyatı boyu təqib edir. Bununla yanaşı, ailə ənənələri, tərbiyə, hisslər, düşüncə və davranışlar da uşaqların tərbiyəsinə və ruhuna birbaşa təsir göstərir.

Kiçik yaşlı uşaqların tərbiyəsində onları düşündürən, səviyyələrini qaldıran, iradələrini artıran mövzulara üstünlük verilməli, bu istiqamətdə məktəbəqədər müəssisədə də məşğələlər keçilməlidir.

Məktəbəqədər yaşlı uşaqların ailə ənənələri ilə tanışlıqda nənə və babaların, ailəyə gəlib-gedən dostların böyük rolu vardır.

Müşahidələr göstərir ki, babalar və nənələr nəvə ilə birlikdə olmağı, onlarla əylənməyi, yaxud onlarla danışıb, gülməyi çox xoşlayırlar. Babalar və nənələr öz nəvələrinə tariximizdən, ötən hadisələrdən, müxtəlif xarakterli insanlardan, özlərinin həyat yolundan danışmağı sevirlər. Bir çox halda onlar nəvələrinə nağıllar danışır, bayatılar deyirlər. Bütün bunlar tədricən uşaqlarda eşitdikləri barəsində düşünmək həvəsi yaradır, yeni-yeni suallarla müraciət edir, aldıqları cavablarla daha məqsədyönlü formalaşma keçirirlər. Nümunə bütün bunların nəticəsi olaraq kiçik yaşlı uşaqların mənəvi tərbiyəsində mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Uşağınızın dünyasına bələdsinizmi? Bakı: Min bir mahnı, 2008.
2. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2007.
3. Muradxanov M.Ə. Məktəblilərin ailədə tərbiyəsi. Bakı: Maarif, 1972.


# FİZİKİ MƏDƏNİYYƏT MƏŞĞƏLƏLƏRİNDƏ OYUNLARIN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA DAVRANIŞ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASINDA ROLU


**Kifayət Məmmədova,**

*ARTPİ-nin böyük elmi işçisi*

E-mail:kifayet.memmedova@box.az



***Açar sözlər:*** *davranış mədəniyyəti, fiziki mədəniyyət, məşğələ, uşaq, tərbiyəçi, məktəbəqədər müəssisə, oyun, fəaliyyət.*

***Ключевые слова:*** *культура поведения, физическая культура, занятие, ребенок, воспитатель, дошкольное учреждение, игра, деятельность.*

***Key words:*** *behavioral culture, physical culture, training, child, educator, pre-school enterprise, play, activity.*

Oyun uşaq həyatının əsasını təşkil etməklə, onun ümumi inkişafında mühüm əhəmiyyətə malikdir. Uşağın fiziki inkişafına, sağlamlığına, davranış tərzinə böyük təsir edən oyun onda yoldaşlıq və dostluq, düzlük, doğruçuluq, kollektivçilik, intizamlılıq kimi əxlaqi keyfiyyətlər formalaşdırır. Oyun uşağın həyatı dərk etməsində, ətraf aləmi öyrənməsində ən gözəl və əvəzolunmaz fəaliyyətdir. Belə ki, oyun zamanı uşaq üzərinə düşən rolu yerinə yetirərkən sanki o obrazı canlı yaşayır, təbii olaraq öz hiss və həyəcanlarını oyunda müstəqil şəkildə nümayiş etdirir. Belə ki, özünü " həkim", gəlinciyinin isə "xəstələnmiş canlı qız " olmasına inandırır ki, belə oyun zamanı da uşağı oyundan kənarlaşdırmaq onun xəyallarının qırılması və onun kədərlənməsi ilə nəticələnir.

Oyun uşaqlarda məsuliyyət, birlikdə uğur qazanmaq, yoldaşlarına güzəştə getmək, onlara kömək göstərmək, mehriban davranmaq, cəldlik, çeviklik, iradə, dözümlülük, məsuliyyət, diqqət, səbir , hazırcavablıq və s. bacarıqlar formalaşdırır. Uşaqlar oyunda ictimai həyatda böyüklərdən görüb-götürdükləri davranışları bir-birlərinə qarşı nümayiş etdirirlər. Bu səbəbdən uşaqların oyun zamanı fərdilikləri nəzərə çarpır və eyni şəraitdə olan uşaqlar özlərini müxtəlif cür aparırlar ki, bu da onların tərbiyə aldıqları mühitin əsas göstəricilərindəndir. Tərbiyəçilər bu məqamlara xüsusi diqqət yetirməli, oyun zamanı uşaqları doğrucul , cəsarətli, səbirli, iradəli və s. olmağa alışdırmaq üçün bütün imkanlardan istifadə etməlidirlər.

Məktəbəqədər təhsil müəssisələrinin fiziki mədəniyyət məşğələlərində keçirilən məzmunca zəngin, formaca rəngarəng, sadə yumora malik qaydalı mütəhərrik və xalq oyunları uşaqlarda yüksək əhval-ruhiyyə yaradır. Bu oyunlarda uşaqların qarşısında müəyyən hərəkətlər –topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkəti və s. təkrar etmək tələb edən vəzifələr qoyulur və belə oyunlar fiziki, əqli və mənəvi tərbiyədə yüksək əhəmiyyət kəsb edir. Mütəhərrik oyunlar uşağı öz davranışlarını idarə etməyə, hərəkətlərini nəzərdə tutulmuş məqsədə tabe etməyə, həyəcan və arzusunu gizlətməyə, yoldaşları ilə münasibətləri düzgün qurmağa, güzəştə getməyə, onlara kömək etməyə, qaydalara riayət etməyə, hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırmağa alışdırır. Oyun eyni zamanda, uşaqlarda məqsədə çatmaq üçün əməli səy, düşüncə, yaradıcılıq qabiliyyəti, məsuliyyət hissi, iradə və s. formalaşdırır və möhkəmləndirir. Oyunda iştirak edən uşaqlar qələbə çalmaq üçün səy göstərir və bütün çətinliklərə üstün gələrək qalib çıxmağa çalışırlar.

Oyun məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və həyatı dərk etməsində mühüm rol oynadığı kimi, psixoloji inkişafında da özünəməxsus əhəmiyyət kəsb edir. Oyun uşağa öz bacarığını müstəqil göstərməyə, sərbəst qərar verməyə və fəaliyyətdə olmağa şərait yaratdığından, uşaq oyunda çox şən və xoşbəxt görünür.

Fəal, yaradıcı, məqsədyönlü fəaliyyət hesab edilən oyun texnologiyasına aşağıdakılar aiddir:

- müstəqil inkişaf edən fəaliyyət (bu, uşağın arzusuna, fəaliyyət prosesindən zövq almasına görə meydana gəlir);
- fəaliyyətin yaradıcı xarakteri (uşaq oyunda improvizə edir, yəni hazırlaşmadan fəaliyyət göstərir);
- fəaliyyətin emosional ruh yüksəkliyi (uşağın emosional həyəcanı və oyunun hissi əsasına istinad edilir).

Beləliklə, oyun fəaliyyətin bir hissəsi olmaqla, məktəbəqədər yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsində, onların davranış mədəniyyətinin formalaşmasında əvəzedilməz rola malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikanın Məktəbəqədər təhsilin proqramı ( kurikulumu ) ( 3-6 yaş). Bakı: Kövsər, 2015.
2. A.M. Həsənov. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
3. Смирнова Е.О. Развивающие игры для детей дошкольного возраста. М.: Просвещение, 1991.
4. Алябьева Е. А. Воспитание культуры поведения у детей 5-7 лет. М.: Сфера, 2009.

# NATAMAM AİLƏLƏRDƏ ÖVLAD TƏRBİYƏSİNDƏ YARANAN ÇƏTİNLİKLƏR

**Şəhla Süleymanova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş lobarantı*

***Açar sözlər:*** *ailə, uşaq, tərbiyə, valideyn, natamam, sevgi, oğlan, qız*
***Key words:*** *family, child, bringing up, parents, incomplete, love, boy, girl*
***Ключевые слово:*** *семья, ребенок, воспитание, родитель, неполный, любовь, мальчик, девочка*

Ailə cəmiyyətdə formalaşmış ən qədim institutlardan biridir. Ailəni sosial institut kimi analiz edərkən onun cəmiyyət tərəfindən kəbin vasitəsilə hüquqi baxımdan qanunlaşdırılmış normalara və fərdiləşdirilmiş funksiyalara malik olduğu bəllidir. Xüsusən ər-arvad münasibətləri uşaqların xarakterinin formalaşmasına, bir şəxsiyyət kimi yetişməsinə təsir edən ən mühüm amillərdən biridir.

Amma çox təəssüflər olsun ki bu ən qədim institut adlandırdığımız ailə tərəflərin bir çox səbəblərdən yollarının ayrılması ilə nəticələnir. Ailənin dağılmasının çoxsaylı səbəblərinin mürəkkəb kompleksdə ərlə arvadın ailədə münasibətlərinin və ünsiyyətinin spesifikası ilə bağlı sosial – psixoloji səbəblər mühüm yer tutur.

Ailənin dağılması nəticəsində övladın ya ata, ya da ana ilə yaşaması onun psixologiyasında, cəmiyyətdə yer tutmasında, tərbiyəsində özünəməxsus izlərini göstərir.

Araşdırmalar fərqli yaş qruplarındakı uşaqların boşanmaya fərqli reaksiya verdiklərini göstərmişdir. Məs. 0-2 yaş qrupunda olan körpələr haqqında düşünülür ki, onların heç nədən xəbəri yoxdur. Ancaq bu belə deyil. Onlarda daha çox ağlamağa, yuxu pozğunluğuna, oyuncaqlara qarşı maraq olmaması kimi xüsusiyyətlərə rast gəlmək olur. 3-6 yaş uşaqlar özlərini günahkar hesab edirlər ki, valideynləri onlara görə dalaşırlar. Həmin uşaqlar yatağını islatmağa, barmaqlarını əmməyə başlayırlar. 7 – 12 yaş qruplarda uşaqlar boşanmanı anlayışla qarşılamış görünsələr də əslində itirmə duyğusuna bürünərlər. Onlar özlərini rədd edilmiş olaraq görərlər. 13-18 yaş qruplarda olan uşaqlar həm yetkinlik yaşın problemlərini yaşayırlar həm də boşanmış ata-ana ilə olan münasibətlərini tənzimləməyə çalışırlar. Çətin prosesdir. Onlar daha çox mənfi istiqamətlərə yönəlirlər. Bu da uşağın tərbiyə olunmasında çətinliyə gətirib çıxarır.

Əslində ailə çox mürəkkəb struktura malik, müxtəlif qarşılıqlı münasibətlər – valideyn – övladlar, valideyn – valideyn, valideyn və onların valideynləri, böyük və kiçik uşaqlar arasında və s. münasibətlərdən təşkil olunur. Hələ Platon demişdir ki, dünyadakı bütün şər qüvvələr və insanların eqoizmi vaxtı ilə ailədə uşaqların tərbiyəsində yol verilən qüsurlardır. Övlada qarşı edilən hər bir hərəkət onun bir şəxsiyyət kimi formalaşmasına təsir edir. Uşağa qarşı hədsiz uzaq olmaq onlarda patoloji inamsızlıq, natamamlıq hissi yarana bilər. Yaxud övlada qarşı hədsiz sevgi, məhəbbət onlarda eqoizm, şöhrətpərəstlik kimi mənfi keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Z. Freyd dediyi kimi, "Biz hamımız uşaqlıqdan keçmişik". Görünür ki, valideynin özü də bilmədən etdiyi səhv onun övladının tərbiyəsində özünü göstərmiş olur.

Uşağın ailədən ən çox istədiyi sadəcə sevilmək və gərəkli uşaqlar, tam ailələrdə böyüyən uşaqlara nisbətən daha az özünəinam, özünüqiymətləndirmə və s. keyfiyyətlərə malik olurlar. Ailə uşaq şəxsiyyətinin formalaşmasında düzgün tərbiyə olunmasında xeyli müddət əsas rol oynayır. Məlumdur ki, insanın xarakterinin əməyə, mənəvi ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır.

Boşanma prosesi övladın bütün sonrakı emosional həyatına mənfi təsir göstərir. Ailədə boşanmadan sonra yaranan boşluq zamanı aşağıdakı hallar baş verə bilər:

- Uşaqlarda intellektual, analitik və s. qabiliyyətlər inkişafdan qalır
- Oğlan və qızlarda cinsi ayrılma fərqləri bir o qədər aydın seçilmir
- Yeniyetmə uşaqlarda əks cins ilə münasibətlərin yaradılmasında çətinliklər meydana çıxır
- Çatışmayan valideynə olan sevgi ailədə olan valideynə yönəlir və bunun da nəticəsində bir valideynə hədsiz dərəcədə bağlantı yaranır

- Bəzən oğlan uşaqlarının valideyni dinləməməsi nəticəsində mənfi keyfiyyətlərə yiyələnməsi ilə müşahidə olunur.
- Bəzi qız uşaqlarının əks cinsə qarşı laqeyd olmaq, hətta nifrət etməsi halları görünə bilər.

Çox zaman araşdırmalar nəticəsində ortaya çıxır ki, cəmiyyətdə çox da yaxşı qarşılanmayan hərəkətlərə mənsub olan insanlar demək olar ki, natamam ailədə böyümüş, tərbiyə görmüş insanlardır. Cəmiyyətin korlanmaması, doğru, düzgün insanlar yetişdirmək üçün ailəni dağıtmamaq lazımdır.

**ƏDƏBİYYAT**


1. Ə.S. Bayramov. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1981.
2. Ə.Ə. Əlizadə, A.N.Abbasov. Ailə. Bakı ,1989.
3. M. Muradxanov. Məktəblilərin ailədə tərbiyəsi. Bakı: Maarif, 1972.
4. R.H. Məmmədzadə. Konfliktlər, ailələr, məktəblilər. Bakı, 2004.
5. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, 1989.
6. T. Əfəndiyev. Əxlaq necə yaranmışdır? Bakı: Azərnəşr, 1965.
7. Z.B. Göyüşov. Əxlaqi sərvətlər. Bakı, 1966.


## FİZİKİ TƏRBİYƏNİN ELMİ NƏZƏRİ ƏSASLARI


**Həbib Məmmədov,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*



***Açar sözlər:*** *fiziki tərbiyə, idman, fiziki inkişaf, fiziki kamillik*
***Key words:*** *physical education, sport, physical development, physical perfection*
***Ключевые слова:*** *физическое воспитание, спорт, физическое развитие, физическое совершенство*


*Fiziki tərbiyə* insanın fiziki keyfiyyət inkişafına, orqanizmin forma və funksiyasının təkmilləşməsinə, vətəndaşlar əmək fəaliyyətinə, vətənin müdafiəsinə hazırlanmasına, onlarda hərəkət bacarığı, vərdişlər aşılamağa sağlam, şən və mənəvi cəhətdən möhkəm Vətən qurucuları hazırlamağa yönəldilmiş pedaqoji prosesdir.

Fiziki tərbiyə insan cəmiyyətinin yaranması ilə yaranmışdır. Bunun obyektiv səbəbi cəmiyyətin maddi həyat şəraiti, gənc nəsli əmək fəaliyyətinə hazırlamaq zərurəti olmuşdur. Subyektiv səbəbi isə ictimai şüurun inkişafından, fəaliyyətin və bu fəaliyyətdən doğan nəticələri dərk edilməsindən ibarətdir. Fiziki tərbiyə insanların fiziki cəhətdən təkmilləşdirilməsinə kömək edən bir sıra xüsusiyyətlərə malikdir. Fiziki tərbiyə işi dəqiq, müntəzəm, ardıcıl və xüsusi olaraq aparılmalıdır. Bunun üçün bir çox xüsusi vasitələrdən istifadə edilir: - təbii qüvvələr (su, hava, günəş), gigiyena amilləri aiddir.

Fiziki tərbiyə prosesində insanda qüvvə, sürət, çeviklik və qıvraqlıq kimi fiziki hərəkətlər inkişaf edir. Fiziki tərbiyənin əsas metodları aşağıdakılardır:

Dövlət idarə sistemləri və təşkilatların nəzdində də fiziki tərbiyə bölmələri fəaliyyət göstərir ki, bu da insanların sağlamlığına xidmət edir.

Ümumtəhsil məktəblərində və adi təhsil mərkəzlərində fiziki tərbiyə bir fənn kimi tədris olunur, məktəblərdə kütləvi idman tədbirləri və idman yarışları keçirilir ki, bu da şagirdlərin gələcəkdə mətin və dəyanətli bir vətəndaş kimi yetişməsində əsas rol oynayır.

Həmçinin fiziki tərbiyə insanlara fiziki kamilliyə nail olmağı tövsiyə etməklə yanaşı, onlara idman tədbirlərində davranış qaydalarını öyrədir ki, qeyri millətlər olan bu tədbirlərdə bunlar önəmlidir.

*Fiziki kamillik* insanın hərtərəfli fiziki inkişafını və maksimum fiziki hazırlığını müəyyənləşdirən və qiymətləndirən bir həyati fəaliyyət prosesidir. Bu insanlarda əmək və məişət fəaliyyətini, optimal həyat funksiyalarının uzun müddət inkişafını təmin edir.

Gənclərin hərtərəfli inkişaf etməsi həm millətə, həm də dövlətə lazım olan şərtlərdəndir. Hərtərəfli inkişaf etmiş şəxslərdə isə aşağıdakı əsas şərtlər vacibdir.

1. Mənəvi zənginlik
2. Əxlaq saflığı
3. Fiziki kamillik

Fiziki kamillik öz növbəsində mənəviyyata və əxlaqa zəmin yaradır.

“Sağlam bədəndə sağlam ruh olar” kəlamı əbəs deyilməmişdir. Fiziki kamillik bütün insanlar üçün labüd bir sərvətdir, bunu əldə etmək isə şərtdir.

*Fiziki inkişaf* insan orqanizmini fiziki keyfiyyətlərin tətbiqi ilə fiziki cəhətdən möhkəmləndirilməsi üçün aparılan prosesdir. Fiziki inkişaf bütün həyat prosesinə zəruridir. Belə ki, fiziki prosesin inkişafı üçün hər yaş dövrünün özünə məxsus üsullarla aparılması labüddür.

Fiziki inkişaf insanlarda irsən də olur və həyatda da qazanılır. Lakin hər bir adam özünəməxsus fiziki inkişafını maksimuma qədər yüksəltməyi və saxlamağı bacarmalıdır. Orqanizmin fiziki inkişafının təkmilləşməsi fiziki qabiliyyət və fiziki dözümlülük tələb edir.

İdman:- Fiziki keyfiyyət və fiziki inkişaf nəticəsində orqanizmin malik olduğu fiziki qabiliyyəti nümayiş etdirməkdir. Müxtəlif idman növləri və idman tədbirləri üzrə keçirilən yarışlarda idman qabiliyyəti nümayiş etdirilir.

Fiziki tərbiyə, fiziki mədəniyyət və fiziki inkişafın ən yüksək mərhələsi idmandır. İdmançı kimi hər bir şəxs hazırlana və müxtəlif dərəcələrə yüksələ bilər. Hər bir adam fiziki hazırlığından asılı olaraq idman dərəcəsi qazana bilər. Bu qabiliyyətlərin nümayiş etdirilməsinin nümunəsi olaraq idman yarışları fəaliyyət göstərir.

İdman orqanizmin ən yüksək funksiyasını nümayiş etdirir.

**ƏDƏBİYYAT**


1. F. Qasımzadə. İdman gözəllik və estetika. Bakı, 1970.
2. H. Qurbanov. Fiziki tərbiyənin metodikası. Bakı, 1987.


## MƏMMƏD ARAZ YARADICILIĞI AİLƏDƏ YENİYETMƏLƏRƏ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİN AŞILANMASI VASİTƏSİ KİMİ


**Mehparə Əhmədova,**
*pedaqoji fakültənin tyutoru*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: ehmedova mehpare69@gmail.com



***Açar sözlər:*** *Məmməd Araz, Vətən, şair, tərbiyə, yetişən nəsil*
***Key words:*** *Mammad Araz, motherland, poet, upbringing, growing generation.*
***Ключевые слова:*** *Мамед Араз, Родина, поэт, воспитание, подрастающее поколение*


Torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olduğu şəraitdə hazırkı dünya görüşümüzü vətən anlayışı, vətənə sevgi və məhəbbət hissi olmadan təsəvvür etmək mümkün deyildir. Çətinliklərlə üz-üzə qalan xalqımız milli dirçəlişə, siyasi həyatının dönüşlü mərhələsində, milli yetkinlik çağında labüd olaraq vətənpərvərlik şüurunun saflaşdırılmasına dərin ehtiyac duyur. Lakin tarixin sonrakı axarı göstərdi ki, nəsildən-nəslə keçərək əsrlər boyu yaranmış, inkişaf etmiş və ən dərin hiss və duyğuya çevrilmiş Azərbaycan xalqının bu nəcib vətənpərvərlik hissi güclü müqaviməti dəf etməyi bacarır və öz azadlığına, müstəqilliyinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə sahib çıxmaqda israrlıdır. Onun bu şəkildə formalaşma prosesi keçməsində Azərbaycan ailələrində aparılan tərbiyə işinin – ruha qida vermənin çox mühüm rolu vardır. Hazırda bunu görməmək və ona sevinməmək olmaz ki, ailələrimizdə əsl Azərbaycan mentaliteti ilə ruha qidalar verilir və nəticədə Azərbaycansevənlər yetişdirilir.

Bir şair arzusu görən, nə deyir,
Bir ümid istərmi qəlbi şən olsun?!.
O dərman istəmir, Vətən istəyir!
Dərdli, yoxsul olsun – tək Vətən olsun... [1, 97-98].

Vətənpərvərdə güclülük, həqiqətpərəstlik, dözumlülük, qətiyyət, məqsədyönlülük və s. keyfiyyətlər formalaşdırılmalıdır. Belə qiymətli söhbətləri tərbiyə proqramlarına daxil edərkən, vətənpərvər yeniyetmənin obrazını yaratmaq istərkən səxavətliliyin müsbət, xəsisliyin mənfi, xeyirxahlığın müsbət, bədhaxlığın mənfi, habelə sadəlik və təvazökarlığın müsbət, lovğalıq və özünəheyranlığın mənfi cəhətlər olduğunu söhbətlər zamanı mütləq dilə gətirmək lazımdır (2). Belə tərbiyəvi söhbətləri yalnız televiziya və radiodan eşitmək azdır. Bunların gücündən ailə söhbətlərində geniş surətdə istifadə edərkən biz

psixoloji cəhətdən Məmməd Araz şeirlərini, onun təsirini, onun gücünü, qüvvəsini yeniyetmələrə verməklə onların beyinlərində vətənpərvərlik tərbiyəsi haqqında dominant oyanıqlıq sahələri yaratmalıyıq. Məmməd Araz şeirlərinin gücündən, təsirindən istifadə edərək məsələni əqidəyə çevirənə qədər, əməldə izlərini görənə qədər dönmədən davam etdirmək lazımdır.

Qeyd edək ki, 25-30 il bundan qabaqkı Azərbaycan ailələrində aparılan tərbiyə işində əsas yeri millilik, özünüdərk, milli vətənpərvərlik deyil, beynəlmiləlçilik təşkil edirdi. Çünki uzun illər boyu totalitar rejim şəraitində SSRİ – bu ərazidə yaşayan bütün xalqlar və millətlər üçün yeganə vətən kimi təbliğ olunmuşdur. Hər bir millətin özünəməxsus xüsusiyyətləri tam nəzərə alınmır, əsasən sosializm dəyərlərinə üstünlük verilirdi. Belə ağır şəraitdə xalqımız əsl vətənpərvərliyin formalaşması üçün ümdə şərtlər olan milli qürur hissi və ləyaqətini, tarixi yaddaşını, milli adət və ənənələrini qoruyub saxlaya bilmək naminə güclü müqaviməti dəf etməli olurdu. Məhz milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti Məmməd Araz şeirlərindən güc alır və bu şeirlər yeni nəsli azadlığa, müstəqilliyə çağırırdı. Fikrimizi əsaslandırmaq üçün konkret misallara müraciət edək:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik!
Səndən qeyri
biz hamımız ölə billik! [3, 97-98].

Məhz milli düşüncə tərzi Məmməd Araz poeziyasının mayasını, ana xəttini təşkil edir. Şair Vətən mövzusunda yazdığı bu kimi şeirlərlə milliliyin dərk olunmasına, xalqımızın mənlik şüurunun güclənməsinə, yurddaşlarımızın özünüdərkinə güclü təsir göstərmişdir. "Çünki milli mənlik şüuru millətin özünü dərk etməsi, onu əhatə edən mədəni, sosial-siyasi və iqtisadi mühiti adekvat mənalandırılması deməkdir. Şəxsiyyət məhz milli mənlik şüuru vasitəsilə öz millətinə və Vətəninə bağlılığını ifadə edən hissləri və ideyaları öz daxili dünyasına və öz "mən"inə çevirir" [4, s.6].

Məmməd Arazın zəngin ədəbi-pedaqoji irsinin tədqiqi göstərir ki, onun vətəndaşlıq tərbiyəsi haqqında dolğun fikirləri vardır. O, ailədə yeniyetmələrin vətəndaşlıq keyfiyyətlərindən biri olaraq milli vətənpərvərlik hissinə yüksək səviyyədə yiyələnmələrini zəruri sayır və qeyd edirdi ki, tərbiyənin əsas işi uşaqlara vətənpərvərlik hissi aşılamaq və əsl vətənpərvər yetişdirmək olmalıdır. Bu mənada da milli vətənpərvərlik hissi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun.

Məmməd Araz yekdilliklə belə fikirdə idi ki, valideynlər ailədə dili yenicə söz tutmağa başlayan, ağlı yenicə kəsən uşaqlarımıza belə düşmənimizin kim olduğunu, şəhidlərimizin nə üçün öldüyünü, onların niyə müqəddəs sayıldığını, vətənimizin haradan başlayıb, harada qurtardığını, milli kimliyimizi, torpağın ana qədər doğma sayıldığını anlatmalıdır. Eyni zamanda bu söhbətlərdə erməni satqınlığından, xəyanətkarlığından danışılmalı və göstərilməlidir ki, xalqımız bu satqınlığın, xəyanətkarlığın neçə yüz illər əvvəldən bəlasını çəkmiş və indi də çəkir. Ona görə də ehtiyatlı olmalı, erməni fitvasına uymamalı, milli birliyin, milli həmrəyliyin pozulmasına yol verilməməlidir. Həm də bu söhbətlər elə aparılmalıdır ki, yaddaşlara həkk olunsun və heç vaxt yaddan çıxmasın.

Təhlil olunan nümunələrdən aydın görünür ki, yeniyetmələrdə ilkin təsəvvür və anlayışların, əxlaqi-etik kateqoriyaların – milli şüur, milli ləyaqət, milli mənlik, vətəndaşlıq dəyanəti, şərəf və namus kimi mənəvi keyfiyyətlərin yaranmasında və formalaşmasında Məmməd Araz şeirləri xüsusi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Araz M.İ. Seçilmiş əsərləri. Dörd cilddə, I cild. Bakı: Ozan , 2003.
2. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, 1995,
3. Araz M.İ. Seçilmiş əsərləri. Dörd cilddə, III cild. Bakı: Ozan, 2003.
4. Rzayev M.H. Şəxsiyyət: azadlıq və milli şüur. Bakı, 2009.
5. Araz M.İ. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Lider, 2004.

# MİLLİ ŞÜURUNUN FORMALAŞMASI MƏNƏVİ TƏRBİYƏNİN İLKİN ŞƏRTİ KİMİ

**Qızıltac Şahbazova,**
*Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: qızıltac.şahbazova@ mail.ru

***Açar sözlər:*** *milli, milli şüur, mənəvi tərbiyə, milli maraqlar.*
***Ключевые слова***: *национальный, национальное сознание, нравственное воспитание, национальное достояние*
***Keywords:*** *national, national consciousness, moral upbringing, national values*

Milli şüurun formalaşdırılması elmi pedaqogikada mənəvi tərbiyənin ilkin tərkib hissəsi hesab olunur. "Gənclərin mənəvi tərbiyə problemləri" kitabında (müəllifləri Y. Talıbov , F. Sadıqov və S. Quliyevadır) oxuyuruq: "Mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri milli şüurun formalaşdırılmasıdır. XX əsrin son illərində aşkarlıq və demokratiyanın təsiri ilə ayrı-ayrı xalqlar kimi Azərbaycan xalqı da öz kökünə, tarixinin açılmamış səhifələrinə müraciət edərək, xalqın tarixi kökləri, tariximizin bəzəyi olan görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini aşkar etməyə çalışır. Milli rəmzlərə, adətlərə, ənənələrə yeni həyat verilir, dini etiqadlar, müqəddəs bayramlar xalqın özünə qaytarılır. Bu qayıdışda yeni ruh, yeni təfəkkür, yeni mənəviyyat öz əksini tapır.

Mənəviyyat bütövlüyünə nail olmaq üçün öncə milli şüuru formalaşdırmaq gərəkdir. Yetişən nəslin nümayəndələrinin xüsusilə, yeniyetmə və gənclərin mənəvi simasının saflaşdırılması üçün onların milli şüurunun formalaşdırılması zəruri hesab olunur. Birincisi ona görə ki, milli mənliyin yetişdirilməsindən ötrü yetişən nəslin nümayəndələrinə məqsədyönlü, planlı və mütəşəkkil olaraq təsir etməklə bu işə önəm verilməlidir. İkincisi şəxsiyyətin milli mənliyi onun milli şüurunun formalaşdırılması prosesi ilə mümkündür. Üçüncüsü şəxsiyyətin formalaşdırılması milli şüurun tənzimlənməsi sayəsində həyata keçirilir.

Unutmaq olmaz ki, mənəvi yüksəliş ümumtəhsil məktəblərində təhsil alan gənc nəslin həyatında çox mühüm sosial mərhələdir. İlkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar, milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailəyə qayğı, məhəbbət, şərəf, qeyrət, namus və s. kimi kateqoriyalar məhz həmin məktəblərdə formalaşır. Məktəblilər ailə səadəti, xeyir, şər haqqında, mütərəqqi və mürtəce qüvvələr haqqında, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq , müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq və s. haqqında təsəvvür və anlayışlara məhz həmin məktəblərdə yiyələnirlər.

Məktəblilərin mənəvi əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, mənəvi tərbiyə, ailə həyatı ilə bağlı olan məsələlər ilk gənclik çağında təşəkkül tapır. Məhz ona görə də pedaqoji prosesdə uşaqların əxlaqının saflaşdırılmasına ümumi pedaqoji prinsiplər, üsullar baxımından düzgün yanaşmaq zəruridir. Uşaqların əxlaqının düzgün saflaşdırılması onların nümunəvi davranış normalarının üzə çıxarılmasına səbəb olur. Əxlaq normalarının, əxlaq kateqoriyalarının düzgün müəyyənləşdirilməsi mənəviyyat bütövlüyü yaradırsa, deməli milli şüurunun da bünövrəsi düzgün qoyulur.

## ƏDƏBİYYAT

1. Talıbov Y ., Sadıqov F ., Quliyev S. Gənclərin mənəvi tərbiyəsinin problemləri. Bakı, 1998.
2. Sadıqov F.B. Pedaqogika: Ali məktəblər üçün dərslik. Bakı: Adiloğlu, 2012.
3. Nəsrəddin Tusi. Əxlaqi-Nasiri, Bakı: Lider, 2005.

# VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI KOMPONENTİ KİMİ

**Zülfiyyə Şiriyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ARTPİ*
E-mail: Zulfiyye.Shiriyeva@mail.ru

***Açar sözlər****: vətəndaşlıq tərbiyəsi, şəxsiyyətin sosiallaşması, fəal vətəndaş mövqeyi, vətəndaşlıq mədəniyyəti*
***Ключевые слова****: гражданское воспитание, социализация личности, активная гражданская позиция, культура гражданства*
***Key words****: civic education, socialization of the person, active civil position, civic culture*

Vətəndaşlıq tərbiyəsinə nəzər yetirmədən kamil insan-yetkin şəxsiyyətin formalaşması məsələsi metodoloji cəhətdən düzgün deyildir. Çünki şəxsiyyət ilk növbədə vətəndaşlıq məziyyətlərinə-vətəndaşlıq ləyaqətinə, vətəndaşlıq vüqarına, vətəndaşlıq dəyanətinə, müstəqillik, dövlətçilik ruhuna və s. malik olmalıdır [2, c.1, s.218].

Bu gün vətəndaşlıq tərbiyəsi özündə vətənpərvərlik, milli, etnik, siyasi, hüquqi və ümumbəşəri aspektləri inteqrasiya etdirərək, müstəqil istiqamətdə formalaşır. Vətəndaşlıq tərbiyəsi dedikdə, cəmiyyətin və dövlətin bir üzvü kimi insana zəruri olan keyfiyyətlərin formalaşması üzrə aparılan məqsədyönlü tərbiyə işinin sistemi başa düşülür. Məqsəd gəncləri layiqli vətəndaş kimi tərbiyə etmək, cəmiyyətdə fəal mövqe tutmağa və özünü reallaşdırmağa hazırlamaq, demokratik prinsiplərə hörmətlə yanaşan, dövlətçiliyə və dövlət mənafeyinə sadiqlik nümayiş etdirən, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi bacaran, müstəqil mövqeli, cəmiyyətin tələbinə uyğun bilik, bacarıq və vərdişlərə yiyiələnən şəxsiyyət yetişdirməkdir [3]. Bu da gənc nəslin sosiallaşması prosesini həyata keçirməyə imkan verir.

Hər bir şəxs, o cümlədən gənclər Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Vətəndaşlar fərqli ola bilər, lakin onları vahid sosiumda birləşdirən ümumi xüsusiyyətlər olmalıdır. Gənclər bilməlidirlər ki, əsl vətəndaş mənsub olduğu cəmiyyəti fəal şəkildə müdafiə edən, onu inkişaf etdirən və ona xidmət edən şəxsdir. Layiqli vətəndaş təkcə öz hüquqlarını bilən deyil, onları müdafiə edən, özbaşınalıqlara qarşı çıxan, Vətəni, onun keçmişi və gələcəyi ilə bağlı məsuliyyət daşıyan, siyasi və hüquqi mədəniyyətə malik şəxsdir. "Yaxşı vətəndaş" anlayışının mahiyyətini ölkəmizin Əsas Qanununda göstərilmiş vəzifələrin icrasına yaxınlaşdırmaq olar.

Gənclərin vətəndaşlıq tərbiyəsinin nəticəsi onların öz hüquqların həyata keçirilməsinə və vətəndaşlıq vəzifələrinin reallaşdırmasına hazır olmasıdır. Bu hazırlıq tədris müəssisələrində təhsil aldıqları müddətdə tərbiyəvi işin tərkib hissəsi kimi gənclərin formalaşmasına yönəlmiş bir sıra komponentləri (nəzəri, əməli və emosional) özündə birləşdirir.

*Nəzəri komponent* gənclər tərəfindən vətəndaş həyatı üçün lazım olan iqtisadi, hüquqi, psixoloji, siyasi və başqa biliklərin, həmçinin ağlın və intellektin inkişafının əldə edilməsini nəzərdə tutur. Bu komponent sosial-humanitar fənlərin kompleksinə – tarix, fəlsəfə, sosiologiya, politologiya, kulturologiya, hüquqşünaslıq, psixologiya və s. aiddir. Belə fənlərin imkanlarından, gənclərin şüur və fəaliyyətinə təsir göstərən metodlardan, eləcə də tədrisdənkənar tədbirlərdən səmərəli şəkildə istifadə olunmalıdır. Müxtəlif növ müsabiqələr, olimpiadalar, viktorinalar, dəyirmi masalar, disputlar, müzakirələr və s. əhəmiyyətini fərqləndirərək qiymətləndirmək çətindir. Təhsilsiz, cəmiyyət həyatının tənqidi təhlili bacarıqlarını təkmilləşdirmədən gələcək mütəxəssisin vətəndaş simasında bu komponentin yüksək keyfiyyəti haqqında danışmaq olmur. Gənclərin siyasi və hüquqi biliklərə yiyələnməsi müasir dövrdə vacib şərtdir. Bu biliklər onlarda əqidə, ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrə şüurlu münasibət formalaşdırır.

*Əməli komponent* mülki həyatda aktual olan müxtəlif texnoloji bacarıq və vərdişləri əhatə etməlidir. Söhbət seçkilərdə, referendumlarda, ictimai təşkilatların toplantılarında iştirakı bacarıqlardan

gedir. Vacibdir ki, gənclər ictimai həyat sahəsində lazımi bacarıqlar və vərdişlərə yiyələnsin, vətəndaş cəmiyyətinin prosedurlarını öyrənsinlər.

Emosional komponent gənclərdə vətəndaşlıq duyğularının (Vətənə məhəbbət, dövlət rəmzlərinə hörmət) ifadə olması ilə bağlıdır. Məsələn, dünya ölkələrinin bir çoxunda vətəndaşlar daim öz kotecləri üzərində dövlət bayrağı saxlayır, əlini ürəyinə qoyub öz ölkəsinin himnini dinləyir və oxuyurlar, mühüm tarixi günlərlə, hadisələrlə, ölkəsinin uğurları ilə bağlı mərasimlərdə iştirak edirlər.

Vətəndaş yalnız cəmiyyətin üzvü olan deyil, həm də öz məsuliyyətini, cəmiyyət həyatında iştirakını dərk edən, ölkəsini inkişafına xidmət edən şəxsdir. Beləliklə, vətəndaşlıq tərbiyəsinin məqsəd və nəticəsi də vətəndaşlıq mövqeyini əks etdirən vətəndaşlıq keyfiyyətini formalaşdırmaqdır.

Fəal vətəndaş anlayışı belə açıqlanır: fəal vətəndaş cəmiyyətin üzvü olaraq, malik olduğu hüquqları, habelə cəmiyyət qarşısında daşıdığı məsuliyyət və vəzifələri dərk edən və onlara əməl edən şəxsdir. Fəal vətəndaşın keyfiyyətlərini belə konkretləşdirmək olar: öz hüquqlarını bilməli; başqalarının hüquqlarına hörmət etməli; təşəbbüskar olmalı; cəmiyyət qarşısında məsuliyyət daşımalı; mülkiyyətə qayğıkeş münasibət bəsləməli; cəmiyyət və insanların rifahına zərər vura biləcək fikir və fəaliyyətə qarşı çıxmalıdır və s. [ 4, 160-161].

Vətəndaşlıq mədəniyyəti fəal vətəndaşlığın əsas göstəricisidir. 60-cı illərdə Qərb siyasi elmlərində vətəndaş mədəniyyəti ideyası yalnız siyasi mədəniyyət kontekstində nəzərdən keçirildi. Lakin Gabriel Almond və Sidney Verbanın "Vətəndaşlıq Mədəniyyəti" əsərində bu fenomen öz əsasları üzərində tədqiq edilmişdi. Vətəndaşlıq mədəniyyəti anlayışı burada vətəndaşın sosial vəzifələri, onların həyata keçirilməsində əməli fəaliyyətinin dərk olunması baxımından araşdırılmışdır [5]. Bu mənada cəmiyyətin yetkinlik səviyyəsi vətəndaş maraqlarının təmin olunmasında, birgə qərarların verilməsi və birgə fəaliyyət mexanizmləri və formalarının işlənib hazırlanması, eləcə də həyata keçirilməsində ifadə olunur. Vətəndaşlıq mədəniyyəti o vaxt yaranır ki, insan öz ölkəsinin problemlərini dərk edir və onun maraqlarını müdafiə edir, sədaqətlilik nümayiş etdirir.

Vətəndaşlıq tərbiyəsi nəticəsində ölkənin ictimai həyatında gənclərin fəal iştirakını, şəxsiyyətin hüquq və vəzifələrinin dərk edilməsini təmin edən, ümumbəşəri dəyərlər və şəxsiyyətin maraqları ilə bağlı olan, vətəndaşlıq keyfiyyətlərini özündə birləşdirən vətəndaşlıq şüuru, vətəndaşlıq hissi, vətəndaşlıq davranışı, vətəndaşlıq fəallığı və vətəndaşlıq mövqeyi formalaşır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2013.
2. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərlər. 2 cilddə. I cild. Bakı: Mütərcim, 2011.
3. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
4. İsmixanov M.A., Vəliyeva S.V. Sosial pedaqogika. Bakı, 2013.
5. Gabriel A.Almond, Sidney Verba The Civic Culture: Political Attitudes and Democracy in Five Nations. SAGE Publications, 1989.

# ŞAGİRDLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASI

**Zeynab, Mehdiyeva**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail:zeynab.zeynalova@yahoo.com

***Açar sözlər:*** *sağlam həyat tərzi, təbiət, bacarıq, insan, cəmiyyət*
***Key words:*** *healthy lifestyle, nature, skill, human, society*
***Ключевые слова:*** *здоровый образ жизни, природа, умение, человек, общество*

İnsan üçün dünyada hər şeydən əziz həyatdır, həyatda ən əziz şey isə sağlamlıqdır. Sağlamlıq ilk növbədə insanın özündən asılıdır.

Həyat tərzi insanın adət-ənənələrinə, cəmiyyətdə normalara əsaslanan bir davranış sistemidir. Sağlam həyat tərzinin formalaşmasında insan sağlamlığının formalaşmasına təsir edən amillər əsas yerlərdən birini tutur.

Sağlam həyat tərzinin əsas parametrlərini müəyyənləşdirməsi, sağlam yaşamağı şərtləndirən əsas amillərin əhəmiyyətini faktlarla şərh etməsi, sanitariya-gigiyeniya qaydalarına əməl etməyin düzgün və rejimlə qidalanmanın, bədən tərbiyəsi və idmanla məşğul olmanın, zərərli vərdişlərdən uzaq durmağın və nizamlı həyat tərzinin sağlam həyatın təminatı olduğunun əhəmiyyətini əsaslandırması mühüm şərtlərdən biridir.

Bu gün insanın sağlamlığı, sağlam həyat tərzi bütün dünyanın ən ümdə məsələlərindən biri kimi ön planda durur. Ona görə də Ümumdünya Səhiyyə Təşkilatı aprel ayının 7-ni Ümumdünya Sağlamlıq Günü kimi qeyd edir. 1948-ci ildən təməli qoyulmuş, bu gün də narahatlıq doğuran problemlər və onların aradan qaldırılması diqqət mərkəzindədir.

Ümumi orta təhsil səviyyəsində ibtidai təhsil səviyyəsi üzrə müəyyən olunmuş bacarıqlar daha da təkmilləşdirilməklə şagirdlərdə təbiət və cəmiyyət hadisələri timsalında qanunauyğunluqların mahiyyəti haqqında ətraflı təsəvvür formalaşdırılır, reproduktiv sağlamlıq, insan hüquqları, mənəvi kamillik, əxlaqi yetkinlik, vicdan azadlığı, sağlam həyat tərzi, təbii fəlakət və qəzalardan qorunmaq yolları barədə məlumatlar dərinləşdirilir, onlarda saflıq, düzlük, əqidəlilik, dözümlülük, tolerantlıq kimi əxlaqi keyfiyyətlərin, iqtisadi təfəkkür və planlı fəaliyyət bacarıqlarının yaradılması təmin olunur.

Ulu öndərimiz Heydər Əliyev bu məsələ haqqında da öz fikirlərini bildirmişdi: “Mən inanıram ki, müstəqil Azərbaycanda, cəmiyyətimizdə sağlam həyat tərzi get-gedə özünə üstün yer tutur. Bizim cəmiyyətimizdə sağlam həyat tərzi təkcə gənc nəsil üçün deyil, hər bir insan üçün vacibdir. Bu insanın şəxsi sağlamlığıdır, bu, hər bir insanın ömrünün uzadılmasıdır, hər bir insanın nəslinin sağlam olmasıdır. Sağlam həyat tərzi də insanlarda uşaqlıq çağından başlayır. Əgər biz gənc nəslin hamısını sağlam həyat tərzinə yönəltsək, onları fiziki və əqli cəhətdən sağlam böyüdə biləcək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqdır”.

İbtidai siniflərdə Həyat bilgisi dərslərində şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması, təhlükəsizlik və ilk tibbi yardım qaydalarına riayət etmək bacarıqları aşılanır. Bu da uşaqlarda zərərli vərdişlərin insan həyatı üçün təhlükə olduğunu və ağır nəticələr verdiyini konkret nümunələr əsasında şərh edir, sağlam həyat tərzi keçirdiyini gündəlik fəaliyyətdə nümayiş etdirməklə, onlarda bilik və bacarıqları formalaşdırır.

**ƏDƏBİYYAT**

1. F.B. Sadıqov. Pedaqogika. Bakı, 2012.

## UŞAQLARIN HALALLIQ TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

**Şəfiqə Tahirova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: Optimist –pm @ mail.ru

***Açar sözlər:*** *ailə, ailə tərbiyəsi, halallıq, ilkin tərbiyə, erkən yaşlardan*
***Ключевые слово:*** *семья, семейное воспитание, праведность, первоначальное воспитание, с ранних лет*
***Key words:*** *family, family education, righteousness, initial education, from an early age*

Böyüməkdə olan nəslin hərtərəfli inkişafı və düzgün tərbiyəsi dövlətimizin qarşısında duran ən vacib məsələlərdən biridir. Hər bir azərbaycanlı ailəsində böyüyən uşaq cəmiyyətimizin sabahkı qurucusu və davamçısıdır Odur ki, övladlarımızı bu ruhda böyütmək üçün bu işi tərbiyənin ən mühüm

komponentlərindən biri olan halallıqdan başlamaq lazımdır ." Çünki, halal yaşamaq, halal yolla ruzi qazanmaq mənəvi paklığın, təmiz əxlaqın zirvəsidir".

İnsanın hissələri işində ən müqəddəsi, ən nəcibi halallıqdır. İctimai həyatımızın elə bir sahəsi yoxdur ki, orada halallığın təsir gücü, rolu hiss olunmasın. Qeyd etmək lazımdır ki, halallıq tərbiyəsi işinin ilk təməli məhz ailədə formalaşır. İnsanı çox şaxəli ağaca bənzədən alimlər, mütəfəkkirlər heç də yanılmayıblar. Onlara istinad etsək, insan və onun yetişdirdiyi meyvəsi gözəl olmalıdır. Ağac da öz borcunu qaytarar və onunla fəxr edən ağacın borcu yaxşı meyvə yetişdirmək olduğu kimi, insanın da borcu cəmiyyət üçün fərli-fərasətli övlad yetişdirməkdir, çünki, yaxşı övlad tək bir ailənin deyil, bütün cəmiyyətin fəxri - fəxarətidir. Odur ki, onları bu ruhda böyütmək üçün bu işi məhz ailədə hələ erkən yaşlarından başlamaq lazımdır, çünki, başlanğıc tərbiyənin bütün vacib prosesləri ailədə erkən uşaqlıq dövründən formalaşmağa başlayır. Ona görə də, bu nəcib əxlaqı sifəti hələ erkən yaşlardan uşaqlarda tərbiyə etmək çox vacibdir. Xoşa gəlməz, neqativ hallara qarşı ailədə, ardıcıl və müntəzəm şəkildə mübarizə aparmaq ailənin bütün üzvlərinin ümdə borcu olmalıdır.

Unutmaq olmaz ki, bu gün övladlarını əsl halallılıq ruhunda tərbiyə etmək işi valideynlərdən xüsusi məsuliyyət tələb edir. Sağlam uşaq, sağlam ailədə, xoşbəxt uşaq isə mehriban ailədə böyüyür. Sağlam uşaq isə sağlam cəmiyyət, sağlam dövlət deməkdir. Hər bir nalayiq hərəkət, kobud rəftar və davranış, haram əməllər, çürük əxlaqi normalar ailədən məhz cəmiyyətə doğru hərəkət edir.

Müşahidələr göstərir ki, yaşadığımız cəmiyyətdə halallıq heç də hamının mənəvi borcu və daxili tələbatına çevrilməmiş, şüur və əqidələrində dərin kök salmamışdır. Hesab edirik ki, bunun başlıca səbəbləri:

Birincisi: tərbiyənin ilk beşiyi olan ailədə valideynlərin və uşaqların, həmin anlayışın mahiyyətini bilmələri , bu sahədə az məlumatlı olmalarıdır.

İkincisi: ailələrimizdə halallıqla bağlı əxlaqi söhbətlərin, nəsihətlərin, ailənin yaşlı üzvləri tərəfindən lazımi səviyyədə aparılmasıdır.

Üçüncüsü: "halallıq" adı altında çox az-az əsərlərin yazılması, daha doğrusu valideynlərin, həmçinin uşaqların faydalana biləcək məlumatlarının az olmasıdır.

Ailədə, uşaqlarda halallıq tərbiyəsini düzgün qurmaq baxımından aşağıdakı müddəalara əməl olunmasını zəruri hesab edirik:

- Ailədə , uşaqların halallıq tərbiyəsini düzgün formalaşdırmaq qayğısına qalmaq;
- Uşaqlarda halallıq haqqında ilkin, başlanğıc təsəvvür yaratmaq;
- Halallıq haqqında uşaqlarda düzgün təsəvvür formalaşdırmaq baxımından, onlara ailədə həmin anlayışın mahiyyətini düzgün başa salmaq;
- Ailədə sağlam, psixoloji mühitin yaradılmasının qeydinə qalmaq;
- Ailədə uşaqların halallıq haqqında təsəvvürlərini əxlaqi söhbətlər, nəsihətlər və müsbət nümunələr vasitəsilə zənginləşdirmək;
- Ailədə uşaqları qənaətçilik ruhunda böyümələrinin qayğısına qalmaq.

## RƏŞİD BƏY ƏFƏNDİYEVİN VƏTƏNPƏRVƏRLİK GÖRÜŞLƏRİNƏ NƏZƏRİ BAXIŞ

**Vəfa Həsənli,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Naxçıvan Dövlət Universiteti*
E-mail:rashadradjabov@gmail.com

***Açar sözlər:*** *Rəşid bəy Əfəndiyev, vətənpərvərlik, təlim-təhsil, dərslik*
***Ключевые слова:*** *Рашид Бeу Эфендиев, патриотизм, обучение, руководство*
***Key words:*** *Rashid Bey Əfəndiyev, patriotism, training, textbook*

Xalqımızın bəşəri övladlarının heç də hamısının pedaqoji irsi layiqincə araşdırılmamışdır. Belə şəxsiyyətlərdən, maarifpərvərlərdən biri də Rəşid bəy Əfəndiyevdir.

Məlumdur ki, bu günkü işlərə qiymət verilməsi perspektivin müəyyənləşdirilməsi üçün keçilmiş tarixi yolun təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət təşkil edir. Xüsusilə məktəb və pedaqoji fikrin

inkişaf tarixini öyrənmək daha çox zəruridir. Çünki məktəb, xalq maarifi, pedoqoji fikir xalqın mənəvi sərvət səviyyəsinin həm göstəricisi, həm də təkamül amilidir.

R. Əfəndiyevin yaradıcılığının tədqiq olunması həm tarixi, həm də müasir baxımdan xüsusi aktuallıq kəsb edir. İctimai-elmlərdən etika-tarix, etnoqrafiya və s. aid tədqiqatlarda da Rəşid bəy Əfəndiyevin əxlaq adət-ənənələrimiz və tariximiz haqqında fikirləri tədqiq olunmuşdur. Ancaq pedaqoji fəaliyyəti, maarif və təlim-təhsil məsələləri bizim tərəfimizdən işıqlandırılır.

Böyük maarifçi Rəşidbəyin yaradıcılıq fəaliyyətini yüksək səciyyələndirən "Molla Nəsrəddin" jurnalında bu sözlər yazılmışdır: "İnsafdan uzaq olan şeydir ki, bir nəfər Rəşid bəy Əfəndiyev kimi müəllimdir. Nurqələm sahibi min-min kitablar nəşr edən min-min qələmlər vuran və bu qədər yazılarını qurtarmayıb bir-iki sətr insani münasibətinin naminə bir əsər tapa bilməyəcək, ikicə sətir köhnə və sinəzəndən bir işarə tapa bilməyəcək ki, məscidlərdə isə qardaşlarının köməyinə gələ".

Rəşid bəy Əfəndiyevin yaradıcılığında vətənpərvərlik tərbiyəsi ideyası daha çox üstünlük təşkil edir. Rəşid bəy inqilabdan əvvəl yazdığı şeirləri vətənpərvərlik ideyaları və dövründən şikayətlə də doludur. Şair "Vətən məhəbbəti" şeirində:

Məhəbbət eləmək hər yurd üçün bir sirr hikmətdir,
Vətən viranə də olsa, məsəldir: məhz cəhətdir.
Vətən qüvvət verir qəlbə, vətən qüvvət verir şəxsə,
Vətən rahat verir ruhə, vətən bir başqa hikmətdir.
Nə bədbəxt kimsədir ol kəs, vətən mümkünü tərk eylər,
Gedər qürbət yerə, gəlməz, bunun hali səfalətdir

- deməklə doğma vətənini hərarətlə sevməyini əks etdirmiş, vətəni sevib ondan qüvvət almağı tövsiyyə etmiş, vətənini sevməyib yad ölkələri vətəndən əziz tutanları bədbəxt və səfil adlandırmışdır.

Rəşid bəyin vətənə məhəbbəti o qədər ümmansız, sonsuz olmuşdur ki, o, hər bir vətən balalarını bilikli, savadlı görmək arzusunda olmuşdur. Bunun da çarə yolunu uşaqlar üçün "Uşaq bağçası" adlı dərslikdə yazmaqda tapmışdır. Əfəndiyev yazır ki, əgər məşhur pedaqoq Çernyayevskinin «Vətən dili» kitabı vasitəsilə ərəb əlifbasını şagirdə 6 aydan az vaxta öyrətmək mümkündürsə, "Uşaq bağçası" kitabı vasitəsilə bir ay müddətində öyrətmək şagirdlərə yazı vərdişlərini aşılamaq mümkündür. Buna görə də Rəşid bəy kitabın üzərində belə yazmışdır: "Savadsız adam bu kitab ilə bir ayda oxuyar və yazar". Əfəndiyevin bu dərsliyi pedaqoji-metodik səviyyəsinə görə sonrakı dövrlərdə hazırlanmış dərs vəsaitlərinə də güclü təsir göstərmişdir.

Yekun olaraq qeyd edək ki, Rəşid bəy Əfəndıyevin xidmətləri Azərbaycanda yeni üsullu məktəblərin açılmasında, milli dərsliklərin yaradılmasında, təlimin ana dilində aparılmasında onun böyük olmuşdur.

**ƏDƏBİYYAT**


1. Abdullayev A. Azərbaycan dilinin tədris itarixindən. Bakı: Maarif, 1966.
2. Abdullayev Ə. Görkəmli pedaqoq Rəşid bəy Əfəndiyev // Azərbaycan məktəbi, 1961, № 4
3. Əhmədov C. R.Əfəndiyev ibtidai siniflərdə ana dili təlimi haqqında // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1971, № 1


## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ESTETİK TƏRBİYƏSİNİN FORMALAŞMASINDA MUSİQİNİN ROLU


**Tünzalə Məmmədova,**
*Naxçıvan Müəllimlər İnstitutunun metodisti*
E-mail: tünzale84@ mail.ru



***Açar sözlər:*** *musiqi, musiqinin estetik tərbiyəyə təsiri, musiqinin müalicəvi əhəmiyyəti, şagirdlərin formalaşmasında musiqinin rolu*

***Ключевые слова:*** *музыка, влияние музыки на эстетическое воспитание, лечебное значение музыки, роль музыки в формировании учеников*

***Key words:*** *Music, the influence of music to the aesthetic education, the treatment significant of music, the role of music in the formalizing of student*

Musiqi insana ən yaxın olan incəsənət növüdür. İnsanın yaratdığı bütün sənəd növündən musiqi demək olar ki ən güclü emosiOnal təsir vasitəsidir. Sözlə ifadə etmək olmayan hiss həyəcanı musiqi ifadə edir, istər mahnılar olsun, istər ninnilər, nəğmələr, laylalar uzaqlıqdan ruhumuza hopur və bu günə qədər bizə yoldaşlıq edir. Musiqi ruhun qidası, könlümüzün məlhəmidir. Musiqi insana güc verən incəsənətin əsas təsir gücünə malik olan bir vasitədir.

Estetik tərbiyə ümumi tərbiyənin tərkib hissəsi kimi ölkəmizin bütün ictimai-siyasi və iqtisadi həyatında mühüm yer tutur. İbtidai siniflərdə musiqi fənninin təşkili və tədrisi zamanı onlarda gələcəyə dair insani keyfiyyətin formalaşması ilə yanaşı musiqinin verdiyi estetik tərbiyəni də alır. Şagirdlər vətəni ,torpağı , ananı sevməyi öyrənirlər.

İncəsənətin başqa növlərindən fərqli olaraq musiqi insanın hislərinə başqa təsir göstərir. Şagirdlərə fənnin təşkili zamanı tədris olunan mövzunun əhəmiyyəti əyani şəkildə çatdırılan zaman onlarda emosional duyğular təzahür edir. məsələn: mövzuyla bağlı oxunan "Azərbaycan əsəri" mahnısını dinləyən ibtidai sinif şagirdlərinin təfəkküründə vətənə məhəbbət, vətənə sədaqət, mərdlik, cəsurluq və s. hislər yaranır. Bu da musiqinin şagirdlərin estetik tərbiyəsində müsbət təsir göstərməyinə zəmin yaradır.

Musiqi savadı, musiqi təhsili estetik tərbiyənin ən mühüm bölməsidir. Respublikamızda bədii zövqün inkişafı və musiqinin başa düşülməsi üçün çox işlər görülür, gündüz və axşam məktəblər şəbəkəsi yaradılır, məktəblərdə, peşə təhsili ocaqlarında, uşaq və gənclər sarayında, mədəniyyət ocaqlarında musiqi dərnəkləri fəaliyyət göstərir.

Musiqi tərbiyəsi hər şeydən əvvəl insan tərbiyəsidir. İbtidai sinif şagirdləri musiqi dərsi zamanı oxunan əmək nəğmələri, vətən, qəhrəmanlıq nəğmələri oxuyan zaman zəhmətsevərlik musiqi vasitəsi ilə onların beyninə qeyri ixtiyari şəkildə yerləşir.

Görkəmli psixoloq B.M. Teplov musiqinin estetik qavranmasını aktiv fəaliyyət kimi gözdən keçirmişdir. Estetik tərbiyə məsələsi ilə məşğul olmuş B.V. A. isə musiqi təbiətdə və insan qəlbində səslənən gözəl nə varsa hamısının. daim canlı Təcəssümü adlandırmış və musiqi ilə yalnız əyləndirməyə dinləyiciləri zorla qəbul etdirməyə deyil, musiqi vasitə inandırmağa və sevdirməyə çalışır. Musiqidən hətta qədim dövrlərdə müalicə vasitəsi kimidə istifadə edirdilər. Məsələn, Çində, Misirdə, Romada, Yunanıstanda .

Musiqi şagirdlərin estetik tərbiyəsi ilə yanaşı ruhuna birbaşa təsir göstərən br elm sahəsidir. Araşdırrmalar göstərdi ki ruh düşkünlüyü yaşayan şagird və uşaqlar dinlədiyi musiqinin təsiri altına düşür, məsələn zəif qiymət alan şagird həmin gün üçün özünü pis hiss etdiyindən dinlədiyi lirik mahnı onu ruh düşkünlüyünə apararaq ona tam əksinə şən musiqilər, mahnılar uşağa müsbət təsir bağışladığından o ruhdan düşməyərək oxuyub yüksək qiymət almaq qərarına gələrək cəsarət alır. Deməli, musiqi ruhun qidasıdır. Bu söz heçdə əbəs yerə deyilməyib. Sağlam bədəndə sağlam ruh olar. Elə musiqi həvəskarı şagirdlər vardır ki, onlar məktəbdən kənar vaxtlarda musiqi ilə məşğul olur, hətta yemək yeyərkən, evə qayıdanda, yatarkən belə musiqi dinləyir. Onlarda musiqinin zərif minansarına toxunaraq şagirdlərin estetik zövqünün formalaşmasında əhəmiyyətli dərəcədə düzgün məşğul olmalıdırlar.

Yaradıcılıq fəaliyyətini musiqisiz təsəvvür edə bilmirəm. Əgər mən uşaqlıqdan musiqini sevməsəydim heç vaxt məşhur rəssam olmazdım. Mənim məqsədim insanları musiqi vasitəsi ilə daha yaxşı etməkdir. V. Hüqo Musiqinin məqsədi insanları yaxşılığa doğru aparmaqdır. Nümunələr onu göstərdi ki, hər hansı ixtisas mütəxəssisi belə olsaq musiqi və musiqinin ecazkar gözəlliyini duymalıyıq. Çünki dünyamızı musiqisiz təsəvvür mümkün etmək deyil.

**ƏDƏBİYYAT**

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı: Kövsər, 2008.
2. F. Sadıqov. Muğam: Dərs vəsaiti. Bakı: Maarif, 2011.

# ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SOSİAL FƏALLIĞIN ROLU

**Kəmalə Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*

***Açar sözlər:*** *davranış, fəaliyyət, dinamika, sosial-psixoloji*
***Ключевые слова:*** *поведение, деятельность, динамика, социально-психологический*
***Key words:*** *behavior, activity, dinamics, social-psychological*

Müasir dövrdə psixoloqları daha çox maraqlandıran problemlərin içərisində şəxsiyyətin, onun psixoloji xüsusiyyətlərinin öyrənilməsi xüsusi yer tutur. Vaxtilə L.S. Vıqotski göstərdi ki, şəxsiyyətin müəyyən xüsusiyyətləri ontogenetik inkişafdan asılı olaraq fəaliyyət prosesində reallaşır. Təbii ki, burada başlıca yeri şəxsiyyətin sosiallaşması tutur. Sosiallaşma isə sosial fəallıqla qarşılıqlı vəhdətdədir.

Psixoloji planda sosial fəallığın mahiyyəti ondan ibarətdir ki, onun aparıcı motivini cəmiyyət, kollektiv qarşısında şüurlu şəkildə öz vətəndaşlıq borcunun dərk edilməsi təşkil edir. Eyni zamanda sosial fəallıq şəxsiyyətin özünütəsdiqi, özünüreallaşdırması üçün geniş imkan yaradır. Burada fəaliyyət motivi şəxsi mənafe kimi yox, başqaları, eləcə də kollektiv üçün şüurlu şəkildə fayda vermək mahiyyəti daşıyır.

S.L. Rubinşteyn göstərir ki, fəaliyyət başlıca olaraq şəxsiyyətin istiqamətləri, ustanovka və motivlərlə sıx vəhdətdədir. Onun fikrincə şəraitin dəyişməsilə şəxsiyyətin özündə də dəyişikliklər baş verir. Eyni zamanda motiv və məqsəd insanın həyat yolunu müəyyənləşdirir.

Tədqiqatlar göstərir ki, sosial fəaliyyət prosesində münasibətlər, qarşılıqlı kömək, əməkdaşlıq, şəxsiyyətin həmrəylik, məsuliyyət, əməksevərlik və s. keyfiyyətlərini inkişaf etdirir. Kollektivdə münasibət və fəaliyyət tədricən şəxsiyyətin xarakterini formalaşdırır.

Yəni konkret fərd qarşılıqlı fəaliyyətin yalnız subyekti yox, həm də obyekti olur. Şəxsiyyətin strukturunun formalaşması onun ictimai əlaqələrindən, konkret olaraq müxtəlif sosial qruplardakı fəaliyyətindən asılıdır.

Əksər psixoloqlar (L.İ. Bojoviç, A.V. Petrovski və b.) istiqamət və motivlərin şəxsiyyətin formalaşmasında mühüm rol oynadığını qeyd edirlər. Tədqiqatlar göstərir ki, burada başlıca olaraq iki motivi götürmək olar: a) eqoistik; b) kollektivçi motiv.

Eqoistik motiv fərdin öz "MƏN"ini təsdiq etməsi, yoldaşlarından fərqlənmək mahiyyəti kəsb edir. Eqoistik motiv fəaliyyəti istiqamətləndirir. Kollektivçi motiv isə cəmiyyət, kollektiv üçün çalışmağı üstün tutur. Burada şəxsi mənafe yox, kollektivin marağı önə keçir.

Sosial fəallıq şəxsiyyətin özünütəsdiqi, özünüreallaşdırma baxımından geniş imkan yaradır. Ona görə də tələbə şəxsiyyətinin formalaşmasında bu amillər nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya Bakı: Qann-poliqraf, 2003.
2. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2007.
3. Əliyev R.İ., Əliyeva G.B. Şəxsiyyət psixologiyası . Bakı: ADPU, 2010.
4. Конь И.С. Открытые "Я" . М.: Политиздат,1978.
5. Петровский А.В. Личность. Деятельность. Коллектив. М.: Политиздат, 1982.

# MƏDƏNİYYƏT ABİDƏLƏRİ ŞAGİRDLƏRİN TƏRBİYƏ OLUNMASI VASİTƏSİ KİMİ

**Xurşud İsmayılova,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*
E-mail: xurshud-23@mail.ru

***Açar sözlər:*** *tərbiyə, rol, tarixi abidə, məqsəd, vəzifə*
***Ключевое слово:*** *воспитание, роль, памятник, цель, задачи*
***Key words:*** *education, role, monuments, purpose, objectives*

Azərbaycanın tarixi-mədəniyyət abidələri müxtəlif nəsillərdən olan insanların, o cümlədən ölkəmizə gələn dünya səyyahlarının böyük marağına səbəb olmuşdur. İnkişafa, mədəni tərəqqi nailiyyətlərinə görə Azərbaycan indi dünyanın ən sivil dövlətləri sırasındadır. Yüksək estetik dəyərlərə, zəngin mədəni irsə diqqət və qayğıya görə də əhəmiyyətli cəhətləri çoxdur.

Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev cənablarının "İçərişəhər" Dövlət Tarix – Memarlıq Qoruğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə 28 fevral 2005-ci il tarixli 200 nömrəli fərmanı, Azərbaycan Respublikasındakı Monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında 2 aprel 2007-ci il sərəncamı öz növbəsində bu zəngin mənəvi irsdən müntəzəm sistemli istifadə işinin estetik mahiyyətinə xüsusi diqqət yetirməyi zəruri edir.

Milli tariximizin, mədəniyyətimizin, adət və ənənələrimizin öyrənilməsində, habelə təlim-tərbiyə prosesinin meyl, maraq, istedad və qabiliyyət əsasında qurulmasında, istedadlı şagirdlərin aşkara çıxarılmasında və hər vasitə ilə inkişaf etdirilməsində estetik tərbiyənin, xüsusilə qüdrətli təsir gücünə malik olan incəsənət vasitəsilə aparılan estetik tərbiyənin özünəməxsus mövqeyi, spesifik xüsusiyyəti və əhəmiyyəti vardır. Buna görə də ümumtəhsil məktəblərimizdə həyata keçirilən estetik tərbiyəyə xüsusi fikir verilməlidir.

Tərbiyənin digər sahələrindən fərqli olaraq estetik tərbiyə mahiyyətinə, vasitələrinə, həyata keçirilmə formalarına, yollarına görə spesifik xüsusiyyətlərə malikdir. Estetik tərbiyə prosesində ən təsirli vasitələrdən istifadə olunması həmişə diqqət mərkəzindədir. Həmin vasitələrdən ən vacibi də milli memarlıq abidələridir. Estetik tərbiyənin formalaşmasında memarlıq abidələrinin rolu, imkanları hüdudsuzdur.

Dünya mədəniyyəti xəzinəsini bəzəyən, tariximizin, incəsənətimizin ən qədim abidələrindən olan Qobustan qayalarında həkk edilmiş bütün təsvirlər, təbii abidələr, mövzu və süjet müxtəlifliyi, həyatiliyi, canlılığı və cazibədarlığı ilə hamını valeh edir. Abşeron abidələri içərisində Qız qalası və Şirvanşahlar sarayı xüsusilə fərqlənir. Şirvanşahlar sarayı ansamblına daxil olan Divanxana, saray türbəsi, minarəli saray məscidi və s. öz gözəlliyi, əzəməti ilə canlı tarixə çevrilmiş və xalqımızın bədii təfəkküründə, gözəllik duyumunda estetik təsir gücü ilə əbədi yaşayır.

Min illər ərzində yaranan mədəniyyət abidələri, memarlıq əsərləri məktəbli gənclərin milli vətənpərvərlik, milli ləyaqət, milli iftixar hissi tərbiyəsində, estetik zövqünün formalaşmasında əvəzsizdir. Memarlıq abidələri öz növbəsində dərin məzmunu, estetik təsir gücü ilə zəngin mənəvi ideyalar aşılamaq qüdrətinə malikdir.

**ƏDƏBİYYAT**

1. S. Qayibova. Memarlıq abidələrini əks etdirən əyani vəsaitlər vasitəsilə şagirdlərin estetik tərbiyəsi // Azərbaycan Müəllimlər İnstitutunun xəbərləri, 2009, № 1
2. M. Məmmədov. Estetik tərbiyənin şəxsiyyətin formalaşmasında rolu // Sənətkar 2011, № 3

## YENİYETMƏLƏRİN TƏLİM-TƏRBİYƏSİNDƏ VALİDEYN KOMİTƏSİNİN ROLU

**Vüsalə Vahidova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: vahidli79@mail.ru

***Açar sözlər:*** *valideyn komitəsi, məktəb, əməkdaşlıq, yeniyetmə, şagird, təhsil, təlim, inkişaf*

***Ключевые слова:*** *родительские комитеты, школа, сотрудничество, подросток, студент, образование, обучение, развитие*

***Key words:*** *parent committees, school, collaboration, teenager, student, education, training, development*

Tədris müəssisələrinin müasir tələblər səviyyəsində inkişafını tədris prosesində valideynlərin hüquqi inkişafından kənarda təsəvvür etmək mümkün deyil. Valideynlərlə məktəbin əməkdaşlığının lazımı səviyyədə qurulması üçün valideyn və müəllimlər yeniyetmələrin təhsilində, tərbiyəsində, əqli fiziki inkişafında işgüzar vətəndaş kimi fəaliyyət göstərməlidir.

Yeniyetmələrin təlimə marağının yüksəlməsində, onlara vətənə məhəbbət hissinin aşılanmasında, yüksək milli əxlaqi keyfiyyətlərin, mənəvi dəyərlərin, məsuliyyət və intizamın tərbiyə edilməsində, hüquqi, estetik, fiziki tərbiyəsində, sağlamlığının qorunmasında valideyn komitəsi mühüm rol oynayır:

- yeniyetmələrin tərbiyəsində vahid tələbləri təmin etmək və onun səmərəliliyini artırmaq məqsədi ilə ailənin, məktəbin və ictimaiyyətin əlaqələrini möhkəmləndirməyə köməklik göstərir;
- valideynlər arasında pedaqoji və psixoloji biliklərin təbliğini təşkil edir;
- məktəbdə milli əxlaqi və mənəvi dəyərlərin inkişaf etdirilməsi, şagirdlərdə həmin dəyərlər üzrə yaşamaq üçün daxili tələbatın formalaşması, onların şüurlu intizam, davranış mədəniyyəti, böyüklərə hörmət tərbiyəsinin formalaşması üzrə fəal iştirak edir;
- təlimə məsuliyyətli münasibətdə, məktəblilərin asudə vaxtının səmərəli təşkilində məktəbə və ailəyə kömək göstərir;
- özünəxidmət vərdişlərinin inkişafına, yeniyetmələrin məktəbdə və ailədə əmək tərbiyəsinin və peşəyönümü işinin təşkilinə imkan yaradır;
- yeniyetmələrin meyl və qabiliyyətlərini, valideynlərin arzularını nəzərə almaqla onların təhsillərini davam etdirmək yollarını seçməkdə onlara kömək edir;
- valideynləri məktəb həyatında fəal iştirak etməyə, onları sinifdənxaric və məktəbdənkənar işlərin təşkilinə cəlb etməyə diqqət yetirir;
- şagird özünüidarəsinin inkişafına kömək edir;
- şagirdlərin tərbiyəsində valideynlərin məsuliyyətini artırır;
- məktəbin kitab fondunun zənginləşdirilməsinə kömək göstərir;
- məktəbdə zərərli adətlərin, nəzarətsizliyin, qanun pozuntularının profilaktikası üzrə işlərdə fəal iştirak edir;
- şagirdlərin sağlamlığının qorunması və möhkəmləndirilməsinə hər vasitə ilə qayğı göstərir.

Valideyn komitəsinin işinin effektivliyi valideynlərlə işi düzgün qurmasından, onların köməyindən düzgün istifadə etməsindən asılı olur.

**ƏDƏBİYYAT**


1. Ağayeva B.S., Vahidova V.H. Şagirdlərin sosiallaşması üzrə tərbiyə işinin təşkili: Metodik vəsait. Bakı: Mütərcim, 2011.
2. Əliyev P.R., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: Təhsil, 2004.
3. Сергеева В.П. Классный руководитель в современной школе. М.: Гном-пресс, 2000.


## AİLƏ TƏRBİYƏSİNİN SƏMƏRƏLİ YOLLARI


**Əhliman Dadaşzadə,**
*SDU -nun pedaqogika və psixologiya kafedrasının müəllimi*



***Açar sözlər:*** *ailə, dəyərlər, tərbiyə*
***Ключевые слова:*** *семья, ценность, воспитание*
***Keywords:*** *family, value education*


Ailənin əmələ gəlməsi və inкişafı ilə bağlı çoxsaylı amillər arasmında ən mühüm rolu nigah, ailənin inкişafı, onun rol struкturu, ailə üzvlrinin haкimiyyət bölgüsü, ər-arvad ünsiyyəti, nigah və ailə münasibətləri, nigah partiyorunun seçilməsin həlledici rola maliк şərt, tərbiyənin müxtlif formalarnın səmərəliliyi, valideynlər və uşaqların psixoloji xüsusiyyəiləri, valideynlərin pedaqoji maariflənməsi və s. xüsusi əhəmiyyətə maliкdir.

Ananın bu gün ailədə yerinə yetirdiyi ənənəvi funкsiyalara- uşaqların-övladların qayğısını çəкməsi ilə yanaşı, həm də digərləri də əlavə olunur: iqtisadi müstəqilliyə canatma, yüкsəк savadlılıq nümayiş etdirmə də ailəyə öz təsirini göstərən amillərdəndir.

Uşağı ana-ataya bağlayan hisslər onun vətəndaş кimi formalaşmasında son dərəcə əhəmiyyətlidir, zəruridir. Valideynlərin uşağa münasibəti - onun insalara münasibətinin başlanğıcıdır.

Hər bir valideyn tərbiyənin məqsəd və vasitələrini müəyyənləşdirərəkın uşağın bir vətəndaş, zəhmətкeş, xadim кimi böyüməsi qeydinə, qayğısına qalmağı bacarmalıdır. Ailə tərbiyəsinin məqsədi uşaqlarda elə şəxsi keyfiyyəti və xasiyyətləri formalaşdırmaqdır ki, onlar həyat yolunda rast gəldikləri çətinlikləri və maneələri layiqincə aradan qaldırsın, vətənpərvər vətəndaşlar yetişdirsin və layiqli bəşəri insan formalaşdırmaqdır. Uşaqların yaradıcılıq qabiliyyətləri, dərketmə vərdişləri və ilk əmək fəaliyyəti təcrübəsi, mənəvi və estetik zövqləri, emosional mədəniyyət və fiziki sağlamlıq, bütün bunlar ailədən, valideynlərdən asılı olduğu üçün ailə tərbiyəsinin başlıca məqsədi sayılır.

Ailə tərbiyəsi valideyn və uşaqlara zövq, sevinc verən qarşılıqlı təsir prosesidir. Valideynlik pedaqoji nemətdir. Ailə tərbiyəsinin səmərəli olması üçün valideynlər öz uşaqları ilə daim və qarşılıqlı faydalı ünsiyyətə girməli, onlara sağlam həyat tərzi aşılamalıdırlar. Çünki uşaqların sağlamlığı qayğısına qalmaq valideynin başlıca vəzifələrindəndir. Müasir dövrümüzdə uşaqların ağıllı, işgüzar, əməli fəallıq, vicdanlı sahibkarlıq ruhunda tərbiyəyə ehtiyacı vardır. Beləliklə, tərbiyənin bütün vacib prosesləri ailədə erkən uşaqlıq dövründə başlanır. Həzz xatirinə göstərdiyi sevgidən fərqli olaraq uşağın gələcəyi naminə pedaqoji məqsədli valideyn məhəbbəti daha şərəflidir. Bəzən valideyn müəyyən yollarla-oyuncaq, dondurma, pepsi, saqqız və s. almaqla uşağın “sevgisini satın alır”. Belə sevgi əslində uşağı korlayır. Uşağa kor-koranə, düşüncəsiz valideyn sevgisi onun şüurunda mənəvi dəyərləri qarışdırır, uşaqlarda əməyə etinasızlıq formalaşdırır, valideynlərə və başqa qohumlara minnətdarlıq və təmənnasız sevgi hisslərini kütləşdirir. Ailə tərbiyəsi prosesində sərhəd olmadığından o, həmişə davam edir. İdeal varlıq hesab olunan valideyn övladına qarşı daim diqqətli və həssas olmalıdır. Bu məqsədlə valideynlər daim pedaqoji, psixoloji cəhətdən maarifləndirilməlidir. Valideynlərə izah edilir ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında “Ailə və dövlət” haqqında qanunverici və normativ sənədlərdə ailə tərbiyəsinin əsasları təsbit olunmuşdur. Hüquqi material əsasında BMT-nin Beynəlxalq Konvensiyasında uşaqların həyatını mühafizə etmək, tərbiyəsini təşkil etmək haqqında sənədlər mühüm yer tutur.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda və digər rəsmi sənədlərdə ailə tərbiyəsinin təşkilinə dair dəyərli məlumatlar vardır. Valideynlər bu sahədə lazımi biliklərlə məlumatlanmalıdırlar.

**ƏDƏBİYYAT**


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. Abbasov A.N. Ümumtəhsil məktəbi şagirdlərini ailə həyatına hazırlamağın bəzi məsələləri. Bakı, 1989.
3. Əlizadə Ə.Ə, Abbasov A.N. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat: Dərs vəsaiti. Bakı: Maarif, 1989.
4. Ə.Ə.Əlizadə, A.N.Abbasov Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1989.


## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MƏDƏNİ DAVRANIŞ, ÜNSİYYƏT VƏ FƏALİYYƏTİN TƏRBİYƏ EDİLMƏSİ


**Pərvanə İmanova,**
*Bakı Humanitar Kollecin müəllimi*
E- mail: imanova.pervane@bk.ru



***Açar sözlər:*** *mədəni, ünsiyyət, davranış, mədəniyyət, fəaliyyət*
***Ключевые слова:*** *куьтурный, общение, поведение, культура, деятельность*
***Key words:*** *cultural, intercourse, behavior, culture, action*


Məktəbəqədər dövr – uşaqların mədəni-mənəvi dəyərlərlə tanışlıq zamanıdır. Bu vaxt uşaqlarda şəxsi mədəniyyət, ətraf aləmə, təbiətə və özünə qarşı münasibətin əsası qoyulur. Mədəni davranış xarici amillərin təsirində, daxili dəyərlərin istiqamətində, əxlaqi və estetik münasibətlərdə özünü göstərir. Məhz məktəbəqədər yaş dövründə mədəni davranış və münasibət formalaşır. Məktəbəqədər yaşlı uşaqların mədəni davranışı ümumilikdə geniş anlayışdır : məişət mədəniyyəti, mədəni ünsiyyət, mədəni

fəaliyyət və s. bura daxildir. Məişət mədəniyyəti dedikdə, buraya uşağın mədəni gigiyenik vərdişləri , sağlam həyat tərzinə uyğunluğu, məişət əşyaları ilə mədəni davranışı, oyuncaqlara və şəxsi əşyalarına münasibəti başa düşülür.

Mədəni gigiyenik bacarıq və vərdişlər mədəni davranışın əsas hissəsini təşkil edir. Əl-üzün, saçların, paltarın, ayaqqabın təmizliyi yalnız gigiyenik tələblər olmaqla qalmayıb, mədəni insani münasibətlərin normalarıdır. Məktəbəqədər yaşda uşaqlar müəyyən mədəni qaydalara : yeməyi götürüb stolda oturmağa, tələsmədən, yavaş-yavaş çeynəyərək səliqəli yemək vərdişinə, qab-qaşıqdan düzgün istifadə etməyə yiyələnirlər. Eyni zamanda onlar başa düşməyə başlayırlar ki, çirkli əllərlə hər hansı bir əşyaya toxunmaq, səliqəsiz halda süfrədə əyləşmək ətrafdakı insanlar tərəfindən müsbət qarşılanmır. Əksinə mədəni qaydalara riayət etməklə ətrafdakıların hörmət və ehtiramını qazanmış olurlar. Artıq məktəbəqədər yaş dövrünün sonunda uşaqlarda davamlı mədəni məişət vərdişləri formalaşmalıdır.

Mədəni ünsiyyət insanın kommunikativ aktivliyinin mənəvi və estetik xarakterini aşkara çıxarır. Bu qabiliyyət kommunikativ aktivliyin təşkilində, davranışda, qarşılıqlı əlaqələrin yaranmasında, münasibətdə aşkara çıxır. Mədəni ünsiyyət mədəni dəyərlərin, ənənələrin və ünsiyyət qaydaları əsasında yaranır. Ünsiyyət qaydalarını bilmək, müəyyən ölkə və regionlarda insana tez , asan əlaqə qurmağa, onun üçün yeni olan sosial mühitə adaptasiya olmağa şərait yaradır.

Erkən yaşdan müsbət təcrübələrin təşkili onunla nəticələnir ki, uşaq ünsiyyətində mənfi davranış formalarına rast gəlinmir. Uşaq çalışır ki, həmyaşıdları ilə ünsiyyətdə uyğun vasitə seçərək nəzakətli davranış və mehribanlıq nümayiş etdirsin.

Məktəbəqədər yaşda mədəni ünsiyyət uşaqların ailədə, uşaq bağçasında, ictimai yerlərdə müxtəlif yaşlı insanlarla münasibətlərində müəyyən norma və qaydalar tələb edir. Bunlara məktəbəqədər yaşda monoloji və dialoji nitqin inkişafı, tələb olunan nitq etiketlərinə riayət, savadlı danışıq və s. daxildir.

Müasir davranış mədəniyyəti aşağıdakı etiket prinsiplərini irəli sürür:

- daima etiket qaydalarına münasib uyğunlaşma.
- ciddi şəkildə hörmət və ehtiram bildirən etiket qaydalarına riayət etmək.
- Gözəlliyi qorumaq şərti ilə davranışda olan qüsurları azaltmaq.

-Milli adət və ənənələrə hörmətlə yanaşma (1.234).

Uşaqlar danışmağa başladığı, xüsusilə ad və predmetləri adlandırmağa başladığı vaxtdan onlara düzgün danışıq mədəniyyəti aşılanmalıdır. Artıq böyük qruplarda uşaqlar nəzakətliliyin, zərifliyin, dostluğun, ünsiyyətin mədəni davranışda mühüm rol oynadığını dərk edirlər. Onlar böyük məktəbəqədər yaş dövründə aşağıdakı mədəni ünsiyyət formalarına yiyələnirlər:

-sosial, emosional və maddi ehtiyacların ödənilməsinə;
-fikirlərin sərbəst və düzgün qurulmuş cümlə şəklində ifadəsinə;
-qarşılıqlı əlaqə zamanı ünsiyyəti dəstəkləmək, hadisələr arasında bağlılıq yaratmaq;
-eşitmək, anlamaq, dialoqda iştirak etmək və s. bacarıqlara;
-mimika, jest, pantomimika kimi ünsiyyəti formalarına.

Mədəni fəaliyyətə yiyələnməklə, məktəbəqədər yaşlı uşaqlar səliqə-sahmanın saxlanılmasına, işin sona qədər icrasına, nəticəni qiymətləndirməsinə, oyuncaqlarını, əşyalarını qorunmasına nail olurlar.

Mədəni fəaliyyətin əsas göstəricisi - faydalı əmək fəaliyyəti ilə məşğul olmaq bacarığı və iradəli şəkildə nəticənin əldə olunmasıdır. Məhz bu kimi qabiliyyət və bacarıqlar uşaqlara müstəqil şəkildə öz fəaliyyətini qurmağa, yaranmış imkanlardan geniş istifadəyə şərait yaradır.

## ƏDƏBİYYAT


1. А.Г. Гогоберидзе, О.В. Солнцевой. Дошкольная педагогика. М., 2016.
2. Галигузова Л.Н. Педагогика детей раннего возраста М., 2007.
3.Голованова Н.Ф. Социализация и воспитание ребенка. СПб;2004.

## *PSİXOLOGİYA, KORREKSİYA PEDAQOGİKASİ, İNKLÜZİV TƏHSİL*

# AĞLIN PSİXOLOJİ ƏSASLARI

**Oruc Həsənli,**
*Naxçıvan Müəllimlər İnstitutunun rektoru*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi*
E-mail: oruc-hesenli@mail.ru

***Açar sözlər:*** *ağlın keyfiyyətləri, təfəkkür, ağlın tərbiyəsi, ağıl tərbiyəsinə dair bədii yaradıcılıq, ağlın meyarı bilik*

***Ключевые слова:*** *качества ума, мышление, воспитание ума, художественное творчество к воспитанию ума, знание как критерии ума*

***Key words:*** *qualities of mind, thinking, intellectual upbringing, literariy creativitiy on intellectual upbringing, knovledge as a cryteria of mind*

Müasir psixologiya elmi ağlın təfəkkürün məhsulu olması ideyasını irəli sürür. Psixoloqların ümumi qənaətinə görə təfəkkürün məhsulu olan ağlın keyfiyyətləri isə təfəkkürün müxtəlif növlərinin inkişaf səviyyəsilə müəyyənləşir. Təfəkkürün əyani-əməli təfəkkür, əyani-obrazlı təfəkkür, mücərrəd təfəkkür, praktik təfəkkür, texniki təfəkkür, bədii təfəkkür, yaradıcı təfəkkür kimi, növlərinin inkişaf səviyyəsi və onların biri-birilə çulğalaşması ağlın xüsusiyyətlərini müəyyənləşdirən ən başlıca amildir. [4]. Hər bir insanın təfəkkür növünün üstünlüyü və bu üstünlüyü səciyyələndirən cəhətlər həmin insanın ağlının xarakteristikası kimi qiymətləndirilir. Bu səviyyənin aşağı olması ağlın dayazlığına, yüksək olması isə ağlın normal olmasına, başqa sözlə ağıllılığa dəlalət edir.

Psixoloqlar bu cəhətləri nəzərə alaraq adamın müəyyən fəaliyyət növü sahəsində lazımi təcrübəsinin olmasını vacib şərt kimi izah edirlər. Əgər hər hansı bir fəaliyyətin müvəffəqiyyətli icrasının şərti nəzərdə tutulursa bu şərtin fonunda qabiliyyətlər dayanır. Deməli, hər bir adamın özünəməxsus şəkildə çulğalaşan təfəkkürü onun qabiliyyətlərilə şərtlənir. Yəni qabiliyyətlər ağlın keyfiyyətində təzahür edir. Belə olan təqdirdə adamların ağlının səviyyələri məhz bu meyar əsasında müəyyənləşir. Beləliklə, həmin səviyyələrə uyğun olaraq ağlın keyfiyyətləri də üzə çıxır.

Psixoloji ədəbiyyatda ağlın keyfiyyətləri aşağıdakı şəkildə qruplaşdırılır: ağlın müstəqilliyi, ağlın tənqidiliyi, ağlın dərinliyi, ağlın çevikliyi, ağlın sürətliliyi (fikir sürəti), ağlın məntiqliyi (fikir məntiqliyi).

Azərbaycanın görkəmli psixoloqları professorlar Ə. Bayramov və Ə. Əlizadə tərəfindən hazırlanan "Psixologiya" dərsliyində ağlın keyfiyyətləri daha aydın şəkildə şərh olunur. Alimlərin fikrincə "ağlın müstəqilliyi insanın öz bilik və təcrübəsinə əsasən cisim və hadisələrin mühüm əlamət və xüsusiyyətlərini, əlaqə və münasibətlərini, qanunauyğunluqlarını başa düşməsində, yeni məsələlər irəli sürüb onları həll etməsində və biliklərini nisbətən mürəkkəb problemlərin həllinə tətbiqetmə bacarığında özünü göstərir". Ağıl müstəqilliyinə malik olan adamlar müstəqil fikir söyləyən zaman, müstəqil ideyalar irəli sürərkən qabaqcadan planlaşdırdıqları işin müvəffəqiyyətlə nəticələnəcəyinə əmin olarkən uğurlar qazanacaqlarına inanırlar. Onların ağıl müstəqilliyi məhz belə ağıllı mülahizələr yürütmələrində ifadə olunur.

Ağlın tənqidliyindən danışan Ə. Bayramov və Ə. Əlizadə qeyd edirlər ki, "ağlın tənqidiliyi onun müstəqilliyi ilə bağlı olub, insanın a) dərk olunan fikirləri, fərziyyələri, eləcə də öz fikir və rəyləri ölçüb biçməsində; b) idrak obyektlərindəki səhv və uyğunsuzluqları axtarıb tapmasında; c) bunların səbəblərini araşdırmasında ifadə olunur". Belə adamlar həyatda səhv addımlar atmırlar. Ona görə ki, onlar atacaqları addımları dəfələrlə ölçüb-biçdikdən sonra atırlar. Bunun nəticəsi olaraq onlar çox nadir hallarda səhvə yol verirlər. Onlar səhvə yol verdikləri təqdirdə öz səhvlərinə obyektiv şəkildə tənqidi münasibət bəsləməyi bacarırlar.

Adı çəkilən dərslikdə ağlın dərinliyindən söhbət açılarkən qeyd olunur ki, "ağlın dərinliyi məsələlərin mahiyyətini dürüst dərk etməkdə, hər bir hadisəni törədən səbəbləri müəyyənləşdirməkdə,

problemi hərtərəfli anlamaqda, hadisələrin nəticəsini qabaqcadan düzgün müəyyənləşdirməkdə ifadə olunur". Belə adamlar el arasında "dərin ağıllı adamlar" kimi qiymətləndirilir, kamil insanlar kimi dəyərləndirirlər.

Ağlın çevikliyi də adı çəkilən dərsliklərdə görkəmli alimlər tərəfindən daha müfəssəl şəkildə aydınlaşdırılır. Orada göstərilir ki, "ağlın çevikliyi də mühüm keyfiyyətlərdəndir. İnsan həyat təcrübəsi boyu müxtəlif məsələlərlə, problemlərlə rastlaşır, onları müxtəlif üsullarla həll edir. Lakin həyatda baş verən hadisələr, qarşıya çıxan məsələlər müxtəlif və rəngarəngdir. Bəzən onlar zahirən bir-birinə oxşasalar da, mahiyyət etibarilə fərqlənirlər. Ona görə də onlara eyni ölçü ilə yanaşmaq, məlum qaydaları tətbiq edib, tapdanmış yolla getmək lazımi nəticəni vermir. Bu halda insanlar məsələnin həll edilməsilə bağlı… yeni yol və vasitələr tapıb həllinə nail olurlar. Bu ağlın çevikliyilə əlaqədardır". Belə adamlar daha hazırcavab olurlar. Verdikləri cavablar qarşısındakıları sarsıdır, ətrafdakıları heyran qoyur. Çünki onun ağlının çevikliyi onu daha ağıllı addım atmağa bir növ təhrik edir. Belə adamlara el arasına "müdrik adamlar" deyilir.

Uşaqların ağlının tənzimlənməsi, tərbiyəsi onların ağıl keyfiyyətlərinin səviyyəsinin yüksəldilməsi kimi başa düşülməlidir.

Ağlın keyfiyyətlərinin səviyyəsinin yüksəldilməsi işinə məqsədyönlü, planlı və mütəşəkkil yanaşıldıqda tərbiyə olunanların ağıl səviyyəsi yüksək olur, onlar:

- ağıl müstəqilliyi cəhətdən inkişaf edir, onlar öz davranış və fəaliyyətlərində müstəqil fikir yürütmək, müstəqil düşünmək və atdıqları müstəqil addımların uğurlu olacağına əminliklə yanaşırlar;
- fərziyyələrinin reallaşmasına tənqidi münasibət bəsləməyi öyrənir, görəcəkləri işi dəfələrlə ölçüb-biçdikdən sonra görməyə cəhd edirlər;
- dərin ağıllı, məsələlərin həllində zərgər dəqiqliyi göstərməyə olan maraq-meyllərini inkişaf etdirirlər;
- hər bir ziddiyyətli situasiyalardan ağlın çevikliyilə çıxmağa cəhd etmək qabiliyyətlərini formalaşdırırlar.

Ağıl tərbiyəsilə bağlı həyata keçirilən işlər bir neçə formada həyata keçirilə bilər və müxtəlif yollarla şagirdlərin ağıl tərbiyəsini formalaşdırmaq olar. Disputlar, gecələr, görüşlər, şagird konfransları, maraq kursları formasında keçirilən tədbirlərdə ağıl tərbiyəsilə bağlı mövzuların seçilməsi çox faydalıdır.

Ağıl tərbiyəsinə həsr olunmuş disputlar. Belə disputlar "Ağıl ağıldan üstündür", "Ağıl olan yerdə zora ehtiyac yoxdur", "Ağıllılar müzakirə olunmur", "Hikmət ağlın məhsuludur", "Ağıldan bəla gəlməz", "Ağıl gözəlliyi", "Nəsrəddin Tusi və ağıl gözəlliyi" mövzusunda keçirilə bilər.

Gecələr. Belə gecələri "Ağıl və sənət gecəsi", "Tusi gecəsi", "Bəhmənyar gecəsi", "Ağıldan pay olmaz mövzusunda gecə" formasında keçirmək olar. Belə gecələrdə ağlın dühası, ağlın insan həyatında rolu ilə bağlı fəzilətləri, N. Tusinin və Bəhmənyarın ağlın əxlaqi, mənəvi və psixoloji tərəfləri ilə bağlı kəlamlarını müzakirə mövzusuna çevirmək olar.

Görüşlər. Orta ümumtəhsil məktəblərində həyata keçirilən ən populyar dərsdənkənar tədbirlərdən hesab olunur. Çünki əmək adamları ilə, incəsənət xadimlərilə, məşhur idmançılarla, alimlərlə təşkil olunan görüşlər hər ildə bir neçə dəfə keçirilir. Bu görüşlərdən bir və ya bir neçəsini də ağıl tərbiyəsinə həsr etmək daha faydalı hesab olunur. Bu görüşlərin içərisində ağıl tərbiyəsilə əlaqədar tədqiqat aparan adamlarla görüşlər daha münasib sayılır. Çünki ümumtəhsil məktəblərində hər şeydən əvvəl ağıl tərbiyəsilə bağlı aparılan işlərin elmi-pedaqoji məzmunu, onun elmi-nəzəri əsasları və praktik mahiyyəti haqqında pedaqoji kollektivin üzvlərinə və şagirdlərə məlumat vermək və onları maraqlandıran sualları cavablandırmaq lazım gəlir.

Keçirilən görüşlərin hər birində də ağıl tərbiyəsilə bağlı fikirlər söyləmək, mühakimələr yürütmək olar.

Görüşlərin içərisində ən münasibi ağıllı hesab olunan adamlarla keçirilən görüşlər daha böyük əhəmiyyət kəsb edir. Belə görüşlər şagirdlər üçün mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, xalq təsərrüfatının ayrı-ayrı sahələrində çalışaraq ad-san qazanan, ailəsinə, doğulduğu yerə, rayonuna və ölkəsinə başucalığı gətirən belə ağıllı adamlar xalq şöhrəti qazanmış adamlar hesab olunur. Belə

adamlarla keçirilən görüşlər şagirdlərin ağıl tərbiyəsini tənzimləməyə kömək edirsə, digər tərəfdən belə örnəklər onları ağıllı adam olmağa istiqamətləndirir.

Şagird konfransları. Ümumtəhsil məktəblərində təşkil olunan şagird konfranslarının əsas mövzularının ağıl tərbiyəsinə həsr edilməsi, aparıcı problemin ağıl tərbiyəsilə əlaqələndirilməsi çox faydalı ola bilər. Bu baxımdan "Ağıl-ağıldan üstündür", "Ağıl ən böyük sərvətdir", "Ağıllı adam kimə deyilir", "Ağıldan pay olmaz", "Ağlın, hünərin, mərifətin varsa, buyur gəl" mövzularında təşkil olunması nəzərdə tutulan şagird konfranslarının elmilik, ardıcıllıq, ideyalılıq, məqsədyönlülük prinsiplərinə uyğun aparılması daha məqsədəuyğun sayılır. Birinci ona görə ki, şagirdlər seçdikləri mövzuları müəllimlərin və ya tədqiqatçı alimlərin rəhbərliyi altında hazırlamaqla tədqiqatçılıq qabiliyyətlərinə yiyələnirlər. İkincisi, onlar ağıl tərbiyəsilə bağlı axtarışlar aparan zaman bir sıra mənbələrlə tanış olmaqla zəngin elmi dünyagörüşü əldə edirlər. Üçüncüsü, ağıl tərbiyəsilə bağlı tədqiqat apararaq məktəb tribunasından elmi-tədqiqat materialını təqdim edən şagirdlər çoxsaylı şagird ordusunun bu problemə olan maraq dairəsinin genişlənməsinə rəvac vermiş olurlar.

**ƏDƏBİYYAT**

1 .N. Kazımov. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002.
2. F. Sadiqov, O. Həsənli. Tərbiyəşünaslıq. Bakı: Elm və Təhsil, 2015.

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Ramiz Əliyev,**
*psixologiya üzrə elmlər doktoru, professor*
*ADPU*
E-mail: aliyev@artpi.edu.az_ramiz

***Açar sözlər:*** *təhsil, psixoloji-pedaqoji elmlər, ali məktəb, davranış, fəaliyyət*
***Ключевые слова:*** *образование, психолого-педагогические науки, высшая школа, поведение, деятельность.*
***Key words:*** *education, psychological-pedagogical sciences, higher school, behavior, activity*

Müasir dövrdə cəmiyyət həyatında gedən proseslər, baş verən surətli yeniləşmə həyat və fəaliyyətin bütün sahələrinə, insanların psixikasına, düşüncə və davranış tərzinə, qarşılıqlı münasibət və ünsiyyətinə ciddi şəkildə təsir etməkdədir.

Bir tərəfdən millilik, adət-ənənələr, stereotiplər digər tərəfdən də qloballaşma, transformasiya cəmiyyət həyatında özünə yer tutmağa başladı. Problemin başqa bir cəhəti elmin, texnikanın, kompüter texnologiyasının, internet şəbəkələrinin, televiziyanın təsiri ilə bağlıdır.

Amerika psixoloqu S. Xarrisin maraqlı bir fikri var: "Qorxulu orası deyil ki, vaxt gələcək, kompüter insan kimi fikirləşəcək. Qorxulu olan odur ki, vaxt gələcək insanlar kompüter kimi düşünəcək".

Doğrudan da kompüterin insanlara, xüsusən yeniyetmə və gənclərin şüuruna, davranışına ciddi təsiri vardır. İndi virtual ünsiyyət az qala canlı ünsiyyəti sıradan çıxarmaq imkanına malikdir. Təbii ki, bu da münasibətlər sisteminə təsir edir. Televiziyanın, internetin təsirilə gənclər az qala real aləmdən uzaq düşmüşlər. Nəticədə onlarda sosial normalara biganəlik, aqressivlik, deviant davranış özünü göstərir. İnternet asılılığı çoxsaylı saytlardan istifadəyə səbəb olur və bu saytların heç də hamısı xoş niyyətlə yaradılmayıb. Burada pornoqrafiyadan tutmuş insan alverinədək sövq edənləri də var.

Bunların nəticəsi olaraq şəxsiyyətin formalaşmasında yeni istiqamətlər təzahür edir. Nəticədə gənclərdə özünümüdafiə kompleksi yaranır. Bu da yaşlılarla, o cümlədən müəllimlərlə münasibətdə gərginlik formasında meydana çıxır.

İndi şagirdlərin, tələbələrin intellektual inkişafına, daha çox bilik əldə etmələrinə çalışırlar. Bunu valideynlər də istəyir. Təbii, bilik qazanılması, onun bacarığa çevrilməsi vacibdir. Lakin sual meydana çıxır. Bu biliklərin hamısından reallıqda istifadə olunurmu? Əlbəttə yox.

İndi milli mənəvi, əxlaqi dəyərlər başlıca məsələ olmalıdır. Təhsil özü də mədəni – tarixi əsaslara söykənməlidir. Bu heç də yaşlı nəslin sosiomədəni təcrübəsinin, dünyagörüşünün mexaniki şəkildə gənc nəslə ötürülməsi mənasında başa düşülməməlidir. Bunlarla yanaşı dövrün tələblərinə uyğun, fəal, çevik, yaradıcı təfəkkürə malik, rəqabətəqalib şəxsiyyətlər formalaşdırılmalıdır. Bu isə fasiləsiz təhsil sayəsində mümkündür.

İndi insanlarda yeni təfəkkürün formalaşması yaranır. Elm və texnikanın surətli inkişafı, informasiya axını qarşısında sanki insan psixikası özünü itirir. Nəticə olaraq münasibətlər sistemi, motivasiya, tələbat, emosional-iradi sfera dəyişir. Bunların içərisində pozitiv olanlar da var, neqativ olanlar da.

Oksford universitetinin professorundan soruşurlar: "Oksford tələbələri nəyə hazırlayır". Professor cavab verir: "Oksford tələbələrə əsl ingilis centlmeni necə olmalıdırsa, onu öyrədir".

Maraqlıdır, bizim Universitetlər tələbələrə nəyi öyrədir? Məqsəd aydındır. Biz kreativ təfəkkürə, yüksək mədəniyyətə sahib olan, ləyaqətli vətəndaşlar formalaşdırılmaq istəyirik.

Göründüyü kimi, qarşılıqlı münasibətlər hər şey olmasa da, çox şeydir. İpə - sapa yatmayan tələbələr də var. Bununla belə yenə Suxomlinskiyə müraciət edək.

"Pedaqoji fəaliyyət də həkimlik kimi olmalıdır. Həkim xəstənin sağalması üçün son dəqiqəyə qədər mübarizə aparır. Müəllim də belə olmalıdır".

**ƏDƏBİYYAT**

Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКОЕ ПРИМЕНЕНИЕ МЕТОДА СУГГЕСТИИ В ПРАКТИКО-ОРИЕНТИРОВАННОМ ПОДХОДЕ

**Наталья Валентиновна Наумова,**
*кандидат психологических наук*
*Самарская гуманитарная академия, г. Самара, РФ*
**Гумеир Ахмедов,**
*доктор педагогических наук*
*ИПОАР*
E-mail: eduaz@mail.ru

***Ключевые слова:*** *суггестия, суггестология, суггестопедия, сознание, бессознательное, внушение, гипермнезия.*

***Key words:*** *suggestion, suggestologiya, suggestopediya, consciousness, unconsciousness, suggestion, hypermnesia.*

Все возрастающий интерес представителей самых разных направлений философии, психологии, педагогики и социальных наук к изучению проблем суггестии обусловлен тем, что сфера влияния этого феномена занимает все больше места в жизни общества. Несмотря на давность открытия, данная проблема является весьма актуальной и исследуется в широком контексте психолого-педагогического познания и сегодня.

Как говорил профессор А.В. Яблоков: «…чтобы спорить, давайте разберёмся в терминах…» Следует уточнить, что же такое «суггестия» и «суггестивные методы» воздействия на человека.

Суггестия (от латинского Suggestio – подставлять, нашептывать, внушать) – психическое внушение, изменение процессов мышления, чувствования и реакций, большей частью не замечаемое тем, кто подвергается внушению со стороны (чужая суггестия) или со стороны самого себя (аутосуггестия, самовнушение) [2, 57]. Суггестия, осуществляемая внушающим в присутствии внушаемого, называется гипнозом, при котором внушается или гипнотический сон, или состояние бодрствования.

Сферу бессознательного можно рассматривать как источник «резервных возможностей психики человека». Именно для использования этих резервов личности и используются суггестивные методы воздействия на человека.

Суггестология – это одно из научных направлений, теоретические и экспериментальные положения которого формируют суггестивную часть суггестивной психологии и педагогики. С каждым годом увеличивается накопленный практический и теоретический объем знаний и исследований в этой области [1, 14].

Методы суггестии часто применяют в психологии и педагогике как эффективный способ воздействия на психику человека в обход его психологических защит и комплексов [5].

Суггестивная психотерапия – объединяет группу методов, в основе которых в качестве ведущего коррекционного фактора выступает внушение или самовнушение. Внушение – это подача информации, воспринимаемой без критической оценки и оказывающей влияние на течение нервно-психических и соматических процессов [4, 76].

В литературе распространено мнение, что вся наша жизнь основана на внушении и его различных способах. Внушение содержится в любом общении людей. Всякая речь – это уже внушение, действенное или нет в зависимости от таланта и умения говорящего и готовности слушающего поверить, от активности и достаточности ума. Внушением можно назвать всякое информационное воздействие на личность помимо сознательного контроля разума.

Суггестопедия – это применение суггестивных методов в педагогике. Основы суггестопедии заложены ещё в трудах таких великих учёных как В.Н. Мясищев, Д.Н. Узнадзе, Б.Д. Парыгин [2, 112].

Впервые научно обосновал и практически проработал суггестопедию, как метод интенсивного обучения, болгарский ученый Георгий Лозанов.

Изучая возможности использования гипноза и внушения в педагогическом процессе, особенно обучении иностранным языкам, Георгий Лозанов открыл феномен гипермнезии, т.е. сверхзапоминания информации, которая вводится на начальной фазе гипнотического сна. Это явление стало основой его авторского метода [3, 106].

Кроме того, формулы внушения направлены на активизацию творчества учащихся, на их активность в получении знаний. А проведение занятий в положительном психоэмоциональном состоянии способствует быстрому усвоению информации. Следует сказать, что в Болгарии была подготовлена целая плеяда преподавателей и воспитателей, использующих метод Георгия Лозанова, которые работали в нескольких экспериментальных гимназиях, доказавшие миру эффективность данного метода, особенно в области изучения иностранных языков.

**ЛИТЕРАТУРА**

1. Гальскова, Н.Д. Современная методика обучения иностранным языкам: Пособие для учителя. М.: АРКТИ, 2003.
2. Краткий психологический словарь / Сост. Л.А. Карпенко. Под общ. ред. А.В. Петровского, М.Г. Ярошевского. М.: Политиздат, 1985.
3. Лозанов Г. Суггестология. М., 1971.
4. Новый словарь методических терминов и понятий (теория и практика обучения языкам) / Под ред. Э.Г. Азимова, А.Н. Щукина. М.: ИКАР. 2009.
5. Əhmədov H.H. Pedaqogika: Dərslik. Bakı: Təhsil NPM, 2013 .

# ORTAOKUL ÖĞRENCİLERİNDE SALDIRGANLIK VE ŞİDDET EĞİLİMLERİNİN ARAŞTIRILMASI

**Davut İbrahimoğlu,**
*Yard.doç.dr.*
*Istanbul esenyurt üniversitesi öğretim üyesi*
*Türkiye*
E-mail:davuti@hotmail.com

***Anahtar Kelimeler:*** *saldırganlık, şiddet, ortaokul, öğrenci*
***Ключевые слова:*** *нападение, агрессия,средняя школа, учащиеся*

Saldırganlığın ne demek olduğunu herkes bildiğini zannetse de birçok bilim adamı saldırganlığa farklı tanımlar getirir. En sade şekliyle saldırganlık " başkalarını incitmeyi amaçlayan (niyet) her türlü davranış" (Freedman, Sears ve Carlsmith, 1989:191;aktaran: Yavuzer ve Üre, 2010, 24)olarak tanımlanır. Bu tanımda üzerinde ısrarla durulması gereken kelime niyettir. Çünkü zarar verme ya da incitme davranışı, saldırganlığı tarif etmede açıkça yetersiz kalmaktadır. Hastasına uyuşturucu iğnesi yapan bir dişçi, iğneyle hastasına acı vermesine rağmen, hastaların tamamı sağlığına kavuşacağını düşünerek bu saldırıya seve seve katlanır.

Eylemin saldırı niyetli yapılması da sorunu çok fazla çözmemektedir. Bu kez de "Kişinin niyetini nasıl bilebiliriz?" sorusu karşımıza çıkmaktadır. Çünkü niyeti, direkt olarak gözlemleyemeyiz, sadece tahmin edebiliriz. Her ne kadar niyet kavramı ile ilgili tartışmalar olsa da, bugün pek çok sosyal psikolog saldırganlığı tanımlamada niyet kavramını vazgeçilmez olarak görmektedir. Bu durumda, birbirine benzer olsa da birkaç saldırganlık tanımı vermek yararlı olabilir. Freud'a göre saldırganlık, insanın kendine yönelik olan yıkıcı eğilimlerinin dış dünyadaki nesnelere çevrilmesidir (Geçtan, 1992; Can, 2002;aktaran:Bacıoğlu ve Özdemir, 2012, 170).

Adler, saldırganlığı, kendi ihtiyaçlarını karşılama isteğinden kaynaklanan ve engellenmeler sonucu başvurulan bir dürtü olarak ele almaktadır. (Gümüş,2000;aktaran:Bacıoğlu ve Özdemir,2012,s.170). Fromm, insanlarda ve hayvanlarda kalıtımsal olarak programlanmış saldırganlığı, biyolojik bir tepki olarak nitelendirmiştir. Saldırganlık tehdide karşı bir tepki biçimi değildir. Varoluşun tehlikeye düşmesi durumunda başvurulan bir tepkidir (Fromm, 1993). Lorenz'e göre saldırganlık, toplumsal sistemin başlıca düzenleyicilerinden biridir ve türün doğasında vardır.Bandura'yagöre saldırgan davranışlar, bireyin çevresinde gözlemlediği olay ve davranışları taklit ederek model alması ile kazanılmaktadır. Psikiyatride saldırganlık, bozukluk olarak tanımlanmaktadır. (Can, 2002;aktaran:Bacıoğlu ve Özdemir, 2012, 170). Freedman, Sears ve Carlsmith (1989), saldırganlığın en yalın tanımının kişinin niyeti dikkate alındığında, "başkalarını incitmeyi amaçlayan her türlü davranış" olarak tanımlamaktadır. Riches (1986), saldırganlığın insanın sosyal çevresini değiştirmek için kullandığı bir araç olduğunu vurgulamaktadır. Kişinin, kaygı ve korku gibi, hoş olmayan bir durumda verdiği ilk tepkilerden biri öfkelenmektir. Saldırganlık ise, genel olarak öfkenin doğrudan ifadesi olarak ortaya çıkmaktadır (Köknel,1995;aktaran:Bacıoğlu ve Özdemir, 2012, 170).

Şiddetin ne olduğu konusunda da farklı tanımlar yapılmış olmakla birlikte belki de en kapsamlı tanımı *Dünya Sağlık Örgütü* yapmıştır. Bu tanıma göre şiddet; fiziksel ya da psikolojik gücün bireyin kendisine, başka birine, bir gruba ya da topluluğa karşı yöneltilen, yaralama, ölüm, psikolojik zarar, gelişim bozukluğu ya da yoksun bırakmaya yol açma olasılığı büyük olan eylemlerin bilinçli olarak gerçekleştirilmesi ya da bu eylemlerde bulunmakla tehdit edilmesidir.(WHO, 2011, aktaran: Pişkin,Öğülmüş, Boysan, 2011, 5)

Öğrenci şiddeti, okulda öğrenciler arasında yaşanan ve öğrencilerin fiziksel, sözel ve cinsel olarak zarar görmesi, dışlanması, aleyhlerine iftira atılması, eşyalarına zarar verilmesi gibi farklı çeşitleri olan her türlü yıkıcı ve bozucu faaliyetlerdir. Bu eylemlerin bir ucunda bir öğrenciyi küçük düşürüp aşağılama gibi görece masum sayılabilecek eylemler, diğer ucunda ölümle sonuçlanabilecek eylemler yer alabilmektedir.

Yukarıda verilen saldırganlık ve şiddet tanımlarından da anlaşılacağı gibi, zarar verme veya incitme ya fiziksel ya da psikolojik olabilir. Bu noktada saldırganlık ile şiddeti birbirinden ayırmak

gereklidir.Olweus (1999) şiddeti, "bir kimsenin fiziksel ya da bir nesne kullanarak diğer bireyi göreceli olarak ciddi sayılabilecek biçimde yaralaması ya da zarar vermesi" olarak tanımlamaktadır. Görüldüğü gibi şiddet bir saldırganlık biçimidir. Saldırganlık, içine hem şiddeti hem de zorbaca eylemleri alan bir şemsiye kavram niteliğindedir (Akt. Pişkin, 2002) "Şiddet, kasti olarak yapılan ciddi fiziksel incitme eylemleridir (Feldman, 1998; 297)". Saldırganlık ise aktif, fiziksel bir şiddet olabileceği gibi pasif, sözel ya da başka bir biçimde de ortaya çıkabilir. Örneğin, sevmediği bir memurun terfi kararnamesini geciktiren bir yönetici ya da sınıf içindeki tartışmalarda herhangi bir öğrenciyi sürekli önemsememe tavrı gösteren bir öğretmen saldırgan davranış göstermektedir. Bunlar pasif saldırganlık örnekleridir. "Pasif saldırganlık, hiçbir faaliyet yapılmamasına rağmen, karşıdakine zarar vermeyi amaçlayan faaliyetsizlik" olarak tanımlanmaktadır (Bilgin, 2000; 276).

**KAYNAKÇA**

1.Bilgin, N.(2000), Sosyal Psikolojiye Giriş, *Ege Üniversitesi Edebiyat Fakültesi Yayınları*:48, İzmir
Donat Bacıoğlu,S; Özdemir,Y. (2012).

2. İlköğretimÖğrencilerininSaldırganDavranışları ile Yaş, Cinsiyet, Başarı Durumu ve Öfke Arasındaki İlişkiler. *Eğitim Bilimleri Araştırmaları Dergisi, 2* (2), 170-171.

3. Freedman, J. C.,Sears, D. O., Smith, C. M., Sosyal Psikoloji, İmge Kitabevi,
(2. Baskı) (Çev.: A. Dönmezer),Ankara, 1993.

4. Pişkin, M;Öğülmüş, S;Boysan,M.(2011).Okullarda Daha Güvenli Ortam Oluşturmak Bizim Elimizde. *Ankara Üniversitesi 180K305 Numaralı Proje.*

5. Üre,Ö; Yavuzer, Y. (2010).Saldırganlığı Önlemeye Yönelik Psiko-Eğitim Proğramının Lise Öğrencilerindeki Saldırganlığı Azaltmaya Etkisi. *Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 23-24.*

6. Taylor,S; Peplau, A; Sears, D. (2003). *Sosyal Psikoloji* (3. Baskı). Ankara: İmge Yayınevi.

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКОЕ ПРОГНОЗИРОВАНИЕ РАЗВИТИЯ ТЕХНИЧЕСКИХ СПОСОБНОСТЕЙ ШКОЛЬНИКОВ

**Елена Ефимовна Мерзон,**
*кандидат педагогических наук, доцент кафедры педагогики,*
*Елабужский институт Казанского (Приволжского) федерального университета,*
E-mail: Elena.Merzon@kpfu.ru

***Ключевые слова:*** *одаренность, технические способности, профессиональное самосознание*
***Key words:*** *talent, technical ability, professional consciousness*

В контексте рассматриваемой проблемы важно проследить логику проявления технических предпочтений школьника, затем – начало формирования и развития технических способностей, далее – прогнозирование возможностей их развития до уровня одаренности. Старшеклассника психологически можно понять. Если потенциально найти работу по техническим способностям не вполне реально, то зачем напрягаться и изучать сложные технические дисциплины? Тем более что возможна такая ситуация, когда человек с проявленной технической одаренностью, работающий на производстве, может оказаться не у дел, если производство сокращают или вообще закрывают. Зачем рисковать? Таким вопросом задаются сами учащиеся и их родители. Это создает педагогические трудности при выявлении предрасположенности учащегося к технологическим видам деятельности, наверно, диалектически такая ситуация в профессиональной ориентации объяснима. Обучение технически ориентированного школьника поставлено в достаточно жесткие временные рамки, что требует целенаправленных, интенсивных психологических, физиологических диагностик и личностно-ориентированных технологий обучения, необходимых как для получения технических знаний, так и для формирования профессионально значимых качеств. Применительно к системе выявления технически способных школьников необходима мониторинговая технология диагностики развития способностей и формирования профессионального самосознания.

Высокотехнологичное производство, предъявляя особые требования к потенциальному специалисту, обуславливает поиск новых дидактических подходов к решению разного уровня

сложности технических задач, что возможно только при усвоении системы естественно-математических и технических знаний. Это говорит о том, что специалист технического труда характеризуется широтой когнитивных процессов в области технологий, универсальных технических алгоритмов, предполагающих вариативный поиск наиболее рационального технического решения, гарантирующего прогнозируемый результат. Это возможно, если совершенствование содержания и методик обучения будет строиться на основе индивидуальных личностных качеств учащихся, осознанных ими самими, потому что когнитивные процессы изучения технических объектов формируют понимание их принципов действия, различного вида допусков, соотношения размеров, жесткости материалов и т.д., а это свойственно не для всех типов интеллекта. Все когнитивные процессы не являются абсолютными и рассматриваются относительно самого типа механизма, при этом в качестве дидактических посылов необходимо учитывать внутренние синергетические когнитивные процессы у учащихся в техническом обучении. То есть учащийся ставится в условия логического поиска способов умственных действий и подбора когнитивных стратегий, что в значительной степени мотивирует человека к техническому саморазвитию.

Любое высокотехнологичное производство формирует специфический умственный стиль деятельности технически способного человека как формально-логическую структуру восприятия технического содержания в конечных логических операциях. Это наиболее адекватно сегодня обеспечивается с помощью имитации реального производства, где будут проявляться технические способности субъекта, способного использовать их в учебно-трудовой деятельности. Удачная техническая, как познавательная, так и практическая деятельность учащегося является мощным мотивом самоактуализации как высшей степени процесса актуализации, и в плане рецепции, и в плане креативности.

Необходимо вспомнить одно из положений дидактики о том, что самоактуализация познавательной деятельности учащегося не наступает спонтанно, сама собой, она выступает как конечный этап многоэтапного процесса актуализации учителем в школе, преподавателем в техническом колледже, именно в этом и заключается педагогический процесс развития технических способностей человека.

Этапы процесса актуализации технически направленных действий учащихся в профильном обучении выступают и этапами продвижения в развитии их технических способностей, что позволяет эффективно использовать схему виртуально ситуационной актуализации от элементарно простых технических приемов до актуализации опорных технических знаний и приемов практической деятельности.

Здесь процесс усвоения учащимися технического учебного материала конструируется по возрастающей: от простого к сложному. Этапы продвижения в усвоении технических знаний учащимися подлежат адекватной положительной оценке каждого более сложного шага. В качестве примера можно привести модуль конструктивных задач, используемый на инженерно-технологическом факультете Елабужского института Казанского (Приволжского)федерального университета, где сборка простых механизмов с усвоением технических терминов, понятий, законов проходит до изобретения, на основе того же конструктора, более сложных дистанционно управляемых моделей.

Основой технического обучения является развивающее проектирование, моделирование технических ситуаций, их анализ. Условия, создающие среду, где могут раскрываться еще только в зачаточном виде проявляющиеся технические способности или уже проявленные, готовые к активной технической деятельности, возможны при достаточной дидактической проработке, в такой среде важна и гуманитарная составляющая, которая заключается в лично обучаемой информационной грамотности, переходящей в информационно техническую культуру. Методологически это можно объяснить тем, что формирование технической культуры происходит в условиях синергии, когда информационная среда проявляется как открытая,

саморазвивающаяся система, стремящаяся к расширению, привлекающая к себе эффективностью и оптимальностью разрешения технических ситуаций.

В то же время она позволяет системно диагностировать развитие технических способностей учащихся, мотивировать их стремления к той или другой технической направленности, моделировать его продвижение к осознанию своего профессионального призвания.

Траектория развития технических способностей учащегося может иметь графическое отображение. Такой график можно построить на основе диагностики, которая находится в прямой зависимости от объективно получаемых в процессе исследования результатов и процедур их интерпретации, что, в свою очередь, связано с тестами, прошедшими проверку на валидность. В данном случае важна содержательная валидность, смысл которой заключается в соответствии вопросов и практических заданий тем параметрам, на определение которых они направлены. Содержательно валидными можно считать такие вопросы и практические задания, ответы и выполнение которых характеризуют отношения и возможности учащихся в понимании и выполнении конкретных технических заданий.




**Карта развития ТСУ**

**ТСУ - технические способности учащихся**
**Х - направление развития технических способностей**
**У - этапы и уровни развития ТСУ**
**НСШ - неполная средняя школа**
**ДО - дополнительное образование**
**ТК - технический колледж**
**УП - уровень проявления ТСУ**
**УУП - уровень уверенного проявления ТСУ**
**УАР - уровень активного развития ТСУ**
**УПИ - уровень профессионального использования ТСУ**

Рис.1. Модель развития технических способностей учащихся.

Вопросы анкеты могут быть составлены преподавателем технологии или руководителем технического труда достаточно произвольно в зависимости от конкретных условий. Их не должно быть много, не более десяти. Например, такие:

1. Любишь ли ты искать в интернете объяснение тех или других технических устройств?

2. Интересуешься ли ты инструментами различного назначения и выяснением возможностей их использования?

3. Нравится ли тебе решать задачи по таким разделам физики, как механика, электричество?

4. Увлекаешься ли ты с детства собирать ЛЕГО, конструкторы?
5. Участвовал ли ты в олимпиадах по физике?

В качестве практического задания может быть предложено разного уровня сложности исполнение каких-либо моделей. Вопросы и практические технические задания выступают как величина постоянная. В качестве переменной должны быть ответы учащегося и результаты исполнения практического задания.

Факторами, влияющими на изменение отношения учащегося к технической деятельности и проявление ими технических способностей при выполнении практического задания, могут быть: система профильного обучения, внешкольная техническая деятельность, посещение профессиональных учебных заведений и т.д.

Диагностика развития технических способностей учащихся даст информацию о технических предпочтениях учащихся и позволит более конкретно рекомендовать им то или другое технологическое направление обучения.

**ЛИТЕРАТУРА**


1. Каташев В.Г. Профессиональное самосознание учащихся. Дидактический аспект. Издательство Казанского университета. 1994.
2. Каташев В.Г., Ульрих О.К. Построение оптимальной траектории формирования профессиональных компетенций у студентов радиотехнического вуза. Научный журнал «Образование и самообразование» №2, 2013. С. 85-92.
3. Мерзон Е.Е. Проектирование содержания профессиональной подготовки человека для реального сектора экономики. Научный журнал «Человек и образование» № 3, 2013, с. 87-92.
4. Мерзон Е.Е., Захаров А.М., Каташев В.Г. Векторы модели подготовки современного специалиста технического труда. Научный журнал «Вестник Чувашского государственного педагогического университета имени И.Я. Яковлева» № 1, 2014, с.143-150.


## PSİXODİAQNOSTİKA VƏ MƏKTƏB PSİXOLOQUNUN FƏALİYYƏTİNDƏ ONUN YERİ


**Gültac Əliyeva,**
*psixologiya.üzrə fəlsəfə doktoru, professor*
*Naxçıvan Dövlət Universiteti*



***Açar sözlər:*** *məktəb psixoloqu, psixoloji testlər, psixoloji metodika, monitorinq, yaradıcı qabiliyyət*
***Ключевые слова:*** *школьный психолог, психологические тесты, психологическая методика, мониторинг, творческая способность*
***Key words:*** *school psychologist, psychological tests, psychological methots, monitoring, creative ability*


Azərbaycanda məktəb psixoloqları öz fəaliyyətlərində müxtəlif testlərdən istifadə edir, hətta ona bir alüdəçilik göstərirlər. Amma bir çox məqamlarda onların hansı testdən, hansı məqamlarda istifadə etməyi qarışdırırlar. Başqa şözlə, bir-iki testdən istifadə etməklə özlərinin "qəti mövqelərini" bildirirlər. Və hesab edirlər ki, onların bu mülahizələri elmi əsaslara söykənir, həqiqəti əks etdirir. Lakin bu zaman unudurlar ki, yalnız bir metodla (özü də insan haqqında) qəti fikir söyləmək nəinki mümkün deyil, həm də zərərli ola bilər.

Məhz məsələnin bu cəhətinə diqqət yetirən məşhur Ç. Ayzenk yazırdı: «Xəstəliyin müalicəsində yalnız termometrdən istifadə etməyi bacaran təcrübəçi həkimlə testlərdən ibarət kitabı oxuyub, yalnız ondan istifadə etməklə özünü peşəkar psixoloq hesab edən şəxsin heç bir fərqi yoxdur".

Psixoloqların istifadə etdiyi istənilən test ölçü vasitəsidir. Təbabətdə termometrdən hararətin ölçülməsində istifadə olunur. Lakin heç bir həkim yalnız hərarəti ölçməklə xəstəyə diaqnoz qoymur. Çünki hərarətin olması xəstəliyin yalnız bir əlamətidir və ona əsasən diaqnoz qoyub, müalicə aparmaq kəskin fəsadlar törədə bilər. Əlbəttə, belədə heç də istiliyi ölçən, həm də dəqiq göstərən termometri günahlandırmaq düzgün olmazdı. Hələ üstəlik heç bir həkim xəstənin hərarətini deyək ki, xətkeşlə

ölçməz. Lakin bir çox hallarda praktik psixoloqlar intellektual imkanlarının səviyyəsini müəyyənləşdirməklə şəxsiyyətin gələcək intellektual inkişafı barədə qəti hökm verməkdən çəkinmirlər.

Başqa sözlə, «hərarəti xətkeşlə ölçməyə» girişirlər. Bir çox hallarda verbal ünsiyyəti öyrənmək üçün istifadə edilən "yaradıcı qabiliyyəti»,«məktəbə psixoloji hazırlığı müəyyənləşdirirlər" .

İntellektin ölçülməsi üçün istifadə edilən testlər ***unipolyar*** – xətti xassəyə malikdir, yəni intellektual səviyyəsi aşağıdır, normadadır və ya yüksəkdir nəticələrini almağa xidmət edir.

Məlumdur ki, istənilən psixi xassə çoxölçülüdür və çox saylı amillərdən asılıdır. Məsələn, psixoloqların intellekt səviyyəsini müəyyən etmək üçün daha çox müraciət etdikləri ***Veksler*** metodikası ilə alınan intellektin aşağı səviyyəsinin səbəbləri sosiallaşmanın aşağı səviyyəsi, motivasiyanın qeyri-qənaətbəxş olması, yüksək həyəcanlılıq və s. səbəbindən ola bilər ki, onların hər biri və onların birgə təsiri araşdırılmalıdır. Yəni bir yox, bir neçə metodikadan istifadə etməklə, müxtəlif vəziyyətlərdə, həm də dövrü olaraq istifadə etməklə müəyyən qənaətə gəlmək mümkün olar.

Etiraz edib deyə bilərlər ki, I sinfə qəbula gətirilən uşaq haqqında fikir söyləmək üçün vaxt, imkan məhduddur. Başqa yol yoxdur. Əlbəttə, zahirən burada müəyyən həqiqət görüntüsü yetərincədir. Amma əslində belə deyil. Bəs, qısa müddətdə, bir-iki testlə uşağın «yararsızlığı» barədə hökm çıxarmaq nə dərəcədə düzgündür? İkincisi, məktəb psixoloqu I sinifdə dərs deyəcək müəllimlərlə birlikdə hələ may-iyun aylarından öz gələcək şagirdləri ilə tanış olmalı, onların həyat tərzi, maraqları, motivləri, ustanovkası və s. ilə yaxından tanış olmalıdır. Şagirdin real intellektual imkanları psixi inkişaf prosesində təzahür edir, «yaxın inkişaf zonası» (L.S. Vıqotski) ilə birbaşa bağlıdır. Bütün bunlar isə fəal təlim prosesində reallaşır. ABŞ da bu testlərdən çox geniş şəkildə istifadə olunur. Lakin onu da qeyd etmək istərdik ki, orada çoxsaylı testlərdən, həm də dəfələrlə yoxlamaqla, fənn müəllimlərilə, valideynlər dəfələrlə məsləhətləşmələr apardıqdan sonra müəyyən fikir söylənilir, diaqnoz qoyulur.Əslində elə belə də olmalıdır. İstənilən psixoloji metodika, o cümlədən psixometriya konkret bir şəxsin m o n i t o r i n q müddətində, başqa sözlə, psixoloji araşdırmalar aparıldığı dövrdə kompleks, uzunmüddətli, çoxsahəli tədqiqinin nəticəsində meydana çıxmalıdır.

**ƏDƏBİYYAT**


1. G. Əliyeva. Şəxsiyyətin formalaşmasının psixoloji problemləri. Bakı: Elm və təhsil, 2010.
2. F. Sadiqov,O.Həsənli.Tərbiyəşünaslıq. Bakı: Elm və təhsil, 2015.


## İSTEDADLI UŞAQLARIN TƏHSİLİNİN PSİXOLOJİ-PEDAQOJİ PROBLEMLƏRİ


**Elxan Bəylərov,**
*psixologiya üzrə elmlər doktoru*
*ARTPİ*
E- mail: el_4444@mail.ru



***Açar sözlər:*** *təlim, təfəkkür, istedad, yaradıcılıq mühiti, inkişaf, intellet*
***Ключевые слова:*** *обучение, мышление, талант, творческая среда, развитие, интеллект*
***Key words:*** *learning, thinking, talent, creativity, environment, development, intellect*


Təlimin uğurunu şərtləndirən əsas amillərdən biri təlim proqramının şagirdlərin intellektual və yaradıcılıq tələbatlarına uyğun olmasıdır. Tədqiqat nəticələrinin təhlili əsasında müəyyən edilmişdir ki, yaradıcı təlim istedadlı uşaqlar üçün çox önəmlidir. Belə ki:

1. Yaradıcı təlim mühiti şagirdlərdə yüksək yaradıcılıq, təfəkkür müstəqilliyi, məqsədə çatmaqda əzmkarlıq və s. keyfiyyətlər formalaşdırır.
2. Yaradıcılıq ən müxtəlif sahələrə aid olan istedadlı uşaqların mühüm, təməl və ən ümumi keyfiyyətidir.
3. İstedadlı uşaqlarda yüksək intellektual inkişaf hələ onun yüksək kreativliyinə təminat vermir.

4. Yaradıcı təlim mühiti yüksək intellektual və yaradıcılıq potensialına malik uşaqların təlim proqramlarının səmərəli zənginləşdirilməsi və onların müstəqil şəkildə tədqiqat aparmaları üçün geniş imkanlar yaradır.

5. İstedadlı uşaqlar ümumi proqramlarda nəzərdə tutulan bilik, bacarıq və vərdişləri tez mənimsəyir və yaradıcı təlimlə məşğul olmağa xeyli vaxtları qalır.

Tədqiqatda yaradıcılıq prosesinin beş mərhələsi fərqləndirilir: faktların tapılması; problemin aşkarlanması; həll ideyasının axtarışı; həllin tapılması və tətbiqi; həllin yoxlanılması və qəbulu. Bu mərhələlər təfəkkür aktının tam dövrünü, başqa sözlə, produktiv təfəkkürün tam dövrü strukturunu əks etdirir.

Tədqiqatçılıq və ya problem həllinə əsaslanan təlim gerçəkliyin kəşfi və dərk edilməsinə yönəlmiş təbii təfəkkür prosesi ilə eyniyyət təşkil etdiyindən "yaradıcı təlim"in əsasını təşkil edir. Bu zaman təfəkkür aktı dövrünün tam strukturu, sualın yaranmasından və problemin formalaşdırılmasından başlamış, tapılan həllin isbatı və ya əsaslandırılmasına qədər, təzahür etmiş olur. Yaradıcı təfəkkür prosesi, təfəkkür aktının tam dövrünü ehtiva etməklə, reproduktiv təfəkkür proseslərindən fərqlənir. Reproduktiv təfəkkür prosesində çox zaman tam təfəkkür dövrünün birinci – problemin yaranması və sonuncu – həllin əsaslandırılması mərhələləri buraxılmış olur. Deməli, təlimin yaradıcılıq prosesinə çevrilməsi üçün problemin qoyuluşu və həllin əsaslandırılması mərhələləri təlim prosesinə daxil edilməlidir.

İstedadlı uşaqların təlim prosesi, təlimin proqram, forma və metodları istedadın növündən asılı olaraq bir sıra tələblərə cavab verməlidir.

İstedadlı uşaqların təliminin təşkilində istedadın növü, təzahür, inkişaf və s. müxtəlifliklərini nəzərə alınmalıdır.

Təlim uşaqların anadangəlmə və təbii keyfiyyətlərinin inkişafına istiqamətlənməlidir. Təhsilin məzmununun formalaşmasında mərkəzi mövqedə müxtəlif plan, proqram və məqsədlərlə təhsil məmurları, mütəxəssislər, müəllimlər, valideynlər və s. deyil, özünəməxsus maraqları, tələbatları və imkanları olan uşaqlar dayanmalıdır. Nəyin və necə öyrədilməsi məhz bu kontekstdə həll edilməlidir.

İstedadlı uşaqların təlimin ümumi prinsiplərini belə müəyyən etmək olar:

- İnkişafetdirici və tərbiyəedici təlim prinsipi - bu prinsip onu ifadə edir ki, təlimin məqsəd, məzmun və metodları yalnız bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə deyil, həm də idraki inkişafa və şagirdlərin şəxsiyyət keyfiyyətlərinin inkişafına onlarda zəruri dəyərlərin formalaşmasına xidmət etməlidir.
- Təlimin fərdiləşdirilməsi və fərqliləşdirilməsi prinsipi - bu prinsip onu ifadə edir ki, təlim prosesi, onun məqsəd və məzmunu şagirdlərin fərdi və tipoloji xüsusiyyətlərini daha dolğun nəzərə almalıdır.

İU (istedadlı uşaqlar)-ların diferensiallaşmış təlimi üçün 7 prinsip müəyyən edilmişdir:

1. İ. U-lar üçün tədris proqramının məzmunu vacib problem, ideya və mövzuların kompleks halda, uzunmüddətli və dərindən öyrənilməsini nəzərdə tutmalıdır.

2. İU-lar üçün təhsil proqramı produktiv təfəkkürün inkişafına və onun praktik tətbiq vərdişlərinin qazanılmasına yönəlmişdir.

3. Tədris proqramları İU-lara daima dəyişməkdə, inkişaf etməkdə və artmaqda olan yeni informasiyaları tədqiq etmək imkanı və bacarığı verməlidir.

4. İU-lar üçün tədris proqramı müxtəlif bilik, informasiya və resurs mənbələrinin olmasını və uşaqların onlardan müstəqil istifadəsini nəzərdə tutmalıdır.

5. Tədris prosesində İU-ların özünüidarə imkanları inkişaf etdirilməli, fəaliyyətlərində təşəbbüskarlıq və müstəqillik rəğbətləndirilməlidir.

6. Tədris proqramı uşaqlarda mənlik şüurunun, özünüdərkin inkişafına, başqa insanlarla, təbiətlə, digər mədəniyyətlərlə və s. ilə əlaqələrin mahiyyətini anlamağa yardım etməlidir.

7. İU-lar üçün tədris proqramlarında əsas diqqət uşaqların mürəkkəb təfəkkür proseslərinə, onların yaradıcılıq bacarıqlarına və yüksək icraçılıq məharətlərinə yönəlməlidir.

**ƏDƏBİYYAT**

1. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Pedaqoji məsələlər: esselər etüdlər. Bakı: ADPU, 2005.
2. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. İstedadın işçi konsepsiyası. Bakı: "Təhsil", 2008.
3. Матюшкин А.М. Одаренность, творческость, развитие // Одаренность и одаренные дети: обучение и развитие. Астана: Дарын, 2006.

# ПОЛОВАЯ ДИФФЕРЕНЦИАЦИЯ ДОШКОЛЬНИКОВ

**Акиф Гулиев,**
*доктор философии по психологии, доцент*
*Азербайджанского университета языков*
**Эльмира Юзбашева**
*Бакинский славянский университет*
E-mail: renka-84@mail.ru

***Açar sözlər:*** *gender şəxsiyyəti, gender idealı, cinsi rollar, gender sxemləri, özünüsosiallaşma*
***Ключевые слова:*** *гендерная идентичность, гендерный идеал, половые роли, гендерные схемы, самосоциализация*
***Keywords:*** *gender identity, gender ideal, gender roles, gender schemes, self-socialization*

Различия между мужчинами и женщинами имеют сложный характер. По мнению социологов, существуют 4 компонента половой идентичности: биологический пол, гендерная идентичность, гендерные идеалы и сексуальные роли. Понятие *биологического пола* включает первичные и вторичные физические признаки, характерные для мужчин и женщин: органы размножения, волосяной покров на лице и т.д.

*Гендерная идентичность* связана с нашим представлением о своём поле – *чувствуем* ли мы себя в действительности мужчиной или женщиной. Осознание своего пола не всегда соответствует биологическому полу индивида.

*Гендерные идеалы* воплощают культурные представления о мужском и женском поведении. На многих рекламах сигарет, например, изображён идеал мужчины. Идеал женщины обычно связывали с заботами о доме и детях.

Четвёртым компонентом половой идентичности являются *сексуальные* роли, связанные с разделением труда, правами и обязанностями мужчин и женщин. В настоящее время сексуальные роли и гендерные идеалы изменяются. В обществе обычно предполагается, что четыре компонента полового самосознания находятся в гармоническом единстве. Однако в действительности это предположение не всегда верно. Так, например, биологический пол людей может не соответствовать их половой идентичности. Человек может подвергнуться операции и изменить свой пол. Кроме того, то, как индивид осознаёт свой пол, может не совпадать с общепринятым идеалом. Мужчина может чувствовать себя комфортно как биологическая особь мужского пола, но его могут не устраивать образцы поведения, соответствующие культурным стереотипам. Наконец, права и обязанности индивида (сексуальные роли) могут не соответствовать общепринятым гендерным идеалам общества. Например, в настоящее время женщины работают офицерами полиции, пожарными, служат в армии – все эти сексуальные роли не соответствуют традиционным идеалам. Поскольку каждый из этих компонентов обусловлен различными факторами (биологическими, психологическими, социальными), поэтому они не всегда сочетаются друг с другом. Скажем, гендерная идентичность и идеалы не всегда соответствуют друг другу. Например, гомосексуалистам свойственна гендерная идентичность, но они не испытывают романтического влечения к женщинам, олицетворяющего гендерный идеал мужчины. Подобное поведение характерно и для *трансвеститов* – людей, которые одновременно носят мужскую и женскую одежду – они осознают свой биологический пол, но их поведение не соответствует общепринятым идеалам.

С момента рождения дети начинают осознавать свой пол, поскольку родители сознательно или бессознательно относятся к ним по-разному в зависимости от их пола.

Дошкольный период – это время развития у ребёнка социального поведения наряду с некоторыми социальными понятиями и гендерными схемами. Среди наиболее значимых социальных понятий и нормы, связанные с соответствующим полу поведением. Дети осваивают некоторые аспекты половых ролей, подражая поведению значимых для них людей и получая от них подкрепления за соответствующее полу поведение. Однако дети не перенимают всё подряд:

они обнаруживают избирательность в отношении того, что они повторяют и затем интернализуют. Исследователи полагают, что развивающееся у детей понимание связанных с полом представлений, так называемые *гендерные схемы*, способствуют определению установок и моделей поведения в будущем. Кроме того они закономерно развиваются на протяжении дошкольного периода.

К возрасту 2,5 года большинство детей уже может категорировать других как мальчиков и девочек, мужчин или женщин, а также ответить на вопрос: “Ты девочка или мальчик?” Но, несмотря на то что дети в состоянии разделить человечество на мужскую и женскую половины, они могут не знать, в чём заключаются различия между ними! Например, многие 3-х летние дети уверены в том, что, если надеть на мальчика платье, он становится девочкой. Они могут не понимать, что только мальчики способны стать папами, а девочки – мамами. Но уже к 6-7 годам дети понимают, что их пол устойчив и сохраняется на протяжение всей жизни, несмотря на изменение внешности. Первый уровень понимания, достигаемый в промежутке между 2 и 5 годами, называется *половой идентичностью.* Позже между 5 и 7 годами дети достигают понимания *постоянства пола*, т.е. понимания того, что мальчики непременно становятся мужчинами, а девочки – женщинами, и что пол внештуативен и устойчив во времени.

Многие специалисты в области возрастной психологии полагают, что дети внутренне мотивированы к приобретению ценностей, интересов и моделей поведения, соответствующих их полу. Этот процесс получил название *самосоциализации*.

В целях изучения этого процесса, т.е. как дети могут развивать у себя очень жёсткие и стереотипные представления о том, “что делают мальчики” и “что делают девочки”, мы создавали экспериментальную обстановку 4-х летним детям, предоставляя им возможность поиграть в магазин. Превратившись в продавцов, они предлагали мальчикам купить свирепых медведей, а девочкам – пушистых котят.

Гендерные схемы влияют также на внимание и запоминание детей. Так, в одной серии экспериментов мы предъявляли детям материал для запоминания и некоторые пункты в тестах памяти были специально помечены “для мальчиков”. В другой серии экспериментов детям читали отрывки из произведений, в которых нарушали половые стереотипы (напр., “девочка рубит дрова или мальчик вышивает”). В 1-ой серии экспериментов (в тестах памяти) обнаружилась тенденция лучше запоминать мальчиками пункты, помеченные “для мальчиков”, а девочки – пункты помеченные “для девочек”.

Во второй серии экспериментов дети допускали ошибки в воспроизведении рассказа по памяти, когда в них намеренно нарушались стереотипы. Они могли сказать, что мальчик рубит дерево, в то время как в рассказе это делала девочка. Или “девочка вышивает”, а не мальчик, как встречалось в тексте.

Такие данные свидетельствуют о сильном влиянии развивающихся у детей гендерных схем на их внимание и процессы научения. В этот период эти представления и нормы становятся средствами организации поведения и эмоций ребёнка. При их нарушении дети могут испытывать замешательство, тревогу. Постепенно, попадала в различные жизненные ситуации, дети начинают осознавать, что некоторые образцы поведения вызывают у других уважение или осуждение.

Хотя в некоторых случаях этот процесс отражает стандарты родителей, но не всегда, этим отчасти объясняется тот факт, что иногда гендерная идентичность вырастающих детей не соответствует желаниям или ожиданиям их родителей.

**ЛИТЕРАТУРА**

1. Абраменкова В. В. Половая дифференциация и сексуализация детства: горький вкус запретного плода http://www.portal-slovo.ru/pre_school_education/36713.php

2. Половая дифференциация детей-дошкольников http://adalin.mospsy.ru/l_03_00/l_030165.shtml

# TƏLİM PROSESİNDƏ İNSANLARIN BİR-BİRİLƏRİNİ QAVRAMASININ PSİXOLOJİ MEXANİZMİ

**Validə Əliyeva,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
E-mail: V.aliyeva1@mail.ru

***Açar sözlər:*** *refleksiya, təlim prosesi, sosial - psixoloji, qrup, subyektiv ünsiyyət*
***Ключевые слова****: рефлексия, процесс обучения, социально-психологический, группа, субъективное общение*
***Key words****: reflection, learning, socio-psychological, group, subjective communication*

Məlum olduğu kimi, ünsiyyət prosesində ən azı iki adam iştirak edir. Onlar bir-birilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir və bir-birlərini qavramağa, anlamağa çalışırlar. Bəs onlardan hər biri digərinin zahiri davranış tərzinə görə özündə onun daxili aləmi barədə təsəvvürü necə yaradır? Bu sual daima mütəxəssislərin diqqətini cəlb etmiş və ciddi tədqiqatlar nəticəsində onlar burada qarşılıqlı qavrama və anlamanın üç mühüm mexanizm əsasında baş verdiyini aşkara çıxarmışlar: *eyniləşdirmə, refleksiya və stereotipləşdirmə.*

Eyniləşdirmə – başqa adamın davranışını şüurlu və şüursuz olaraq subyektin özünün davranış tərzlərinə oxşatmaq, bənzətməklə qavraması və anlamasından ibarətdir. Başqa sözlə, çox vaxt insanlar qarşılıqlı əlaqə şəraitində özlərini qavradıqları adamın yerinə qoymağa cəhd göstərməklə onun daxili vəziyyəti, keçirdiyi hisslər, fikirlər, davranış motivləri və s. haqqında mülahizə yürütməyə çalışırlar. Bu zaman həmin adamın (və ya adamların) davranış tərzini bir növ həmin şəraitdə özlərinin keçirə biləcəkləri psixoloji hallarla eyniləşdirirlər. Özlərinin bu kimi şəraitdə keçirmiş olduqları və keçirə biləcəkləri hisslər və vəziyyət onları qavramaq üçün əsas olur.

İnsanın başqalarını qavraması zamanı təkcə subyektin başqalarını anlaması deyil, onunla ünsiyyətə girən, təmasda olan fərdin onu necə qavraması və anlamasına diqqət yetirilməsi də vacibdir. *Subyektin ünsiyyətdə olduğu adamlar tərəfindən necə qavranıldığını dərk etməsi refleksiya formasında baş verir.* Psixoloqlar refleksiyanı başqa adamları qavramanın tərkibinə daxil edirlər. A.B. Petrovskinin fikrincə, başqa adamı anlamaq qismən həmin adamın qavrayış subyekti kimi sənə münasibətini dərk etmək deməkdir. Deməli, insanların bir-birini qavramasını güzgünün ikiqat əks etdirməsinə bənzətmək mümkündür. İnsan başqasını əks etdirməklə, həmin başqasını əks etdirmə güzgüsündə özünü də əks etdirir. Ünsiyyət prosesində eyniləşdirmə və refleksiya vəhdətdə baş verir.

İnsanların bir-birini qavraması və anlamasının mexanizmi kimi *stereotipləşdirmə* də xüsusi əhəmiyyət kəsb edir.

*Stereotipləşdirmə – davranış forması və onun şərhinin artıq bizim üçün məlum olan və ya məlum hesab edilən hadisələrə, başqa sözlə sosial stereotiplərə uyğun təsnifindən ibarətdir.* Burada stereotip bir ştamp kimi istifadə olunan formalaşmış insan surəti götürülür. Stereotipləşdirmə subyektin öz şəxsi təcrübəsini ümumiləşdirməsi və bu zaman kitablardan, kinofilmlərdən aldığı məlumatların ona əlavə edilməsi nəticəsində də yarana bilər. Bu zaman həmin bilik nəinki şübhəli, hətta yanlış xarakter daşıya, düzgün nəticələrlə yanaşı, tamamilə yanlış nəticələrə də gətirib çıxara bilər. Bu baxımdan stereotipləşdirmə *kauzal atribusiyanın* bir növ mexanizmini təşkil edir. Kauzal atribusiya latınca *causa* – səbəb və *attribuo* – vermək sözlərindən əmələ gəlib şəxsiyyətlərarası anlama zamanı digər adamın davranışının səbəb və motivlərinin şərhindən ibarətdir. Burada isə bəzən qabaqcadan yaranmış yanlış fikir stereotipləşməyə əsaslı təsir göstərir.

Kauzal atribusiyanın xarakteri müxtəlif şəraitdən asılı ola bilir. Belə ki, məsələn, tanış olmayan adamı qavrayarkən subyektin aldığı ilkin məlumat böyük rol oynaya bilər.

Gündəlik müşahidələr və aparılmış tədqiqatlar insanların bir – birini qavraması və anlamasında onlar haqqında ilkin təsəvvürün yaranması da xüsusi rol oynadığını göstərmişdir. Bu cür asılılıq psixologiyada «*oreol effekti*» («himayə effekti») adlanır. Əldə edilmiş ilkin məlumatlar qavradığımız

adamlar haqqında bizdə müsbət və ya mənfi oreol effekti yarada bilər. Birinci halda biz qavradığımız adamın bütün davranışına pozitiv, ikincininkinə isə neqativ münasibət bəsləməyə meyilli oluruq.

Məsələn, ilkin müşahidə və ya başqa müəllimin uyğun olmayan məlumatı bizdə çalışqan şagird haqqında mənfi fikir yaradır. Nəticədə bu ilkin təəssüratın təsiri altında həmin şagirdin həqiqi keyfiyyətini qavraya bilmirik. Sanki onun ən yaxşı davranışını da görmək istəmirik. Bizdə həmin şagird haqqında mənfi oreolun yaranması buna səbəb olur.

Əksinə, tənbəl, zəif şagirdlə ilk dəfə rastlaşarkən onun təsadüfi cavabı, başqa müəllimin onun haqqında yersiz tərifləri bizdə həmin şagirdə qarşı müsbət oreolun yaranmasına səbəb olur. Nəticədə şagirdin cavablarındakı qüsurları hiss etməməyə başlayırıq.

Uyğun olmayan həm müsbət, həm də mənfi oreol eyni dərəcədə ziyanlıdır. Ona görə də «oreol effektinin» qarşısını almaq üçün adamları müxtəlif şəraitdə və vəziyyətdə qavramaq tələb olunur. Bu zaman müsbət kauzal atributun yaranması, oreol effektinin mənfi təsirinin aradan qaldırılması mümkün olur.

**ƏDƏBİYYAT**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2012.
2. Əmiraslanova S.F. Ünsiyyətdə maneələr və onların aradan qaldırılması yolları haqqında. 2013.


## MÜASİR KONTEKSTDƏ SOSİALLAŞMANIN AKTUAL PSİXOLOJİ PROBLEMLƏRİ


**Solmaz Həsənli,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ATTPİ*
E-mail: solmazhasanli@hotmail.com



***Açar sözlər**: sosiallaşma, psixoloji problem, müasir kontekst*
***Ключевые слова:** социализация, психологические проблемы, современный контекст*
***Keywords:** socialization, psychological problems, the modern context*


Müasir dövrdə sürətli iqtisadi-sosial dəyişmələr, texnologiyanın və sənayenin inkişafı, bu dəyişmələr və inkişaf nəticəsində insanlar arasında səmimi münasibətin getdikcə azalması, bu münasibətlərin yerini texnoloji vasitələrin alması və bunun nəticəsində də yalnız, özünü sosial mühitdən təcrid edən bir nəslin meydana gəlməsi araşdırılması vacib olan önəmli problemlərdən biridir.

Təbiidir ki, sosiallaşma prosesi ümumi xüsusiyyətlərə sahib olsa da, hər bir cəmiyyətin özünəməxsus xüsusiyyətləri insanların sosiallaşması prosesində bir cəmiyyətdə digərlərinə görə fərqli cəhətlərin üzə çıxmasına səbəb olur. Odur ki, sosiallaşma prosesinin cəmiyyətin milli dəyərləri, həmin cəmiyyətdə qəbul edilən davranış normaları baxımından araşdırılmasına ehtiyac vardır. Eyni zamanda daim göz önündə tutmaq lazımdır ki, durmadan dəyişən dünyada sosiallaşmaya təsir edən amillər, onların xarakter və funksiyaları da daim dəyişməkdədir. Elə buna görə də düşünürük ki, problem hər bir cəmiyyət üçün olduğu qədər, hər bir tarixi dövr üçün də öz aktuallığını saxlayır və bu məsələyə mövcud tarixi proses kontekstində baxmağı zəruri edir. Ümumiyyətlə, bu sahədə aparılan araşdırmaların artmasının önəmli bir səbəbi texnologiyanın inkişafı ilə bağlı olaraq insanlar, mədəniyyətlər və cəmiyyətlər arasında qarşılıqlı təsirin artması nəticəsində dünyanın kiçilməsi, qloballaşma və bunların nəticəsində yeni dünyada yaşayan insanların sosiallaşma problemlərinin çoxalmasıdır. Qloballaşma prosesində insanların fərqli mədəniyyət və sosial dəyərlərlə üz-üzə qalmaları, onların sahibi olduqları mədəni dəyərlərə yabançılaşması və təzadlı bir sosial-psixoloji həyata sürüklənmələri ilə nəticələnir.

Müasir cəmiyyətlərin strukturu sürətli sənayeləşmə, kəndlərdən şəhərlərə köçün artması və s. problemlərlə mürəkkəb bir hal almışdır. Belə bir sosial dinamizm, insanın sahib olduğu cəmiyyətdə özünütəsdiqini çətinləşdirir, nəticədə insan sosial yalnızlığa sürüklənir, sahib olduğu topluma yabançılaşır və sosiallaşma prosesində uğursuzluğa düçar olur. O, cəmiyyət içində yalnız yaşayan insan vəziyyətinə düşərək sosial yalnızlığa sövq edilir. Bu sosial qarışıqlıqda insanın sosial yöndən sağlam bir şəkildə cəmiyyətə uyğunlaşmasını təmin etmək üçün psixoloji xüsusiyyətlərini göz önündə tutmaq gərəklidir ki,

bu da son nəticədə insanın həm psixoloji, həm də sosial doyumunu təmin etmək deməkdir. Sosiallaşma təbii ki, insandan-insana fərqlilik göstərən bir prosesdir.

Bu fərqlilik şübhəsiz ki, hər bir insanın fərdi psixoloji xüsusiyyətlərindən irəli gəlir. İnsanın sosial həyata uyğunlaşmağa başladığı ilk mərhələdən bu fərdi psixoloji fərqlər özünü büruzə verir. Eyni zamanda sosiallaşma prosesi müxtəlif yaş dövrlərində özünəməxsus xüsusiyyətləri və eyni zamanda sosial-psixoloji problemləri ilə özünü göstərir. Bu baxımdan düşünürük ki, hər bir yaş dövrünün bununla bağlı olaraq təməldən araşdırılması, ortaya çıxan sosial-psixoloji problemlər, bu problemlərin yaranma səbəblərinin və həlli yollarının geniş şəkildə təhlil edilərək müəyyənləşdirilməsi çox vacib məsələdir. Sosiallaşmanın bir proses olması və bunun hətta körpəlik yaş dövründən başlayaraq gənclik yaşının sonu və orta yaş dövrünün başlanğıcında uğurlu və ya uğursuz olaraq nəticələnməsini göz önündə tutaraq qeyd edə bilərik ki, bu dövrdə insanın psixoloji bir rəhbərliyə, yardıma və məsləhətə ehtiyacı vardır. Təbii ki, bu prosesdə onun psixoloji xüsusiyyətlərini göz ardı etmək mümkün deyil və düşünürük ki, bir şəxsiyyətin formalaşmasında sosial amillər nə qədər mühüm rol oynayırsa, psixoloji amillər də bir o qədər önəmə sahibdir.

**ƏDƏBİYYAT**


1. Ə. Bayramov, Ə. Əlizadə, Sosial psixologiya. Bakı, 2003.
2. G. Vaughan, M. A. Hogg Sosyal Psikoloji. İstanbul, 2015.
3. J.L. Freedman Sosyal Psikoloji. İstanbul, 1998.


## BİZNESİN ƏSASLARI FƏNNİNDƏ ”BİZNESİN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ” MÖVZUSUNUN TƏDRİSİNƏ DAİR


**Eldəniz Həsənli,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Universiteti*
E-mail:eldeniz.hesenli@ekol.az



***Açar sözlər:*** *biznes, sosial- psixoloji aspekt, kiçik biznes, biznesin təhlükəsizliyi*
***Ключевые слово:*** *бизнес, социально-психологический аспект, малый бизнес, безопасность бизнеса*
***Key words:*** *business, social-psycholgical, aspect, small business, sofety of business*


Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra inzibati amirlik sistemindən yeni bir inzibati sistemə, bazar iqtisadiyyatı sisteminə keçməyə başlamışdır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar aparılan radikal islahatlar əhalinin işgüzar fəaliyyəti üçün geniş imkanlar açmışdır.

Biznes və onun mühüm istiqaməti olan sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatının formalaşması üçün zəruri şərtdir. Biznes əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına və sosial-iqtisadi problemlərin həll edilməsində mühüm rol oynayır.

Biznesdə təzahür edən sosial-psixoloji hallar sahibkarların qarşısında maneəyə də çevrilə , onlara yüksək nəticələr əldə etməkdə kömək də edə bilər.

Bu mövzu tədris edilərkən müəllim sosial-psixoloji amillər altında nələr nəzərdə tutulur?

Sualını cavablandırarkən qeyd etməlidir ki, sosiallıq məfhumu hansısa insanın başqasına və hamıya qarşı hərəkətlərin cəmini nəzərdə tutur. Sosial mövzular insanın ətrafdakılara hər hansı münasibətlərdən, yəni insanlar arasında bilavasitə və ya zaman və məkan baxımından müəyyən məsafədə duran, fikirlərimizdə və yaşantılarımızda canlanan qarşılıqlı fəaliyyətdən bəhs edəndə ortaya çıxır. İnsandan, onun imkanlarından, arzularından, istedadından asılı olan hər şey insan amili anlayışında əks olunur. Bu anlayışın vacibliyi insan amilinin kiçik müəssisədən tutmuş iri şirkət və qurumların idarəetməsində rolunun artması ilə müəyyənləşir.

Müəllim mövzunu şərh edərkən real fəaliyyət göstərən bir təşkilat sosial – psixoloji nöqteyi-nəzərindən nədir? sualına da aydınlıq gətirməli və deməlidir:

1. Burada daim ümumi məqsədlər müəyyənləşdirən, işçi kadrların qarşılarında qoyulan vəzifələri daha səmərəli yerinə yetirmələri üçün toplayan, yerləşdirən, istiqamətləndirən və tərbiyə edən bir qrup

insanı görürük. Bütün bunlar isə bir çox müxtəlif psixoloji problemlər yaradır. Belə ki, işə təsadüfən şəxsləri yox, yalnız peşəkar baxımdan hazırlıqlı, səriştəli, üstəlik müvafiq psixoloji təmayülə malik olan, yəni belə fəaliyyət üçün uyğun psixolojiyə malik, bu işi görmək istəyən və psixoloji baxımdan buna hazır olan, burada birləşmələrə müsbət baxan insanları götürmək lazım gəlir. Təşkilat daxilində insanlar ümumi məqsədlər, yəni daha yüksək nəticələr əldə etmək naminə ümumi dil tapmağı bacarmalıdırlar. Bu təşkilatın idarə edilməsində sosial – psixoloji məsələlərin mühüm tərəfidir.

2. Burada idarəetmənin təkcə obyekti yox, həm də subyekti, yəni menecerlərin özü də nəzərə alınmalıdır. İdarəetmə hərəkətlərinin həyata keçirilməsi psixoloji baxımdan çox mürəkkəbdir. Adətən hər hansı qərarlar təkbaşına deyil, qrup halında, bu və ya digər sosial – psixoloji şərtlər altında, nəticənin məsuliyyətini öz üzərinə götürməklə və ya götürməməklə qəbul edilir.

3. Təşkilatda qarşıya qoyulan vəzifələrə uyğun rejim bərqərar olunmayıbsa, qəbul olunan qərarlar həyata keçirilə bilməz. Həmin rejim təşkilatın fəaliyyətini təmin etmək, içəridən dağılmaqdan qorumaq üçün onun sosial – psixoloji təbiətinə uyğun olmalıdır.

4. Müəssisənin işçiləri heç də şüursuz , menecerin bütün əmrlərinin dinməz – söyləməz yerinə yetirən məxluqlar deyil, müəssisənin fəaliyyətini içəridən tənzimləmək iqtidarında olan müstəqil insanlardır. Onların bu fəaliyyəti biznesin xeyrinə də, əleyhinə də işləyə bilər. Beləliklə, sosial – psixoloji məqamlar nəzərə alınmadığı biznes uğurlu ola bilməz.

İnsan əməyinin lazımınca nəzərə alınması istehsalatda münaqişələrin artmasına, kadr axınına işin dayandırılmasına gətirib çıxara bilər. Digər tərəfdən isə insan amilinin, yəni insanların şəxsi, sosial – psixoloji və psixofizika xüsusiyyətlərinin səmərəli istifadəsi biznesdə xeyli əlavə iqtisadi mənfəətə gətirib çıxara bilər.

Beləliklə, müəllim tədris etdiyi mövzunu yekunlaşdıraraq qeyd etməlidir ki, bazar iqtisadiyyatı şəraitində biznesdə insan amilinin rolunu daha da artırmaq üçün kollektiv və şəxsi təşəbbüslərin stimullaşdırılmasının əhəmiyyəti getdikcə artır. Eyni zamanda bu stimullaşdırma təkcə biznesmenlər tərəfindən deyil, mükafatlar, orden və medallar təsis etməklə dövlət tərəfindən də aparılmalıdır.

**ƏDƏBİYYAT**

1. A. Abbasov Biznesin əsasları, Bakı, 2006.
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008.

## PEDAQOJİ PROSESDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN MODERNLƏŞDİRİLMƏSİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Hüseyn Mirzəyev,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail:huseyn8002@gmail.com

***Açar sözlər:*** *innovasiya, modernləşdirilmə, müəllim-şagird münasibətləri, pedaqoji texnologiyalar, təhsil modeli*

***Ключевые слова:*** *инновации, модернизация, отношения преподаватель-ученик, образовательные технологии, модель образования,*

***Key words:*** *teacher-student relations, pedagogical technologies, innovative, upgrading, the education model*

Pedaqoji prosesdə təhsilin keyfiyyətinin müasir tələblərə uyğun qurulmasında innovasiyaların tətbiqinin rolu əvəzsizdir. Pedaqoji fəaliyyətin yeni formada təşkilində innovasiyaların rolu təhsil prosesinin təkmilləşdirilməsində özünə məxsus rol oynayır. İnnovasiyalar pedaqoji yanaşma kimi qabaqcıl təcrübənin nəticəsidir. Təhsilə gətirilən hər bir yenilik pedaqoji ustalığın nəticəsi şəxsi novatorluq kimi araşdırılır və müəyyən dövr ərzində təcrübədən keçərək öz təsdiqini tapır. İnnovasiya cəmiyyətin bütün sahələrində olduğu kimi, təhsildə də asan yolla qəbul olunmur. İnnovasiyalar ilkin olaraq cəmiyyət tərəfindən praktik formada həyata keçirilməsi üçün bir model olaraq qəbul olunur.

Təhsil sistemində tətbiqinə icazə verilmiş yeniliyi öncədən model olaraq qəbul edərək nəticələrini təhlil etmək sonralar yeni pedaqoji texnologiyaların yaranması üçün əsaslı zəmin yaradır. Digər tərəfdən, hər hansı bir innovasiyanın yenilik kimi qəbul olunmaması da cəmiyyətin öz dövrünə uyğun istəklərinə cavab verə bilməməsi ilə bağlı olur.

Təhsilin keyfiyyətinin modernləşdirilməsində müəllim-şagird münasibətlərinə yeni rakursdan baxılması, araşdırılması və nəticələrin təhlil olunması innovasiya kimi pedaqoji ictimaiyyəti düşündürməlidir.

Kazan araşdırmaçısı İ. Qareeyevin fikrincə, S.Frene, M.Montessori, D.Düi, R.Şteyner, M. M. Pistrak , V.S. Suxomlinski, Ş. Amonaşvili, L. Zankov, V. V. Davırdov, C. Lısenkova, Y. Konarjevski, O. Cametis, Q. Qabdulin, V. Şatalov, V. Dyacenko, Q. Lozanov, F. Bunyatova və digərləri 20-ci əsrdə müəllif məktəblərini yaratmış novator müəllimlərdəndir.

Orta təhsil müəssisələrində həyata keçirilən təlim-tədris prosesindəki münasibətlərdə rast gəlinən bir çox məqamlar müəllim-şagird münasibətlərinin araşdırılmasını zəruri etmiş olur. Təbii ki, hər bir məktəb direktoru rəhbərlik etdiyi təhsil müəssisəsində müəllim-şagird münasibətlərinin sağlam və normal olmasını arzu edir və bunu məqsədəuyğun sayır. Lakin onu da unutmaq olmaz ki, pedaqoji prosesin əsas atributlarından sayılan müəllim-şagird münasibətləri yalnız arzu etməklə istənilən səviyyədə qərar tuta bilməz. Bunun üçün, ilk növbədə, məktəb rəhbərinin şəxsi keyfiyyətlərinin və komanda ilə işləmə bacarıqlarının kollektivin maraqlarına hansı səviyyədə xidmət edə bilməsi ölçülməlidir.

Məktəb rəhbəri öz kollektivinin bütün üzvləri ilə normal ünsiyyət qurmağı bacarmalıdır. Müəllim və şagirdlər ünsiyyət məsələsində həssas olurlar. Bu halın baş verməsi müəllimlərin peşəsindən, şagirdlərin isə uşaqlıq yaş dövrünün psixoloji xüsusiyyətlərindən qidalanır. Müəllim öyrənməyi öyrətməklə yanaşı, öz şagirdlərinə qayğı ilə yanaşır, diqqət ayırır – bir sözlə, öz enerjisini sərf edir. Öz yetirmələrinə bilik və bacarıqları öyrətməklə bərabər, öz qayğı, nəvazişini də əsirgəməyən müəllim çox zaman özünə qarşı da bu ehtiyacı hiss edir. Bu da təbii, normal bir haldır. Bu vəziyyətdə yaranan əsas ziddiyyət müəllim üçün iş sferasında mənəvi dəstəkləyici mühitin formalaşmamasıdır. Əgər həmin mühit yaranarsa, nəinki pedaqoqun əhvalı, psixoloji durumu yaxşılaşar, bu həm də onun pedaqoji prosesdə daha çevik, mülayim, xoşrəftar olmasına böyük zəmin yaratmış olur. Normal mənəvi duruma, psixoloji dayanıqlığa sahib olan pedaqoq dərsini də daha keyfiyyətlə tədris etməkdə maraqlı olur.

Modernləşməni həyatda fasiləsiz olaraq davam edən texnoloji proseslərə uyğunlaşmaq kimi anlayırıqsa, o zaman müəllim bu faktı aksioma kimi qəbul etməli və öz fəaliyyətində əsas şərt kimi dəyərləndirməlidir. Bu baxımdan, hər bir peşə sahibi öz fəaliyyətini müasirləşmənin gətirdiyi yeniliklərə uyğun qurmalıdır.

Təhsil sistemində müasirləşməni reallaşdırmaq üçün bir çox hallarda yüksək inkişaf etmiş ölkələrin təhsil modelinin olduğu kimi öz məktəblərimizdə tətbiqini optimal çıxış yolu kimi qəbul edirlər. Lakin bu kimi hallar müəyyən zaman müddətində öz faydasızlığını göstərir. Məsələn: Dünya təhsil sistemində səviyyəcə yuxarı pillədə qərar tutan Finlandiya, Sinqapur kimi ölkələrin orta təhsil sistemi həmin dövlətlər üçün çox gərəkli olub gözlənilən nəticələri verə bilər. Lakin həmin təhsil modelini olduğu kimi başqa bir ölkədə tətbiq edilməsi fərqli və fəsadlı nəticələrə gətirib çıxa bilər. Bu baxımdan, sözügedən məsələdə çox diqqətli və həssas olmaq mühüm məsələdir. Bu problemə baxışda təkcə həmin təhsil modelinin mürəkkəbliyi və müasirliyi müzakirə mövzusu kimi çıxış etmir, eyni zamanda xalqın dünyagörüşü, şüur səviyyəsi, hadisələrə münasibəti qabarıq nəzərə çarpır. İnsanların həyatında artıq kök atmış milli ənənələrlə qarşı-qarşıya duran modernləşmə bir çox hallarda məhz bu tipli yeni təhsil modellərinin tətbiq olunmasında üzə çıxmış olur.

Modernləşmənin orta təhsil sistemində formalaşması yeni insan yetişdirilməsində ən qabaqcıl təşəbbüsdür. Lakin təhsil sistemi pedaqoji-psixoloji bir sahə olduğundan burada baş verən modernləşmədə daha çox pedaqoji prosesin iştirakçıları olan müəllim və şagirdlərin münasibətlərinin hansı səviyyədə olması və bu prosesin tənzimlənməsi yolları əsas müzakirə və təhlil mövzusu olur.

## ƏDƏBİYYAT


1. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
2. R. Məmmədzadə, A. Abdullayev, F. Kərimova, R. Cabbarov, S. Rəsulov, Ə. Quliyev. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: Müəllim, 2008.
3. Bünyatova F, Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000.

# ПРОБЛЕМЫ ОБУЧЕНИЯ УМСТВЕННО ОТСТАЛЫХ ДЕТЕЙ

**Лале Иманова,**
*зав. отделом Инклюзивного образования ИПОАР ,*
E-mail: lali32@mail.ru

***Açar sözlər:*** *xüsusi məktəb, inteqrasiya, sosiallaşdırma, optimallaşdırma, əqli gerilik*
***Ключевые слова:*** *вспомогательные школы, интеграция, социализация, оптимизация, умственная отсталость*
***Keywords:*** *special schools, integration, socialization, optimization, mental retardation*

В современной педагогике ведутся дискуссии о том, следует ли рассматривать умственную отсталость как болезнь или состояние, анализировать ее с медицинской или социальной точки зрения, и т.д.

В условиях вспомогательных школ проблемы использования возможности обучения для достижения оптимального развития имеют особое значение. С одной стороны, накапливается все больше фактов, которые свидетельствуют о наличии резервов для оптимизации обучения. С другой стороны, все еще слишком мощна инерция специальных школ по воспроизведению почти механически образовательных практик общего образования, особенно учебного содержания.

Сейчас подходящее время, чтобы четко артикулировать лучшее понимание обучения в специальной школе. Именно сейчас, когда все актуальней становится постановленная законом интеграция детей со специальными образовательными потребностями в общеобразовательных школах.

В связи с этим Р. Трашлиев (2000) формулирует несколько принципиальных положений

1. Оптимальное развитие умственно отсталых детей осуществимо только путем, отвечающим специфичности их обучения (в отличие от учеников общеобразовательных школ они не могут правильно развиваться, несмотря на школьное образование);
2. Профессиональную компетентность специальных педагогов;
3. Рефлективная компетентность учителей специальных учебных заведений должна охватывать как минимум следующие параметры:

- разграничение потенциала умственно отсталых детей на три составные: „наличное", „поврежденное" и „недостающее". Это является предпосылкой очертания параметров коррекции и компенсации, следовательно, и развития.
- учет поступательного характера развитии, которое не развертывается по прямой, а по восходящей линии – это характеристика процесса, который у типично развивающихся детей может быть незамеченным, но без принятия во внимание которой обучение не было бы развивающимся у умственно отсталых детей;
- в то время как у типичных детей существенные качественные изменения наступают естественным путем, у умственно отсталых детей такой переход может осуществляться только с помощью грамотных усилий педагогов;

Классификация детей с нарушениями или отклонениями в различные самостоятельные группы обобщается термином „дети со специальными образовательными потребностями", в основе которых лежит не медицинская, а образовательная (социальная) модель идентифицирования.

Дети со специальными образовательными потребностями нуждаются, кроме классических методов обучения и воспитания, и в специально ориентированных методах воспитательного воздействия и обучения, соответствующих потребностям формирования, восстановления и усовершенствования этих функций.

Дети со специальными образовательными потребностями встречают большие трудности в обучении в сравнении со своими сверстниками. У них появляются проблемы в усвоении программ в массовых учебных заведениях и причиной этого являются некоторые из следующих состояний: сенсорное, физическое, речевые и языковые нарушения, интеллектуальная недостаточность. Эти дети имеют право участвовать в образовательном процессе, как и все остальные их сверстники,

развивать и усовершенствовать свой потенциал, овладевать умениями и способностями, которые им дадут возможность активно участвовать в жизни общества.

В результате проведенного анализа современного состояния специальных школ, я хотела бы для оптимизации обучения умственно отсталых детей сделать следующие предложения: Создание оптимальных предпосылок интеллектуального и социального развития умственно отсталого ученика в рамках образовательного процесса. В Азербайджане все еще не хватает преобладающего мнения о наиболее подходящей модели интегрированного обучения детей с умственной отсталостью. Причина - из-за трудностей, которые встречают эти дети в процессе интегрированного обучения; Создание адекватной образовательной среды (массовая школа, специальная школа), которая поможет полноценному интеллектуальному и социальному развитию учеников с умственной отсталостью, соответствующей уровню его когнитивного развития; Необходимость реформирования специального образования таким способом, чтоб в центре всей учебно-воспитательной деятельности стоял конкретный ученик с умственной отсталостью.

**ЛИТЕРАТУРА**


1. Добрев, З. Особенности развития умственно отсталых детей. М., 2002.
2. Николова С. Обучение детей с умеренной и тяжелой умственной отсталостью и с множественными нарушениями во вспомогательных школах // Инновации в образовании, Фабер; В.Т., 2013.
3. Трашлиев, Р. и коллектив. Психология и педагогика детей с интеллектуальной недостаточностью, часть 1. Благоевград, 2000.


# XÜSUSİ TƏHSİLƏ EHTİYACLARI OLAN UŞAQLARIN İNKLÜZİV TƏHSİL ÜÇÜN SEÇİLMƏSİ


**Fərid Süleymanov,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: farid.suleyman@hotmail.co.uk



***Açar sözlər:*** *xüsusi təhsil ehtiyacları olan uşaqlar, qiymətləndirmə, inklüziv təhsil, ümumthsil məktəbləri, təlim*

***Ключевые слова:*** *дети с особыми образовательными потребностями, оценка, инклюзивное образование, средние школы, обучение*

***Key words:*** *children with special educational needs, assessment, inclusive education, secondary schools, learning*


Qabaqcıl təhsil sistemi olan ölkələrdə xüsusi təhsil ehtiyacları olan uşaqlarin inklüziv təhsilə cəlb edilməsi məsələsi müxtəlif üsullarla öz həllini tapır. Məsələn, Amerika Birləşmiş Ştatlarında sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsildə yerləşdirilməsi məsələsində məktəblə valideynlər arasında anlaşılmazlıq baş verdikdə bu problem məhkəmə yolu ilə həll edirlər. ABŞ tarixində ilk belə hadisə 1972-ci ildə Pensilvaniya ştatında baş verib və məhkəmə uşağın lehinə qərar verib, yəni uşaq ümumtəhsil məktəbində təhsilə cəlb olunub. Bu hadisə digər oxşar məhkəmə çəkişmələrinə də yol açıb. Əksər hallarda məhkəmə uşağın lehinə qərar çıxaran məhkəmə o faktı əsas tutur ki, inklüziv təhsil uşaqların sosial bacarıqlarının inkişafına zəmin yaradır.

Kanadanın Ontario əyalətində uşaqların xüsusi təhsil ehtiyaclarının olub-olmamasını məktəbin idarə heyəti üzvlərindən ibarət olan Diaqnoz və Yerləşdirmə üzrə Ekspert Komitəsi qərar verir. Komitə üç üzvdən ibarətdir ki, onlardanda bir məktəb direktoru olmalıdır. Komitə Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən əlillik kateqoriyası və təsnifatına əsasən uşağın xüsusi təhsil ehtiyaclarının olub-olmamasını müəyyənləşdirir. Komitəyə müraciət etmək təşəbbüsünü valideynlər yaxud direktor irəli sürə bilər. Komitəyə müraciətdən sonra 15 gün ərzində direktor valideynlərə komitənin təlimatını və və komitə

iclasının vaxtı barədə yazılı məlumat təqdim edir. Valideyn komitənin qərarıyla razılaşmadıqda komitə iclasından sonra 15 gün ərzində yeni iclasın çağırılmasını tələb edə bilər.

Avstraliyada isə uşaqların inklüziv təhsilə qəbul edilməsi məktəb rəhbərliyi və valideynlərin birgə məsləhətləşməsi əsasında baş tutur. Valideynlərin müraciəti əsasında müəllimlər və məktəbin aidiyyəti mütəxəssisləri tərəfindən uşağın xüsusi ehtiyaclarının qiymətləndirilməsi aparılır. Qiymətləndirmə həkim və terapevt tərəfindən verilmiş və uşağın ehtiyaclarını və bu ehtiyaclara müvafiq məktəbdə aparılmasına ehtiyac olan uyğunlaşdırma işlərini özündə əks etdirən sənəd əsasında aparılır.

Sinqapurda şagirdlərin qiymətləndirilməsi üçün məlumat mənbələri aşağıdakılar ola bilər: uşağın psixoloji vəziyyəti, təhsili və sağlamlıq vəziyyəti haqqında rəsmi sənədlər; uşağın intellektual inkişafını ölçən rəsmi test qiymətləndirməsi, müşahidə və müsahibə; məktəb müəllimi yaxud uşaqla birbaşa işləyən digər mütəxəssislər və şəxslər (loqoped, sosial işçi, həkim, uşağın dayəsi, həmyaşıdları) tərəfindən verilən rəylər.

Türkiyədə seçim prosesini Təhsil Nazirliyində fəaliyyət göstərən Rəhbərlik və Araşdırma Mərkəzi (RAM) icra edir. Şagirdin xüsusi təhsilə ehtiyacına dair şübhə olarsa əvvəl məktəblərdə olan rəhbərlik xidmətinə müraciət edilir. İlkin qiymətləndirmədən sonra RAM-a müraciət edilir. RAM uşağı ehtiyacları uyğun olaraq onu inklüziv təhsilə yaxud xüsusi təhsil müəssisələrinə yönəldir.

**ƏDƏBİYYAT**


1. Ü. Mikayılova, Y. Kərimova, S. Məmmədova. İnklüziv təhsil: Peşəkarlar üçün metodik vəsait. Bakı: İndigo, 2010.
2. Inclusion and Placement Decisions for Students with Special Needs: A Historical Analysis of Relevant Statutory and Case Law
3. Source: Deno , E. Special education as developmental capital. Exceptional Children (1970) 37:229–37. With modifications by A. Hocutt for this publication. Originally termed the “cascade of services.”


## МУЛЬТИКУЛЬТУРАЛИЗМ И СТРАТЕГИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА


**Джафар Гулиев,**

*преподаватель Бакинского Славянского Университета*

E-mail:jafarguliyeva.mayya@gmail.com



***Açar sözlər:*** *mədəniyyət, multikulturalizm, siyasət, inklüziv təhsil, Azərbaycan*

***Key words:*** *culture, multiculturalism, policy, inclusive education, Azerbaijan*

***Ключевые слова:*** *культура, мультикультурализм, политика, инклюзивное образование, Азербайджан*


В современном мире феномен «культурного многообразия» расценивается не только, как суммарность различных культур, а качественно новая «множественная идентичность». Сегодня культурное многообразие является своеобразной платформой, которая может выступать как основа для взаимодействия, диалога и обогащения, способствующие развитию общества во имя «общего блага». Мирное сосуществование внутри этого единого пространства становится возможным, благодаря присутствию в обществе здоровой терпимости по отношению к любого типа различиям и четко продуманной государственной политики. Политика мультикультурализма, направленная на сохранение и развитие культурных различий, представляет собой целый комплекс мер по регулированию процессов признания, сохранения и развития культурных различий, а также обеспечения интеграции различных идентичностей без ассимиляции. Принцип единства разнообразия, предполагающий разность и равноправие всех элементов фрагментированного общества является основополагающим в образовательной стратегии в условиях мультикультурного общества. Межкультурный диалог является обязательным компонентом на пути оптимизации сотрудничества и взаимодействия, в том числе и в сфере образования. (3)

В условиях развитого демократического сообщества инклюзивная стратегия в системе образования призывает «соответствовать индивидуальным образовательным потребностям личности, опирается на

либеральные концепции «культурного разнообразия», проповедующие субкультурные предпочтения во всех сферах общественной жизни. Главная цель такой образовательной стратегии – недопущение дискриминации и обеспечение «равенства» различного рода меньшинств с большинством. Такая стратегия развития делает образовательную сферу более чувствительной к запросам всех граждан, независимо от их культурной принадлежности и индивидуальных особенностей. В данном случае мы имеем дело с расширением понятия мультикультурности и интероперабельности данного понятия не только в отношении этнического и религиозного разнообразия. (4)

Внедрение инклюзивного образования в Азербайджане происходит согласно принципам современной политики мультикультурализма и приоритетам построения равноправного общества. Следует отметить тот факт, что законодательная база Азербайджана предусматривает интеграцию в общество людей с ограниченными возможностями здоровья и отвечает международным стандартам. Право на образование является одним из фундаментальных прав любого человека. Статья 42.«Право на образование» Конституции Азербайджанской Республики содержит положение о государственном обеспечении прав на получение образования каждого гражданина. (1)Статья 3. «Основные принципы государственной политики в образовательной сфере» Закона Азербайджанской Республики об Образовании от 7 октября 1992 года (с учетом поправок от 19 июня 2009 года) провозглашает равенство, гуманизм и толерантность основополагающими принципами образования. Статья 5. вышеупомянутого закона «Государственная гарантия права на образование» отражает гарантии возможностей получить образование каждому гражданину независимо от его пола, расы, языка, религии, политических убеждений, национальности, социального положения, происхождения, возможностей здоровья и недопущение дискриминации. (2)

Согласно статистическим данным, в настоящее время в Азербайджане 1105 детей с ограниченными возможностями здоровья посещают школы и получают специальное образование, 2664 человек школы-интернаты, 7750 человек получают образование на дому, и 295 человек обучаются в инклюзивных образовательных учреждениях. Также в стране существуют четыре центра реабилитации и развития для детей с ограниченными возможностями здоровья. Кроме того, были подписаны и ратифицированы ряд международных документов регулирующих данную сферу, таких как «Всеобщая декларация прав человека" (1948), "Декларация о правах ребенка" (1959), "Конвенция о правах ребенка" (1989), «Всемирная Декларация прав ребенка» (1990 г.), "Стандартные правила обеспечения равных возможностей для людей с ограниченными возможностями" (1993).

### ЛИТЕРАТУРА


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009.
2. Bakı, 1995. http://president.az/azerbaijan/constitution/
3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2009.
4. Жукова Т. А., Мультикультурализм и образование: проблемы и перспективы // Молодой ученый. 2016, №5.6.
5. Dumouchel P, Comparative Multiculturalism, Ritsumeikan University http://www.ritsumei.ac.jp/acd/gr/gsce/s/pd01/Comparative_Multiculturalism.pdf


## ÜNSİYYƏT PSİXOLOGİYASININ BƏZİ MƏSƏLƏLƏRİ


**Könül Quliyeva,**

*ARTPİ-nin Psixologiya və yaş fiziologiyası şöbəsinin elmi işçisi*

E-mail: guliyeva.konul@rambler.ru



***Açar sözlər:*** *sosial psixologiya, ünsiyyət, əlaqə, dialoq*

***Ключевые слова:*** *социальная психология, общение, связь, диалог*

***Key words:*** *social psychology, communication, connect, dialogue*


Sokrat haqlı olaraq demişdir ki, danış, səni görüm. Kiminləsə danışarkən onun psixikasını, daxili aləmini nəzərə almaq, temperamentini duymaq lazımdır.

Tədqiqatçılar ünsiyyəti insanların bir-birini anlaması, başa düşməsi prosesi (S.L. Rubinşteyn), fikirlərin, təəssüratların başqalarına verilməsi prosesi (L.S. Vıqotski), insanların başqalarına olan tələbatı (Y.L. Kolominski) və s. hesab etmişlər.

Ünsiyyət fəaliyyəti ontogenezin müəyyən mərhələsində, məsələn, məktəbəqədər, xüsusilə yeniyetməlik dövründə müstəqil şəkildə özünü göstərir (D.B. Elkonin) . Ünsiyyət fəaliyyətində obyekt başqa adamlardır: onların şüuru, motivlər sistemi, emosional aləmi, onların yönəlişliyi və sərvətləridir.

Ünsiyyət mədəniyyətinin özülü ailədən qoyulur, əsas iş də burdan başlayır. Çünki uşaq ilk səsləri, sözləri məhz ailədə eşidir, danışmaq öyrənir, sonra özü həmsöhbətə çevrilir. Deməli, həm danışır, həm də dinləyir.

V.S. Qrexnevin verdiyi tərifə görə, ünsiyyət insanların sosial normalara və həyata keçirdikləri fəaliyyətə müvafiq biliklərin, niyyətlərin, fikir və həyəcanların məqsədli şəkildə anlaşılmasına və ötürülməsinə, mübadiləsinə əsaslanan, onların bir-biri ilə birbaşa, bilavasitə qarşılıqlı münasibətlər prosesi, bir-birinə müraciətidir ( 4, 20) .

Bədən dili üzrə mütəxəssis A. Pizin fikrincə, informasiyanın 7%-i sözün, 38%-i səs vasitələrinin (səsin tonu, intonasiya və s. daxil olmaqla) , 55%-i isə jest, mimika və pozaların köməyilə ötürülür (2, 37) Prof. Ə.Ə. Əlizadə yazırdı: “Nəzakətlilik, təmkinlilik, mehribanlıq, tərəf müqabilini dinləmək bacarığı və başa düşmək arzusu, onların zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevincini, kədərini anlamaq, dərdinə şərik olmaq ünsiyyət mədəniyyətinin əlifbasıdır. Hamı bu əlifbanı öyrənməli, mənimsəməlidir” .

Hələ vaxtilə V.M. Bexterev eksperimental yolla müəyyən etmişdir ki, bilavasitə ünsiyyət qavrayışın dəqiqliyinə və detallaşmasına əsaslı təsir göstərir. Eksperimentlərdən birində bir-biri ilə bilavasitə ünsiyyətdə olan iki nəfər yoxlanana taxistaskopun köməyi ilə eyni vaxtda müəyyən şəkil təqdim olunmuşdur. Sonra onların hər birinə ayrılıqda şəkildəki detalları sadalamaq tapşırılmışdır. Nəticədə məlum olmuşdur ki, yoxlananların bir-biri ilə ünsiyyəti zamanı qeyd olunan detalların sayı artmış, buraxılan səhvlərin miqdarı isə onların arasında ünsiyyət olmasına nisbətən iki dəfə azalmışdır.

Digər eksperiment zamanı V.M. Bexterev yoxlananlara oxşar şəkillərdəki fərqi, bir-birindən fərqlənən müxtəlif şəkillərdəki oxşarlığı tapmağı tapşırmışdır. Fərdi (qarşılıqlı ünsiyyət olmadan) və qrup halında (ünsiyyət şəraitində) aparılan eksperimentlərin nəticələri göstərmişdir ki, ikinci variantda əldə edilən nəticələr birinciyə nisbətən daha yüksəkdir. Bu cür nəticə müxtəlif şəkillər arasında oxşarlığı tapmaqla bağlı tapşırığın yerinə yetirilməsi zamanı özünü daha aydın göstərmişdir (3, 84) .

Mustafa Kamal Atatürk analara müraciətlə deyirdi ki, ey ana istəsən ki, övladın əsl vətəndaş olsun, ona təkcə danışmağı deyil, dinləməyi də öyrət.

**ƏDƏBİYYAT**


1. Dökmen Ü. İletişim Çalışmaları ve Empati. 2008.
2. Xəlilov H.Ə. Peşəkar müəllimin bədən dili. Bakı, 2013.
3. İsmayılova M.C. Ünsiyyət psixologiyası məntiqi struktur sxemlərdə və şərhlərdə. Bakı, 2011.
4. Грехнев В.С. Культура педагогического общения. М., 1990.


## AZƏRBAYCANDA SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN TƏHSİLİNİN YARANMASI TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ


**Aynur Abdullayeva,**
*ADPU-nun Elm və innovasiya şöbəsinin mütəxəssisi*
E-mail: veliyeva_86aynur@mail.ru



***Açar sözlər:*** *məktəb, sağlamlıq imkanı məhdud, cəmiyyət, şagird, inklüziv*
***Key words:*** *school, limited access to health care, society, students, inkluziv*
***Ключевые слова:*** *школа, ограниченный доступ к медицинскому обслуживанию, общество, студенты, инклюзия*

Ta qədim zamanlardan bu günə qədər tipik insanlarla birgə fiziki və psixi cəhətdən məhdudiyyəti olan insanlar birgə yaşayıb yaratmışlar. Sağlamlıq imkanları məhdud olan insanların problemlərinin araşdırılması hər dövr üçün aktual problemlərdən biri olmuşdur. Zamanla əqli və fiziki cəhətdən qüsurlu insanlara baxışlar, münasibətlər müxtəlif olmasına baxmayaraq onları araşdıran bir elm təşəkkül tapmağa başladı.

İlk dəfə sağlamlıq imkanları məhdud insanları öyrənən elm sahəsi XIX əsrin sonu XX əsrin əvvəllərində yaranan defektologiya elmi olub. XIX əsrə qədər isə defektologiya psixologiya elminin nəzdində fəaliyyət göstərib. Son dövrlərdə sağlamlıq imkanları məhdud insanlara qayğı sürətlə artığından, onları öyrənən elm sahələri də inkişaf etməyə başlamışdır. XX əsrdə isə tez-tez ədəbiyyatlarda "inklüziv təhsil, inklüziv elm" anlayışlarına rast gəlmək olar.

Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin tarixi rəsmən 1932-ci ildən başlanmışdır. Psixologiya bölməsi nəzdində defektologiya sahəsi kimi fəaliyyət göstərmişdir.

Bu sahə müxtəlif adlar altında - xüsusi məktəb, yardımçı məktəb çətin uşaq bölməsi və s. hazırda inklüziv adlandırılır ki, bunların mahiyyətini sağlamlıq imkanları məhdud olan uşaqlarla ( anomal uşaqlarla) aparılan təhsil-tərbiyə işlərini təşkil edir.

25 mart 1932-ci ildən Azərbaycan SSR Xalq Maarif Komissarlığı "Əqli cəhətdən geri qalmış, kor, kar və lal uşaqlar üçün xüsusi məktəblərdə təlim-tərbiyə işinin yaxşılaşdırılmasına dair praktik tədbirlər" haqqında əmri vermişdir. Bu da anomal uşaqların təlim-tərbiyə işini genişləndirmişdir.

Bunun nəticəsi kimi respublikada 4 (dörd) xüsusi məktəb təşkil olunmuşdur:

Karlar üçün 1 (bir); Korlar üçün 1 (bir); Əqli zəif olanlar üçün 2 (iki) internat məktəb açılmışdır.

Sağlamlıq imkanları məhdud olan (anomal) uşaqlarla 1934-cü ildə Çətin uşaq bölməsi", "Yardımçı məktəblər", "Xüsusi məktəblər" fəaliyyət göstərmişdir. Respublika vətəndaşların həyatında rol oynayan bu sahə sonrakı illərdə də diqqət mərkəzində olmuşdur:

9 aprel 1937-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı "Xüsusi məktəblərin şagirdlərinin əmək hazırlığı haqqında" (204 saylı əmr) verdiyi əmrə əsasən xüsusi məktəblərdə peşə-əmək məktəblərinin yaranmasına səbəb olmuşdur. Təlim-tərbiyə, xüsusən də əmək tərbiyəsi ön plana çəkilməklə kar və kor uşaqlar təhsilə cəlb olunmuşlar.

1949-cu ildə Bakıda 3 xüsusi məktəb fəaliyyət göstərməyə başlamışdır: kar və kor uşaqlar üçün l (bir) fiziki və əqli cəhətdən geri qalan uşaqlar üçün 2 (iki) internat məktəb açılmışdır. Bu məktəblərdə təhsil, gündəlik yeməklər, yataqla təmin, internatda işləyən müəllim, tərbiyəçi, texniki işçilər və s. şəxslər dövlət təminatında olmuşdur. 1958-ci ildə "Yaş psixologiyası və pedaqoji psixologiya" laboratoriyası yaradılmış, respublikanın şəhər və rayonlarında 6-7 yaşlı anomal uşaqların tərkibi öyrənilmişdir.

1961-1963-cü illərdə sonradan karlaşmış, əqli cəhətdən geri qalan, əqli və fiziki cəhətdən geri qalan uşaqlar üçün internat məktəblər şəbəkəsi genişləndirilmişdir.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra da Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqların qayğısı ön plana çəkilmişdir.

2002-ci il xüsusi əhəmiyyət kəsb edir. Bu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti xüsusi təhsilə dair bir neçə qərar qəbul etmişdir.

Azərbaycan hökuməti respublikada uşaqların bərabər təhsil almaları, humanizm-demokratiya dəyərlərini nəzərə alaraq 3 fevral 2005-ci il tarixli qərarı ilə, xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar inkişaf Proqramı (2005-2009) təsdiq etmişdir.

Sağlamlıq imkanları məhdud insanların qayğısı ilə bağlı mühüm işlərin görülməsində Heydər Əliyev Fondunun müstəsna əhəmiyyəti vardır. Fond tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum uşaqların təhsilinin, tədris bazasının möhkəmlənməsinə, internat məktəbləri və uşaq evlərinin əsaslı təmirinin etdirilməsinə, texniki təlim vasitələri, nəqliyyat vasitələri və digər sahələr üzrə köməklik göstərmiş və göstərir.

Mövcud ədəbiyyata və rəsmi sənədlərə əsasən 2005-2010- cu illərdə Təhsil Nazirliyi nəzdində olan sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəblər haqqında məlumatdan aydın olur ki, inklüziv təhsil-tərbiyə işləri sahəsi üzrə ardıcıl iş aparılmışdır və aparılır.

**ƏDƏBİYYAT**


1. "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı (2005-2009).
2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001.
3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.


## KOLLEKTİV ÜZVLƏRİ VƏ RƏHBƏR TƏRƏFİNDƏN QƏRARLARIN QƏBUL OLUNMASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


**Cavid Əliyev,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Turizm və Menecment Universiteti*
E-mail: ca_aliyev89@yahoo.com



***Açar sözlər**: şəxsiyyət, sosial fəallıq, davranış, lider*
***Ключевые слова**: личность, социальная активность, поведение, лидер*
***Key words:** personality, social activity, vehavior, leader*


Kollektivin idarə olunması, qarşılıqlı münasibətlərin tənzim edilməsi, qərarların qəbulu və s. problemlər, son dövrlərdə psixoloqların xüsusi diqqət yetirdiyi problemlərdəndir. Qərarların qəbulunda kollektiv üzvlərinin iştirak etməsi sanki onları məsuliyyətdən azad edir, hətta onlar bir çox hallarda qərarın icrasına dolaysıyla mane olurlar. Bununla belə məlumdur ki, kollektiv üzvünün konkret işi olmadıqda onun ümumi işdə fəallığı azalır, cavabdehlikdən qaçır. Əksinə, onun, kollektiv həyatına cəlb olunması, qərarların qəbulunda iştirak etməsi işə marağını artırır. Belədə şəxsi maraqlarla ümumi maraqlar birləşir, bu isə fəaliyyətin səmərəliliyini artırır, kollektivdə müsbət psixoloji iqlimin yaranmasını stimullaşdırır. Hər bir şəxs daxili sosial inama, mövqeyə malikdir. Hər kəs adətən öz mövqeyinin doğruluğuna daha çox inanır. Bunlarla yanaşı o da məlumdur ki, qrup debatlarında iştirak, nəhayətdə ümumi bir rəyə gəlinməsi fərdin öz əvvəlki mövqeyinin dəyişməsinə, diskussiya zamanı deyilənlərin qəbul edilməsinə səbəb olur. Maraqlıdır ki, diskussiya zamanı deyilənləri doğrudan da şüurlu şəkildə qəbul edənlər, müəyyən vaxtdan sonra tək qaldıqda yenidən özlərinin diskussiyadan qabaqkı mövqelərinin doğru olduğu fikrinə qayıdırlar. Psixoloqların ümumi qənaəti belədir ki, qarşıya ümumi məqsəd qoyduqda baxışlar, mövqelər yaxınlaşır, vahid mövqe formalaşır. Tədqiqatların bir qismində isə göstərilir ki, bu heç də həmişə belə olmur. Doğrudan da müxtəlif situasiyalarda, xüsusilə prosesdə əsaslı dəyişiklik baş verdikdə bunun əksi özünü göstərir: psixoloji gərginlik yaşanır, fikir ayrılığı baş verir. Ayrı-ayrı fərdlərin mövqeləri yaxınlaşmaqdansa, fərqli keyfiyyətlər üzə çıxır. Hər bir qrup üzvü problemə şəxsi mənafeyi baxımından yanaşır. Yuxarıda deyilənləri belə ümumiləşdirmək olar. Kollektivdə psixoloji mühitin necəliyi, fəaliyyətin səmərəliliyi rəhbərin işçilərə nə dərəcədə etimad göstərməsi, işi, səlahiyyətləri onlarla necə bölüşdürülməsi və özünün idarəedici funksiyasının yerinə yetirməsi ilə bağlıdır.

**ƏDƏBİYYAT**


Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.


## MÜASİR TƏHSİL VƏ MÜƏLLİMLƏRİN PSİXOPEDAQOJİ QABİLİYYƏTLƏRİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ


**Sevinc Kərimova,**
*ADPU-nun Pedaqoji təhsilin problemləri ETL-in*
*kiçik elmi işçisi*
E-mail:sevinc-kerimova@bk.ru



***Açar sözlər:** prioritet, kompetensiya, təhsildə səriştəlilik, kurikulum, yenitəlim texnologiyaları*
***Ключевые слова:** приоритет, компетентность, компетенция в области образования, курикулум, новые технологии обучения*

***Key words:*** *priority, competency, competency-based approach in education, curriculum, new teaching technologies*

Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tətbiqini tələb edir. İnteraktiv təlim metodlarından istifadə təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərir. Bu gün təlim-tərbiyə prosesində şagirdlərə daha çox müstəqillik verilməli, öz fikirlərini sərbəst, çəkinmədən söyləməyə, arzu və istəklərinə müvafiq məşğuliyyətlər seçməyə şərait yaradılmalıdır. Təhsildə yeni təlim metod və texnologiyalardan istifadə daha yüksək nəticələrin əldə edilməsinə gətirib çıxarır, şagirdlərdə müstəqillik, işgüzarlıq, təfəkkür fəallığı, məsuliyyət kimi keyfiyyətlər formalaşdırır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə geniş miqyaslı tədbirləri nəzərdə tutur. Bu istiqamətlərdə səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı, bundan başqa, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması və s. kimi məsələlər prioritet olaraq nəzər də tutulur.

Müəllim tədris prosesində yaradıcı mühit yaratmalıdır. Bunun üçün müəllimdən yuxarıda sadaladığımız kompetensiyalardan əlavə, eyni zamanda onun tədris etdiyi fənnə aid səriştəliliyi hiss edilməlidir. Təlimin inkişafetdirici xarakteri tədris prosesində tətbiq olunan metodlardan, yanaşmalardan çox asılı olduğundan, müəllim sinifdə şagirdlərdən idraki fəaliyyətini aktivləşdirə bilmirsə, təlim özünün başlıca xarakterini - inkişafetdirici xarakterini itirir. Ona görə də məktəb təcrübəsində şagirdlərdə təfəkkürü inkişaf etdirmək üçün nəyi, nə üçün və necə öyrətmək probleminə diqqət artırılmalı və bu fəaliyyətlər həmişə ciddi olaraq diqqət mərkəzində saxlanılmalıdır.

Təhsilin keyfiyyəti təlimin yeni texnologiyasını, tədris prosesini bilavasitə reallaşdıran müəllimin yaradıcı əməyindən, peşəkarlıq səviyyəsindən və peşəsini ürəkdən sevməsindən çox asılıdır. Müəllimin yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirakı onun yaradıcı əməyinin keyfiyyətinin aşkarlanmasında mühüm rol oynayır.

Təhsil prosesində müəllim yeni pedaqoji texnologiyalardan faydalanaraq şagirdlərdə təfəkkürün formalaşmasına nail olur, müasir təlim yanaşmalarını əks etdirən dərs-mühazirə, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verir, qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından istifadə edir, dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı metodlara əsaslanan fəal metodlardan istifadəyə geniş yer verir. Fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və şagird fəaliyyətinin səmərəsini artırır. Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin fəaliyyətidir. Bu gün uğurlu nəticə müəllim fəaliyyətdən asılıdır. Müəllimin uşaqlarla həssas ünsiyyətqurma, əməkdaşlıq, tədqiqatçılıq, özünü təhsil və idarəçilik bacarıqlarına malik olması onun dövrün tələblərinə uyğun inkişaf etmiş xüsusiyyətlərindəndir.

Dərslərdə yeni təlim texnologiyaların tətbiqi şagirdlərin idrak fəallığını artırır, nəticədə təlimin keyfiyyəti yüksəlir. Müəllim pedaqoji prosesin təşkilatçısı olmaqla yanaşı ilk növbədə prosesi qiymətləndirməyi bacarmalıdır. Təlim-tərbiyə prosesində qiymətləndirmənin yerini müəyyən etməli, onun statistik təhlilini aparmalı, proqnoz və təkliflər vermək üçün problemə ümumi yanaşıb, qiymətləndirmə ilə bağlı fundamental məsələləri həll etməlidir. Bunun üçün təlimin məzmunu (uşağa nəyi, hansı həcmdə öyrətməli), təlim üsulları (uşağı necə öyrətməli), öyrədici mühit (uşağı hansı şəraitdə öyrətməli) və qiymətləndirmə (öyrətmə prosesinin durumu və onun nəticəsinin göstəriciləri) kimi təlim prosesinin sadələşdirilmiş modelini həyata keçirməyə nail olmalıdır.

## ƏDƏBİYYAT

1. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Azərbaycan respublikasının Təhsil Sahəsində İslahat Proqramı. 15 iyun 1999-cu il.

3. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 24 oktyabr
4. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, 2007 .

## "ÖLÜM İNSTİKTİ" VƏ YA SUSİDAL DAVRANIŞIN MOTİVASİYASINA DAİR

**Aygün Əzimova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail:azimova.aygun@mail.ru

***Acar sözlər****: ölüm instinkti, intihar riski, motivasiya, depressiyası, susidal davranış*
***Ключевые слова:*** *инстинкт смерти, риск самоубийства, мотивация, депрессия, суицидальное поведение*
***Keywords:*** *death, the risk of suicide, motivation, depression, susidal behavior*

Qlobal sosial-iqtisadi vəziyyətdə müşahidə olunan dinamik dəyişikliklər, xüsusilə də iqtisadi böhranların kəskinləşməsi inteqrasiya şəraitində insanların gələcəyə olam ümidlərinin bir növ qeyri-müəyyənliyə sürükləyir, depressiya, frustrasiya hallarını artırır və əksər hallarda susidal davranışa meyilliliyi açıq-aşkar nümayiş etdirir. Statistik məlumatlar göstərir ki, "ölüm instikti" tez-tez susidal davranışa çevrilir və cəmiyyətdə belə təhlükəli hallar artır. Bəs görəsən susidal davranışın əsasında hansı amillər dayanır? Hansı qüvvə "ölüm instiktini " motivləşdirir?

Yaşamaq arzusu insanın təbiətindən gəlir. İnsan psixologiyası özünü mühafizə instinkti üzərində qurulub və demək olar ki, bütün canlıların davranışı məhz bu instinktlə müəyyən olunur. Özünümühafizə instinkti şəxsiyyətin formalaşmasına, ictimai fəaliyyətimizdə uğurlar əldə etməyə, cəmiyyətdə öz yerini tapmağa, növün özünüqoruması instinkti isə nəsil artımına cavabdehdir. Ancaq intihar heç də insanın özünüqoruma instinktinin zəifləməsi demək deyil, əksinə insanı ölümə sürükləyən elə özünüqoruma hissidir.

Aparılmış tədqiqatlarda intiharın növləri müxtəlif olsa da onlarda ümumi ortaq məxrəc onun 3 növünün qeyd olunmasıdır. Gerçək intihar adlanan hallarda insan öz gərəksizliyini və mənasızlığını "dərk edir". Belə intiharlara adətən yeniyetmələr və yaşlı insanlarda rast gəlinir. Bu zaman qarşıya qoyulmuş sualın cavabından asılı olaraq intihara meyllik artır. Əksər hallarda cavab mənfi olduqda intihara cəhddən yayınmaq olmur, potensial risklər artır (3).

İkinci növ intihar nümayişkar adlanır. Adından bəlli olduğu kimi özünə qəsd edən şəxs bununla hansısa fikri çatdırmağa çalışır. Əslində, bu situasiyada intihar bir növ cəmiyyətlə dialoqdur. Özünə qəsd edən yardıma möhtac olduğunu bildirir, insanların diqqətini özünün və özü kimilərinin problemlərinə cəlb etmək istəyir.

İntiharın üçüncü növü gizli adlanır. Gizli intihara əl atanlar anlayırlar ki, öz həyatına son qoymaq elə də şərəfli bir iş deyil, ona görə bir başa ölümə yox, ölümlə nəticələnə biləcək şəraitə üz tuturlar. Məsələn, ekstremal idman növləri ilə məşğul olurlar, təhlükəli yerlərə səfər edirlər, təhlükəli bizneslə məşğul olurlar və s.

Hər üç halda özünə qəsd etmədə əsas motiv mənəvi sarsıntıdır. Məhz mənəvi boşluqdan doğan məyusluq, ümidsizlik, depressiya, frustrasiya həyatın bundan sonra dözülməz olacağına fərdi inandırır və özünümüdafiə instinkti intihara transformasiya olunur.

Suisidal davranışın ilk psixoloji nəzəriyyəsini yaradan Z. Freyd tərəfindən özünə qəsdə ölüm instinktinin təzahür etməsi kimi baxır ki, bu da aqressiya və təsadüfi hal kimi auto aqressiya ilə ifadə olunur. Bu konsepsiyanın tərəfdarları elə hesab edirlər ki, özünə qəsd-dəyişdirilmiş (özünə istiqamətlənmiş) qəsddir (ölümdür). Bu fikirlərin düzgünlüyü təsdiq etmək üçün bir sıra ölkələrdə həqiqətən baş verən ölüm və özünü qəsdin kəmiyyətcə uyğunlaşmasına, hətta müharibə zamanı özünü qəsdin azalmasına əsaslanırlar.

Məlumdur ki, Z. Freyd psixi aparatın strukturunda şüur, şüursuzluq və şüur önü instansiyaları fərqləndirir və qeyd edir ki, insan davranışında əsas aparıcılıq qeyri-şüuriliyə məxsusdur. Əgər susidal

davranışı da bu aspektdən təhlil etsək göndəririk ki, onun əsasında da qeyri-şüuri motivasiya dayanır. Qeyri - şüurinin əsasında iki başlıca komponenti fərqləndirmək olar. Birincisi baza instiktlərinə əsaslanan meyllər, ikincisi "sıxışdırılmış ", arzu edilməyən, əxlaqdan uzaq tutulan təhriklərdir. Nəzərə almaq lazımdır ki, qeyri - şüurinin komponentləri genetik baxımdan şərtlənmişdir, arxaik səciyyəlidir və heç zaman "təmiz" halda şüura qalxmır. (2) Onlar özünü mühafizə instikləridir və energetik bazasını "libido" təşkil edir. Qeyd etmək lazımdır ki, psixoanalitik mövqedə duran müasir tədqiqatçılar Freydin köhnəlmiş baxışları ilə, xüsusən də autoaqressiyaya yalnız aqressiv insitinktlərin təzahürü kimi yanaşması fikri ilə razılaşmırlar. Özünə qəsdin öyrənilməsinin əsas metodu, onların fikrincə, suisidal davranışın psixolojiləşdirilməsi metodudur. Məsələn, məşhur fin suisidoloqu Açte ( Achte ) qeyd edir ki, suisid sevgi meylləri xarakteri daşıya bilər. Özünə qəsd edən insan ümid edir ki, o, özünə qəsd etməklə darıxdığı sevimli qohum-ları ilə birləşə bilər. Belə adamlar sağ ikən gözlədikləri sevgi və şəfqəti öldükdən sonra əldə edəcəklərinə ümid edirlər və ölüm onlar üçün cazibəli görünür. Bu, xüsusilə də suisidal məqsədli adamlara aiddir (4).

Özlərinin suisidal fantaziyalarında belə adamlar öz dəfnlərinə tamaşa edir, sevgini etiraf etməklə yaxınları və qohumlarının peşmançılığından həzz alırlar. Fransız psixiatrı Kouran (Couran) belə hesab edir ki, suisidal davranışla ehtiraslı məhəbbət arasında birbaşa asılılıq vardır. Bununla belə müəllifə görə, suisidal davranış "vəziyyətin sahibi" olmaq üçün özünəməxsus cəhddir və insan ağır böhran vəziyyəti nəticəsində yaranmış gərginlikdən müvəqqəti olaraq çıxa bilir. Suisidal fikirlərin yaranmasından onun reallaşması cəhdlərinə qədərki dövr presuisidal və ya presuisid adlanır. Onun davamlılığı çox kəskin, qısa müddətlə, məsələn, saniyələr, dəqiqələr və ya daha uzun-aylar, illərlə (xroniki peresuisid) xarakterizə olunur (5, 124 ).

Adətən suisid cəhdləri ( parasuisid ) və suisidin baş verməsi bir - birindən fərqləndirilir. Davisin (1968) Kennedy (1977) məlumatına görə qadınlar kişilərdən 4 dəfə çox özünüöldürmə ilə həyatlarına son qoymağa cəhd edirlər, kişilər isə 4 dəfə çox suisidlə həyatlarım bitirirlər. Hərdən göstərilir ki, baş tutmayan suisid cəhdləri bu niyyətin ciddi olmamasında xəbər verir. Bu, kifayət qədər təhlükəli yanılmalıdır, bir dəfə cəhd edən insanlar təkrarən bunu edirlər. Shocket (1970), Kennedy (1977) məlumatına görə cəhd edənlər arasında 12 % - i 3 il ərzində təkrarən bunu edirlər (5).

Əsas sual ondan ibarətdir ki, kim məhz hansı hallarda özünə qəsdi yerinə yetirirlər. Özünüöldürməyə potensiallı qrupuna tam xarakteristikasını verməyə cəhdlər olunmuşdur. Kennedy (1977) riskin bir neçə meyarların göstərmişdir:

1. 40 yaşdan yuxarı yalqız kişilər (boşanmış və yaxın dostları olmayan);
2. Tək yaşayan insanlar;
3. Alkoqoliklər;
4. Böyük itki yaşayan insanlar;
5. Qocalıqda somatik xəstəlikləri olan insanlar.

Pretzel (1972) intiharı cəhdlərin şərtləndirən 2 şərti fərqləndirir.

1. Fərdin yaşadığı çətinliklərin stressin artmasına qədərki səviyyəsi;
2. Təklikdə, başqasının köməyi olmadan stressin öhdəsindən gələ bilməmək qabiliyyəti. (6)

Adətən suisid haqqında qərarlar təsadüfən yaranmır. Tez - tez digər insanlarla cəhd etmə haqqında fikirlərini bölüşürlər. Özünüöldürmə cəhdinin baş verməsinin böyük ehtimalı ekzistensial böhranın zirvəsində baş verir. Coleman (1972) intihara cəhd zamanı riskin güclənməsinin 3 faktoru açıqlayır: şəxsiyyətlərarası böhran, özünüqiymətləndirmənin enməsi, həyatın mənasının və perspektivlərinin itməsi.

Shneidman (1969) suisidə səbəb ola biləcək 4 səbəbi fərqləndirirdi:

1. Depressiya;
2. Hallusinaşiya və sayıqlamalarla dezorientasiya;
3. Müəyyən situasiyalarda ətrafdakıların nəzarətini yenidən öz əlinə almağa çalışması. Məsələn, sağalmaz xəstəliyə tutulan insan ölüm zamanını özü nəzarət etməsini üçün özünüöldürməyə cəhd edə bilər;
4. Başqalarından asılı olmaq və bu vəziyyətdən məmnun olmamaq, Potensial intiharın ən əsas əlaməti-ambivalentlikdir. O, həqiqi məqsədləri aydınlaşdırmağa mane olur (6,s.190).

Nəhayət, suisidal davranış modellərinin heyvanlar üzərində öyrənilməsi cəhdləri də məlumdur. Heyvanlar aləminin müxtəlif nümayəndələrində, bəzi quşlar, balinalar, meymunlarda auto aqressiyanın müxtəlif formalarına rast gəlinir. Lakin bu faktların insanların suisidal davranışı ilə müqayisəsi məqbul hesab edilə bilməz.

**ƏDƏBİYYAT**


1. Hüseynova D. R. İntiharın psixologiyası, Bakı: Adiloğlu, 2012.
2. İsmayılov F. Ziqmunt Freyd. Bakı: 1999.
3. İsmayılov N., İsmayılıv F. Tibbi psixologiya və psixoterapiya. Bakı, 2008.
4. Попов Ю.В. Границы и типы саморазрушающего поведения у детей и подростков. Л. 1991.
5. belmapo.by/downloads/psihiatriy/2009/teorii_suic_povedenia.DOC
6. magazines.russ.ru/oz/2013/5/27r-pr.html
7. www.bsmu.by/abstracts/f819a0692581fab8bb95aabf8341d1d0/


## QLOBALLAŞMANIN MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNƏ TƏSİRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


**Təhminə Cabbarova,**
*ADPU-nun Pedaqoji təhsilin problemləri ETL-nin, kiçik elmi işçi*
E-mail: tcabbarova@bk.ru



***Açar sözlər:*** *qloballaşma, müasir təlim texnologiyaları, müəllim-şagird münasibətləri, interaktivlik, ənənəvilik*

***Ключевые слова:*** *глобализация, современные методы технологии, отношения учитель-ученик, интерактивность, традиционность.*

***Key words:*** *globalization, modern teaching technologies, teacher-student relations, interactivity, traditional character*


Bütün dövrlərdə müəllim-şagird münasibətlərinə onun aid olduğu zamana məxsus səciyyəvi xüsusiyyətlər, ənənələr, tendensiyalar təsir etmişdir. XXI əsrdə dünyada sürətlə gedən qloballaşma prosesi məktəb həyatına, müəllim-şagird münasibətlərinə öz təsirini göstərməyə başladı. Münasibətlərdə dəyişikliyin yaranmasında həm ailə mühitinin, həm də müasir dövrün tələblərinin rolu kompleks formada çıxış edirdi. Yeni təlim texnologiyalarının tətbiqinə olan ehtiyacın, tələbin artması və əsasən yeniyetmələrin, gənclərin həmin vasitələrdən istifadə imkanlarının çox olması şagirdlərin (uşaqların, yeniyetmələrin) bu cəhətdən yaşlı nəsil üzərində qələbə qazanmasına gətirib çıxarırdı. Müasir texnikadan istifadədə (televizordan, mobil telefondan) uşaqlar valideynlərini ötməkdə idilər. Uzaqdan idarə olunan cihazların, yeni mobil telefon aparatlarının istifadəsində valideynlərin bəzən kömək üçün öz övladlarına müraciət etməsi yaranmış vəziyyətin real göstəricisi kimi çıxış edirdi. Bu reallıq məktəbdə müəllim-şagird münasibətlərində də özünü göstərir və təlim-tədris prosesindəki qarşılıqlı münasibətlərdə təsirini qaçılmaz edirdi.

Müəllim və şagird arasında olan münasibətin fərqli olması sinifdəki psixoloji mühitin dəyişilməsinə gətirib çıxarırdı. Qloballaşan dünyada sosial, ictimai və dövlət sifarişinə cavab verəcək keyfiyyətli təhsili təqdim etmək üçün yeni təlim metodlarının tətbiq edilməsi əsas şərt idi. Metodlar olmadan bu istiqamətdə mübarizə aparmaq, məqsədə çatmaq, müəyyən edilmiş məzmunu mənimsəmək mümkün deyil.

Təlim prosesini idarə etməyə özünü hazır bilən müəllimin ilk öncə öz ixtisası üzrə bilikləri yüksək səviyyədə olmalıdır. O, şagirdlərinin potensialını aşkara çıxarmaq üçün bütün imkanlardan istifadə etməyi bacarmalıdır. Müasir müəllim şagirdə təlim prosesinin bərabərhüquqlu iştirakçısı kimi yanaşmaqla kifayətlənməməlidir. Müəllim unutmamalıdır ki, şagirdin spesifik dünyagörüşü, özünəməxsus psixikası, bənzərsiz fantaziyası, zəngin emosional aləmi, təbiətə və insanlara xüsusi baxışı və qabiliyyəti vardır. K.D. Uşinski deyirdi: "Əgər pedaqogika insanı hərtərəfli tərbiyə etmək istəyirsə, onda hər şeydən əvvəl onu hərtərəfli öyrənməlidir ". O, müəllimlərə öz şagirdlərinin fiziki cəhətdən vəziyyətini, daxili-mənəvi aləmini maksimum səviyyədə öyrənmələrini tövsiyə edirdi.

Qloballaşmanın tələbi olaraq müasir təlim texnologiyalarının orta məktəblərdə tətbiq olunması müəllimlərin məsuliyyətini daha da artırmış olur. Bu yanaşma onların qarşısında daim axtarışda olmaq, fasiləsiz olaraq öyrənmək kimi tələblər qoyur. Digər tərəfdən, qloballaşan dünyada yaşayıb-yaradan müəllimlər şagirdlərlə münasibətlərini də çağdaş dövrün tələb və sifarişlərinə uyğun qurmalıdırlar. Təlim prosesində bərabərhüquqluluq prinsipinin gözlənilməsi üçün müəllim-şagird münasibətləri müasirliyin tələb kimi qoyduğu göstəricilərə cavab verməlidir. Yuxarıda qeyd olunanların praktik şəkildə tətbiqi üçün həyata keçirilməsi üçün təlim-tədris prosesində müasir təlim texnologiyalarından sistemli və məqsədəmüvafiq şəkildə istifadə olunmalıdır. Bu proses, ümumilikdə, müxtəlif informasiya mənbələrindən müvafiq bilik, bacarıq, qabiliyyətlərin qazanmalarını təmin edən bütün təlim metodlarının məcmusunu təşkil edir. Orta məktəblərdə həyata keçirilən dərs-təlim prosesində müasir təlim texnologiyalarını tətbiq etməklə standart ənənəvi təlim sistemindən uzaqlaşaraq ona araşdırıcılıq xarakterini ötürmək və informasiyanın mənimsənilməsi prosesində şagirdi əsas simaya çevirməklə subyekt-subyekt münasibətlərini yaratmaq mümkündür. Bu cür tətbiqetmədə müəllim biliklərin qazanılması üzrə istiqamətin fasilitatoru (bələdçisi), şagird isə tədqiqatçı, bilikləri kəşf edən rolunu oynayır. Subyekt-subyekt münasibətlərinin əsas tutulduğu bu mühitdə mənimsənilәsi biliklər müasir həyatda baş verən yeniliklərlə, innovasiyalarla, təbiətdə və cəmiyyətdə gedən fasiləsiz inkişaf və dəyişikliklərlə əlaqələndirilmirsə, həmin informasiya şagird üçün heç bir əhəmiyyət kəsb etməyən yükə çevrilir. Nəticədə, elmi bilik və bacarıqları mənimsəməyə qarşı uşaqlarda maraq səviyyəsi aşağı düşür. Bu da öz növbəsində şagirdlərin şüur və fəallıq səviyyəsinə mənfi təsirini qaçılmaz edir.

Bu günün şagirdi onunla dialoqa girən, müzakirələrə şərait yaradan, müasir təlim texnologiyalarını dərs prosesində uğurla tətbiq edən müəllimi auditoriyada görmək istəyir. Müəllimin tədris prosesini şagirdlərin istəklərinə uyğun təşkil etməsi, həm də pedaqoqun dərsə hansı dərəcədə hazırlığından xəbər verir. Şagirdinin maraqlarına cavab verəcək bir mühiti yaratmaq o qədər də asan deyil. Əgər müəllim məsuliyyət daşıdığı dərs prosesinin gedişini öncədən müəyyənləşdiribsə, onun üçün bu proses məqsədyönlü və zövqverici olacaqdır. Əks halda, müəllim şagirdlərin qarşısında çətin durumda qalmaq məcburiyyətindədir.

Çatışmazlıqların aradan qaldırılmasına tələbat dünyada gedən qlobal yanaşmaların təzahürü fonunda açıq-aydın hiss olunduğundan müasir təlim texnologiyalarından istifadəyə geniş yer məqsədəuyğun sayılır. Tədrisin keyfiyyətinin artırılmasında bu texnologiyalar geniş profilli təsirə malik olur. Çünki yüksək keyfiyyətin təmin edilməsi üçün yeni texnologiyaların dərs-təhsil prosesində tətbiqi müəllim-şagird münasibətlərinin də başqa şəkildə qurulmasını məqsədəuyğun və vacib hesab edir. Müasir təlim texnologiyalarının tətbiqinin uğurlu nəticələrinin alınması üçün məhz müəllimin sinifdəki hərəkət dinamikası mühüm rol oynayır. Qloballaşmanın təşəkkül tapdığı müasir cəmiyyətdə hər bir ölkənin siyasi, iqtisadi, sosial inkişafı onun sahib ola biləcəyi elmi dəyəri, mahiyyəti yüksək olan texnologiyalara dinamik, çevik formada yiyələnə bilməsindən, başqa sözlə, faydalı və keyfiyyətli təhsil sisteminin fəaliyyət göstərməsindən asılıdır. Cəmiyyətin qloballaşması İKT-nin təhsilə tətbiqini, biliklərin müxtəlif formalarda əldə edilməsi və tətbiqini, qarşılıqlı münasibətlərdə mübadilə imkanlarının artmasını təmin etmiş olur. Bu proseslər pedaqoji prosesin əsas iştirakçıları olan müəllim və şagird münasibətlərində gedən inqilabi dəyişiklikləri sürətləndirir.

## ƏDƏBİYYAT


1. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
2. Dəmirov A. H ., Məmmədov S. M ., İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2007.
3. Abbasbəyli A.N. Müasir beynəlxalq münasibətlər və qloballaşma. Bakı, 2007.
4. Ulutürklük. Qloballaşma çağında milli özünüdərketmə və geostrategiya. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2002.
5. Nəzərov A. M., Məmmədov R.İ. Pedaqoji ustalıq. Bakı, 2008.
6. Bünyatova F ., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000.

# İNSANLARIN BİR-BİRİNƏ BAĞLANMA ÜSLUBUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Kamalə Salamova,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Sumqayıt Dövlət Universiteti*
E-mail: Kemale-2015@list.ru

***Açar sözlər:*** *Ailə, tədqiqat, qarşıdurma, diqqət, keyfiyyət, davam, romantik, etibar, münaqişə, fərdlər, emosional, narahat, gənclik, üslub.*

***Ключевые слова:*** *семья, исследование, противостояние, внимание, качество, продолжение, романтический, доверие, конфликт, физические лица, эмоциональное, беспокойство, молодежь, стиль*

***Key words:*** *family, research, confrontation, accept, attention, quality, continuation, romantic, trust, conflict, individuals, emotional, worried, youth, style*

Türk tədqiqatçıları A. Şener və N. Terzioğlunun fikirlərinə əsaslansaq evlilik psixoloji və sosial aspektləri ilə fərdlərin bu sahədəki ehtiyaclarını qarşılama funksiyasını daşıyan bir prosesdir. Ailənin bioloji tələbatlarının və ya gözləntilərinin ödənilməsi üçün nəsli davam etdirmə, uşaq sahibi olma, sevmə, sevilmə, dəyər görmə, bəyənmə kimi tələbləri əhatə edən psixoloji funksiyası və həmrəylik, sosial status kimi öhdəlikləri var. Bu öhdəliklərin məzmunu xoşbəxt olmaqdan (tələbatların ödənilməsi) bədbəxt olmağa qədər davam edən cütlüklərin ayrılması və ya bir ömür boyu bir yerdə olma prosesi təşkil edir. Bu həyatının tamamilə sona çatması isə boşanma prosesini ortaya çıxarır. Bölgülərin dərinliyi, əhatə dairəsi və təsir qüvvəsi qiymətləndirildikdə boşanma psixososial problemlər arasında mühüm yer tutur.

Boşanmanın yaratdığı nəticələrə diqqət etdikdə cütlükləri boşanma qərarı almağa itələyən ziddiyyətlərin dinamikliyini səciyyələndirmək lazımdır. Bir çox tədqiqatçılar tərəfindən bu məsələ ilə bağlı tədqiqatlar oxşar şəkildə, yəni boşanmanın səbəbləri və ya nəticələrinin demoqrafik amilləri araşdırılmış, bu araşdırmaların nəticələri isə tez-tez hüquq və cəmiyyət tərəfindən müzakirə edilərək dəyərləndirilmişdir. Əslində isə boşanmanın səbəblərini insanların evliliyə daha az meylli olmasında yox, evlilik anlayışındakı dəyişikliklərdə axtarmaq lazımdır.

Boşanma ilə nəticələnən evliliklərdə cütlər arasında uyğunluq və ünsiyyət problemlərinin yaratdığı ziddiyyətlər toqquşmaları daha da dərinləşdirir. Bu mənada boşanma mərhələsinə girən cütlər mümkün qarşıdurma prosesi yaşadıqlarını düşünürlər. Əslində isə qarşıdurma problemi həll edə bilməmə və bu problemlərin yaratdığı çətinlikdən yaranır. Dağıdıcı qarşıdurma (kiçiltmə, tənqid, psixoloji zorakılıq və s.) ər və arvadın idarəetmə davranışının aşağı olması zamanı yaranır.

Gənc ailələrdə ziddiyyətlərin dərinləşməsinə evliliyin keyfiyyətini qəbul etmə formaları də təsir edir. Evlilik keyfiyyətini qavrama səviyyəsi cütlərin bir-birinə bağlanma formalarından asılıdır. “Bağlanma” (Attachment) anlayışını psixoloji anlayış kimi ilk dəfə ailələri tədqiq edən amerikalı psixoloq Bowlby 1969-cu ildə tədqiq etmişdir. O “bağlanma”nı insanların özləri üçün əhəmiyyətli gördükləri başqalarına qarşı etdirdikləri güclü emosional bağ adlandırmışdır.

Tədqiqatlar göstərmişdir ki, bir-birinə etibarlı bağlanmayan cütlərdə evlilik keyfiyyəti aşağı göstəriciləri ilə diqqəti cəlb edir. Evlilik keyfiyyəti və ya evlilik həyatının keyfiyyətinə təsir edən əhəmiyyətli amil problem həll etmə bacarıqlarının olmasıdır. Bağlanma ictimai münasibətləri əhatə etməklə yeni münasibətlərə başlamaq, davam etdirmək və sona çatdırmaq prosesində həlledici rol oynayır ki, romantik münasibətlərdəki davranışlar da buna aiddir.

Bağlanma üslubu iki cəhəti ilə evliliyə təsir edir. Bunlar problemi həll etmə bacarıqlarını inkişaf etdirmək və problemin qiymətləndirilməsidir. Bu iki amilin evlilik üzərindəki təsirləri məlumdur. Həmçinin bağlanma üslubları evlilik prosesində münaqişəni həll etməyə təsir edir. Bir-birinə etibarlı bağlanan fərdlər aktiv problemə qarşı kompromis əldə edə bilirlər. Ona görə bu cür evliliklər boşanma ehtimalı aşağı olması ilə fərqlənir. Bir-birinə etibarsız bağlanan ər-arvad isə problemin həllini müzakirə etmədən münaqişə vasitəsinə çevirirlər. Etibarlı bağlanma üslubuna sahib olan ər-arvad isə eyni zamanda qarşılaşdıqları problem situasiyalarını həll etmə mərhələsində özünə inama sahib olurlar. Qaçınan şəkildə bağlanan fərdlər isə ziddiyyətlərin həllində müzakirələrdən qaçırlar. Lakin ünsiyyət formaları ər-arvadın bir-birinə bağlanma üslubuna əsaslı təsir edir. Çünki hər bir insan doğulduğu andan ehtiyaclarının qarşılanması üçün dəstək və baxıma ehtiyac duyur. Bu ehtiyacların qarşılanması ilə körpə ilə körpəyə qayğı verən arasında bir bağ meydana gəlir. İnsanın bundan sonrakı həyatında bu əlaqələr daha da

genişlənərək dövrü əhəmiyyət daşıyır. İnsanların bir-birinə bağlanmasını Bowlby 1930-cu illərdə ana itkisi ya da anadan məhrumluğun şəxsiyyətin inkişafı arasındakı əlaqəni araşdırması və Ainsworthun təhlükəsizlik nəzəriyyəsindən sonra başlanılmışdır. Onların fikrinə görə, bağlanma uşaqlığın ilk iki ilində inkişaf edir "Emosional bağ qurma meyli isə yeni doğulmuşların həyatlarını davam etdirə bilmələri və sağlam bir inkişaf müddəti yaşaya bilmələri üçün qurulan funksional bir meyldir". Bundan başqa bağlanma və qulluq qarşılıqlı əlaqə içində bir-birini tamamlayan iki sistemdir. Bu sistemə əsaslanan alman tədqiqatçıları "etibarlı bağlanma", "narahat bağlanma" və "tələsik bağlanma" olmaqla üç fərqli bağlanma üslubunun olduğunu qeyd etmişlər. Uşaqlıq dövründə yaranan bağlanma üslubunun yeniyetməlik və gənclik dövründə də dəyişmədiyi müəyyən olunmuşdur.

Bağlanma üslubları uşaqlıq çağında ana və ya onu əvəz edənlə qarşılıqlı təsir prosesindəki keyfiyyətdən asılı olsa da sonrakı dövrdə yaxın münasibətlərdəki gözləntilərdən, inanclardan, ehtiyaclardan, duyğuların tənzimləmə strategiyalarından və sosial davranışlara təsir edən görüntülərdən asılı olaraq dəyişir. Ona görə də fərqli bağlanma üslubları, fərdi fərqlərlə bağlı prosesləri təyin etmə və başa düşmə məsələsində prototiplər kimi qəbul edilə bilər. Lakin L. Bartholomew və V. Horowitz 1991-ci ildə üçölçülü bağlanma üslubuna bağlanma vəziyyətini də əlavə edərək dördlü bağlanma modelini yaratdılar. Dördlü bağlanma modelində "divanə bağlanma", "etibarlı bağlanma", "qorxulu bağlanma" və "biganə bağlanma" üslubları yer alır. Divanə bağlanma tərzi narahat və qərarsız bağlanma formasına uyğun gəlir. Dördlü bağlanma modelində, müsbət mənlik modeli üstünlük təşkil edir. Bu modelə görə insan özünü sevilməyə və dəstəklənməyə layiq bilir. Mənlik modelinin mənfi olması isə insanın özünü sevilməyə və dəyərləndirməyə layiq bilməməsidir.

Etibarlı bağlanma üslubu müsbət öz və digərləri modelini şamildir. Divanə bağlanma üslubu mənfi mənlik modeli ilə müsbət başqaları modelinin birləşməsini, qorxulu bağlanma üslubu müsbət mənlik modeli ilə mənfi başqaları modelinin birləşməsini, qorxulu bağlanma üslubu mənfi mənlik modeli ilə mənfi başqaları modelini yaradır.

2000-ci ildə müsbət mənlik və müsbət başqaları modelini dəyərləndirən Lopez və Brennan hesab edirlər ki, körpəlik dövründə etibarlı bir bağlanma təməlinə sahib olan gənclər "yaxınlıq" və "sərvəstlik" və ya "ayrılıq" və "birləşmə" kimi həyat tarazlığını qura bilirlər. Belə insanlar özlərini sevilmək üçün dəyərləndirir, başqalarına güvənə bilir, hiss etdiklərini asanlıqla digərləri ilə paylaşa və köməyə ehtiyacları olduğunda rahatlıqla ifadə edə bilirlər. Belə insanların tərk edilmə və ya başqalarını özlərinə onları istədiyindən daha çox yaxınlaşdırma ilə əlaqədar qayğıları olmur. Beləlari həm özlərinə, həm də başqalarına duyduqları hörmət və etibarı yüksəkdir; uzun müddətli əlaqələr yaşaya bilirlər. Onlar ictimai əlaqələrdə konstruktiv mövqe sərgiləmə və problemlərə həll tapmağa meylidirlər. Başqa sözlə, etibarlı bağlanma üslubuna sahib insanlar hər hansı bir qarşıdurma vəziyyəti ilə qarşılaşdıqları müsbət və ya mənfi hisslərini açıq şəkildə göstərməyə, optimist gözləmələri inkişaf etdirməyə meylli olub, digərlərindən kömək istədikdə yüksək nəzarət, özünü tanıma və özünə inam duyğusuna sahibdirlər.

Divanə bağlanma üslubu mənfi mənlik modeli ilə müsbət başqaları modelinin birləşməsindən ibarətdir. Bu üsluba malik insanlar özünü dəyərsiz hiss etmə və sevilməyə dəyər verməmək meylində olur, digərlərini müsbət qiymətləndirirlər. Əslində onlar özünü təsdiqləmə və özünü sübut etmək istəyindədir. Münasibətləri ilə bağlı olaraq davamlı meyllilik vəziyyətindədirlər və münasibətləri ilə əlaqədar olaraq real olmayan xüsusiyyətlər inkişaf etdirirlər.

Qeydsiz bağlanma üslubunda müsbət mənlik ancaq mənfi başqaları modeli ilə xarakterizə olunur. Bu bağlanma üslubuna sahib olan şəxslər azadlığa həddindən artıq əhəmiyyət verirlər, başqalarına olan ehtiyacı rədd edərlər. Bartholomewin fikrinə görə bu şəxslər yaxınlıq duyğusundan məhrum qalma bahasına azadlıq və sərbəstlik seçirlər. Bu cür bağlanma üslubuna malik şəxslər ictimai əlaqələri "gərəksiz" və "darıxdırıcı" görürlər. Belə insanlarda mənlik hissi o qədər yüksək olur ki, başqaları ilə yaxınlığa qarşı tənbəlləşirlər. Bu şəxslərin problemdən qaçma, uzaqlaşma, geri çəkilmə, müstəmləkəçilik, hirs, inkar, narsizm və paranoid kimi psixoloji mexanizmlərdən istifadə etmək meylləri yüksəkdir .

Qorxulu Bağlanma mənfi mənlik və mənfi başqaları modelidir. Bu bağlanma üslubuna malik olan insanlar yaxınlıqdan qorxur və ictimai baxımdan qaçınqan bir görünüş sərgiləyir. Bu cür bir bağlanma etibarlı bağlanma üslubunun əleyhədarını meydana gətirməklə və bu istiqamətdə xüsusiyyətləri inkişaf

etdirilər. Bu bağlanma üslubuna aid olanlar özlərini dəyərsiz görmə meylində olduqları kimi, tərəf müqabillərini də mənfi mənimsəyirlər. Bu şəxslər qurduqları ictimai əlaqələrin nəticəsi ilə əlaqədar olaraq pessimist olur, özlərini açmaqdan qorxur, empatyadan məhrum olduqlarını iddia edirlər. Deməli bu cür bağlanma üslubuna sahib insanlar başqalarından həmişə mənfi gözləntilərlə yaşayır, rədd edilmə və ya itirmə qorxusu ilə hərəkət edirlər (qısqanclıq). Bağlanma üslubuna sahib insanlar başqalarından həmişə mənfi gözləntilər və yaşayır, rədd edilmə və ya itirmə qorxusu ilə hərəkət edirlər (qısqanclıq).

**ƏDƏBİYYAT**


1. Seliffe Kranke. Attechment, 2006.
2. Шнейдер Л.В Семейная психология 1998.
3. Yaşlı və ailə işickiləri araştırması (Ailə sosial Araştırmaları). Ankara, 2005.


## ŞAGİRDLƏRİN YARADICI TƏXƏYYÜLÜNÜN İNKİŞAF PROBLEMLƏRİ


**Raziyə Quliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: guliyeva.raziya@mail.ru



***Açar sözlər:*** *təhsil, təxəyyül, yaradıcı təxəyyül, şagird, nailiyyət*
***Ключевые слова:*** *образование, воображение, творческое воображение, ученик, достижение*
***Key words:*** *education, imagination, creative imagination, pupil, achievement*


Azərbaycan Respublikası təhsilin inkişafı üzrə dövlət strategiyasının strateji hədəflərindən biri uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını formalaşdıran təhsil standartlarının və yeni kurikulumların hazırlanmasıdır.

Bu baxımdan təlimin əsas məqsədlərindən biri şagirdlərin fikri fəaliyyətini yaradıcı düşünməyə istiqamətləndirərək, onlara nailiyyətlər qazandırmaqdır. Bu isə öz növbəsində yaradıcı təxəyyülün inkişaf etdirilməsi ilə mümkündür. Digər psixi proseslərdən fərqli olaraq yaradıcı təxəyyülün sərhədi yoxdur. Əgər yaradıcı təxəyyülə sərhəd qoysaq, beyində sadəcə "bu edilə bilər", "bu edilə bilməz" düşüncəsi hakim olacaqdır, bu isə öz növbəsində proqnozlaşdırmanı, ortaya çıxacaq məhsulları məhdudlaşdıra bilər. Məsələn: Keçmişdə televizor, telefon kimi əşyaların varlığı həmişə mümkünsüz olaraq düşünülürdü. Amma günümüzdə bu kimi bir çox cihazlar var. Deməli, mümkünsüz deyə bir şey yoxdur. Sadəcə təxəyyüldə bunun obrazını yaratmaq lazımdır.

Müşahidələr göstərir ki, tədris prosesində şagirdlərdə yaradıcı təxəyyülün inkişafına lazımı qayğı göstərilərsə cəmiyyət üçün xeyirli insanlar yetişər. Belə ki, müəllimlər şagirdlərdə fikri əməliyyatların formalaşmasında aparıcı rol oynayan təxəyyül qabiliyyətlərinin inkişafına ciddi nəzarət etməlidir.

Təlim planlı, ardıcıl prosesdir. Bu proses daxilində şagirdlərə öyrədilənlər bir yönümlü olmaqla konkret problemlərin həlli yollarını tapmaq istiqamətindədir. Monoton təlim prosesinə gətirib çıxaran sistem isə şagirdlərin yaradıcılıq bacarıqlarını məhdudlaşdırır. Şagirdlərdə yaradıcılığı inkişaf etdirmək isə həm çətin, həm də zaman tələb edən prosesdir. Məktəblərdə şagirdlərin yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün aşağıdakı təkliflərə diqqət etmək lazımdır.

1) Şagirdlərin problemi həll etmə bacarığını formalaşdırmaq üçün məktəblərdə hər bir şərait yaradılmalıdır. Dünya təcrübəsində şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirən məktəblərdə, şagirdlərin daha yenilikçi və yaradıcı olduqları müəyyən olunmuşdur.

2) Şagirdlərə fikirlərini sərbəst ifadə etməyə şərait yaradılmalı, onların yaradıcı düşüncələri gücləndirilməlidir.

3) Bəzən müəllim sinif şəraitində beyin fırtınası metodunu tətbiq edərək və heç bir tənqidi yanaşma göstərmədən şagirdlərin fikirlərini ifadə etməyə fürsət verilməlidir.

4) Təlim prosesində problemli vəziyyət yaradıldığı zaman, şagirdlərin müxtəlif hipotezlər təklif etmələrinə və bunu doğruluğunu təcrübədən keçirmələrinə icazə verilməlidir. [4.213]

Yaradıcı təxəyyül insanı sözün əsl mənasında yaradıcı şəxsiyyət kimi xarakterizə edə bilir. Belə ki, yaradıcı təxəyyülü inkişaf etmiş şagirdlər bu bacarıqları qazanırlar.

Yeni anlayışlar yaradır və onlar haqda düşünür;

Problemləri həll edir və təcrübə qazanır;

Mədəni irsini bilir və başqa mədəniyyətləri anlamağa çalışır;

Mimika və jestlərdən istifadə edərək fikrini ifadə edə bilir;

Rəsm çəkmə və boyama fəaliyyətində düşüncələrini ifadə edə bilir;

Şəxsiyyətini formalaşdıraraq özünə hörmət qazanır;

Bu bacarıqları qazanmış şagird həm məktəb, həm də gələcək həyatında bir çox nailiyyətlər qazanma potensialına çatır. Beləliklə, şagird nailiyyətlərinin formalaşmasında yaradıcı təxəyyülün inkişafı daima diqqət mərkəzində olmalıdır. Bunun üçün ailədə və məktəbdə uşaqların yaradıcı fəaliyyətinə qayğı ilə yanaşmaq, ona düzgün istiqamət vermək zəruridir.

**ƏDƏBİYYAT**

1. Eminov A.İ. Şagirdlərdə yaradıcı fantaziya tərbiyəsi. Bakı: Maarif, 1980.
2. Əlizadə Ə. Ə. Təxəyyül Psixoloji etüdlər. Bakı: Azərnəşr, 2006.
3. Əzizov Q.Q. Psixologiya (dərs vəsaiti). Bakı: Mütərcim, 2013.
4. Erden M. , Akman Y. Eğitim psikolojisi Gelişim-öğrenme-öğretme. Ankara: arkadaş Yayınevi, 2015.

## PRAKTİK PSİXOLOQ ÜÇÜN TƏLƏB OLUNAN ŞƏXSİ KEYFİYYƏTLƏR VƏ PEŞƏ BACARIQLARI

**Aynur İskəndərova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*

***Açar sözlər:*** *praktik psixoloq, praktik psixoloqunun vəzifələri, şəxsi keyfiyyətlər, peşə fəaliyyəti, məktəb praktik psixoloq*

***Ключевые слова:*** *практический психолог, психолог и практические задачи, личные качества, профессиональная деятельность, практический психолог*

***Key words:*** *practical psychologist, a psychologist and practical tasks, personal qualities, professional activities, the practical psychologist*

Praktik psixoloq-psixologiya ixtisası üzrə ixtisas təhsilinə malik olan, psixi hadisə, proses, hal və xassələri ölçmək, diaqnozlaşdırmaq, qiymətləndirmək, korreksiya etmək sahəsində müvafiq metodları bilən və onları tətbiq etməyi bacaran mütəxəssisdir.

"Ayrılıqda hər bir insan psixoloqdur" deyərək insani "tədqiqatçı" kimi səciyyələndirən C. Kelli göstərir ki, insan daim özünü öyrənir, fiziki və psixoloji müdafiənin yollarını axtarır. Bu imkanları zəif inkişaf etmiş kifayət qədər insan var. Onlar təklikdə özünün mürəkkəb psixoloji problemlərini həll edə bilmir, başqasının köməyinə, yardımına ehtiyac duyurlar.

Cəmiyyətin hər bir sahəsində praktik psixoloji xidmət mövcuddur və onun strukturu, fəaliyyət xüsusiyyəti özünəməxsus qaydada qurulur. Həmçinin məktəb praktik psixoloqunun fəaliyyət sahələri, istiqamətləri, vəzifələri fərqli şəkildə özünü göstərir. Burada gənc nəslin sağlam psixoloji inkişafı, təlimi və tərbiyəsidir.

Müasir dövrdə respublikamızın biri çox məktəblərində məktəb psixoloqları fəaliyyət göstərir. Ancaq bəzi məktəblərdə fəaliyyət göstərən məktəb psixoloqları öz məqsəd və vəzifələrini, fəaliyyət istiqamətlərini, tətbiq olunmalı metodları tam dəqiq bilmədiklərinə görə işini düzgün qura bilmir. Ə.Ə. Əlizadəyə görə, psixoloji xidmət praktika sahəsi olsa da, onun köklü nəzəri-metodoloji problemlər var. Psixoloji xidmətin səviyyəsinin keyfiyyətcə yüksəldilməsi bilavasitə həmin problemlərin sistemli

həllindən asılıdır. “Respublikamızda psixoloji xidmət nəzəriyyəsi və təcrübəsi kontekstində önəmli uğurlar əldə edilib. Biz bu cəhəti iftixar hissi ilə qeyd edirik, lakin, bununla belə, göstərmək lazımdır ki, məktəb psixoloqlarının, xüsusilə psixoprofilaktika, psixoloji məsləhət və psixokorreksiya sahələrindəki təcrübələri çox vaxt , təəssüf ki, dövrün tələbləri ilə səsləşmir. Psixoloji maarifləndirmə, psixoloji konsilium, psixodiaqnostika və s. məzmunu və sistemi də elmi-metodik ölçülərlə müəyyənləşdirməli, orijinal “məktəb psixoloqu modeli”nin yaradılmasına xüsusi diqqət yetirilməlidir... (2)

Məktəb psixoloqu professional hazırlığı onun insan psixikası haqqında inteqrasiyalı biliklərə malik olması ilə müəyyənləşir. Ona görə belə çoxsahəli xidmət göstərməli olan məktəb psixoloqu bir sıra bacarıq və səriştələrə, şəxsi və ixtisas keyfiyyətlərinə malik olmalıdır. Öz peşəkarlığını artırmaq üçün əlindən gələni etməlidir. Bu mövzu ilə bağlı N.Z. Çələbiyev “Təhsil sistemində psixoloji xidmət” kitabında belə yazır: “Praktik psixoloqun fəaliyyəti o halda səmərəli ola bilər ki, o öz iş təcrübəsi əsasında peşəkarlıq səviyyəsini daim artırmaq qayğısına qalsın, öz həmkarları ilə müntəzəm dialoq aparsın, elmi ədəbiyyatları daim izləməklə elmi-nəzəri hazırlıq səviyyəsini yüksəltmək səylərini artırsın”.(3)

Türkiyə praktik psixoloqların apardığı tədqiqatlarda məktəblərdə işləyən məktəb psixoloqundan tələb olunan şəxsi keyfiyyət və bacarıqları müəyyən etmişlər:

1. böyük məktəblilərə ailə təhsili verə bilmək bacarığı;
2. Yeniyetməlik psixologiyası mövzunu ətraflı bilmək;
3. İmtahan sistemlərini tanıtdıra biləcək informasiyaya sahib olmaq;
4. Psixoloji xidmət göstərmək;
5. Sinfi idarəetmə bacarığı
6. Peşə seçimində şagirdlərə kömək etmək
7. Peşə biliklərinə sahib olmaq
8. İnkişafetdirici təhsil haqqında məlumatlı olmaq, rahat dərs öyrənmək müəyyən bacarıqları öyrətmək
9. Ünsiyyət bacarıqlarına, bədən dilindən düzgün istifadə etmə qabiliyyətinə sahib olmaq və s.

Hazırda məktəblərdə psixoloqların sayının get-gedə artması təhsil sahəsindəki problemlərin praktik həllinə müəyyən təkan versə də, hələlik məktəblərdə psixoloji xidmətin statusu aşağıdır. Məktəb psixoloqları uşaq şəxsiyyətinin inkişafı və tərbiyəsi nəzəriyyəsini zənginləşdirə biləcək yeni faktlar əldə etmək, inkişafın qanunauyğunluqlarını şərtləndirən səbəb-nəticə əlaqələrini müəyyən etmək imkanlarına malik deyillər. Ona görə də Azərbaycan Təhsil sistemində psixoloji xidmətin milli mentalitetə, düşüncə tərzinə və eyni zamanda mütərəqqi beynəlxalq təcrübə ilə inteqrasiyaya əsaslanan modeli yaradılmalıdır.

## ƏDƏBİYYAT


1. Əmrahlı L.Ş. Məktəb psixoloqu. Metodik vəsait. Bakı, 2014.
2. Əmrahlı L.Ş. Psixoloji xidmət. I. Kitab. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007.
3. Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmət: Nəzəriyyə və təcrübə. 2 hissə. Dərs vəsaiti. ADPU, Bakı, 2008.
4. Selim Bektaş, Oğuzhan Çelik, Namik Kemal Haspolat, Fikrət Gülaçtı. Göreve yeni atanan psikoljik danışmanların (rehber öğretmenlerin) sahib olması gərəkən özəllik və beceriler. Okul Psikolojik Danışman E-Bülteni. İzmir., 2014.
5. Рубцов В.В. Служба практической психологии образования: современное состояние и перспективы развития // Вопросы психологии, 2003, № 6


# MƏKTƏB PSİXOLOQUNUN VƏZİFƏLƏRİ


**Zeynəb Bağırova,**
*Azərbaycan Dövlət Pedaqoji Kolleci*
E-mail: zheyarovabagirova@mail.ru



***Açar sözlər:*** *məktəb psixoloqu, psixoloji-pedaqoji şərait, şagird, məktəb, fəaliyyət*
***Ключевые слова:*** *школьный психолог, психологические и педагогические условия, студенты, школа, деятельность*

***Key words:*** *school psychologist, psychological and pedagogical conditions, students, school, work*

Məktəb psixoloqunun işi - məktəbin və ailənin tələbləri ilə (onlar müvafiq şəkildə və onlara zidd şəkildə) özünün seçdiyi yollarla uşağın məhsuldar hərəkəti üçün şərait yaratmaq, bu seçim nəticəsində meydana çıxan qaçılmaz münaqişələri həll etməkdir. Psixoloqun fəaliyyəti əksər hallarda uşağın real olaraq yaşadığı sosial, ailəvi, pedaqoji sistemdə (uşağın real sosial əhatəsi) yaranır. Psixoloqun məktəbdəki fəaliyyəti pedaqoji heyətlə birlikdə məktəb mühitinin, inkişaf imkanları və şagirdə olan tələblərin təhlili; tədris və inkişafın səmərəlilik meyarlarının müəyyən edilməsi; uğurlu tədris və inkişafı şərtləndirən amil kimi nəzərdən keçirilən tədbirlər, forma və metodların hazırlanması və tətbiqi; bu şərtlərin daimi fəaliyyət göstərən sistem formasına gətirilməsini ehtiva edir.

Müşayiət-uşağın uğurlu təhsili və inkişafı üçün sosial-psixoloji şərtlərin yaradılması üçün psixoloqun peşəkar fəaliyyət sistemidir: uşağın təbii inkişafına nəzarət (hər bir uşağın daxili aləminin şərtsiz dəyəri); müstəqil yaradıcı inkişaf üçün şəraitin yaradılması; uşağın yaşayış mühitinə münasibətdə psixoloji müşayiətinin ikinciliyi (sosial şərait və tədris sisteminə qeyri-fəal yönəlmiş təsir) pedaqoji vasitələrlə, pedaqoq və tədrisin və tərbiyənin ənənəvi formaları ilə həyata keçirilir.

Psixoloqun məktəbdə uşaqlarla fəaliyyət istiqamətləri:

1. Tətbiqi diaqnostika. Çox vaxt məktəb rəhbərliyi və müəllimlərdə belə bir təsəvvür yaranır ki, psixoloqun uşaqlarla işi yalnız yoxlamanı özündə ehtiva edir, halbuki diaqnostika-məktəb psixoloqunun tətbiqi fəaliyyət formasıdır. Psixoloqun məktəbdə diaqnostik işi ilə əlaqədar bir neçə problem yaranır: yoxlamanın nəticələri ilə nə etməli, metodikanı konkret təhsil problemləri ilə necə uyğunlaşdırmalı. Diaqnostika metodları həmçinin inkişaf edən olmalı, inkişaf edən kimi istifadə olunmalıdır.

II. Psixi korrektə və inkişafetdirici iş.

a) inkişafetdirici iş - bütöv psixoloji inkişaf üçün soisal-psixoloji şərtlərin yaradılması (psixoloji cəhətdən "müvəffəqiyyətli" məktəblilər üçün)

b) korreksiya işi - tədrisin, davranışın konkret problemlərinin həlli (psixoloji cəhətdən "müvəffəqiyyətsiz" məktəblilər üçün)

Psixoloq tərəfindən planlı tədbir kimi və ya pedaqoq və valideynlərin sorğusu üzrə həyata keçirilən diaqnostika korrektə və inkişafetdirici işin istiqamətlərini müəyyən etmək üçün əsas kimi çıxış edir.

III. Məktəblilərin konsultasiyası və maarifləndirilməsi. Maarifləndirmə məktəblilərin yaş tələbləri, dəyərləri, inkişaf səviyyəsi, real qrup vəziyyətləri nəzərə alınmaqla müəyyən sorğusuna cavab kimi həyata keçirilir. Konsultasiya əsas etibarilə yuxarı sinif şagirdlərinə istiqamətlənmişdir, könüllülük və gizlilik tələblərinin mütləq yerinə yetirilməsi şərtilə həm məktəblinin, həm də valideynlərin sorğusu üzrə aparılır.

IV. Sosial dispetçer fəaliyyəti psixoloqun biliyinin, təcrübəsinin və ya imkanlarının çatışmazlığı ilə əlaqədar olaraq problemin psixoloqun səlahiyyəti çərçivəsindən kənara çıxdığı və bu problemin məktəb çərçivəsinə salınmasının zəruri olduğu vəziyyətlərdə meydana çıxır.

Məktəb psixoloqunun işi - məktəbin və ailənin tələbləri ilə (onlar müvafiq şəkildə və onlara zidd şəkildə) özünün seçdiyi yollarla uşağın məhsuldar hərəkəti üçün şərait yaratmaq, bu seçim nəticəsində meydana çıxan qaçılmaz münaqişələri həll etməkdir. Psixoloqun fəaliyyəti əksər hallarda uşağın real olaraq yaşadığı sosial, ailəvi, pedaqoji sistemdə (uşağın real sosial əhatəsi) yaranır. Psixoloqun məktəbdəki fəaliyyəti pedaqoji heyətlə birlikdə məktəb mühitinin, inkişaf imkanları və şagirdə olan tələblərin təhlili; tədris və inkişafın effektivlik meyarlarının müəyyən edilməsi; uğurlu tədris və inkişafı şərtləndirən amil kimi nəzərdən keçirilən tədbirlər, forma və metodların hazırlanması və tətbiqi; bu şərtlərin daimi fəaliyyət göstərən sistem formasına gətirilməsini ehtiva edir.

Müşayiət-uşağın uğurlu təhsili və inkişafı üçün sosial-psixoloji şərtlərin yaradılması üçün psixoloqun peşəkar fəaliyyət sistemidir:

Uşağın təbii inkişafına nəzarət (hər bir uşağın daxili aləminin şərtsiz dəyəri);

Müstəqil yaradıcı inkişaf üçün şəraitin yaradılması;

Uşağın yaşayış mühitinə münasibətdə psixoloji müşayiətinin ikinciliyi (sosial şərait və tədris sisteminə qeyri-fəal yönəlmiş təsir) pedaqoji vasitələrlə, pedaqoq və tədrisin və tərbiyənin ənənəvi formaları ilə həyata keçirilir.

Uşağın məktəbdə psixoloji müşayiəti ideyaları aşağıdakı istiqamətləri ehtiva edir:

- Uşağın psixoloji-pedaqoji statusunun və onun inkişaf dinamikasının sistemli şəkildə izlənilməsi (uşağın xüsusiyyətləri, onun problemləri və çətinlikləri ilə bağlı informasiyanın toplanması);

- Uşağın şəxsiyyətinin inkişafı və onun uğurlu təhsili üçün psixoloji-pedaqoji şəraitin yaradılması.

- Uşağın uğurlu inkişafı üçün şərait yaradan fərdi və qrup şəklində psixoloji inkişaf proqramları, bununla yanaşı, zəruri zəmin kimi proqramın elastikliyi hesab edilir.

- Problemli uşaqlara yardım göstərilməsi üçün psixoloji-pedaqoji şəraitin yaradılması, kompensasiya tədbirləri sisteminin hazırlanması və tətbiqi.

Psixoloqun məktəbdə uşaqlarla fəaliyyət istiqamətləri:

1. Tətbiqi diaqnostika. Çox vaxt məktəb rəhbərliyi və müəllimlərdə belə bir təsəvvür yaranır ki, psixoloqun uşaqlarla işi yalnız yoxlamanı özündə ehtiva edir, halbuki diaqnostika-məktəb psixoloqunun tətbiqi fəaliyyət formasıdır. Psixoloqun məktəbdə diaqnostik işi ilə əlaqədar bir neçə problem yaranır: yoxlamanın nəticələri ilə nə etməli, metodikanı konkret təhsil problemləri ilə necə uyğunlaşdırmalı. Diaqnostika metodları həmçinin inkişaf edən olmalı, inkişaf edən kimi istifadə olunmalıdır.

Uşaqların məktəbdə diaqnostikası şərtləri prosedurun iqtisadi səmərəliliyi tələbini qoyur ki, bu prosedur uşağı yormamaq və məktəb məşğələlərinin çox vaxtını almamaq üçün qısa olmalıdır, çoxfunksiyalı olmalıdır, psixi funksiyaların inkişafı ilə eyni vaxtda diaqnostika vasitəsi kimi çıxış etməli, uşağın inkişaf vəziyyəti və perspektivləri haqda daha çox məlumat verməlidir. Diaqnostika nəticələri uşağın çətinliklərinin səbəbləri haqda mühakimə yürütmək imkanı verməli və onların aradan qaldırılması, uşağın inkişafının xüsusiyyətləri haqda proqnoz vermək üçün şərait yaratmalıdır.

Diaqnostikanın aşağıdakı məqsədləri var:

1) Məktəblinin sosial-psixoloji portretinin tərtib edilməsi;

2) "Çətin" məktəblilərə yardım göstərilməsi yollarının müəyyən edilməsi;

3) Psixoloji müşayiətin vasitə və formalarının seçilməsi;

Məktəb şəraitində tətbiqi psixodiaqnostikanın 3 növünü fərqləndirirlər:

- diaqnostik minimum,
- norma və patologiyanın diferensiasiyası (intellektdə),
- "sorğu" üzrə şəxsiyyətin əsaslı şəkildə psixodiaqnostikası (fərdi)

Diaqnostik minimum "problemli" uşaqları fərqləndirməyə (1,3-5, 8, 10-11-ci siniflər), uşaqların inkişafının araşdırılmasının aparılmasına imkan verir. Diaqnostik minimum planlı tədbir kimi aparılır və əsasən pedaqoq və valideynlərin ekspert sorğularına əsaslanır və uşaqlara minimal şəkildə toxunulur.

Uşaqların diaqnostik araşdırmasının aparılmasının məqsədləri aşağıdakılardır:

a) standart məktəbdə tədrisinin təşkilinin mümkün olmadığı aşağı inkişaf səviyyəli uşaqların aşkar edilməsi

b) xüsusi psixo-pedaqoji və ya sosial yardıma ehtiyacı olan uşaqları, koqnitiv proseslərin qismən pozulduğu uşaqları aşkar etmək. Belə uşaqlar üçün korreksiya məşğələlərinin keçirilməsi (pedaqoji baxımsızlıq, sosial-pedaqoji adaptasiya problemləri, emosional-iradə sferasının pozulması və s.)

c) mümkün çətinliklərin profilaktikası məqsədi ilə inkişaf xüsusiyyətlərinə malik uşaqların aşkar edilməsi.

Əsaslı diaqnostik müayinə özündə aşağıdakı istiqamətləri ehtiva edir:

- diferensial normalar və patologiyalar
- yaş norması çərçivəsində idrak sferasının xüsusiyyətlərinin öyrənilməsi,
- münaqişə zonası və məzmununun öyrənilməsi.

II. Psixi korrektə və inkişafetdirici iş.

c) inkişafetdirici iş - bütöv psixoloji inkişaf üçün soisal-psixoloji şərtlərin yaradılması (psixoloji cəhətdən "müvəffəqiyyətli" məktəblilər üçün)

ç) korreksiya işi - tədrisin, davranışın konkret problemlərinin həlli (psixoloji cəhətdən "müvəffəqiyyətsiz" məktəblilər üçün)

Psixoloq tərəfindən planlı tədbir kimi və ya pedaqoq və valideynlərin sorğusu üzrə həyata keçirilən diaqnostika korrektə və inkişafetdirici işin istiqamətlərini müəyyən etmək üçün əsas kimi çıxış edir.

Korrektə və inkişafetdirici iş - uşağın şəxsiyyətinə tam təsirdir (uşağı müxtəlif psixi sferalara “bölmədən”), uşağın psixi korreksiya işində könüllü iştirakına, sosial-mədəni mühitin xüsusiyyətləri, fərdi xüsusiyyətləri və tələblərinin nəzərə alınmasına əsaslanan şəxsiyyətin bütün tərəflərinə təsir prosesidir (5-6-cı siniflərə qədər uşaqlar üçün valideynlərin razılığı əsasında), işin forma və metodlarının ardıcıllığı və varisliyidir.

İnkişafetdirici iş - uşağın psixi həyatının idrak, sosial-şəxsiyyət, emosional sferalarına istiqamətlənmişdir. İnkişafetdirici işin formaları: inkişafetdirici mühitin, treninqin, psixoloqla təlimləndirici görüşlərin, tədris məşğələlərində və məktəbdənkənar görüşlərdə psixoloji texnologiyaların təşkili; təlimləndirici psixodiaqnostika-özünüdərk.

c) psixi korrektə işi qrup və ya fərdi iş kimi keçirilir, korreksiya proqramlarının yığımına əsaslanır.

III. Məktəblilərin konsultasiyası və maarifləndirilməsi. Maarifləndirmə məktəblilərin yaş tələbləri, dəyərləri, inkişaf səviyyəsi, real qrup vəziyyətləri nəzərə alınmaqla müəyyən sorğusuna cavab kimi həyata keçirilir. Konsultasiya əsas etibarilə yuxarı sinif şagirdlərinə istiqamətlənmişdir, könüllülük və gizlilik tələblərinin mütləq yerinə yetirilməsi şərtilə həm məktəblinin, həm də valideynlərin sorğusu üzrə aparılır.

Konsultasiya məktəblilərlə fərdi iş kimi əksər hallarda aşağıdakı məsələlər dairəsi üzrə aparılır:

- tədris, ünsiyyət, psixoloji əhvalda çətinliklər;
- yeniyetmələrə özünüdərk və özünütəhlil biliklərinin təlimi
- mürəkkəb vəziyyətlərdə məktəblilərə psixoloji yardım və dəstək göstərilməsi.

Nadir hallarda konsultasiya psixoloqun və ya pedaqoqun təşəbbüsü ilə başlayır, bununla yanaşı, psixoloq üçün yeniyetmələrlə əlaqəyə girmək daha çətindir.

IV. Sosial dispetçer fəaliyyəti psixoloqun biliyinin, təcrübəsinin və ya imkanlarının çatışmazlığı ilə əlaqədar olaraq problemin psixoloqun səlahiyyəti çərçivəsindən kənara çıxdığı və bu problemin məktəb çərçivəsinə salınmasının zəruri olduğu vəziyyətlərdə meydana çıxır.




Belə bir sxem məktəb psixoloqunun rastlaşdığı çətinliklərin mənfi cəhətlərini əhatə etməklə yanaşı, onun konstruktiv təsirini də izah etmək üçün faydalı ola bilər. Çünki burada çətinliklərin təsir istiqamətləri də aydın surətdə nəzərə çarpır. Bununla bərabər, həmin çətinliklərin nəticələrinin elmi-nəzəri və praktik planda təhlilinə də yardım edir.

Sxemdən göründüyü kimi, məktəb psixoloqunun peşə çətinlikləri ilə rastlaşması ilk növbədə onun özünə münasibətinə təsir edir, yəni peşə hazırlığı səviyyəsi, şəxsi keyfiyyətləri, iradi-emosional sferası və xarakteri ilə bağlı cəhətlərə, eləcə də öz sənətinə münasibətilə bağlı cəhətlərlə əlaqədar olur. Bütün bunlar məktəb psixoloqunun peşə özünü dərkinin formalaşmasına təsir göstərir.

**ƏDƏBİYYAT**

1.С.Б.Спиридонова. Индивидуально-типологические особенности самопознания школьников // Ярославский педагогический вестник, 2012, № 1

2. Т. В. Архиреева // Вопросы психологии. 2005, № 3

3. Маслюк Н.А. Особенности социального мышления студентов высших и средних специальных учебных заведений: Автореф. дис. …канд. псих. наук. М., 2006

## ŞƏXSİYYƏTİN İNKİŞAFI PROSESİ

**Gülnarə Qurbanova,**
*Mingəçevir Dövlət Universitetinin müəllimi*
E-mail: mirzoyeva_86@mail.ru

***Açar sözlər:*** *problem, pedaqoji, təhsil-tərbiyə, yaş fiziologiyası, irsiyyət*
***Key words:*** *problem, pedagogical, education, age physiology, heredity*
***Ключевые слова:*** *проблема, педагогический, возрастная физиология, наследственность*

Şəxsiyyət problemi ilə yaş fiziologiyası, anatomiya, sosiologiya, yaş psixologiyası, pedaqoji psixologiya və digər elmlər məşğul olur. Pedaqogika isə təhsil-tərbiyə prosesində şəxsiyyətin inkişafının ən səmərəli şərtlərini öyrənir, aşkar edir. Pedaqogika və psixologiyada şəxsiyyətin inkişafı ilə bağlı üç əsas istiqamət (bioloji, sosioloji, biososioloji ) vardır.

Bioloji istiqamətin nümayəndələri şəxsiyyəti sırf təbii varlıq hesab etməklə onun bütün davranışını anadan olarkən özü ilə gətirdiyi, ona xas olan tələbatların, maraqların, instinktlərin təsiri ilə izah edirlər. Sosioloji istiqamətin nümayəndələri insanın bioloji varlıq kimi doğulmasını qəbul etməklə yanaşı, ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini müdafiə edirlər. Biososial istiqamətin nümayəndələrinin fikrincə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və. s) bioloji təbiəti olsa da, şəxsiyyətin təcrübəsi, siyasi, əxlaqi-mənəvi baxışları, maraqları, qabiliyyətləri və. s. sosial hadisələr kimi formalaşır.

Müasir pedaqogika şəxsiyyətə bir tam psixi sistem kimi baxır. Burada bioloji və sosioloji xüsusiyyətlər ayrılmazdır. Şəxsiyyət ictimai həyatın məhsulu olmaqla, həm də canlı orqanizmdir. Şəxsiyyətin formalaşması və davranışında sosioloji ilə biolojinin münasibəti olduqca mürəkkəbdir və insanın inkişafının müxtəlif dövrlərində şəxsiyyətə eyni təsir göstərmir. Şəxsiyyətin bütün tərəfləri yalnız fəaliyyətdə və başqa adamlarla ünsiyyətdə təzahür edir. Təlim , təhsil-tərbiyə prosesində köhnə ilə yeni arasında meydana çıxan ziddiyyətlər və onların aradan qaldırılması şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir. Fəaliyyətin doğurduğu yeni tələbatlar ilə onların ödənilməsi imkanları arasındakı ziddiyyətlər buna misal ola bilər. Ziddiyyətlərin həlli daha yüksək səviyyəli fəaliyyəti formalaşdırmaq vasitəsilə baş verir. Nəticədə uşaq öz inkişafında daha yüksək pilləyə qalxır. Tələbat ödənilir, ziddiyyət aradan götürülür. Ziddiyyətlər daxili, xarici və ümumi olur. Onlar xalq kütlələrinin inkişafını hərəkətə gətirir. Ayrıca götürülmüş insana xas olan ziddiyyətlərdən biri yaranan yeni tələbatlar ilə onları ödəmək imkanları arasındakı uyğunsuzluqdur.

İnsanın inkişafı və onun şəxsiyyət kimi formalaşması üç başlıca amilin - irsiyyət, mühit və təhsil-tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir. Yeni elmi ədəbiyyatda fəaliyyət də bir amil kimi göstərilir. Mühit özü iki yerə bölünür: 1)qeyri-mütəşəkkil mühit; 2)mütəşəkkil mühit. Təhsil-tərbiyə amili mütəşəkkil mühitə aiddir, onu ümumi mühitdən kənara da təsəvvür etmək mümkün deyil, çünki o, onun tərkib hissəsidir.

### ƏDƏBİYYAT

1. Bayramov Ə. C., Əlizadə Ə. Ə., Psixologiya: Dərslik. Bakı, 1989.
2. Əhmədov H. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı: Təhsil, 2001.
3. Cabbarov R.H., Təhsil müəssisələrinin idarə etmə məsələləri, Bakı, 2001.

## TOLERANT DÜŞÜNCƏNİN FORMALAŞDIRILMASI

**Gülər Şahbazova,**
*Bakı şəhəri Nəsimi rayonu 42 nömrəli məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi*
E-mail: gulya.tc@mail.ru

***Açar sözlər***: *düşüncə, davranış, tolerant şüur, tolerant düşüncə, tolerant davranış*
***Ключевые слова***: *рассудок, поведение, толерантное сознание, толерантный рассудок, толерантное поведение*
***Keywords***: *mind, behavior, tolerance, tolerant consciousness, tolerant understanding, tolerant behavior*

Milli mənlik milli şüurun çox mühüm komponentidir. Milli mənliyə doğma vətəni, onun insanlarını, mədəni dəyərlərini sevmək, yeraltı və yerüstü sərvətlərini mühafizə etmək s. bu kimi sosial keyfiyyətlər aiddir.

Millət, xalq və etnik qrup milli mənlik şüuruna əsasən maddi və mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətlərini tam aydınlığı ilə başa düşür, bu problemlə əlaqədar hər hansı fakt və hadisə barədə fikir, mülahizə bildirir, mühakimə yürüdür. Milli şüur tarixi inkişaf prosesinin nailiyyətidir. Bütün Azərbaycan vətəndaşları milli mənlik şüuruna yiyələnməlidirlər. Milli mənliyin təməlində bu və ya digər şəxsin mənsub olduğu millətin, yaxud xalqın onu əhatə edən sosial həyatın ayrı-ayrı sahələrinə subyektiv inam və əqidəsi dayanır.

Millətə aid bir çox keyfiyyətlər milli-mənəvi sima, özünəməxsusluq, milli xarakter, emosional psixi amillər milli şüurun komponentləri kimi çıxış edir. Milli psixologiya, həyat tərzi, adət və ənənələr, milli qürur milli şüurda anlayış və kateqoriyalar şəklində təzahür edir.

Xalqın tarixi, onun görkəmli mütəfəkkir və tarixi şəxsiyyətləri, müxtəlif milli atributlar insanın mənəvi aləminə daxil olub onun milli şüurunun formalaşmasına şərait yaradır.

Milli şüurun mühüm tərkib hissələrindən biri də milli vicdandır. Milli vicdanı olan şəxs Vətənini sözdə deyil, konkret əməldə, işdə sevməli, torpaqlarımızı qorumalı, ölkənin təbii sərvətlərini mühafizə etməlidir.

Milli mənlik şüuru ictimai şüurdan ayrılıqda mövcud olmayıb, şüurun daxilindədir. Mənlik şüuru bu və ya digər şəxsin özünün rəy və mülahizələrinin, hisslərinin, mənafe və məqsədlərinin öyrənilməsinə istiqamətlənir. Bu kimi hallarda şəxsiyyətin (bizim tədqiqatda tələbələrin) daxili aləmi şüurun obyekti olur. Mənlik şüuru şəxsiyyətin daxili xarakterini, adamlara, cəmiyyətə olan münasibətini ifadə edir.

Şagirdlərdə tolerantlığın formalaşdırılmasında davranış xəttinin, yəni müsbət davranış təcrübəsinə yiyələnməyin rolu da böyükdür. A.İ. Titarenko, A.A. Hüseynov və b. yazırlar: “Bu və ya digər əməlin təhlilinin hərtərəfli olması yalnız o zaman mümkündür ki, o, təcrid olunmuş surətdə deyil, şəxsiyyətin bütün davranışının, onun istiqamətinin, bütövlükdə insanın əxlaqi simasının qiymətləndirilməsi prizmasından nəzərdən keçirilsin. Ayrı-ayrı əməllərin əxlaqi qiymətinin hərtərəfli təhlilinin daha tam meyarı “davranış xəttidir”. Ona görə də bu mənada Hegelin belə bir müddəası ədalətlidir ki, “subyektin bir sıra əməlləri – elə onun özüdür”.

Tolerant davranışa yiyələnmək üçün davranış mədəniyyətinə malik olmaq lazımdır. Davranış mədəniyyəti dedikdə, şəxsiyyətin birgə yaşayışının ümumi tələb və qaydalarının müəyyənləşməsi, ətraf aləmlə düzgün münasibət qurmaq qabiliyyəti anlaşılır.

**ƏDƏBİYYAT**

1. http://ethnopsychology.academic.ru/398/этническая_толерантность
2. http://russian.people.com.cn/31519/7345054.html.

## YENİYETMƏLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ QARŞILIQLI MÜNASİBƏTLƏRƏ ONUN TƏSİRİ

**Nicat Əliyev,**
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*ARTPİ*
E-mail:nejataliyev@yahoo.com

***Açar sözlər:*** *ailə, müdaxilə, tələb, “MƏN”, ziddiyyət*
***Ключевой слова:*** *семья, требование, “Я”, противоречие*
***Key words:*** *family, interference, pressure, “I”, contrast*

Yeniyetməlik yaş dövrünün xarakterik xüsusiyyətlərindən biri də yaşıdları ilə ünsiyət və qarşılıqlı münasibətlərə daha çox üstünlük vermələri ilə bağlıdır. Onlar ilk növbədə həmyaşıdları ilə kiçik qruplarda birləşirlər. Oğlanların qrupu adətən 6-8, qızların qrupu isə 2-3 nəfərdən ibarət olur. Yeniyetmə oğlan və qız

qruplarında say fərqi onların psixoloji xüsusiyyətləri ilə bağlıdır. Psixoloji tədqiqatlar (İ. S. Kon, A.Q. Xrupkova, D.N. İsayev və b.) göstərir ki, bu yaş dövründə oğlan və qızlar dostluğa meyl edirlər Lakin qızlar öz sirlərinin yayılmasından ehtiyat edərək qruplarına çox adam qəbul etmək istəmirlər. Oğlanlarda isə bu problem yoxdur. Yeniyetmələr əks cinsdən olan yaşıdlarına öz problemləri, qayğıları barədə danışmağı xoşlamırlar. Əgər bu hal baş verirsə, deməli onlarda özünəinam zəifdir. Hətta oğlan və qızlar bir-birlərinə rəğbət bəsləsələr belə bu barədə artıq danışmaqdan çəkinirlər. Yeniyetməlik yaşının xarakterik xüsusiyyətlərindən biri də yaşıdları ilə ünsiyyət prosesində öz "MƏN"lərini önə çəkməklə bağlıdır. L.S. Vıqotski yazır ki, yeniyetmə sosiallaşmaya güclü meyl etdiyindən, öz "MƏN"ini sınaqdan keçirməyə çalışdığından, müstəqilliyə can atdığından valideynlərlə, müəllimlərlə, eləcə də digər yaşlılarla tez-tez konflikt vəziyyətinə düşür. Elə bu psixoloji təsir vasitəsilə tədricən onların yeni keyfiyyətdə "MƏN"i formalaşır. Valideynlər adətən yeniyetmələrdən özlərinin bəyəndikləri kimi davranmağı tələb edirlər. Belə münasibət isə yeniyetmələri narahat edir. Başqa sözlə, valideynlər yeniyetmə övladlarından sosial normalara əməl etmələrini tələb edirlər, lakin bu zaman onların hiss, istək və arzularını nəzərə almırlar.

**ƏDƏBİYYAT**

Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.

## MƏKTƏB PSİXOLOQUNUN MÜƏLLİMLƏRLƏ APARDIĞI PSİXOLOJİ MAARİFLƏNDİRMƏ İŞİ

**Nüşabə Məmmədova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*

***Açar sözlər:*** *təhsil sistemi, tərbiyəçi, müəllim, valideyn, şagird.*
***Ключевые слова:*** *система образования, воспитатель, учитель, родитель, ученик.*
***Key words:*** *educational sistem, educator, teacher, parent, pupil.*

Müəllim və tərbiyəçinin peşəkar fəaliyyətinin səmərəliliyi onların peşə mühiti ilə yanaşı, pedaqoji ünsiyyət bacarıqlarından, şagirdlərin yaş və psixoloji xüsusiyyətləri haqqında biliklərinin səviyyəsindən, başqa sözlə desək peşə səristəliliyindən əhəmiyyətli dərəcədə asılıdır. Müasir dövrdə milli təhsil sistemimiz nəticəyönlü və şəxsiyyətyönlü strategiya üzrə inkişaf etməkdədir. Bu prosesdə psixoloji komponent vacib amillərdən biri kimi ciddi nəzərə alınmalıdır. Hələ XIX əsrdə təhsildə bu amilin rolunu yüksək qiymətləndirən rus ədibi, tənqidçisi Belinski yazırdı: "psixologiyaya əsaslanmayan pedaqogika anatomiyanın mövcudluğundan xəbəri olmayan fiziologiya kimi yoxsuldur". Təhsil sistemində praktik psixoloji xidmət şəbəkəsinin genişlənməsi zəruri həyati tələbat və reallıqdır. Uzun müddət peşəkar pedaqoji fəaliyyət sahəsində çalışan müəllimlər ixtisasartırma və təkmilləşdirmə kursları vasitəsilə psixologiya elmindəki yeniliklərlə tanış olsalar da, indi bu sahədə işin ağırlığı əhəmiyyətli şəkildə məktəb psixoloqunun üzərinə düşür. Onun iş sistemində müəllimlər arasında aparılan psixoloji maarifləndirmə üzrə işlər müəyyən yer tutur. Bu istiqamətdə aparılacaq işlərin sistemində aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

- müəllimlərin ümumi psixoloji savadının yüksəldilməsinə kömək etmək;
- şəxsiyyətin inkişaf prosesini öyrənmək üçün asan diaqnostik metodikaları mənimsəməkdə onlara kömək göstərmək;
- şagirdlərin və şagird kollektivinin psixi inkişafında müşahidə olunan qüsurların aradan qaldırılmasında psixoloji biliklərə istinad edilməsini təmin etmək. Psixoloqun müəllimlərlə işi o halda səmərə verə bilər ki, müəllimlər öz peşə fəaliyyətinin mahiyyətini dərk edərək özünü təhsil və özünü inkişafın zəruriliyini anlamış olsunlar. Pedaqoji konsiliumların təşkili və keçirilməsində psixoloq öz mütəxəssis mövqeyini ortaya qoymağı bacarmalı, şagirdlər haqqında məlumatların yalnız müəllimlərdən deyil, müxtəlif mənbələrdən əldə edilməsinin mümkünlüyünü və zəruriliyini əsaslandırmağı bacarmalıdır, psixoloqun müəllimlərlə işinin əsas məqsədi pedaqoji prosesin hər bir uşağın azad inkişafı

mühitinə çevrilməsinə yardım göstərməkdən, təlim-tərbiyə prosesində hər bir uşağın fəaliyyətinin, maraq və meyllərinin formalaşmasına əlverişli zəmin yaratmaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq üçün psixoloq ilk növbədə müəllimlər arasında müasir pedaqoji-psixoloji nəzəriyyələrin fəal təbliğinə nail olmalıdır. Psixoloq müəllimlərlə şagirdlər arasındakı qarşılıqlı münasibətlərin öyrənilməsinə, bu münasibətlərin humanist, demokratik, qarşılıqlı əməkdaşlıq, uşaq şəxsiyyətinə hörmət prinsipləri əsasında qurulmasına həssaslıqla yanaşmalıdır. Psixoloqun maarifləndirmə işinin formalarından biri onun müəllimlərin daimi fəaliyyət göstərən seminarın təşkil etməsidir. Burada müəllimlərin peşə fəaliyyəti ilə bağlı müxtəlif pedaqoji-psixoloji problemlərinin müzakirələri keçirilir. Belə müzakirələrdə müəllimlərlə yanaşı, sinif rəhbərləri, uşaq birliyi təşkilatının rəhbəri və məktəb rəhbərləri də iştirak etməlidir.Məktəbdə təşəkkül tapmış ənənələrin daha da möhkəmləndirilməsi, şagird özünüidarəsinin müxtəlif formalarının inkişaf etdirilməsi istiqamətində apardığı səmərəli fəaliyyətinin nəticələri heç şübhəsiz psixoloqun məktəbin pedaqoji və şagird kollektivi arasında mərkəzi və nüfuzlu bir sima kimi mövqelərinin möhkəmlənməsinə etibarlı təminat yaratmış olur. Ona görə də bu sahədəki mövcud boşluğu doldurmaq üçün psixoloji xidmət sisteminin və onu həyata keçirən əsas şəxs kimi praktik məktəb psixoloqunun üzərinə bir sıra vəzifələr düşür: müəllimlər arasında maarifləndirmə işinin və psixoloji biliklərin təbliğinin forma və metodlarının müəyyənləşdirilməsi; müəllimlərin şagirdlərin öyrənilməsi metodları ilə tanış edilməsi; müəllimlərin korreksiya metodları ilə tanış edilməsi.

## КОНЦЕПЦИИ ОДАРЕННОСТИ В СОЕДИНЕННЫХ ШТАТАХ АМЕРИКИ

**Гюнель Ахмедова,**
*старший научный сотрудник ИПОАР*
E-mail gunelahmedova@yandex.ru

***Açar sözlər:*** *təhsil, istedad, şagird, potensial, konsepsiya*
***Ключевые слова:*** *образование, талант, ученик, потенциал, концепция*
***Key words:*** *education, talent, student, potential, conception*

В Соединённых Штатах впервые специальные образовательные положения об одарённых детях были предложены в 1867 году Св. Луисом.В государственных школах была создана система гибкого оценивания для детей этой категории, что позволяло им добиваться больше положительных результатов, нежели при жёсткой бальной системе.

В 20-е годы XX-го века в школах крупных городов США обучение одаренных детей стало проводиться на основе специальной образовательной программы для этих детей. Эти программы разрабатывались в основном при содействии родителей или организаций гражданского общества. В Кливленде штат Огайо, например, в 1922 году группа женщин создали общеобразовательной школе класс для одаренных детей. В создании этого класса невозможно не отметить также усилия психолога Х.Х. Годдарда. В течении 1930-х годов психолог Лета Холлингворт внедрил особые образовательные программы для одарённых детей в школах города Нью-Йорк. Холлинворт разработала усложненную деятельность для одаренных детей, считая, что это поощрит их потенциал, великий ум и оригинальное мышление. Она также выступала за необходимость психологического консультирования этих детей, подчеркивая важность эмоционального состояния при интеллектуальном развитии. Л. Терман провел долгосрочное исследование одаренности (более чем 1500 человек), результаты которых были внесены в базу знаний касающихся характеристик лиц с одаренностью. С 1925 по 1959 годы под авторством Термана были опубликованы пять томов отчета по результатам исследования. В докладах озаглавленных как «Генетическое изучение гениальности» описывались лица с детства и до среднего возраста. После смерти Термана, его коллеги продолжали следить за жизнью этих людей.

Терман при выборе таких детей использовал только один критерий – высокий IQ. Все дети проходили тестирование по шкале Стенфорда-Бине (большинство было 140 и вышеIQ). После

выбора для исследования каждый предмет оценивался учитывая успеваемость и личностные качества испытуемого.

Заключения Термана разрушили некоторые мифы об одаренности, которые были широко распространены в те времена, до начала его исследования. Один из них: «ранняя спелость, раннее гниение» . Этот миф о том, что раннее интеллектуальное развитие приводит к снижению, «выгоранию» способностей в зрелом возрасте. Другой касался того, что высокие способности приводят к психическим заболеваниям «гениальность и безумие взаимосвязаны». Также в те времена считалось, что одаренные дети бывают хрупкими и уязвимыми. Вопреки этим стереотипам Терман обнаружил своих испытуемых во всех областях физически, социально и психологически здоровыми. Он также обнаружил, что эти дети имеют высокую успеваемость в школе. Обговаривался и тот факт, что двое детей которые были отсеяны из исследования потому что их IQ не был очень высок стали лауреатами Нобелевской премии (физики Уильям Шокли и Луис Альварес).

**ЛИТЕРАТУРА**

1. J. David Smith: ”Inclusion – schools for all students ”, Wadsworth Publishing, 1998.
2. Romer L.T., and N.C. Haring: “ The Social Participation of Students with Deaf Blindness in Educational Settings”. Education and Training in Mental Retardation and Developmental Disabilities, 1994.

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ И СТРАТЕГИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

**Мая Джафаргулиева,**
*преподаватель Бакинского Славянского Университета*
E-mail: jafarguliyeva.mayya@gmail.com

***Açar sözlər:*** *mədəniyyət, multikulturalizm, siyasət, inklüziv təhsil, Azərbaycan*
***Key words:*** *culture, multiculturalism, policy, inclusive education, Azerbaijan*
***Ключевые слова:*** *культура, мультикультурализм, политика, инклюзивное образование, Азербайджан*

В современном мире феномен «культурного многообразия» расценивается не только, как суммарность различных культур, а качественно новая «множественная идентичность». Сегодня культурное многообразие является своеобразной платформой, которая может выступать как основа для взаимодействия, диалога и обогащения, способствующие развитию общества во имя «общего блага». Мирное сосуществование внутри этого единого пространства становится возможным, благодаря присутствию в обществе здоровой терпимости по отношению к любого типа различиям и четко продуманной государственной политики. Политика мультикультурализма, направленная на сохранение и развитие культурных различий, представляет собой целый комплекс мер по регулированию процессов признания, сохранения и развития культурных различий, а также обеспечения интеграции различных идентичностей без ассимиляции. Принцип единства разнообразия, предполагающий разность и равноправие всех элементов фрагментированного общества является основополагающим в образовательной стратегии в условиях мультикультурного общества. Межкультурный диалог является обязательным компонентом на пути оптимизации сотрудничества и взаимодействия, в том числе и в сфере образования. (3)

В условиях развитого демократического сообщества инклюзивная стратегия в системе образования призывает «соответствовать индивидуальным образовательным потребностям личности, опирается на либеральные концепции «культурного разнообразия», проповедующие субкультурные предпочтения во всех сферах общественной жизни. Главная цель такой образовательной стратегии – недопущение дискриминации и обеспечение «равенства» различного

рода меньшинств с большинством. Такая стратегия развития делает образовательную сферу более чувствительной к запросам всех граждан, независимо от их культурной принадлежности и индивидуальных особенностей. В данном случае мы имеем дело с расширением понятия мультикультурности и интероперабельности данного понятия не только в отношении этнического и религиозного разнообразия. (4)

Внедрение инклюзивного образования в Азербайджане происходит согласно принципам современной политики мультикультурализма и приоритетам построения равноправного общества. Следует отметить тот факт, что законодательная база Азербайджана предусматривает интеграцию в общество людей с ограниченными возможностями здоровья и отвечает международным стандартам. Право на образование является одним из фундаментальных прав любого человека. Статья 42. «Право на образование» Конституции Азербайджанской Республики содержит положение о государственном обеспечении прав на получение образования каждого гражданина. (1)Статья 3. «Основные принципы государственной политики в образовательной сфере» Закона Азербайджанской Республики об Образовании от 7 октября 1992 года (с учетом поправок от 19 июня 2009 года) провозглашает равенство, гуманизм и толерантность основополагающими принципами образования. Статья 5. вышеупомянутого закона «Государственная гарантия права на образование» отражает гарантии возможностей получить образование каждому гражданину независимо от его пола, расы, языка, религии, политических убеждений, национальности, социального положения, происхождения, возможностей здоровья и недопущение дискриминации. (2)

Согласно статистическим данным, в настоящее время в Азербайджане 1105 детей с ограниченными возможностями здоровья посещают школы и получают специальное образование, 2664 человек – школы-интернаты, 7750 человек – получают образование на дому, и 295 человек – обучаются в инклюзивных образовательных учреждениях. Также в стране существуют четыре центра реабилитации и развития для детей с ограниченными возможностями здоровья. Кроме того, были подписаны и ратифицированы ряд международных документов регулирующих данную сферу, таких как «Всеобщая декларация прав человека" (1948), "Декларация о правах ребенка" (1959), "Конвенция о правах ребенка" (1989), «Всемирная Декларация прав ребенка» (1990 г.), "Стандартные правила обеспечения равных возможностей для людей с ограниченными возможностями" (1993).

**ЛИТЕРАТУРА**

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995. http://president.az/azerbaijan/constitution/
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
http://edu.gov.az/az/page/72/302
3. Жукова Т. А., Мультикультурализм и образование: проблемы и перспективы // Молодой ученый, 2016, № 5-6
4. Dumouchel P, Comparative Multiculturalism, Ritsumeikan University
http://www.ritsumei.ac.jp/acd/gr/gsce/s/pd01/Comparative_Multiculturalism.pdf

## TƏLİM PROSESİNDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Sevinc Orucova,**
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mailI: sevinc.orucova.71@mail.ru

***Açar sözlər:*** *pedaqoji ünsiyyət, humanistləşdirmə, müəllim, qarşılıqlı münasibət, şagird*
***Ключевые слова:*** *педагогическое общение, гуманизация, взаимоотношения, учитель, ученик*
***Key words:*** *humanistic, interrecelation, pedagogical communication, teacher, student*

İnsan şəxsiyyəti bir sıra münasibətlərin təsiri altında formalaşır ki, bunlardan biri də müəllim-şagird münasibətləridir. Məqalədə məhz kiçik məktəb yaşı dövründə müəllim-şagird münasibətlərinin

psixoloji xüsusiyyətlərinin təhlil etməyə çalışacağıq. Uşağın bir fərd və şəxsiyyət kimi formalaşıb inkişaf etməsi həmişə onun başqa insanlarla qarşılıqlı münasibətlərinin xarakteri ilə şərtlənir. L. S. Viqotskinin fikrincə, "Uşağın mədəni inkişafında hər bir funksiya işini iki dəfə, iki planda əvvəlcə sosial, sonra psixoloji planda göstərir".

Qarşılıqlı münasibətlər müxtəlif olsa da, həmişə şaxəli xarakter daşıyır. Ayrı-ayrı yaş dövrlərində onlardan hər biri yeni məna kəsb edir və uşağın bir şəxsiyyət kimi inkişafı prosesində özünəməxsus rol oynamağa başlayır. Bu baxımdan kiçik məktəbli yaşı dövründə müəllim-şagird münasibətlərinin əhəmiyyəti artır. Xüsusilə birinci və ikinci siniflərdə şagirdlər üçün müəllim daha çox valideyn ölçüləri ilə səciyyələnir. Bu yaş dövründə şagirdlər müəllimin bir insan kimi şəxsi keyfiyyətlərinə daha çox məna verilir. Onların ümumi rəyinə görə, müəllim xeyirxah, mehriban, ədalətli, həssas olmalı, uşaqları sevməlidir.

Təlim prosesində müəllim-şagird münasibətləri zamanı pedaqoji ünsiyyət xüsusi əhəmiyyət kəsb edir. Dərs ilinin ilk günlərində hər bir şagirdin müəllim, müəllimin də şagirdlər barədə ilkin təsəvvürləri yaranır. Tədricən bu fikir ya dəyişir, yaxud da möhkəmlənir. Müəllimin münasibətindən asılı olaraq tədricən pedaqoji kollektivdə şagird barəsində müəyyən rəy yaranır. Bu rəy şagirdin inkişafına əsaslı təsir göstərir, bir halda onun imkanlarını genişləndirir, başqa halda işə məhdudlaşdırır.

Müəllimin şagird haqqında rəyinin müsbət olması, şagirddə özünə güvən hissini artırır, təlimə marağı gücləndirir. Əsasən şagirdləri həvəsləndirmə müəllimlər qarşısında əsas vəzifədir. Bu zaman müəllim hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Çünki, hər şagirdin şəxsi öyrənmə üsulu, müxtəlif maraqları, ailə şəraiti və s. mövcuddur. Məhz ona görə müəllimlər şagirdlərinin həyatı ilə maraqlanmalı, onları yaxından tanımalıdırlar. Bundan sonra müəllimlə şagird arasında gözəgörünməz bir bağ yaranır ki, buda müəllim-şagird münasibətlərinin psixoloji cəhətdən düzgün qurulmasına xidmət edən əsas məsələlərdəndir. Müəllimlər gözəl təlimatçı, yüksək səviyyədə savadlı şəxs ola bilər, lakin onlar şagirdlərdə təlimə qarşı həvəs yaratmağı bacarmırlarsa onlar yaxşı müəllim kimi qəbul oluna bilməz.

Ümumtəhsil məktəblərində şagirdlərlə müəllimlər arasında qarşılıqlı münasibətlər düzgün qurulmadıqda bilik, bacarıq və vərdişlərin mənimsənilməsi də aşağı səviyyədə olur. Unutmaq olmaz ki, hazırda respublikamızda təhsil sisteminin yeniləşdirilməsi və humanistləşdirilməsi şagird şəxsiyyətinin maksimum inkişafına xidmət etmək istiqamətində modernləşdirilir. Bu mənada müəllimlə şagird ancaq əməkdaşlıq etməklə qarşılıqlı fəaliyyətlərini qura bilərlər. Məktəbdə bu istiqamətdə iş bir növ davam etdirilməli, müəllim-şagird münasibətləri elə qurulmalıdır ki, ölkəmizdə təhsil sahəsində islahatların getdiyi bir zamanda özünə inamlı, qarşıda duran problemin həlli yollarını tapan, qərar verməyə bacarığı olan və qərarının doğruluğunu anlayan şagirdlər yetişdirilsin.

**ƏDƏBİYYAT**

1. Əlizadə H.Ə. Tərbiyənin demokratik problemləri. Bakı: Maarif , 1991.
2. Cəfərov H.A. Obyektiv və subyektiv amillərin şagirdlərin sağlam həyat tərzinə təsiri // Azərbaycan məktəbi, 2009, № 4
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991.

## İDMAN MƏŞĞƏLƏLƏRİNDƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İRADƏ TƏRBİYƏSİ İLƏ BAĞLI GÖRÜLƏN İŞLƏRİN MƏZMUNU

**Zəhra Əliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: aliyeva.zy@gmail.com

***Açar sözlər:*** *iradə tərbiyəsi, iradə tərbiyəsi üzrə aparılan işlər, özünütərbiyə iradə tərbiyəsinin komponenti kimi*

***Ключевые слова:*** *воспитание воли, работа проводимая по воспитанию воли, самообразование как компонент воспитания воли*

***Key words:*** *education of the will, work carried about the education of the will, self-education as a component of upbringing of volition*

İradə tərbiyəsi üzrə işləri daha çox fənlərin tədrisi prosesində həyata keçirmək mümkündür. Orta ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərin yetişən nəslin iradə tərbiyəsini inkişaf etdirmək imkanları vardır. Bu fənlərin içərisində isə ibtidai siniflərdə tədris olunan ana dili, musiqi, təsviri incəsənət, fiziki tərbiyə, texnologiya və həyat bilgisi fənlərinin uşaqların iradə tərbiyəsini inkişaf etdirərək formalaşdırmaq imkanları daha genişdir.

İbtidai siniflərdə iradə tərbiyəsi üzrə aparılan işlər müxtəlif tədris fənlərinin müvafiq mövzuları vasitəsi ilə sistemə salınaraq kiçik məktəbyaşlı şagirdlərə aşılanarsa gələcək nəsilləri qətiyyətli, təşəbbüskar, inamlı, mətin, dözümlü, səbirli formalaşdırmağa xidmət edər. Təlim prosesində bir sıra fənlər vasitəsi ilə iradə tərbiyəsi üzrə işlər təşkil etmək mümkündür. Bu fənlərdən daha çox ana dili, həyat bilgisi, musiqi, təsviri incəsənət, texnologiya, fiziki tərbiyə müvafiq iradi vərdişləri formalaşdırmaq baxımından əlverişlidir. Dərsdənkənar tədbirlərdən fərqli olaraq burada xüsusi görüşlər, disputlar, ekskursiyalar təşkil etməyə ehtiyac yoxdur. Həmin fənlərin vasitəsi ilə mövzulara müvafiq öyrədici materiallar hazırlayaraq hər bir ibtidai sinif müəllimi fənlərin tədrisini səmərəli təşkil edə bilər.

İbtidai sinif şagirdlərində iradəni keyfiyyətli tərbiyə etmək üçün müəllim uşaq qətiyyətinin xüsusiyyətlərinin nəzəri və praktik mahiyyətini yaxşı bilməlidir. Çünki, uşaqlarda qətiyyətin, həm də bütövlükdə iradənin inkişafı əvvəlcə ləng gedir. Ona görə ki, qətiyyət birinci növbədə, onların həyat təcrübəsindən və düzgün tərbiyəsindən asılıdır. Əgər uşağın həyat təcrübəsi yetərincə deyilsə, onun qətiyyətli olacağını ehtimal belə etmək olmaz. Təcrübə göstərir ki, uşaqların qətiyyəti yaşlı adamın qətiyyətindən ciddi surətdə fərqlənir. Bu, onunla izah edilir ki, bu yaş dövründə uşaqlar öz diqqətini tam şəkildə tənzimləyə bilmirlər. Uşaqların diqqətsizliyinin əsasında onların iradi fəallığının, işlərinin impulsivliyi, eləcə də belə hərəkət impulsivliyini ləngitməyə imkan verən səbirlilik və təmkinliyin çox zəif inkişafı durur. Bu zaman uşaq təfəkkürü bir motivi və ya dəlili digərinə qarşı qoyur. Əgər uşaq səbir, təmkin nümayiş etdirirsə, deməli, onun iradi fəallığı onun təfəkkür tərzi ilə uyğunlaşa bilir. Məhz belə bir şəraitdə uşağın qərarı onun işi düzgün icra etməsi ilə nəticələnir.

Kiçik yaşlı məktəblilərdə təşəbbüs və müstəqillik tərbiyə etmək, şübhəsiz, ibtidai sinif müəlliminin ən mühüm vəzifələrindəndir. Belə keyfiyyətlərin uşaqlarda tərbiyə işi həm sinifdə, həm də sinifdən kənarda həyata keçirilir. Bu zaman ana dili, musiqi, əmək, oyun və idman təmrinlərinə də üstünlük verilir. Təşəbbüs və müstəqilliyin tərbiyə edilməsini təmin edən tədbirlər içərisində bir sıra zəruri şərtlər də vardır. Deməli, uşağa tapşırılan işin icrası düzgün qərardan ayrılırsa, belə uşaq zəif iradəli, qətiyyətsiz uşaq hesab olunur. Buna görə meydana gələn çətinlikləri və maneələri aradan qaldırarkən uşaqlara tapşırılan işin icrası zamanı qətiyyətin tərbiyə edilməsinə xüsusi diqqət vermək çox vacibdir. Onlardan birincisi, uşaqların fərdi xüsusiyyətlərini nəzərə alan sinif və müstəqil ev işlərinin sinif müəllimi tərəfindən yaxşı düşünülmüş sisteminin həyata keçirilməsindən ibarətdir.

İkincisi, verilən tapşırıq və vəzifələr bölüşdürülərkən uşaq marağı və meyllərinin hesaba alınması çox vacibdir. Çünki bu və ya digər işdə uşaqların maraqlılığı təşəbbüskarlıq və müstəqilliyin inkişafına kömək etmiş olur. Üçüncüsü, ictimai iş üzrə verilən fərdi tapşırıqların geniş tətbiq edilməsi və onların yerinə yetirilməsinə nəzarət etmək də vacibdir. Bu zaman əgər aydın olmayan tapşırıq verilirsə, onda uşaqlar işi süst və maraqsız görəcəklər. Əksinə, əgər məqsədlər və məsuliyyət hissi fərdiləşdirilən kimi icraçı uşaqların iradi səyləri və onların əmək məhsuldarlığı kəskin surətdə yüksəlir. Belə olan təqdirdə, sadəcə olaraq, sinif müəllimləri izləməlidirlər ki, hər hansı kollektiv iş uşaqların faydalı təşəbbüsünü ləğv etməsin, əksinə, onu inkişaf etdirsin.

Dördüncüsü, uşaqları mümkün qədər tez-tez elə vəziyyətdə qoymaq lazımdır ki, bu vəziyyətdən çıxmaq onlardan müstəqillik, təşəbbüskarlıq, zirəklik, qətiyyətlilik göstərməyi tələb etsin. Tələbkarlıqla yanaşı, onlara kömək etməyi də unutmaq olmaz.

Beşinci, kiçik yaşlı uşaqların belə faydalı təşəbbüsünün həvəsləndirilməsi vacib sayılır. Altıncısı, uşaqların maraq və meyllərindən doğan düşünülmüş təşəbbüskarlığın rəğbətləndirilməsi faydalı hesab olunur.

Buradan belə qənaətə gəlmək olar ki, təlim prosesində müəllimlər kiçikyaşlı məktəblilərin iradə tərbiyəsinin təşkilində məqsədyönlü, planlı, mütəşəkkil iş aparmalıdırlar.

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD İNSANLARIN CƏMİYYƏTDƏ QARŞILAŞDIQLARI ƏSAS ÇƏTİNLİKLƏR

**Salatın Hacıyeva,**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *cəmiyyət, qüsurlu insan, çətinlik, təhsil, inteqrasiya*
***Ключевые слова:*** *общество, инвалид, трудность, образование, интеграция*
***Key words:*** *society, disabled man, difficulty, education, inteqration*

İnsanlar səs, görkəm, fikir və düşüncələrinə görə bir-birindən fərqləndiyi kimi talelərinə görə də fərqlənirlər. Kimisi həyatın bütün gözəlliklərindən zövq alaraq həyat sürür, kimisi də əksinə, hansısa bir səbəb üzündən sağlamlığını itirir. Qüsurluluq da insan taleyinə yazılmış ağır bir dərddir. Dərd isə o zaman yüngülləşir ki, onu səninlə bölüşən olsun. Cəmiyyətin diqqəti bu dərdli insanlara yönəlsin.

Qüsurluların sağlamlıq imkanları məhdud olsa da, cəmiyyətə inteqrasiya imkanları məhdud deyil. Lakin bu gün Azərbaycanda qüsurluların cəmiyyətlə bütünləşməsi istiqamətində bir sıra problemlər özünü göstərməkdədir. Həyatın bir çox sahələrini əhatə edən bu problemlər qüsurlu şəxslərin cəmiyyətlə əlaqəli yaşamalarını olduqca çətinləşdirir. Bu isə daim problemlərlə üzləşən və heç bir çıxış yolu tapa bilməyən bu insanların özünügerçəkləşdirmə haqqını aradan qaldıran keyfiyyətsiz həyat tərzi deməkdir.

Qüsurlu insanların cəmiyyətlə bütünləşməsinin qarşısında duran maneələrdən biri və bəlkə də ən mühümü yoxsulluqdur. Aparılan araşdırmalardan məlum olmuşdur ki, dünyanın hər yerində qüsurluların böyük əksəriyyətini cəmiyyətin kasıb təbəqəsindən gələn və yoxsulluq içərisində yaşayan insanlar təşkil edir. Ayrıca qüsurluluq işsizliyin səbəbləri arasında da mühüm yerlərdən birini tutur. Bu iki hadisə arasında nəticə etibarilə bir əlaqə olduğunu da söyləmək mümkündür. Deməli, qüsurlu insanların cəmiyyətə inteqrasiyasının qarşısında duran ən ciddi problemlərdən birisi sosial-iqtisadi təbəqənin bütünlükdə yaşadığı yoxsulluq problemidir. Bu problemin aradan qaldırılması və qüsurlu insanların özlərini idarə edə bilməsi üçün onların müəyyən bir peşəyə yiyələnmələri və işlə təmin edilmələrinə xüsusi diqqət yetirilməlidir. Mühüm olan onların qüsurlu da olsalar çalışaraq cəmiyyətə yaradıcı bir fərd olaraq daxil olmalarıdır.

Qüsurluların cəmiyyətdə sosiallaşmasının qarşısında duran başqa bir maneə təlimlə bağlı qarşılaşdıqları problemlərdir. Bütün ölkələrdə təhsil sistemi əhalinin sağlam təbəqəsi üçün planlaşdırıldığından, elə lap başdan qüsurlular təhsildən kənarda qalır, fiziki qüsurlu uşaqların təhsilə cəlb olunması və inklüzivliyi təmin olunmur: "Araşdırmalar göstərir ki, təhsilə cəlb olunan əlil uşaqların böyük əksəriyyəti evlərində təhsil alırlar. Lakin evdə təhsil almaq üsulu müasir dövrdə səmərəli deyil. Burada əsas məsələ onların cəmiyyətə inteqrasiya olunmasıdır, bunun üçün də qüsurlu uşaqlar öz həmyaşıdları ilə birlikdə təhsil almalı və ünsiyyətə girməlidirlər". Bundan əlavə, qanunvericilikdə boşluqlar olduğu üçün fiziki qüsurlu insanların infrastruktur baxımından da problemləri var. Onların hərəkəti üçün lazımi şərait yaradılmır və nəqliyyatdan rahat istifadə edə bilmirlər. Burada kompleks təminetmə olmalıdır. Yaşanılan binalardan tutmuş, ictimai həyat sahələrinə və nəqliyyat vasitələrinə qədər bütün ətraf aləm ünsürlərinin qüsurlu insanların xüsusiyyətlərinin və ehtiyaclarının nəzərə alınmadan tərtib edildiyi bir həqiqətdir. Bütün bunlarla yanaşı, dayaq-hərəkət sistemi pozulmuş və buna görə də araba ilə hərəkət etmək məcburiyyətində olan əlillərin sərbəst hərəkət etməsi üçün küçələrdə, yolüstü və yolaltı keçidlərdə pandusların qurulmaması, xüsusi vasitələrlə təchiz olunmuş avtobusların alınmaması, eşitmə qabiliyyətini tam və ya qismən itirmiş əlillərin zəruri informasiya ilə təmin edilməməsi, nəqliyyat vasitələrinin hərəkət intensivliyi yüksək olan küçə və prospektlərdə gözdən əlillər üçün səsli işıqforların, əlavə yol nişanlarının quraşdırılmaması, əlillər üçün yaşayış binalarının tikilməməsi, onların mənzillə təmin olunmaması da qüsurlu insanların cəmiyyətdə rastlaşdıqları əsas çətinliklərdəndir. Azərbaycan dövləti sağlamlıq imkanı məhdud olan insanların cəmiyyətə inteqrasiya etməsi üçün bir sıra tədbirlər görür, layihələr həyata keçirir. Lakin qeyd etmək lazımdır ki, əlilliyi olan insanlara xüsusi diqqət, qayğı göstərmək hər bir kəsin borcu, vəzifəsidir. Onların cəmiyyətə

inteqrasiyasını təmin etmək, mövcud komplekslərindən qurtulmalarına nail olmaq, eləcə də problemlərini həll etmək sağlam insanların qarşısında duran ən vacib məsələlərdən olmalıdır. Unutmaq olmaz ki, onların cəmiyyətdə digər insanlarla bərabərhüquqlu yaşamaq haqqı var və bu onlar üçün çox vacibdir.

**ƏDƏBİYYAT**

1. D.Ə. Dostuzadə. Eşitmə qüsurlu uşaqlarla işin təşkili. Bakı, 2011.
2. N. Hüseynova. İnklüziv təhsil. Bakı, 2015.
3. A.H .Леонтьев. Проблемы развития психики.М: МГУ, 1972.

# MUĞAMLAR VƏ ONLARIN PEDAQOJİ ƏSASLARI

**Fərahim Sadıqov,**
*Bakı Elm-Təhsil Mərkəzinin prezidenti, pedaqogika üzrə elmlər doktoru, professor*

***Açar sözlər:*** *muğam, estetik tərbiyə, bədii zövq, tərbiyə vasitəsi, pedaqoji əsaslar*
***Ключевые слова:*** *мугам, эстетическое воспитание, художественный вкус, средство воспитания, педагогические основы*
***Key words:*** *mugham, esthetic education, artistic taste, education means, pedagogical basis*

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən muğama göstərilən misilsiz qayğı onları məhv olmaqdan xilas etdi. Bakıda Heydər Əliyev Fondunun Prezidenti, Millət Vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə inşa edilən "Muğam evi", "Muğam evi"ndə keçirilən muğam müsabiqələri muğamlara yeni həyat bəxş etdi və yeni-yeni muğam ifaçılarını aşkara çıxartdı.

Muğamlar çox mühüm pedaqoji əsaslara söykənir. Biz dəfələrlə demişik ki, əgər musiqi akademiyasında, milli konservatoriyada, orta və orta ixtisas musiqi məktəblərində (lisey, kollec, texnikum və s.) muğam tədris edənlərin otaqlarında "Pedaqoq M. Əliyev", "Pedaqoq M. Məmmədova" sözlər yazılırsa, deməli, bu şəxslər sırf pedaqoji işlə məşğul olurlar. Əgər belədirsə, deməli, onların məşğul olduqları pedaqoji iş pedaqogikanın xüsusi sahələrindən biri hesab olunmalıdır.

Fikrimizcə, belə pedaqoqların apardığı pedaqoji iş sahəsi "Muğam pedaqogikası" adlanmalıdır. Əgər doğrudan da "Muğam pedaqogikası" mövcuddursa, deməli, onun nəzəri və tətbiqi (praktik) əsasları da işlənib hazırlanmalıdır. Belə bir nəzəri mənbənin hazırlanacağı təqdirdə onun "Muğam didaktikası " və "Muğam tərbiyəşünaslığı " bölmələri də olmalıdır. "Muğam didaktikası " bölməsində isə, "Muğam didaktikasının ümumi əsasları ", "Muğam təliminin məzmunu ","Muğam təlimin prinsipləri ","Muğam təliminin üsulları", "Muğam təlimin vasitələri" və s. bu kimi mövzular əsasında didaktik sistem öz əksini tapmalıdır.

Eyni sözləri " Muğam tərbiyəşünaslığı " haqqında da demək mümkündür. Yəni müvafiq olaraq " Muğam tərbiyəşünaslığı " bölməsinə "Muğam tərbiyəsinin ümumi əsasları ","Muğam tərbiyəsinin ümumi prinsipləri", "Muğam tərbiyəsinin mərhələləri ", "Muğam tərbiyəsinin üsul və vasitələri" və s. mövzular daxil edilməlidir. Biz belə tövsiyə və təklifləri hələ ötən əsrin 70-80-cı illərindən irəli sürməyə başlamışıq.

Bir sıra sənətşünas tədqiqatçılar bu məsələ ilə bağlı bəzi faydalı tədqiqatlar aparmağa başlamışlar. XX əsrin 90-cı illərin axırlarından və 2000-ci ilin əvvəllərindən etibarən Musiqi Akademiyasının müəllimi Tamilla Kəngərli "Musiqi pedaqogikası" adlı dərs vəsaiti hazırlamışdır. Əlbəttə, həmin əsəri həm musiqi pedaqogikasının təkmil variantının hazırlanmasında, həm də muğam pedaqogikasının yaradılması işində ilk təşəbbüs hesab etmək olar. Deməli, əminliklə qeyd etmək olar ki, muğam pedaqogikasının yaradılması ilə bağlı ciddi addımlar atmaq mümkündür.

Muğamların mühüm tərbiyə vasitəsi olması barədə xüsusi danışmağı lazım bilirik. Bu barədə danışarkən qeyd etməliyik ki, muğamların estetik tərbiyə amilləri ilə məhdudlaşdırmaq olmaz. Doğrudur muğamlar əsasən estetik tərbiyə vasitəsi hesab olunur. İnsanların bədii zövqünü formalaşdırır, mədəni istirahətini təşkil edir, onları bədii yaradıcılığa sövq edir, estetik-bədii dünyagörüşlərini inkişaf etdirir. Muğamdan həzz alanların yorğunluğu çıxır. Muğam dinləyicilərinin estetik-bədii hiss və duyğularını tənzimləyir. Lakin unutmaq olmaz ki, muğam həm də ideya-siyasi, fiziki, əmək, işgüzarlıq, ekoloji, iqtisadi və əxlaq tərbiyəsinin də mühüm vasitəsi hesab olunur. İnsan əxlaqının saflaşmasında muğam əvəzsiz rol oynayır. İctimai şüurun formalarından biri olan əxlaqın təzahür formaları muğamda da öz təcəssümünü tapır. Məlum olduğu kimi, əxlaqın müsbət təzahürləri, fəzilətləri yaradır.

Böyük mütəfəkkir Nəsrəddin Tusi əxlaqın müsbət təzahürləri olan fəzilətlərin yaranmasında bədiiyyatın (təbii tərbiyənin) və ruhaniyyatın (psixologiyanın) rolunu xüsusi qeyd edir. Bədiiyyatın təsiri isə muğamlar vasitəsilə daha effektli, daha möhtəşəm olur. Deməli, əxlaqın müsbət təzahürləri olan fəzilətlərin yaranmasında bədiiyyatın ən mühüm vasitəsi olan muğamlardan daha geniş şəkildə istifadə olunmasını zəruri hesab etmək olar. Hətta rəzillərin, yəni əxlaqın mənfi təzahürlərinin islah olmasında, insanların pis əməllərdən çəkindirmək işində muğamlardan bəhrələnmək də vacibdir. Çünki muğamların təsirini bir çox hallarda əsl möcüzə də hesab edirlər. Akademik Teymur Bünyadovun "Əsrlərdən gələn səslər " əsərində belə bir epizod təsvir olunur: 40 gün səhrada susuz yol gedən dəvə nəhayət bir gölə rast gəlir .Başını əyib su içmək istəyərkən birdən kaman sədasında muğamsayağı nəğmə eşidir. Ağzını suya vurmadan dəvə başını qaldırıb nəğməyə qulaq asır. Yaxud Mirzə Cəlilin "Kamança" hekayəsində erməni-müsəlman davasının qızğın çağında yüzbaşı erməni əsirini öldürmək istəyərkən onun kamançada çaldığı "Zabul-Segahı"axıra qədər dinləməyə məcbur olur. Yuxarıya qaldırdığı xəncərini aşağıya salaraq muğam möcüzəsinin təsiri ilə bərkdən qışqıraraq "dur rədd ol, bu saat səni də öldürərəm, özümü də " deyir. Bütün bunlar isə deməyə əsas verir ki, muğam doğrudan da gerçəkliyin möcüzəsidir. Məhz belə bir qeyri-adi möcüzə insanların əxlaqının saflaşdırılması işində bənzərsiz rol oynayır.

## KARL ROCERSİN DİDAKTİK İDEYALARININ TƏŞƏKKÜLÜ VƏ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**Fərrux Rüstəmov ,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*ADPU*
E-mail: farrukhrustamov@gmail.com

***Açar sözlər:*** *Karl Rocers, didaktika, təhsil, təlim*
***Ключевые слова:*** *Карл Роджерс, дидактика, образование, обучение*
***Key words**: Carl Rogers, didactics, education, training*

1. Yaddaş məktəbindən təfəkkür məktəbinə keçməkdə olan Azərbaycanda təhsil sisteminin əsasına: ümumi dəyərlər, təhsil prinsiplərinin fəlsəfi əsasları (bərabərlik və azadlıq), təhsil və vicdan azadlığını əks etdirən liberal ideologiya, demokratik cəmiyyətin əsas komponentlərindən olan fasiləsiz təhsil, bərabərlik və məsuliyyətliliyi nəzərdə tutan insan hüquqları qoyuldu. Bu fundamental nəzəriyyənin görkəmli nümayəndələri A. Kombe, A. Maslou və Karl Rocersdir.

2. Tanınmış Amerika psixoterapevti və psixoloqu Karl Rocersin (Carl Ransom Rogers) (1902-1987) didaktik ideyaları maraq doğurur. Onun didaktik konsepsiyasının əsasını insana və onun şəxsiyyətinə inam təşkil edir. Onun zəngin pedaqoji-psixoloji irsi vardır. 16 kitabı, 200-dən artıq məqaləsi dünyanın 60 ölkəsində ayrı-ayrı dillərdə nəşr olunmuşdur. O, dünyada xüsusi təlim konsepsiyası yaradan azsaylı psixoloqlardan biri kimi tanınır. Rus dilinə tərcümə olunmuş "Psixoterapiyaya giriş (psixoterapiyada şəxsiyyətyönlü münasibət)" (1984), "Əgər müəllim olsaydım bu sualları verərdim" (1988), "Ellen Vest və tənhalıq" (1993), "Şəxsiyyətin təşəkkülü" (1994), "Həqiqətən necə varsan, elə də olmalı. Psixoterapeftin insanın məqsədi ilə bağlı baxışları" (2001), "Öyrənmək azadlığı" (2002), "Empatiya" (2002), "Konsultasiya və psixoterapiyaya" (2006) "Şəxsiyyətyönlü psixoterapiyaya" (2006) monoqrafiyaları təhsil-tərbiyə məsələlərinə həsr olunmuşdur. Onun didaktik konsepsiyasının təşəkkülündə aşağıdakı mərhələləri fərqləndirmək mümkündür: I mərhələ - *ilkin dövr (1919-1927-ci illər).* Təhsilin fəlsəfəsi ilə ilkin tanışlıq, tədris prosesində şagirdlərin passiv mövqeyinin qəbul edilməməsi, təlim prosesində tələbələrə azad seçimin verilməsinin zəruriliyinin əsaslandırılması; II mərhələ - *fraqmentlər dövrü (1927-1940-cı illər).* Pedaqoji təcrübə toplanması, psixoterapiyada müştəri-mərkəzli yanaşmanın təşəkkülü, şəxsiyyətyönlü təlim ideyasının irəli sürülməsi və qismən reallaşdırılması; III mərhələ - *innovasiya mərhələsi (1940-1961-ci illər).* Uğurlu psixoterapiyanın və uğurlu pedaqoji fəaliyyətin üsul və vasitələrinin eyniliyi ideyasının irəli sürülməsi, şəxsiyyət mərkəzli (şəxsiyyətəyönəlmiş) təlim konsepsiyasının tam formalaşdırılması; IV dövr - *təbliğat və tətbiqetmə mərhələsi (1962-1987-ci illər).* ABŞ-da və digər dünya ölkələrində K.Rocersin təhsilin inkişafı üçün

vacib olan didaktik konsepsiyasının əsas ideyalarının (şagirdin tam və mütləq şəkildə, yəni necə varsa elə qəbulu, təlimin dəyər, məqsəd, məzmun, forma və metodlarının modifikasiyası prosesində şagirdə pozitiv yanaşma, şagirdin davranışına təsir göstərən biliklərin verilməsi) reallaşdırılması və yayılması.

3. Karl Rocersin didaktik konsepsiyasının formalaşmasının tarixi-nəzəri əsasları aşağıdakılardır:

- *daosizm fəlsəfi ideyaları* (başqa insanın həyatına qarışmamaq, öz iradə və baxışlarını ona zorla aşılamamaq, təbii inkişafına mane olmamaq);

- *ekzistensial fəlsəfənin müddəaları* ( öz təcrübəsinə, şəxsən dərk etdiyi həqiqətə inam, etibar, insanın öz şəxsiyyətini formalaşdırmaqda azadlığı və məsuliyyəti; dialoq digər insanları başa düşmək vasitəsi kimi; xarici və daxili azadlıq insanın təbii vəziyyəti kimi; digər fərdi inkişaf prosesində olan insan kimi qəbul etmək) ;

- *ekstensial psixologiyaya nəzəri baxış (*fenomenoloji nəzəriyyə) *(*həyatın mənasını, məsuliyyətini, tənhalıq və azadlıq kimi ayrılmaz problemləri özündə ehtiva edən insan kultu);

- *A. Adlerin fərdi psixologiyasının konseptual ideyaları* – (insanın yaradıcılıq fərdiliyinin unikallığı ideyası, insan həyatının həmişə kamilliyə can atması);

- *C. Dyunin və U. Kilpatrikin pedaqoji ideyaları* uşağın şəxsi təcrübəsinin rekonstruksiyası qismində öyrətmə haqqında təlimin əsas məqsədi kimi reflektor düşüncənin formalaşdırılması haqqında;

-*humanist psixologiyanin müddəaları (*insanın taleyinin hansısa irrasional həvəslərdən və ya ətraf aləmin dəyişikliklərindən asılı olmayıb, tam şəkildə insanın ağlından və düşüncəsindən asılı olduğunu iddia edən psixoanaliz və biheviorizmə alternativ olan bir nəzəriyyə; insanı fəaliyyətə təhrik edən müxtəlif tələbatları ödəməkdə «seçim azadlığı»na malik olması). İnsanın yaşantılarına, hisslərinə, dəyərlərinə, özünə inamının möhkəmləndirilməsinə və ideal “ Mən”ə yetişmək imkanlarına diqqət.

Keçən əsrin 60-cı illərindən bu günədək onun didaktik ideyaları bütün dünyada təlim-tərbiyə nəzəriyyəsi və təcrübəsinə böyük təsir göstərir, formalaşan yeni humanist pedaqoji-psixoloji ideyaların metodoloji əsası rolunda çıxış edir.

**ƏDƏBİYYAT**


1. Нигматов З.Г. Гуманистические основы педагогики: Учебное пособие. М.: Высшая школа, 2004.
2. Роджерс Карл Р. Взгляд на психотерапию. Становление человека. М.: Изд-во «ЭКСМО-пресс», «Универс», 2001.
3. Роджерс К.Р. Личные соображения относительно преподавания и учения // Человекоцентрированный подход в образовании, психотерапии, психологии. / Пер. с англ. Орлова А.Б. Ростов-на-Дону, 1996.


## “MOLLA NƏSRƏDDİN” JURNALININ MÜXBİR ÜZVÜ ÜZEYİR HACIBƏYOV


**Kamal Camalov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: kamal.camalov@gmail.com



***Açar sözlər:*** *Üzeyir Hacıbəyov,“Molla Nəsrəddin” jurnalı, pedaqoji fikir tarixi, təhsil*
***Ключевые слова:****Узеир Гаджибеков, журнал «Молла Насреддин», педагогическая мысль, образование*
***Key words:*** *Uzeyir Hajibeyov, “Molla Nasreddin” magazine, pedagogical thought, education*


“Molla Nəsrəddin” jurnalında “Anaş qurbağa”, “Başıqapazlı”, “Tısbağa”imzaları ilə tanıdığımız mollanəsrəddinçi Üzeyir Hacıbəyovun yaradıcılıq diapazonu geniş və rəngarəngdir.

Fikrimizi əsaslandırmağın əsas səbəblərindən biri belədir: “Molla Nəsrəddin” jurnalının bir daimi üzvləri var idi, bu jurnalda “həmişəlik yazıçılarımız” adlandırılır. Bir də “Molla Nəsrəddin” jurnalının həmişəlik məslək dostları, əqidə dostları var idi ki, bu da yenə jurnalda “müxbirlərimiz” [1, 1908, № 48, № 49] adlandırılır. Müxbirlərin sırasında Üzeyir Hacıbəyovun da gizli imzasına rast gəlirik.

Üzeyir Hacıbəyov felyeton və məqalələrində varlığın eybəcər tərəflərinə gülmüş, bir çox hallarda isə dərdə dözməyib kövrəldiyini, gülüşün göz yaşına qarışdığını yaradıcılığında aşkar görmək mümkündür.

Üzeyir Hacıbəyovun "Molla Nəsrəddin" jurnalında nəşr olunan "Vladiqafqaz camaatına bir açıq məktub" məqaləsində kəndli məsələsi, zəhmətkeş kəndlilərin hakim təbəqələrdən çəkdiyi zülm və müsibətlər daha böyük yer tutur. Bu yazılar kinayə ilə, qəzəblə, istehza ilə, məsxərə ilə doludur. Onlar hərarətlə yazılmışdır. Azərbaycan kəndlilərini ayıltmaq, ayağa qaldırmaq, mübarizəyə qoşmaq, mübarizəyə qalxmışları isə ruhlandırmaq məqsədini güdür. Buna görə də Üzeyir bəy tez-tez Rusiyanın müxtəlif yerlərində baş verən kəndli çıxışlarını, kəndlilərin mülkədar torpaqlarını zəbt etdiklərini və sairəni yazır, bu xəbərləri kəndlilərin vəziyyəti ilə tutuşdurur və belə nəticəyə gəlir ki, Azərbaycan kəndlisinə olunan zülm həddini aşıb, bu zülmə insan dözə bilməz ki, o dözür.

Ü. Hacıbəyov 1906-1907-ci illər inqilabı dövründə seçdiyi satira və yumor yolu ilə fəhlə və kəndlilərin ağır vəziyyətini, siyasi nümayişləri əzilən və məhvə məhkum olan xalqın mənafeyinə uyğun bir şəkildə işıqlandırmışdır. İnqilab dövründə Üzeyir Hacıbəyovun "Molla Nəsrəddin" jurnalında "Başıqapazlı" imzası ilə çıxan bir felyetonunda oxuyuruq: "Bu gün bazar ilə keçirdim, gördüm iranlı məscidində səkkiz yüzə kimi başı sarılmış, qolu əzilmiş, gözü qızarmış həmşərilər əlləri qoltuğunda, başları çiynində oturmuşlar. Dedim, dadaş, siz burada nə gəzirsiz və sizə nə olub? Birisi bir ah çəkdi, dedi ki, biz "fəxri-millət" Hacının fabrikasında işləyirdik. Allah lənət eləsin pis adama, bizi başdan çıxartdılar ki, siz də adamsınız, ixtiyarınız var, hüququnuz var. Biz nə bilək?.. avam adamıq, biz də bir tələbnamə yazdırıb verdik Hacıya. Birdən gördük, ay başına dönüm!.. saldat, kazak töküldü üstümüzə, bizləri əzdilər, döydülər... Biz nə bilək ki, fəqirlərin, kasıbların heç bir şeydə haqqı yox, ixtiyarı yoxdur?.." [1, 1906, №12].

Göründüyü kimi, XX əsrin birinci yarısında Azərbaycan xalqının zəngin məktəb və pedaqoji fikir tarixinin bir sıra problem məsələləri mollanəsrəddinçi Üzeyir Hacıbəyovun fəaliyyəti ilə sıx bağlıdır.

Üzeyir Hacıbəyov "Molla Nəsrəddin" jurnalının ədəbi dil mədəniyyətinə də qiymət verməyi unutmamışdır. Üzeyir bəy yazır ki, "Molla Nəsrəddin" jurnalı tərəqqi və təalimizə mane olan bütün qəbahətləri ən gözəl ədibanə və ləzzətli, dadlı, duzlu sözləri ilə yazmaqla bütün xalqın, hətta, ondan incik olanların dəxi məhbubəlqəlbi olubdur; çünki bu jurnal bir dənə olsun tərbiyəsiz və ədəbsiz sözü özünə rəva görmədi" [2, 242].

Görkəmli pedaqoq Üzeyir Hacıbəyov "Molla Nəsrəddin" jurnalında xalqın təlimi, təhsili, tərbiyəsi ilə bağlı ciddi yazılar yazmış və həm də pedaqoq kimi çıxış edərək xalqın maariflənməsində bənzərsiz xidmətləri ilə pedaqoji fikir tariximizi zənginləşdirmiş, gənc nəslin tərbiyəsi, əxlaqı məsələlərinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşmışdır. "Mollanəsrəddin ədəbi məktəbinə yaxın olan" [3, 117], "doğma olan" [4, 343] Üzeyir bəyin bu mövzuda yazdığı məqalə, felyeton, Azərbaycan xalq pedaqogikası nümunələrində köhnə, çürük təlim-tərbiyə üsullarını tənqid etmiş, uşaqların, gənc nəslin mütərəqqi üsullar əsasında tərbiyələndirilməsinə çalışmışdır. Uşaqları vətənə və xalqın adət və ənənələrinə və ya milli dəyərlərə məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaq normaları aşılamaq mollanəsrəddinçi Üzeyir Hacıbəyovun ən böyük və nəcib arzularından biri olmuşdur.

## ƏDƏBİYYAT


1. "Molla Nəsrəddin" jurnalı (1906-1931).
2. Üzeyir Hacıbəyli. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985.
3. Cəlil Məmmədquluzadə ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008.
4. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: мühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009.

# NƏBATİ YARADICILIĞINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Sevinc Kərimova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Sumqayıt Dövlət Universiteti*
E-mail: kerimova_sevinc1967@mail.ru
**Xəzəngül Babayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan İqtisadiyyat Universitetinin Zaqatala filialı*
E-mail: x.ramazanova@gmail.com

***Açar sözlər:*** *Nəbati yaradıcılığı, tərbiyə, ailə həyatı, təbiətin təsviri, tərbiyəedici*
***Ключевые слова:*** *творчество Набати, воспитание, семейная жизнь, описание природы, воспитывающий*
***Keywords:*** *creative alarm, upbringing, family life, the description of nature, bringing up*

Seyid Əbülqasim Nəbati 1812-ci ildə Cənubi Azərbaycanda Qaracadağ mahalının Üştibin qəsəbəsində doğulmuş, 1873-cü ildə dünyasını dəyişmişdir.

Nəbati qədim zamanlardan üzü bəri Azərbaycanda, Ərəbistan və İranda məşhur olmuş və geniş yayılmış Nəbatilər tayfalarındandır. O, XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsidir.

Nəbati "Məcnun", "Məcnunşah" və "Xançobanı" ləqəbləri ilə də əsərlər yazmışdır. Çoxsaylı qoşma, təcnis, gəraylı, qəzəl, çarpa, bəhri-təvili vardır. Onun qoşmalarının başlıca mövzusunu məhəbbət təşkil edir. Lirika onun bütün şeirlərinə xasdır.

Nəbati hələ uşaqlıq illərindən atası ilə birlikdə Azərbaycanı qarış-qarış gəzmiş, Təbrizdə, Xorasanda, Lənkəranda, Salyanda, Qarabağda - Əsgəranda, Ağdamda, Hindarxda, Muğanda olmuşdur. Həmin səfərlər zamanı haqqında danışılan yerlərin ədəbi-mədəni həyatı ilə yaxından tanış olmuşdur.

Şair 7500 misradan ibarət "Nəbati" divanın müəllifidir. Divanındakı şeirlərin bir qismi Azərbaycanca, digər qismi farscadır. Nəbatinin əsərləri klassik şərq və aşıq şeri tərzindədir.

Nəbati məşhur "Gəlsin, gəlməsin" qoşmasının (Səba, məndən söylə o gül'üzarə, Bülbül gülüstanə gəlsin, gəlməsin? Bu hicran düşkünü, illər xəstəsi Qapına dərmanə gəlsin, gəlməsin?) və eyni zamanda, mənbələrdə göstərildiyi kimi, dillər əzbəri olan "Apardı sellər Saranı" şerinin müəllifidir.

Professor Zaman Əsgərli Seyid Əbülqasim Nəbatinin yaradıcılığından danışarkən aşağıdakıları diqqət mərkəzinə gətirir: "Nəbati sevən gəncin daxili aləmini, hiss və duyğularını, sevinc və kədərini sənətkarlıqla açır. Onun lirik qəhrəmanı həyat aşiqi, gözəllik vurğunudur. Bir qədər romantik ruhda olmasına baxmayaraq, bu gənc real dünyanı, həyat nemətlərini yüksək qiymətləndirir, xoşbəxtliyi həqiqi sevgidə görür. Məhəbbət yolunda əzab-əziyyətə düşməyi, bəla çəkməyi təbii sayır və bütün cəfalara vəfa göstərəcəyini bildirir. ... Nəbatinin yaradıcılığında dünyəvi hisslərlə ilahi duyğular, maddi həyatla mənəvi aləm, real məhəbbətlə sufiyanə eşq qovuşuq şəkildə təsvir olunur. Şair həyatda istədiklərinə nail ola bilməyəndə ümidini vəhdət aləminə bağlayır, gözəli tərənnüm etməklə ilahi eşqə – "vəhdəti-yekta"ya qovuşacağına səmimiyyətlə inanır və müasirlərini də daxili saflığa, mənəvi ucalığa, "püxtə və arif" olmağa çağırır" (1, 8).

Firudin bəy Köçərli Nəbatinin Azərbaycan ədəbiyyatı tarixindəki rolundan danışarkən bu böyük şairi Hafiz, Şəms Təbrizi və Cəlaləddin Rumiyə tay tutmuşdur. Böyük ədəbiyyatşünas bu barədə yazırdı: "Seyid Əbülqasim Azərbaycan türklərinin Xacə Şəmsəddin Hafizi, Şəms Təbrizisi və bəzi məqamlarda Mövlana Cəlaləddin Rumisi mənziləsindədir" (1, 12 ).

Nəbati qoşmalarında təbiətin təsvirini verir. Həmin təsvirlərdən şagirdlərin ekoloji tərbiyəsində istifadə etmək mümkündür. Diqqət yetirək:

Genə bahar oldu, açıldı güllər,
Bülbül naləsindən tutulur qulaq.
Gül gülə sarmaşıb, çiçək çiçəyə,
Lalə cami-Cəmdən gətirib soraq (2).

Şairin qoşmalarından təhsilalanların ailə həyatına hazırlanması məqsədilə faydalanmaq mümkündür:

Qurban olum sənin gül yanağına,
Ala gözlərinə, dil-dodağına,
İstərəm dolanım solu-sağına,
Necə kim, dolanır şəm'ə pərvanə (2).

İllər, əsrlər ötüb. Nəbati yaradıcılığı yenə də öz aktuallığını saxlayır, təhsilləndirici və tərbiyəedici imkanlar açır.

**ƏDƏBİYYAT**

1. Z. Əsgərli. Ön söz. bax: Seyid Əbülqasim Nəbati. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004.
2. Seyid Əbülqasim Nəbati. Seçilmiş əsərləri. Tərtib edəni: Əbülfəzl Hüseyni. Bakı: Şərq-Qərb, 2004.

## XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN İNKİŞAFI

**Tamilla Vahabova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*A DPU*
E-mail: tamillavahabova@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, nəzəriyyə, etika, milli*
***Ключевые слова:*** *Азербайджан, теория, этика, национальный*
***Keywords:*** *Azerbaijan, theory, ethics, national*

1. XIX əsrin II yarısı - XX əsrin əvvəllərində başqa sahələrdə olduğu kimi, pedaqoji həyatda, tərbiyə sistemində və onunla bağlı nəzəri bazanın yaradılmasında da müasir sivil dünyanın dəyərləri, Qərb meyarları bir istinad qaynağı kimi önə keçir. Milli tərbiyə nəzəriyyəçilərimiz, demokratik baxışlı tərbiyəçilərimiz müasir dünyanın mütərəqqi tərbiyə sistemini öyrənməyi, milli mühitə tətbiq etməyi cari dövrün ən mühüm, aktual məsələlərindən biri kimi ortalığa qoyurlar.

2. Azərbaycanda ilk maarifçilərdən (A. Bakıxanov, M. Ş. Vazeh, İ. Qutqaşınlı) başlayaraq tərbiyənin və tərbiyə nəzəriyyəsinin axarı Şərq məcrasından xeyli dərəcədə ayrılıb Qərb məcrasına yönəlir. M.F. Axundov və " Əkinçi " qəzeti ilə bu ənənə daha da gurlaşır. XX əsrin əvvəllərində milli mütəfəkkirlərimizin, tərbiyəçi ideoloqlarımızın əməyi sayəsində bütöv milli sistem halına düşür. ADR-in (1918-1920) yaranması həmin tərbiyə amalının uğurlu nəticəsi və böyük milli-tarixi faktıdır.

3. Tərbiyə nəzəriyyəçilərimizin müasir tərbiyə missiyasını həyata keçirməkdən ötrü diqqət yetirməli olduğu digər məsələ mütərəqqi baxışlı , hazırlıqlı milli tərbiyəçilərin yetişdirilməsi idi. Elə buna görə də onlar "Müasir tərbiyəçi necə olmalıdır ?" – sualı ətrafında geniş diskussiyalar açır, tərbiyəçi (müəllim) şəxsiyyətini və ona verilən müasir tələbləri geniş müzakirə obyektinə çevirirdilər.

4. Milli özünüdərk və vətənpərvərlik tərbiyəsi demokratik baxışlı ideya və amal sahiblərimizin hədəfini təşkil edən əsas problemlərdən idi. Onlar bu işə vətənin və millətin nicatının başlıca faktorlarından biri kimi baxırdılar.

5. Azərbaycan maarifpərvərləri ölkə vətəndaşlarını insanpərvər, beynəlmiləlçi ruhda böyütməyi arzu edir, özlərinin tərbiyə nəzəriyyələrində humanizm və beynəlmiləlçilik tərbiyəsinə də xüsusi əhəmiyyət verirdilər.

6. Azərbaycan maarifçiləri milli sferada əqli tərbiyəyə də xüsusi diqqət yetirirdilər. Onlar böyüməkdə olan nəsli ağıllı, elmli, bilikli, maarif nuru ilə ziyalanmış, məlumatlı, zehni cəhətdən yetkin şəxsiyyətlər kimi görmək istəyirdilər.

7. Milli tərbiyəçilərimizin yaradıcılığında mənəvi-əxlaqi tərbiyə məsələlərinə də kifayət qədər yer verilir. Çünki onlar vətən övladını mənəvi cəhətdən yetkin, əxlaqi baxımdan kamil vətəndaşlar kimi görmək arzusunda idilər.

8. Mütərəqqi baxışlı ziyalılarımızı böyüməkdə olan nəslin fiziki sağlamlığı, cismani gümrahlığı da düşündürürdü. Onlar "sağlam bədəndə sağlam ruh olar " ənənəvi məntiqindən çıxış edir, vətəndaşların fiziki tərbiyəsi, sağlamlığı uğrunda mübarizə aparırdılar.

9. Azərbaycan maarifpərvərlərinin XIX əsrin II yarısı və XX əsrin əvvəllərindəki yaradıcılıq irsində əmək tərbiyəsi də əsas xətlərdən biri kimi özünü göstərməkdədir. Onlar geniş kütləyə izah edirdilər ki, istər fərdin, istərsə də toplumun bütövlükdə rifahı zəhmətlə, çalışqanlıqla sıx surətdə bağlıdır. Onlar əməyi daha səmərəli, effektli təşkil etməyin yolları barədə də maarifləndirmə işi aparmağa səy göstərirdilər.

10. Milli tərbiyəçilərimiz mənsub olduqları vətənin övladlarını zövqlü, duyğulu, qabiliyyətli, estetik cəhətdən yetkin görmək istəyirdilər. Elə buna görə də öz yaradıcılıqlarında estetik tərbiyə ilə bağlı mülahizə və fikirlərə də geniş yer verirdilər.

**ƏDƏBİYYAT**

1. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Pedaqoji elm. dok . ... dis . Bakı, 1996.

2. Bayramov H. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması. Bakı: Elm, 2015.

3. Məmmədov S. Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı - 1920-ci ilə qədər). Tarix elm. dok. ... dis. Bakı, 1996.

## SOFİYA XANIM STASYULEVİÇİN MƏKTƏBİ

**Vahid Rzayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər***: *İrəvan məktəbləri, S. Stasyuleviçin məktəb-pansionu, şagirdlərin milli tərkibi, məktəbdə təhsilin məzmunu, müəllimlər*

***Ключевые слова***: *Эриванские училища, пансионат-училище С. Стасьюлевич, национальный состав учащихся, содержание образования, учителя*

***Key words***: *Schod of Izavan, boarding sohod of Stasyulevich,national structure of pupils contents of education, school teachers*

XIX əsr və XX əsrin əvvəllərində Qərbi Azərbaycanda təhsil tariximizi zənginləşdirən və onun ümumi mənzərəsini tamamlayan onlarla tədris müəssisəsi fəaliyyət göstərmişdir. Tarixin yaddaşından silinməyən belə məktəblərdən biri də Ehsan xanın oğlu Kalbalı xanın tövsiyəsi ilə İrəvan şəhərində azərbaycanlı uşaqlar üçün yaradılmış məktəbdir. Bu məktəb haqqında məlumat «Сборник материалов для описания местностей и племень Кавказа» (SMOMPK) məcmuəsinin birinci buraxılışında İrəvan gimnaziyasının müəllimi Stepan Pavloviç Zelinskinin «Город Эривань» məqaləsində verilmişdir. (1, 52-54). Məktəb İrəvan şəhərində əsrlərlə formalaşmış təhsil tariximizin çox əhəmiyyətli səhifələrindən birini təşkil edir. S. P. Zelinskinin verdiyi məlumatdan aydın olur ki, müəllim Sofiya Stasyuleviç azərbaycanlı uşaqlar üçün şəxsi təşəbbüsü ilə pansion-məktəb açmışdır. Uşaqların tərbiyəsilə məşğul olmağı özü üçün peşə seçmiş Sofiya xanım hələ İrəvana gəlməmişdən əvvəl bir təsadüf nəticəsində Kalbalı xan Naxçıvanski ilə tanış olmuş, onun uşaqlarının təlimini öz üzərinə götürmüşdür.

Çox keçmir ki, Kalbalı xan öz uşaqlarının müvəffəqiyyətindən razı qaldığını bildirır və müəllim Sofiyanın İrəvana, yaxud Naxçıvana gedib müsəlman uşaqlarının təlimi ilə məşğul olmaq üçün pansion-məktəb açmasını məsləhət görür. Əgər Sofiya xanım razılıq verərsə Kalbalı xan ona müəyyən kömək göstərəcəyini də vəd edir.

Xanım Stasyuleviç razılıq verir. O İrəvana gəlir və ilk əvvəl yerli əsilzadə və xanlara müraciət edərək müsəlman uşaqları üçün pansion açmasında ona köməklik göstərmələrini xahiş edir. Lakin, Sofiya xanım şəhərin ən nüfuzlu şəxslərindən belə qəti olaraq rədd cavabı alır. Yalnız bir təsadüf nəticəsində İrəvan şəhərinin əsilzadələrindən biri olan Şəfi bəy uşaqlarının təlimindən ötəri Stasyuleviçi qəbul edir, öz evində tədris işlərini aparmasına icazə verir. Çox keçmir ki, şəhərin nüfuzlu şəxslərindən olan Şəfi bəyin bu addımı digərlərini də bu məktəbə həvəsləndirir və tədricən burada uşaqların sayı artaraq 15 nəfərə çatır. Xanım Stasyuleviç uşaqlara münasibətində həqiqi pedaqoji rəftar və yüksək qayğı nümunəsi

nümayiş etdirir ki, məhz bunun nəticəsində tezliklə məktəb-pansionda uşaqların sayı artaraq 45 nəfər çatır.

Sofiya xanımın pansionu İrəvan şəhərində azərbaycanlı uşaqlar üçün şəxsi təşəbbüs yolu ilə açılmış birinci xüsusi pansiondur. Az bir müddət ərzində məktəbdə uşaqların təlimi üzrə diqqəti çəkən müvəffəqiyyətlər əldə edilmişdi. Müəllim S.P. Zelinski belə bir faktı xüsusi olaraq qeyd edirdi ki, onun məktəbindən progimnaziyaya qəbul olan şagirdlər ən yaxşı şagird hesab olunmuşlar ( 1, 53).

Xanım Stasyuleviçin məktəbi bütün şəhərdə şöhrət və nüfuza malik olmuş, şəhər cəmiyyətində özünə qarşı böyük hüsn-rəğbət oyatmışdır. Bunu məktəbin çox qısa müddət ərzində fəaliyyətinin göstəriciləri də təsdiq edir. 1877-ci ilin sonunda pansiona 105 şagird daxil olmuşdur. Təkcə bu fakt sübut edir ki, qısa müddət ərzində pansion və onun sahibəsi müəllim xanım Stasyuleviç şəhər əhalisi arasında böyük nüfuz və hörmət qazanmışdır. İlin sonuna yaxın məktəbə rus və digər millətlərdən olan uşaqlar da qəbul edilmişdir. Lakin buna baxmayaraq pansionda bır çox illər ərzində azərbaycanlılar üstünlük təşkil etmişdir (1, 53).

Statistik nəşrlər, təhsil müəssisələri üzrə yaddaş kitabları, hesabatlar, təqvim nəşrlərdə gedən məlumatlardan aydın olur ki, Sofiya xanım Stasyuleviçin məktəbi birsinifli olmuşdur. Məktəb-pansionun pedaqoji heyəti iki müəllimdən ibarət idi:

1. Məktəbin ( pansionun) sahibəsi Sofiya xanım Stasyuleviç.
2. Müəllim xanım Mariya Vasilyevna Boqaçeva (2, 380).

Bəhs olunan əsrin 90-cı illərindən etibarən məktəbdə rus, gürcü və başqa millətlərdən olan uşaqlar üstünlük təşkil edirdi. 1891-ci ildə məktəb-pansionda 20 nəfər şagird təhsil alırdı. Onlardan 9 nəfər şagird azərbaycanlı idi ( 3, 468)

XX əsrin əvvəllərində milli tərkibinə görə xanım Stasyuleviçin pansionunda təhsil alan uşaqların sayında vəziyyət xeyli dəyişmişdi. 1901-ci ilin statistik məlumatına görə məktəbdə 40 şagird təhsil alırdı. Bunlardan 8 nəfəri azərbaycanlı, 2 nəfər rus, 4 nəfər gürcü, 26 nəfər isə erməni idi. Hər bir uşaq üçün ayda 5 manat təhsil haqqı ödənilirdi (4, 431). 1903-cü ildə isə məktəbdə 50 nəfər şagird təhsil alırdı ki, onların əksəriyyəti başqa millətlərdən ibarət idi. (5,455). Bu vəziyyəti erməniliklə, erməni xisləti ilə əlaqələndirmək olar. Bildiyimiz kimi, ermənilər mənfur xislətlərinə uyğun olaraq həmişə torpaqlarımıza sahiblənməyə, milli-mənəvi dəyərlərimizi, mədəni sərvətlərimizi mənimsəməyə çalışdıqları kimi məktəb, təhsil sahəsində də yaxşı ənənələrimizi, uğur və nailiyyətlərimizi özününküləşdirməyə səy göstərmiş, yaxud bu təhsil ocaqlarının uğurlarına, inkişafına mane olmağa öz xislətlərinə uyğun tərzdə mane olmağa çalışmışlar. Arxiv sənədlərindəki faktlar, dəlillər sübut edir ki, yalnız azərbaycanlı uşaqlar üçün nəzərdə tutulmuş bir çox milli məktəblərimizdə belə ermənilər öz uşaqlarını oxutmağa ciddi-cəhdlər etmiş, canfəşanlıq göstərmişlər.

Bütövlükdə, göstərək ki, XIX əsrin sonlarına doğru irəliləyən illərdə İrəvan şəhərində müəllim Sofiya Stasyuleviçin açdığı məktəb-pansion yalnız azərbaycanlı uşaqlar üçün nəzərdə tutulmuş dünyəvi təhsil ocağı kimi ümumAzərbaycan məktəb təhsili tarixinin əhəmiyyətli bir səhifəsi sayıla bilər. Bu məktəb Ehcan xanın oğlu Kalbalı xanın tövsiyəsi, təşviqi ilə mümkün olmuşdur ki, bu da Naxçıvan əsilzadələrinin maarif və məktəbə necə bir önəm verdiyinə yaxşı bir dəlil-sübutdur. Bu cəhəti də qeyd edək ki, birpedaqoji fakt kimi S. Stasyuleviçin məktəbi həm də Naxçıvan xanlarının İrəvan vilayətinə qədim yurd yerləri kimi təəssübkeş münasibətlərinin ifadəsi idi.

## ƏDƏBİYYAT


1. Зелински С. П. Город Эривань, СМОМПК, Выпуск первый, Тифлис, 1881
2. Памятная книжка КУО на 1879 год. Тифлис, 1879.
3. Приложения- 1. Статистическая сведения к отчету о состоянии учебных заведении КУО в 1891 года. Приложения - 1. Тифлис, 1891.
4. Кавказский календарь на 1903 год. Тифлис, 1902.
5. Кавказский календарь на 1904 год. Тифлис, 1903.

# AZƏRBAYCANIN YENİ ELMİ İNKİŞAF DÖVRÜNÜN BAŞLANMASI

**Abbas (Abbasov) Cilovdarlı,**
*AMEA- nın Fizika İnstitutunun aparıcı elmi işçisi*

***Açar sözlər***: *təbiət elmləri, rəsədxana, parlament, dərs vəsaiti, orta məktəb*
***Ключевые слова***: *естественные науки, обсерватория, парламент, учебное пособие, средняя школа*
***Keywords***: *scientist educated, observatory, parliament, educational supplies, secondari education*

Orta əsrlər Şərqdə elmin və mədəniyyətin yüksək səviyyədə inkişaf etdiyi dövr olmuşdur. Bu fikirləri bir Şərq ölkəsi olan Azərbaycana da aid etmək olar. Orta əsrlərdə Azərbaycanda onlarla böyük mütəfəkkir alimlər yaşayıb-yaratmışlar. Onlardan biri kimi İbn Sinanın sevimli yetişdirmələrindən olan təbiətşünas alim Əbül Həsən Bəhmənyarı göstərmək olar. Bəhmənyarın təbiət elmlərindən bəhs edən "İdrak" əsəri dövrün ən qiymətli elm mənbələrindən biri kimi latın dilinə tərcümə olunmuş və əsrlətlə Avropada dərs vəsaiti kimi istifadə edilmişdir [1].

Nizami Gəncəvinin "Xəmsə"sini şer dilində yazılmış dövrünün elmi hesabatı kimi də qəbul etmək olar. Belə ki, əsərdə astronomiya, həndəsə, riyaziyyat, fizika və başqa təbiət elmlərinə aid yüzlərlə qanunun müasir dövrlə səsləşən şərhi verilmişdir ki, bunların da bir çoxunu Avropadan olan alimlər təxmihən 600 il sonra "kəşf" edib öz adlarına çıxmışlar. Nizami Gəncəvi dövrünün ən mükəmməl astronomiya alətləri ilə işləməyi bacarmış, onların vasitəsi ilə kəşflər etmiş, böyük astronomiya bilicisi – astroloq səviyyəsinə yüksəlmişdir [2].

Nəsrəddin Tusi Təbriz yaxınlığında, rəsədxana tikdirib onu dünyanın elm mərkəzlərindən birinə çevirmişdir. O, Şərqin ən böyük astronomu, riyaziyyat və coğrafiya alimidir. Dünyanın müxtəlif ölkələrindən, o cümlədən Hindistandan, Çindən, Misirdən, Orta Asiyadan axışıb Marağa rəsədxanasına gələn gənclər burada astronomiya elminə yiyələnmiş və təkmilləşmiş halda vətənlərinə qayıtmışlar. Nəsrəddin Tusi müstəqil şəkildə və rəsədxananın alimləri ilə birlikdə 100-dən çox elmi əsər yazmış, astronomiya, coğrafiya və riyaziyyata aid cədvəllər tərtib etmiş, dünyanın elm xəzinəsini zənginləşdirmişdir. Onun əsərlərinin əksəriyyəti Avropa dillərinə tərcümə olunaraq yayılmış, uzun müddət elmi və əməli məqsədlər üçün istifadə edilmişdir [3].

I Dünya müharibəsi və Rusiyada bolşevik inqilabı dünyada əsaslı dəyişikliklərə cəbəb oldu. Bu zaman yaranmış xaosdan istifadə edən bir çox müstəmləkə və zəif inkişaf etmiş ölkələr, o cümlədən Azərbaycan müstəqillik əldə edib Demokratik Cümhuriyyət qurmuş, yeni müstəqil inkişaf dövrünə qədəm qoymuşdur.

ADC 1918-ci ilin may ayında hakimiyyətə gəlmiş müsəlman şərqində ilk parlamentli cümhuriyyət, türk və islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olmuşdur [4].

Azərbaycan Demokratik Cümhuriyyətinin Milli Şurası, parlamenti və hökuməti mövcud olduqları qısa müddət ərzində iqtisadi, ictimai-siyasi və sosial həyatın müxtəlif sahələrinə aid çoxlu tale yüklü islahatlar həyata keçirmiş, xalqın maariflənməsi məsələsinə haqlı olaraq xüsusi önəm verirdi.

Cümhuriyyət dövründə xalq təhsilini milli və möhkəm zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. Ölkədəki mövcud müəllim kadrları ilə bu işin öhdəsindən gəlmək mümkün deyildi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türküyədən müəllim dəvət etməkdən və qısa müddətli kurslar açıb Azərbaycan dilində az-çox savadı olan şəxslərdən müəllim kadrları hazırlamaqdan keçirdi.

1918-ci il iyulun 23-də Cümhuriyyət hökuməti ölkənin tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti hazırlamaq haqqında xüsusi qərar qəbul etdi. Əhməd bəy Ağayevin bu məqsədlə İstanbula ezam edilməsi Xalq Maarifi Nazirliyinə tövsiyə olundu.

Parlamentin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlərə üçüncü və ya dördüncü siniflərdə Azərbaycan dili intensiv şəkildə tədris olunurdu ki, 2 ildən sonra həmin şagirdlər artıq ana dilində təhsillərini davam etdirə bilsinlər.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai və 23 orta təhsil məktəbi fəaliyyət göstərirdi. Orta ixtisas məktəbləri

sırasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi daxil idi. Həmin ildə "Türk əlifbası", "Təzə elmi hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olunurdu.

Tədris müəssisələrinin milliləşdirilməsinin və genişləndirilməsinin daha uğurla həyata keçirilməsi üçün 1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli kadrlarla təmin etmək məqsədilə qısa müddətli pedaqoji kurslar təşkil olundu. Gəncə və Nuxada kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada kişi pedaqoji kursları açılmışdır. Hər kursda ən azı 50 nəfər müdavim təhsil alırdı. Kursları bitirənlərin demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Cümhuriyyət hökuməti dərs vəsaitlərinin hazırlanması və nəşrinə də ciddi diqqət yetirir, bunun üçün Maarif Nazirilyində xüsusi komissiya fəaliyyət göstərirdi. Cümhuriyyət dövründə Həbəsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Firudin bəy Köçərli, Həbib bəy Mahmudbəyov, Abbas Səhhət, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyli kimi mütərəqqi Azərbaycan ziyalıları və ictimai xadimləri ölkənin gələcəyini ali təhsillə bağlayır, hökumətdən bu istiqamətdə gecikmədən mühüm addımlar atmağı tələb edirdilər.

1919-cu il sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti Bakı Dövlət Universitetinin (BDU) yaradılması haqqında qərar qəbul etdi. Bu məqsədlə xüsusi hazırlıq Komissiyası yaradıldı. Lakin hazırlıq işləri tam başa çatmadığından dərslərə noyabr ayının 15-də başlamaq mümkün oldu. BDU-nun yaranması Azırbaycan xalqının tarixində çox mühüm əlamətdar hadisə idi [5]. Çıxışlarının birində ulu öndər Heydər Əliyev Bakıda universitetin açılması ilə fəxr etdiyini söyləmiş və demişdir ki, əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir.

### ƏDƏBİYYAT

1. Bəhmənyar əl-Azərbaycaninin “Ət-Təhsil”(“İdrak”) traktatında Fizik kitabı, XI əsr. / Ç. Qacar“ və Ə. Məmmədovun redaktəsi ilə/ “Şərq-Qərb” nəşriyat evi, Bakı, 2012.
2. H.M. Abdullaev, L.M.Vəliev. Nizami Gəncəvinin elm dünyası. Bakı, Azərnəşr,1991.
3. H.Q. Məmmədbəyli, Mühəmməd Nəsirəddin Tusi. Bakı: Gənclik, 1980, 175 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I c.,Bakı: Lider, 2004.
5. A. Məhərrəmov, Bakı DövlətUniversiteti 90. Bakı: Bakı Universiteti, 2009.

## ƏLİQULU QƏMKÜSAR YARADICILIĞINDA MÖVHUMATÇILIĞIN TƏNQİDİ

**Gülmira Hacıyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *Əliqulu Qəmküsar, mövhumatçılıq, fanatizm, maarifçilik*
***Ключевые слова:*** *Елигулу Гемкусар, суеверие, фанатизм, просвещение*
***Key words:*** *Alikhulu Khamkusar, superstition, fanaticism, enlightenment*

Mötəbər ədəbiyyatlarda qeyd olunur ki, mövhumatçılıq əslində dində olmayıb dinə gətirilən şeylərdir. Sağlam zəkaya sığmayan xəyalatdır.

Bu kimi fikri ilk dəstəkləyən Mirzə Fətəli Axundov tərki dünyalıq ideyalarını təbliğ edən insanlara həyatda ən adi zövqləri belə qadağan edən yalançı din nümayəndələrini ciddi surətdə pisləyirdi. O, insan ləyaqətini alçaldan ruhaniləri şarlatan adlandıraraq onlara “Ey vaizlər… ey şarlatanlar, nə üçün avam camaatı… nemətlərdən məhrum edirsiniz? Niyə onun həyatını zəhrimara döndərmisiniz … deyərək onları məzəmmət edirdi. Nəğmə oxuma haramdır, nəğməyə qulaq asma haramdır, nəğmə öyrənmə, haramdır, teatr yəni tamaşaxana qayırma haramdır, teatra getmə, haramdır, rəqs etmək məkrufdur, rəqsə tamaşa etmə, məkrufdur, saz çalma, haramdır, saza qulaq asma, haramdır, şahmat oynama, haramdır, rəsm çəkmə haramdır, evdə heykəl saxlama haramdır”. Sonra davam edərək yazırdı: “…Bütün bu saydıqlarımız zahirdə yüngül işlər görünsə də sizin xəbəriniz yoxdur ki; əgər ifrata yol verilməzsə, bunlar insan təbiətini şadlandıran, onun ağlına və fikrinə cila verən cövhərlərdəndir. İnsanın təbiəti şadlıq və kədər üçün yaranmışdır və bu iki qüvvədən hər birinin insan təbiətində öz rolu vardır və bu qüvvələr işlənmədikdə kütləşə bilər, necə ki, qolu bir il tərpətməsən quruyar” [1, 1911, №10 -11].

Ə. Qəmküsar yazır ki, musiqi haramdırsa molla niyə bəs məsciddə mərsiyə deyərkən "şur", " şahnaz " üzərində oxuyur?

Musiqi nəğməsini çöldə eşitsək səsini,
Mollamız evdə oturduqda qulağın tıxıyır.
Bilmirəm, bəs nə əcəb tab eləyir məsciddə
Ki, çıxır mərsiyəxan şur ilə şahnaz oxuyur [1, 1911, №2].

Maarif carçısı Əliqulu Qəmküsar qeyd edir ki, insana nəğmə, rəqs, teatr qəm vermir, əksinə insanı qəmli edən yalançı mollalardır ki, onlar İslam dinini təhrif edir, "Quran"ın ayələrini öz məqsədlərinə uyğun təfsir edirlər. Qəmküsar Azərbaycan maarifçilərinin tərbiyə haqqındakı mütərəqqi fikirlərini XX əsrin əvvəllərində daha qüvvətli bir şəkildə irəli sürürdü.Əliqulu Qəmküsar yalançı, riyakar mollaları, axundları tək felyeton və satirik şeirləri ilə gülünc hədəfinə qoymaqla kifayətlənməmiş, həm də avam olan camaatı "Dəmirçi Gavə ", "Ölülər" və s. əsərlərin baş qəhrəman rolunu oynayaraq mövhumatçılığın gülünc detallarını göstərmişdir. Bu kimi teatr səhnələri yaratmaqla da Qəmküsar təqiblərə, tənqidlərə, təhqirlərə, hücumlara, hədələrə və sairə məruz qalmışdır. Ancaq bütün bunlara rəğmən Əliqulu Qəmküsar xalqı maarifləndirmək, bəsirət sahibi etmək yolundan dönməmiş, öz amal və ideyasına sona qədər sadiq qalmışdır. Mərhum tədqiqatçı Fərqanə Kazımova "Azərbaycan ədəbiyyatının " Cüvəllağı "sı" adlı əsərində çox haqlı olaraq qeyd edir ki, Ə. Qəmküsar "milli azadlıq yolunda nəinki qələmi, eyni zamanda bütün maddi və mənəvi varlığı ilə mücadilə etmiş, millətini, xalqını azad görmək həsrəti ilə yaşamışdır" [2, 26].Göründüyü kimi, Əliqulu Qəmküsar yetişən nəslin estetik bədii tərbiyəsinin inkişafına mane olan ünsürləri, xüsusən də mövhumatçılığı tənqid etmiş, gələcək nəsillərin maarifçilik ideyasına mane olan yalançı ruhaniləri, yalançı din xadimlərini ifşa etmişdir.

**ƏDƏBİYYAT**


1. "Molla Nəsrəddin" jurnalı (1906-1931)
2. F. Kazımova. Azərbaycan ədəbiyyatının "Cüvəllağı"sı. Bakı: Mütərcim, 2012.
3. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
4. K. Camalov. Sənət və sənətkar dostu Əliqulu Qəmküsar. Əliqulu Qəmküsar - Taleyi və sənəti, Bakı: Elm və təhsil, 2011.


## AZƏRBAYCAN MÜTƏFƏKKİRLƏRİNİN, PSİXOLOQ VƏ PEDAQOQLARININ ƏSƏRLƏRİNDƏ AİLƏ TƏRBİYƏSİ VƏ AİLƏDƏKİ MÜNASİBƏTLƏR PROBLEMİ


**Kifayət Əhmədova,**
*Naxçıvan Müəllimlər İnstitutu*
*NMİ-nun müəllimi*
E- mail: Kifayet_ehmedova@mail.ru



***Açar sözlər:*** *ailə, psixoloji, uşaq, tərbiyə, ana, ünsiyyət, valideyn*
***Ключевые слова:*** *семья, психологический, ребёнок, воспитание, мать, общение, родитель*
***Key words:*** *family, psychological, a child, nurture, a mother, communication, a parent*


Ailə tərbiyəsi, ailədaxili münasibətlər, ümumiyyətlə ailə ilə bağlı problemlər tarixən Azərbaycan mütəfəkkirlərinin, şair və yazıçıların diqqət yetirdiyi məsələlərdən olmuşdur. İslam dinində də ailə münasibətləri dərindən təhlil edilmişdir. İslamda ailə həyatı, kəbin, kişinin arvadı qarşısında vəzifələri, arvadın kişi qarşısında xidməti, uşaq tərbiyəsi, ata-ana münasibətləri və sairə barədə geniş bəhs edilir, hər kəsin hüquqları, bir-birləri qarşısında borcu, vəzifəsi və s. izah olunur.

"Qabusnamə"də göstərilir ki, valideynin birinci borcu imkanı daxilində övladına hər şeyi öyrətməkdir. "Elm və sənətdən hər nəyi öyrətmək lazımdırsa, hamısını övladına öyrət" (2, 117).

Sədinin "Gülüstan" əsərində də ailə tərbiyəsindən xüsusi bəhs olunur. Göstərilir ki, tərbiyə işi elə qurulmalıdır ki, insanda özünə inam formalaşsın: "Ey oğul, qiyamət günü səndən soruşacaqlar əməlin nədir, soruşmayacaqlar atan kimdir?" (3, 218).

Ailə mühiti, övlad tərbiyəsi N. Tusinin "Əxlaqi-Nasiri" əsərində xüsusi vurğulanır. Göstərilir ki, uşaq doğulduqda onun tərbiyəsi düzgün qurulmazsa, böyüdükdə onun da zəhməti valideynin üzərinə düşər. Tusi xüsusi qeyd edir ki, övladın tərbiyəsində ilk diqqət onun təbiətinə, qabiliyyətinə yönəldilməlidir.

Şərq mütəfəkkirlərinə görə qadın və kişilərin, oğlan və qızların tərbiyəsi, əmək və peşə fəaliyyəti fərqli olmalıdır. Başqa sözlə, qadın qadın kimi, kişi də kişi kimi olmalıdır. Qadın qadın davranışı, qadın xüsusiyyəti, qadın incəliyi ilə, kişi də kişi xasiyyətləri, cəngavərliyi ilə gözəldir.

Qadın hüquqları, cəmiyyətdə, ailədə qadının rolu məsələləri XIX əsrin sonlarında daha da aktuallaşdı. Azərbaycan maarifçiləri cəmiyyətin digər problemləri ilə bağlı qadın, ana, qız tərbiyəsi məsələlərinə xüsusi əhəmiyyət verirdilər. Onların sırasında Yusif Vəzir Çəmənzəminlinin xüsusi yeri var. Çəmənzəminlinin qadını ailədə, cəmiyyətdə vəziyyəti, övlad tərbiyəsindəki rolu və s. barədə onlarla publisistik yazıları vardır. Onun 1914-cü ildə yazdığı "Arvadların halı" əsərlərində çox aktual problemlərdən bəhs olunur.

Y.V. Çəmənzəminli yazır ki, analıq hissi müqəddəsdir. Ona görə də "arvadlara hörmət edilməlidir" (4, 119).

O, yazır ki, belə-belə adətlər avropalılar və amerikalılar arasında mövcuddur. "Titanik" gəmisinin tarixinə nəzər saldıqda, arvada nə dərəcədə hörmət edilməsi biz asiyalıları heyrətə gətirir. Gözü ilə görən nağıl eləyir ki, "Titanik" gəmisi suda üzən bir buz qayasına toqquşub ümidsiz bir halda xarab olduqdan sonra kapitan əmr elədi ki, kişilər qayıqlardan kənara çəkilsinlər" (4, 119) .

Y.V. Çəmənzəminli ailədə qarşılıqlı münasibətlərin əhəmiyyətini xüsusi vurğulayır: "İşdən sonra yorğun bir halda evə qayıtdıqda ev kişilər üçün gərək bir dincəlmək məkanı ola. Burada onlar gərək cəmi dərdlərini yadlarından çıxardıb rahat olsunlar, özlərini xoşbəxtlik aləmində görsünlər." (4, 125-126).

XX əsrin 20-ci illərində Azərbaycanda ali təhsil müəssisələrinin yaranmasıyla peşəkar pedaqoq və psixoloqlar fəaliyyətə başladı. Təbii ki, onların tədqiqatlarında ailə mühiti, ailə tərbiyəsi, ümumən təlim-tərbiyə məsələləri öz əksini tapmışdır.

Aparılan pedaqoji-psixoloji tədqiqatları problem baxımından bir neçə qrupda ümumiləşdirmək mümkündür: 1) Milli xüsusiyyətlərin öyrənilməsi aspektində aparılan tədqiqatlarda ailə mühiti, ailə tərbiyəsi, qarşılıqlı münasibətlər və s. 2) Tərbiyəyə dair aparılan tədqiqatlarda ailə tərbiyəsi məsələləri; 3) Təlim-tərbiyə məsələlərində cinsi tərbiyə və ailə tərbiyəsi; 4) Sırf ailə tərbiyəsi, ailə mühitinə həsr olunmuş tədqiqatlar.

Prof. Ə.Ş. Həşimov 1970-ci ildə "Azərbaycanda xalq pedaqogikasının bəzi məsələlər" əsərini nəşr etdirmişdir. O, 1993-cü ildə F.B. Sadıqovla birlikdə yazdığı "Azərbaycan xalq pedaqogikası" və "Azərbaycan xalq pedaqogikası antologiyası" əsərlərində problem baxımından maraq kəsb edən xeyli fikirlər irəli sürmüşdür. Bu əsərlər bir tərəfdən milli təfəkkürün, adət-ənənələrin öyrənilməsi baxımından əhəmiyyətlidirsə, digər tərəfdən də ailə həyatı ilə bağlı milli xüsusiyyətlərimizin öyrənilməsi, müasir dövrdə onun müsbət tərəflərindən istifadə edilməsi baxımından faydalıdır. Müəlliflər haqlı olaraq göstərirlər ki, "insan tərbiyəsi davranış nümunələrinin intəhasız təkrarlarından elə normaları, elə qaydaları, elə qadağanları və öyüd-nəsihətləri toplayır, seçib-ayırırdı ki, bunlar adamı ümumbəşəri dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi xeyrinə tərbiyələndirmək məqsədlərinə xidmət edirdi" (5, 6).

Ailə mühiti, onun funksiyalarının yerinə yetirilməsi, ailədə qarşılıqlı münasibətlərin formalaşması fərdi xüsusiyyətlərlə, mühitin təsirilə yaranırsa da, mühüm faktorlardan biri də milli xüsusiyyətlərlə bağlıdır. Biz, nə qədər müasirləşsək də, inkişaf etmiş dünya dövlətlərinə inteqrasiya etsək də, yenə də milli xüsusiyyətlərimizdən, soy-kökümüzdən uzaqlaşa bilmərik. Çünki L.N. Qasımovanın yazdığı kimi: "Gendən gələn milli-mənəvi dəyərlər uşaq hələ ana bətnində olarkən yaranmağa başlayır və sonradan nəsillərdən-nəsillərə ötürülür. Məhz belə bir proses sayəsində Azərbaycan xalqına məxsus böyüyə hörmət, qonaqpərvərlik, ədalətlilik, ocağa bağlılıq, rəhmdillik, tez bağışlamaq, kin və məkrdən uzaqlıq və s. kimi ümummilli xarakter almış mənəvi dəyərlər bu qəbildəndir" (6, 10).

Tədqiq etdiyimiz problem baxımından H.Ə. Əlizadənin, O.Q. Həsənlinin tədqiqatlarında da elmi-nəzəri müddəalar öz əksini tapmışdır. O.Q. Həsənli diyarşünaslıq materiallarından istifadə etməklə

şəxsiyyətin formalaşdırılmasını, Professorlar A.H. Abbasov, H.Ə. Əlizadə və R.M. Mahmudova ailə tərbiyəsinin sosial-pedaqoji problemlərini araşdırmışlar.

Göründüyü kimi, problem Azərbaycan psixoloq və pedaqoqlarının kifayət qədər diqqət yetirdikləri məsələlərdəndir. Bununla belə pedaqoq və psixoloqlar arasında problemlə bağlı yekun mövqe yoxdur. Ümid edirik ki, bundan sonra da aparılacaq tədqiqatlar ailə ilə bağlı yeni-yeni çalarları üzə çıxardacaqdır.

**ƏDƏBİYYAT**


1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981.
2. Qabusnamə. Bakı: Azərnəşr, 1989.
3. Sədi Ş. Gülüstan. 2-ci nəşri. Bakı: Azərnəşr, 1987.
4. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri. Bakı, Gənclik, 1976.
5. Həşimov Ə.Ş. , Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı: Patronat, 1993.
6. Qasımova L.N. Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi: Ped. elm. dok. ... dis. avtoref. Bakı, 2006.


## XALQ PEDAQOGİKASINDA ŞƏXSİYYƏT PROBLEMİ


**Şirinbəyim Oruclu,**
*BDU-nun magistrantı*



***Açar sözlər:*** *şəxsiyyət, tərbiyə, irsiyyət, mühit*
***Ключевые слова:*** *личность, воспитание, наследственность,среда*
***Keywords:*** *personality, upbringing, heredity*


İnsan şəxsiyyətinin təşəkkülünə təsir göstərən əsas amillər haqqında ilk dəyərli fikirlərə şifahi xalq yaradıcılığı materiallarında rast gəlinir. "Ot kökü üstə bitər", "Hər zamanın bir hökmü var", "Atanın övlada ən yaxşı hədiyyəsi tərbiyədir", "Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə açmaz" kimi atalar sözlərində ulu babalarımız insanın bir şəxsiyyət kimi formalaşıb inkişaf etməsi istəyində olmuşlar. Hələ ən qədim insanlar belə doğulan uşaqların gündən-günə böyüyüb dəyişdiyini, öz həyatları ərzində müxtəlif fiziki və mənəvi keyfiyyətlərə yiyələndiyinin canlı şahidi olmuşlar. Onlar, eyni zamanda, min dəfələrlə görmüşlər ki, bir çox hallarda övladın boyu, rəngi, saçları, burnu, gözləri, səsi, əl və ayaqlarının böyük-kiçikliyi və s. xüsusiyyətləri öz valideynlərinə çəkir; əməli saleh ata-anaların övladları çox vaxtı əməli saleh; oğru adamların uşaqları çox vaxtı oğru olur, belələrini öyüd-nəsihətlə düzəltmək, doğru yola gətirmək çətin olur.

Xalq pedaqogikasında şəxsiyyətin inkişafında irsiyyətin rolu qabarıq verilir. Bunu aşağıdakı atalar sözlərində aydın şəkildə görmək olar. Atalar sözlərində də deyilir ki, «Ot kökü üstə bitər», «Namərd gəlib mərd olmaz, olmasa mərd atası», «İlanın balası da ilan olar», «Qurd adını dəyişər ,xasiyyətini dəyişməz», «Qurda nə qədər yaxşılıq etsən, yenə meşəyə baxar», «Qurdun balası qurd olar», «Quyuya su tökməklə dolmaz, gərək dibindən gəlsin» və s.

"İrsiyyət nəzəriyyəsi" ilə birləşən "qismət nəzəriyyəsi" baxımından həmin məsələyə yanaşanlar isə qeyd edirlər ki, uşaq doğrularkən bütün qabiliyyətlər ona fövqəltəbii qüvvə tərəfindən hazır şəkildə verilir, guya "hər kəsin taleyi doğularkən alnına yazılır". Fanatiklər bu fikri hər vəchlə əsaslandırmağa çalışır və hey təbliğ edib deyir ki, " Neylərsən qızıl taxtı, bir qızıl baxtın olsun", "Yazılan pozulmaz", "Yazılandan qaçmaq olmaz", "Qismətdən artıq yemək olmaz" və s.

Göründüyü kimi, məsələyə yuxarıdakı aspektdə baxdıqda belə çıxır ki, guya uşaqdakı bütün sifətlər ya anadan gəlmədir, fitridir, irsən keçmədir, ya da allah tərəfindən verilmədir; yəni uşağın hakim və ya məhkum, zalım və ya adil, mərd və ya namərd , əxlaqlı və ya əxlaqsız, ağıllı və ya ağılsız olmasının bütün səbəbi ya onun "əsil-nəcabətində", ya da "taleyində" axtarılmalıdır. Uşağın "əsil-nəcabəti" necədirsə, özü də hökmən elə olacaqdır. Şəxsiyyətin təşəkkül tapmasında və inkişafında mühitin, yəni insanı əhatə edən ictimai şəraitinin, cəmiyyətin inkişaf və fəaliyyətinin cərəyan etdiyi təbii və ya ictimai şəraitin məcmusunun roluna dair xalqın fikrini müəyyən etməkdən ötrü xalq pedaqogikası abidələri olan

nağıl, dastan və atalar sözlərinə diqqət yetirmək kifayətdir. "Dostunu göstər mən deyim dən kimsən", "Atı atın yanına bağlasan həm rəng olmasa da həm xasiyyət olar" və s.

Tərbiyə amili də insanın bir şəxsiyyət kimi formalaşmasında və inkişafında mühüm rol oynayır. Elə "tərbiyə" sözünün mənası "Doğru yol göstərməkdir" Azərbaycan xalq pedaqogikası materiallarında şəxsiyyətin təşəkkül tapıb inkişaf etməsində mühitlə yanaşı tərbiyənin də əsas rol oynadığını ifadə edən aforistik fikirlər çoxdur. "Ağ atlı oğlan", "Keçəlin məhkəməsi", "Kəndli və padişah" nağıllarında qəhrəmanlar-zəhmətkeş kütlələrin nümayəndələri əqli, əxlaqi, fiziki və estetik cəhətdən hakim sinfin mötəbər nümayəndələrindən xeyli yüksəkdə dururlar.

Şəxsiyyətin inkişafında, təkmilləşməsində və yetişməsində tərbiyənin rolunu aşağıdakı atalar sözlərində də görmək olar. "Atanın övlada ən yaxşı hədiyyəsi tərbiyədir", "Oğlum əzizdir, tərbiyəsi ondan da əzizdir".

Beləliklə, deyə bilərik ki, şəxsiyyətin inkişafı və tərbiyəsində hər üç amilin - irsiyyət, mühit və tərbiyənin böyük rolu vardır.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 2013, 25 oktyabr
2. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: BDU, 2012.
3. Qasımova L. Məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004.


# MƏMMƏD ƏMİN RƏSULZADƏNİN İRSİNDƏ TƏHSİL-TƏRBİYƏ MƏSƏLƏLƏRİ


**Xatirə Qocayeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*
E-mail: xatıraqocayeva@gmail.com



***Açar sözlər:*** *M.Ə. Rəsulzadə, təhsil, tərbiyə, məzmun, milli əxlaq*
***Ключевые слова:*** *М.А. Расулзаде, образование, воспитание, содержание, национальная мораль*
***Keywords:*** *M.A. Rasulzade, education, training, maintenance, national morale*


1. XIX əsrin sonu və XX yüzilliyin əvvəlləri Azərbaycan xalqının ictimai, siyasi, iqtisadi, ədəbi, mədəni və pedaqoji həyatının inkişafında son dərəcə məhsuldar və əlamətdar dövrdür. Azərbaycan intibahının "sübh çağı" (F.Köçərli) kimi xarakterizə olunan həmin dövrdə mühüm iqtisadi, ədəbi-mədəni, ictimai-siyasi, maarifçi-pedaqoji hadisələr və yeniliklər baş verir. Qısa bir zaman kəsimində xalqımız göstərilən istiqamətlərdə böyük yüksəlişə nail olur. Göstərilən böyük işlərin nəzəri bazasının hazırlanmasında və onların əməli surətdə həyata keçirilməsində bir sıra düşüncə sahibləri, milli ideoloqlar, maarifçilər, pedaqoqlar yaxından iştirak edirlər. Həmin ideoloqlardan, milli təfəkkür və qələm sahiblərindən biri də M.Ə. Rəsulzadə idi. M.Ə. Rəsulzadə xalqımızın görkəmli maarifçisi, mühərriri, siyasətçisi, dövlət xadimi, milli ideoloqu və azadlıq mücahidlərindən biri və öndə gedəni olmuşdur. Azərbaycançılıq, turançılıq düşüncəsinin, xalqımızın müstəqillik, hürriyyət və istiqlaliyyət ideyasının, milli dövlətçilik məfkurəsinin yaranmasında və praktiki şəkildə reallaşdırılmasında onun müstəsna dərəcədə böyük rolu, əməyi olmuşdur.

2. Çoxşaxəli yaradıcılıq və mübarizə yoluna malik ziyalının mücadilə yolunun əsas bir istiqamətini də xalqınızın savadlanması, elm və maarif kəsb etməsi, təhsil və məktəb yolu ilə dünyanın mədəni, inkişaf etmiş xalqları səviyyəsinə qalxması tendensiyası təşkil edir. Onun zəngin, kəmiyyətcə əhatəli, keyfiyyətcə dolğun yaradıcılıq irsinin, çoxsaylı əsərlərinin mühüm bir qismini göstərilən bu məsələ ilə əlaqədar, ona yardım edən əsərlər təşkil edir. Miqdarca heç də az olmayan həmin əsərləri M.Ə. Rəsulzadənin maarifçilik və pedaqoji irsinin dəyərli məhsulları hesab etmək olar. Azərbaycanda pedaqoji

fikrin inkişafına, məktəb və maarif həyatının canlanmasına, təhsilimizin milliləşməsinə, demokratikləşməsinə və müasirləşməsinə xidmət edən həmin əsərlər həm də bütövlükdə Azərbaycan pedaqoji fikrinin dəyərli incilərindəndir. İndiyə qədər diqqətdən və tədqiqatdan kənarda qalmış həmin əsərləri bir bütöv halında araşdırmaq pedaqogika elmimizin qarşısında duran vacib problemlərdən biridir.

3. M.Ə. Rəsulzadə xalqı cəhalətdən qurtarıb tərəqqi yoluna salmağın ən vacib komponenti kimi ilk növbədə ona maarifi, onun səmərə və faydasının nə olduğunu başa salmağın zərurətini dərk edir. Ona görə də bu səpkidə çoxlu məqalələr yazıb mətbuatda nəşr etdirir. Nitqlərində, kütlə arasındakı çıxışlarında bu məsələyə xüsusi diqqət yetirir. Maarifçi ideoloqun pedaqoji məzmunlu məqalələrinin bir qismi çarizmin ucqarlardakı maarif və təhsil siyasətinin təhlilinə həsr edilmişdir. Onun siyasi məqalə və çıxışlarında da vaxtaşırı deyilən problemə toxunulur. O, çarizmin milli ucqarlardakı təhsil və maarif siyasətinin müstəmləkəçi mahiyyətini, "ruslaşdırma" meylini açıb göstərməklə xalqı ayıltmağa, əsl həqiqətləri ona başa salmağa çalışır və beləliklə, onu ideya-nəzəri cəhətdən öz hüquqları, təhsili və maarifi uğrunda mübarizəyə hazırlayır.

4. M.Ə. Rəsulzadə XX əsrin əvvəllərində milli məktəbin yaradılması uğrunda əzmlə mübarizə aparır, bunun xalqın gələcəyi üçün strateji əhəmiyyətli bir problem olduğunu yaxşı dərk edir. O, mütərəqqi ziyalıları, xeyriyyə cəmiyyətlərini, 1906-1907-ci illərdə keçirilən I və II Azərbaycan müsəlman müəllimlər qurultayının iştirakçılarını da bu yolda səfərbərliyə çağırır, milli mətbuatın və milli məfkurəli maarif xadimlərimizin bu istiqamətdəki fəaliyyətinə ciddi dəyər verir. Görkəmli maarifçi məktəblərimiz üçün səviyyəli, peşəkar, savadlı kadrların hazırlanmasına xüsusi diqqət yetirir, bu cür kadrlar olmadan məktəblərin və milli təhsilin lazımi uğur qazana bilməyəcəyini bəyan edir. Keyfiyyətli kadrlar, pedaqoqlar hazırlamaqdan ötrü Azərbaycan şəhərlərində pedaqoji seminariyaların və ali təhsil müəssisələrinin yaradılmalı olduğunu dönə-dönə xatırladır, həmin ideyaların reallaşdırılması uğurunda canfəşanlıqla çalışır.

5. M.Ə. Rəsulzadənin pedaqoji irsində təlim-tərbiyə məsələlərinə münasibət, onun milli və bəşəri nöqteyi-nəzərdən şərhi geniş yer tutur. O, həssas bir pedaqoq fəhmi, həmçinin milli dəyərlərlə qlobal miqyaslı bəşəri dəyərləri müasir mənada uzlaşdırmağı bacaran bir mütəfəkkir düşüncəsi ilə təlim və tərbiyənin çağdaş kodlarını, meyarlarını, ruhunu böyüməkdə olan nəslə necə təlqin etməyin yolları, metodları barədə maraqlı, lazımlı mülahizələr irəli sürür, diqqətəlayiq fikirlər söyləyir, tövsiyələr verir. Milli özünüdərk və milli əxlaq tərbiyəsi barədə son dərəcə aktual, yaşadığı milli-tarixi epoxanın ab-havasına müvafiq izahatlar verir, indiki və gələcək dövr üçün onun əhəmiyyətini milli bir pedaqoq düşüncəsi ilə geniş ictimaiyyətə aydınlaşdırır. Ümumi təhsilə keçid barədə də Məhəmməd Əmin bəyin təklif və mülahizələri xüsusi maraq doğurur. O, xalqın gələcək taleyinin və xoşbəxtliyinin mütləq mənada ümumi təhsilə, xalqın kütləvi şəkildə maarifləndirilməsinə bağlı olduğunu söyləyir. Bunun mahiyyət və pedaqoji səmərəsini əsərlərində əhatəli surətdə şərh edir.

6. Müəllim olmasa da, M.Ə. Rəsulzadə təhsilin məzmunu barədə də gərəkli fikirlər söyləyir. Onun o zamankı məktəbli uşaqlardan ötrü çap olunan dərsliklər, sinifdən xaric oxu kitabları, uşaq mətbuatı, həmçinin peşə təhsili və onun əhəmiyyəti ilə bağlı xeyli mətbu məqaləsi vardır. Vətənpərvər ziyalını maraqlandıran, məşğul edən pedaqoji məsələlərdən biri də rus imperiyası və müstəmləkəsi şəraitində milli ucqarlardakı təhsil ocaqlarında ana dili və onun tədrisinə münasibət məsələsi olmuşdur. Yerli dillərə, onun məktəblərdə tədrisinə monarxiya ideoloqları, çar məmurları tərəfindən ögey münasibət göstərildiyi bir cansıxıcı ictimai-siyasi və pedaqoji iqlimdə o, istər ictimai həyatda, istərsə də təhsil sferasında ana dilinin mövqeyinin gücləndirilməsi yolunda kifayət qədər əzmkarlıqla mübarizə aparmışdır.

7. M.Ə. Rəsulzadə mənəvi-əxlaqi cəhətdən kamil, ehtiyatlı, imanlı, ləyaqətli vətəndaş yetişdirməkdə dini faktora da ciddi önəm verir. Dini baxışlarda mühafizəkarlığın, mürtəce ruhanilərin əleyhinə çıxan millət xadimi sağlam, məntiqli, elmi əsaslara söykənən, müasirliklə uzlaşan dini tərbiyənin tərəfdarı kimi çıxış edir. Bu sahədə zəmanəsinin mütərəqqi baxışlı millət münəvvərlərinin, həmməsləklərinin fikirlərinə şərik çıxır. Qadın tərbiyəsi ("tərbiyəti-nisvan") məsələsində də Məhəmməd Əmin bəy tərəqqipərvər mövqedə dayanır. Mütərəqqi baxışlı məsləkdaşlarının fikirlərinə şərik çıxır. Millətin gələcək taleyinin qadınların təlim və tərbiyəsindən asılı olduğunu iqrar edir. Qadınların da bərabərhüquqlu cəmiyyət üzvü kimi təhsilə cəlb edilməsini, maariflənməsini müasir ruhda tərbiyə

olunmasını zəruri sayır. O, yaşlıların təhsilinə də xüsusi diqqət yetirir. Bunun üçün cümə məktəblərinin, ayrı-ayrı kursların təşkilini məsləhət görür. İmkanlı adamları, xeyriyyə cəmiyyətlərini bir istiqamətdə lazımi işlər görməyə çağırır.

### ƏDƏBİYYAT


1. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c. Bakı: Azərnəşr, 1992.
2. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II c. Bakı: Şirvannəşr, 2001.
3. Rüstəmov F. Milli maarifimizin qaranquşları // Azərbaycan məktəbi, 1991, № 2-3
4. Rüstəmov F. M.Ə.Rəsulzadə məktəb və maarif haqqında // Pedaqoji Universitet Xəbərləri. Bakı: ADPU nəşri, 1995, № 2
5. Rüstəmov F. M.Ə. Rəsulzadənin pedaqoji fikirlərinə dair // Azərbaycan məktəbi, 1998, № 4


## AZƏRBAYCANDA ORTA İXTİSAS PEDAQOJİ TƏHSİL: TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI (1920-1991-ci illər)


**Vüsalə Qurbanova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*BSU*
E-mail: vüsalaqurbanova@gmail.com



***Açar sözlər:*** *təhsil, pedaqoji təhsil , məzmun, texnikum, tələbə*
***Ключевые слова:*** *образование, педагогическое образование, содержание, колледжи, студент*
***Key words****: education, teacher education, content, college, student*


1. XX əsrin 20-ci illərinin sonu, 30-cu illərin I yarısı Azərbaycanda ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi ilə səciyyəvidir. Dövrün ən mühüm tələbi ümumi icbari ibtidai təhsili başa çatdırmaqdan, ümumi 7 illik təhsilin tətbiqinə başlamaqdan, 10 illik təhsili genişləndirməkdən, həmçinin gənc nəsli elmlərin əsasları ilə silahlandırmaqdan, onlara sağlam tərbiyə verməkdən, müəllim kadrları hazırlamaq işlərini genişləndirməkdən, müəllimlərin siyasi və elmi-pedaqoji hazırlığını ciddi surətdə yaxşılaşdırmaqdan ibarət idi. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə Azərbaycanda orta ixtisas pedaqoji təhsil müəssisələrinin geniş şəbəkəsi yarandı. Müəllim hazırlayan kursların şəbəkəsi genişləndirildi, pedaqoji təhsil alan, lakin başqa sahələrdə çalışanları pedaqoji işə cəlb etmək göstərişi verildi. Pedaqoji texnikumlarda təhsil alanların sayı ildən-ilə artdı, qısa bir müddətdə 7534 nəfər orta ixtisas təhsilli müəllim hazırlandı.

2. XX əsrin 30-cu illərində Azərbaycanda orta pedaqoji ixtisas təhsilli kadrların hazırlığında mükəmməl bir sistem yaranmışdı. 20-ci illərdə kadr hazırlığında özünü göstərən sistemsizlik, pərakəndəlik, məzmunun tez-tez dəyişməsi, zəruri elmi-pedaqoji və metodiki ədəbiyyatın yoxluğu aradan qaldırılmışdı. Pedaqoji texnikumlar öz işlərini ölkədə gedən icbari ibtidai təhsilin həyata keçirilməsinə istiqamətləndirilmişdilər. İkiillik müəllimlər institutlarının yaradılması ilə əlaqədar olaraq pedaqoji texnikumların bəziləri bağlandı və ya birləşdirildi.

3. 30- cu illərdə müəllim kadrlarına olan ciddi ehtiyaca baxmayaraq, pedaqoji texnikumlarda tədris prosesi hüquqi-normativ sənədlərə əsasən tənzimlənirdi. Tələbələrin seçiminə, tədris prosesinin təşkilinə, təlim-tərbiyə işlərinin cəmiyyətin tələblərinə uyğun qurulmasına ciddi fikir verilirdi.

4. 30-40-cı illərdə ali təhsilli müəllim kadrları hazırlığında kəmiyyət və keyfiyyət dəyişikliyinin baş verməsi pedaqoji texnikumların müəllim kadrları və tədris-metodiki ədəbiyyatla təminatında da mühüm rol oynayırdı. Ali pedaqoji məktəbin tələbələri üçün nəzərdə tutulan dərslik və dərs vəsaitlərindən pedaqoji texnikumlarda istifadə olunurdu.

5. Böyük Vətən müharibəsi Azərbaycanı bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi sınaq qarşısında qoydu. Müharibənin ağırlıqları təhsil müəssisələrinin pedaqoji kadr potensialına, maddi-texniki bazasına, təlim-tərbiyənin keyfiyyətinə ciddi zərbə vurdu.

6. 40-cı illərin ikinci yarısında ümumtəhsil məktəblərində aparılan məzmun dəyişikliyi pedaqoji məktəblərdə də ciddi dəyişikliyə səbəb oldu. Pedaqoji məktəblərdə təhsil müddəti bir artırıldı. Təlim müddətinin 4 ilə qaldırılması ibtidai siniflər üçün daha keyfiyyətli müəllim kadrları hazırlamaq məqsədi daşıyırdı.

7. Pedaqoji texnikumlarda tədrisin keyfiyyəti, dövrün tələbinə uyğun ibtidai sinif, bədən tərbiyəsi və tərbiyəçi-müəllimlərin hazırlığı peşəkar pedaqoji kollektivin formalaşdırılması ilə bir başa bağlı idi. Bu prosesi 20-30-cu illərdə olduğu kimi, 40-cı illərdə də tənzimləmək mümkün olmadı.

8. Tədqiq olunan dövrdə orta ixtisas pedaqoji təhsil müəssisələrinin nüfuzunu gücləndirən addımlar atıldı, orta ixtisas təhsili müəssisələri, orta ixtisas təhsili müəssisələrinin pedaqoji şuraları və fənn komissiyaları haqqında qaydalar təsdiq olundu; orta ixtisas peşə təhsilinə rəhbərliyin təkmilləşdirilməsinə yönəldilmiş qərarlar qəbul olundu. Orta ixtisas pedaqoji təhsil müəssisələrinin hüquqi-normativ bazasında yeniləşmə baş verdi.

9. 60-70-ci illərdə orta ixtisas pedaqoji məktəblərində tədris prosesinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli işlər görüldü, dövrün tələbinə, cəmiyyətin sosial sifarişinə uyğun olaraq yeni tədris planları, proqramları hazırlandı, tələbələrin tədris yükünün nzama salınmasına təşəbbüs göstərildi. Bu da səbəbsiz deyildi, elmi-texniki inqilab nəticəsində maddi və mənəvi həyat şəraitindəki dəyişikliklər, sürətlə gedən yeniləşmə prosesi orta ixtisas pedaqoji təhsil müəssisələrindən öyrənmək və öyrətmək qabiliyyətini daim təkmilləşdirməyi, ictimai tərəqqinin ən yüksək meyarlarına cavab verən pedaqoji kadr hazırlamağı tələb edirdi.

Deməli, orta ixtisas pedaqoji təhsil müəssisələri (seminariya, texnikum, pedaqoji məktəb, kollec) Azərbaycanda milli təhsilin təşəkkülü və inkişafına, pedaqoji kadr hazırlığına, dövlətin təhsil siyasətinin (savadsızlığın ləğvi, icbari ibtidai təhsilin və mədəni inqilabın reallaşdırılması) həyata keçirilməsinə təhsil ənənələrinin qorunub saxlanılmasına, elmi-mədəni və təhsil mühitinin yaranmasına dəyərli töhfə vermişdir.

**ƏDƏBİYYAT**


1. Rüstəmov F.A. "Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-91-ci illər)." Bakı: Bakı Universiteti nəşriyyatı, 1998.
2. Məktəb və müəllim haqqında partiya və hökumət qərarları. Bakı: Azərnəşr, 1952.
3. Pedaqoji texnikumların nizamnaməsi, tədris planı, instruksiyası. Bakı: Azərnəşr, 1934.
4. Seyidov F. Maarifimizin təkrarsız xəzinəsi. Bakı, 2001.


## FƏQİR ORDUBADİNİN "HEKAYƏTİ-CAVANMƏRD-KÜRD" SATİRASININ DİL ÜSLUBU


**Mehriban Quliyeva,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail:quliyeva.mehriban@list.ru



***Açar sözlər:*** *satira, klassik-kitab, tənqid-realist, təmsil, dil-üslubu*
***Ключевые слова****: сатира, классические книги, критически-реалистическое представление, язык и стиль*
***Key words :*** *critic, classic-book, criticism-realistic, representation, language and style*


Fəqirin tənqidi-realist əsərləri sırasında "Hekayəti-cavanmərdi-kürd" adlı satirası da xüsusi yer tutur. Bu əsər Fəqirin əlyazma divanında "Təmsil bətəriqül-həzl dər hekayəti-cavanmərdi-kürd qoftə əst" başlığı ilə verilmişdir. Şair özü bu satirasını təmsil adlandırmışdır. Lakin bu ifadə əsər üçün şərtidir. Çox güman ki, Fəqir bu əsəri satirik-simvolik məziyyətinə görə təmsil adlandırmışdır. Çünki təmsil adı altında

şair təsvir olunan hadisələrə və əsərdəki yaranal-qubernator surətinə özünün satirik-simvolik münasibətini bildirmiş və onun timsalında rus çarizmini, onun rüşvətxor dövlət məmurlarını ifşa etmişdir.

Satira öz ictimai məzmununa görə sərt, bir qədər də kobud leksikon tələb edir. Təbii ki, həmişə lirik-ciddi obrazlarla məşğul olan bədii ədəbiyyat tənqidə keçərkən, ifşa və ishal üçün gülməyə başlarkən ənənəvi leksikonla kifayətlənə bilməzdi, həmin ənənəvi leksikon çərçivəsindən kənara çıxılması bizdə XIX əsrdən başlanır.

Fəqir də XIX əsrin digər satirikləri kimi "Cavanmərd kürdün hekayəti" satirasında rus çarizminə olan satirik-tənqidi münasibətini açıq şəkildə deməyə ehtiyat edir, onu satiranın eyham dili ilə ifadə etməyə çalışırdı. XIX əsrin Q. Zakir, Baba bəy Şakir kimi görkəmli satirikləri də satirik tənqiddə bu yolla getmişlər.

Bu əsər Fəqirin əvvəlki satirasından öz üslubu və rişxənd sayağı-satirik səciyyəsi baxımından xeyli fərqlənir. Çünki burada islamın müqəddəs qanunlarını pozan din və şəriət adamları deyil, birbaşa çar üsuli-idarəsinin hakim dairələrinin nümayəndələrin - general-qubernatorlar və onların xalqa zidd münasibəti ifşa olunur, sadə kəndlilər və zəhmət adamları çarizmin harınlamış tüfeyli nümayəndələrinə qarşı qoyulur.

Satirada təsvir olunur ki, İrəvan mahalında Şəmo adlı yoxsul bir kürd yaşayırmış. Bu kürdün Fatı adında bir arvadı, Nazpəri, Mahpəri, Telpəri, Gülpəri və Şahpəri adında beş qızı, Həso, Əlo və Məmo adında üç oğlu var imiş. Bu ailə çox yoxsul güzəran keçirirmiş. Bir gün Fatı bərli-bəzəkli bir at çulu toxuyur və əri Şəmoya verir ki, aparıb İrəvan şəhər bazarında 40 manata satsın və qayıdanda uşaqlara Şirvan şalı, nimtənə, tumanlıq, papaq, güzgü, daraq, eşşəyə və madyana isə noxta və palan alıb gətirsin. Şəmo arvadının təkidi ilə çulu götürüb İrəvan şəhər bazarına gedir. Lakin nə qədər çalışırsa da çulu arvadının tələb etdiyi 40 manata sata bilmir. Çox götür-qoydan sonra belə qərara gəlir ki, çulu aparıb qubernatora versin ki, bəlkə əvəzində ondan qiymətli bir bəxşiş ala. Şəmo qubernatoru tapıb çulu ona verir. Lakin çulu alan qubernator əvəzində Şəmoya "üç xaraşo" və "bir malades" deyib onu boş yola salır. Şəmo kor-peşman evə qayıdıb olanları arvadı Fatıya danışır. İşi belə görən Fatı əri Şəmonu da yanına salıb birbaşa qubernatorun evinə gəlir.

Satirada Fəqir çar üsuli-idarəsinin nümayəndəsi olan "Yaranal-qubernator"u Fatını "məmnun edib" yola salan "lütfkar" bir dövlət məmuru kimi təqdim edir. Çünki Fatının cəsarətli tələbini görən "Yaranal-qubernator" dərhal əvvəlki rüşvətxor mövqeyini dəyişir və çıxış yolu tapmaq üçün özünü ali rütbəli əsilzadə kimi aparır. O, vəziyyətdən çıxmaq məqsədilə yoxsul kəndli Şəmodan aldığı çulu öz ləyaqətinə sığışdırmayan "lütfkar" bir məmur kimi hərəkət edərək işi gülməyə salır, sonra da yoxsul kəndli qadın Fatını "məmnun edib" yola salmaqla özünü düşmüş olduğu gülünc vəziyyətdən qurtarır. Şair satirada "Yaranal-qubernator"un ikiüzlülüyünü bu cür təsvir edir:

Eşidib bu sözü, çox güldü qubernat o dəm,
Xoşuna gəldi, gəlib nitqə, deyib xondəkonan:
- A patom, tı niboysa, istaruxa, istaruxa,
Lütfi-bihəd qılaram mən sizə hər saətü an.
Yaranal eylədi məmnun oları, saldı yola,
Qıldılar hər ikisi şükri-xudayi-sübhan.

Satirada klassik-kitab üslubunun güclü müdaxiləsi hiss olunur; yəni şairin yəni satira üçün dil materialı çox seyrəkdir, lirik leksikon aşkar üstünlük təşkil edir. Fəqirin bu satirasında lüğət tərkibnə üslubi mənsubiyyət baxımından diqqət yetirək. Satiranın ücdə bir hissəsinin lüğətini belə ayırmaq olar:

1. Klassik şeirdən gələn lirik-ciddi, obrazlı söz və ifadələr: şükri-xudayi-sübhan, ahü fəğan, ümənayi-divan, şiri-şəyan, şövq, vəcd, lütfi-bihəd,və s.
2. Rus-Avropa mənşəli söz və ifdələr: patom, tı niboysa, istaruxa, qubernat,malades, xaraşo, zaçem tı sidiş, dlya çeğo və s.

Satiradan göründüyü kimi, Fəqir bu əsərində ictimai tənqid baxımından daha irəli getmişdir. Şair satirada Fatının simasında zülmə boyun əyməyən və hakim dairələr qarşısında öz haqqını tələb etməyi bacaran cəsarətli qadın surəti yaratmışdır. Bu cəsarətli qadın "Niyə zülm eyləyə, bilməm, ümənayi-divan?", – deyə çar üsuli-idarəsinin zülmkarlığını birbaşa onun rüşvətxor nümayəndəsinin üzünə deyir və öz haqqını geri alıb qayıdır.

Fəqirin dilində elə söz və ifadələr var ki, sərtliyi ilə seçilir, onlarda aydın satirik tendensiya var; bunlar həcv meyilli, giley-güzar əhvallı bədii nitq faktlarından fərqli olaraq, əsl ictimai məzmunlu satira materialıdır.

**ƏDƏBİYYAT**


1. Ordubadi M.S. Həyatım və mühitim. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu: f.14,s.v. 453.
2. Qədimov Ə.N. XIX əsr Ordubad ədəbi mühitində tənqidi-realist ədəbiyyat // "Körpü" jurnalı, Təbriz, 2004, bahar, № 45
3. Qədimov Ə.N. XIX əsr Ordubad şairlərinin lirikasında Sədi, Hafiz və Xəyyam ənənələri / Elm axtarışlar. XIII toplu, Bakı: AMEA-nın Folklor İnstitutu, Səda, 2005.
4. Qədimov Ə.N. XIX əsr Ordubad ədəbi mühitində maarifçi-realist ədəbiyyat // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 2005, № 2
5. Qasımzadə F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1956.


## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ÜZEYİR HACIBƏYOVUN HƏYATI VƏ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ


**Rönət Süleymanov,**

*Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı*

E-mail:ronet78@mail.ru



***Açar sözlər:*** *yeni nəslin formalaşması, musiqi əsərləri, bəstəkar, opera, orkestr*

***Key words:*** *formation of new generation, music works, composer, opera, band (orchestra)*

***Ключевые слово:*** *формирование нового поколения, музыкальные композиции, композитор, опера, оркестр*


Ümumtəhsil məktəblərində musiqi dərsləri pedaqoji əsaslarla tərtib olunmuş proqramlar vasitəsilə tədris olunur. Yeni nəslin formalaşmasında ümumtəhsil məktəblərində musiqi tədrisi metodikasının düzgün aparılması böyük əhəmiyyətə malikdir. Müəllim musiqi dərslərini elə tədris etməlidir ki, şagirdlərdə musiqiyə qarşı maraq yaransın və musiqiyə sevgi, rəğbət hissi oyansın. Ümumtəhsil məktəblərində şagirdlərə musiqi dərslərində bəstəkarların yazdıqları musiqi əsərlərini keçməklə yanaşı onların həyat və yaradıcılığı haqqında da məlumat verməк lazımdır. Məlumdur ki, musiqi məktəblərindən fərqli olaraq bəstəkarın həyat və yaradıcılığı haqqında ümumtəhsil məktəblərində qısa və konkret, şagirdin yadda saxlaya biləcəyi qədər məlumat vermək lazımdır. Çünki məktəblilər bu məlumatı yadda saxlaya bilsinlər. Keçirilən təcrübələr göstərir ki, ümumtəhsil məktəblərində bəstəkarın həyat və yaradıcılığının öyrənilməsinə geniş yer verilmir. Müvafiq musiqi əsərlərini qavramaq üçün şagirdlərdə xüsusi bacarıq olmalıdır. Bu cür seçilən proqramlar şagirdlərin musiqi qavrayışlarına müsbət təsir göstərir. Belə tədris olunan musiqi dərsləri şagirdlərdə biliklərin yadda saxlanılmasını asanlaşdırır və şagirdə özünə inamı artırır. Keçilən dərslərin mənimsənilməsi o vaxt qənaətbəxş hesab olunar ki, şagirdlər öyrəndikləri dərsi başa düşsün və məzmunun danışa bilsin. Müəllim hansısa bəstəkar haqqında maraqlı söhbətlər etsə şagirdlər bunu daha yaxşı öyrənər və mənimsəyərlər.

Müəllim dərsi danışarkən onun intonasiyası, sifət quruluşunun mənalı olması şagirdlər üçün çox böyük əhəmiyyət kəsb edir. Belə ki, şagirdlərin musiqiyə marağı artmış olar. Əsasən I-sinifdən Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı öyrədilərsə bu şagirdlərdə müsbət nəticələr göstərər. Müəllim bəstəkar haqqında danışırsa əvvəl onun doğulduğu tarixdən məlumat verməlidir. Sonra isə bəstəkarın yaradıcılığı haqqında danışmalıdır. Şagirdlərə hansı bəstəkar haqqında danışılarsa, həmin bəstəkarın foto rəsmi göstərilməlidir və şagird bilməlidir ki, hansı bəstəkardan söhbət gedir. Müəllim şagirdlərə izah edər ki, Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının müəllimi olmuşdur o, böyük bəstəkardır. İbtida siniflərdə sonuncu dərslərdə şagirdlər onu Azərbaycan musiqisinin banisi kimi tanıyıb yadda saxlamalıdırlar. Yuxarı siniflərdə isə Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı şagirdlərə daha ətraflı öyrədilməlidir. Bundan sonra məktəblilər Azərbaycan xalq musiqisini digər musiqilərdən ayıra bilməlidirlər. Musiqi dərslərində opera haqqında danışılırsa şagirdlər bilməlidir ki,

Azərbaycan opera janrının banisi Üzeyir Hacıbəyli olmuşdur. Şagirdlərə müəllim bildirməlidir ki, Üzeyir Hacıbəyovun ilk operası "Leyli və Məcnun" olmuşdur, bu opera ilk dəfə 1908-ci ildə tamaşaya qoyulmuşdur. Dərs zamanı bəstəkarın həyat və yaradıcılığı şagirdlərə tədris olunduqdan sonra yaddan çıxa bilər. Bunun üçün keçirilən dərsləri təkrarlamaq, şagirdlərin yadına salmaq daha vacib hesab olunur. V sinifdə bəstəkarın həyat və yaradıcılığı haqqında tarixi məlumatlar vermək olar. Müəllim bəstəkar haqqında elə məlumat verməlidir ki, qısa, yadda qalan və maraqlı olsun. VI-VII siniflərdə müəllim Üzeyir Hacıbəylinin xalq musiqisinin yaradıcısı olması haqqında da şagirdlərə məlumat verməlidir. Azərbaycan xalq muğamlarından müəllim danışarkən bəstəkarın yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitab haqqında söylədiyi biliklər şagirdlərin savadını zənginləşdirər. Yuxarıda yazılanlara nəzər salsaq görərik ki, bəstəkarın həyat və yaradıcılığı haqqında müəllimin dedikləri sadədən başlayıb mürəkkəbə doğru göstərilməsi şagirdin yaxşı mənimsəməsinə gətirib çıxarar. Beləliklə ibtidai sinifdə öyrədilənlər VII sinifdə ümumiləşir. Artıq şagird öyrənir ki, Üzeyir Hacıbəyov mahnılar, romanslar, Xalq Çalğı Alətləri orkestri və simfonik orkestr üçün əsərlər müəllifidir. Şagirdlər VII sinifdə öyrənirlər ki, "Koroğlu" operası Azərbaycanda opera sənətinin şahıdır.

Müəllim şagirdlərə öyrədilən musiqinin yaranması haqqında müəllim maraqlı məqamlardan söhbət etməlidir. Bəstəkarın yazdığı hər hansı bir mahnının, romansın və başqa musiqi əsərlərinin bir tarixi vardır. Müəllim qısa da olsa bu haqda məlumat verməlidir. Bu üsulla müəllim Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığı ilə yanaşı Avropa, Rus və digər ölkələrin bəstəkarlarının həyat və yaradıcılığı haqqında da şagirdlərə məlumat verməlidir.

Yuxarı siniflərdə keçirilən bəstəkarlar haqqında məlumat aşağı siniflərdə aldıqları məlumatlarla əlaqəli olmalıdır. Bununla bağlı müəllim hansısa bəstəkar haqqında danışarsa mütləq aşağı siniflərdə adı çəkilən bəstəkarın maraqlı məqamlarını şagirdlərin yadına salmalıdır. Beləliklə bəstəkarın yazdığı əsərlər, onun həyat və yaradıcılığı haqqında məlumatlar şagirdlərdə müsbət münasibət yaradır. Belə musiqi xadimlərinə şagirdlərdə maraq artır və keçirilən dərslər yaddaşlardan silinmir, əksinə yaddaşlara həkk olunur.

## SULTAN MƏCİD QƏNİZADƏ İRSİNDƏ TƏHSİL-TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Günel Məmmədova**,
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*
E-mail: mamedovagünel@gmail.com

1. XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəlləri Azərbaycan intibahının «sübhçağı» (F. Köçərli) kimi xarakterizə olunur. Bu dövrdə müxtəlif sahələrdə, o cümlədən xalqımızın məktəb, maarif və pedaqoji həyatında vüsətli bir pərvəriş, canlanma və yüksəliş baş verir. Xalqın müasir mədəni dünyaya qovuşması yolunda misilsiz işlər görülür, böyük tərəqqi əldə edilir. Həmin inkişaf və yüksəlişin yükünü çiyinlərində daşıyan, ağlı, əməli, istedadı və fədakarlığı ilə öz xalqına xidmət edən böyük zəka münəvvərləri yetişir. Onlar bütün varlığı, bacarığı və enerjisi ilə öz millətinin, vətəninin tərəqqisinə çalışır. Belə əvəzsiz şəxsiyyətlərdən biri də Sultan Məcid Qənizadə olmuşdur.

2. S.M. Qənizadə xalqımızın yetişdirdiyi böyük simalar içərisində, yüksək erudisiyalı şəxsiyyət, müəllim, pedaqoq, maarifçi, ictimai-siyasi xadim, jurnalist, alim, ədib, uşaq yazıçısı və s. kimi tanınır. Gərgin, mənalı və bəhrəli bir ömür yaşamış S.M. Qənizadə qızğın pedaqoji fəaliyyət göstərmiş, Azərbaycanın məktəb və təhsil tarixində, məktəb və maarif həyatımızın müasir dünyaya qovuşmasında, milliləşməsində və demokratikləşməsində misilsiz işlər görmüşdür. 1887-ci ildən etibarən pedaqoji fəaliyyətə başlayan maarif carçısı yalnız müəllimliklə kifayətlənməmiş, Azərbaycanda milli teatrın, milli mətbuatın, qiraətxana və kitabxanaların, xeyriyyə hərəkatının canlanmasında, ziyalı birliyinin yaranmasında və s. sahələrdə də tarixi əhəmiyyət kəsb edən işlər görmüşdür. İstər müəllim, istər Qori seminariyasında inspektor, istərsə də Bakı və Dağıstan quberniyası üzrə maarif müfəttişi işləyərkən Azərbaycanın məktəb və maarif həyatının ən bacarıqlı, fəal, işgüzar, öncül siması kimi tanınmış,

başqalarına nümunə olmuş, təhsilimizin milliləşməsinə, demokratikləşməsinə çalışmış və bu işdə diqqətəlayiq nəticələrə nail olmuşdur.

3. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə, əsasən, ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, böyük istiqlal mücahidi kimi Azərbaycanın müstəqilliyi və istiqlalı yolunda səy göstərmişdir. Bir vətənpərvər və təcrübəli pedaqoq kimi S.M. Qənizadə Sovet dövründə də Azərbaycan təhsilinin inkişafı uğrunda öz bacarığını əsirgəməmişdir. S.M. Qənizadə öz məslək dostu H. Mahmudbəyovla birlikdə Azərbaycanda və ümumən Rusiya müsəlmanları arasında ilk «rus-müsəlman» məktəbinin yaradıcısıdır. Yeni, Avropa tipli həmin «üsuli-cədid» məktəbini açmaqla bu iki gənc həm Azərbaycanın, həm də Rusiya müsəlmanlarının məktəb və təhsil həyatında yeni inqilabi çevrilişin təməlini qoymuş, bu sahədə sonrakı tərəqqinin ilk təməldaşları və carçıları kimi tarixə düşmüşlər. O, Orta Asiyada da «rus-müsəlman» məktəblərinin yaradılmasında müəyyən əmək sərf etmişdir.

4. S.M. Qənizadə Azərbaycanda uşaq mətbuatı yaratmaq uğrunda mübarizənin ilk təşəbbüsçülərindən biri kimi tanınır. Buna nail ola bilməsə də, o, sonralar intişar tapan Azərbaycan uşaq mətbuatının pərvərişi yolunda müəyyən əmək sərf etmişdir. Azərbaycanda uşaq ədəbiyyatının, balalarımızın mütaliəçi üçün əsərlərin, qiraət kitablarının yaradılmasında da pedaqoq ədibin diqqətəlayiq zəhməti vardır. Pedaqoji fikir tariximizdə təhsil və təlimlə bağlı həm əməli işlərin həyata keçirilməsində, həm də ideya-nəzəri fikrin zənginləşməsində bir alim, nəzəriyyəçi-pedaqoq kimi S.M. Qənizadənin müəyyən rolu olmuşdur.

5. Təhsil tariximizdə məktəblərdə ana dili və onun tədrisində, tədrisin milli dildə aparılmasında bir vətəndaş ziyalı, milli təəssübkeş kimi pedaqoqun əməyi böyükdür. O, bu istiqamətdə həm əməli addımlar atmış, həm də nəzəri görüş və izahatlar vermişdir. S.M. Qənizadə şagirdlər üçün dərsliklər, məktəblilər, kütləvi oxucular, həvəskarlar üçün lüğətlər yaratmışdır. O, ibtidai və orta məktəb şagirdlərindən ötrü Azərbaycan dilinin fonetika və qrammatikasına dair ilk dərsliyin müəllifidir. Başqa sözlə, məktəb tariximizdə ana dilinin fonetika və qrammatikasına aid dərsliklərin tarixi haqqında danışdığımız müəllifin «İstilahi-Azərbaycan» dərsliyi ilə başlayır. Ona qədər dilimizin qrammatikasına aid bəzi əsərlər olsa da, (məsələn, M.Kazım bəyin, Budaqovun, Lazarevin) onlar dərslik yox, elmi qrammatika kitabları idi.

6. S.M. Qənizadə dilçilik tariximizdə ilk «Rusca-Azərbaycanca» və «Azərbaycanca-rusca» lüğətlərin, həmçinin, «Rusca-Azərbaycanca dilmanc»ın, yəni danışıq kitabının müəllifidir. Pedaqoq Azərbaycanda müasir məzmunlu ilk fars dili dərsliyinin («Kilidi-ədəbiyyat») müəlliflərindən biri, ilk əyani vəsait tipli, praktiki əlifba kitabının («Əlifbayi-mütəhərrikə») müəllifidir.

7. S.M. Qənizadə həm öz dövründə gənc nəslin tərbiyə olunmasında praktiki fəaliyyət göstərmiş, həm də öz əsərləri ilə tərbiyə nəzəriyyəmizi zənginləşdirmiş, dəyərli əsərləri ilə pedaqogika elmimizə layiqli töhfələr vermişdir. Onun bədii və pedaqoji irsində müəllim, onun şəxsiyyəti, qadın tərbiyəsi, mənəvi-əxlaqi, fiziki, vətənpərvərlik, əmək, milli və dini birlik tərbiyəsi və s.-lə bağlı dəyərli fikirləri vardır. Onun əsərlərindəki həmin mülahizə və fikirlər bu gün də öz aktuallığını saxlayır. Azərbaycanda bütöv bir ziyalı nəslinin yetişməsində S.M .Qənizadənin əvəzsiz xidmətləri vardır.

**ƏDƏBİYYAT**


1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966.
2. Əhmədov H. S.M. Qənizadənin pedaqoji fikirləri // Azərbaycan məktəbi, 1966, № 4
3. Qənizadə S.M. Seçilmiş əsərləri . Bakı: AvrasiyaPress, 2006.


## PEDAQOGİKA ELMİNİN İNKİŞAFINDA QƏRB PEDAQOJİ FİKRİNİN TƏSİRİ. YAN AMOS KOMENSKİ


**Qarifat Dadaşova,**
*Bakı Sənaye-Pedaqoji Kollecinin müəllimi*



***Açar sözlər:*** *pedaqogika, Komenski, Pansofiya*
***Ключевые слова:*** *педагогика, Коменски, Пансофия*
***Keywords:*** *pedagogy, Comenius, Pansophia*

XVII əsrin əvvəllərində fransız filosofu F. Bekon fəlsəfənin tərkibində pedaqogikaya müstəqil bir elm kimi yanaşmışdır.

Çex pedaqoqu Yan Amos Komenski (1592-1670) ilk dəfə olaraq pedaqogikanı fəlsəfədən ayırmış və onu müstəqil bir elm kimi öyrənməyə, onun nəzəri və praktik məsələlərini təhlil etməyə müvəffəq olmuşdur. Onun elmi əsaslara və qabaqcıl məktəblərin təcrübəsinə istinad edərək dövrün sxolastik məktəblərini kəskin tənqid etməsi, təlim sahəsində bir yenilikçi pedaqoq kimi kollektiv sinif-dərs sistemini, "Pansofiya" ideyasını irəli sürərək "Hamıya hər şeyi öyrətmək" nəzəriyyəsini əsaslandırması; məktəbdə dəqiq qaydaların yaradılması, dərsliklər tərtibi, müəllimlər üçün pedaqoji tələblər və s. haqqındakı baxışları dünya pedaqoji fikrinə dəyərli bir töhfə olmuşdur. O, özündən əvvəlki alimlərin təlim-tərbiyə haqqındakı fikirlərini, fəlsəfi nəzəriyyələrini mükəmməl öyrənmiş, öz dəyərli əsərlərində uzunmüddətli müəllim təcrübəsindən istifadə etmişdir.

O özünün "Dünyanın dolaşıq yolları", "Dillərin açıq qapısı", "Böyük didaktika", "Fizika", "Didaktika", "Təbii üsulun qanunları", "Ümumi hikmətlərin müjdəçisi", "İşığın yolu", "Təbii istedadların mədəniyyəti haqqında", "Dirilmiş forsi" və s. əsərləri ilə dünya şöhrəti qazanmışdır.

Y.A. Komenskinin dünyagörüşünə din böyük təsir etmişdir. Onun dünyagörüşündə ziddiyyətlər mövcud olsa da fəaliyyət prinsipində realizmi üstün tutmuşdur. O, əfsanələri deyil, real varlığı, həyat üçün faydalı olan həqiqi bilikləri öyrənməyə üstünlük vermişdir. Y.A. Komenski dünyagörüşünün əsasını sensualizm təşkil edir. Humanizm və demokratizm Komenski dünyagörüşünün mühüm ünsürü idi. Komenski nikbin baxışlı bir filosof pedaqoq olub, insana, onun qüdrətinə, gözəl meyl və arzularına inanırdı. Onun fikrincə, hamı həqiqi insan olmaq üçün doğulmuşdur, bunun üçün də o mütləq təhsil almalıdır.

Komenskiyə görə, insan yalnız tərbiyə sayəsində insan olur. O istedadsız və tənbəl uşaqların çox az olduğunu, bu istedadsızlığı tərbiyə vasitəsilə aradan qaldırmağın mümkün olduğunu söyləyirdi. Tərbiyənin böyük gücünə və imkanlarına inam Komenskinin maarifçilik mədəniyyətinə və pedaqogika tarixinə gətirdiyi yeni fikir idi. Komenskini bəzən təbiətşünas alim də adlandırırdılar. Çünki onun maarifçilik nəzəriyyəsi təbiətəmüvafiqlik prinsipi üzərində qurulmuşdur.

XVII əsrdə yaşamış çex pedaqoqu Yan Amos Komenski (1592-1670) pedaqogikanı təbiətə müvafiqlik prinsipi əsasında qurmuşdur. Onun fikrincə, insan təbiətin bir hissəsi olduğundan onun tərbiyəsi də təlimi də təbiətin qaydalarına tabe olmalıdır. Məktəb bütün qaydalarını dəqiq olaraq təbiətdən götürməlidir.

Komenski yazırdı ki, insan əqli bütün şeyləri yüksək səviyyədə dərk edə bilər. Bununla bağlı Y.A. Komenski aşağıdakıları yazırdı: "Mənimsənilmə üçün nəzərdə tutulmuş hər bir şey yaş səviyyələrinə görə elə bölünməlidir ki, onların burada əldə edilməsi hər bir yaş dövründəki qavrayış üçün mümkün olsun".

Y.A. Komenski özünəmxsus olaraq yaş dövrlərini yaratmış və buna uyğun olaraq məktəb sistemini də ona uyğun qurmuşdur:

1) 0-6 yaşa qədər – uşaqlıq – "Ana qucağı məktəbi" – ailədə tərbiyə;
2) 6-12 yaş – yeniyetmə - ana dili məktəbi – hər hansı yaşayış məntəqəsində yerləşən məktəb;
3) 12-18 yaş – gənclik – latın dili məktəbi – (gimnaziya) – hər şəhərdə;
4) 18-24 yaş – kişiləşmə - akademiya – universitetlər.

**ƏDƏBİYYAT**

1. Komenski Y.A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012.
2. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Mütərcim, 2013.
3. Hüseynzadə R.L. Pedaqogika tarixi. Bakalavr üçün fənn proqramı. Bakı: ADPU, 2010.

# ПРОГРЕССИВНЫЕ ИДЕИ АЗЕРБАЙДЖАНСКОГО ПРОСВЕТИТЕЛЬСТВА КОНЦА XIX-НАЧАЛА XX ВЕКА

**Саида Пашаева,**
*докторант по программе доктора философии*
*АГПУ*

***Açar sözlər:*** *təhsil, qloballaşma, maarifləntmə, mənəvi dəyərlər*
***Ключевые слова:*** *образование, глобализация, просвещение, духовные ценности*
***Key words:*** *education, globalization, education, spiritual values*

Научно-педагогическое сообщество много раз обращалось непосредственно к деятельности и произведениям просветительского периода конца XIX -начала XX века.

Обозначенная тенденция определяет социальную потребность в переосмыслении и новом взгляде на просвещение конца XIX - начала XX веков, при этом главным нашим акцентом стоит стремление определить ведущие пути исследования деятельности просвещения, в основе которой лежат достижения педагогической науки, складывающиеся на протяжении ее эволюции. Это выдвигает исследовательскую проблему в число первоочередных задач отечественной педагогической науки на основе рефлексии историко-педагогического и политического опыта.

Несмотря на то, что идеи просветителей прошлых столетий, на первый взгляд, кажутся устаревшими, именно они фактически явились основополагающими в дальнейшем развитие и в прогрессе образования. Особое внимание привлекают исторические процессы конца XIX – начала XX века. В истории каждой страны есть личности, которые определяют ее судьбу и Азербайджан тоже не исключение. Ширвани С.А., Зардаби (Меликов) Г.Б., Везиров Н.Б., Шахтахтлы М.С., Сидги (Сафаров) М.Т., Эфендиев Р.Б., Кочарлинский Ф.А., Нариманов Н. Н., Маммедгулузаде Дж., Бакиханов А.А., Ахундов М.Ф. – плеяду этих известных имен можно еще долго продолжать.

Просветительские взгляды Бакиханова А.А. затрагивали различные сферы жизни и деятельности человека. Самое интересное то, что высказывания его, взгляды на жизнь и сегодня актуальны и довольно ощутимы. Так, до него никто не рассматривал проблему о месте женщины в обществе. Однако, именно он впервые в произведениях " Гюлюстани-Ирем ", " Китаби – Аскарие " и во многих других отмечает, что женщины отличаются высокой нравственностью, смелостью, независимостью, доброжелательностью, стремлением к свободе. В трактатах « Техзибуль – Ахлаг » («Воспитание нравственности») и « Китаби – несаех » («Книга наставлений») достоинство человека он видел не в знатности и богатстве, а в овладении знаниями и наукой. В формировании характера и нравственных качеств человека большое значение придавал труду. Он считал необходимым начинать обучение детей с раннего возраста, что не было принято в мусульманских школах.

## ЛИТЕРАТУРА

1. Ахмедов Э. М. А.А. Бакиханов: эпоха, жизнь, деятельность, Баку: Маариф, 1989.
2. Касим-заде Ф. С. Очерки по истории азербайджанской литературы XIX века. Баку, 1962.
3. Рзаев А. К. Азербайджанские востоковеды. Баку: Маариф, 1986.
4. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. II cild. Bakı: Mütərcim, 2013.
5. Гусейнзаде Р.Л., Мамедов Т.М. Педагогика: Учебник. Баку: АГПУ, 2016.

# XXI ƏSRDƏ AZƏRBAYCAN DÖVLƏT TƏHSİL SİYASƏTİNİN YENİ PRİORİTETLƏRİ HAQQINDA MÜLAHİZƏLƏR

**Aynur Məmmədova,**
*kimya üzrə fəlsəfə doktoru*
*Gəncə Dövlət Universiteti*
**Sevinc Zeynalova,**
*Gəncə Dövlət Universitetinin baş müəllimi*
E-mail: zeynal.sevinc@mail.ru

***Açar sözlər:*** *informasiya, tendensiya, xalq, siyasət, azadlıq, mənəviyyat*
***Ключевые слова****: информация, тенденция, народ, политика, свобода, духовнасть*
***Key words:*** *information, trend, people, policy, freedom, spirituality*

On nəfərə oxumağı öyrədən düşməni azad edən peyğəmbər Məhəmməd (s. ə. v. s.) rəsuliallah təhsilə elə yüksək qiymət vermişdir ki, ona yaxın bir fikri düşünmək belə mümkün deyil.

İnformasiyalar dövründə ümumxalq inkişafının əsas tendensiyaları: XX əsrdə yaşamaq üçün öyrənmək idisə, XXI əsrdə yaşam boyu öyrənməkdir.

Müsəlman dünyasının nuri Məhəmməd (s. ə. v. s.) bu fikri hələ VI əsrdə söyləmiş," beşikdən ta qəbirə qədər öyrənməyi" bizə tövsiyə etmişdir.

Azərbaycanda ümumi təhsil sisteminin dəyərini və məqsədini müəyyən edən istiqamətləndirici fikirlər formalaşmaqdadır. Bizdən əvvəlki nəslin prioritet məsələsi ümumi və orta təhsilin invariant nüvəsinin qorunması oldu. Demək olar ki, bu vəzifənin öhdəsindən uğurla gəldilər.

Vahid təhsil fəzasının qorunması funksiyası öz mahiyyətini indi də itirməyib. Lakin təhsil standartlarının inkişaf edən potensialları müasir zamanda tez-tez dəyişən mühitdə təhsil sisteminin inkişaf və funksiyasını təmin etdiyi üçün daha böyük əhəmiyyət kəsb edir.

Elm və təhsil sistemində prioritetli olmaq olduqca çətin, xalqa, millətə şərəf və xeyir gətirən bir iş olduğundan bu mürəkkəb komplementar prosesdə hər bir vətəndaş mahiyyəti dərindən anlamalı və yüksək səylə çalışmalıdır. Sistem elə qurulmalıdır ki, o işə düşəndə heç kəs kənarda qalmasın. Necə deyərlər "dirilik birlikdədir" və ya" bir milləti yox etmək üçün onun təhsilini yox et". Hansı tərəfdən baxsan məsuliyyət və idarəçilik dövlətin, eləcə də təhsil işçilərinin üzərinə düşür. Valideyn vəzifəsini vətəndaşa aşılamaq prosesim ilkin lakin çox əhəmiyyətli tərəfidir.

Hələ bağça dövründə uşağı elə yetişdirmək lazımdır ki, o nəinki başqalarının təsiri altına düşməsin, hətta özü lazım olan yerdə qayda qanun yaratsın və müsbət cəhətləri ilə başqalarına təsir edə bilsin. Sözlə əməli üst-üstə düşən, dürüst, dini savad, mənəvi qiymətləndirmə bacarığı, pisi-yaxşını ayırd etmə qabiliyyəti, iradə, özünə inam və. s. kimi keyfiyyətlərə yiyələnən uşaq həm evdə, həm cəmiyyət arasında gözəlliklər araşdıraraq harmoniyanın yaranmasına çalışacaq. Və uşaqlar bunu yaxşı bacarırlar, onlar ağ kağıza bənzəyirlər üzərində nə istəsən yaz. Prosesin davamı orta məktəbi bitirənə qədər getməlidir və sonda vətəndaşlıq sənədi kimi valideynlik şəhadətnaməsi ala bilərlər ki, bu da ailə qurarkən yararlı ola bilər. Başqa bir misalla da məsələyə aydınlıq gətirək. Təbiət bütün canlı və cansız tərkibini balanslaşdırmaqla öz tamlığını qoruyur ki, bununla o hər sahədə bizə gözəl nümunə ola bilər. Əvvəlcə torpaq almaz yetişdirir, sonra insan onu cilalayır çox qiymətli bir daşa çevirir. Necə ki, ailə övladı yetişdirir və müəllim onu xeyirli bir vətəndaşa çevirir.

Sözün əsil mənasında yüksək insani keyfiyyətlərə malik gəncin ali təhsili və xalqa xidməti də keyfiyyətli olacaq və belə vətəndaşı olan dövlət üçün prioritet nəinki təhsildə bütün sahələrdə təmin olunacaqdır. Azərbaycan cəmiyyətinin transformasiyası və ümumi orta təhsilin prioritetləri Dövlət təhsil siyasətinin prioritetlərinə və cəmiyyətin modernizasiyasına aparan yoldur. Epiloqu sxem şəklində belə təsvir etmək olar.




**ƏDƏBİYYAT**


1. Сотникова О.А. Приоритет в выборе педагогических технологий нефтегазового образования при изучении теоретического материала // Современное образование, 2016, № 1
2. Булатова И. С. Качества знаний как сохраняемые содержания образования в вузе // Теория и практика общественного развития, 2011, № 3
3. Вербицкий А. А. Теория и практика контекстного образования: Россия и США // Вестник Московского государственного гуманитарного университета им. М.А. Шолохова, Педагогика и психология, 2015, № 1

# К ПРОБЛЕМЕ ПЕДАГОГИЧЕСКОГО ПРОФЕССИОНАЛИЗМА СОВРЕМЕННЫХ УЧИТЕЛЕЙ

**Севиндж Ахундова**
*доцент Бакинского славянского университета*
E-mail: seva_axundova@inbox.ru

***Ключевые слова:*** *профессионализм, педагог, педагогические особенности, мастерство, интуиция, рефлексия*
***Açar sözlər:*** *peşəkarlıq, müəllim, pedaqoji qabiliyyətlər, ustalıq, intuisiya, refleksiya*
***Key words:*** *professionalism, pedagogical, teacher, mastery, intuition, reflection*

В словах великого вождя азербайджанского народа огромная забота о будущем своей страны, о будущем своего народа. Он неоднократно подчеркивал неоценимую роль учителей-профессионалов в подготовке самостоятельных и творчески мыслящих граждан и личностей.

Действительно, современное состояние образовательной системы Азербайджанской республики требует развития профессионального уровня учителей. Проблема подготовки квалифицированных педагогических кадров, всегда являлась и остается приоритетным направлением в образовательной стратегии государства.

Понятие «педагогический профессионализм» - это синтез профессиональных умений, навыков, педагогических способностей с личностными характеристиками преподавателя. Педагогический профессионализм подразумевает высокий уровень сформированности педагогического мастерства. По В.А. Сластепину «это качественная характеристика, отражающая высокий уровень профессиональной компетенции и личностной готовности к продуктивному решению педагогических задач» (1, 5).

Критериями педагогического профессионализма являются:

- научно-теоретическая и методическая подготовка;
- высокий уровень профессиональных умений и навыков;
- общая и профессиональная культура;
- педагогические способности;
- высокая работоспособность и результативность;
- педагогическая интуиция;
- педагогическая рефлексия.

Становление педагогического профессионализма зависит от действия субъектных и объектных факторов. Субъективными факторами являются особенности личности самого педагога в сочетании с профессиональными компетенциями. Объективными факторами, обуславливающими развитие профессионализма являются условия, в которых осуществляется педагогическая деятельность. Безусловно, это успешная профессиональная педагогическая среда – коллектив.

Особое место в структуре профессионализма современных педагогов занимает творческая деятельность. Рассмотрим несколько уровней педагогического творчества:

Первый уровень – это уровень сотрудничества и взаимодействия с учениками.

Второй уровень - это мотивационный уровень, связанный с умением педагога легко овладевать и управлять вниманием и интересами учащихся.

Третий уровень – это конструктивный уровень, который связан с умением проектирования личности ребенка и адаптирования учебно-воспитательного материала возрасту и особенностям индивида.

**ЛИТЕРАТУРА**

1. Сластёнин В.А. Профессионализм учителя как явление педагогической культуры // Педагогическое образование и наука. 2004, № 5

2. Велиева З. Управление профессиональным уровнем учителей. Баку, 2005.

# MÜƏLLİMİN TƏDRİS FƏALİYYƏTİNİN VƏ TƏLİM EHTİYACLARININ QİYMƏTLƏNDİRİLMƏSİ TƏCRÜBƏSİNDƏN

**Nəzakət Mehdiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: nazakat72@gmail.com

***Açar sözlər:*** *qiymətləndirmə tədqiqatları, qiymətləndirmə vasitələri, ehtiyacların qiymətləndirilməsi, peşəkar inkişaf, tədqiqatın hədəfləri*
***Key words:*** *Assessment studies, assessment tools, needs assessment, Professional development, target group, sampling*
***Ключевые слова:*** *исследование по оцениванию, средства оценивания, оценка потребностей, профессиональное развитие, цели исследования*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, təhsilalanın savadlı və səriştəli şəxs olaraq formalaşması müəllimin akademik bilik və bacarıqları, tədris təcrübəsi və peşəkarlıq səviyyəsindən asılıdır. Təsadüfi deyil ki, yüksək təhsil nailiyyətlərinə malik olan ölkələrin mütəxəssisləri müəllimin peşəkarlığını təhsilalanın təlim nəticələrinə təsir edən əsas amillərdən biri hesab edir və peşəkarlığın ölçülməsi istiqamətində araşdırmalar aparırlar. Həmin tədqiqatların nəticəsində mütəxəssislərin gəldiyi qənaət bundan ibarətdir ki, təhsilin keyfiyyəti bilavasitə müəllimin yaradıcı potensialından, öz üzərində daim işləməsindən, peşəkarlıq səviyyəsindən, qabaqcıl təlim texnologiyalarını tədris prosesinə çevik şəkildə tətbiq edə bilməsindən asılıdır. Məqsədi hərtərəfli inkişaf etmiş və humanistyönlü şəxsiyyət yetişdirməkdən ibarət olan müasir təhsil sistemi müəllimdən hər bir şagirdə onun fərdi xüsusiyyətlərini və inkişaf səviyyəsini nəzərə alaraq yanaşmağı tələb edir. Bu tələblərə cavab vermək, müəllimlərin işindəki çətinlikləri aşkar etmək və aradan qaldırmaq üçün onların pedaqoji fəaliyyəti, peşəkarlıq səviyyəsi və təlim ehtiyacları mütəmadi olaraq qiymətləndirilməlidir.

Tədqiqatçılar hesab edir ki, müəllimin peşəkarlıq səviyyəsinin və pedaqoji fəaliyyətinin qiymətləndirilməsi üçün göstəricilər müəyyənləşdirilərkən xüsusilə onun şəxsi keyfiyyətləri, pedaqoji yanaşmaları, şagirdlərinin nailiyyətləri, müasir təlim texnologiyalarını öz işində tətbiqetmə bacarığı diqqətdə saxlanılmalıdır. Bu sahədə hər bir ölkənin özünəməxsus təcrübəsi olmasına baxmayaraq göstərilən meyarlar həmin təcrübələrin ana xəttini təşkil edir. Müəllimlərin pedaqoji fəaliyyətini öyrənən beynəlxalq qiymətləndirmə tədqiqatları da bu meyarları hər hansı bir şəkildə nəzərə alır və tədqiqat suallarına daxil edir. 2008-ci ildən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən keçirilən "Tədris və təlim üzrə beynəlxalq qiymətləndirmə tədqiqatı" (TALİS) da eyni prinsiplər üzrə iş aparır. TALİS-in fəaliyyəti müəllimlər və məktəb direktorlarından toplanan məlumatlar əsasında təhlillər apararaq ölkələrin bu sahədə hansı oxşar çətinliklərlə üzləşdiyini müəyyən etmək və bu məsələyə müxtəlif yanaşmaları öyrənməkdən ibarətdir.

TALİS müəllim və direktorların fəaliyyətinin xarakterik xüsusiyyətlərini, iş təcrübəsi və inkişaf istiqamətlərini, məktəbdəki kadr, maliyyə siyasətini, şagirdlərin xarakterik xüsusiyyətlərini, məktəb liderliyi və idarəetmə məsələlərini, müəllimlərin qiymətləndirilməsi və rəyvermə prosesini, müəllimlərin tədris fəaliyyəti, şagirdləri qiymətləndirmə təcrübələri və təlim ehtiyaclarını, müəllim və direktorların iş məmnuniyyətini və məktəb mühitini öyrənir. Tədqiq olunan məsələlər TALİS-in sorğu kitabçasında aşağıdakı bölmələr üzrə qruplaşdırılır:

- Təlim mühiti;
- Qiymətləndirmə və rəy;

- Tədris təcrübəsi və sinif mühiti;
- İnkişaf və dəstək;
- Məktəb liderliyi;
- İş məmnuniyyəti.

TALİS-in qiymətləndirmə vasitələri beynəlxalq əməkdaşlıq şəraitində inkişaf etdirilir. İştirakçı ölkənin milli nümayəndələri sorğunu təkmilləşdirmək üçün il ərzində bir neçə dəfə görüşürlər. Sorğuların məzmunu iştirakçı ölkələrin təhsil siyasətinə uyğunlaşdırılır. Tədqiqatın hər bir mərhələsində suallar məhz həmin məqamlara əsaslanaraq yeniləndirilir. Tədqiqatın əsas mərhələsindən əvvəl sınaq keçirilir və suallar yoxlanılır. Sınaq qiymətləndirmə zamanı tərcümə uyğunsuzluğu aşkar edilən suallar müəyyənləşdirilir. Hər bir ölkədən olan nümayəndə sorğu sənədlərinin öz dilinə tərcümə olunması, dövlət dilində olub orijinallığını itirməməsi üçün məsuliyyət daşıyır.

Sənədlər sınaqdan əvvəl bir dəfə, əsas mərhələdən əvvəl iki dəfə təsdiqlənir. Məlumatların hətta statistik təhlili zamanı tərcümə problemi aşkar olunan bənd yekun sorğu sənədləri arasından çıxarılır. Tədqiqatın əsas mərhələsinin qiymətləndirmə vasitələri son olaraq iştirakçı ölkələrin nümayəndələri tərəfindən təsdiqləndikdən sonra istifadəyə verilir.

TALİS-ın əsas hədəfi VII, VIII, IX sinif şagirdləri ilə işləyən müəllimlər və həmin məktəblərin direktorlarıdır. Seçilmiş məktəbə göndərilən nümayəndə təsadüfi seçilmiş 22 nəfər müəllimlə sorğu keçirir. Seçilmiş məktəbdə VII,VIII, IX siniflərdə dərs deyən müəllimlərin sayı 22-dən az olduğu halda həmin siniflərlə işləyən bütün müəllimlər tədqiqata cəlb edilir. Təsadüfi qaydada seçilmiş məktəblər və müəllimlərdən toplanmış məlumatların müxtəlifliyi təmin edilir. Tədqiqatda iştirak etmək könüllüdür və istənilən zaman hər bir müəllim və ya məktəb direktoru iştirakdan imtina edə bilər. Lakin dəqiq nəticələr əldə etmək üçün seçilmiş hər bir şəxsin iştirakı çox vacibdir, çünki onlar tək özlərini deyil, aid olduğu hədəf qrupunu təmsil edirlər.

Təşkilatçılar tərəfindən tədqiqatın məqsədi və məlumatların toplanması prosesi haqqında standart prosedurları müəyyən edən müxtəlif təlimatlar hazırlanır və ölkələrin nümayəndələrinə təqdim edilir. Təlimatda sorğu iştirakçılarına məlumat üçün bildirilir ki, sorğuda "qiymətləndirmə" anlayışı müəllimin işinin məktəbin rəhbəri, müəllim həmkarları, digər kənar şəxs və ya təşkilat tərəfindən qiymətləndirilməsini ifadə edir. Bu qiymətləndirmə rəsmi, əvvəlcədən müəyyənləşdirilmiş meyarlarla və ya müəllimlə qeyri-rəsmi müzakirə vasitəsilə aparıla bilər.

Sorğuda "rəy" dedikdə müəllimin işi barədə rəsmi və ya qeyri-rəsmiliyindən asılı olmayaraq, aparılmış müşahidələrin, qiymətləndirmələrin nəticələrinin müəllimə bildirilməsi nəzərdə tutulur. Əksər hallarda rəyvermə müsbət göstəricilərin qeyd edilməsi və ya peşəkar inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi məqsədi daşıyır. Rəy müəllimə rəsmi (məsələn: yazılı hesabat) və ya qeyri-rəsmi (məsələn: müəllimlə müzakirələr) qaydada verilə bilər.

Tədqiqat zamanı sorğu kitabçasını tamamlamaq üçün 45 dəqiqə tələb olunur. Sualları cavablandırmaq üçün kitabçada əlavə göstərişlər yazılır. Sualların çoxu çoxseçimli olub mövcud cavablardan uyğun gələnini işarələməkdən ibarətdir.

Tədqiqata İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan dövlətlərlə yanaşı, digər 23 ölkə də qoşulur. İƏİT ölkələrindən Avstraliya, Avstriya, Belçika, Danimarka, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Koreya, Meksika, Norveç, Polşa, Portuqaliya, Slovakiya Respublikası, İspaniya, Türkiyə və digərləri tədqiqatda iştirak edir. İƏİT-in partnyor ölkələrindən Braziliya, Bolqarıstan, Estoniya, Litva, Malayziya, Malta və Sloveniya da tədqiqata qoşulanlar sırasındadır. 2013-cü ildə 34 ölkədən olan 5 milyondan çox müəllim sorğunu cavablandırıb. 2008-ci ildən fərqli olaraq, 2013-cü ildə xüsusi qayğıya ehtiyacı olan uşaqlara dərs deyən müəllimlər də tədqiqata cəlb edilib.

Tədqiqatda iştirak edən ölkələr sorğu prosesini müşahidə etmək və işin keyfiyyətinə nəzarət etmək üçün daxili qiymətləndirmə təşkil edir. Həmçinin İƏİT tərəfindən keyfiyyətə nəzarət üçün müstəqil monitorinq qrupları yaradılır.

İƏİT tədqiqatda toplanmış məlumatları təhlil edərək problemləri qruplaşdırır və həmin problemlərin mövcud olduğu ölkələrin PİSA nəticələri ilə qarşılaşdırır. Amma bu o demək deyil ki, İƏİT TALİSİ PİSA-nın nəticələrini təhlil etmək üçün keçirir.

İƏİT 2018-ci ildə TALİS-in növbəti mərhələsini keçirməyi planlaşdırır. İştirak üçün müraciət edən ölkələrin sayı artıq 40-a çatıb. Azərbaycan tədqiqata qoşulan ölkələr arasında olmasa da, məktəblər internet saytlarında yerləşdirilmiş əvvəlki illərin sorğu materiallarından istifadə etməklə öz məktəblərindəki təlim mühitini qiymətləndirə bilər və həm də bu sahədə beynəlxalq yanaşmalarla tanış ola bilərlər.

**ƏDƏBİYYAT**

1.TALİS,2013,Teacher Questionnaire. https://nces.ed.gov/surveys/talis/pdf/ TALIS2013 _teacherquestio nnaire. pdf
2. OECD Teaching and Learning International Survey TALIS, 2009, Creating Effective Teaching and Learning Environments: First Results from TALIS' Education International analysis. https://download.ei-ie.org/Docs/WebDepot/OECD%20TALIS%20Report_EI%20Analysis.pdf
3. Teaching Around the World: What Can TALIS Tell Us? Dion Burns & Linda Darling-Hammond. https://edpolicy.stanford.edu/sites/default/files/publications/teaching-around-world-what-can-talis-tell-us_3.pdf
4. What We Can Learn About Teacher Motivation From TALIS http://www.wise-qatar.org/teachers-motivation-janet-looney

## BƏDƏN TƏRBİYƏSİ MÜƏLLİMİNİN İŞİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ KADRLARIN HAZIRLANMASI

**Yusif Babanlı,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
E mail: babanlı.yusif@mail.ru

***Açar sözlər**: fiziki tərbiyə, müəllim, kadr hazırlığı, bədən tərbiyəsi, idman, keyfiyyət, mütəxəssis*
***Ключевые слова**: физическое воспитание, учитель, подготовка кадров, физическое воспитание, спорт, качество, специалист*
***Key words**: physical education, teachers, staff training, physical education, sports, quality, specialist*

Müasir dövrdə qarşıya qoyulan vəzifələri müvəffəqiyyətlə yerinə yetirmək üçün həlledici şərtlərdən biri kadrların hazırlanması, düzgün seçilməsi və tərbiyə edilməsidir. Kadr hazırlığı ümumdövlət işinin mühüm vəzifəsi hesab edilməklə dövlətin sosial-iqtisadi sahəsində başlıca yer tutur. Kadrların seçilməsi müəyyən modellər, əlamətlər və prinsiplər əsasında icra olunur. Bu məsələ ən çətin və prinsipial əhəmiyyətə malik bir fəaliyyət sahəsidir. Ali təhsil müəssisələrində tələbələrin elmə həvəsləndirilməsi üçün maksimum şəraitin yaradılması əsas məsələ kimi qarşımızda durur. Müasir dövrün tələblərinə uyğun təhsilin yaddaşa deyil, təfəkkürə əsaslanan iş üsullarından istifadə etmək, kreativ keyfiyyətləri aşkara çıxarmaqla iqtisadi kapitalı intellekt kapitalına çevirmək, yeni baxış, yeni təfəkkür tərzi, hadisələrə çevik və fəal münasibət bildirmək bacarığı formalaşdırmaq lazımdır.

Kadr dedikdə, idman təşkilatlarında müəyyən göstəricilərlə işləyənlər nəzərdə tutulur və kadrla əlaqədar qərarları menecer qəbul edir. Menecer isə burada potensial imkanı olan bir şəxs-bədən tərbiyəsi mütəxəssisidir. Burada əsasən bir necə meyar ola bilər: nəticə və hədd qoyulması. Ümumiyyətlə kadrların işə qəbulu və işdən uzaqlaşdırılması məsələsində menecerdən dəqiqlik və məsuliyyət tələb olunur.

İdman təşkilatlarının inkişafında kadrların qəbulu böyük rol oynayır. Ona görə də kadrların işə qəbulunda aşağıdakı keyfiyyətlərə böyük diqqət yetirilməlidir: əməkdaşlıq və komanda ilə birləşmək qabiliyyəti; analiz etmə qabiliyyəti; yaradıcılıq qabiliyyəti; qiymətləndirmə qabiliyyəti; nəzarət etmə və təşkilatçılıq qabiliyyəti; öz işinin həqiqət olduğunu sübut etmək qabiliyyəti; tez ünsiyyət yaratmaq qabiliyyəti; işdə etibarlılıq qabiliyyəti və s. Qeyd olunan keyfiyyətlərin nəzərə alınmasında diqqətli olmaq lazımdır ki, onların gələcəkdə fəaliyyəti müəssisəyə, idman təşkilatlarına ziyan vurmasın. Bütün bunları nəzərə alaraq kadrların işə qəbulunda əsas meyar onun şəxsi keyfiyyəti, tutduğu vəzifənin öhdəsindən gələ bilməsi və başqa keyfiyyətlər əsas götürülməlidir. Həmçinin, vəzifəyə irəli çəkilən namizəd haqqında zəruri informasiyanın və məlumatların təhlili, həmin vəzifəyə konkret və daha uyğun gələn adamın təyin edilməsi məqsədəuyğun olmalıdır. Kadrlar seçilərkən onları iş təcrübəsi, işgüzarlığı, şəxsi keyfiyyətləri, özünə və iş yoldaşlarına qarşı tələbkarlığı, idman təşkilatının mənafeyinə nə dərəcədə uyğun gəlməsi də nəzərə alınmalıdır.

Rəhbərlik və idarəçilik keyfiyyətlərindən biri də liderlikdir. Lider dedikdə başçılıq etməyi bacaran kollektivə və kütləyə təsir etmək qabiliyyətinə və istedadına malik şəxs başa düşülür. Fərd öz

arzu və ehtiyaclarından bir qismini reallaşdırmaq, fərdi hədəflərinə çata bilmək üçün bir qrupa ehtiyac duyar və qrup halında hərəkət etmə zəruriliyini hiss edər. Bu halda müəyyən məqsəd və hədəflərə yönəlmiş insan qruplarının yaradılması və hərəkətə keçirilməsi hər insanda olmayan xüsusi bir bacarıq və razı etmə qabiliyyətlərini tələb edir. Liderlik mövzusunda ortaya atılan bir çox təriflər araşdırıldığı və bir sintez yaradılmağa çalışıldığı təqdirdə bu anlayışı; bir qrup insanı müəyyən məqsədlər ətrafında toplaya bilmə və bu məqsədləri reallaşdırmaq üçün onları hərəkətə keçirmə qabiliyyəti və məlumatlarını toplama deyə təyin edə bilərik.

Ulu öndər Heydər Əliyev gəncləri bir təşkilat halında birləşdirərək, müstəqil Azərbaycan üçün vətənpərvər bir nəsil yetişdirmişdir. Hazırda Prezident İlham Əliyev Azərbaycan gəncliyinin qayğıları, problemləri ilə maraqlanır, onlara daim qayğı göstərir. Bu istiqamətdə qəbul edilmiş Dövlət Proqramının tələblərindən irəli gələn vəzifələr ölkəmizin hər yerində uğurla icra olunur. Bu tip tədbirlərdən bir neçəsini qeyd etmək olar. Azərbaycan Tələbələr Birliyinin və Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən “Tələbələr liderlik yolunda ” Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ ) təşkilatçılığı ilə keçirilən ənənəvi “Yay liderlik layihəsi, “Qış liderlik məktəbi” layihəsi, MDB-dən olan tələbələr üçün “Beynəlxalq liderlik məktəb - düşərgəsi ”layihəsi ilə yanaşı digər layihələr də planlaşdırılır.

Təhsil müəssisələrində tələbə gənclərdə gələcəkdə karyera qurmaq bacarığını formalaşdırmaq onların gələcəkdə iş tapmaq fəaliyyətinə dəstəkdir. Ümumiyyətlə ali təhsil müəssisələrində Karyera İnkişaf mərkəzlərinin açılması dünyanın bir çox aparıcı universitetlərində tətbiq edilmişdir. Karyera İnkişaf mərkəzi tələbələrin karyera, karyera inkişafı və planlaşdırılması, magistr təhsil planlarının yaradılması və professional iş həyatı ilə əlaqədar qərarlarında dəstək olmağı hədəfləyir . Fərqli fakültələrdə təhsil görən tələbələr ehtiyaclarına uyğun planlar və proqramlar hazırlayırlar.

**ƏDƏBİYYAT**


1. Əliyev A. Ə. Bədən tərbiyəsi və idmanın idarə edilməsi: Dərslik. Bakı: Araz , 2014.
2. Quliyev D. Q. , Y. M. Babanlı, İlham Əliyev və Azərbaycan gəncliyi. Bakı: Təknur, 2013.
3. Губа, В.П. Научно-практические и методические основы физического воспитания учащейся молодежи: Учеб.пособие для студентов вузов. М.: Советский спорт, 2008.


## TƏHSİL KONSEPSİYASININ REALLAŞDIRILMASINDA XXI ƏSR MÜƏLLİM HAZIRLIĞININ MODELİ


**Anar İsmayılov,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*



***Açar sözlər:*** *müəllim, tədris etmək, istedadlı, metod, kompetensiya*
***Ключевые слова:*** *педагог, обучать, талантливый, метод, компетенция*
***Key words:*** *teacher, teaching, talented, method, competence*


Bu məqalədə uşaqların qabiliyyətlərini inkişaf etdirmək üçün onların müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnməsindən, təhsil alanların nəzəri (ümumi və xüsusi) hazırlığının yüksəldilməsi ilə vəhdət halında pedaqoji məharətlərinin cilalanması yönümündə aparılan işlərdən, “İstedad” anlayışının tərkib hissələri olan güclənmiş motivasiya (fəaliyyətə aludə olmaq), orta səviyyədən yüksək intellekt, yaradıcılıqdan, istedadların müəyyənləşdirilməsi, dəstəklənməsi və inkişaf etdirilməsi probleminin aktuallığından, pedaqoji təmayüllü ali məktəblərdə (eləcə də kolleclərdə) istedadlarla işin istiqamətlərindən, istedadlı uşaqların təlimi ilə bağlı müəllim hazırlığına verilən tələblər, müvafiq proqram, model və layihələrin əsasında duran arqumentlərdən, tam mənimsəməyə əsaslanan təlim metodunun praktiki tətbiqi ardıcıllığından, istedadlı uşaqlarla bağlı müəllim fəaliyyətinin zəruri peşəkarlıq tərkibinin müəyyənləşdirilməsindən, istedadlı və qabiliyyətli uşaqlarla işləyən müəllimlərin şəxsiyyət və peşəkarlıq mövqeyinin daha çox uşaq istedadının fəallaşdırılmasına və inkişaf etdirilməsinə, təlim prosesində nəzarət və idarəçilikdən daha çox şagirdlərə təlim müstəqilliyinin verilməsinə yönəldilməsindən bəhs edilir.

Təlim prosesində elə qarşılıqlı münasibətlərin yaradılması nəzərdə tutulur ki, burada hər iki tələb qarşıya qoyulmuş məqsədə çata bilsin. Əməkdaşlığın əsasında bu prosesin iştirakçıları arasında pozitiv münasibətlərin saxlanılması durur və əlbəttə, əməkdaşlıq qurulması üçün tələbat və əməkdaşların fəaliyyəti bir-birini məlumatlandıraraq həyata keçirməsi vacibdir.

Təlim o vaxt effektli olur ki, pedaqoq şagirdin fəaliyyətinə məharətlə rəhbərlik edir. Birgə fəaliyyətə sıx şəkildə qoyulmuş şagirdin şəxsi keyfiyyətləri, əməliyyatlarda müstəqilliyi bu cür əməkdaşlığın əsasını təşkil edir.

Müəllimlə belə qarşılıqlı münasibətlərdə olan şagirdin daha aktiv və sərbəst olmaq imkanı yaranır. Bundan başqa bu aktivliyi düzgün idarə etməklə şagird şəxsiyyətində müsbət yönümlü dəyişikliklərin baş verdiyini görmək olar.

Qeyd etmək lazımdır ki, təlim prosesindəki müəllim və şagirdin arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir.

Belə qarşılıqlı proses olmasa, şəxsiyyətin formalaşması baş verməz. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyini öyrənir.

Müəllimlə şagirdin əməkdaşlığı təkcə tədris metod və vasitələrinin tətbiqindən ibarət deyil.

Müəllim ötürdüyünün şagird tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır.

Ə. Əlizadə yazır: "Pedaqoji qabiliyyət, bir qayda olaraq, pedaqoji məktəblərdə formalaşır və inkişaf edir. Məktəbli yaşı dövründə isə onlar, necə deyərlər, "anadan müəllim doğulmuş " şagirdlərin uşaqlarla, ilk növbədə kiçik uşaqlarla ünsiyyətdə özlərini göstərirlər. Belə uşaqlarda ünsiyyət tələbatı güclü olur və onlar həvəslə rollu oyunlarda iştirak edir. Belə uşaqlar şəxsiyyətlərarası münasibətlərdə problemli vəziyyətlə rastlaşanda onu asanlıqla həll edə bilirlər. Məktəbli yaşı dövründə pedaqoji təfəkkür və pedaqoji təxəyyül şagirdlərdə məhz kommunikativ sahədə pöhrələnməyə və inkişaf etməyə başlayır ."

Uşaqların qabiliyyətlərini inkişaf etdirmək üçün onların müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnməsinə ardıcıl surətdə fikir verilməlidir. Biliyin yaradıcı səciyyə daşıması üçün onun elə bil ki, yenidən kəşf olunması – özününküləşdirilməsi lazımdır. Bilik hafizə faktından fikir faktına, canlı düşüncə prosesinin bir ünsürünə çevrildikdə, o özü də canlanır və sonrakı nəzəri və əməli fəaliyyət üçün təməl olur. Qabiliyyətlər bilavasitə bilik, bacarıq və vərdişlərdə deyil, onların qazanılma dinamikasında, yəni bütün başqa şərtlər eyni olduqda, bu fəaliyyət üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesinin nə qədər tez, dərin asan və möhkəm icra olunmasında təzahür edir.

Məlum olduğu kimi, qabiliyyətlər bilik, bacarıq və vərdişlərlə qarşılıqlı əlaqədədir, lakin onları eyniləşdirmək olmaz. Əgər müəllim hərtərəfli yoxlama aparmadan uşağın ancaq müəyyən bilik, bacarıq və vərdişlər sisteminə malik olub - olmamasına görə onun qabiliyyətli və ya qabiliyyətsiz olması haqqında nəticə çıxarırsa, elmi cəhətdən kobud, praktik cəhətdən zərərli addım atır. Danılmazdır ki, bilik, bacarıq və vərdişlər qabiliyyətlərin inkişafı üçün zəruri şərtlərdən biridir. Bilik uşaqların zehni qabiliyyətlərinin, yaradıcı-dialektik təfəkkürünün, idrak motivlərinin, psixi proseslərinin inkişafına kömək edir.

İstedadlı uşaqlarla iş istiqamətində müəllim hazırlığında bir sıra prinsplərdən bəhs etmək olar. Bunların sırasında aşağıdakılar da vardır: ümumi və xüsusi təhsilin birliyi və diferensasiyası prinsipi; təlimin mərhələlik prinsipi (hazırlıq təlimin müxtəlif mərhələlərində-bakalavr və magistratura mərhələlərində və sonrakı peşə fəaliyyəti dövründə (ixtisasartırma kurslarında) aparılmalıdır); nəzəri və praktik hazırlığın birliyi (vəhdəti) prinsipi (İstedadlı uşaqlarla işləyən mütəxəssislərin hazırlığı zamanı nəzəri və praktik yönüm adekvat əlaqələndirilməlidir).

Vurğulamaq yerinə düşər ki, təhsil proqramlarının, konseptual modellərin, layihələrin uğuru onu tətbiq edən müəllimin, tərbiyəçinin pedaqoji qabiliyyətləri ilə şərtlənir. Müəllimlərdə pedaqoji qabiliyyətlərin formalaşması bu gün aktual məsələ kimi meydana çıxır. Ənənəvi didaktik sistemdə müəllimin didaktik və təşkilatçılıq qabiliyyətlərinə daha çox diqqət yetirilib. Müasir təhsil konsepsiyası didaktik və təşkilatçılıq qabiliyyətlərinin əhəmiyyətini qətiyyən azaltmadan bu gün, təhsilin humanistləşdirilməsi şəraitində kommunikativ və perspektiv, ekspressiv və konstruktiv qabiliyyətlərin

əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Müəllimlərin pedaqoji ustalığının artırılmasının başlıca yolu məktəb şəraitində pedaqoji qabiliyyətlərin psixoloji ölçülərlə inkişaf etdirilməsindən ibarətdir. Bundan başqa, pedaqoji universitet və institutlarda tələbələrdə, gələcək müəllimlərdə bu qabiliyyətlər xüsusi metodika ilə inkişaf və tərbiyə olunmalıdır. Təkmilləşdirmə kurslarında müəllimlərlə elmi-metodik iş məhz pedaqoji qabiliyyətlərin inkişaf etdirilməsi yönümündə aparılmalıdır. Sosial-psixoloji treninq sistemli istifadə olunmalıdır. Müəllimlərə autotreninqin sirlərini öyrətmək lazımdır. Professor Ə. Əlizadənin vurğuladığı kimi müəllimlərin pedaqoji ustalığının artırılmasına Respublikanın görkəmli rejissorlarının və aktyorlarının yaxından köməyi ilə müasir teatr pedaqogikasının uğurlarından da faydalanmanın vaxtı artıq çatmışdır.

**ƏDƏBİYYAT**


1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
2. Ağayev Ə.Ə və Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004
3. 3. Kurikulumların hazırlanması və tətbiqi məsələləri: Metodik tövsiyə / Tərtib edənlər;:A. Əhmədov, Ə. Abbasov. Bakı: Kövsər, 2008
4. 4. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010
5. 5. Nəzərov A.M., Məmmədov R.Ə. Pedaqoji ustalıq. Bakı: Müəllim, 2008
6. 6. Rüstəmov F.A. Dadaşova T.Y. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007


## PEDAQOJİ İXTİLAFLARIN SƏBƏBLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ


**Manaf Səmədzadə,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E- mail: yardimlitahsil@mail.ru



***Açar sözlər:*** *pedaqoji konflikt, ziddiyyət, münasibətlər, maraqların toqquşması, kompromis, güzəşt*

***Ключевые слова:*** *педагогический конфликт, противоречие, отношения, конфликт интересов, компромисс, уступки*

***Key words:*** *conflict, pedagogical conflict, conflict, relationships, conflicts of interest, compromise, to give up*


“Konflikt” ifadəsi latın sözü "conflictus" dan götürülüb, mənası toqquşma, qarşıdurma deməkdir. Başqa sözlə, konflikt ziddiyyətlərin ifadə formasıdır [1]. Bu halda iştirakçı olan qarşı tərəflərin maraq, mövqe və baxışları bir-birinə zidd olur və onlar bir araya sığmayan mövqelərdən çıxış edirlər. Konflikt - səbəbindən, əhatə dairəsindən, inkişaf səviyyəsindən asılı olaraq müxtəlif forma və səviyyələrdə, ciddi və kəskin emosional fonda təzahür edə bilən bir prosesdir.

Konflikt iştirakçılarının sayından və mövqe münasibətlərindən asılı olaraq konfliktləri 4 tipə ayırırlar: şəxsiyyətdaxili konfliktlər; şəxsiyyətlərarası konfliktlər; şəxsiyyət - qrup konfliktləri; qruplararası konfliktlər.

Pedaqoji konfliktologiyanın məqsədi təhsildə olan konfliktlərin yaranma, inkişaf və həlli qanunauyğunluqlarını öyrənmək, onların konstruktiv yönləndirilməsi – idarə edilməsi üçün zəruri olan prinsip, üsul və priyomların işlənilməsi və praktiki tətbiqini həyata keçirməkdir [2].

Pedaqoji konfliktologiyanın predmeti - təhsildə olan konfliktlərin yaranması, inkişafı və həlli ilə bağlı səbəblər, qanunauyğunluqlar, faktlar və mexanizmlərdir.

Pedaqoji konfliktologiyanın obyekti - təhsildə olan sistem, prosesual və nəticə səciyyəli konfliktlərdir.

Pedaqoji konfliktlərin obyektiv səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Şagirdlərin əsas təməl tələbatlarının kifayət qədər ödənilməməsi;

- Müəllim və şagirdlərin funksional-rol mövqelərinin qarşıdurması, yəni biri öyrətməlidir, digəri öyrənməlidir. Müəllim öz üslubunda dərs deyir, lakin şagirdin seçim imkanı olmur. Biri daha təcrübəli və idarəedici mövqeyindən çıxış etsə də digəri bu mövqeni qəbul etməyə bilər;

- Azadlıq və sərbəstlik səviyyəsinin əhəmiyyətli dərəcədə məhdudlaşdırılması (həddindən artıq sərt intizam, ciddi tabeçilik, müəllimin, fənnin, auditoriyanın seçilmə imkanının olmaması, davamiyyətin məcburiliyi və s.);

- Təsəvvürlər, dəyərlər, həyati təcrübə baxımından fərqlilik, müxtəlif nəsillərə mənsubluq (atalar-oğullar problemi);

- Şagirdlərin müəllimlərdən asılılığı;

- Şagirdlərin müəllimlər tərəfindən qiymətləndirilməsinin zərurəti;

- Formallaşmış təhsil sistemlərində şagirdlərin şəxsi problemlərinə etinasızlıq, laqeydlik;

- Təhsil müəssisələrində müəllimlər, valideynlər, dostlar, müəyyən dəyərə malik digər şəxslərə nəzərən, şagirdlərin icra etməli olduqları rolların müxtəlifliyi, onlara qarşı irəli sürülən fərqli, bəzən də ziddiyyətli olan çoxsaylı tələblər;

- Təlim materialı ilə real həyatdakı hadisələr, obyektlər və münasibətlərin fərqliliyi;

- Sosial qeyri-sabitlik və s.;

Böyüklərin konfliktliliyində 3 obyektiv cəhət xüsusi rola malikdir:

1. Böyüklərin mühafizəkarlığı ilə uşaqların əldə etdikləri mədəni dəyərlərin qarşılıqlı təsiri;
2. Böyüklərin mədəni səviyyələrinin kifayət qədər yüksək olmaması (kobudluq, etik davranış problemləri, şagirdləri şəxsiyyət kimi deyil, uşaq kimi qəbul etmələri;)
3. Uşaqların tərbiyə prosesində qazanılan təcrübə zəminində böyüklərin psixikasında baş verən dəyişikliklər (amiranə tonda danışmaq, qadağalara, “Olmaz!”lara üstünlük vermək, təhdid etmək, tənbeh etmək, deyinmək, itaətkarlıq aşılamaq və s.).

Pedaqoji konfliktlərin subyektiv səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Müəllim və şagirdlərin psixoloji uyğunsuzluqları;

- Müəllim və ya şagirdlərdə “konfliktli şəxsiyyət”i səciyyələndirən xarakter xüsusiyyətlərinin (kobudluq, aqressivlik, riyakarlıq, təkəbbürlülük, sərtlik və s.) olması;

- Təlim prosesinin iştirakçılarında kommunikativlik mədəniyyətinin kasadlığı və ya olmaması;

- Bütün şagirdlərin öyrənməli olduğu bir predmetə hər hansı bir şagirdin marağının olmaması;

- Şagirdlərin intellektual və fiziki imkanlarının onlara qarşı irəli sürülən tələblərə uyğun olmaması;

- Müəllimin kifayət qədər səriştəli olmaması (təcrübənin olmaması, fənni dərindən bilməmək, konfliktləri həll etmək bacarığının məhdudluğu, bəzi peşəkarlıq qabiliyyətlərinin səviyyəsinin aşağılığı);

- Müəllim və ya şagirdlərdə ciddi şəxsi problemlərin, güclü əsəbi gərginliyin, stressin olması;

- Təlim prosesi iştirakçılarının həddən ziyadə yüklənməsi;

- Şagirdlərin məcburi fəaliyyətsizliyi;

- Təlim prosesində müstəqilliyin, yaradıcı başlanğıcın olmaması;

- Şagirdlərin özünəqiyməti ilə müəllimin onlara verdiyi qiymətlər arasındakı uyğunsuzluq və s.

Çoxsaylı konfliktlərin təhlili göstərmişdir ki, adətən konfliktdə tərəf kimi iştirak edənlər bir qayda olaraq konfliktin əsl mahiyyətini dərk etmirlər [3]. Onların diqqətləri konfliktin zahiri təzahür əlamətlərinə, yəni onun nəticələrinə yönəlmiş olur. Belə halda konfliktin həllinə yönəlik tədbirlər az səmərəli olur və əslində onun uzanmasına səbəb olur.

Konfliktlərin yaranma səbəblərinin, başlanma, davametmə mexanizmlərinin, inkişaf qanunauyğunluqlarının, həlli imkanlarının dərindən dərk edilməsi səmərəli həllə nail olmağa, konflikt potensialının pozitiv məcraya, inkişafa yönəldilməsinə real zəmin yaradır.

## ƏDƏBİYYAT

1. Анцупов А.Я., Шипилов А.И. Конфликтология: Учебник для ВУЗов. / Анцупов А.Я., СПб.: Питер, 2007.

2. Чернышев А.С. Практикум по решению конфликтных педагогических ситуаций. Ростов н/Д.: Феникс, 2010.

3. Проблема учебных конфликтов и способы их предупреждения [Электронный ресурс] / Режим доступа: http://lib.rus.ec/b/204387/read

# MÜƏLLİM KADRLARI CƏMİYYƏTİN ƏN ŞƏRƏFLİ KADRLARI KİMİ

**Novruz Qasımov,**
*ADPU-nun Şamaxı filialının*
*kadrlar şöbəsinin inspektoru*

***Açar sözlər:*** *müəllim kadrları, şərəfli peşə, müəllim nümunəsi*
***Ключевые слова:*** *учительские кадры, почетные профессии, учительский пример*
***Keywords:*** *teaching staff, honorable profession, teacher's example*

Müəllimlik cəmiyyətin ən şərəfli və ən hörmətli peşəsidir. Müəllim kadrları bütün dövrlərdə hər zaman böyük hörmətə layiq görülmüşlər. Çünki, insanlar yalnız müəllimlərin vasitəsilə dünyanı dərk edir, ətrafda baş verənləri qiymətləndirə bilir, yeni məlumatlar alırlar. Gənc nəsil yaşlı nəslin əldə etdiyi bilik və təcrübəyə yiyələnməsəydi, nə cəmiyyət mövcud olardı, nə də inkişaf edərdi. Belə olmasaydı, gənc nəsil hər şeyi yenidən başlayar, cəmiyyət yerində sayardı, elm inkişaf etməzdi. Ona görə ən qədim dövlətlərdə Şumerdə, Misirdə, Babilistanda, Yunanıstanda müəllimlik peşəsi yaranmışıdır.

Pedaqoji peşə yarandığı vaxtdan müəllim əsasən tərbiyə etmək vəzifəsini yerinə yetirməyə başlamışdır. Müəllim tərbiyəçidir, onun vətəndaşlıq, insanlıq borcu cəmiyyətə layiqli vətəndaş - İnsan yetişdirməkdir.

Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində məktəbin qarşısına qoyulan vəzifələr dəyişmişdir. Müəllim həm tərbiyə etmiş, həm də öyrətmişdir. Bütün dövrlərin bütün xalqlarının mütərəqqi fikirli mütəfəkkirləri təlim və tərbiyəni heç vaxt bir-birinə qarşı qoymamışlar. Bununla belə onlar müəllimə ən çox tərbiyəçi kimi yanaşmışlar.

Görkəmli müəllimlər bütün xalqlarda, bütün zamanlarda olmuşlar. Belə ki, çinlilər ən böyük müəllim Konfutsini sayırlar. Bir əfsanədə onun şagirdləri ilə qəribə bir söhbətindən bəhs edilir. Şagird müəllimindən soruşur: müəllim, bu ölkə genişdir və əhalisi də çox sıxdır. Onun nəyi çatmır? Müəllim cavab verir: onu zənginləşdirin. Şagird: ölkəmiz onsuz da zəngindir. Onu nə ilə zənginləşdirmək olar? "Ona təhsil verin, onda daha çox zənginləşəcəkdir " deyə müəllim cavab verir. Bu həqiqətən belədir. Müəllim xalqa təhsil verir, gənc nəsli tərbiyə və təhsillə silahlandırır.

Tarix boyu bəşəriyyətin böyük zəka sahibləri müəllimə, onun ləyaqətinə, mənəvi keyfiyyətlərinə yüksək qiymət vermiş, müəllimi yaşlı nəsillə gənc nəsil arasında vasitəçi, həqiqət uğrunda mübarizə edən, insanların müqəddəs ideyalarının həyatda reallaşdırıcısı hesab etmişlər. Müəllim keçmişlə gələcək arasında canlı bir əlaqələndiricidir. Müəllim sözündə bir elm öyrədən anlayışı da vardır. Müəllimin zahirən çox sadə, bəzən hətta təkrar kimi görünən işi tarixin ən böyük işlərindən biridir. Buna görə də böyük yunan filosofu Platon deyirdi ki, valideynlərim məni göydən yerə endirmişlərsə, müəllimim məni yerdən göylərə qaldırmışdır. Fateh İsgəndər isə belə demişdi: valideynlərim məni bu fani dünyaya gətirmişlərsə, müəllimim mənə ədəbiyyat bəxş etmişdir. Y.A. Komenski isə müəllimi günəşə bənzətmiş, onu memarla, bağbanla müqayisə etmişdir. Fateh Əmir Teymur özünün müəlliminin ayaqları tərəfdə dəfn olunmasını vəsiyyət etmişdir. Müəllim insanların düşüncə çırağını yandırmış, onları cəmiyyətin faydalı insanları səviyyəsinə, humanistlik zirvəsinə ucaltmışdır. Buna görə də böyük Azərbaycan alimi, bir çox elmi kəşfləri ilə Avropa alimlərini bir neçə əsr qabaqlamış, onlara yol göstərmiş N. Tusi müəllimlik peşəsini insanı kamilliyə aparan ən humanist peşə hesab etmişdir. Böyük maarifçi, istedadlı müəllim, metodist S.M. Qənizadə yazırdı ki, müəllim əlində elmin qüdrətli çırağını tutaraq, körpələr nəslinin ədalət yolunu işıqlandırır, onun əqlinə bilik nuru səpir, qəlbində isə ən nəcib keyfiyyətlərin inkişaf etməsinə şərait yaradır.

Göründüyü kimi, cəmiyyətdə özünün xüsusi yeri və böyük rolu olan müəllim kadrları çox məsuliyyətli və şərəfli vəzifələri yerinə yetirir. Dərs demək və tərbiyə etmək böyük sevinc və şərəfdir. Bu çətin, lakin çox şərəfli bir işin müəllimlərə etibar edilməsi ilə hər bir müəllim fəxr edir. Böyük alman diplomatı Bismark deyirdi: o xalq xoşbəxtdir ki, onun yaxşı müəllimi var.

**ƏDƏBİYYAT**

1. A. Həsənov, Ə. Ağayev Pedaqogika. Bakı: Nasir, 2007.
2. Heydər Əliyev: Təhsil Bilik Kitab. Bakı: Müəllim, 2006.
3. H. Əliyev Pedaqoji ustalığın əsasları. Bakı: ADPU-nun nəşri, 1999.
4. R. Əliyev. Psixologiya. Bakı: Nurlan, 2007.
5. R. Məmmədzadə və b. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: Müəllim, 2008.

## MUSİQİ FƏNNİNİ TƏDRİS EDƏN MÜƏLLİMİN METODİK HAZIRLIĞI

**Hicran Əliyeva,**

*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *musiqi tərbiyəsi, şagird, psixoloji, uşaq, tərbiyə, musiqi aləti*
***Ключевые слова:*** *музыкальное образование, ученик, психологический, ребенок, воспитание, музыкальный инструмент*
***Key words:*** *music education, pupil, psychological, a child, communication, musical instrument*

İbtidai siniflərdə musiqi fənni tədris edən müəllimin işi bir çox metodik biliklər – solfecio oxumağı, vokal vərdişləri, musiqi alətlərində çalmağı və hər şeydən əvvəl musiqi tərbiyəsinin metodikasını bilməyi vacibdir. Bütün bu istiqamətlər ümumidir, yəni ümumtəhsil məktəblərində müxtəlif sahəli fəaliyyət müəllim tərəfindən həyata keçirilməlidir. Müəllimlərin metodiki hazırlığının məzmunu müasir Azərbaycan məktəbində "Musiqi" fənninin tədris olunmasının məqsəd və vəzifələrinin birliyinə və qüvvədə olan məktəb proqramına əsaslanır. Bu, təlim metodikasının nəzəri əsaslarının dərindən mənimsənilməsini, şagirdlərin inkişaf və hazırlıq səviyyəsindən və həmçinin iş şəraitindən asılı olan optimal təlim metodlarının seçilməsində müəllimə kömək edən bacarıq və vərdişlərin formalaşmasını tələb edir.Musiqi tərbiyəsi metodikasını bilmək musiqi üzrə məktəb proqramını düzgün təhlil etməkdə, başa düşməkdə və nəticədə konkret musiqi materialını cəlb etməklə iş metodlarına yiyələnməkdə müəllimə kömək edir. Bu bilik ona müəyyən məktəbin, sinfin, şərait və xüsusiyyətləri əsasında musiqi dərsini dolğunlaşdırmaq və dərsin hüdudlarını genişləndirmək imkanı verir. Məktəblilərin bütün mənəvi mədəniyyətinin mühüm və ayrılmaz tərkib hissəsi olan musiqi mədəniyyətinin formalaşdırmasına – uyğun olaraq müəllim "mənəvi mədəniyyətin", o cümlədən "musiqi mədəniyyətinin nə demək olduğunu düzgün təsəvvür etməlidir. Mükəmməl metodiki hazırlıq musiqi fənnini tədris edən müəllimə təlim-tərbiyə prosesini psixoloji-pedaqoji qanunauyğunluqlarına dair bilik verir və məktəblilərin musiqi təlimi, tərbiyəsi və inkişafının qabaqcıl metod və üsullarından əməli şəkildə istifadə etməsinə kömək edir, pedaqoq məktəb kollektivinə pedaqoji təsirin nəticələrini əvvəlcədən görə və nəzərdə tuta bilər, məktəblinin inkişafına nəzarəti həyata keçirər, onun şəxsiyyətinin formalaşması prosesinə diaqnoz təyin edə bilər. Musiqi-estetik tərbiyə sahəsində qabaqcıl təcrübəyə istinad edərək və məktəbdə "Musiqi" fənni vəzifələrinə əsaslanaraq müəllim müxtəlif sinif, dərnək məşğələlərinin konkret şəraitində və həmçinin şagirdlərlə fərdi məşğələlərdə səmərəli iş metodlarından istifadə edər.Musiqi dərslərinin keçirilməsi, şagirdlərin musiqi fəaliyyətlərinin formalaşması və inkişafı, sinifdənkənar ifaçılıq fəaliyyətinin təşkili müəllimin fəaliyyəti ilə sıx bağlıdır. Burada musiqi dərsləri ilə fərdi məşğələlərin sıx əlaqəsi böyük əhəmiyyət kəsb edir. Müəllim məktəblilərin musiqi inkişafını istiqamətləndirir, onda yaradıcılıq təşəbbüsü oyadır. Bununla bərabər, müəllimin əsas vəzifəsi fəal musiqi qavranılması, müxtəlif musiqi obrazını yadda saxlamaq, fərqləndirmək, müqayisə etmək bacarığının məktəblilərdə formalaşması tərbiyəsindən ibarətdir. Tərbiyə işində pedaqoq həmişə şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Məsələn, artıq yeniyetmələrin öz baxış və əqidələri vardır, onlar keçid dövründə bunu qoruyub saxlamağa çalışırlar. Belə uşaqlarla iş zamanı repertuarın seçilməsi məsələləri və zövq tərbiyəsində nəzakətli olmaq çox vacibdir.Bütün bu deyilənlərin əsasında nəticə çıxarmaq olar ki, müəllimin metodiki təchizatı ümumtəhsil məktəbində onun daha geniş praktik fəaliyyətinə kömək edir. Bu fəaliyyət təkcə musiqi dərslərinin keçirilməsinə çevrilməməli, həm də məktəblilərin musiqi-estetik tərbiyəsinin mürəkkəb sistemində ən müxtəlif iş formalarının təşkilinə istiqamətləndirilməlidir. Müasir tələblərə

əsasən nəzəriyyədə əsas yeri təlim prosesi məzmununun, onun prinsip, vəzifə, forma və metodlarının konsepsiyası tutur. Bu tədris kursunun quruluşunun iki mühüm variant bunlardır:

1) Biliklərin ardıcıl şərhi elmi fənninin müasir inkişafı vəziyyətinin məntiqi strukturunu əks etdirir;

2) tədris biliyi məzmununun açılmasının qaydaya salınması təlim subyektinin idrak imkanlarının formalaşması qanunauyğunluqlarının nəticəsidir.

**ƏDƏBİYYAT**


1. Qədimova J.H., Həsənova L.X. Musiqi tədrisi və tərbiyəsinin metodikası. Bakı, 2011.
2. Quliyev S.D. Musiqi və onun tədrisi metodikası. Bakı, 1978.
3. Rəcəbov O.M. Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. Bakı, 2005.


## MÜƏLLİMİN KOMMUNİKATİV MƏDƏNİYYƏTİ


**Təranə Haşımova,**
*riyaziyyat üzrə fəlsəfə doktoru*
*Bakı Avropa liseyinin riyaziyyat müəllimi*
E-mail: tarana0202@gmail.com



***Açar sözlər:*** *kommunikativ mədəniyyət, bacarıqlar, ünsiyyət, davranış*
***Ключевые слова:*** *коммуникативная культура, умения, общение, поведение*
***Key words:*** *communicative culture, skills, communication, behavior*


Son dövrlərdə bəzi məktəblərdə müəllim – şagird münasibətindəki neqativ halların yayılması bu mövzunu daim diqqətdə saxlamaq zərurəti yaradır. Müəllimin şagirdlərin yaş xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaması, ailədaxili münasibətləri öyrənməməsi, təhqiramiz sözlərlə təzyiq göstərməsi və hətta fiziki cəzaya əl atması onun cəmiyyətdə nüfuzunu aşağı endirir, qeyri-peşəkarlığından xəbər verir. Bu gün təhsil müəssisələrində müəllimlərin kommunikativ mədəniyyətinin inkişafı problemi xüsusi aktuallıq kəsb edir. Ən kiçik yaş dövrü kommunikativ fəaliyyətin mədəni formalarının əsasını qoymaq üçün əlverişli dövrdür. Müasir təhsilin uşaqların kommunikativ mədəniyyətinə istiqamətlənməsi müəllimlərdən müvafiq pedaqoji hazırlıq tələb edir.

Müəllimin kommunikativ mədəniyyəti şagirdlərə müsbət təsir göstərən, təlim və tərbiyə prosesini səmərəli təşkil etməyə imkan verən və pedaqoji vəzifələrin həll edilməsi prosesində kommunikativ fəaliyyəti nizamlamağa təsir göstərən bilik, bacarıq və kommunikativ keyfiyyətlərdir.

Müəllimin kommunikativ mədəniyyəti kommunikativ bacarıqları və qabiliyyətləri mənimsəməsini nəzərdə tutur.

Kommunikativ bacarıqlar aşağıdakılardır:

- şagirdlərlə emosional kontakt qurmaq və ünsiyyətdə təşəbbüsü ələ almaq;
- öz emosiyalarını idarə etmək bacarığı;
- müşahidəçilik və diqqətin çevikliyi;
- xarici əlamətlərinə görə şagirdlərin psixoloji vəziyyətini başa düşmək;
- ünsiyyətdə özünü təqdim etmək bacarığı;
- şagirdə fərdi yanaşmaq bacarığı.

Müəllimlərin kommunikativ mədəniyyətinin inkişaf səviyyəsi aşağıdakılarla şərtləşir:

- ekspressiv bacarıq və qabiliyyətlərin mövcudluğu: nitqin, jestlərin, mimikaların və xarici görkəmin ifadəliliyi;
- perseptiv bacarıq və qabiliyyətlərin mövcudluğu: şagirdlərin vəziyyətinin başa düşülməsi, kontaktın qurulması, şagirdin adekvat obrazının yaradılması bacarığı və qabiliyyəti.

Müəllimin nitqinə verilən əsas tələblər aşağıdakılardan ibarətdir:

- məzmunun tamlığı, dəqiqlik, məntiqlilik;

- sözlərin leksik, fonetik, qrammatik və orfoepik düzlüyü;
- nitqin obrazlılığı, məntiqi ifadəliliyi;
- nitqin emosionallığı, zəngin intonasiya, aramlılığı, kifayət qədər ucadan səslənməsi;
- təmiz diksiya, nitq etiketlərinin gözlənilməsi, sözlərin əmələ uyğun olması;
- jestlərin, mimikaların bacarıqla istifadə edilməsi.

Beləliklə, kommunikativ mədəniyyət müəllimin peşəkarlığının əsasını təşkil edir və onun pedaqoji fəaliyyətinin səmərəliliyi üçün şərait və zəmin yaradır. Məhz bu keyfiyyətlər onun peşəkarlığının, səriştəliliyinin yüksəldilməsinə və özünü təkmilləşdirməsinə təkan verə bilər.

**ƏDƏBİYYAT**


1. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz. Bakı: Elm, 2000.
2. Hüseynzadə R. Tərbiyə işinin metodikası. Bakı, 2010.


## MÜƏLLİMLƏRİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI YOLLARI


**Sevinc Əliyeva,**
*Bakı Avropa liseyinin ibtidai sinif müəllimi*
E-mail:nailashukurova@gmail.com



***Açar sözlər:*** *təhsil, islahat, peşə hazırlığı, inkişaf, keyfiyyət, meyar*
***Ключевые слова:*** *образование, реформа, профессиональная подготовка, развитие, качество, критерии*
***Key words:*** *education, reform, professional training, development, quality, criteria*


Pedaqoji fikir tarixində təhsilalanların cəmiyyət üçün yararlı vətəndaş hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmalarında müəllimin müstəsna rolu yüksək dəyərləndirilmiş və bu peşə yer üzündə mövcud olanların ən alisi sayılmışdır. Müəllimlik çətin, mürəkkəb, şərəfli və məsuliyyətli olmaqla yanaşı, həm də yaradıcı bir bir peşə kimi səciyyələndirilir. Müəllim elə bir yaradıcıdır ki, o, hər bir şəxsi bilik və bacarıqlarla silahlandırmaqla, intellektual düşüncə sahibləri kimi, bu şəxslərə ən ülvi duyğuları aşılamaqla insan yetişdirir. Zamanın sürətlə dəyişən dəyərlər müstəvisində müəllimlik peşəsinin müasir pedaqoji meyarlara uyğunlaşması qaçılmazdır. Fəal, yaradıcı müəllim həyata keçirilməkdə olan təhsil konsepsiyasının mahiyyətini anlamalı, müasir dərsə verilən tələbləri, onun strukturunu dərindən mənimsəməli və təlim texnologiyalarına yüksək səviyyədə yiyələnməlidir. Bunun üçün isə o, daim öz üzərində işləməli, nəzəri-metodik hazırlığını təkmilləşdirməli və beləliklə, səriştəli mütəxəssis kimi fəaliyyət göstərməlidir.

Mövcud təcrübənin təhlili belə bir nəticəyə gəlməyə imkan yaradır ki, müəllimin peşəkarlıq səviyyəsinin artırılması iki formada: tədrisdən ayrılmaqla ixtisasartırma kursları vasitəsilə və tədrisdən ayrılmadan öz üzərində müstəqil işləməklə həyata keçirilə bilir. Əgər birinci forma planauyğun qaydada, əsasən, məcburi şəkildə tətbiq edilirsə, ikinci forma müəllimin mənəvi tələbat və ehtiyacına uyğun olaraq könüllü şəkildə yerinə yetirilir. Müəllimin tədrisdən ayrılmadan öz peşə ustalığını artırması müxtəlif yollarla həyata keçirilə bilər ki, bunlardan aşağıdakılar daha səmərəli hesab olunur:

1. Müstəqil mütaliə yolu ilə;

Təhsilin yeni prinsiplər (nəticəyönlü, şagirdyönlü, tələb yönlü, tərbiyəyönlü, inkişafyönlü inteqrativ) əsasında qurulması təlimin məzmununda və təşkili formalarında köklü dəyişikliklər edilməsinə gətirib çıxardı. Odur ki, şagird təfəkkürünü daha intensiv işlətməyə hesablanmış yeni təlim modeli müəllimi daim öz üzərində çalışmağa, axtarıcılığa sövq edir. Müəllim gözlənilən təlim nəticələrini qabaqcadan müəyyənləşdirməklə ən optimal təlim metodlarını tətbiq etmək bacarığına yiyələnməlidir. Bu isə müəllimdən müasir elmi-metodik ədəbiyyatı gündəlik izləməyi, yeni ideyalarla potensial imkanlarını artırmağı tələb edir. Müəllim şagirdlərini fəallaşdırmaq, təlim prosesinə yaradıcı qoşmaq istəyirsə, ilk növbədə özü yaradıcı olmalıdır. Yaradıcılıq isə daimi mütaliə, düşünmə üzərində qurulur.

2. İş təcrübəsinin öyrənilməsi yolu ilə.

Müəllimin peşə hazırlığının yüksəldilməsində nəzəri-metodik biliklərin artırılması ilə yanaşı, qabaqcıl təcrübənin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Danılmaz həqiqətdir ki, Azərbaycan təhsilində aparılan islahatlar inkişaf etmiş dünya ölkələrinin və respublikamızın qabaqcıl məktəblərinın iş təcrübəsinə əsaslanmaqla, təlimin təşkili, idarə olunması, məzmununun müəyyənləşdirilməsi və digər mühüm məsələlərlə yanaşı, müəllim hazırlığı problemini də özündə əks etdirir. Müəllimin səriştəli bir mütəxəssis kimi yetişməsində ixtisasartırma kurslarının, treninqlərin, elmi-praktik konfrans və seminarların müstəsna rol oynadığı aydın məsələdir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəz., 2013, 25 oktyabr

## MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ

**Ceyran Həsənova,**
*S.C. Pişəvəri adına respublika Humanitar fənlər təmayüllü gimnaziyanın müəllimi*
E-mail: ceyran-14@mail.ru

***Açar sözlər:*** *innovasiyalar, təlim metodları, informasiya-kommunikasiya texnologiyaları, təlimin məzmun standartları*

***Ключевые слова:*** *инновации, методы обучения, информационные и коммуниакационные технологии, содержательные стандарты обучения*

***Key words:*** *innovation, training methods, communication of information technology, content standards of training*

Müasir ümumtəhsil müəssisəsinin pedaqoji kadrları təhsildə yüksək bacarıqlar əldə etməlidir. Yəni, öyrənməyi öyrənmək və özünüidarəetmə bacarığına malik olmalıdır. Müasirlik tələb edir ki, XX əsrə aid olan təhliletmə, rasional düşünmə və məntiqi təfəkkür tərzləri artıq öz yerini XXI əsrə aid olan xəyal gücünə, tərkibetmə qabiliyyətinə, yaradıcılıq təşəbbüsləri bacarığına versin.

Müəllim, hər şeydən əvvəl öz pedaqoji fəaliyyətinin istiqamətləri üzrə işini qurmalıdır. Bunlar aşağıdakılardır:

1. *Tədris fəaliyyəti*. Məhz dərs prosesində müəllim təlim-tərbiyə fəaliyyətini təşkil edir. Yeni dərs üsullarından və təlim vasitələrindən istifadə edir. Öz fənni üzrə konkret tədris proqramlarını həyata keçirir. Müvafiq dövlət təhsil standartlarını tələbləri çərçivəsində şagirdlərin bilik, bacarıq, vərdişlərinin səviyyəsini təmin edir.

2. *Şagirdlərin sinifdənxaric və məktəbdənkənar fəaliyyətinin təşkili*. Müəllim tədris etdiyi fənnə dair iş aparmalıdır. Çalışmalıdır ki, məktəbdənkənar və sinifdən xaric zamanlarda dərsdənkənar fəaliyyət təşkil edilsin. Əqli, əxlaqi, estetik, ekoloji, fiziki tərbiyə və s. istiqamətlərdə fəaliyyətlər yaradılsın. Belə fəaliyyətlər şagirdlər arasında ünsiyyətin, birliyin, ümumi mənafenin yaranmasına kömək edir. Sağlam psixoloji mühitin yaradılması, şagirdlər arasında olan əməkdaşlıq onlara yaxşı təsir edir. Bu zaman müəllimlər şagirdlər haqqında daha çox məlumatlar ala bilirlər.

3. *Valideynlərlə iş*. Bu zaman müəllim əslində şagirdlərin tədris intizamına nəzarət edilməsini, dərs məşğələlərinə davamiyyət rejiminə əməl olunmasını təmin edir. Belə əlaqənin yaradılması valideynlərə uşaqlarının tərbiyələndirilməsində yardım edir. Onlar vaxtaşırı məlumatlandırılırlar. Valideynlər üçün məsləhət saatları təşkil edilir.

4. *Məktəbin aidiyyəti təşkilatlarla əlaqəsinə kömək*. Müəllim də təhsil prosesinin əsas iştirakçısı kimi ictimai və dövlət təşkilatları ilə əlaqə yarada bilir və həyata keçirir. Bu qarşılıqlı bir fəaliyyətdir. Həm də ona görə vacibdir ki, müəllim və şagirdlərin hüquqi-sosial müdafiəsinin təmin edilməsinə yönəlmişdir. Ən vacibi də odur ki, problemlərin həllinə yönəlmişdir.

5. *Özünütəhsil, metodik və peşəkarlıq səviyyəsinin yüksəldilməsi*. Məhz bu sahədə ixtisasartırma təhsilinin rolu və əhəmiyyəti əvəzsizdir. İxtisasartırma təhsili qloballaşan dünyada baş verən yeniliklərlə,

elmi-texniki nailiyyətlərlə, təhsil prosesindəki innovasiyalarla əlaqədar olaraq təkmilləşir. İxtisasartırma təhsilinə cəlb edilən müəllimlər məktəblərin metodbirləşmələrində və dayaq məntəqələrində fəal iştirak edərək şagirdlərin tədris, sinifdənxaric, məktəbdənkənar tərbiyəvi fəaliyyətinin təşkili sahəsində işlər aparırlar.

**ƏDƏBİYYAT**


1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2012.
2. Həyati bacarıqlara əsaslanan təhsil. Bakı, 2006.


## MÜƏLLİM NÜFUZU


**Səməngül Abdullayeva,**
*ADPU-nun Şamaxı fililalının müəllimi*



***Açar sözlər:*** *müəllim, şəxsiyyət, nüfuz.*
***Ключевые слова:*** *учитель, личность, авторитет*
***Keywords:*** *teacher, personality, authority*


Müəllimin nüfuzu hazırda məktəbi ən vacib problemlərindən biridir. Fikrimizcə, ibtidai və orta sinif şagirdləri bu nüfuzu hazır şəkildə qəbul etmir, onu təcrübələrlə, pedaqoji fədakarlıqla qazanmaq lazımdır. Pedaqoji təcrübələr göstərir ki, müəllim nüfuzu olmadan mənəvi, əxlaqi tərbiyə problemləri həll edilməmiş qalacaqdır. Məsələn, yeniyetmədə artıq müstəqil davranış xətti seçmək tələbatı yaranır və bu tələbatın nəticəsi isə yeniyetmənin kimi nüfuzlu hesab etməsindən çox asılıdır. Bu zaman müəllimin nüfuz qazanmaq imkanları öz işinə, şagirdə olan diqqətindən çox asılıdır. Məhz bu həqiqi maraq məktəbdə mənəvi-əxlaqi tərbiyə problemlərinin həllində müvəffəqiyyətin əsasıdır.

Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. Onun 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində dediyi "Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən, mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir"

Təlim və tərbiyə prosesində müəllim nüfuzu olmadan keçinmək mümkün deyil. Ancaq bu nüfuz dağıdıcı yox, yaradıcı olmalı, uşaq şəxsiyyətinin bərqərar olmasına, ona potensialını reallaşdırmağa kömək etməlidir.

Haqlı nüfuz qazanmış adamın dedikləri daha tez və yaxşı mənimsənilir. Pedaqoji nüfuz şəxsi və peşəkarlıq komponentlərindən ibarətdir. Mənim fikrimcə, şəxsi komponent, birincisi, uşaqlara və müəllim peşəsinə məhəbbətdir. İnsan öz işini sevmirsə, ondan mənəvi zövq almırsa, onun əməyi heç vaxt yüksək məhsuldar olmayacaqdır. Müəllim isə təkcə öz peşəsini yox, həm də uşaqları sevməlidir. Sevmək həmin adama hörmət etmək, onu başa düşüb anlamaq, qorumaq, ona qayğı göstərmək və bütün bunlardan həzz almaqdır.

Uşaqları sevən müəllim onlara həssas olmağı, gözəlliyi sevməyi və duymağı, xeyirxahlığı öyrətməlidir. Söhbət yalnız xeyirxahlığın və gözəlliyin nə olduğunu izah etməkdən getmir, məsələ şagirdin xeyirxahlığı, həyatda ən vacib xüsusiyyət olduğunu dərk etməsində və həqiqi insanlığın bunu həyata tətbiq etməkdə olduğunu başa düşməsindədir.

Əlbəttə, həqiqi məhəbbət, diqqət, pedaqoji fəaliyyətin əsas tələbi kimi müsbət əxlaqi keyfiyyətlər formalaşdırmağa yönəldilmiş peşə tələbkarlığı ilə birləşdirməlidir. Eyni zamanda hər cür tələb məqsədyönlü olmalıdır. Şagirdlər öz tələblərinin faydalı olduğunu sübut edə bilməyən "rəhmdil"lərə yox, prinsipial və tələbkar müəllimlərə daha çox hörmət edirlər. Amma bu cür tələbkarlıq əsəbiliyə, yersiz

inadbazlığa çevrilməməlidir. Gündəlik tələblər hətta əsaslı olsa da, tədricən şagirdə daha təsir etmir. Ona görə də, tələbkarlıq ədalətlilik və şagird şəxsiyyətinə hörmət əsasında olmalıdır. Şagird şəxsiyyətinə hörmət də tələbkarlıq və prinsipiallıq kimi vacib əxlaqi tələbdir və əslində onlar ayrılmaz olmalıdır.

Bundan başqa, unutmaq olmaz ki, müəllimin nəzakətsizliyi, ədalətsizliyi, bir qayda olaraq şagirdin münaqişəli vəziyyət nəticəsində məktəbdən uzaqlaşmasına səbəb olur və "çətin" yeniyetmələr meydana gəlir.

Eyni zamanda, şagird uyğunlaşma, rəhmdillik yox, həqiqi hörmət görəndə müəllim onun üçün əsl nüfuzlu adam olur. Şagird hətta onun səhvini də bağışlaya bilər. Bu isə çox vacibdir. Çünki hamı kimi müəllim də səhv edə bilər. Axı o da öz şəxsiyyətini müdafiə üçün rəhbərlik və başqaları ilə münaqişəyə qalxa bilər.

Onu da qeyd edək ki, şagirdə hörmət və tələbkarlıq özünü nəzarətdə saxlamaq son nəticədə müəllimin özünü təkmilləşdirir. Onu müəllim, mütəxəsis insan və şəxsiyyət kimi yaxşılaşdırır.

Müəllim uşaqları sevərək onlara həssas olmağı, gözəlliyi sevməyi və duymağı, xeyirxahlığı öyrətməlidir.

**ƏDƏBİYYAT**

Hüseynzadə R.L.. Müəllimin səriştəliliyi və peşəkarlıq // Azərbaycan məktəbi, 2016, № 3

# РОЛЬ УЧИТЕЛЯ В ОБРАЗОВАНИИ ШКОЛЬНИКОВ

**Сабина Гаджиева,**
*доктор философии по педагогике*
*АГПУ*
E-mail: hajievasabina@gmail.com

***Ключевые слова:*** *учитель, цель, личность, методика.*
***Açar sözlər:*** *müəllim, məqsəd, şəxsiyyət, metodika.*
***Key words:*** *teacher, goal, personality, methodical*

Одним из главных приоритетов системы непрерывного образования и воспитания в рамках реализации национальной идеи является свободно мыслящая и гармонично развитая личность, личность гражданина, преданного идеалам независимости и демократии.

Идея совершенной, всесторонне развитой личности выражает постоянное стремление человека к овладению как сокровищами национальной, так и общечеловеческой мировой культуры. Эта идея вдохновляет на непрерывное развитие духовности и просветительства. Нет будущего у народов и наций, не наделённых на своё совершенствование, не заботящихся о подрастающем поколении. Эти вопросы могут быть решены через образование, которое понимается и принимается как способ формирования и развития личности. Следовательно, образование это специальная сфера социальной жизни, создающая внешние и внутренние условия для развития индивида в процессе усвоения ценностей культуры.

Образование носит в жизни нашего общества глобальный характер и определяет обучающую деятельность: усиление роли образования в решении социально-экономических , социально-психологических, культурно-нравственных проблем человека и современного общества; В нынешнее время главным потребителем образовательных услуг становится отдельная личность. Это изменение реализуется в большей степени через гибкость образовательной сферы, её изменяемости, приспособлении к меняющимся образовательным потребностям человека, государства и общества.

Педагогическое руководство воспитательной деятельностью учащихся начинается с создания условий для реализации личностно-ориентированного подхода. Личностно-ориентированное воспитание, понимается как процесс педагогической помощи школьнику в становлении его субъектности .

Деятельность педагога может быть безупречной с точки зрения общепринятых критериев, современных подходов, которые заключаются в следующем: творческая атмосфера в работе, использование современных технических средств, добросовестное отношение к профессиональной деятельности.

**Современный учитель** — это, прежде всего, человек, наделённый рядом достоинств. Обладающий: системным мышлением, организаторскими умениями, инициативой, самостоятельностью, аккуратностью, дисциплинированностью, отзывчивостью, настойчивостью, гибкостью в профессиональной деятельности.

Способный: к творчеству; своими действиями воспитывать интерес к обучению и потребностью в знаниях у учащихся; достигать намеченных целей; обеспечивать единые требования к воспитанникам; учитывать интересы общества, коллектива и свои личные; работать по разным методическим системам.

Умеющий: активно использовать многообразные формы, методы и приёмы в работе; строить гуманное отношение с детьми; общаться с детьми; понимать людей и разбираться в них; видеть перспективы в работе; проявлять повышенное требование к себе и к окружающим.

Никогда нельзя останавливаться на достигнутом — эта старая истина приобретает особое значение, когда размышляешь о роли учителя.

Постоянно учиться не только на курсах повышения квалификации учителей, учиться можно прямо на работе, наблюдая за тем, как работают коллеги.

Следовательно, задача учителя заключается в том, чтобы сделать так, чтобы ученику было всегда интересно, чтобы хотелось учиться дальше. Для того, чтобы сделать процесс обучения увлекательным, лучше использовать такие приёмы работы, которые помогут учащемуся оставаться самим собой, чувствовать себя личностью.

**ЛИТЕРАТУРА**

1. Савин, Н.В. Педагогика: учебное пособие для педагогических училищ по специальности № 2001. М.: Просвещение, 1972.
2. Подласый И.П. Педагогика. Новый курс: Учебник для студ. пед. вузов: В 2 кн. М.: Гуманит. изд. центр ВЛАДОС, 1999.

## MÜƏLLİMLƏRİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI YOLLARI

**Nailə Şükürova,**
*Bakı Avropa liseyinin ibtidai sinif müəllimi*
E-mail:nailashukurova@gmail.com

***Açar sözlər:*** *təhsil, islahat, peşə hazırlığı, inkişaf, keyfiyyət, meyar*
***Ключевые слова:*** *образование, реформа, профессиональная подготовка, развитие, качество, критерии*
***Key words:*** *education, reform, professional training, development, quality, criteria*

Pedaqoji fikir tarixində təhsilalanların cəmiyyət üçün yararlı vətəndaş hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmalarında müəllimin müstəsna rolu yüksək dəyərləndirilmiş və bu peşə yer üzündə mövcud olanların ən alisi sayılmışdır. Müəllimlik çətin, mürəkkəb, şərəfli və məsuliyyətli olmaqla yanaşı, həm də yaradıcı bir bir peşə kimi səciyyələndirilir. Müəllim elə bir yaradıcıdır ki, o, hər bir şəxsi bilik və bacarıqlarla silahlandırmaqla, intellektual düşüncə sahibləri kimi, bu şəxslərə ən ülvi duyğuları aşılamaqla insan yetişdirir. Zamanın sürətlə dəyişən dəyərlər müstəvisində müəllimlik peşəsinin müasir pedaqoji meyarlara uyğunlaşması qaçılmazdır. Fəal, yaradıcı müəllim həyata keçirilməkdə olan təhsil konsepsiyasının mahiyyətini anlamalı, müasir dərsə verilən tələbləri, onun strukturunu dərindən mənimsəməli və təlim texnologiyalarına yüksək səviyyədə yiyələnməlidir. Bunun üçün isə o, daim öz üzərində işləməli, nəzəri-metodik hazırlığını təkmilləşdirməli və beləliklə, səriştəli mütəxəssis kimi fəaliyyət göstərməlidir. Mövcud təcrübənin təhlili belə bir nəticəyə gəlməyə imkan yaradır ki, müəllimin

peşəkarlıq səviyyəsinin artırılması iki formada: tədrisdən ayrılmaqla ixtisasartırma kursları vasitəsilə və tədrisdən ayrılmadan öz üzərində müstəqil işləməklə həyata keçirilə bilir. Əgər birinci forma planauyğun qaydada, əsasən, məcburi şəkildə tətbiq edilirsə, ikinci forma müəllimin mənəvi tələbat və ehtiyacına uyğun olaraq könüllü şəkildə yerinə yetirilir. Müəllimin tədrisdən ayrılmadan öz peşə ustalığını artırması müxtəlif yollarla həyata keçirilə bilər ki, bunlardan aşağıdakılar daha səmərəli hesab olunur:

3. Müstəqil mütaliə yolu ilə;

Təhsilin yeni prinsiplər (nəticəyönlü, şagirdyönlü, tələbəyönlü, tərbiyəyönlü, inkişafyönlü inteqrativ) əsasında qurulması təlimin məzmununda və təşkili formalarında köklü dəyişikliklər edilməsinə gətirib çıxardı. Odur ki, şagird təfəkkürünü daha intensiv işlətməyə hesablanmış yeni təlim modeli müəllimi daim öz üzərində çalışmağa, axtarıcılığa sövq edir. Müəllim gözlənilən təlim nəticələrini qabaqcadan müəyyənləşdirməklə ən optimal təlim metodlarını tətbiq etmək bacarığına yiyələnməlidir. Bu isə müəllimdən müasir elmi-metodik ədəbiyyatı gündəlik izləməyi, yeni ideyalarla potensial imkanlarını artırmağı tələb edir. Müəllim şagirdlərini fəallaşdırmaq, təlim prosesinə yaradıcı qoşmaq istəyirsə, ilk növbədə özü yaradıcı olmalıdır. Yaradıcılıq isə daimi mütaliə, düşünmə üzərində qurulur.

4. İş təcrübəsinin öyrənilməsi yolu ilə.

Müəllimin peşə hazırlığının yüksəldilməsində nəzəri-metodik biliklərin artırılması ilə yanaşı, qabaqcıl təcrübənin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Danılmaz həqiqətdir ki, Azərbaycan təhsilində aparılan islahatlar inkişaf etmiş dünya ölkələrinin və respublikamızın qabaqcıl məktəblərin iş təcrübəsinə əsaslanmaqla, təlimin təşkili, idarə olunması, məzmununun müəyyənəşdirilməsi və digər mühüm məsələlərlə yanaşı, müəllim hazırlığı problemini də özündə əks etdirir. Müəllimin səriştəli bir mütəxəssis kimi yetişməsində ixtisasartırma kurslarının, treninqlərin, elmi-praktik konfrans və seminarların müstəsna rol oynadığı aydın məsələdir.

**ƏDƏBİYYAT**

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəz., 2013, 25 oktyabr

# MAGİSTRANTLARIN MÜASİR TƏLİM TEXNOLOGİYALARI VASİTƏSİLƏ MÜƏLLİMLİK FƏALİYYƏTİNƏ HAZIRLANMALARINDA TƏDRİS PROSESİNİN İMKANLARI

**Aysel Zeynallı,**

*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E- mail: aysel-86@bk.ru

***Açar sözlər:*** *magistr dərəcəsi, magistrant, pedaqoji fəaliyyət, pedaqoji universitet, müəllim hazırlığı, təlim texnologiyası*

***Ключевые слова****: степень магистра, магистрант, педагогическая деятельность, педагогический университет, подготовка учителя, технологии обучения*

***Key words:*** *master degree, master, pedagogical activity, pedagogical university, teacher preparation, training technology*

Magistrantların pedaqoji fəaliyyətə hazırlanmaları, gələcəyin ali məktəb müəllimləri kimi yetişmələri üçün onlar fitrətən, vücudən, qəlbən müəllim olmalıdırlar, tələbə ilə işləməyi sevməlidirlər. Əgər müəllimlik peşəsi ilə bağlı qabiliyyətlər, pedaqoji fəaliyyətlə məşğul olmağa maraq yoxdursa, yüksək keyfiyyətlərə malik peşəkar müəllim kadrlarını formalaşdırmaq çox çətin olacaq və ya mümkün olmayacaq.

Bu gün magistratura səviyyəsi üzrə təhsil alan gənclər (060119 - Pedaqogika və 060115-İbtidai sinif müəllimliyi ixtisasları üzrə) müvafiq ixtisas sahəsini elmi-tədqiqat və peşəkar məqsədlər üçün daha dərindən öyrənməklə, pedaqoji fəaliyyətlə bağlı bilik, bacarıq və vərdişlərini təkmilləşdirərək həm ali

məktəblərdə, həm də ümumtəhsil məktəblərində peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ qazanaraq istər ali təhsil müəssisəsində, istərsə də ümumtəhsil məktəblərində çalışır. Bu səbəbdən də hər iki halda magistratura səviyyəsi üzrə yüksək keyfiyyət göstəricisinə malik müəllim kadrlarının hazırlanmasında yeni təlim texnologiyalarından istifadə istiqamətləri müəyyənləşdirilməlidir. Magistrantların pedaqoji fəaliyyətə hazırlanmalarında bir vasitə olaraq müasir təlim texnologiyalarının imkanları üzə çıxarılmalıdır. Bunun üçün tədris prosesinin öz əksini tapdığı və realizə olunduğu hər bir komponentində müasir təlim texnologiyalarının tətbiqi, onlardan istifadə məqamları, bütün bunların magistrantların pedaqoji fəaliyyətə hazırlanmalarında nə dərəcədə rol oynadığını aydınlaşdıraq, araşdıraq və üzə çıxaraq.

Azərbaycanın Bolonya prosesinə qoşulması təhsil tariximizdə edilən əsas dönüşlərdən biri oldu. Təhsilimiz yeni mərhələyə qədəm qoydu. Bolonya prosesinin iştirakçısına çevrildikdən sonra ali təhsil sahəsində həyata keçirilməsi vacib olan islahatların istiqamətləri müəyyən edildi. Bu məqsədlə “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” hazırlanmış və islahatların istiqamətləri orada öz əksini tapmışdır. Ali təhsilin məzmunu ilə bilavasitə bağlı olan istiqaməti nəzərdən keçirək: “Ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi. Burada, ilk növbədə, ali təhsil ixtisaslarının Avropa ixtisas təsnifatına və əmək bazarının tələblərinə uyğunlaşdırılması, tədris plan və proqramlarının (kurikulumların), təhsil resurslarının, müasir fənn proqramlarının, yeni təlim və informasiya texnologiyalarını təmin edən elmi-metodiki tövsiyələrin hazırlanması və tətbiqi nəzərdə tutulmalıdır” [1, 195]. Bu istiqamət eyni zamanda magistr səviyyəsi üzrə müəllim hazırlığında da mütləq şəkildə nəzərə alınmalıdır. Belə ki, ixtisas təsnifatının YUNESKO-nun qəbul etdiyi müvafiq sənədlərə uyğunlaşdırılmaması, mövcud əmək bazarının müasir dövrdə tələblərinin nəzərə alınmaması magistrlərin müəllim hazırlığı üzrə mobilliyinin təmin edilməsinə və magistrantın müstəqil olaraq təhsilalma trayektoriyasını müəyyənləşdirməsinə mane olur. Magistrantın seçdiyi ixtisasın (ixtisaslaşmanın) ölkənin digər ali təhsil müəssisələrində, o cümlədən xarici ali təhsil müəssisələrində mövcud olması, magistrantın həmin ali təhsil müəssisəsində müəyyən müddət təhsil almasına, ayrı-ayrı fənləri mənimsəməsinə, əldə etdiyi nəticələrin təhsil aldığı ali məktəbdə tanınmasına, bir təhsil müddətində digər yaxın ixtisasa da yiyələnə bilməsinə şərait yaradır. Gələcəkdə beynəlxalq əmək bazarında magistrantın müstəqil olaraq pedaqoji fəaliyyətlə məşğul olması üçün geniş imkanlar açır. Bu gün ali təhsil müəssisələrimizdə müasir təlim texnologiyaları və onların tətbiqi ilə bağlı geniş bilik və bacarıqlara, yeni pedaqoji təfəkkürə malik kadrlara tələbat böyükdür. Bunu sürətlə inkişaf edən elmi-texniki biliklər, cəmiyyətin təhsillə bağlı bugünkü tələbləri, istəkləri, pedaqoji ali təhsil müəssisələrinin səriştəli müəllim kadrlarına olan ehtiyacı tələb edir.

Tədris prosesinin məzmunu təhsil proqramı, tədris planı, fənlər üzrə tədris proqramları ilə müəyyən olunur və dərsliklərdə, tədris vəsaitlərində, informasiyanı toplayıb saxlayan elektron avadanlığında (video disklərdə, videokasetlərdə kompüter proqramlarında) əks olunur [2, 128]. Əgər biz təhsil proqramı, tədris planı, fənlər üzrə tədris proqramlarına, dərsliklərə, tədris vəsaitlərinə, informasiyanı toplayıb saxlayan elektron avadanlığına (video disklərdə, videokasetlərdə kompüter proqramlarında), o cümlədən təlim və qiymətləndirmə metodlarına, üsul və vasitələrinə bütöv bir sistem kimi baxmış olsaq, bu halda magistrantların müəllimlik fəaliyyətinə hazırlığında hər bir komponentin bir-birini tamamlamaqla nə dərəcədə geniş imkanlara malik olduğunu aydınlaşdırmış olarıq. Müasir təlim texnologiyaları vasitəsilə magistrantların pedaqoji fəaliyyətə hazırlanmalarında sadalanan komponentlər bir-biri ilə qarşılıqlı əlaqədə olub, həm də paralel olaraq bir-birini tamamlayır və biri digərinin icrasına, tətbiqinə zəmin yaradır. Ona görə də magistrantların müəllimlik fəaliyyətinə hazırlanmalarında tədris prosesinin sadalanan komponentlərinin müasir təlim texnologiyaları əsasında pedaqoji imkanları təhlil edilməlidir:




**ƏDƏBİYYAT**

1. Mahmudov M.C. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: "Elm və təhsil", 2010.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika: Yeni kurs. Bakı: Elm və təhsil, 2012.

# RƏQABƏT QABİLİYYƏTLİ PEDAQOJİ KADRLARIN HAZIRLANMASINDA TƏLƏBƏYÖNLÜ TƏHSİLİN ROLUNA DAİR

**Şirməmməd Qulubəyli,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*"Naxçıvan" Universiteti*

***Açar sözlər***: *təhsilin inkişafi üzrə dövlət strategiyası , rəqabət qabiliyyətli, tələbə yönümlü təhsil, innovativ metodlar, funksional-semantik sahə*

***Key words***: *national education development strategy, competitive, student-centered education, innovative methods, a functional-semantic field*

***Ключевые слова:*** *государственная стратегия по развитию образования, конкурентоспособный, студенто - ориентированное образование, инновативные методы, функционально-семантическая область*

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin başlıca vəzifələrindən bəhs edilərkən " milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" məsələsinə xüsusi önəm verilmişdir (1). Şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasının birinci strateji istiqamət kimi müəyyənləşdirilməsi müasir əmək bazarının tələblərinə cavab verən, rəqabət qabiliyyətli yüksək ixtisaslı kadrlar yetişdirilməsini əsas hədəflərdən biri kimi qarşıya qoyur. Rəqabət qabiliyyətli pedaqoji kadrların hazırlanmasında innovativ metodların yaradıcı şəkildə tətbiqi mühüm önəm kəsb edir. Belə metodlardan biri də tələbəyönlü təhsildir. Bu üsulun tətbiqi zamanı təhsil alanların müstəqilliyinin inkişaf etdirilməsi, onların maraqlarının prioritet olması xüsusi önəm kəsb edir. Belə təhsil elə vərdiş və təcrübə üzərində qurulur ki, öyrənci bütün həyatı boyu müstəqil öyrənmək, problemləri sərbəst şəkildə həll etmək qabiliyyətinə malik olur (2). Ənənəvi "müəllimyönlü təhsil"dən fərqli olaraq burada nəyi öyrənəcəyini, necə öyrənəcəyini, biliyinin necə qiymətləndiriləcəyini təhsil verən deyil, təhsil alan özü seçir (3). Tələbəyönlü təhsilin ali məktəblərdə, o cümlədən pedaqoji kadrların hazırlanmasında tətbiqi imkanları son dərəcə genişdir (4).

Bu məqalədə konkret bir mövzunun – müasir ingilis dilində mənsubiyyət funksional-semantik sahəsinin innovativ təlim metodlarından olan tələbəyönlü təhsil müstəvisində Azərbaycan dilli auditoriyada tədrisindən bəhs olunur.

Hər şeydən əvvəl, qeyd edək ki, tələbəyönlü təhsilin tətbiqi zamanı ilk baxışda passiv görünən müəllim son dərəcə səriştəli, istedadlı və bilikli olmalıdır. Bu tip tədris zamanı məhz müəllimin səyi, onun istifadə etdiyi innovativ üsullar nəticəsində sinifdə təhsil alanların aktivliyi təmin olunur. Fikrimizcə, qeyd olunan mövzunun tədrisi zamanı müəllim, hər şeydən əvvəl, tələbələrin keçmiş təcrübəsinə və mövcud biliyinə arxalanıb yeni informasiyanı aşılamalıdır.

Məlum olduğu kimi, mənsubiyyət bütün türk dillərinin qrammatik sistemində son dərəcə önəmli yer tutur. Müasir ingilis dilində isə bu anlayış morfoloji kateqoriya kimi mövcud deyil, yəni onun morfoloji ifadə planı yoxdur. Deməli, qeyd olunan mövzunun tədrisi zamanı müəllim azərbaycanlı tələbələrin ana dilindən olan biliyindən səmərəli şəkildə istifadə etməlidir. Məlum olduğu kimi, mənsubiyyət anlayışı sahib və mənsub əşyalar (subyekt və obyekt) arasında atributiv əlaqə kimi müəyyənləşdirilir. Bu kateqoriyada sahib anlayışı verən subyekt iştirak etmədən də mənsub əşya vasitəsilə ifadə oluna bilər (kitabım, dəftərin, bağçası). Mənsubiyyət kateqoriyası sahiblik və mənsubluq məzmunu ilə bərabər, ailəvi, hüquqi, ictimai və sairə münasibətlərin ifadəsinə də xidmət edir (qardaşım, atam, müəllimim, yoldaşım, rəhbərim, tələbəm və s.) (5, 39-42). Tələbələr bu informasiyaya malik olduğundan qeyd olunan anlayışı kifayət qədər fəallıqla müzakirə edə biləcəklər. Bu müzakirə zamanı mənsubiyyət kateqoriyasının müxtəlif sistemli ifadə vasitələrindən bəhs olunacaq ki, bu da müəllimə ingilis dilində mənsubluq anlayışının tələbələrin fəal iştirakı ilə mənimsənilməsinə imkan verəcək. Belə ki, ana dilimizdə mənsubluq anlayışı təkcə morfoloji üsulla deyil, morfoloji-sintaktik (mənim kitabim), sintaktik (bizim kənd), leksik (malik olmaq, var, yox sözləri və s.) vasitələrlə də ifadə olunur. Qeyd olunan vasitələr isə ingilis dilində də mövcuddur. Beləliklə, yeni mövzu, müəllimin epizodik müdaxilələri vasitəsilə tələbələr tərəfindən izah oluna bilər.

## ƏDƏBİYYAT

1. http://www.president.az/articles/9779
2. Young, Lynne E.; Paterson, Barbara L. Teaching Nursing: Developing a Student-centered Learning Environment.2007.
3 . Hannafin, M. J., & Hannafin, K. M Cognition and student-centered, web-based learning: Issues and implications for research and theory. In Learning and instruction in the digital age (pp. 11-23). .2010.
4. Wright, Gloria Brown ("Student-Centered Learning in Higher Education" (PDF). International Journal of Teaching and Learning in Higher Education. 2011.
5. M. Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya . Bakı: Şərq-Qərb, 2007.

## İSTEDADLI UŞAQLARLA İŞİN XÜSUSİYYƏTLƏRİ

**Talıb Paşayev,**
*ARTPİ-nin aparıcı elmi işçisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail:Talib48@mail.ru
**Eyvaz Məmmədov,**
*ADPU-nun Cəlilabad filialının*
*direktor müavini*
E-mail: menzileraqimova @elist.ru

***Açar sözlər:*** *istedadlı uşaqlar, məktəb, təhsil, texniki avadanlıq, strategiya.*
***Key words:*** *talented children,school, education, technical equipment, strategy.*
***Ключевые слова:*** *талантливые дети, школа, образование, техническое оборудование, стратегия*

Azərbaycan dövlət müstəqilliyi şəraitində təhsilə əhəmiyyətli dərəcədə diqqət artırılmışdır. Gənc nəslin təhsilinin, tərbiyəsinin, təliminin inkişafına diqqət yetirilir. Bunların nəticəsi kimi uşaqların, o cümlədən istedadlı şagirdlərin dünya görüşünün artması, formalaşması baş verir.

Son 10 ildə respublikamızın bütün şəhər və kəndlərimizdə yeni-yeni məktəblər tikilib istifadəyə verilmiş, bəziləri isə əsaslı təmir edilmişdir. Bu məktəblər müasir texniki avadanlıqlara təmin edilmiş, özəl məktəblər açılmış, idman obyektləri istifadəyə verilmişdir və s.

Bütün bunlar gənc nəslin inkişafına, o, cümlədən istedadlı uşaqların fəaliyyətinin cilalanmasına yardım edir.

Respublika rəhbərliyi 2006-2010-cu illərdə istedadlı uşaqların fəaliyyəti ilə bağlı proqram qəbul etmişdir. İstedadlı uşaqlarla iş pedaqoji kollektivi və ayrı-ayrı mütəxəssisləri düşündürmüşdür və bu sahə üzrə iş həyata keçirilir. Onların fənn olimpiyadalarında və digər təhsil yarışlarında iştirakı təmin olunur.

Bəs istedadlı uşaqların inkişafında bir çox sahələr mövcuddur. Şagirdlərin fəallaşması üçün mövcud üsullardan istifadə edilir. Onların gündəlik hazırlığı həyata keçirilir. Ekskursiyalara cəlb edilir, ayrı-ayrı şəxslərlə görüşlər, inşa yazı müsabiqəsi keçirilir, fənlər üzrə müsabiqələr təşkil edilir.

Bu uşaqlarda yadda saxlama, təhlil, qavrama, qiymətləndirmə, tətbiq etmə və s. təlim-təhsil hisslərinin yaranmasına səbəb olur. Bütün bunalr idrakın inkişafına, məntiqli bacarıqlara, təsir edici amillərə - hiss və emosiyaların artırılmasına, psixoloji bacarıqların yüksəlməsinə gətirib çıxarır.

### ƏDƏBİYYAT

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı 2009.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013 № 5

## ЭКСПЕРТНОЕ СОПРОВОЖДЕНИЕ ТАЛАНТЛИВЫХ ШКОЛЬНИКОВ

**Нигяр Мурадова,**
*доктор философии по педагогике, доцент,*
*ИПОАР*
E-mail: rita-nigar@mail.ru

***Ключевые слова:*** *экспертное сопровождение, талантливые школьники, творческая среда, эксперт-учитель, оценивание, наблюдение*
***Açar sözləri***: *ekspert dəstəyi, istedadlı şagirdlər, yaradıcı mühit, ekspert-müəllim, qiymətləndirilmə, müşahidə*
***Keywords:*** *expert support, talented pupils, potential, creative environment, expert-teacher estimation, watching*

Экспертное сопровождение талантливых школьников - это практика дополнительного образования, которая устанавливает критерии одаренности в случае выделения их для обучения специальным программам в классах с углубленным изучением предметов.

На современном этапе эксперты (педагоги, психологи) признают, что уровень, качественная оригинальность и характер развития одаренности или таланта - это всегда результат сложного взаимодействия наследственности и социальной среды (школьного образования).

Среди современных концепций одаренности отметим теорию Дж. Резнулли: «одаренность или талант - это взаимодействие трех групп человеческих качеств: интеллектуальные способности, превышающие средний уровень, высокая увлеченность выполняемой задачей и высокий уровень креативности. Одаренные и талантливые дети - это дети, которые обладают данными характеристиками или способны развить и реализовать их в любой полезной деятельности» [1].

Однако в школе часто одарённость остаётся незамеченной в ситуациях, когда ученик недостаточно успешен в учебной деятельности. В основном, учителя напрямую связывают одарённость и школьную успеваемость.

Резюмируя основы одаренности, можно различить следующие ее типы, которые чаще всего встречаются в школе:

«а) а**кадемический тип:** дети с ярко выраженной способностью учатся, усваивают предлагаемый им учебный материал независимо от его трудности и собственных интересов. Их успехи радуют учителей и родителей. Впоследствии им легче получить хорошую специальность и добиться успехов в работе. Каких-то особенных высот они обычно не достигают;

б) и**нтеллектуальный тип**: дети умеют мыслить, сравнивать, выделять главное, делать самостоятельные выводы, прогнозировать. Их успехи зависят от их отношения, интереса к предмету и его преподавателю. Они могут учиться отлично по одному предмету и слабо по-другому;

в) т**ворческий тип:** дети имеют способности к изобразительной, музыкальной, литературной деятельности. У них бывает нестандартное восприятие мира, оригинальность мышления, насыщенная эмоциональная жизнь» [2].

С позиции педагогической экспертизы одарённость следует рассматривать как потенциал, а детские достижения в учебной деятельности, как одно из проявлений этого потенциала. Потому что одаренность - это потенциал ученика, который отличается насыщенными достижениями (или имеет внутренние предпосылки для них) в определенном виде деятельности. Поэтому, чтобы точно выявить признаки одаренности каждого школьника в отдельности учителю «нужно изучать его не только на одном уроке, но и наблюдать за ним в системе уроков в различных параллельных классах» [3]. И будет это результативно при поддержке творческой среды школы, системы ее учебно-воспитательных мероприятий (олимпиад и конкурсов, практики дополнительного образования, ученических конференций, семинаров и портфолио, механизмов учета индивидуальных успехов детей и т. д.). Безусловно, все эти мероприятия реализуются посредством экспертной службы школы, которая «мобильно и дифференцировано оценивает достижения школьников и тем самым анализирует процесс их развития» [4].

С точки зрения экспертов данный процесс следует реализовывать в трех назначениях процедурных процессов:

1) со школьниками (тест на изучение оригинальности мышления по А. Савенкову; тесты креативности П. Торренса; шкала измерения интеллекта Д. Векслера; изучение мотивационной готовности детей Л. Венгера).

2) с учителями-предметниками (методики «Интеллектуальный портрет», «Характеристика ученика» по А. Савенкову).

3) с родителями (методика «Карта оценки общей одаренности» А. Савенкова).

Сочетание этих методик осуществляет экспертное сопровождение талантливых школьников. Естественно приоритет отдается желанию ученика заниматься по выбранному

направлению, его мотивации к познанию, основанное на его самонаблюдениях, в которых он «отмечает факты личного наблюдения беспрерывно и системно в ежедневном дневнике» [5].

Таким образом, экспертная служба школы реализовывает сопровождение талантливых школьников с целью обнаружения их одаренности, проявляемая ими в ситуационном поведении и деятельности. Здесь «эксперт не только хороший учитель, а также хороший методист, освоивший соответственно учебным предметам всей современной системой преподавания» [6].

**ЛИТЕРАТУРА**


1. Гордеева Т.О. Мотивационные предпосылки одаренности: от модели Дж. Рензулли. М., 2012.
2. Савенков А. И. Одарённый ребёнок в массовой школе. М., 2001.
3. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010.
4. Məmmədli L.A. Tələbə gənclərin idrak fəallığı səviyyəsinin monitorinqi və qiymətləndirilməsi / “Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 25 iyun 2016-cı il
5. Quluzadə G.R. Müşaidə şagirdlərin davranışını qiymətləndirmək vasitəsi kimi / “Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, 25 iyun 2016-cı il
7. Лейтес Н.С. Возрастная одаренность и индивидуальные различия. М., 2005.


# İSTEDADLI UŞAQLARLA İŞİN XÜSUSİYYƏTLƏRİ


**Sevda Alxasova,**
*Pirallahı rayonu 168 nömrəli tam orta*
*məktəbin Azərbaycan dili müəllimi*
E-mail: alxassevda@gmail.ru



***Açar sözlər:*** *xüsusiyyət, istedad, uşaq, potensial, insan*
***Ключевые слова:*** *особенность, талант, ребенок, потенциал, человек*
***Key words:*** *feature, talent, child, potential, human*


Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: «Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir». Konsepsiya xarakterli bu bəyannamə təhsillə bağlı bir sıra dövlət sənədlərində öz əksini tapmışdır. İstedadlı uşaq və gənclərin üzə çıxarılması və yaradıcılıq potensialının inkişafı, haqqında sənədlər bu qəbildəndir.

Təbii ki, biz də öz növbəmizdə dövlət başçısının bu qayğısına layiqli cavab verməli, onun bizə göstərdiyi etimadı bütün imkanlardan istifadə etməklə doğrultmalıyıq. İstedadlı uşaqların aşkar edilməsi və düzgün istiqamətləndirilməsi müəllimlərin öhdəsinə düşən ən vacib vəzifələrdəndir.

Xüsusilə də bu işdə ibtidai sinif müəllimləri böyük rol oynayır. Dərs ilinin əvvəlində məktəb psixoloqu ilə birlikdə istedadlı uşaqların inkişafı, xüsusiyyətləri, tipləri, yaş qrupları, qabiliyyətlərinə görə ehtiyac və maraqlarını öyrənirik. Bu xüsusiyyətin ən əhəmiyyətlisi asan dərketmə qabiliyyətidir. Belə uşaqlar zehni baxımdan erkən inkişaf edir və yaşıdlarından daha tez öyrənə bilirlər. Onlar geniş maraq dairəsinə malik olduqlarından çoxlu suallar verir, hər şeyi bilməyə can atırlar. Müxtəlif sahələrdə öyrəndikləri biliklər arasında doğru əlaqələr qura bilirlər. Qarışıq və çətin tapşırıqları sevirlər və yaşıdlarının həll edə bilmədikləri məsələlərin öhdəsindən asanlıqla gəlirlər.

Belə uşaqlar aşkar edildikdən sonra normal siniflərdə onlara uyğun zənginləşdirilmiş təhsil proqramının hazırlanması, əlverişli təlim şəraitinin yaradılması və lazımi vəsaitlərlə təmin olunmasına çalışıram. Dərs zamanı çalışmalarda təkrara yol vermir, məsələ həlletmə texnikası, araşdırma, müqayisəetmə, nəticəçıxarma tələb edən tapşırıqlardan daha çox istifadə edirəm.

Dərslərdə daha çox oyunlardan istifadə edirəm. Oyunlar məntiqli düşünməyi öyrədir, öyrənmə zamanı uşağın zehnini inkişaf etdirir. Məsələn, uşaqlara boş bir vərəq verir, qısa müddətdə bacardıqları qədər fərqli şəkil çəkmələrini və ya yaza bildikləri qədər söz və misal yazmalarını tapşırıram.

Dərs zamanı dərsliklərdəki tapşırıqlardan daha çox, müşahidə və təcrübələrə yer verir, müasir təlim texnologiyalarının imkanlarından multimedia tədris istifadə edirəm. Texnologiya, təsviri incəsənət, musiqi, bədən tərbiyəsi kimi dərslərin yüksək səviyyədə tədrisinə çalışıram.

Şagirdlərin yaradıcılıq marağını artırmaq üçün onlara müstəqil düşünmək, işləmək və mühakimə yürütmək vərdişləri aşılayıram. Qeyd edim ki, yaradıcılıq bacarığının inkişaf etdirilməsində sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu əvəzsizdir. Tədris prosesinin belə tədbirlərlə əlaqələndirilməsi hər bir şagirdin fərdi qabiliyyətini, bacarıq və istedadını əhəmiyyətli dərəcədə inkişaf etdirir, dünyagörüşünü məqsədyönlü şəkildə formalaşdırır.

**ƏDƏBİYYAT**

1. В.В. Заботин. О развитии проблемного видения у школьников // Советская педагогика, 1971, № 2
2. В.Афанасьев, М.А.Суворова. Ярославль: Академия развития, 2006.

## İSTEDADLI UŞAQLARIN TƏHSİLİNİN PRİORİTET MƏSƏLƏLƏRİ

**Almara Hümbətova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail:turalusubaliyev@gmail.com

***Açar sözlər:*** *istedad, bilik, müasir təhsil, inkişaf*
***Ключевые слова:*** *талант, знание, современное образование, развитие*
***Key words:*** *talant, knowledge, modern, education development*

İstedadlı uşaqların aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi Dövlətin prioritet məsələlərindən biri olmuş və həmişə diqqət mərkəzindədir. Ümummilli Lider Heydər Əliyevin 1996-cı il 22 iyun Azərbaycanın gənc istedadlarına Dövlət qayğısı haqqında, yəni, istedadlı gənclərin Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialının inkişaf etməsi üçün Dövlət qayğısını təmin etmək məqsədi ilə fərman imzalamışdır. "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə" Dövlət Proqramının (2006-2010-cu illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2006-cı il 17 aprel tarixli qərarında və istedadlı uşaqların aşkara çıxarılması, onların potensial imkanlarından istifadə edilməsi, səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasını təmin etmək üçün Respublika Prezidentinin 29 dekabr 2012-ci il tarixli fərmanı "Azərbaycan 2020 gələcəyə baxış İnkişaf Konsepsiyasında" xüsusi yer tutur. Konsepsiyada 2013-2020-ci illərdə əsas məqsəd, dərsliklərin müasir tələblər baxımından yeniləşməsi, şagirdlərin "təfəkkür və düşüncə" məktəbinə keçidin, istedadlı uşaqlar üçün inkişafetdirici fərdi proqramların reallaşdırılması məqsədi ilə sistemli tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

İstedadlı şagirdlərin öz istedadlarını və qabiliyyətlərini müstəqil şəkildə göstərmələri üçün fərdi proqramların hazırlanması həyatın tələbidir. Hamıya məlumdur ki, hər məktəbdə eyni fəndən ən azı on müəllim dərs deyir. Lakin həmin fəndən ən güclü müəllim kimdir soruşduqda, yalnız birinin və ya maksimum ikisinin adı çəkilir. Avropanın görkəmli memarlarından birinin dediyinə görə, uğurlu müəllimlik üçün müəllim şəxsiyyətinin rolu biliyin rolundan çoxdur. səh: 239 ( Qurdum ki, izim qala). Öz pedaqoji fəaliyyətimdən irəli gələn nəticələrə əsasən müəllifin fikrini davam etdirərək deyə bilərəm ki, müəllim şəxsiyyətinin bütövlüyünü onun biliyi, sənətinə yaradıcı münasibəti və pedaqoji ustalığı tamamlayır. Müəllim şəxsiyyətinin rolu dedikdə, müəllimin təşkilati fəaliyyəti; yəni, şagirdlərlə əməkdaşlıq şəraitinin, dərsin planlaşdırılmasının düzgün qurulması, nitqinin aydınlığı, emosionallığı, vaxtdan səmərəli istifadə, pedaqoji mədəniyyətinin yüksək səviyyədə olmasıdır.

Müəllimin təlim fəaliyyəti; yəni, yeni təlim metodları və üsullarının düzgün seçilməsi, təlim vərdişlərinin (öyrənməyi öyrətmək) və dərsdə elmilik səviyyəsinin, şagirdlərin dünyagörüşünün

formalaşdırılması səviyyəsinin yüksək olmasıdır. Çünki, dünya görüş istedadı daha da itiləşdirir. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsində müəllimin özünün nümunə olmasıdır. Müəllimlik qabiliyyəti yüksək olan dərsdə elə danışmalıdır ki, belə müəllimlərin dərsləri təkcə öz fənni üçün deyil, bütün dərslər üçün emosional mühit yaradacaq qədər təsirli olsun. İstedadlı uşaqlara məhz belə müəllimlərin dərs deməsi vacibdir. Çünki, istedadın qorunub saxlanılması və inkişaf etdirilməsi ölkənin tərəqqi problemidir.

Öz işinin ustası olan müəllim beyinlərə fikir yazmaqdan başqa, bir də hansı beyinə hansı fikri yazmaq lazım olduğunu gözəl bilir. Necə olur ki, bir müəllimə özlərini olduqlarından ağıllı göstərməyə çalışdıqları halda, başqa bir müəllimə həmin şagirdlər özlərini olduqlarından ağılsız göstərib, hətta ondan xoşa gəlməyən söz də eşidirlər. Bu hal yalnız müəllim-tələbə münasibətində deyil, başqa oxşar hallarda da baş verir. Məktəbə öyrətmək ümidi ilə gələn müəllimin həmişə ağıllı tələbələri olur. Belə müəllimlərin dərslərinin sonunda səslənən zəng, şagirdlər tərəfindən heyfslənməklə qarşılanır. İmtahan vaxtı isə şagirdlər imtahandan yox, müəllimin onlar haqqındakı yaxşı fikrini itirməklərindən qorxurdular. Mənim əlavə etdiklərim istedadlı şagirdlərə müstəqil düşünməyi, həyatda rast gəldikləri hadisəni öz müstəqil fikir süzgəcindən keçirib, qiymətləndirə bilmək qabiliyyətini öyrədir, həyatda öz məqsədlərini müəyyənləşdirməklə, yeni fikirlər xəzinəsi yaratmağa ruhlandırır.

Bütün bunlar elmi həqiqətlərin kəşf edilməsində ağılla hisslərin, məntiqi təfəkkürlə emosiyaların qarşılıqlı fəaliyyəti haqqında məlumat verir və dərindən fikirləşə bilmək mədəniyyəti aşılayır. Nəticə etibarilə respublikamızda aparılan məktəb tikintisi, onların maddi- texniki bazasının möhkəmləndirilməsi, təhsilin əsas məqsədlərindən biri olan istedadlı uşaqların bütün qabiliyyət və imkanlarının inkişaf etdirilməsi üçün dövlət başçısının göstərdiyi diqqət və qayğı bütün təhsil ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

**ƏDƏBİYYAT**


1. Bəylərov E. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. Bakı: Təhsil, 2008.
2. Məmmədov X. Qurdum ki, izim qala. Bakı, 2007.


## İSTEDADLI UŞAQLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ TƏCRÜBƏSİ


**Nəzakət Əsgərova,**
*Humanitar fənlər təmayüllü*
*məktəb liseyin direktoru*
E-mail: n.esgerova@gmail.com



***Açar sözlər:*** *diaqnostika, rabitə, nitq, düzgün tələffüz, məntiqi təfəkkür, hafizə və diqqət, kiçik motorika*
***Ключевые слова:*** *диагностика, коммуникация, речь, правильное произношение, логическое мышление, память и внимание, мелкая моторика*
***Key words:*** *diagnostics, communication, speech, correct pronunciation, logical thinking, memory and attention, fine motor skills*


Şagirdləri sadəcə nailiyyətlərinə görə sıralayan bir məktəb mühitində öyrənmədən danışmaq mümkün deyil. Siyahıda birinci olmaq bütün bacarıqlara sahib olmaq demək deyil. Məktəblərdə keçirilən imtahanlarda əldə edilən nəticələr qiymətləndirmə standartlarında nəzərdə tutulan bacarıqları əks etdirməlidir. Ancaq belə nəticələr öyrənmə səviyyələri haqqında təhsil sisteminə düzgün məlumat verə bilər. Məktəb, müəllimlərin enerjisini və motivasiyasını qiymətləndirmə fəaliyyətlərindən çox, keyfiyyətli təlimə istiqamətləndirməlidir. Məktəb, keyfiyyətli tədrisin məsuliyyətini daşıyan bir qurumdur. Öncə tədrisin keyfiyyəti, sonra isə ölçmə gəlir. Bacarıq əsaslı bir təhsil sistemində yetişmiş fərdlər bütün imtahanlardan uğur əldə edir.

Bacarıq **-** biliklərə əsaslanaraq hər hansı əməliyyatları yerinə yetirmək qabiliyyətinə deyildir. Başqa sözlə, bacarıq biliklərin tətbiq edilməsi deməkdir. Bacarıq elə bir fəaliyyətdir ki, burada əqli və

praktik fəaliyyət uzlaşdırılaraq aydın dərk olunmuş məqsədə doğru yönəldilir. Bacarıqlar qarşıya qoyulmuş vəzifə və şəraitlə əlaqədar olaraq mənimsənilmiş biliklər əsasında şagirdlər tərəfindən yerinə yetirilən kompleks təsirlər kimi özünü göstərir.

İstedadlı uşaqların liseyin 1-ci sinfinə qəbulu zamanı əvvəlcədən müəyyən edilmiş suallar, didaktik materiallar, psixo-diaqnostik testlər əsasında şagirdlərin ümumi dünyagörüşü, rabitəli nitqi, sözlərin düzgün tələffüzü, məntiqi təfəkkürü, hafizə və diqqəti, kiçik motorikası, sadə riyazi hesablama bacarıq və vərdişləri, əşyaları ölçülərinə, rənglərinə, formasına görə müqayisə etmək bacarığı, ətraf aləmi müşahidə etmək qabiliyyəti yoxlanılır.

İlkin diaqnostika zamanı bilik ehtiyatı, qısamüddətli hafizə, riyazi bacarıqlar, kiçik motorika, məntiqi təfəkkür, diqqət nəzərə alınır:

Ümumi dünyagörüşü və ilkin biliklərin, anlayışların diaqnostikası növbəti cədvəl əsasında aparılır. Bu tapşırıqda 4 variant üzrə 10 sual verilib. Bu suallar ətrafında uşağın dünyagörüşü, nitqi, öyrəndiyi məlumatlar yoxlanılır, hər sual uyğun balla qiymətləndirilir. Tapşırıq üçün maksimum 10 dəq. vaxt təyin olunur. Qeyd: Hər bir uşağa özünü təqdim etmək, ailəsi haqqında məlumat vermək və ev ünvanını söyləmək təklif olunur.

Məntiqi təfəkkürü yoxlamaq üçün verilmiş tapşırıqda 3 sıra, hər sırada da 4 fiqur rəsmi təsvir olunub. Bu fiqurlardan biri hansısa xüsusiyyətinə görə digər üçündən fərqlənir. Biri artıqdır. Hər düzgün cavab 1 balla qiymətləndirilir. Bu tapşırığa görə ən yüksək göstərici 3 baldır. Tapşırıq üçün 2 dəqiqə vaxt təyin olunur.



Bu gün təhsilimizin prioritetlərindən biri və bəlkə də birincisi sadalanan bacarıqlara və biliklərə malik şagirdin üzə çıxarılması, onun potensialına düzgün diaqnozun qoyulmasıdır. Bu iş isə olduqca çətin və məsuliyyətli işdir.

**ƏDƏBİYYAT**

1. http:// academic.ru/398/

## İSTEDADLI UŞAQLARIN İNNOVATİV TƏLİMİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**Xanım Salayeva,**
*ARTPİ-nin elmi işçisi*
E- mail: salayevax@mail.ru

***Açar sözlər:*** *müəllim, istedad, xüsusiyyət, tədqiqat, şagird*
***Ключевые слова***: *учитель, талант, исследование, ученик*
***Key words:*** *teacher, talent, characteristics, research, student*

Təhsil - məlum olduğu kimi, insan həyatını istiqamətləndirən ən əsas amillərindən biridir. Müəllimlər akademik nailiyyətləri şagirdlərə ötürməyi özünün həyat tərzinə çevirmiş insanlardır. Müəllimlərin bu hədəflərə çata bilməsi üçün şagirdlərin xüsusiyyətlərindən asılı olmayaraq, bəzi əsas xüsusiyyətlərə malik olmaları vacibdir.

İstedadlı uşaqlarla işləyən müəllimlərdə aşağıdakı keyfiyyətlərə yiyələnmələri zəruridir.

- yaradıcı, bacarıqlı olmalı;
- ziyalı olmalı;

- inteligent, erudisiyalı olmalı;
- müasir texnologiyalara yiyələnməli;
- psixoloq, təlim-tərbiyə işinin təşkilatçısı olmalı;
- müsbət -Mən konsepsiyasına malik olmalı, tələbkar, emosional, stabil olmalıdır və s.

Bəzən əsas məsələ fərdi təhsil və xüsusi şagirdlər olduqda müəllimlər əsas keyfiyyətlərlə yanaşı bəzi fərqli xüsusiyyətlərə də yiyələnməlidırlər. Levisin tədqiqatlarında istedadlı şagirdlərin öz müəllimlərində görmək istədikləri xüsusiyyətlər aşağıdakı kimi sadalanır:

- Müəllimlərin şagirdlərə empatik yanaşması;
- Adi müəllimlərdən fərqli, daha istedadlı və daha zəngin təxəyyülə malik olmağı;
- Nəyi öyrədəcəyindən daha çox öyrədəcəyi mövzular barədə necə düşünməyi öyrətməli.

Bildiyimiz kimi, dünyada bir neçə alternativ təhsil yanaşmaları mövcuddur. Bu yanaşmaya nümunə Montessori texnologiyası göstərilə bilər. Bu texnologiya Sensor tərbiyə adlanır. Bu metod xüsusi təhsilə də aid edilir. İstedadlı uşaqların təliminin təşkilinə töhfə vermişdir.

İlk tibb elmləri doktoru və təlimçi Mariya Montessori (1870-1952) Roma univesitetinin Psixiatriya klinikasında işləyərkən əqli cəhətdən geri qalan uşaqların təlimi ilə maraqlanmışdı. Digər həkimlərin metodlarından istifadə edərək bəzi nəticələr əldə etmiş Montessori, bu üsulların normal uşaqlarda daha uğurlu nəticələr verəcəyi barədə düşünmüşdü. 1907-ci ildə Romada 3-6 yaşlarında uşaqların təhsil aldığı ilk Montessori məktəbi açılmışdı. Bu məktəblər beş duyğu üzvü istiqamətində təlimlərə əsaslanır (Sensor tərbiyə). Hər bir uşağın özünəməxsus inkişafını təmin edərək, özünütərbiyələndirməni dəstəkləyən Mentessori məktəbləri qısa bir müddətdə dünyada məşhurlaşdı [5].

Bu gün dünyanın bir çox ölkələrində Montessori məktəbləri var. Azərbaycanda da bu cür təhsil verən bəzi təhsil müəssisələri fəaliyyət göstərir. Burada sadədən mürəkkəbə, konkretdən mücərrədə doğru inkişaf nəzərdə tutulur. Bu sistemdə uşağa yaradıcı potensialına və öyrənmə həvəsinə inam aşılanır. Metodun ən çox tənqid olunan tərəfi isə həddən artıq fərdilik və uşağın ətrafdakılardan uzaqlaşması təhlükəsidir. Təlimdə uşaqların ətrafdakılardan uzaqlaşmaq təhlükəsinin qarşısını almaq üçün müəllimlər təlim zamanı bu işə xüsusi diqqət yetirməli, təlimin müxtəlif iş formaları, metodları ilə təşkilinə nail olmalıdırlar.

**ƏDƏBİYYAT**


1. Üstün zekalı ve yetenekli çocukların eğitimi, İstanbul çalıştayı, Eğitimcinin eğitimi
2. Üstün yetenekliler araştırma ve uygulama merkezi
3. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi, istedadın işçi konsepsiyası. "Aspoliqraf", 2008
4. Менделевич, С. Принципы и технология обучения одарённых детей // Директор школы, 2007.
5. http://uyem.inonu.edu.tr


## İSTEDADLI ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİNDƏ ÖZÜNÜAUDİTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ


**İlhamə Əsədova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
ARTPİ
E-mail:ashadova@inbox.ru



***Açar sözlər:*** *potensial, özünüaudit, fəaliyyət istiqamətləri, təhsildə keyfiyyət, nəzəri biliklər, qiymətləndirmə*

***Ключевые слова:*** *потенциал, самоаудит, направления деятельности, качество в образовании, теоретические знания, оценивание*

***Key words:****the potential, the self-audit, activity directions, quality in education, theoretical knowledge*


Azərbaycan Respublikasında ümumtəhsil məktəblərində istedadlı uşaqların aşkarlanması, üzə çıxarılması və onların istedadlarının istiqamətləndirilməsi aktual problemlərdəndir. Bu məsələnin həlli istiqamətində ümumtəhsil müəssisələrində özünü auditin tətbiqi də mühüm rol oynayır. Özünü audit tədrisin bütün sahələrini əhatə etməklə, idarəetmədə təftiş işlərinin məcmusu olub, öz fəaliyyətini araşdırmaq, qiymətləndirmək kimi başa düşülür. İstedadlı uşaqlarla işin təşkilindən danışarkən ümumtəhsil məktəblərində özünü auditin fəaliyyəti istiqamətlərinin bölmələri üzrə işin sistemləşdirilməsinə yönəlmək lazımdır. Özünü audit qurumunun fəaliyyət hədəflərindən biri də istedadlı

şagirdlərlə işin təşkili, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilməsi üzrə tədbirlərin həyata keçirilməsinin təşkilidir. İstedadlı uşaqların nailiyyətləri məktəbin il ərzində keyfiyyətin inkişaf dinamikasını əsas göstəricilərində əks olunur. Özünü audit prosesində məktəbin istedadlı şagirdi aşkarlamalı, müvafiq istiqamətdə yönəldilməsində fəallıq göstərməlidir.

Məktəbin idarə olunmasında cavabdehlik bölüşdürülərkən istedadlı uşaqların öz bacarıqlarını nümayiş etdirmək, onların daha da inkişafını təmin etmək məqsədli tədbirlərin təşkili müvafiq əmrlə rəhbərlərdən birinə həvalə edilir. Ümumi orta təhsilin həyata keçirilməsində özünü audit nəticələrindən istifadə edərək şagirdləri ali, peşə və sənət məktəblərinə düzgün istiqamətlənmək mümkündür. İstedadlı şagirdin yüksək nailiyyət əldə etdiyi fənlərə, maraq və bacarıqlarına uyğun ixtisasa yönəltməsi valideynlərin nəzərə alması tövsiyə olunur. İstedadlı şagirdlərin fənn olimpiadaları, müsabiqələr, yarışlarda iştirakı və əldə etdikləri nəticələr məktəb kollektivi qarşısında nümayiş etdirilməlidir.

Məktəblərarası, şəhər, rayon, respublika müsabiqələrin, yarışların təşkili zamanı, istedadlı şagirdlərinin həmin tədbirlərdə iştirakının təmin olunması əsas məsələlərdəndir. Bu yarışların qalibləri olan istedadlı şagirdlərin kütlə qarşısında nümayişinə şərait yaradılmalıdır. Təhsil alanların beynəlxalq, respublika və rayon olimpiada, müsabiqə və yarışlarda iştirakı bir tərəfdən istedadlı şagirdin bu tədbirlərdə iştirakının təmininə, uğur qazanmasına, tanınmasına şərait yaradır, digər tərəfdən onu hazırlayan müəllimin xüsusi qabiliyyətli uşaqlarla iş bacarıqlarının təkmilləşməsinə və tanınmasına imkan verir.

Danılmazdır ki, müəllimləri tanıdan, geniş auditoriyaya təqdim edən cəhətlərdən biri də yetirmələrinin nailiyyətləridir. İstedadların yaradıcılıq potensiallarını və elmi biliklərini milli-mənəvi, əxlaqi dəyərlər zəminində formalaşmasına, vətənpərvərlik əsərlərinin yaradılması, tərbiyə məsələlərinə və faydalı məqsədlərə yönəldilməsi, milli-mənəvi dəyərlərin qorunması, tətbiqi, inkişafı və təbliği, baxımından əhəmiyyətlidir. Məktəbin təhsil, mədəniyyət və idman müəssisələri ilə qarşılıqlı əlaqəsinin təşkili istedadların əhatə dairəsinin genişləndirir.

Bəzən xüsusi qayğıya ehtiyacı olan uşaqlar arasında da istedadlar olur. Onların üzə çıxarılması, müəyyən yaradıcılıq fəaliyyətinə cəlb olunması üzrə işin təşkilinin vəziyyətinin araşdırılması özünü auditin fəaliyyət istiqamətlərindən biridir. Təlim-tərbiyə prosesinin təşkili üçün lazımi sinif otaqlarının, təchiz olunmuş laboratoriyaların, kompüter siniflərinin, emalatxanaların, idman və akt zallarının, təhsil alanlar və təhsil verənlər üçün mebel avadanlığının, İKT-nin, tədris vəsaitlərin, həmçinin tədris ədəbiyyatı (dərslik və dərs vəsaitləri), kitabxana və informasiya resursları ilə təminatı və informasiya-kommunikasiya texnologiyalarının səviyyəsi bəndlərinin istedadların inkişafında əhəmiyyəti danılmazdır. İstedadlı şagirdlərin müvafiq normativlərə uyğun qorunmasının və sağlamlıq qayğısına qalmaq məqsədilə tibbi və sosial şəraitinin vəziyyəti diqqət mərkəzində saxlanılması özünü auditin təklif və tövsiyələrində nəzərdə tutulur. Beləliklə, özünü auditin fəaliyyət istiqamətləri istedadlı şagirdlərin aşkarlanması, onlara düzgün yanaşma, istiqamət vermək, fiziki və əqli inkişafının təhlükəsizlik normativlərinə uyğun formalaşdırılması məsələlərini də əhatə edir.

## ƏDƏBİYYAT


1. Abbasov İ.M. Audit (dərslik). Bakı, Biznes Univarsiteti, 2007
2. Qəribov Ş.H. Təhsilin konseptual problemləri. Bakı: Adiloğlu, 2008.
3. Mehmet Okutan Eğitim Yönetimi ve Denetiminde Örnek Olaylar. Pegem Akademi, 2012
4. Рывкин Е.Ю. Самооаудит. Как основы управления методической дятельностью. Волгаград: Учитель, 2014.

# İSTEDADLI UŞAQLARLA BAĞLI İNKİŞAF PROQRAMLARI VƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

**Könül Mikayılova,**
*ARTPİ -nin elmi işçisi*
E-mail: konulmikyilova@rambler.ru
**SevdaNamazova,**
*Bakı şəhəri Binəqədi rayonu 246 nömrəli məktəbin ibtidai sinif müəllimi*
E-mail: namazova-71@mail.ru

***Açar sözlər:*** *strategiya, proqram, istedad, potensial, qabaqcıl təcrübə*
***Ключевые слова:*** *стратегии, программа, талант, потенциал, передовая практика*
***Key words:*** *strategies, programs, talent, potential, best practices*

Təhsil sektorunun inkişafı istiqamətində atılan addımlardan və öyrənilən qabaqcıl təcrübələrdən biridə istedadlı uşaqlarla bağlı xüsusi inkişaf proqramlarının hazırlanması, düzgün istiqamətləndirilməsi məsələləridir. Təbii ki, bu istiqamətdə də müvafiq dövlət proqramları, tədbirlər planları həyata keçirilib. Bunların sırasında "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müvafiq bəndlərində xüsusi istedada malik uşaqlarla bağlı məsələlər öz əksini tapmışdır. Belə ki, istedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması, istedadın erkən yaşdan aşkarlanması və dəstəklənməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun diaqnostik metodikaların, psixometrik vasitələrin təhsil müəssisələrində tətbiqinin təmin edilməsi, istedadlı təhsilalan üçün fərdi təhsil və kurikulumdankənar məşğuliyyətin təşkili mexanizmlərinin yaradılması Dövlət Strategiyasının strateji hədəflər və tədbirlər planında öz əksini tapmışdır. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramını (2006 -2010-cu illər)" xatırlatmaq da yerinə düşər. Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı çərçivəsində Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Lənkəran, Şəki, Quba, Ağdaş şəhərlərində pilot məktəbləri seçilmişdir. İstedadlı şagird bankının yaradılması məqsədilə Yevlax şəhərində yerləşən 5, 8, 9 nömrəli orta məktəblərdə şagirdlər arasında pilot innovasiya sinifləri təşkil edilmişdir.

İstedadlı uşaqlar üçün lazımi təlim şəraitini yaratmaq məqsədilə Bakı Dövlət Universiteti, Memarlıq və İnşaat İnstitutu, Bakı Slavyan Universitetinin və s. ali təhsil müəssisələrinin nəzdində lisey-gimnaziyalar fəaliyyət göstərir. İstedadı ilə müəyyən fənlər, sahələr üzrə fərqlənən uşaqlar müsabiqə əsasında buraya daxil olurlar. Burda tədris həm müəyyən fənn müəllimləri, həm də alimlər tərəfindən həyata keçirilir.

İstedadlı uşaqların fəaliyyətinin ictimaiyyətə çatdırılması məqsədilə televiziyada "İstedadlı uşaqlar festivalı" keçirilir. Bu veriliş istedadlı uşaqların Respublikamızı təmsil etdikləri beynəlxalq festivallardakı, olimpiada və müsabiqələrdəki uğurlu çıxışlarına həsr olunur.

İstedadlı gənclərin potensialının aşkarlanması və inkişaf etdirilməsi məqsədilə 15 ali təhsil müəssisəsində "SABAH" qrupları yaradılmışdır ki, 5 ixtisas qrupu üzrə 15 minə yaxın tələbəni əhatə edəcək. Bu qrupa seçilmiş tələbələrin intellektual və yaradıcı potensiallarının inkişafı, yeni texnologiyaları mənimsəməsi sahəsində imkan və şəraitin yaradılması ikinci kursdan etibarən davam etdiriləcək.

İstedadlı uşaqlarla işləmək məqsədilə müəllim hazırlığına da xüsusi önəm verilir. Təhsil nazirliyinin dəstəyi ilə müəllimlər təkmilləşdirmə kurslarından keçərək bu kimi uşaqlarla işləmək istiqamətlərinə və metodikalarına yiyələnmişlər.

İstedadlı uşaqların təhsilinin prioritet məsələlərinə dair ABŞ, Avstraliya, Böyük Britaniya, Türkiyə və Ukrayna kimi qabaqcıl ölkələrin iş təcrübələri daim öyrənilir və araşdırılır.

## ƏDƏBİYYAT

1. Bayramov N. İstedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması. "Yeni Azərbaycan" qəz., 2016, 8 İyul
2. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. İstedadın işçi konsepsiyası. Bakı: Təhsil, 2008.

3. Bəylərov E. İstedadlı uşaqlar probleminə şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından yanaşılmalıdır. "Azərbaycan müəllimi" qəz., 2016, 6 fevral
4. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Pedaqoji məsələlər: esselər, etüdlər. Bakı: ADPU, 2005.
5. İbrahimov F. İstedadlı uşaqların təlimi ilə bağlı müəllim hazırlığı. rem.sheki.org›meqaleler/15092014-1
6. Qasımova A. İstedadlı uşaqlarla aparılan praktik işin təlim aspektləri. tehsilproblemleri.com›?p=2761

## AZƏRBAYCANDA İSTEDADLI ŞAGİRDLƏRİN İNKİŞAFINDA MÜƏLLİMİN ROLU

**Səbuhə Hüseynova,**
*ARTPİ-nin baş laborantı*
E-mail: celilli-nuray@ mail.ru

***Açar sözlər:*** *istedadlı şagird, işin təşkili, müəllim, təlim, tərbiyə, qabiliyyət, tələb, inkişaf*
***Ключевые слова:*** *талантливые ученики, организация работы, учитель, обучение, воспитание, личность, способности, требования, развитие*
***Key words:*** *gifted pupils, organization of work, teacher, training, personality, abilities, demand, development*

Azərbaycanda insan kapitalının inkişafı, uşaqların müasir bilik və bacarıqlara yiyələnməsinin reallaşdırılması prioritet istiqamətlər sırasında mühüm yer tutur. Çünki insan kapitalının inkişafı ölkə iqtisadiyyatının qlobal sistemə uğurlu inteqrasiyası prosesində ən mühüm şərtlərdən biri kimi təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.

Azərbaycan Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda isə bildirilir ki, təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişafı diqqət mərkəzində saxlanmalıdır. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006-2010-cu illər)" əsas məqsədi respublikanın ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialını vaxtında müəyyənləşdirib, onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, ölkə ictimaiyyətinin diqqətini bu vacib məsələnin həllində yaxından iştiraka yönəltməkdən, istedadlı uşaq və gənclərin inkişafına dövlət qayğısını gücləndirməkdən ibarətdir.

Son 10 ildə respublikamızda təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır, şəhər və rayonlarda çox sayda məktəb inşa olunmuş və əsaslı təmir edilmişdir. Təhsil sistemində mühüm önəm daşıyan məsələlərdən biri istedadlı uşaqlara qayğı və diqqətin daha da artırılmasıdır, bununla da 1 milyon şagirdin təhsil almaq şəraiti yaxşılaşdırılmışdır. Problemin həllinin aktuallığını əsaslandırmaq üçün diqqəti bəzi məqamlara yönəldək. İstedad sonradan qazanılmır, insanın özü ilə doğulur. Uşaqlarda fitri istedadı öncə valideynlər, bağçada müəllimlər, sonra isə məktəbdə müəllimlər və psixoloqlar ortaya çıxartmalıdır. Elə uşaqlar var ki, biliklidirlər, lakin özlərini tam ifadə edə bilmirlər, məhz bu uşaqları kəşf edib onların bilik və bacarıqlarını önə çıxartmaq, onları cəmiyyətimizə qazandırmaq hər bir pedaqoqun vəzifə borcudur. Onlar bizim gələcəyimizdir. Bəzi hallarda valideynlərin, müəllimlərin onlara qayğı göstərməməsi səbəbindən istedad cilalanıb üzə çıxa bilmir. Ancaq bununla bərabər kifayət qədər istedadı tamamlanan, ifadə olunan uşaqlar da var və bu uşaqlar aləmi bizləri özünə cəlb edir. Azərbaycan tarixən istedadlar diyarıdır. İstedadlı uşaqlar həm ailədə, cəmiyyət, həm təhsil müəssisələri və dövlətimiz tərəfindən lazımi səviyyədə qayğı ilə əhatə olunur. Azərbaycanda fiziki cəhətdən qüsurlu uşaqlar və maddi

Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir. Təlimdə keyfiyyətin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən "müəllim - şagird"

münasibətlərinin qurulmasında pedaqoji taktı - nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə nümunəvi davranmalıdır. Düzgün qurulmuş müəllim - şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir. Müəllimdə bu tip keyfiyyətlərin olmaması təhsil sistemində şagird-müəllim problemlərinin yaranmasına gətirib çıxarır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr, 2012. wwwpresident.az/files/future_az.pdf

3. Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər). Bakı, 2006. E-qanun.az/framevork/11601

4. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər: esselər, etüdlər. Bakı: ADPU, 2005.

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Şahismayıl İsmayılov,**
*Mingəçevir Dövlət Universitetinin müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru,*
E-mail: ismayılov.56@list.ru

***Açar sözlər:*** *şagird, nailiyyət, qiymət, ənənəvi, təlim*
***Key words:*** *student, achievement, a mark, traditional, education*
***Ключевые слова:*** *ученик, достижение, оценка, традиционный, обучение*

Şagird nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri bilik, bacarıq və dəyərlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Lakin şagirdlərin təlimin nəticələrini müəyyən edən şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi sistemi mövcud deyildir. Daha təəccüblüsü budur ki, təlimin məqsədlərini əks etdirən sənədlərin hamısında təlim-tərbiyə prosesində formalaşmalı olan müxtəlif şəxsi keyfiyyətlərdən bəhs olunur. Ola bilsin bu onunla əlaqədardır ki, şəxsi keyfiyyətlərin kəmiyyətcə qiymətləndirilməsi praktiki olaraq həyata keçirilməsi çətin olan bir məsələdir. Buna baxmayaraq, ancaq şəxsi keyfiyyətlərin qiymətləndirilməsi təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər. Bu sahədə məktəbdə psixoloji xidmətin üzərinə mühüm vəzifələr düşür. Nəticəyönlü təlimdə isə vəziyyət başqa cürdür. Belə ki, burada şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdlərin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir: 1) şagirdin irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi) 2) təlim prosesində qərarların qəbulu 3) şagirdin təlim nəticələrinin qiymətləndirilməsi.

Qiymətləndirmə və təlim prosesləri təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi götürülməlidir. Sistemli proses olan qiymətləndirmə-təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur.

**1) Qiymətləndirmə məlumatları.** Bunlara şagirdlərin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, fənn kurikumlarının səciyyəvi cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir.

**2) Məlumatların toplanması.** Bu proses test yoxlamalarının keçirilməsi, şagird tapşırıqlarının yoxlanılması, sinifdə müsahibələrin aparılması, layihələrin yerinə yetirilməsi, şagirdlərin və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər məktəb sənədlərinin təhlili kimi üsullarla həyata keçirilir.

**3) Qiymətləndirmə nəticələri.** Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, təhsilin keyfiyyətinin dəyərləndirilməsində istifadə olunur, eyni zamanda geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

**4) Qiymətləndirmə standartları.** Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətləndirmə prosesinin qanuniliyinə zəmanət verir.

## ƏDƏBİYYAT

1. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında), Müəllimlər üçün vəsait. Bakı: Adiloğlu, 2005.
2. Kazımov N. M ., Həşimov Ə.Ş. Pedaqogika. Bakı: Maarif , 1996.
3. Cabbarov R. H., Təhsil müəssisələrinin idarə edilməsində metodik xidmətin təşkili və planlaşdırılması. Bakı, 2005.

## СОВРЕМЕННЫЙ ПОДХОД В ОЦЕНИВАНИИ МЛАДШИХ ШКОЛЬНИКОВ В ОБУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА

**Динара Асадова,**
*научный сотрудник ИПОАР*
E-mail:sulami44@rambler.ru
**Инара Джафарова**,
*старший*
*научный сотрудник ИПОАР*
E-mail:sulami44@rambler.ru

***Açar sözlər:*** *ibtidai təhsil, qiymətləndirmə, metod və vasitələr*
***Ключевые слова:*** *начальное образование, оценивание, методы и средства*
***Keywords**: primary education, assessment, methods and tools*

Научить общению на иностранном языке - достигается через использование коммуникативных методов, приёмов, технологий и подходов, через разнообразные формы работы с учащимися.

Учить детей оцениванию необходимо с начальной школы, когда процесс оценивания является одним из эффективных факторов успешного обучения. Оценивание важно для всех участников учебного процесса:

- родители хотят видеть успехи и неудачи ребенка;
- учитель желает видеть прогресс ученика;
- ученику необходимо чувствовать свою успешность;
- руководство школы хочет знать результат обучения.

Система оценивания в начальной школе считается одной из самых важных, но в то же время и самых проблематичных областей. Конечно же учителя имеют некоторые рекомендации в отношении оценивания младших школьников, но этот процесс в корне отличается от того, что мы делаем в средней школе. Система оценивания призвана помочь ребенку обрести уверенность в себе и здоровую самокритичность или другими словами здоровую самооценку.

Учителя оценивают своих учеников не полностью объективно, не как роботы, а как справедливые и доброжелательные люди, учитывающие индивидуальные особенности ребенка (внимание, память, мышление, воображение, восприятие, речь и.т.д

Младшие школьники хотят быть положительно оцененными на каждом уроке, им необходимо видеть собственный прогресс и просто получить похвалу учителя.

### ЛИТЕРАТУРА

1. Предметные куррикулумы для I-IV классов общеобразовательных школ. Баку: Образование, 2008.
2. Концепция оценивания в системе общего образования Азербайджанской Республики, Баку, 2009.
3. Амонашвили Ш.А. Здравствуйте, дети! Москва, Просвещение, 1986.

## TEXNOLOGİYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN BİLİKLƏRİNİN TESTLƏ YOXLANILMASI

**Arzu Mehrəliyeva,**
*Bakı şəhəri Xətai rayonu 221 nömrəli*
*tam orta məktəbin ibtidai sinif müəllimi*
E-mail: arzu.mehralıyeva@mail.ru

***Açar sözlər:*** *təlim nəticəsi, qiymətləndirmə, nailiyyət, qiymətləndirmə standartı, keyfiyyət, qiymətləndirmə üsulu, qiymətləndirmə vasitəsi, test.*

***Ключевые слова:*** *результат обучения, оценивание, достижение, стандарты оценивания, качество, средство оценивания, тест.*

***Key words:*** *education result, assessment, achievement, assessment standard, quality, assessment method, assessment means, test.*

Biliklərin yoxlanılması problemi həmişə aktual məsələ olmuşdur. Ümumtəhsil proqramı kurikulumda təhsilin məzmununun icbari minimumu və şagirdlərin hazırlıq səviyyəsinə tələbatlarla yanaşı, müasir şəraitdə standart tələbatların şagirdlər tərəfindən yerinə yetirilməsi texnologiyasının yoxlanılması və qiymətləndirilməsinə yanaşmalar əsas tutulur. Məktəb təcrübəsi onu deməyə əsas verir ki, əgər dərin biliklər və bacarıqlar əldə etmək istəyirsənsə, ciddi şəkildə nəzarət formalarını əvvəlcədən düşünməli, onları sistematik həyata keçirməlisən. Lakin nəzarəti yalnız düzgün təşkil etmək əsas şərt deyil. Onu hər bir dərsdə sistematik olaraq həyata keçirtmək lazımdır. Şagird nailiyyətlərinin yoxlanılmasının müxtəlif üsul və vasitələri vardır. Təlim prosesində şagird nailiyyətlərinin qiymətləndirilməsinin, üsul və vasitələrin seçilməsi qiymətləndirmənin məqsədlərinə müvafiq müəyyən olunur. Belə ki, təlim prosesində istifadə olunan üsullar içərisində geniş yayılanı testdir.

Testin ən vacib elementi test materialıdır (testlər). Belə ki, son illər bilik və bacarıqların testi məktəb məzunları, abituriyentlər, tələbələr, mütəxəssislərin hazırlıq səviyyəsinin diaqnostikası aləti kimi ictimai-iqtisadi həyatin müxtəlif sahələrində öz geniş tətbiqini tapmışdır. Hətta "test mədəniyyəti" kimi anlayış da meydana çıxmışdır ki, onu da yalnız pedaqoji mədəniyyət kimi deyil, ümumilikdə cəmiyyətin mədəniyyəti kimi baxmaq lazımdır. Ona görə də test mədəniyyəti vərdişlərini şagirdlərə aşılamaq, bu prosesi adiləşdirmək lazımdır ki, qorxu doğurmasın, gələcək özünükamilləşdirməyə stimul yaratsın.

Əsrdən artıq tarixə malik test üsulu dünyanın bir çox ölkələrində etibarı ilə, obyektiv və qənaətli metod kimi tanınıb. Bu populyarlıq prosedurun özünün və burada istifadə olunan vasitələrin (portativ) sadəliyi, zamanı məsrəfinin minimum olması (ekspress-üsul), nəticələrin, sınağın tez əldə olunması, riyazi analiz və qiymətlərin kəmiyyət analizinin rahatlığı standartlardan kənarlaşma səviyyəsinin aşağı olduğu normativ qiymət şkalasının olması, geniş kütləvi tədqiqatın mümkünlüyü ilə əlaqədardır.

Lakin, qeyd etmək lazımdır ki, test o zaman yaradılmalıdır ki ,o, şagirdin biliyini digər metodların yol verə bildiyindən daha konkret formada müəyyənləşdirə bilsin. Əgər yoxlamaya həqiqətən ehtiyac varsa, əgər testlərin tərtibi didaktik tapşırıqlara uyğun aparılarsa, onda testdən istifadə edilə bilər.

**Nümunə:**

Əl tikiş iynələri ilə hansı tikişlər aparılır? Sadalayın (Qs2)

**a)** Tikmə və toxuma
**b)** Tikmə və kökləmə
**c)** Tikmə və sökmə

Nümunədən göründüyü kimi şagirdlərə bir neçə suallara 2-3 cavab variantları təqdim olunur ki, onlardan bu cavabların içərisindən düzgün olanını seçməlidirlər. Bu qiymətləndirmə üsulunun da öz üstünlükləri var. Təsadüfü deyil ki, qiymətləndirmənin bu üsulu son illər bütün təhsil sistemində daha çox yayılmışdır. Şagirdlər cavabın formalaşdırılması və yazılmasına vaxt itirmirlər. Bu da eyni vaxt ərzində daha çox tədris materialını əhatə etməyə imkan yaradır. Şagirdlərin təlim nailiyyətlərinin yazılı üsulla qiymətləndirilməsi ilə yanaşı, onların tanıma ilə bağlı bacarıqlarını (alət, material, hadisə və situasiya, uyğun texnologiya) da qiymətləndirmək imkanı ortaya çıxır.

Bütün məlum üstünlükləri ilə yanaşı test tapşırıqlarının çatışmazlıqları da var. Bunlardan ən əsası testlərin tərtib olunması zamanı suallara uyğun cavab variantlarının formalaşdırılması çətinliyidir. Test variantlarının tərtibi prosesi həmişə təcrübə tələb edir. Ona görə də testi şagird nailiyyətlərini qiymətləndirməkdən əvvəl onları kiçik bir qrupa həll etmək üçün təqdim etmək lazımdır. Bu üsul testin tərtibatı zamanı buraxılmış səhvləri effektiv şəkildə üzə çıxarır. Bu cür tədbir həm də müəllim cavabı bir mənalı qəbul etsə də, uşaqlar üçün əsaslı suallar meydana çıxa bilər. Əgər cavablar müəllim tərəfindən kifayət qədər məntiqli seçilməsə, şagirdlərin çoxu düzgün variantı bilik səviyyəsinin çoxluğundan deyil, adi məntiqi düşüncə və həyat təcrübəsindən irəli gələrək çox asanlıqla tapa bilirlər. Ona görə də müəllimin testi hazırlaması nəzəri hazırlıq olmadan çox çətinliklə mümkün olur, bəzən isə heç mümkün olmur. Digər məsələ şagirdlərdə əzbərçiliyi aradan qaldıra bilmək üçün 8-10 suallı, 4-5 seçmə cavabları

olan (bunlardan yalnız biri doğrudur) testlər, optimaldırlar (bir neçə cavabın birləşməsi də mümkündür). Bu zaman tam cavab düzgün sayılır. Əgər bir səhv belə buraxılmış olsa, buda doğru sayılmır. Düzgün cavab variantlarının dörddən az olması məsləhət görülmür. Belə ki, bu halda təsadüfən düz cavabı seçmək optimalı artır.

Test tapşırıqları şagirdlərin məhdud bilik sahəsini qiymətləndirməyə imkan verir. Əmək alətlərinin konkret hadisələrin üzə çıxarılması, praktik bacarıqlarla bağlı biliklərin aşkarlanması imkanını bir kənara qoyur və s. Yerinə yetirilmiş testlərin nəticələrinə görə müəllim şagirdlərin kombinə edilmiş tapşırıqları yerinə yetirə bilmək bacarığını müəyyən edə bilmir, həm də şagirdin məntiqi şifahi cavab qurma qabiliyyəti görünmür.

Bu metoddan istifadə müəllimə şagirdlərin bu və ya digər materialı mənimsəmələri haqqında məlumatı, onlarla söhbətə və ya yazılı işləri yoxlamağa vaxt itirmədən əldə etməyə imkan verir. Təlim nailiyyətinin sistematik qiymətləndirilməsi yalnız tədris materialının möhkəm mənimsənilməsinə yox, həm də təhsilə şüurlu münasibət aşılayır, səliqəlilik, əməksevərlik, məqsədyönlülük tərbiyə edir, diqqəti aktivləşdirir, analiz imkanını inkişaf etdirir. Test yoxlaması zamanı bütün şagirdlər üçün eyni şərait təmin olunur yəni, qiymətləndirmənin obyektivliyi yüksəlir. Bu metod tədris işinə müxtəliflik gətirir, fənnə marağı artırır. Hər bir kəs üçün tapşırıq variantları fərdidir, bir neçə psixoloji qeyri-sabit uşaqlar üçün çox vacibdir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, № 5
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. Ş. Amonaşvili. Humanist pedaqogikanın əsasları. Qiymətləndirmə haqqında. M.: Amrita-Rus, 2012.
4. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurikulum, 2009, № 2


## "HƏYAT BİLGİSİ" FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ONUN NƏTİCƏLƏRİNİN TƏHLİLİ


**Xuraman Nağızadə,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ADPU*
E-mail: x.y.nagizade@mail.ru



***Açar sözlər:*** *qiymətləndirmə, təhlil, qənaət, qərar, təlim prosesi, istiqamət, peşəkarlıq.*
***Ключевые слова:*** *оценивание, анализ, заключение, решение, процесс обучения, направление, профессионализм*
***Keywords:*** *assessment, analysis, opinion, decision, the learning process, the direction professionalism*


Dünyada baş verən surətli inkişaf və qloballaşma bizim də həyatımızdan təsirsiz keçmir və ona uyğunlaşmağı tələb edir. Lakin bu vəziyyət milli adət-ənənələrimizdən uzaqlaşmaq kimi dəyərləndirilməməlidir. Əksinə, bəşəri mədəniyyətə yiyələnməklə, yeni elmlərə sahib olmaqla öz milli mədəniyyətimizi, mənəvi dəyərlərimizi zənginləşdirmək və onu qorumaq kimi qəbul olunmalıdır. Məhz ona görə də bu günün məktəbi və orada tədris olunacaq hər bir fənnin məzmunu məhz yüksək intellektə, mənəvi dəyərlərə sahib insanın - əsil vətəndaşın yetişməsinə xidmət etmək amalı daşıyır. "İndi məktəbin əsas məqsədi şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaqla əqli, əxlaqi, estetik və fiziki inkişafına kömək göstərmək və gündəlik həyatda rastlaşdıqları problemləri həll etmək üçün zəruri bacarıqlar formalaşdırmaqdadır. Çünki yaşadığımız yüksək texnologiyalar əsrində biliklər sürətlə köhnəlir, bacarıqlar isə əhəmiyyətini itirir." [1, 142].

Bunları nəzərə alaraq Milli Kurikulum çərçivəsində müxtəlif qabiliyyət və bacarıqları inkişaf etdirə biləcək və inteqrativ fənnin yaradılmasına olan ehtiyacı təmin edə biləcək "Həyat bilgisi" fənni və onun məzmunu hazırlanmışdır. Dörd məzmun xətti "Təbiət və biz", "Fərd və cəmiyyət", "Mənəviyyat",

“Sağlamlıq və təhlükəsizlik” fənn üçün nəzərdə tutulmuş ümumi təlim nəticələrinə nail olmağa və fənni məzmunu və məqsədi baxımdan sistemləşdirilməyə xidmət edir. Ayrı-ayrı məzmun xətti altında əksini tapmış əsas və alt standartların tələblərinə ilbəil cavab verən şagirdlər hər il çox müxtəlif istiqamətli bilik və bacarıqların sistemli və ardıcıl şəkildə inkişaf etdirilməsinə nail olurlar. Mütəxəssislər belə hesab edirlər ki, “bilik, bacarıq və vərdişlər müəyyən ardıcıllıqla formalaşdırılmalı, bunun üçün tədris materialının hər bir elementi, məntiqi cəhətdən başqaları ilə elə əlaqələndirilməlidir ki, sonda mənimsəniləcək material əsaslanan və yeni biliklərin formalaşmasını təmin etməklə, öyrənilən təlim materialının mənimsənilməsində varislik prinsipi gözlənilsin. Belə yanaşma təlimin həm inkişafetdirici, nəticəyönlü və tərbiyəedici funksiyalarını özündə birləşdirir, həm də təlimin anlaşıqlılıq, şüurluluq və şagirdyönlülük prinsiplərinin yerinə yetirilməsini təmin edir.” [2,79]

Fənnin məzmununu təşkil edən standartların tələbinə təlim prosesinin ayrı-ayrı mərhələlərində şagirdlərin cavab vermə səviyyəsini müəyyənləşdirmək üçün məktəbdaxili qiymətləndirmənin müxtəlif növlərindən istifadə olunur. Belə ki, məlum olduğu kimi, diaqnostik qiymətləndirmə müəllimə şagirdin inkişafının mövcud səviyyəsini müəyyənləşdirməyə imkan verir. “Diaqnostik qiymətləndirmənin aparılması müəllimə təlim strategiyalarının müəyyən edilməsində (təlim materiallarının illik və carı planlaşmasının aparılması, dərs formalarının, metod və üsullarının seçilməsi, fərdin yanaşma imkanlarının dəyərləndirilməsi və s.) yardımçı olur.” [3, 319.] Mütəxəssislərin fikrincə, aparılan diaqnostik qiymətləndirmələr müxtəlif məqsəd daşıya bilər. Belə ki, bu qiymətləndirmə şagirdlərin sadəcə konkret fənn üzrə standartın tələblərinə cavab verməsinin ilkin səviyyəsinin araşdırılması deyil, eyni zamanda onların digər parametrlər üzrə (sosial-emosional vəziyyəti, dərketmə qabiliyyəti, maraqları, fiziki inkişafı və s.) mövcud imkanlarının müəyyənləşdirilməsidir. Belə ki, əgər məktəb psixoloqunun dəstəyi ilə aparılan diaqnostik araşdırma konkret bir sinifdə şagirdlərin böyük əksəriyyətinin təbiət-naturalistik dərketmə qabiliyyətinə malik olduqları barədə qənaətə gəlməyə əsas verirsə, o zaman bu sinifdə “Həyat bilgisi” fənninin tədrisində müəllim qeyri-standart dərslərə üstünlük verməlidir. Bu şəkildə təlimin və şagirdlərə fərdi yanaşmanın təşkili zamanı diaqnostik qiymətləndirmənin nəticələrindən yararlanması istiqamətində onlarla nümunə göstərmək mümkündür.

Formativ qiymətləndirmə bütün təlim prosesi boyu aparılan qiymətləndirmədir və özünəməxsus təhlil imkanlarına malikdir. Bu qiymətləndirməni aparan müəllim əslində şagirdinin müəyyən olunmuş nəticələrə uyğun bilik və bacarıqlarının formalaşma səviyyəsini qiymətləndirir. Lakin bu şagirdin sadəcə hazırlanmış rübliklərin ayrı-ayrı səviyyəsinə uyğun dəyərləndirilməsi ilə yekunlaşmamalıdır. Əksinə, aparılan qiymətləndirmə müəllim üçün şagirdin potensial imkanlarından siqnal olduğu qədər, nümayiş etdirə bilmədiyi keyfiyyətin səbəbi olaraq mümkün problemlərdən də ciddi məlumat verir. Əgər birinci sinif şagirdi “Həyat bilgisi” fənni üzrə “3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.” Kimi bir standartın tələbinə uyğun keyfiyyət nümayiş etdirə bilmirsə və bu eyni standartın reallaşması zamanı dəfələrlə təkrar olunursa, müəllim həmin şagirdlə özünün və yoldaşlarının münasibətini, onun maraqlarını, dərketmə qabiliyyətini və imkanlarını təhlil etməklə yanaşı ailə amilini da unutmamalıdır. Çünki bu standartın məzmununda əksini tapan məsələ sadəcə təhsillə deyil, həm də tərbiyə ilə bağlıdır. Ailənin ilk tərbiyəsi institutu olduğunu nəzərə alaraq bu standartın tələblərinə şagirdi cavabverən etmək üçün müəllim ailə və onun tərbiyə etmə üsulları ilə də maraqlanmalıdır. Əgər problem məhz burdan başlayırsa valideynlərlə birgə həmin problemin həlli yolları üçün qərarlar verməlidir, beləliklə keyfiyyətin təmin olunmasına xidmət etməlidir.

Qeyd olunanlar formativ qiymətləndirmənin nəticələrinin təhlili etməklə şagird nailiyyətinin izlənməsi və mövcud problemləri aradan qaldırmaqla keyfiyyətin təmin edilməsi istiqamətində müəllimin verə biləcəyi qərarlarla bağlı bir nümunədir. “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”nda da qeyd olunur : “Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə) sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir” (4, 9).

Qəbul olunmuş müvafiq dövlət sənədlərində də qeyd edildiyi kimi, summativ qiymətləndirmə şagirdlərin məzmun standartlarına nail olma səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır. İstənilən fənn üçün bu qiymətləndirmə altı həftədən gec olmayaraq keçirilməlidir. Bu gün müəllimlərə summativ qiymətləndirmənin keçirilmə mexanizmi Azərbaycan Respublikası Təhsil Nazirinin

2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat" da ətraflı təqdim edilmişdir. İbtidai siniflərdə digər fənlərlə yanaşı "Həyat bilgisi" fənninin də məzmun standartların reallaşma səviyyəsini müəyyənləşdirilmək üçün müəllim kiçik və məktəb rəhbərliyi isə böyük summativ qiymətləndirmələrin keçirilməsini təmin edirlər. Bu qiymətləndirmənin nəticələri isə müəllim üçün sinif səviyyəsində, məktəb rəhbərliyi üçün isə məktəb səviyyəsində təhlillərə əsas verir. Belə ki:




[3, 327]

Sinif səviyyəsində təhlillər isə bu sxemdə göründüyü istiqamətdə aparılır:

[3.s.328]



Hər iki səviyyədə və beş istiqamətdə aparılan bu cür təhlillər müxtəlif qənaətlərə gəlməyə və qərarlar qəbul etməyə imkan verir. Məktəb rəhbərliyi ayrı-ayrı siniflərdə konkret bir fənn üzrə standartların reallaşma səviyyəsini müqayisə edərkən burada sadəcə o siniflərin şagirdlərin potensialını və əldə etdiyi nailiyyətləri müşahidə etmir, eyni zamanda o fənni tədris edən müəllimlərin peşəkarlıq səviyyəsi də özünün müqayisəli təhlilini tapır. Bu bazadan məktəb rəhbəri müəllimin hansı məslə ilə bağlı dövrü və ya qısamüddətli ixtisasartırma təhsilinə ehtiyacı olduğunu müəyyənləşdirir və onu istiqamətləndirməsinə dəstək olur.

Fənn müəllimi isə keçirdiyi summativ qiymətləndirmə nəticəsində nəinki ayrı-ayrı şagirdlərinin konkret ehtiyaclarını müəyyənləşdirir, o həm də ümumi sinif üçün hər hansı bir standartın aşağı faizlə reallaşma səviyyəsini müəyyən edərsə, həmin fənn üçün hazırladığı illik planlaşmasında məqsədli dəyişikliklər edir və bu standartın dəfələrlə reallaşmasına şərait yaratmağa çalışır.

Qeyd olunanlar söyləməyə əsas verir ki, ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin bütün növləri sadəcə şagird nailiyyətinin dəyərləndirməsinə xidmət etmir. Bu qiymətləndirmələr həqiqətən ciddi monitorinq yükü daşıyır və özünün təhlilini tələb edir. Beləliklə, deyə bilərik ki, istənilən qiymətləndirmə növü necə müəllim, eləcə də qiymətləndirmənin nəticələri ilə maraqlı bütün tərəflər üçün ciddi tədqiqat mənbəyidir.

## ƏDƏBİYYAT


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
3. Suleymanova A. Təhsilin əsasları. Bakı: Təhsil, 2014.
4. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası». Azərbaycan Respublikası Nazirlər kabinetinin 13 yanvar 2009-cu il tarixli, 9 nömrəli qərarı.


# COĞRAFİYA FƏNNİNİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏ


**Elnarə Məhərrəmova,**
*Xocəvənd rayonu*
*2 nömrəli tam orta məktəbin coğrafiya müəllimi*
E-mail:sevil_behremova@mail.ru



***Açar sözlər:*** *qiymətləndirmə, nailiyyət, keyfiyyət, vasitə, üsul, obyektiv qiymət, summativ*

***Ключевые слова:*** *оценивание, достижение, качество, средства, метод, объективная оценка, сумматив*

***Key words:*** *assessment, achievement, quality, means, method, an objectiv achievement, summative*


Coğrafiya fənninin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, coğrafi biliklərə dərindən yiyələnən vətəndaş tərbiyə etməyə xidmət edir. Ümumtəhsil məktəblərində istifadə edilən Coğrafiya fənn kurikulumu konseptual sənəddir. Zəngin coğrafi quruluşa malik olan Azərbaycanın, eləcədə dünyanın coğrafiyasını öyrənib araşdırmağa imkan verən coğrafiya fənnin tədrisi şagirdlərdə dünya görüşü formalaşdırmağa imkan yaradır. Coğrafi proseslərlə yaxından tanış olmaq, dünyanın iqlim qurşağına bələd olmaq, materikləri öyrənib, okeanlar haqqında qənaətə gələrək onlara münasibət bildirmək, dövrün ekoloji problemlərini təhlil etmək və bundan çıxış yollarını tapmaq gələcəyə yol aşmaq üçün çox yaxşı bir vasitədir.

Coğrafi biliklərin ardıcıllıqla, məntiqə uyğun, sadədən mürəkkəbə prinsipinə uyğun müəyyən olunması ilə yanaşı məzmun standartlarında nəzərə alınması əsas istiqamətlərdən biridir. Coğrafiyaya dair məzmun standartları müəyyənləşdirilərkən şagirdlərin öyrənəcəkləri coğrafi biliklərin, eləcə də bu fənn üzrə konkret təlim fəaliyyətlərinin əhatə olunması diqqət mərkəzində saxlanılmışdır. Bu baxımdan şagirdin bu istiqamətdə fəaliyyətini təşkil etmək, onların bilik və bacarıqlarını məqsədə uyğun

qiymətləndirmək zəruri haldır. Coğrafiyaya dair deklarativ biliklərlə yanaşı, şagirdlərə prosedural və kontekstual biliklərin verilməsi və onun nə dərəcədə reallaşdırılmasını ölçmək şagird fəaliyyətinin izlənilməsi zəruri haldır. Coğrafiya fənn kurikulumunun məzmun standartlarına uyğun olaraq şagirdlərin praktik fəaliyyətə yönəldilməsi, xəritə üzrə işə, tədqiqatçılığa, qrafik və cədvəllər hazırlamağa istiqamətləndirilməsi, onların yaradıcı işə cəlb olunması üçün imkan yaradılmalıdır.

Şagird fəaliyyətini isə qiymətləndirmək isə obyektivlik tələb edir. Ölkəmizdə aparılan yeni məktəbdaxili qiymətləndirmə olan summativ qiymətləndirmə əsasında standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə il ərzində bəhs və ya bölmələrin, həm də tədris ilinin sonunda qiymətləndirmə standartlarına əsasən həyata keçirilir. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, müxtəlif üsul və vasitələrdən də istifadə olunmalıdır. Bu üsullara yoxlama yazı işləri, layihə, şifahi sorğu, tapşırıqvermə və s. aiddir.

Məsələn, Coğrafiya fənn üzrə summativ qiymətləndirmə apararkən şifahi təqdimat üsulundan istifadə edərkən şifahi təqdim etmə bacarıqlarını ölçmək üçün müşahidə vərəqlərindən istifadə etmək məqsədə müvafiq və qiymətləndirmənin obyektiv aparılmasına şərait yaratmış olar.

Standartın tələbinə uyğun həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir.

Şagird nailiyyətlərinin izlənilməsi və onun inkişafına səmərəli yollarla nail olmaqdan ötrü qiymətləndirmə əsas vasitədir. Şagirdin məzmunda əldə etdiyi nəticələrin dəyərləndirilməsidir. Ümumiyyətlə qiymətləndirmə bilik və bacarıqlarının necə və hansı səviyyədə əldə edilməsinə xidmət edir. Qiymətləndirmə vasitələri hazırlayarkən qiymətləndirmə standartlarının ölçüləri nəzərə alınmaqla həyata keçirilməlidir. Standartlara uyğun vasitələrin hazırlanmasında məqsəd şagird nailiyyətlərinin düzgün ölçülməsi, əldə edilmiş bilik və bacarıqların standarta uyğun qiymətləndirilməsidir.

Ənənəvi qiymətləndirmədən fərqli olaraq nailiyyətlərin qiymətləndirilməsi həyata keçirilərkən şagirdlərin bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi ilə yanaşı, onların şəxsi keyfiyyətlərinin, o cümlədən biliyə yiyələnmə həvəsi, liderlik qabiliyyəti, yaradıcılıq keyfiyyətləri, mənəvi keyfiyyətlərinin ölçülməsi də nəzərdə tutulur.

Summativ qiymətləndirmə üçün seçilmiş sual və tapşırıqlar müxtəlif məzmunda olduğu kim, formaca da rəngarəng olmalıdır. Müxtəlif sual tiplərinin işlənməsi imtahan prosesini və nəticələri daha uğurlu etmək üçün vacibdi. Coğrafiya fənninin tədrisində ən çox çoxseçimli, açıq-qapalı, uzlaşdırma, müqayisəetmə sual tiplərindən istifadə edilə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurrikulum, 2009, № 2
2. Bəylərov E. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalarına dair // Kurikulum, 2011, № 2
3. Cavadov İ. Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar // Azərbaycan məktəbi, 2014, № 4
4. Əliyeva K. Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları // Azərbaycan məktəbi, 2011, № 5
5. Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М.: Педагогика, 1984.


# KİMYA DƏRSLƏRİNDƏ MÜASİR QİYMƏTLƏNDİRMƏ


**Günay Cəlilova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail:chemist.gunay@mail.ru



***Açar sözlər:*** *təhsil, qiymətləndirmə, summativ, formativ, üsul, vasitə, səviyyə*
***Keywords:*** *education, evaluation, formative, summative, method, means, level*
***Ключевые слова:*** *образование, оценка,форматив, сумматив, метод, средство, уровень*

Qiymətləndirmə təhsilalanların (şagirdlərin, tələbələrin və s.) nəyi mənimsədiklərini və öyrəndiklərini, onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır

Məktəbdaxili qiymətləndirmənin aparılmasında əhəmiyyətli sayılan summativ (yekun) qiymətləndirmə şagirdin bilik və bacarığının yekun səviyyəsini ölçməyə imkan verir[1]. Summativ qiymətləndirmə – təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Bu məqsədlə şagirdlərin öz cəhdlərini ve fəaliyyətlərini idarə etmələri üçün summativ qiymətləndirmənin informasiyasından istifadə oluna bilər. Summativ qiymətləndirmə bilavasitə şagirdlərin qiymətləndirilməsinə əsaslanır və burada diqqət proqramın nəticəsi üzərində cəmlənir. Summativ qiymətləndirmə ABŞ-ın təhsil proqramlarında geniş şəkildə öyrədilir [2]. Bu qiymətləndirmə xüsusi bir zamanda şagirdlərin inkişafını yekunlaşdıran formativ qiymətləndirmənin əksidir.

Summativ qiymətləndirmənin aparılması zamanı əksər müəllimlərin istifadəsinə üstünlük verdikləri əsas üsul test vasitə isə test tapşırıqlarıdır. Test formasında summativ qiymətləndirmə daha obyektiv xarakter daşıyır. Test bütün imtahan verənlərin eyni sualları yaxud ümumi sual bankından seçilmiş sualları eyni yolla cavablandırmalarını tələb edir və ardıcıl qaydada qiymətləndirilir ki, bu da şagirdlərin yaxud şagird qruplarının nisbi fəaliyyətini müqayisə etməyə imkan verir. Lakin summativ qiymətləndirmənin aparılması üçün tətbiq olunan vasitələr imkan daxilində qiymətləndirmə praktikasında mövcud olan yoxlamalar və testlərlə məhdudlaşmamalıdır.

Lakin biz həm summativ həm də formativ qiymətləndirmənin aparılması zamanı istifadə oluna biləcək üsullara nəzər yetirsək orada "Tapşırıqvermə" üsulunun olduğunu görərik. Kimya müəllimləri bu zaman bir şeyə diqqət yetirməlidirlər. Hər iki qiymətləndirmə növündə verilmiş üsullar eyni ola bilər lakin, bu üsulların tətbiqi zamanı istifadəsi nəzərdə tutulmuş vasitələr fərqlənir. Məsələn, formativ qiymətləndirmənin aparılması zamanı tapşırıqvermə üsulunun tətbiqini ancaq vasitə kimi müxtəlif tipli çalışmalardan istifadə etməklə həyata keçirmək olar. Lakin summativ qiymətləndirmənin aparılması zamanı nəyinki çalışmalardan, həmçinin müxtəlif tapşırıq və laboratoriya işlərindən istifadə etmək olar. Buradan iki problemortaya çıxır.Birinci problem: nəyə görə formativ qiymətləndirməni aparan zaman şagirdlərin praktik bacarıqlarının qiymətləndirilməsi məqsədilə vasitə kimi laboratoriya işlərindən istifadə olunmur ancaq summativ qiymətləndirməni aparan zaman isə istifadə olunur. Summativ qiymətləndirmə şagirdlərin inkişafını yekunlaşdıran həmçinin formativ qiymətləndirmənin əksidir.Hətta Skriven bildirir ki, əgər bütün qiymətləndirmə texnikaları summativ olursa, yalnız bəziləri formativdir. Belə olduğu üçün şagirdlərin praktik bacarıqları həm də cari (gündəlik) müəllim tərəfindən qiymətləndirilməlidir.

İkinci problem isə müəllimlərin summativ qiymətləndirməni aparan zamanı şagirdlərin praktik bilik və bacarıqlarını qiymətləndirməsidir. Bunun üçün summativ qiymətləndirmənin aparılmasında istifadəsi şagirdlərin marağına, onların məntiqi təfəkkürünün inkişafına, praktik bilik və bacarıqlarının formalaşmasına imkan verən əsas üsullardan biri olan tapşırıqvermə üsulundan və bu üsulun tətbiqi zamanı istifadəsi mümkün olan vasitə kimi isə laboratoriya işləri, müxtəlif tipli tapşırıq və çalışmalardan istifadə edə bilər. Onların laboratoriya təcrübələrinə aid təfəkkürə əsaslanan biliklərini yalnız bu üsul və vasitələrdən istifadə etməklə müəyyən etmək mümkündür. Lakin onların laboratoriya və praktik işlərə aid verilmiş təcrübələri aparmaq bacarığını, nə dərəcədə yerinə yetirə bildiklərini müəyyən etmək çətin olur. Bu problemi aradan qaldıra bilmək üçün müəllim bir neçə variantdan istifadə edə bilər.

Bunun üçün müəllim şagirdin laboratoriya və praktik işlərində nəzərdə tutulmuş hər mövzuya uyğun verilmiş hər hansı bir təcrübəni apara bilmək bacarığını qiymətləndirə bilmək üçün o əvvəlcədən iş vərəqləri hazırlayır və bu iş vərəqində verilmiş tapşırıq və çalışmalardan başqa laboratoriya tapşırığı verə bilər.

Müəllim şagirdlərin laboratoriya işlərini icra bacarıqlarını qiymətləndirə bilmək üçün aşağıdakı formada müşahidə vərəqləri hazırlaya bilər:

**Cədvəl 1**

| **Laboratoriya işlərini icra bacarığının qiymətləndirilməsi cədvəli** | | | |
|---|---|---|---|
| Şagirdin adı, soyadı, atasının adı: | | | |
| Meyarlar |  |  |  |
| 1. Təlimatda verilənlərə düzgün əməl edir | | | |
| 2. Təhlükəsizlik texnikası qaydalarına diqqət edir. | | | |
| 3. Kimyəvi reaktivlərdən düzgün istifadə edir | | | |
| 4. Cihazları quraşdıra bilir | | | |
| 5. Sadə təcrübələri aparır | | | |
| Müəllimin rəyi: ________________________________________________________________ | | | |

Müşahidə vərəqində göstərilmiş nəticələrin qiymətləndirməsini isə müəllim meyarların sayına uyğun olaraq qiymətləndirə bilər. Məsələn. əgər şagird 4 meyarda qənaətbəxş nəticə göstərib birində isə kafi nəticə bu halda həmin şagirdin qiyməti 4 olacaq.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurikulum, 2009, № 2
2. Əliyeva .F., Məmmədova. Ü. Müasir təlim texnologiyaları. Bakı, 2013.


## FORMATİV QİYMƏTLƏNDİRMƏNİN ÜSUL VƏ VASİTƏLƏRİ


**Zəhra Bağırova,**
*ARTPİ-nin əməkdaşı*
E-mail: zehra.bagirova.1989@mail.ru



***Açar sözlər:*** *formativ qiymətləndirmə, meyar,müşahidə, eksperimental xarakterli tapşırıqlar*
***Ключевые слова:*** *формативное оценивание, критерии, наблюдение, задания экспериментального характера*
***Key words:*** *formative assessment, observation,criterion, the experimental nature of the tasks*


Hazırda ölkəmizdə aparılan təhsil islahatı şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün standartların tələblərinə uyğun yeni üsul və vasitələr seçilməsini aktuallaşdırır. Düzgün qiymətləndirmə sistemi təlim məqsədlərinə çatmaq üçün zəruri vasitələrdən biridir. Müəllimin işi şagirdlərin təlim məqsədlərinə çatmaq üçün fəaliyyətlərini istiqamətləndirməkdir. Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi məktəbdə aparılan qiymətləndirmənin bir hissəsidir.

Qiymətləndirmənin növləri içərisində formativ qiymətləndirmə daha böyük əhəmiyyət kəsb edir. Formativ qiymətləndirmənin həyata keçirilməsi şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almağa imkan verir, onların idraki maraqlarını artırır və fəaliyyətlərini stimullaşdırır. Formativ qiymətləndirmə qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqidir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. Formativ qiymətləndirmənin nəticələri rəqəmlərlə deyil, sözlə ifadə olunur və nəticədə şagird qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Məktəbdaxili qiymətləndirmə qaydalarına əsasən formativ qiymətləndirmə

meyarları 3-5 səviyyədə müəyyənləşdirilə bilər. Fizika fənni üzrə formativ qiymətləndirmə apararkən formativ qiymətləndirmənin müxtəlif üsul və vasitələrdən istifadə oluna bilər:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyət vərəqi |
| Tapşırıqvermə | Çalışmalar, məsələlər |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Şagird irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Məlum bir həqiqətdir ki, ümumtəhsil məktəblərində tədris edilən fizika fənni digər fənlərlə müqayisədə şagirdlərin həm empirik təfəkkürünü, həm də nəzəri təfəkkürünü inkişaf etdirmək və mövcud olanları formalaşdırmaq üçün daha geniş imkanlara malikdir. Obyekt və hadisələr haqqında empirik biliklər duyğu orqanlarının köməyi ilə qazanılır və anlayışlarla ifadə olunur (deklorativ biliklər). Empirik təfəkkür müşahidə, eksperiment, müqayisə, təsvir etmə, sistemləşdirmə kimi metodlara söykənir və bu metodların vasitəsilə qazanılan həyatı bacarıqları inkişaf etdirir, təkmilləşdirir. Nəzəri təfəkkür isə empirik təfəkkürdən fərqli olaraq təhliletmə, ideallaşdırma, mücərrədləşdirmə, modelləşdirmə, nəticə çıxarmaq, analogiya – oxşarlıq metodlarına söykənir.

Eksperimental xarakterli qiymətləndirmə vasitəsinin köməyi ilə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar yoxlanılır. Eyni zamanda bu qiymətləndirmə vasitəsilə şagirdlər konseptual biliklər qazanır, müəyyən bacarıqlar əldə edir. Eksperimental məzmunlu qiymətləndirmə vasitələri şagirdlərdə nümayiş və laboratoriya təcrübələrinin aparılmasının alqoritmini də formalaşdırır.

Məktəbdaxili qiymətləndirmənin nəticələrinin təhlili göstərir ki, fizika fənninin tədrisi prosesimdə eksperimental xarakterli tapşırıqların sistematik şəkildə icra etdirilməməsi nəzəri fiziki təfəkkürün formalaşdırılmasını müəyyən qədər kölgədə qoyur. Belə olduğu halda şagirdlərin bilik, bacarıqlarının qiymətləndirilməsi zamanı alınan nəticələrdə formal ola bilər. Qiymətləndirmə vasitələrinin hazırlanmasında standartların tələbinə uyğun müşahidə, müqayisə, təsnifetmə, qruplaşdırma, nəticələri təhlil etmə kimi şəxsiyyətyönümlü bacarıqların yoxlanılmasının ön plana çəkilməsi vacib şərtdir.

Formativ qiymətləndirmə pedaqoji prosesin çox mühüm, vacib hissəsi olduğundan şagirdlərin müəyyən edilmiş meyarlara uyğun təlim materialının mənimsənilmə səviyyəsini və yaxud əksinə onların geri qalmasını, çətinliyini müəyyən etməyə imkan verir. Təlim prosesində xüsusi aktuallıq kəsb edən meyarlar əsasında həyata keçirilən formativ qiymətləndirmə tərbiyəedici funksiyaya paralel olaraq öyrədici funksiyanı daha yüksək səviyyədə reallaşdırır. Müəllim formativ qiymətləndirmə meyarları haqqında düşündükdə sinfin ümumi təlim bacarıqlarını, hər bir şagirdin bilik və bacarıqlarının səviyyəsini nəzərə almalıdır. Meyarlar əsasında qiymətləndirmənin aparılması təlim məqsədinə uyğun bilik, bacarıqların dərinləşməsinə, möhkəmlənməsinə, sistemləşdirilməsinə, ümumiləşdirilməsinə səbəb olduğunu yəqinləşdirir. Meyarlara uyğun qiymətləndirmənin düzgünlüyünün yəqinləşdirilməsi şagirdlərə oxu təlim materialının qısa müddətli müəllimin şərhinin anlaşılmasına və idraki marağın artmasına səbəb olur. Yəni təlim materialının cari qiymətləndirilməsi lazımi anlarda köhnə biliklərə söykəndiyinə görə şagirdlərin fikri fəaliyyətlərinin fəallaşdırılması təlimin öyrədici xarakterinin müvəffəqiyyətinə səbəb olur.

Formalaşdırılması nəzərdə tutulmuş bacarıqları qiymətləndirmək üçün müəyyən olunan qiymətləndirmə meyarlarının ətraf mühitdə baş verən fiziki hadisə və proseslərlə əlaqələndirilməsi

şagirdlərin marağının, yaradıcı təfəkkürünün artmasına səbəb olur. Nəticədə nəzərdə tutulmuş bacarıqların formalaşdırılmasına daha geniş imkan yaranır.

### ƏDƏBİYYAT


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurikulum, 2009, № 2
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013, № 5

***METODİKA: FƏNLƏRİN TƏDRİSİ***

# TƏHSİLİN YENİ MƏZMUNUNUN YARADILMASI PROBLEMİ

**Ənvər Abbasov,**
*ARTPİ-nin direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: abbasov_anver@mail.ru

***Açar sözlər:*** yeni təhsil məzmunu, keyfiyyət, bilik, bacarıq, vərdiş və məktəbin missiyası
***Key words:*** new concept of education, quality, knowledge, skills customs, mission of school.
***Ключевые слова:*** *новая концепция образования, качества, знания, навыки, обычаи, миссия школы*

Tarix boyu təhsilin məzmununun yaradılması həmişə öz aktuallığını saxlayıb. Məktəbin yaradılması zamanı nəyin öyrədilməsi həmişə düşüncə obyektinə çevrilib. Məktəb quruculuğu ilə məşğul olan insanlar istisnasız olaraq təhsil prosesində nəyin öyrədiləcəyini birinci plana çəkməklə onu müəyyənləşdirməyə səy göstəriblər. Bu təşəbbüslər, demək olar ki, nəticəli bir fəaliyyət olsa da, həmişə müzakirə və mübahisələrin meydanına çevrilib. Təbii subyektiv mübahisələrin meydanda olması müzakirələrə rəvac verib. Fikirlər şəxsi mövqelərdən səsləndirildiyindən daha çox qeyri-obyektiv xarakter daşıyıb. Lakin bütün bu təşəbbüslərin əsasında insanların təhsilə, onun zəruri bir cəmiyyət hadisəsi kimi qurulmasına olan münasibəti dayanıb.

Əslində vəziyyətin belə olması heç də təsadüfi xarakter daşımır. Təhsilin mühüm sosial bir hadisə kimi insanları əhatə etməsindən, onların ehtiyac və tələbatları əsasında qurulmasından irəli gəlib. Ona görə də bəşəriyyətin tarixi boyu cəmiyyətinə aparıcı qüvvələri olan böyük şəxsiyyətlərin düşüncələrində təhsilə cəmiyyətin atributu kimi baxılıb. Ondan istifadə olunmaqla cəmiyyəti inkişaf etdirməyin, dəyişdirməyin mümkünlüyü qeyd olunub. Ulu öndər Heydər Əliyev təhsil haqqında danışarkən onun əvəzolunmaz rolunu nəzərə almaqla belə qənaətə gəlib ki, “Təhsil millətin gələcəyidir.”

Doğrudan da, bu müddəada təhsilin əvəzsiz bir dəyər olmaqla cəmiyyətdəki rolu yüksək qiymətləndirilir. Həm də bu fenomenal təhsil hadisəsinin konseptual olaraq konstruktiv xarakteri aydın görünür.

“Təhsil məzmunu” və “yeni təhsil məzmunu” anlayışları bir-birlərində eyni elementləri daşımaqla həm də müxtəliflikləri ilə də aydın şəkildə diqqəti cəlb edir. Müasir zamanda “təhsil məzmunu” bilik, bacarıq, qabiliyyət və dəyərləri ehtiva etməklə daha modern xarakterə malikdir. Yəni ənənəvi bilik, bacarıq və vərdişlərin sistemindən ibarət olan təhsilin məzmunundan fərqli daha çox dəyərlərdən ibarət tətbiq fəaliyyətləri kimi anlaşılır. Müstəqil Azərbaycanın bugünkü təhsil fəaliyyətlərində təhsil məzmununa xüsusi diqqət yetirilir. Ona beş istiqamətdən biri kimi ayrıca yer ayrılır.

Ənənəvi yanaşmada təhsilin məzmunu anlamında çıxış edən bilik, bacarıq və vərdişlərin sistemi özündə daha çox bilikləri ehtiva etdiyindən fundamental bir yanaşma tələb edirdi. Təhsil alanların fəaliyyətlərindəki uğurlar onların biliklərinin həcmi ilə ölçülür. Hər hansı elm sahəsinə aid qayda, qanun və hadisələri bilmək, onları təfərrüatlı və genişliyi ilə şərh etmək fərqli irəliləyiş kimi qəbul edilirdi.

“Yeni təhsil məzumunu” anlayışında ifadə olunan “yeni məzmun” özünün çalarına görə daha geniş və humanitar bir xarakter daşıyır.

Birinci, “yeni təhsil məzmunu”nun daha geniş xarakter daşıması barədə. Təhsilin məzmunu ənənəvi olaraq bilik, bacarıq və vərdişləri əhatə etdiyindən həmişə tədris planı və proqramlarda, eləcə də dərslikdə əhatə olunan bir pedaqoji anlayış kimi təqdim olunmuşdur. Ona daha çox nə? sualına cavab verən məsələlərin aid edildiyi qeyd edilirdi. Bu, ciddi bir bölgü kimi təlim nəzəriyyəsində nəzərə alınaraq araşdırmaların metodologiyasında da nəzərə alınırdı. Lakin son illərdə islahatyönümlü təhsil tədbirlərində dəyişikliklərin aparıldığı müşahidə edilməkdədir. Pedaqoji anlayışların coğrafiyasında, semantikasında müvafiq yerdəyişmələr, yeniliklər yaranmaqdadır. Təhsilin məzmunu anlayışında da bu, nəzərə çarpır. 2013-cü ildə qəbul olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda müasir zamanda təhsil sisteminin başlıca vəzifələri, strategiyanın məqsədi, eləcə də strateji istiqamətlər

göstərilir. İstiqamətlərdən birincisi yeni təhsil məzmunun yaradılmasına aid edilir. "Səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmunun yaradılması" strateji hədəflərdən biri kimi göstərilməklə ona aid tədbirlər konkret olaraq qeyd edilir.

Təhsilin bütün pillə və səviyyələri üçün standart və kurikulumların yaradılması xüsusi tədbirlər kimi nəzərdə tutulur. Məlum olduğu kimi, yeni pedaqoji yanaşmalarda standartlar kurikulumun tərkibində deyil, ayrı nəzərdə tutulur, kurikulumlar isə standartların reallaşdırılması üçün tövsiyə olunan mexanizmlərdən ibarət strategiya və texnologiyaları əhatə edir.

İkinci, "yeni məzmun" müasir aksioloji yanaşmaların fonunda xüsusi keyfiyyət çalarına malik olmaqla, həm də dəyər daşıyıcısı kimi çıxış edir. Xüsusən ümumi təhsil pilləsində bütün fənlər humanitar bir missiya daşımaqla şagird şəxsiyyətinin formalaşdırılmasının mühüm vasitəsinə çevrilir. Hər bir fənn özünün spesifik anlayışları ilə çıxış etsə də, nəticədə insan şəxsiyyətinin, vətəndaşın formalaşması prosesindəki funksiyalarına görə eyni müstəvidə dayanır. Bu müstəvi şəxsiyyətin inkişaf, formalaşma müstəvisidir. Orada əqli keyfiyyətlərdən başlayaraq, psixomotor fəaliyyətlərə qədər bütün parametrlərdə mədəniyyətlər formasında təzahür edən dəyərlər əhatə olunur.

Müasir zamanda məktəbin missiyası dəyişir dedikdə məhz onun funksional yenilikləri nəzərdə tutulur. Elə yeniliklər ki, Əlahəzrət şəxsiyyətin bütün tələbatlarında təzahür edir və sonradan cəmiyyətin inkişafı naminə fəaliyyətlərin əsasına gəlir, sosial sifarişlərin nəticəsinə çevrilir.

Təhsilin yeni məzmununun bir mühüm cəhəti də onun həcm parametrlərindəki özünəməxsusluqla bağlıdır. Nəticəyönümlü xarakterə malik olan bu məzmunda anlayış, qayda və nəzəriyyələrin deklorativ say göstərişi deyil, məhz onlar əsasında formalaşan səriştələr əsas rol oynayır. Başqa sözlə, məzmunun yaradılması zamanı gündəmdə dayanan, ən önəmli olan təhsil alanın hansı səriştələrə yiyələnməsidir. Yeni məzmunun yaradılmasında da bu müddəalar reallaşdırılır.

Məzmunda ifadə olunan səriştələr mahiyyət etibarı ilə sosial xarakter daşısa da, bu gün onun təhsil prosesinə gətirilməsi ciddi araşdırmalar tələb edən pedaqoji problemdir. Bu problemin məqsədəuyğun qaydada həll olunmasında cəmiyyətin ehtiyac və tələbatlarının öyrənilməsi həddindən artıq önəm daşıyır. Həm də bu öyrənmə yeni məzmunun yaradılmasına uğurla başlamaqda diaqnostik mərhələ rolunu oynayır.

Yeni təhsil məzmunun yaradılmasını ölkəmizin təhsil sistemindəki bütün pillə və səviyyələr üçün zəruri hesab etmiş olsaq (Bu, Dövlət Strategiyasında xüsusi qeyd edilir), o zaman indiki halda dövlət əhəmiyyətli bir vəzifə qarşısında dayandığımızı və onun icra olunmasında məsuliyyətimizi aydın təsəvvür edə bilərik.

**ƏDƏBİYYAT**


1. *www.president.az/articles/9779* "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"
2. *www.president.az/files/future_az.pdf* "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası


## SİNTAKTİK TƏHLİL ZAMANI QARŞIYA ÇIXAN BİR ÇƏTİNLİK HAQQINDA


**Akif İmanlı,**

*Naxçıvan Müəllimlər İnstitutunun prorektoru*

*filologiya üzrə elmlər doktoru, professor*



***Açar sözlər:*** *sintaktik təhlil, intonasiya, aktual üzvlənmə, tema, rema, sadə cümlə, mürəkkəb cümlə*

***Ключевые слова:*** *синтактический анализ, интонация, актуальное членение предложения, тема, реша, простое предложение, сложное предложение*

***Key words:*** *syntactic analysis, aktual membering, theme, rethem, simpli sentence, compound seutence, intonation*


Azərbaycan dili dərslərində geniş tətbiq olunan sintaktik təhlil prosesində diqqət çəkən bəzi məqamlara diqqət yetirmək lazım gəlir. Sintaktik təhlilin aparılması ilə əlaqədar iki mühüm cəhətə diqqət yetirmək vacib hesab olunur:

1.Təhlil olunan cümlədə fikrin məqsəd və məzmununu düzgün dərk etmək, başqalarına düzgün çatdırmağı bacarmaq üçün onu həm intonasiya, həm də aktual üzvlənmə baxımından düzgün oxumaq lazımdır.

2.Cümlənin sintaktik təhlilinə ilk növbədə onun məqsədə görə növünü təyin etməkdən başlanılmalıdır.

Qeyd etmək lazımdır ki, cümlənin məqsədə görə tipləri təkcə sadə cümlələrə məxsus xüsusiyyət hesab olunmur. Bunlar eyni dərəcədə mürəkkəb cümlələrə də aid edilir. Belə ki, hər bir mürəkkəb cümlə də ya nəqli, ya sual, ya da əmr cümləsi kimi çıxış edir. Məsələn: Nəqli cümlə: Çox çəkmədi ki, dərələrdən gələn sel arxlara sinə vurdu (Ə. Vəliyev); Sual cümləsi: Bəs sən fikirləşmirdin ki, kəklik orada soyuqdan ölər? (H. Abbaszadə); Əmr cümləsi: Sal torbaya qoy çürüsünlər, sərçəyə qismət olmasınlar (M. İbrahimov).

Prof. B. Əhmədovun belə bir fikri vardır ki, "dilimizdə biri sual, digəri isə nəqli cümlədən ibarət mürəkkəb cümləyə təsadüf etmək qeyri-mümkündür"(1, 22).

Lakin dil faktları bu fikri təsdiq etmir. B. Əhmədov həmin fikri söyləyərkən bunu əsas tutur ki, əks təqdirdə mürəkkəb cümlə intonasiya bütövlüyünə malik ola bilməz. Halbuki intonasiya bütövlüyünü yalnız nəqletmə və ya sual intonasiyasında axtarmaq doğru deyil. Cümlənin intonasiya bütövlüyü onun bitkinlik intonasiyasına malik olmasında özünü göstərir.

İndi isə faktlara diqqət yetirək. Elə mürəkkəb cümlələr qarşıya çıxır ki, onların ümumi konstruksiyası məqsədə görə müxtəlif sadə cümlələrdən ibarət modellərdə olur, məsələn, əmr cümləsi + nəqli cümlə; nəqli cümlə +sual cümləsi və s. Konkret misallar göstərək: 1. Qulaq as, bala, dərs göydən düşmür (Ə. Vəliyev). 2. Az danış, ağzın yekə olar (M. İbrahimov). 3. Səni mən çağırmışam, onu niyə danlayırsan? cümlələrindən əvvəlincilərin ilk komponenti əmr, sonrakı komponenti isə nəqli xarakterlidir. Sonuncuda isə əvvəlinci komponent nəqli, sonrakı isə sual xarakteri daşıyır. İstər-istəməz qarşıya belə bir sual çıxır: bəs belə hallarda mürəkkəb cümlənin məqsədə görə tipi necə təyin olunmalıdır? Onun tərkibindəki ayrı-ayrı sadə cümlələr bu baxımdan necə təhlil edilməlidir?

Hər şeydən əvvəl, bunu əsas tutmaq lazımdır ki, cümlənin məqsədə görə tipləri onun quruluşca növləri ilə əlaqədar olmayıb, ümumiyyətlə, cümləyə aiddir. Odur ki, yuxarıdakı xarakterli mürəkkəb cümlələrin hər komponentini məqsədə görə ayrı-ayrı cümlə tipi kimi izah etmək doğru olmaz. Belə hallarda həmin cümlələrə aktual üzvlənmə baxımından yanaşmaq, mövzunun hansı komponentlə bağlı olduğunu nəzərə almaq lazımdır: mövzu, yeni məlumat, məntiqi vurğu hansı hissədədirsə, demək, həmin hissə (komponent) bütövlükdə cümlənin məqsədə görə tipini müəyyən etməyə əsas verir. Məsələn: 1. Sən nə vaxt gəlmisən ki, mən evdə olmamışam? Bu cümlədə birinci komponent sual, ikincisi nəqletmə intonasiyası ilə ifadə olunur. Fikrin əsas məqsədi birinci komponentlə bağlı olduğu üçün bütövlükdə sual cümləsidir və buna görə də cümlənin sonunda sual işarəsi qoyulmuşdur. 2. İndi anladım ki, sonrakı peşmançılıq fayda verməz. Bu cümlədə isə birinci komponent sual bildirməsinə baxmayaraq, cümlə bütövlükdə nəqli xarakterlidir və buna görə də cümlənin sonunda nöqtə işarəsi qoyulmuşdur.

Biz burada yalnız praktikada qarşıya çıxan çətinlikləri nəzərə alaraq ümumi mülahizə söyləməklə kifayətlənməli oluruq.

**ƏDƏBİYYAT**

B. Əhmədov. V sinifdə Azərbaycan dili dərsləri: Müəllim üçün vəsait. Bakı: Maarif, 1977.

## ТЕХНОЛОГИЯ ПРОБЛЕМНОГО ДИАЛОГА КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ УНИВЕРСАЛЬНЫХ УЧЕБНЫХ ДЕЙСТВИЙ В НАЧАЛЬНОЙ ШКОЛЕ

**И.А. Веревкин,**
*старший преподаватель кафедры педагогики Елабужского института*
*ФГАОУ ВПО «Казанский (Приволжский) федеральный университет, Россия, г.Елабуга*
E-mail:verewkin.iq@yandex.ru
**И.Н. Веревкина,**
*преподаватель Елабужского филиала ЧОУ ВО «Институт социальных и гуманитарных знаний»*
E-mail:in.verevkina@yandex.ru

***Ключевые слова:*** *универсальные действия, ФГОС НОО второго поколения, младшие школьники, технология, проблемный диалог, проблемно-диалогические методы обучения*

***Keywords:*** *universal action, education standards of second generation, young learners, technology, problem-dialogue-Dialogic teaching methods*

Федеральный государственный образовательный стандарт начального общего образования предполагает реализацию программы формирования универсальных учебных действий, обеспечивающих школьникам умение учиться, способность к саморазвитию и самосовершенствованию.

В широком значении термин «универсальные учебные действия» означает умение учиться, т.е. способность субъекта к саморазвитию и самосовершенствованию путем сознательного и активного присвоения нового социального опыта. В более узком (собственно психологическом) значении этот термин можно определить как совокупность способов действия учащегося (а также связанных с ними навыков учебной работы), обеспечивающих самостоятельное усвоение новых знаний, формирование умений, включая организацию этого процесса. Таким образом, достижение умения учиться предполагает полноценное усвоение школьниками всех компонентов учебной деятельности, включая: 1) познавательные и учебные мотивы; 2) учебную цель; 3) учебную задачу; 4) учебные действия и операции (ориентировка, преобразование материала, контроль и оценка ) [4, 27].

В составе основных видов универсальных учебных действий, соответствующих ключевым целям общего образования можно выделить четыре блока: 1) личностный; 2) регулятивный (включающий также действия саморегуляции); 3) познавательный; 4) коммуникативный [4, 28].

Одним из эффективных средств формирования УУД является технология проблемного обучения, при которой содержание предмета представлено в форме учебных проблем.

Педагогическая технология, по определению М.И. Махмутова, это «более или менее жестко запрограммированный (алгоритмизированный) процесс взаимодействия преподавателя и учащихся, гарантирующий достижение поставленной цели», алгоритм в обучении, определенная парадигма процесса обучения, применение которой ведет к достижению цели – формированию вполне определенных качеств личности (познавательных умений, способов мышления, определенных отношений и т.д.) [5, 5].

Произведенный М.И. Махмутовым анализ научных исследований позволяет сделать вывод о том, что существенными признаками педагогической технологии являются: диагностическое целеобразование, результативность, экономичность, алгоритмизируемость, проектируемость, целостность, управляемость, корректируемость, визуализация [5, 6-7].

Педагогические технологии могут различаться по разным основаниям, по целям и задачам, по структурам. Одни из них способствуют формированию знаний и умений учащихся, другие – развитию мышления.

Поиски путей активизации познавательной деятельности учащихся, развитие их творческих способностей и самостоятельности осуществляются средствами всех учебных предметов, что приобретает особое значение в связи с модернизацией образования в России. В теории и практике работы школ сегодня существует множество вариантов учебно-воспитательного процесса. Каждый автор и исполнитель вносит в педагогический процесс что-то свое, индивидуальное, в связи с чем говорят, что каждая конкретная технология является авторской.

В этой статье речь пойдёт о технологии проблемного диалога (Е.Л.Мельникова), которая представляет собой современную образовательную технологию деятельностного типа и позволяет реализовать требования ФГОС.

Для технологии проблемного диалога ключевым является понятие «творчество». Творчество есть создание нового и значимого продукта. Основа школьного обучения – научное творчество.

Е.Л.Мельникова рассматривает научное творчество как процесс открытия новых знаний о мире, включающий четыре звена: постановку проблемы, поиск решения, выражение решения и реализацию продукта [6, 2].

Технология проблемного диалога представляет собой детальное описание проблемно-диалогических методов обучения и продуктивных заданий на воспроизведение, а также их взаимосвязей с формами и средствами обучения. Методы и задания являются центральными компонентами технологии и определяют выбор форм и средств обучения [6, 4].

Технология проблемного диалога может использоваться в любой образовательной системе, но наиболее полно и последовательно она реализована в развивающей Образовательной системе «Школа 2100».

Деятельностный метод в системе «Школа 2100», как отмечает А.В.Миронов, приобретает форму «проблемно-диалогического метода». По мнению авторов метода (Е.Л. Мельникова и др.), в словосочетании «проблемный диалог» первое слово означает, что на уроке изучения нового материала должны быть проработаны два звена: постановка учебной проблемы и поиск ее решения. Один из вариантов организации содержания урока:

1. Постановка проблемы актуализация знаний.
2. Совместное открытие знаний.
3. Совместное применение знаний.
4. Подведение итога.
5. Домашнее задание.

В данном варианте отражены УУД. Обозначены этапы подведения учеников к цели урока. Это выражается в постановке проблемы (подразумевается, что ее решение и есть цель деятельности школьника на уроке). Есть этап, характеризующий действия по достижению целей (совместное открытие знаний). Также есть оценивание (оно предполагается на этапе «подведения итогов урока») [8, .56-57].

Метапредметные результаты проблемного диалога – универсальные учебные действия (общеучебные умения), которые делятся на три группы: познавательные, коммуникативные и регулятивные.

1. Технология проблемно-диалогического обучения позволяет учащимся самостоятельно «открывать» знания. Она представляет собой детальное описание проблемно-диалогических методов обучения, а также их взаимосвязей с формами и средствами обучения. Методы составляют центральную часть технологии, поскольку определяют выбор форм и средств обучения.

2. Методы – это способы деятельности учителя на этапе введения знаний. Проблемно-диалогические методы обучения обеспечивают постановку и решение учебных проблем школьниками и представляют собой определенные сочетания приемов, вопросов, заданий. Традиционные методы обучения сводятся к сообщению учителем темы и знания в готовом виде.

3. Проблемно-диалогические методы дают широкие возможности варьирования форм обучения (фронтальной, групповой, парной, индивидуальной), в то время как традиционные методы всегда фронтальны.

4. При проблемно-диалогических методах средства обучения (опорные сигналы, учебники, наглядные и технические средства) служат вспомогательными инструментами творческого усвоения знаний, а при традиционных методах они обслуживают репродуктивное усвоение знаний [7, с.51].

В школьной практике находят широкое применение методы проблемного обучения, способствующие формированию метаумений. Существует ряд дидактических способов организации процесса проблемного обучения: метод монологического изложения; рассуждающий метод обучения; диалогический метод изложения; эвристический метод изложения; исследовательский метод.

В ходе опытно-экспериментальной работы, проведенной нами, была выявлена и реализовалась в учебном процессе следующая совокупность дидактических условий, касающихся формирования УУД в начальной школе на основе проблемного диалога [1; 2;3]:

1. Создание проблемных ситуаций при решении познавательных задач. Такой прием используется учителями начальных классов, но нередко это не осознается учащимися как познавательное затруднение, поэтому дальнейшее решение задачи не принимает строго целенаправленного действия. Существенными признаками познавательной задачи являются самостоятельное добывание учащимися в процессе решения этой задачи новых знаний или новых способов решения задач (И.Я.Лернер). Функции познавательных задач многообразны. Они применяются в различных звеньях учебного процесса – при постановке цели, изучении нового материала, его закреплении и для домашних заданий.

2. Систематическое включение учащихся в решение познавательных задач, способствующих глубокому пониманию изучаемой теории. При этом необходимо учитывать принцип постепенного усложнения их содержания – от простых задач к более сложным. Сложность проблемных задач определяется числом соотносимых данных в условии, числом звеньев хода решения, числом выводов в самом решении.

3. Индивидуализация и дифференциация обучения. Без учета индивидуально-психологических возможностей каждого ученика в отдельности и класса в целом трудно создать проблемную ситуацию и сформулировать проблему. Задание для слабоуспевающих должны отличаться следующими особенностями: а) посильностью для них в соответствующий момент; б) вариативностью – сочетанием основных проблемных вопросов с подвопросами наводящего плана; в) более подробным инструктированием о выполнении практических работ. Сочетание индивидуальных и коллективных форм организации учебной деятельности – важное условие развития творческого мышления младших школьников.

4. Учет действия психологического механизма и закономерностей развития творческого мышления школьников в соответствии с возрастными особенностями детей.

5. Создание положительной мотивации к процессу решения задач. Чтобы познавательная задача не только требовала размышления учащихся, но и глубоко заинтересовала их, надо при постановке этой задачи всемерно использовать такие психологические эффекты, как эффект новизны, занимательности, удивления и прочее.

6. Включение игровых элементов в урок. Элемент игры в процессе обучения вызывает у детей приятные переживания, повышает их активность. Именно в творческой игре развивается мысль ребенка и др.

Апробация результатов исследования проводилась на Шестых Международных Махмутовских чтениях “Проблемное обучение в современном мире” (Мастер-класс для молодых учителей по теме: ”Технология проблемного диалога как средство реализации ФГОС на уроках литературы”), международных научно-практических конференциях, научно-методических семинарах.

**ЛИТЕРАТУРА**


1. Веревкин И.А. Формирование познавательных универсальных действий у младших школьников средствами технологии проблемного обучения// ПРОБЛЕМНОЕ ОБУЧЕНИЕ В СОВРЕМЕННОМ МИРЕ. Сборник статей VI Международных Махмутовских чтений. Елабуга: Изд-во КФУ г. Елабуга, 2016.
2. Веревкина И.Н. Педагогические технологии в современном литературном образовании// Ученые записки филиала КФУ в г.Елабуга. Том 20. Серия «Педагогика». Елабуга:Изд-во филиала КФУ в г. Елабуга, 2012.
3. Irina Verevkina, Galina Bozhkova, Nadezhda Shabalina, Olga Fayzullina. Adolescent Dialogue with Writers as a Means of Reading Culture Formation // The European Proceedings of Social & Behavioural Sciences. Volume XII (July 2016).
4. Как проектировать универсальные учебные действия в начальной школе. От действия к мысли: пособие для учителя / [А.Г. Асмолов, Г.В. Бурменская, И.А. Володарская и др.] / под ред. А.Г. Асмолова. М.: Просвещение, 2013.

5. Махмутов М.И.Педагогические технологии развития мышления учащихся/ М.И.Махмутов, Г.И.Ибрагимов, М.А.Чошанов. -Казань: ТГЖИ, 1993.
6. Мельникова Е.Л. Технология проблемного диалога как средство реализации ФГОС// Начальная школа плюс До и После. 2012, № 9
7. Мельникова Е.Л. Технология проблемного диалога : методы, формы, средства обучения // Образовательные технологии : сб. мат. М. : Баласс, 2008.
8. Миронов А.В. Структура урока как средство реализации деятельности метода обучения // Начальная школа, 2013, № 6

## FƏNLƏRARASI ƏLAQƏ MƏKTƏBLİLƏRİN HƏRBİ XİDMƏTƏ HAZIRLANMASINDA BAŞLICA VASİTƏLƏRDƏN BİRİ KİMİ

**Şahin Tağıyev,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*GDU-nun kafedra müdiri*

***Açar sözlər:*** *fənlərarası əlaqə, hərbi-vətənpərvərlik tərbiyəsi, fizika və riyazi biliklər, təlim prosesi, pedaqoji nəzəriyyə*
***Ключевые слова:*** *межпредметная связь, военно-патриотическое воспитание, физико-математические знания, процесс обучения, педагогическая теория*
***Key words:*** *Interdisciplinary contact, military – patriotic education, physics and mathematical propositions, education process, pedagogical theory.*

Fənn kurrikulumlarının tədqiqi və təhlili göstərdi ki, coğrafiya fənnində xəritələr və onlarla işin məzmunu da məktəblilərin riyazi bilikləri əsasında qurulmuşdur. Bu zaman şagirdlərin riyaziyyat kursundan mənimsədikləri həqiqi ədədlər, onların nisbəti, həqiqi ədədlər üzərində riyazi əməllər, proyeksiya, düz və əyri xətlər, bucaqlar və onların ölçülməsi, uzunluq və uzunluq vahidləri, sahə və sahə ölçü vahidləri, həndəsi formalar, bərabərbucaqlı və bərabərsahəli proyeksiyalar, silindrik və konusvari formalar, onların açılışı, düzbucaqlı koordinat sistemi və orada nöqtənin koordinatları, düzbucaqlı (kilometr) şəbəkə, funksional asılılıq, funksiyanın qrafik və cədvəl şəklində verilməsi, dairə, çevrə qövsü, diametri və s. üzrə biliklərindən əlverişli şəkildə istifadə etmək mümkündür.

Riyazi üsullar dedikdə isə, yer səthində olan müxtəlif obyektlərin ölçülərini (uzunluğunu, enini və hündürlüyünü), onların sahələrini, həndəsi formalarını, onlara oxşar olan (ölçücə kiçik şəkilli) fiqurlara gətirmək və həmin fiqurları kağız üzərinə köçürmək anlaşılır. Qeyd edək ki, kağız üzərinə köçürülmüş bu həndəsi fiqurlarla bağlı aparılan bütün riyazi hesablamalar oxşarlıq əmsalının (xəritələrdə isə miqyasın) nəzərə alınması ilə yer üzərindəki həqiqi fuqurlara uyğundur.

Kartoqrafik proyeksiyaların növləri aydınlaşdırılarkən şagirdlər öyrənirlər ki, dənizdə və quruda hərəkət istiqamətlərini müəyyən etmək üçün xəritələr lazımdır. Belə xəritələrdə ölçülən bucaqlar yer üzərində ölçmələr zamanı bucaqlara bərabər olmalıdır. Bu xəritələrdə hərəkət istiqamətləri dəqiq müəyyənləşərsə də, lakin məhəldəki obyektlərin formaları, uzunluqları və sahələri təhrif olunur. Bu isə müasir elmi-texniki inkişafın tələbləri, ən başlıcası isə, hərbi əməliyyatların idarə olunması baxımından əlverişsizdir. Həmin çatışmazlığı aradan qaldırmağa nisbətən imkan verən üsullardan biri isə bərabərsahəli proyeksiyalarla tərtib olunan xəritələrdir. Belə xəritələrdə obyektlərin sahələri arasındakı nisbət sabit saxlanılır və xəritənin miqyasına uyğun gəlir. Bu proyeksiyalamalardan ən əlverişlisi isə ixtiyari proyeksiyalama adlanır. İxtiyari proyeksiyalamanın özü də müxtəlif növlüdür. Bunlardan ən əlverişlisi bərabər aralıqlı proyeksiyalardır. Bu proyeksiyalarda bir istiqamət saxlanılır.

Burada şərhi ümumiləşdirmək, kartoqrafik proyeksiyaların bərabərbucaqlı, bərabərsahəli və ixtiyari proyeksiyalar olduğunu göstərmək məsləhətdir.

“Kartoqrafik proyeksiyaların qurulmasına görə müxtəlifliyi və xəritələrin proyeksiyaları”nı izah edərkən riyaziyyat kabinetindən gətirilmiş həndəsi fiqurlardan istifadə oluna bilər. Bu zaman həmin fiqurları şagirdlərə göstərib onların adlarını soruşmaq, sonra həmin fiqurlara bənzər əşyalar tapdırmaq məsləhətdir. Məktəblilər sinifdə bu fiqurlara oxşar predmetlər göstərdikdən sonra müəllim öz şərhini

aşağıdakı kimi davam etdirir: Yer səthini müstəvi üzərinə köçürdükdə köməkçi həndəsi səthlərdən istifadə olunur. Bunlar, silindr, konus, prizma, kürədir. Kim silindrin səthini göstərər? Kim prizmanın səthini göstərər? (Şagirdlər müvafiq səthləri göstərirlər). Bu səthlərə uyğun olaraq proyeksiyalar da silindrik, konus şəkilli və azimutal proyeksiyalar adlanır. Keçmiş SSRİ-nin böyük ərazilərinin xəritələri hazırlanarkən bərabərbucaqlı konusvari proyeksiyadan istifadə edilirdi. Riyaziyyat kursundan isə məlumdur ki, belə proyeksiyalarda bucaqlar sabit qalır, proyeksiyalanan fiqur isə formasını dəyişir. Formanın dəyişməsi isə onun ölçülərinin və sahəsinin dəyişməsinə səbəb olur. Odur ki, proyeksiyalamadan xəritələrin hazırlanması zamanı istifadə etdikdə sahələrin ölçüsü təhrif olunur. Bu təhrif keçmiş SSRİ-də xəritələrin tərtibi zamanı $65^0$ şm. e. paralelindən şimala, $45^0$ şm. e. paralelindən cənuba doğru daha çox artırdı.

"Topoqrafik xəritələr" mövzusunun tədrisi zamanı şagirdlərin nəzərinə çatdırılır ki, topoqrafik xəritələrdə verilən güclü informasiyalardan tikinti və geoloji işlərdə, meşə təsərrüfatı və yer quruluşu işlərində geniş istifadə olunur. Topoqrafik xəritələr hərbi işlərdə də tətbiq edilir. Müasir döyüşlərin müvəffəqiyyətli getməsi, qoşunların manevr etməsi və s. üçün topoqrafik xəritələr böyük əhəmiyyətə malikdir. Bu xəritələr artilleriya, raket, tank, aviasiya qoşun növlərinə naməlum ərazilərdə, müxtəlif hava şəraitlərində, gündüz və gecə vaxtları, istənilən iqlimdə müvəffəqiyyətli döyüşlər aparmaq üçün zəmin yaradır.

Tədqiqatdan belə nəticəyə gəlirik ki, həqiqətən orta məktəb coğrafiya kursunun məzmunu ilkin hərbi biliklərə yiyələnməkdə şagirdlərə kömək göstərmək imkanlarına malikdir. Xəritələrin əhəmiyyəti, məzmunu, kartoqrafik proyeksiyalar, topoqrafik xəritələr, bu tipli xəritələrdə relyefin təsviri və oxunuşu, kiçik miqyaslı xəritələrdə relyefi, xəritə üzrə azimutların və direksiya bucaqların müəyyənləşdirilməsi və s. tanışlıq, gənclərin çağırışaqədərki hazırlığı (ibtidai hərbi hazırlıq) fənninin daha yaxşı mənimsənilməsinə, bu kurs üzrə bütün mövzuları, xüsusən də, " hərbi topoqrafiya" bölməsinin məzmununa yaxından bələd olmağa çox münasib şərait yaradır.

## TƏNLİKLƏRİN HƏLLİNDƏ VƏ QRAFİKLƏRİN QURULMASINDA KOMPÜTERLƏRDƏN İSTİFADƏ

**Əbülfət Pələngov,**
*pedaqogika üzrə elmlər doktoru, profesor*
*ADPU*
E-mail: abulfat1@gmail.com

***Ключевые слова:*** *функция временной шкалы, по словам аналитика, функция гиперболического, меню*
***Key words:*** *timeline function, the analyst said, hiperboıik function, menu*

Təcrübə göstərir ki, artıq orta məktəbdən başlayaraq qrafiklərin qurulmasına şagirdlərdə maraq ildən ilə azalmağa başlamışdır. Qəbul imtahanlarının testlə aparılması bu işin daha da pis nəticələrə gətirilməsinə şərait yaratmışdır. Belə ki, şagirdlər əsasən hesablama xarakterli məsələ və misalların həllinə diqqət yetirirlər, isbat, qurma, qrafik və digər məsələlərə əsasən diqqət vermirlər. bu da onlarda praktik və həyati biliklərin mənimsənilməsinə marağı azaldır və cəmiyyət getdikcə həyat əhəmiyyətli məsələlərin həllində geriləməyə başlayır. Bunun üçün müəllimlər yeni vasitələr və yollarla problemin həllini tapmalıdırlar. B u vasitələrdən ən mühümü İKT-dir. Reallaşması kompüterdə olan yeni proqramlar problemin həllinə kömək edən ən yaxşı vasitələrdən biridir.

Bilirik ki, qrafikini qurmaq istədiyimiz hər bir analitik ifadə bu qrafikin xüsusiyyətləri haqqında bilavasitə siqnal verən müəyyən xarici xüsusiyyətlərə malikdir. Məsələn, $y = 4x^2 + 3x - 2$ funksiyasının qrafikini qurmaq tapşırığı verilirsə, heç bir hesablama, araşdırma aparmadan verilmiş ifadənin xüsusiyyətlərinə əsasən $y = 4x^2 + 3x - 2$ funksiyasının qrafikinin müəyyən xüsusiyyətlərini qeyd etmək olar:

1) Verilmiş çoxhədlidə arqumentin ən yüksək dərəcəsi ikiyə bərabərdir – deməli, onun qrafiki parabola olacaqdır;

2) $x^2$ həddinin əmsalının işarəsi müsbətdir – deməli parabolanın qolları “yuxarı” yüksələcəkdir.

3) $x^2$ həddinin əmsalı vahiddən böyükdür. Deməli $y = 4x^2$ parabolasının qolları $y = x^2$ parabolasının qollarına nisbətən daha “sürətlə” yüksələcəkdir.

4) Sərbəst hədd $c = -2 < 0$ -dir – deməli, parabolanın qolları absis oxunu kəsir.

Analoji qayda ilə məktəb riyaziyyat kursundan digər analitik ifadələri də belə təhlil etmək olar.

Tərsinə qurulmuş qrafikdə həmişə uyğun funksiyanın xassələri haqqında bilavasitə “siqnal” verən müəyyən xüsusiyyətlər vardır. Məsələn, arqumentin verilmiş aralığındakı qiymətlərində qrafik “yuxarı” yarımmüstəvidə yerləşirsə, onda bu aralıqda funksiya müsbətdir və s.

Deməli, verilmiş analitik ifadənin xüsusiyyətləri ilə ona uyğun qrafikin xüsusiyyətləri (və ya tərsinə, qrafikin xüsusiyyətləri ilə ona uyğun olan funksiyanın xüsusiyyətləri) arasında müəyyən asılılıqlar, əlaqələr mövcuddur. Qeyd etmək lazımdır ki, bilavasitə əlaqələr qrafiklərin qurulmasında güclü nəzarət vasitəsidir.

Bundan başqa, aydındır ki, şagirdlərdə belə əlaqələrin möhkəmləndirilməsi verilmiş analitik ifadənin əvvəlcə tədqiq edilməsi əsasında funksiyanın qrafikinin qurulması bacarıqlarına yiyələnməsi üçün mühüm şərtdir. Eksperiment və müşahidələr nəticəsində müəyyən olunmuşdur ki, funksiya qrafiklərini qurma və oxuma bacarıqlarının yüksək səviyyəsinə yiyələnməyin göstəricisi şagirdlərdə bilavasitə əlaqələrin böyük ehtiyatlarının olması, funksiyalara və qrafiklərə aid konkret məsələlərin həllində onlardan bacarıqla istifadə edilməsidir. Funksiya qrafikinin qurulması üsullarına aid bu nəticə yüksək ixtisaslı ali məktəb müəllimləri, təcrübəli riyaziyyat müəllimləri və orta məktəb şagirdlərinin işi üzərində aparılan müşahidələrin müqayisə edilməsindən alınmışdır. Zəif və orta qiymətlə oxuyan şagirdlər qrafikləri adətən “nöqtələr” əsasında qururlar. Lakin belə üsul qrafikin nöqtələrinin koordinatlarını hesablamaq üçün çox vaxt tələb edir. Buradan nəticə çıxarılmışdır ki, həmin şagirdlərdə ya tamamilə bilavasitə əlaqələr yoxdur, ya da onların ehtiyatı şagirdlərdə kifayət qədər deyildir.

Bizim təcrübəmizdə belə əlaqələrin şagirdlərdə formalaşması üzrə işin praktik olaraq təşkili metodikasını şərh edək.

Əvvəlcə müəyyən bir bölmə üzrə funksiyanın qrafiki ilə əlaqədar formalaşdırılacaq bilavasitə əlaqələr qeyd olunur. Onlara uyğun riyazi təkliflər isbatı ilə birlikdə şagirdlərə çatdırılır. Bəzi zəruri hallarda isə xüsusi misallar üzərində yoxlamalarla əvəz edilə bilər. Sonra şagirdlər möhkəmləndirməyə aid çalışmaları yerinə yetirirlər.

Şagirdlərin qrafik bacarıqlarının formalaşmasında əvəzsiz imkanları olan proqramlardan biri də Graph 3.4 tətbiqi proqramıdır. Bunu nəzərə alıb proqramın xarakteristikasını və istifadə olunması qaydasını verməyi məqsədəuyğun hesab edirəm.

Proqram - qrafiklərin qurulması və işlənməsi üçün mükəmməl bir proqramdır. Proqramın həcmi onun istənilən disk ötürücüdə saxlanmasına və bir yerdən digər yerə asanlıqla daşınmasına imkan verir. Proqram paketinin kompüterə yüklənməsi digər proqram paketlərinin yüklənməsi kimidir.

Proqram yükləndikdən sora onun işçi pəncərəsi ekranda təsvir olunur *(şəkil 1)*.



Şəkil 1.

Şəkildən göründüyü kimi, pəncərə digər tətbiqi proqramlar pəncərəsinə oxşardır. Artıq şagirdlər bu vaxta qədər informatikadan tətbiqi proqramları öyrəndiyindən və bu proqramın da menyusu təxmini oxşar olduğundan, təkrar şərh verməyi lazım bilmirik.

Bu proqramdan təkcə qrafiklərin qurulmasında deyil, sistem tənliklərinin qrafik üsulla həllində müvəffəqiyyətlə istifadə oluna bilər. Proqramdan istifadə etdikdə tənliklər sisteminə məxsus tənliklərin sayının çoxluğu, dəyişənin dərəcə ölçüsünün mürəkkəbliyi və s. həll zamanı çətinlik yaratmır.

**ƏDƏBİYYAT**


1. Артамонов Б.Н. и др. Основы современных компьютерных технологий. С.П., 1998.
2. В.В. Малеев. Общая методика преподавания информатики. Воронеж, 2005.
3. Глушаков С.В., Мельников, И.В., Персональный компьютер, М., 2001.
4. http://www.informatika.ru


## TARİX MÜƏLLİMİNİN MƏKTƏB MÜHAZİRƏSİNƏ HAZIRLANMASININ DİDAKTİK ƏSASLARI

**Mübariz Əmirov,**
*pedaqogika üzrə elmlər doktoru*
*ADPU-nun professor*
E-mail: babayeva.xada@mail.ru

***Açar sözlər:*** *müəllim, məktəb mühazirəsi, didaktik əsaslar, tarix dərsləri, təlimin səmərəliliyi*
***Ключевые слова:*** *учитель, школьная лекция, дидактические основы, уроки истории, эффективность обучения*
***Keywords:*** *teacher, school lectures, didactic basics, the lessons of history, the effectiveness of training*

Didaktik ədəbiyyatda mühazirəyə hazırlığın iki mərhələdən ibarət olduğu göstərilir. Birinci mərhələ mühazirəyə ilkin, ikinci mərhələ isə mühazirəyə əsaslı hazırlıqdan ibarətdir. İlkin hazırlığın mühazirə mövzusunun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, ədəbiyyatla ilkin tanışlıq, mənbələrin toplanması, planın tərtib edilməsi təşkil edir. Mühazirə proqrama uyğun olmaqla yanaşı şagirdlərin yaş, bilik, bacarığına uyğun olmalıdır. Mühazirəyə ilkin hazırlıqla əlaqədar-elmi əsərləri, bədii, elmi-kütləvi ədəbiyyatı oxumaq, yerli misallar hazırlamaq disklər, kompüter və proyektor, xəritə və s. əyani vasitələri müəyyənləşdirmək lazımdır. Müəllim mövzu ilə bağlı məsələləri beynində analiz-sintez etdikdən sonra mühazirənin geniş planını yazmalıdır.

Mühazirənin planı tərtib edilərkən mühazirədə bəhs ediləcək hər bir fikri əsas bölmə və hər bölmənin tərkib hissələri göstərilməlidir. Mühazirənin mətni həmin plan əsasında tərtib olunmalıdır. Mühazirə mətnində planın bütün bölmələri tam dəqiqliklə izah edilməli, izah zamanı gətiriləcək nümunələr, iqtibaslar aydın ifadə .edilməlidir. Nümayiş etdiriləcək əyani vasitələr hazırlanmalıdır. Didaktika elmi və təcrübə sübut edib ki, şagirdlərin diqqətinə çatdırmaq üçün müxtəlif şərti işarələrdən istifadə edilməsi mühazirənin keyfiyyətini yüksəldir.

Araşdırmalar göstərir ki, aşağıda sadaladığımız tələblər gözlənildikdə mühazirənin keyfiyyəti yüksəlir:

1) Orta məktəb mühazirəsi çox geniş məsələləri əhatə etməməli və həcmcə geniş olmamalıdır.
2) Mühazirənin mətni elmi cəhətdən qüsursuz, metodiki cəhətdən əhatəli olmalıdır.
3) Mühazirənin mətni proqrama uyğun olmaqla yanaşı hazırkı həyatımızın və dünyanın mənzərəsini reallıqla əks etdirməlidir.
4) Mühazirə elə qurulmalıdır ki, şagirdlərin hisslərinə və duyğularına təsir etsin eləcədə onları axtarış və kəşflərə təhrik etsin .

Mühazirənin oxunması prosesində müəllim elə üsul seçməlidir ki, həmin üsul şagirdlərin dərketmə qabiliyyətlərinin inkişafına təsir edə bilsin. Əlbəttə bu müəllimin ustalığından və şagirdlərin fərdi xüsusiyyətlərindən və bilik səviyyələrindən asılıdır.

Ümumtəhsil məktəblərində tarix təliminin səmərəliliyinin yüksəldilməsinə xidmət edən bu aktual problemi professorlar A.N. Abbasov (1), F.A. Rüstəmov, Ə.X. Paşayev (2) və M.M. Əmirov (3) müəyyən aspektlərdən tədqiq etmişlər. Problemin işlənmə səviyyəsinin öyrənilməsi bu sahəyə diqqətin artırılmasının vacibliyini göstərir. Həmin aktual problemi tədqiq edərkən aydın olur ki, mühazirənin məzmunu ilə yanaşı, onun şagirdlərə hansı üsullarla çatdırılması da mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, mühazirənin keyfiyyətli oxunması üçün aşağıdakı şərtlər və tələblər nəzərə alınmalıdır:

1) Mühazirə üzündən oxunmaqla yanaşı, əsas yerlər üzündən oxunmamaq şərti ilə izah edilməlidir. Mühazirəçi müəllim dərsdə tam sərbəstlik göstərməlidir.

2) Məktəb mühazirələrini başdan-başa şagirdlərə yazdırmağa ehtiyac yoxdur.

3) Əgər müəllimin biliyi, bacarığı və pedaqoji ustalığı mühazirəni müstəqil şərh etmək imkanı verirsə, belə halda həm müəllim fəal olur, həm də şagirdlər. Mühazirənin belə üsulla şagirdlərə çatdırılması təlimin səmərəliliyini artırır. Belə halda müəllim sözçülüyə, sürətli və monoton nitqə yol verməməlidir. Müəllim çalışmalıdır ki, şagirdlər əsas məsələlər haqqında mühazirə dəftərinə qeydlər etsinlər.

Beləliklə, mühazirənin səmərəliliyini artırmaq üçün mühazirənin şərhində fikir və hadisələr ətraflı təhlil edilməli, yeri gəldikcə materialın çətin hissələri, tərif və qaydaları, iqtibaslar yazdırılmalıdır. Mühazirə materialı planlı şəkildə ardıcıl olaraq təhlil edilməlidir. Belə halda şagirdlərin həm beyni, həm duyğu üzvləri, həm də əzələlərinin ahəngdar inkişafı qayğısınada qalınmış olunur.

Orta məktəb mühazirələrinin səmərəliliyini yüksəltmək üçün aşağıdakı amillər nəzərə alınmalıdır:

1) Sinifdəki şagirdlərin tam sağlam vəziyyətdə olması.

2) Mühazirə otağının normal vəziyyətdə olması-işıqlandırma, normal temperatur və kənar qıcıqlandırıcıların otaqda yerləşdirilməməsi.

3) Dərs cədvəlində mühazirələrin birinci saata salınması-yəni birinci növbənin birinci saatından ikinci növbənin birinci saatından istifadə edilməsi. Çətin mühazirədən sonra nisbətən asan fənlər üzrə dərslərin salınması.

4) Mühazirədən sonra həmin mövzuda seminarların təşkili və keçirilməsi, məqsədəuyğun olar.

**ƏDƏBİYYAT**


1. Abbasov A.N. Pedaqogika: Müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (Yeni kurs): Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Elm və təhsil, 2010.
3. Əmirov M.M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri: Metodik vəsait. Bakı, 2009.


# İBTİDAİ SİNİFLƏRƏ HAZIRLIQLA ƏLAQƏDAR MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ƏTRAF ALƏMLƏ TANIŞLIĞA DAİR BİLİKLƏRİN FORMALAŞDIRILMASININ PRİNSİPLƏRİ


**Asif Axundov,**
*NDU-nun dosenti*
**Rauf Sultanov**,
*ADPU nun professoru,*
*biologiya üzrə elmlər doktoru,*
**Gülnarə Sultanova**,
*Bakı şəhəri, 116 nömrəli məktəbin ibtidai sinif müəllimi*



***Açar sözlər**: kurrikulum, məktəbəqədər yaşlı uşaqlar, ətraf aləmlə tanışlıq,şagird, ekskursiya, didaktik oyunlar*
***Ключевые слова**: куррикулум, дети дошкольного возраста, знакомство с окружающей средой, ученик, экскурсия, дидактические игры*
***Keywords:** curriculum, children of preschool age, familiarity with the environment, pupil, excursion, didactic games*

Təhsil sisteminin biologiya fənn kurikulumuna uyğun modernləşdirilməsi təhsilin keyfiyyətli təşkili və demokratik prinsiplər əsasında idarə olunması, şagirdlərin keyfiyyətli təhsil ala bilməsi üçün obyektiv şəraitin yaradılması, təhsilin səmərəliyinin yüksəldilməsi və idarə olunması prinsipləri üzərində qurulmuşdur.

Y.A. Komenski "Böyük didaktika" əsərində yazırdı kı, məktəb ancaq bilik vermək deyil, eyni zamanda şagirdləri müstəqil işləməyə də alışdırmalıdır. Ətraf aləmlə tanışlıqla əlaqədar bilikləri məktəbəqədər şagirdlərə daha yaxşı mənimsədilməsi üçün müstəqil işlərdən istifadə etməklə onları təlim işində formalaşdırmaq lazımdır.

Təlim prosesində şagirdlərin fəallaşdırılması böyük əhəmiyyətə malikdir. Şagirdlərin fəallığı şəraitində keçirilən ətraf aləmlə tanışlıq dərslərinin hər bir mərhələsi öyrədici xarakter daşımalıdır. Dərs prosesində məktəbəqədər uşaqlara möhkəm bilik verilməlidir, təbiət haqqında onların dünya görünüşü inkişaf etdirilməlidir. İnsan ətraf aləmi fəal fəaliyyəti prosesində dərk edir. Onda yaranmış, formalaşmış, təsəvvürlər ətraf aləm haqqında bilikləri artırır. İnsanı əhatə edən ətraf aləm onun şüurundan asılı olmayaraq obyektiv mövcud olmaqla, öz qanunları, prinsipləri və qaydaları üzrə inkişaf edir, dəyişir. Təbiət və cəmiyyətdə baş verən hadisələr qanunauyğunluqlar və qanunlarla əlaqədar elmi kəşflər əldə olunur. Uşaqlarda müstəqil işləmək bacarığını, əqli fəallığını artırmaq, onlarda müstəqil əqli mühakimələr yürütmək vərdişlərini inkişaf etdirmək tərbiyəçi və müəllimlərin əsas vəzifəsidir. Bu vəzifələrin hamısı vəhdət halında və birlikdə yerinə yetirilməlidir.

Tərbiyəçi və müəllim ətraf aləmlə və təbiətlə tanışlıqla əlaqədar prosesdə elə üsul və vərdişlərdən istifadə etməlidir ki, uşaqlar keçmiş mövzunu əzbərləmək yolu ilə deyil, şüurlu mənimsəsinlər. Şagirdlərin təbiətlə tanışlıq prosesində materialı, şüurlu mənimsənilməsində müstəqil işlərin yerinə yetirilməsinin də böyük əhəmiyyəti vardır.

Şagirdlərin təbiətlə tanışlıq prosesində idrak fəaliyyətini inkişaf etdirmək müasir təlim nəzəriyyəsinin aktual problemlərdən biridir.

Xalqımızın qarşısında duran vəzifələri yerinə yetirmək üçün əvvəl geniş təhsilli, yaradıcı əməyə qadir, demokratik ideyalar ilə silahlanmış, yüksək əxlaqi keyfiyyətləri özündə cəmləşdirmiş sağlam, möhkəm, iradəli gələcək nəsil yetişdirilməlidir. Gələcək gənc nəsli o cümlədən, uşaqların şəxsiyyət kimi yetişdirilməsini təmin etmək üçün ailə, bağça, məktəbəqədər və məktəb kollektivin birgə səyi, əməyi vacibdir.

Uşaq bağçasının kiçik yaş qruplarından başlanan ətraf aləmlə tanışlıq uşaqların ilkin təlim fəaliyyətidir. Burada uşaqlarda ətraf aləmlə tanışlığın məqsədyönlü təlimin ilk fəaliyyəti başlayır. Məşğələlərdə gedən öyrənmə uşaqlarda maraq duyğusu yaradır, onlarda təbiətə qarşı məhəbbət hissi oyanır, əmək vərdişləri, müstəqillik kimi mühüm xüsusiyyətlər yaranır və inkişaf etməyə başlayır. Uşaq bağçalarının bütün yaş qruplarında təbiətlə tanışlıq prosesində uşaqlarda kifayət qədər fikir və əqli gərginlik yaranır. Bu proses uşağın aktiv yaradıcılığı ilə, öz fəaliyyətlərindən nəticəyə gəlmək, əqli ümumiləşdirmə aparmaq qabiliyyətini formalaşdırır.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlıq, məzmunu, məqsədi indiki demokratik və humanist tələbləri ilə müəyyən edilir. İnkişaf etmiş cəmiyyətdə hər bir məktəbəqədər uşağın təbiətlə tanışlıqla əlaqədar biliklərinin inkişafı nəzərdə tutulmuş proqram əsasında həyata keçirilməlidir. Çünki gələcək nəslin ətraf aləmlə tanışlığın bünövrəsi məhz bu dövrlərdən qoyulur.

Didaktik oyunlar uşaqların təbiət üzərində canlı müşahidələri, ekskursiyaları ilə əlaqələndirilməlidir. Didaktik oyunların xüsusiyyətləri yerli şəraitə uşaqları əhatə edən aləmin xarakterinə uyğun təşkil edilməlidir. Kiçik yaşlı məktəbəqədər uşaqlarda ətraf aləmlə tanışlıqda müşahidələrin rolu olduqca böyükdür. Bildiyimiz kimi ətraf aləmlə tanışlıq anlayışı çox geniş olub bir tərəfdən canlı və cansız təbiəti, digər tərəfdən ictimai həyat hadisələrini əhatə edir. Bu proses lap erkən vaxtlardan sistemsiz başlayır, sonralar isə elmi xarakter alır. Ətraf aləmlə tanışlıq prosesində kiçik yaşlı məktəblilərdə təbiət və cəmiyyət haqqında düzgün təsəvvürlər formalaşır. Bu proses onların hərtərəfli əqli, əxlaqi, estetik və ekoloji tərbiyəsinə müsbət təsir göstərir.

# КЛАССИФИКАЦИЯ МОДЕЛЕЙ И ИСПОЛЬЗОВАНИЕ МОДЕЛЕЙ РАЗНЫХ ТИПОВ В ОБУЧЕНИИ БИОЛОГИИ В ОСНОВНОЙ ШКОЛЕ

**Александр Григорьевич Козленко**
*научный сотрудник Института педагогики национальной академии педагогических наук Украины*
E-mail: kozlenkoa@gmail.com

В начале 2010-х годов системы естественнонаучного образования целого ряда стран претерпели существенные изменения. В 2011-12 гг. были приняты новые Федеральные государственные стандарты основного и полного (среднего) образования в России. В 2013 г. в США после длительного обсуждения в профессиональном сообществе были приняты стандарты нового поколения интегрированного курса естественных наук, Science (The Next Generation Science Standards, NGSS).В 2012 г. было реформировано среднее биологическое образование (szkółyponadgimnazjalne) в Польше. В 2011-13 годах в Украине также были приняты новые государственные стандарты: начального образования и полного общего среднего образования.

Государственный стандарт общего среднего образования [1] основывается на принципах личностно ориентированного, компетентностного и деятельностного подходов, которые реализованы в образовательных областях. При этом личностно ориентированный подход к обучению обеспечивает развитие академических, социокультурных, социально-психологических и других способностей учащихся. Компетентностный подход способствует формированию ключевых и предметных компетенций. К ключевым компетенциям относятся умение учиться, общаться на государственном, родном и иностранных языках, математическая и базовые естественнонаучные и технические компетенции, информационно-коммуникационная, социальная, гражданская, общекультурная, предпринимательская и здоровьесберегающая компетентности. Деятельностный подход направлен на развитие умений и навыков ученика, применение полученных знаний в практических ситуациях, поиск путей интеграции в социокультурной и природной среды.

Все предметы разделены на образовательные области, биология входит в образовательную область «Естествознание» (укр.«Природознавство»). В соответствии с требованиями Государственного стандарта были разработаны учебные программы для основной школы (5-9 классы), в том числе по биологии [2]. Принято такое распределение учебного материала по классам изучения: курс «Природоведение» рассчитан на один год (5 класс, 2 часа в неделю); предмет «Биология» включает изучение растений, грибов, бактерий (6 класс), животных (7 класс) и биологии человека (8 класс), а также основных закономерностей биологии (9 класс) – по 2 часа в неделю в течение всех 4 лет изучения в основной школе. Хотя во многих странах (в частности, в России, Польше, Великобритании, Франции) построение курса, предусматривающее формирование общебиологических представлений в основной школе, является традиционным, для Украины оно является новым. Это обусловливает изменение содержание, форм, методов и средств изучения биологии в 9 классе основной школы по сравнению со старшей школой (10-11 классами).

В обучении биологии ведущую роль играет познавательная деятельность, направленная на овладение методами научного познания, которая реализуется через использование метода моделирования явлений, объектов и процессов живой природы. Моделирование играет выдающуюся роль в научном познании, но в обучении биологии оно еще не получило соответствующего распространения. Особенно важным является использование различных моделей процессов и явлений при изучении общебиологических закономерностей в основной школе. Ознакомление с различными моделями, создание, использование, анализ свойств и ограничений моделей являются основой деятельностного усвоения теоретических положений современной биологии. Работа с моделями является средством преодоления противоречия между научным знанием и бытовыми представлениями, а также способом развития ключевых и предметных компетенций. Использование моделирования в обучении биологии призвано повлиять на повседневное бытие учеников: происходит формирование умений активного анализа моделей, предлагаемых в средствах массовой информации, литературе и искусстве, рекламе и т. д.

В настоящее время можно найти множество различных определений понятий «модель» и «моделирование». По определению А. И. Уемова, «Модель – это система, исследование которой

служит средством для получения информации о другой системе» [3]. «Под моделью понимают отображение фактов, вещей и отношений определенной области знаний в виде более простой, более наглядной материальной структуры этой или другой области», – такое определение модели приводит Г. Клаус [4]. Эталонным является определение, которое дает В. А. Штофф в своей книге «Моделирование и философия»: «Под моделью понимается такая мысленно представляемая или материально реализуемая система, которая, отображая или воспроизводя объект исследования, способна замещать его так, что ее изучение дает нам новую информацию об этом объекте» [5].

По мнению В. В. Давыдова, несмотря на то, что в понимании модели существует широкий «разброс», во всех случаях употребления понятия «модель» можно выделить следующие общие моменты: 1) модель представляет собой средство научного познания; 2) модель всегда выступает как такой представитель оригинала, заместитель прототипа, который в каком-либо отношении более удобен для изучения, и можно перенести полученные при этом знания на исходный объект; 3) как модели, так и прототипы являются системой, характеризующейся существенными структурными свойствами и определенными отношениями; 4) модели охватывают только те свойства прототипа, которые существенны в данной ситуации и которые являются объектом исследования; 5) модели однозначно соответствуют оригиналу [6].

Модели и связанные с ними представления являются продуктами сложной познавательной деятельности, включающей, прежде всего, мыслительную переработку исходного чувственного материала, его «очищение» от случайного и т. д. Модели выступают как продукты и как средство осуществления этой деятельности.

Процесс замещения одного объекта другим с целью получения информации о важнейших свойствах объекта-оригинала с помощью объекта-модели называется ***моделированием***. И. Т. Фролов в своей книге «Гносеологические проблемы моделирования» даёт такое определение моделированию: «Моделирование означает материальное или мысленное имитирование реально существующей системы путем специального конструирования аналогов (моделей), в которых воспроизводятся принципы организации и функционирования этой системы» [7]. Иными словами, моделирование может быть определено как представление объекта моделью для получения информации об этом объекте путем создания модели и/или проведения экспериментов с моделью.

Единая классификация моделей и видов моделирования затруднительна в силу многозначности понятия «модель» в науке и технике. Её можно проводить по различным основаниям:

- по характеру моделей (т. е. по средствам моделирования);
- по характеру моделируемых объектов;
- по сферам приложения моделирования (моделирование в технике, в физических науках, в химии, моделирование процессов живого, моделирование психики и т. п.)
- по уровням («глубине») моделирования, начиная, например, с выделения в физике моделирования на микроуровне (моделирование на уровнях исследования, касающихся элементарных частиц, атомов, молекул).

Любая классификация видов моделирования обречена на неполноту, тем более, что терминология в этой области опирается не столько на «строгие» правила, сколько на языковые, научные и практические традиции, а ещё чаще определяется в рамках конкретного контекста и вне него не имеет определенного, стандартного значения.

Учитывая, что использовать классификацию моделей должны будут сами учащиеся, а потому нужно было выбрать такую классификацию, которая была бы одноуровневой (без детализации на подвиды) и максимально простой и понятной. Была использована классификация моделей Стивена Джилбертаиз книги «Обучение естественным наукам, основанное на моделях» («Models-basedscienceteaching», [8]), в которой выделяются такие типы моделей:

- **Реальные (объемные или физические) модели** (масштабные модели, макеты, фигурки; в обучении биологии это трехмерные модели ДНК и других молекул, муляжи мозга, объемные модели клеток и вирусных капсидов т.п.);
- **Образные (графические) модели** (чертежи, фотографии, схемы; в обучении биологии это схемы процессов клеточного деления, филогенетические деревья и ленты времени, представление в виде диаграмм или инфографики цифровых данных и др.);
- **Математические модели** (формулы, уравнения, графики различных биологических процессов: колебания численности хищников и жертв в экосистемах, динамика распространения заболевания во время эпидемии, расчеты вероятности наследования признаков в генетике и др.);

- **Вербальные (словесные) модели** (описания, сценарии, инструкции; в обучении биологии это модельные описания протекания процессов, цитаты из художественной литературы с описаниями определенных объектов и явлений, задания на составление текстового, в т. ч. в виде художественного произведения – сказки или стихотворения – описания процессов в клетке тому подобное);
- **Имитационные модели** (игры-симуляции, тренажеры полетов, крэш-тесты; в обучении биологии это стратегические настольные игры с участием нескольких игроков, интерактивные компьютерные модели и компьютерные игры с научной основой);
- **Символические (семиотические) модели** (знаки алфавита, дорожные знаки, смайлики символы химических элементов и т. д.; в обучении биологии это использование изображений биологических объектов или графиков процессов в рекламе, создание символов для обозначения различных видов биологической опасности и др.).

Использование моделей для изучения и исследования процессов и явлений живой природы является важной составляющей авторизации учебного материала учителем при преподавании школьного предмета как части суммы знаний определенной предметной области. Поэтому учителю для работы нужен максимально широкий выбор различных типов моделей, среди которых учитель выбирает наиболее адекватные конкретным условиям, или предлагает другие, собственные текстовые, математические или графические модели, исходя из реального состояния учебной среды конкретного класса и учебного заведения.

В рамках государственной научной темы лаборатории нами был разработан вариант учебной программы для 9 класса [9], содержание которой направлено на формирование общебиологических понятий и научной картины живой природы. В программе предложено двенадцать блоков моделей:

1. Химические элементы. Периодическая система Д.И. Менделеева.
2. Модели ДНК.
3. Белки. Ферменты.
4. Свойства кодов. Генетический код. Мутации.
5. Модели строения и распределения хромосом. Мутации.
6. Моделирование вирусных капсидов.
7. Родословные.
8. Биотические факторы в экосистемах. Пирамиды чисел, биомассы и энергии.
9. Филогенетические деревья. Классификация и кладистика.
10. Формы сохранения ископаемых организмов. Лента времени.
11. Антропогенез.
12. Численность человечества и эпидемии.

В блоках представлены обычно все названные выше типы моделей. Так, в блоке «Численность человечества и эпидемии» представлены:

- **Образная (графическая) модель**: диаграмма Флорис Найтингейл по фильму BBC «Графические образы мира» ("The Beauty of Diagrams", 2010 г., режиссер Майкл Вотерхаус), которая была исторически первой визуализацией данных о заболеваемости и смертности, и оказала существенное влияние на развитие медицины в мире;
- **Реальная (объемная) модель**: глобус или его упрощенный самодельный вариант на арбузе или тыкве: обозначение крупнейших городов и агломераций мира с отображением риска распространения эпидемий определенных инфекций;
- **Математическая модель**: анализ формул развития эпидемии модельной болезни, по которым нужно выяснить основные свойства болезни: умирают ли от нее люди, формируется ли к ней стойкий иммунитет и тому подобное;
- **Вербальная модель**: описание эпидемии холеры по книге Джованни Боккаччо «Декамерон» (или вирусной инфекции по книге Дэна Брауна «Инферно») с анализом достоверности приведенных в художественном произведении фактов и обсуждением свойств этой модели;
- **Имитационная модель**: настольная игра «Пандемия» [10]. (В этой игре игрокам совместными усилиями необходимо спасти человечество от инфекций, которые распространяются по определенным правилам так, что порой вспышки эпидемий охватывают города и страны. Игроки перемещаются из города в город, ликвидируют очаги инфекций, строят лаборатории и пытаются создать вакцины против всех 4 болезней.)
- **Символическая (семиотическая) модель**: знак биологической опасности и задача на разработку знаков опасности для инфекций с различными путями передачи: водный и

пищевой (алиментарный или фекально-оральный), воздушно-капельный, почвенный, контагиозный, трансмиссивный (заболевания, передающиеся переносчиками).

На занятии учащиеся распределяются по группам, каждая группа получает материалы к своей модели или задание по моделированию. Количество учащихся в группах определяется наполненностью классов, но не превышает пять учеников. Модели собраны попарно, с таким расчетом, чтобы ученики, выполняющие парные задания, знакомились с результатами работы друг друга и после обмена мнениями дорабатывали свои модели. Анализ моделей также проводится группой, оценка выставляется по элемента манализа и вопросам к модели. План анализа моделей включает следующие пункты:

1. Название модели;
2. Тип модели (нужно выбрать один или несколько вариантов);
3. Объект моделирования (оригинал);
4. Собственно модель (краткое описание);
5. Цель моделирования;
6. Существенные свойства модели (атрибуты), соответствующие свойствам оригинала;
7. Свойства (атрибуты) оригинала, отсутствуют в модели (несущественные для модели свойства);
8. Ответ на содержательное (биологическое) вопросы;
2. Польза от работы с моделью (что стало более понятным благодаря работе с моделью).

Для каждого из блоков моделей важны разные элементы анализа. Это влияет на определение максимального количества баллов за каждый из элементов анализа, осуществляемого учениками. Например, в первом блоке важным является именно выделение типа модели по приведенной классификации, во втором и третьем блоках значительное внимание уделяется существенным и несущественным свойствам оригинала, которые нашли или не нашли отражения в конкретной модели. В дальнейшем (четвертый-пятый блоки) ученики должны выяснить, как связана цель моделирования с выбором типа модели и как она влияет на выбор существенных особенностей оригинала, отраженных в модели. В шестом блоке моделей было увеличено количество баллов за ответы на дополнительные вопросы и за рефлексию (описание личностной пользы от работы с моделями).

Таким образом, при работе с различными блоками моделей ученики постепенно формируют умения анализа моделей и в дальнейшем применяют их в своей работе. Из этого можно сделать вывод, что использование метода моделирования при обучении общебиологическими закономерностям, в частности в основной школе, имеет интересные перспективы внедрения.

**ЛИТЕРАТУРА**


1. Державний стандарт базової і повної загальної середньої освіти [Електронний ресурс]. – Режим доступу: http://www.mon.gov.ua/ images/files/doshkilna-cerednya/serednya/derzh-standart/post_derzh_stan.doc.
2. Навчальна програма з біології (6–9 класи) [Електронний ресурс]. Режим доступу: http://www.mon.gov.ua/images/education/average/new_pr/ biology_7_9.doc.
3. Уемов А. И. Логическиеосновы метода моделировании. М., 1971.
4. Клаус Г. Кибернетика и философия. М., И.Л., 1963, с. 262.
5. Штофф В.А. Моделирование и философия. – М.: Наука, 1966.
6. Фролов И.Т. Гносеологические проблемы моделирования. М.: Наука, 1961.
7. Gilbert, S. W. Models-basedscienceteaching / byStevenGilbert. NSTA Press, 2011.
8. Експериментальна програма для загальноосвітніх навчальних закладів. Біологія, 6-9 класи / Надія Матяш, Тетяна Коршевнюк, Валентин Вербицький, Олександр Козленко // Біологія і хімія в рідній школі. 2015, № 5, с. 28-42, с. 28-35
9. Leacock M., Cappel J., HanischCh., Moulun R., Thiel T., Pandemic – «Z-Man Games», «Albi», «Filosofia Editions», 2008.


## TƏHSİLİN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNİN VALEOLOJİ VƏ DİDAKTOGEN PROBLEMLƏRİ


**Heydər Cəfərov**,
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: heysevsara@mail.ru)

***Açar sözlər:*** *təhsilin məzmunun təkmilləşdirilməsi, ictimai şüur, elmi informasiyalar, intensiv, ekstensiv, təhsilin məqsədi, şəxsiyyətyönümlü təhsil, pedaqoji zorakılıq, valeologiya, didaktogeniya, fiziki, cismani və mənəvi-psixoloji sağlamlıq*

***Ключевые слова:*** *совершенствование содержания образования, общественное сознание, научные информации, интенсивный, экстенсивный, цель образования, личностно-ориентированное образование, педагогическое насилие, валеология, дидактогения, физическое, телесное и духовно-психологическое здоровье*

***Key words:*** *theory formalistic of education, social consciousntss, scientific information, intensive, extensive, aim of edication, of education to direct personality, pedagogic violence, valeology, didaktogenija, maintenance perfecsion of education, theory material of education, spiritual (moral) health, physical health*

XVIII əsrin sonlarından başlayan (maddi və formal təhsil nəzəriyyələrini yada salaq) təhsilin məzmununun təkmilləşdirilməsi prosesi XXI əsrin bu günlərində daha da aktuallaşmış və kəskinləşmişdir. Belə ki, bəşər cəmiyyətinin obyektiv inkişafı və onun tələbatlarına müvafiq olaraq təsilin məzmunu da durmadan yeniləşdirilmiş, təkmilləşdirilmiş və mürəkkəbləşdirilmişdir. Nümunə üçün qeyd etmək lazımdır ki, əgər bütövlükdə ictimai şüura məlum olan informasiyaların ilk (birinci) iki dəfə artımı 1750-ci, ikinci 1900-cü, üçüncü 1950-ci illərə təsadüf etmişdisə (2), müasir dövrdə, yəni 60 ildən sonra belə bir artım, alimlərin rəyinə görə, hər 5-6 ildən bir baş verir. Bu, təbii ki, öz növbəsində ən geci müvafiq olaraq hər beş-altı ildən bir təhsil sisteminin bütün pillələrində, məktəbəqədər təhsildən başlamış doktoranturaya qədər, təhsilin məzmununun (fənn kurikulumları, tədris planı, proqramları, dərsliklər, dərs vəsaitləri, sorğu materialları və s.) yeniləşdirilməsini tələb edir.

Nəzərə almaq lazımdır ki, elmi informasiyaların iki dəfə artım müddəti get-gedə azalır, yəni yaxın 20 ildə, ola bilsin ki, bu proses 3-4, 2-3, yaxud 1-2 ildən, hətta 10-15 aydan bir baş versin. Bəzi mənbələrdə artıq yaşadığımız bu günlərdə informasiyaların və toplanılmış elmi biliklərin həcminin iki dəfə artımının 2-3 ildən bir baş verdiyi vurğulanır (3), hətta 2020-ci ildə bu hadisənin hər 73 gündən bir təkrar olunacağı ehtimal edilir. Bu zaman bütövlükdə təhsilin məzmunu da müvafiq olaraq 3-4 və 2-3 ildən bir yeniləşdirilməli və təkmilləşdirilməlidir.

Bir tərəfdən bu proseslər (təhsilin məzmununun yeniləşdirilməsi, təkmilləşdirilməsi, müvafiq islahatların aparılması, təhsil müddətinin artırılması və s.) qanunauyğundur, labüddür, inkaredilməzdir, qaçılmazdır, aksiomadır, yəni sübuta ehtiyacı olmayan gerçəklikdir. Belə ki, təbiət, cəmiyyət və insan haqqında elmi məlumatların, informasiyaların fasiləsiz və durmadan artması, nisbi həqiqətlərin mütləq həqiqətlərə çevrilməsi nəticəsində ictimai şüur inkişaf edir, onun məzmunu genişlənir, dərinləşir və təkmilləşir. Bu isə öz növbəsində təbii olaraq təhsilin məzmununun ictimai şüurun inkişaf tempinə müvafiq təkmilləşdirilməsini (intensiv, yaxud ekstensiv yolla), onun dövrün, zamanənin cari və müəyyən qədər perspektiv tələblərinə uyğunlaşdırılmasını tələb edir. Oxşar proseslər, ümumiyyətlə, dövlətin ictimai-iqtisadi quruluşundan, maddi-texniki bazasından, onun məhsuldar qüvvələri və istehsal münasibətlərinin inkişaf səviyyəsindən asılı olmayaraq müasir təhsil sistemlərinin ən səciyyəvi xüsusiyyətlərindən biridir. Bu təbii ictimai prosesləri nəzərə alaraq ölkənin təhsil sistemini vaxtında müasirləşdirən, təhsilin məzmununu fasiləsiz təkmilləşdirən dövlətlər sürətlə inkişaf edir, iqtisadi qüdrətini yüksəldir və son nəticədə cəmiyyət üzvlərinin maddi-rifah halının yaxşılaşdırılmasına nail olur.

Digər tərəfdən, müasir elmin sürətli inkişaf tempinə müvafiq olaraq təhsilin məzmununun təkmilləşdirilməsi təhsilalanların təbii inkişafını (akselerasiya prosesi də nəzərə alınsa da belə) xeyli qabaqlayır, onların səhhətinə, mənəvi və cismani sağlamlığına ciddi mənfi təsir göstərir, son nəticədə isə pedaqoji zorakılığa gətirib çıxarır. Məhz buna görə də təhsilin inkişaf etdirilməsi, onun məzmununun təkmilləşdirilməsi və müasir tələblərə müvafiq yeni təhsil standartlarının hazırlanması ilə yanaşı, eyni vaxtda paralel olaraq təhsilalanların sağlamlığının təmin edilməsi və qorunması üçün də hər cür rahat (komfort) şərait yaradılmalı və buna dövlət tərəfindən xüsusi qayğı göstərilməlidir. Lakin bütövlükdə müasir təhsil sistemləri ənənəvi olaraq təhsilalanların fiziki, cismani, mənəvi-psixoloji sağlamlığının təmin edilməsindən, qorunmasından daha çox onların təhsil və əqli, intellektual səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir. Bu, demək olar ki, müasir təhsil sistemlərinin ən səciyyəvi mənfi xüsusiyyətlərindən, nöqsanlarından biridir.

**ƏDƏBİYYAT**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Bakı Çap Evi, 2011.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
3. tskk.spider.ru/content/section/…/458/
4. technologies.su/istoriya_razvitiya_it

# ÇAĞDAŞ TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR EDƏN BƏZİ PROBLEMLİ QRAMMATİK MÖVZULAR HAQQINDA

**Sədaqət Həsənova,**
*Naxçıvan Müəllimlər İnstitutunun Tərbiyə işləri üzrə prorektoru,*
*filologiya üzrə elmlər doktoru, professor*
E-mail: sedagethesenova@gmail.com

***Açar sözlər:*** *sintaksis, söz-xəbər, söz-cümlə, termin, nitq hissəsi*
***Ключевые слова:*** *синтаксис, слово-сказуемое, слово-предложение, термин, часть речи*
***Key words:*** *syntax, word-predicate, word-seuteuces, term, parts of speech*

XX yüzillikdə Azərbaycan dilinin qrammatikasına, xüsusilə də onun sintaksis bölməsinə aid yazılmış elmi-nəzəri əsərlər indi də öz əhəmiyyətini itirməmiş, əksinə, sintaktik mövzularla bağlı yeni yazılan əsərlərin meydana çıxmasında onlar çox dəyərli qaynaq hesab edilir. Lakin sintaksisdə elə terminlər var ki, onların adı aid olduğu mövzunun məzmununu düzgün ifadə etmir. Bu baxımdan, "söz-xəbər" terminini göstərmək olar.

Məlumdur ki, "söz-xəbər" termini bir sıra ismi xəbərlərə aid edilir (məsələn: *vardır, var, yoxdur, lazımdır, gərəkdir, mümkündür, bəsdirvə s.*). Maraqlı və mübahisəlidir ki, nə üçün onlara "söz-xəbər" adı verilib? Məgər başqa xəbərlər sözdən ibarət deyil? Doğrudur, "söz-xəbər" adı verilən həmin xəbərlər yalnız sözlə ifadə olunur, yəni onlar quruluş baxımından sadə olur, çünki dilimizdə söz birləşməsi ilə ifadə edilən "söz-xəbər" yoxdur. Əgər bu cəhətinə görə onlar "söz-xəbər" adlanırsa, o zaman digər quruluş baxımından sadə ismi və feli xəbərlərə nə ad verək? Məsələn: *gözəldir, istidir, bayramdır, gəldim, oxuyuram* və s. Bu xəbərlərin hamısı sözlə ifadə olunmuşdur. Deməli, təkcə sözlə ifadə edildiyinə görə "söz-xəbər" hesab edilən xəbərlərə həmin adı vermək məntiqə uyğun deyil. Və nəinki xəbər, bütün cümlə üzvlərinin formalaşmasında sözlər iştirak edir. Əgər "bəsdir" xəbərinə "söz-xəbər" deyiriksə, nəyə görə "səhərdir" xəbərinə "söz-xəbər" deməyək? Və ya nəyə görə və hansı məntiqlə "söz-xəbər" ola bilər, lakin "söz-mübtəda", "söz-təyin", "söz-tamamlıq", "söz-zərflik" ola bilməz? Axı onların hamısı sözdən yaranıb. Bu problemlərə görə, "söz-xəbər" termininin yeniləşməsinə, dəyişdirilməsinə ehtiyac duyulur.

Dilçilik ədəbiyyatlarında "söz-xəbər" adlanan xəbərlərin mühüm xüsusiyyətlərindən biri onların suala cavab verməməsi ilə bağlıdır. Fikrimizcə, həmin xəbərlərin "suala cavab verməyən xəbər" və ya "sualı olmayan xəbər" adı altında öyrədilməsi və öyrənilməsi daha məqsədəuyğundur.

Sintaksisdə diqqəti çəkən terminlərdən biri də "söz-cümlə" terminidir. Bu məsələnin də izahına və adının düzgünlüyü məsələsinin həllinə ehtiyacımız vardır.

Dilimizdəki bəzi cümlələr böyük qrammatiklər tərəfindən "söz-cümlə" adlandırılsa da, onların aid olduqları cümlə haqqında bu termini işlətmək yerinə düşmür. Necə ki, bütün cümlə üzvləri sözlərdən təşkil edilir, eləcə də, həmin cümlə üzvlərinin birliyi olan cümlələr haqqında da bunu demək mümkündür. Yəni cümlələr də sözlər və sözlərin birləşməsindən yaranır. Söz leksik vahiddir, cümlə isə qrammatik vahiddir. Bu anlamda, "söz" və "cümlə" terminlərini birləşdirərək sintaktik bir anlayışın ifadəçisi kimi qiymətləndirmək elmin, xüsusilə də mövzunun düzgünlük və dəqiqliyinə xələl gətirir.

"Söz-cümlə" adlandırılan cümlələrin digər cümlələrdən əsas fərqi odur ki, onlar ancaq köməkçi nitq hissələri ilə ifadə olunur və belə cümlələrin ifadə vasitələri üç qrupa ayrılır:

1. Ədat (bu məqsədlə, əsasən, təsdiq və inkar ədatları işlənir: *bəli, hə, xeyr, yox, heç*).

2. Nida (*Aha! Bəh-bəh! Ay aman! Vay-vay!* Və s.).

3. Modal sözlər (*əlbəttə, şübhəsiz, bəlkə, bəlkə də, doğrudan, doğrudan da*). Bu məqsədlə, əsasən, təsdiq (fikrin dəqiqliyini bildirən) və güman-şübhə bildirən modal sözlər işlənir.

Deməli, dilimizdəki bütün cümlələr ifadə vasitəsinə görə iki qrupa ayrılır:

1. Əsas nitq hissələri ilə ifadə edilən cümlə.

2. Köməkçi nitq hissələri ilə ifadə edilən cümlə.

Fikrimizcə, “söz-cümlə” ikinci qrupa aid olduğundan onun “köməkçi nitq hissələri ilə ifadə edilən cümlə” adlandırılması daha məqsədəuyğundur. Yenə də tələsmək lazım deyil. Çünki ola bilər ki, mütəxəssislər daha uyğun termin və ya ifadənin işlənməsini məsləhət görsünlər.

## MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ YENİ YANAŞMALARIN TƏTBİQİ GÜNÜN TƏLƏBİ KİMİ

**Laləzar Cəfərova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*
E-mail: l.cafarova@mail.ru

***Açar söz:*** *məktəbəqədər təhsil, təhsilin keyfiyyəti, pedaqoji proses, inteqrativ təlim*
***Ключевые слова:*** *дошкольное образование, качество образования, педагогический процесс, интегративного обучения*
***Key word:*** *preschool education, the quality of education, teaching process, teaching integrative*

Hər bir tarixi dövrün pedaqoji sistemi mühüm dəyişikliklər dövrünü yaşayır. Lakin cəmiyyətin inkişafının bütün mərhələlərində kiçik nəslin müstəqil həyata keyfiyyətli hazırlanmasına xüsusi diqqət yetirilməlidir. Çünki, məktəbəqədər dövr-uşaq şəxsiyyətinin formalaşmasında mühüm mərhələdir.

Müasir şəraitdə məktəbəqədər təhsil sisteminin inkişafı məktəbəqədər yaşlı uşaqların inkişafına, onların adekvat yaş xüsusiyyətlərinə yönəlib. Bu o deməkdir ki, məktəbəqədər təhsil sistemi məktəbəqədər yaşlı hər bir uşağın inkişafı üçün bərabər imkanların yaradılmasını, onların ibtidai təhsil pilləsində və təlimin növbəti pillələrində uğurlu təlimini təmin etməyə imkan verən inkişafını təmin etməlidir. Bütün bunlar məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsi, eyni zamanda təlim prosesinə yeni yanaşmaların tətbiqi ilə mümkündür.

Bu gün müasir uşaq yüksək zehni potensiala malikdir, amma biliyi nə qədər çox olsa da, əməli fəaliyyətində onları tətbiq edə bilmir. Bu problemin səmərəli həllinin vasitələrindən biri dünyanın bütöv mənzərəsi haqqında ilkin təsəvvür yaratmağa kömək edən təlimin inteqrativ məzmunu ola bilər.

Məzmunun yeniləşdirilməsi ilə yanaşı pedaqoji prosesin təkmilləşdirilməsi də çox mühümdür. Pedaqoji prosesin təkmilləşdirilməsi və uşaqlarla təlimedici işdə səmərəliliyin yüksəlməsi fəaliyyətlərin aşağıdakı istiqamətlər üzrə təşkilini təklif edir:

- uşaqlarla ünsiyyət formasının dəyişdirilməsi (fəaliyyətin avtoritar formasından hər bir uşağın fərdi xüsusiyyətinə uyğun şəxsiyyətyönlü, tərbiyəçi ilə uşaq arasında inam, etibarlı əməkdaşlıq üzərində qurulan ünsiyyətə keçilməsi);
- məşğələlərin forma və məzmununun dəyişdirilməsi, məzmunun inteqrativ xarakter daşıması;
- uşaqların həyatının ümumbəşəri mənəvi dəyərlərin formalaşmasına yönəldilmiş klassik və müasir musiqi, təsviri incəsənət əsərləri, uşaq ədəbiyyatının ən yaxşı nümunələrindən istifadə etməklə onların dünyagörüşünün genişləndirilməsi;
- qrup otağında uşaqların sərbəst, müstəqil fəaliyyətinin təmini və onların meyl və maraqları nəzərə alınmaqla fəaliyyət növünün və formasının ( yaşıdları ilə birgə və ya fərdi) seçilməsinə uyğun olaraq yaradıcı əşya mühitinin, inkişafetdirici mühitin yaradılması;
- uşağın maraq və arzusu nəzərə alınmaqla hər bir fəaliyyət növündə qarşılıqlı əməkdaşlığa cəhdi və əməkdaşlıq bacarıqlarının nəzərə alınması;

Pedaqoji prosesin humanistləşdirilməsi gündəlik həyatda və uşaq həyatının ənənəvi fəaliyyət növlərində tərbiyəçi-uşaq münasibətlərinin, ünsiyyətin dəyişdirilməsi, tərbiyənin şəxsiyyətyönlü modelinin qurulmasını təklif edir.

Təhsil sisteminin yenidən qurulması zamanı həmişə müəyyən çətinliklər qarşıya çıxır. Bu çətinliklərin dəf edilməsi zamanı tərbiyəçilərin öz sosial missiyasının əhəmiyyətini anlamaları çox mühümdür ki, onlar öz səylərini dəyərli tərbiyəyə və uşaqların təhsilinə, onların psixoloji müdafiəsinə yönəltsinlər.

Həyata keçirilən təlim vəzifələri o halda səmərəli həll olunur ki, tərbiyəçi təlim-tərbiyə prosesinin təşkilində məqsədyönlü şəkildə inteqrativ yanaşmadan istifadə edir.

İnteqrativ yanaşmanın mahiyyəti müxtəlif inkişaf sahələrindən biliklərin bərabərhüquqlu əsasda bir-birini tamamlayaraq birləşməsidir. Bu zaman məşğələlərdə tərbiyəçilər müxtəlif inkişaf sahələrindən olan bir neçə məsələni həll etmək imkanına malik olurlar, uşaqlar isə proqramın müxtəlif bölmələrinin məzmununu paralel olaraq mənimsəyir ki, oyun və müstəqil fəaliyyətinin təşkili üçün vaxta qənaət etməyə imkan verir.

İnteqrativ məşğələlərdə məktəbəqədər müəssisənin proqramına uyğun mövzuya əsasən tərbiyəçi tərəfindən seçilmiş məzmun müxtəlif bilik sahələrini birləşdirir.

Belə məşğələlər prosesində uşaqlar müxtəlif inkişaf sahələrinin məzmununa paralel yiyələnirlər, bu da uşaqların oyun və sərbəst fəaliyyətinin təşkili üçün vaxta qənaət etməyə imkan verir. İnteqrasiyanın və onlar üçün müəyyənləşdirilmiş məzmunun bu formaları məktəbəqədər təhsil dövründə daha səmərəli istifadə olunur. Pedaqoji prosesə bütöv - inteqrativ yanaşma gələcək məktəblilərə dünyanın tam obrazını verməyə, onlarda sistemli bilikləri və ümumiləşdirilmiş bacarıqları formalaşdırmağa imkan verəcək.

**ƏDƏBİYYAT**


1. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu il http://www.edu.gov.az/
2. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). (3-6 yaş). Bakı, 2015.
3. Uşaqların məktəbəhazırlığının təşkili məsələləri. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. 13 iyul 2016-cı il, № 271


## IX SİNİF "ƏDƏBİYYAT" DƏRSLİYİ ÜZRƏ TƏLİMİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ


**Bilal Həsənli,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
Email: bilalhasanli@yahoo.com



***Açar sözlər****: ədəbiyyat, dərslik, metodika, kurikulum, təlim, metod, şagird, müəllim, strategiya*
***Ключевые слова****: литература, учебник, методика, курикулум, обучение, метод, ученик, учитель*
***Key words:*** *literature, textbook, methods, curriculum, teaching method, students, teachers*


Ümumtəhsil məktəblərinin IX sinifləri üçün yeni "Ədəbiyyat" dərsliyi əvvəlki dərslikdən bir sıra əhəmiyyətli xüsusiyyətləri ilə fərqlənir. Belə ki, "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" əsasında hazırlanmış yeni dərsliyin elmi-metodik konsepsiyasının əsasında "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan hədəflər, şagirdlərin ədəbi təhsilinin məzmununda nəzəri biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi, qazanılmış bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsi durur. Bu konsepsiyaya uyğun olaraq dərslikdə şagirdlərdə ilk növbədə idraki, informativ-kommunikativ bacarıqların formalaşdırılması diqqət mərkəzində saxlamışdır . Təlim materiallarının mənimsənilməsi və müvafiq fəaliyyət növlərinin tətbiqi üç əsas metodoloji mərhələyə bölünür: mövzu ilə bağlı əvvəlki biliklərin aktuallaşdırılması; yeni biliyin mənimsənilməsi; bilik və bacarıqların tətbiqi, dəyərləndirilməsi.

1. Təlim materialının öyrənilməsi üzrə işin ilk mərhələsi motivasiya, idraki maraq oyatmadır. İdrak fəallığı stimullaşdırılır, onlar tədqiqatçılığa yönəldilir.

2. Yeni biliyin mənimsənilməsi fənn kurikulumunun fəlsəfəsinə və məntiqinə uyğun olaraq, əsas etibarilə iki mərhələdə həyata keçirilir: bədii əsərin məzmununun mənimsənilməsi və təhlili.

Bədii əsərin məzmunun mənimsənilməsi dərslərində müəllimin izahı, bədii oxu ustasının ifasının dinlənilməsi, şagirdlərin səsli, səssiz, rollar üzrə oxusu, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu ikihissəli gündəlik və s. oxu növlərindən istifadə, süjetli bədii nümunələrin hissələrə ayrılması, plan tərtibi, məzmununun müxtəlif formalarda (yığcam, geniş, yaradıcı nağıletmə) nağıl edilməsi və s. vasitəsilə həyata keçirilir.

Fənn kurikulumunda 1.1.1. alt standartı tanış olmayan sözlərin mənasını dərsliyin sonunda verilmiş lüğətdən, eləcə də digər lüğət və sorğu kitablarından istifadə etməklə müstəqil aydınlaşdırılmasını nəzərdə tutur. Lakin təcrübə göstərir ki, V-VII siniflərdən fərqli olaraq, VII-IX siniflərdə şagirdə tanış olmayan sözlərin hamısının mənasının dərslikdəki lüğətdə izah edilməsi özünü doğrultmur. Belə ki, ümumi orta təhsilin son pilləsində bədii mətndəki tanış olmayan bütün sözlərin mənasının yalnız dərsliyin sonunda verilmiş lüğətdə axtarılması əslində müvafiq standartın məzmununun təhrif edilməsinə gətirib çıxarır. Bu, şagirdlərin digər lüğətlərdən, sorğu kitablarından istifadə bacarığına mənfi təsir edir. Buna görə də şagirdlərə tanış olmayan sözlərin bir qisminin dərslikdəki lüğətdə verilməməsi məqsədəuyğun sayılmışdır.. Standartın mahiyyətinə uyğun olaraq, tanış olmayan sözlərin mənasının digər lüğət və sorğu kitablarından istifadə ilə aydınlaşdırılması diqqət mərkəzində saxlanılmalıdır." Bu məqsədlə fənn kabinetində və məktəb kitabxanasında lüğətlərin və sorğu kitablarının olmasına diqqət yetirilməlidir.

Bədii mətnin təhlili (1.2. əsas standartı**)** üzrə sual və tapşırıqlar "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmişdir. Təhlil zamanı şagirdlər "Əsərin təhlilinə hazırlaşın" mətnindən əlavə istiqamətverici mənbə kimi istifadə etməlidir. Şagirdlərin öyrəndiklərini müzakirə etməsi, yaradıcı tətbiq etməsi, ümumiləşdirməsi üçün "tətbiq, müzakirə, yaradıcı iş" başlığı altında sual və tapşırıqlar sistemi üzrə iş təşkil olunmalıdır.

Mənimsənilmiş bilik və bacarıqları dəyərləndirmək məqsədilə hər bölmənin sonunda "Qiymətləndirmə materialları" verilmişdir. Bu materiallar nümunə səciyyəli olub müəllimə kömək məqsədi izləyir. Müəllim öz sinfinin hazırlıq səviyyəsindən, qarşıya qoyduğu təlim məqsədlərindən çıxış edərək təqdim edilən qiymətləndirmə vasitələrində dəyişiklik edə bilər. Eyni zamanda təşəbbüskarlıq və yaradıcı yanaşmanı nümayiş edərək bədii mətnləri, sual və tapşırıqları müstəqil müəyyənləşdirə bilər.

Müasir ədəbiyyat dərslərində şagirdlərdə formalaşdırılan əsas bacarıqlardan biri də öyrənilmiş materialın düzgün təqdim edilməsidir. Bu bacarıq 9-cu sinif üçün fənn kurikulumunda təlim nəticələrində (şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir), eləcə də 2.1.1. alt standartında (Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. ) və 2.1.2. alt standartında ( Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir) öz əksini tapmışdır. Həmin təlim nəticəsinin əldə edilməsi və şagirdlərdə təqdimat bacarığının formalaşdırılması üçün müəllimin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərə müstəqil olaraq müvafiq məlumatları əldə etmək, bunun üçün müxtəlif mənbə və vasitələrdən düzgün yararlanmaq, informasiya texnologiyalarının imkanlarından faydalanmaq, toplanmış informasiyanı düzgün sistemləşdirmək və ümumiləşdirmək bacarıqlarının aşılanmasıdır.

Bu bacarıqların formalaşdırılması üçün müəllim şagirdləri müxtəlif əlavə mənbələrlə işləməyə istiqamətləndirməli və əldə olunacaq məlumatların düzgün sistemləşdirilməsi yolları barədə tövsiyələr verməlidir. Bu baxımdan, demək olar ki, hər bir dərsdə, elcə də hər yarımilin sonunda öyrənilən bədii əsərlərlə bağlı təqdimatlar hazırlamaq üçün müxtəlif mövzuların təklif edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məktəb təcrübəsi şagirdlərin tədqiqat apararaq yeni bilikləri ümumiləşdirilmiş təkrarlar, sistemləşdirilmiş məlumatlar şəklində daha yaxşı qavradıqlarını sübut edir. Bu məqsədlə müəllim üçün metodik vəsaitdə bütün mövzular üzrə müvafiq tövsiyələr verilir. Şagirdlərin apardıqları tədqiqatların nəticələrinin, qazandıqları biliklərin layihələr üzrə təqdimatlara həsr olunmuş dərslərdə və biliklərin ümumiləşdirilməsi, sistemləşdirilməsi dərslərində təqdim edilməsi isə müstəqil tədqiqat aparmaq, nəticələri sistemli və düzgün şəkildə təqdim etmək bacarıqlarının formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi dərslərində yarımil ərzində öyrənilmiş ümumi və mühüm ideyalar qeyd edilir, ayrı-ayrı dövrlər üçün səciyyəvi qanunauyğunluqlar müəyyənləşdirilir. Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi nəzəri biliklər üzrə də aparılır. Bu dərslərin strukturunda aşağıdakı fəaliyyət ardıcıllığı gözlənilir:

- Ayrı-ayrı faktların (əsərlərin, problemlərin) qavranılması, dərk edilməsi və əsasında ümumi biliklərin, anlayışların formalaşdırılması.
- Mövzular üzrə təməl biliklərin, fakt və hadisələrin bərpa edilməsi və dəqiqləşdirilməsi.
- Nəzəri biliklərin ümumiləşdirilməsi, sistemləşdirilməsi.
- Biliklərin sistemləşdirilməsi əsasında aparıcı ideyaların mənimsənilməsi, nəticə çıxarılması.
- Dərs üzrə nəticələr çıxarılması.

Qabaqcıl iş təcrübəsi göstərir ki, müasir dərsin səmərəliliyinə nail olmaq üçün ədəbiyyat müəllimləri metodik tövsiyələrdən bəhrələnməklə yanaşı, dərs dediyi konkret sinfin potensial imkanlarına uyğun yaradıcı, təşəbbüskar fəaliyyət göstərməlidir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi” qəzeti, 2013, 25 oktyabr
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu. V-XI siniflər. “Azərbaycan müəllimi” qəzeti, 24 dek. 2010 N 50.
3. Həsənli B., Mustafayeva A., Hüseynoğlu S.,Verdiyeva N. Ədəbiyyat.: 9-cu sinif üçün dərslik. Bakı: Bakınəşr, 2016.


## İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ TƏLİMİNİN MƏZMUNUNUN XÜSUSİYYƏTLƏRİ


**Bibixanım İbadova ,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
E-mail: aibadov@mail.ru



***Açar sözlər:*** *məzmun, islahat, fənn kurikulumu, nitq mədəniyyəti, məzmun xətti, nəticəyönümlü, dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları, inteqrasiya*

***Ключевые слова:*** *содержание, реформа, предмет, курикулум, речевая культура, содержательные линии, результативность, аудирование и говорение, чтение, письмо, языковые правила, интеграция*

***Keywords:*** *contents, reform, subject curriculum, speech culture, lines of contents, result-orientation, listening-understanding and speaking, reading, writing, language rules, integration*


Müasir dövrdə respublikamızda aparılan təhsil islahatının əsas prioritet məsələlərindən biri cəmiyyətdə baş verən iqtisadi və sosial inkişafda özünü təsdiqləyə bilən şəxsiyyətin formalaşdırılmasıdır. Bu, təhsilin yeni məzmununda “şagirdlərdə idraki bacarıqların, ilk növbədə, təhlil, tətbiq və dəyərləndirmə bacarıqlarının, nitq və ünsiyyət mədəniyyətinin, müstəqil qərar qəbuletmə və tədqiqatçılıq qabiliyyətinin formalaşdırılmasına yönəldilir, verilən biliklərin zəruriliyi, həyatla bağlılığı, bilavasitə inkişafa, dünyagörüşün genişlənməsinə xidmət etməsi ön planda saxlanılır” (1) kimi öz ifadəsini tapdı.

Təhsilin məzmununda qoyulan tələblər fənlər üzrə təhsil proqramlarında reallaşdırılır. İslahatla əlaqədar olaraq ümumtəhsil məktəblərində tədris olunan fənlərin məqsəd və vəzifələrinə yanaşmalar dəyişdi. Bu vaxta qədər ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin tədrisində məqsəd daha çox linqvistik materialların öyrədilməsinə yönəlmişdisə, bu gün “nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir ”(2).

İlk dəfə olaraq fənlər üzrə nəticəyönümlü təhsil proqramları hazırlandı. Ümumtəhsil məktəblərində tədris olunan digər fənlərlə yanaşı, Azərbaycan dili fənni üzrə də hər bir təhsil səviyyəsi üçün ümumi təlim nəticələri müəyyən edildi. İbtidai təhsil səviyyəsinin sonunda Azərbaycan dilindən gözlənilən nəticələr belə ifadə olunmuşdur: “şagird danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir; düzgün, sürətli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;

kiçik həcmli rabitəli mətnlər qurur; lüğətlərdən, məlumat kitablarından istifadə edir; Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir; yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir"

Azərbaycan dili fənninin məzmununu "Dinləyib-anlama və danışma", "Oxu", "Yazı", "Dil qaydaları" məzmun xətləri təşkil edir. Şagirdlərdə nitq mədəniyyətinin formalaşmasında hər bir məzmun xəttinin özünəməxsus rol və əhəmiyyəti vardır.

"Dinləyib-anlama və danışma" məzmun xəttində adından göründüyü kimi, 2 fəaliyyət mövcuddur: dinləyib-anlama və danışma. Hər bir fəaliyyət növü öz-özlüyündə bacarıqdır. Bu fəaliyyətin həyati əhəmiyyətliliyi təkcə ünsiyyətlə bağlı olmayıb, şifahi nitqin, informasiyaların mənimsənilməsində xüsusi rola malikdir. Dinləyib-anlama nitq fəaliyyəti oxu, yazı, danışma kimi digər fəaliyyətlərlə sıx əlaqəlidir.

" Oxu " məzmun xətti üzrə ümumi təlim nəticələrində "mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur; müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur; oxuduğu mətnlərin məzmununa münasibət bildirir; mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir" və s. kimi bacarıqlar verilmişdir. Oxu, nitq fəaliyyətinin digər növləri ilə, hər şeydən əvvəl, yazı ilə sıx əlaqədədir. Həm yazıda, həm də oxuda eyni qrafik sistemdən istifadə edilir. Oxu dinləmə ilə bağlıdır. Hər ikisinin əsasında mənimsəmə, təhlil və sintezlə bağlı olan qavrama - perspektiv təfəkkür fəaliyyəti dayanır. Dinləmə zamanı dinləyici səsli, oxucu isə yazılı nitqi qəbul edir. Oxu danışma ilə əlaqəlidir. Ucadan və ya səsli oxu "nəzarətli danışmadır". Səssiz oxu isə eyni vaxtda həm daxili danışma, həm də daxili eşitmədir.

"Yazı" məzmun xətti üzrə ümumi təlim nəticələrində "kiçik və böyük hərfləri, sözləri və cümlələri aydın yazır; müşahidə etdiyi əşya və hadisələr haqqında təsviri xarakterli kiçik həcmli mətnlər yazır" və s. kimi kompetensiyalar göstərilmişdir. Yazı digər məzmun xətləri ilə əlaqəlidir. Şagird dinlədiyi, oxuduğu əsər haqqında fikirlərini yazılı şəkildə ifadə edərkən, həm də dil qaydalarına əməl edir.

Ənənəvi təlimdə dil materialları ayrıca fənn kimi tədris olunur və onun tədrisinə ayrıca saat ayrılırdı. Məqsəd şagirdlərdə qrammatik biliklər formalaşdırmaq idi. Müasir kurikulumlar tərtib olunarkən "Dil qaydaları" ayrıca fənn kimi deyil, fənnin məzmun komponenti kimi verilmişdir. Bu isə öz növbəsində." Dil qaydaları" məzmun xətti üzrə "yaş həddinə uyğun zəruri fonetik, leksik, qrammatik biliklərə yiyələndiyini nümayiş etdirir; seçdiyi dil faktlarını qruplaşdıraraq təqdim edir" və s. kimi qrammatikaya dair biliklərin mətn kontekstində öyrədilməsinin tələb edir. Mətn üzrə iş zamanı şagirdlər dil qaydalarına dair müvafiq bilgilərə malik olacaq və onu praktik şəklidə tətbiq edəcəklər. Bu da dil qaydalarının digər məzmun xətləri ilə inteqrativ şəkildə öyrənilməsini zəruri edir.

Məzmun xətləri arasındakı əlaqəlilik fənn kurikulumunda fəndaxili inteqrasiya kimi əksini tapmışdır. Hər bir məzmun xətti üçün nəzərdə tutulmuş standartları ayrı-ayrılıqda deyil, bir-birilə əlaqəli şəkildə gerçəkləşdirməklə, təlim prosesində nitq fəaliyyətinin bütün növləri üzrə paralel iş aparmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına nail olmaq olar.

**ƏDƏBİYYAT**


1. Abbasov Ə.M. Təhsil islahatı və kurikulumların hazırlanması // ARTPI-nin Elmi əsərləri, 2005, № 1
2. Abbasov Ə.M. Yeni fənn kurikulumlarının səciyyəvi cəhətləri // ARTPI-nin Elmi əsərləri, 2007, № 1
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I - IV siniflər). Bakı, 2008.
4. İsgəndərov İ. Müasir təhsil: prioritet istiqamətlər. Bakı: Kövsər, 2011.

# TEXNOLOGİYA FƏNLƏRİ ÜZRƏ TƏCRÜBƏ MƏŞĞƏLƏLƏRİ APARILAN TƏDRİS EMALATXANALARINA VERİLƏN TƏLƏBLƏR

**Məmməd Kazımov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*
E-mail memmedkazim@ mail.ru

***Açar sözlər:*** *texnologiya fənni, təcrübə, emalatxana, xammal materialı, texnoloji ardıcıllıq, detallar, normativ sənədlər.*

***Ключевые слова:*** *предмет технология, практика, мастерская, технологическая последовательность, детали, нормативные документы.*

***Key words:*** *technology subject, experience, workshop, raw materials, technological, regulatory documents, order details*

Müasir tədris tendensiyalarının və metodlarının tələblərə uyğun olaraq bir neçə ixtisas fənləri vardır ki, onların təcrübə məşğələlərinin tədris emalatxanalarında, tədris sexlərində, poliqonlarda və tədris laboratoriyalarında aparılması müəyyən səmərəli nəticələrin əldə olunmasına istiqamət verir. Bu fənlərdən biri də texnologiya fənnidir. Texnologiya fənləri üzrə təcrübə məşğələləri də əksər hallarda tədris emalatxanalarında aparılır. Tədris emalatxanalarında təcrübə dərslərinin keçirilməsi daha məqsədəuyğun hesab olunur. Çünki tələbələrin qazandıqları elmi-nəzəri biliklərin təcrübəyə tətbiq edilməsində və müəyyən nəticələrin əldə edilməsində istehsalat sahələri daha məzmunlu və əhatəli olsa da təcrübə məşğələlərinin tədris emalatxanalarında və tədris sexlərində aparılması metodiki cəhətdə daha səmərəli hesab olunur.

Göstərilənləri nəzərə alaraq texnologiya fənləri üzrə təcrübə dərsləri üçün tələb olunan şəraitin yaradılması və avadanlıqlarla təmin olunması fənnin dərindən öyrənilməsinə daha müsbət təsir göstərir. Texnoloji proseslərinin, təcrübi məşğələlərin ardıcıllıqla aparılmasının təşkili və proqram materiallarına uyğun öyrənilməsi həm metodiki cəhətdən səmərəlidir və həm praktik əhəmiyyətlidir. Təcrübə dərslərinin tədris emalatxanalarında keçirərkən təcrübə şəraiti yaxşılaşdırılmalı, təcrübə avadanlıqları yeniləşməli və xammal materiallarının keyfiyyətinə qoyulan tələbat günü-gündən müasirləşməlidir. Belə ki, texnologiya ixtisası üzrə hazırlanacaq müəllimlərin ixtisas biliyinin artırılmasında maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması müəllim hazırlığı üçün təhsilin yüksəldilməsində ən ümdə olan məsələlərdən biridir.

Təcrübə dərslərinin tədris emalatxanalarında keçirilməsinin keyfiyyətini təmin etmək üçün bir neçə tədris texnoloji əməliyyatların aparılması vacibdir ki, onlardan da biri tələbələrin emalatxanada yüklənmə əmsalının düzgün hesablanmasıdır. Bunun üçün emalatxananın faydalı sahəsinin müəyyənləşdirilməsidir. Tədris qruplarında tələbələrin sayının 25 nəfər olmasını nəzərə alaraq tədris qruplarının bölünməsi mütləqdir. Belə ki, 25 nəfər eyni vaxtda təcrübə keçərsə, bu həm darısqal olur, həm də təcrübə məşğələsi aparan müəllim, usta üçün tələbələrlə keyfiyyətli məşğələ aparması mümkün olmur. Ona görə də qruplarda məşğələ keçən tələbələrin sayı 10-12 nəfər olması daha məqsədəuyğun hesab olunur. Emalatxanada təcrübə məşğələləri iki növbəli dərs rejimində və maksimim həftəlik dərs yükü isə 60 saat miqdarından artıq olmayaraq planlaşdırılması məqsədə uyğundur. Tədris emalatxanalarının təşkilinə aid olan təlimatda köməkçi istehsalat və xidmət otaqlarının olması göstərilir.

Müxtəlif təyinatlı təcrübələrin aparılması və sxemlər üzrə müəyyən məhsulun ona uyğun müxtəlif detalların hazırlanmasını təmin edən tədris emalatxanalarında təcrübə yerlərindən başqa burada həmdə köməkçi otaqlar, xidmət otaqları, xammal materiallarının saxlanması üçün anbarlar quruducu guşələr və tədris üçün otağın da olması vacib şərtdir. Emalatxana sahəsinə və xidmət otaqlarının sahələrinə və tələbələrin təcrübə yerlərinə qoyulan əsas tələblər aşağıdakılardan ibarətdir.

- tədris emalatxansında yerləşdirilməsi nəzərdə tutulan texnoloji, mexaniki, qaynar təbəqəli və itiləyici avadanlıqların sayına və tutduğu sahəyə uyğun ümumi sahə müəyyənləşdirilməli və təlimati qayda olaraq hər dəzgah üçün 4-6 kvm sahə nəzərdə tutulmalıdır:
- tədris, istehsalat təcrübələri keçən hər bir tələbə üçün 0.5 kvm-də az olmayaraq nəzərdə tutulan ümumi sahəsi isə 15 kvm-dən az olmayan alət saxlama və paylama anbarı;

- alət saxlama və alət paylama ambarının daxilində əl alətləri, əl avadanlıqları üçün ayrı rəflər, əl vasitəsi ilə işlədilən elektrik cihazlarının saxlamaq üçün xüsusi saxlama rəflərinin olması;
- emalatxanada təcrübə keçən hər bir tələbə üçün 1,5 kvm olmaq şərtilə və hazırlanan hissənin cizgilərə uyğun ölçülərinin araşdırılmasını təmin edən və onların yararlı olmasını təsdiqləyən texniki-nəzarət şöbəsi;
- tədris emalatxanasında yerləşdirilən avadanlıqların tpinə, həcminə və sayına uyğun olaraq hər dəzgah üçün nəzərdə tutulan 0.2-0.5 kvm ehtiyat hissələrinin saxlanması üçün ambar;
- normativə uyğun alətlərin itiləmə bölməsi. Bir itiləyici dəzgah üçün 1.5-2,0 kvm-dən az olmamaq şərtilə nəzərdə tutulan itiləmə və qruplaşdırma sahəsi;
- emalatxana avadanlıqlarının carı təmirini yerinə yetirmək üçün nəzərdə tutulan təmir sahəsi. Sahə 6-8 kvm- dən az olmamaq şərtilə planlaşdırılmalıdır;
- tədris sexlərində, tədris istehsalat laboratoriyalarında, tədris emalatxanasında məişət otaqları o cümlədən , paltarların soyunub geyinmələri üçün otaq, paltarın soyunub geyinməsi üçün güşəsi olan duşxana otağı, əl-üz yuyulan otaq, ayaqyolu otaqlar, onların sayı və sahəsi emalatxanada çalışan işçilərin və təcrübə keçən tələbələrin sayını nəzərə alınmalıdır. Bütün bu göstərilən məişət otaqları sanitar norma və qaydalarına uyğun tərtib olunmalıdır.

Yuxarıda göstərilənləri nəzərə almaqla yanaşı tədris emalatxanalarında, və tədris sexlərində yerləşdirilən texnoloji, qaynar təbəqəli və mexaniki avadanlıqlar elə quraşdırılmalıdır ki, emalatxananın orta hissəsində özü hərəkət edən elektrokarlar və xammalın və yarımfabrikatların daşınmasını təmin edən digər avadanlıqların, hazır hissələri daşımaq üçün istifadə olunan əl arabalarının sərbəst hərəkəti təmin olunsun. Emalatxanalarda xüsusi vestibüllərin olması da vacibdir. Tədris emalatxanalarında fəaliyyət göstərən ustaların və təcrübə keçən tələbələrin təcrübə haqqında əldə etdikləri nəticələrin qeydiyyatını aparmaq üçün sinif otağı, emalatxananın idarə edilməsi üçün xidmət otağı və digər yardımçı otaqların da olması vacibdir. Müasir tələblərə və şəraitə cavab verə bilən tədris emalatxanaların planlaşdırılması, tikilməsi və yenidən qurulması zamanı aşağıda göstərilən tələblərin yerinə yetirilməsi ən vacib şərtlərdən hesab olunur.

- texnoloji avadanlıqların, qurğuların, üzərində quraşdırma və yığma əməliyyatlarının aparılması üçün stolların, daşıyıcı avadanlıqların, elektrik lövhələrini və elektrik açarlarının texniki göstəricilərini knematik sxemləri və texniki cizgiləri özündə əks etdirə bilən texniki pasportların olması;
- emalatxana sahəsində avadanlıqların yerləşdirilməsində istifadə edilməsini göstərən və inşaat, tikinti quraşdırma , emalatxana planını, normalarını və qaydalarını əks etdirən və layihə idarələri tərəfindən təsdiq olunan cizgi nümunələri;
- tədris istehsal sahəsinə uyğun olan və texnoloji, mexaniki və qaynar təbəqəli avadanlıqların quraşdırılması və fəaliyyətinin nəzarətdə saxlanması;
- emalatxanalarda tədris istehsalat şəraitinin və mühitinin təlimata uyğun tələb olunan qaydada planlaşdırılması üçün texniki normativ sənədlərin əldə olunması
-tədris emalatxanalarında cizgiyə və sxemlərə uyğun detalların və digər hissələrin hazırlanmasında texnoloji ardıcıllığa riayət olunması və texnoloji avadanlıqların bu prinsipə uyğun ardıcıllıqla yerləşdirilməsi.

**ƏDƏBİYYAT**


1. AbbasovA.N və b. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
2. Axundov S.A. Fənlərarası əlaqənin yaradılması yolları. Bakı: Mütərcim, 2009.
3. Axundov N.L., Əhmədov H.H., Şərifova S., Səlimova X. Tenologiya: Müəllim üçün metodik vəsait. Bakı: Aspoliqraf, 2014.
4. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
5. KərimovY.Ş. Təhsilin aktual problemləri. Bakı: Mütərcim, 2007.
6. Kazımov M.S. Təcrübə dərslərində texnologiya fənninin digər fənlərlə inteqrasiyası // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2016, № 3
7. Rüstəmov F.A., Paşayev Ə.X. Pedaqogika. Bakı: Çaşıoğlu, 2002.
8. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.

9. Сажина С.В. Технология интегрированного занятия.М., 2008.
10. Хотунцев Ю.Л., Дубровская Л.И. О преподавании образовательной области пред.технология М,: ОАО «Московские учебники», 2006.

## MÜASİR TƏDRİS AVADANLIQLARI VƏ RESURSLARDAN İSTİFADƏNİN DƏSTƏKLƏNMƏSİ. SİSTEMİ-"ELEKTRON MƏKTƏB" MODELİ

**Nərminə Məmmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*
E-mail: nermine_m@mail.ru

***Açar sözlər:*** *e-məktəb, müəllim, şagird, müasir təhsil, müasir texnologiya, tədris avadanlıqları, tədris resursları*
***Key words****: e-school, teacher, student, modern education, modern technology, training equipment, training resources*
***Ключевые слова:*** *э-школа, учитель, ученик, современное образование, современные технологии, учебное оборудование, учебные ресурсы*

Elm və texnologiyanın hazırkı inkişafı təhsil mühitini yeni tədris avadanlıqları və resursları ilə zənginləşdirmək, sinif daxilində vizual və proyeksiya aparatları ilə təşkil edilən öyrənmə mühitini yaratmaq qaçılmaz bir ehtiyaca çevrilibdir.

Hazırda respublikamızda da, təhsillə bağlı qarşıda duran ən mühüm vəzifələrdən biri, məktəblərin infrastukturunun müasir tələblər əsasında yenidən formalaşdırmaq və inkişaf etdirməkdir. Son illərdə istər təhsillə bağlı qəbul olunan bütün normativ hüquqi aktlarda, istərsə də Təhsil Nazirliyinin fəaliyyətində bu məsələyə xüsusi diqqət yetirilmiş, təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab olunmuş və yaxın 10 il ərzində görüləcək işlərin ümumi xətti müəyyənləşdirilmişdir (1, 2, 3, 4, 5, 6, 7).

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, ilk beynəlxalq səfəri olan Cenevrədə keçirilən (12 dekabr, 2003-cü il) İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitindəki çıxışında "Qara qızılı insan qızılına çevirək" tezisini səsləndirmişdir. Bununla da, cənab İlham Əliyev respublikamızda müasir texnologiyanın cəmiyyətin müxtəlif sahələrində, o cümlədən təhsil sistemində tətbiqinin bir növ anonsunu vermişdir.

2004-cü ilin yayından sistemli olaraq, respublikamızın ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları və resursları (İKT) ilə təminatı prosesində ilkin addımlar atılmağa başlanmışdır. Bu özünü, ümumtəhsil məktəbləri üçün fənn proqramlarına uyğun olaraq Təhsil Nazirliyinin birbaşa sifarişi əsasında bir sıra fənlər üzrə elektron tədris vəsaitlər («Azərbaycan tarixi»: qədim və orta əsrlər dövrü; «Kimya»: qeyri-üzvi kimya; «Biologiya»: Botanika və Zoologiya: Fizika»: mexanika və molekulyar fizika fənləri üzrə), multimedia sisteminə dair disklər, metodik vəsaitlər və plakatların hazırlanmasında göstərmişdir.

2008-2012-ci illər üçün "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi müasir tədris avadanlıqlarının təhsil sistemində geniş miqyaslı tətbiq edilməsində həlledici mərhələnin əsasını qoymuşdur. (3).

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı ümumtəhsil müəssisələrində 2009-cu ildən *"Elektron məktəb" pilot layihəsinin* reallaşdırılmasına başlanmışdır. Dünyanın təhsil sistemində xüsusi yer tutan bu pilot layihəsi müasir tədris avadanlıqları və resursların ümumtəhsil məktəblərində geniş istifadəsini nəzərdə tutur. Layihədə "Elektron məktəb" sisteminə qoşulan pilot təhsil müəssisələrində vahid informasiya mühitinin yaradılması və fəaliyyət göstərməsi üçün zəruri olan müasir tədris avadanlıqları (noutbuk, proyektor, ağıllı (smart) lövhə və s.), onların proqram təminatı ilə təchiz olunması, yüksək sürətli fiberoptik internet və internet bağlantılarının təmin edilməsi, bu məktəblərdə çalışan kadrların (pedaqoji, inzibati, texniki və s.) İKT sahəsində bilik və bacarıqlarının artırılması üçün tədbirlərin görülməsi, əlavə kursların təşkil olunmasının təmin edilməsi nəzərdə tutulmuşdur (4).

"Elektron məktəb" layihəsinin əsas məqsədi seçilmiş təhsil müəssisələrində müasir tədris avadanlıqları və resurslarını müasir tələblərə uyğun tətbiq edərək, tədrisin yüksək səviyyədə təşkilini və

təhsilin idarə olunmasını təmin etməkdir. Elektron məktəb" layihəsini tətbiq etmək üçün ilk dövrdə 20 pilot məktəbi seçilsə də, sonralar bu məktəblərin sayı artırılmışdır. Belə ki, 2012-ci ildə 39, 2015-ci ildə isə 43 məktəb bu layihəyə daxil edilmişdir. Hazırda layihədə Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Şamaxı, İsmayıllı, Şirvan, Quba və Ağdaşın məktəbləri iştirak edirlər **.**

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında" "Elektron məktəb"lərin daha da inkişaf etdirilməsi strateji baxış və əsas prioritet istiqamətlərdən birini təşkil edir**.** Konsepsiya çərçivəsində 12 illik ümumi təhsil sisteminə keçidin təmin edilməsi, bununla əlaqədar təhsilproqramları, dərsliklər , eləcə də tədris avadanlıqları və resurslarının müasir tələblər baxımından yeniləşdirilməsi, şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlərin görülməsi önə çəkilir. 2013-2020-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin formalaşdırılmasına dair qəbul ediləcək Dövlət Proqramında: "Elektron məktəb"lərin sayının 1000-ə çatdırılması; bütün ümumi təhsil müəllimləri üçün fəal (interaktiv) təlim texnologiyaları və inklüziv təhsil üzrə məqsədli ixtisasartırmanın təmin edilməsi; hər bir müəllimin İKT bacarıqlarına yiyələnməsi üçün çevik sistemin yaradılması və digər oxşar nəzərdə tutulur (6).

"Elektron məktəb" pilot layihəsi çərçivəsində tədris müəssisələrində tətbiq olunan texnologiyalar Azərbaycanda müasir tədris avadanlıqlarına və resurslarına əsaslanan milli təhsil modelinin formalaşdırılmasına xidmət edir. Bu pilot layihə çərçivəsində əldə edilmiş nəticələrin Azərbaycanın bütün məktəblərdə "Elektron məktəb" konsepsiyası çərçivəsində tətbiqi əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının yaradılması, ölkənin təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunması üşün şəraitin yaradılması ilə bərabər təlim və tədrisdə fürsət bərabərliyini də təmin edəcəkdir.

Bu prosesin məntiqi davamı kimi 2014-2020-ci illər üçün müasir tədris avadanlıqları və resusları sahəsində dövlət siyasəti müəyyənləşdirildi. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında" sənəddə müasir tədris avadanlıqları və resursların təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, müəllimlərin kompüter biliklərinin artırılması, təhsilin resurs mərkəzini və təhsil prosesini dəstəkləyən elektron tədris resurslarının inkişaf etdirilməsi, təhsildə müasir tədris avadanlıqları və resurslarının səmərəli istifadəsinin təşkili, onlardan istifadə üzrə bilik və bacarıqların öyrədilməsi və s. kimi məsələləri özündə ehtiva etmişdir (7).

Təhsilin məzmunu ilə bağlı islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün e-məktəb pilot layihəsindən tədris avadanlıqları və resurslardan istifadənin yenidən qurulması işinin məzmunu və təşkili ilə bağlı məsələlərdə əldə edilən təcrübənin ümumtəhsil müəssisələrində həyata keçirilməsi istiqaməti üzrə davamlı olaraq kompleks işlər aparılmalıdır.

## ƏDƏBİYYAT


1. "Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya" (2003-2012-ci illər). http, e-qanun.az.
2. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə Təminatı Proqramı" (2005-2007-ci illər). «Azərbaycan» qəz., 2004, 22 avqust http, e-qanun.az.
3. "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" (2008-2012-ci illər üçün). http: e-qanun.az.
4. "Elektron məktəb" layihəsinin tətbiq olunması haqqında". http://edu.gov.az.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". http, e-qanun.az.
6. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. http://www.president.az/.
7. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında". http,e-qanun.az.
8. Əhmədov A.Ə., Abbasov Ə.M. Ümumi təhsildə inteqrasiya: Müasir yanaşma // Kurikulum, 2013, № 2
9. Məmmədova N. Humanitar fənlər üzrə tədris resurslarının məzmununa müasir yanaşma // ARTPİ-nin Elmi əsərləri, 2016, № 2

# MODUL PROQRAMLARINI PEŞƏ-İXTİSAS TƏHSİLİ SAHƏSİNDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

**Malik Qurbanov,**
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail: tehsilproblemleri@mail.ru

***Açar sözlər:*** *səriştə, modul, texnologiya, dəyişkənlik, tədqiqat metodu.*
***Ключевые слова:*** *компететность, модуль, технология, изменчивость, метод исследования методисследования.*
***Key words:*** *skills, module, technology, variabiliu, the method of invenstigation*

İlk peşə-ixtisas təhsili sahəsində kompetensiyalara (əmək fəaliyyətinin həyata keçirilməsində birmənalı əhəmiyyətə malik olan bilik, bacarıq, dəyər, məqsəd və münasibətlərin inteqrasiyası) əsaslanan modul proqramlarının tətbiqi təlimin təşkili prinsipi etibarı ilə ənənəvidən fəqləndiyinə görə təhsil verənlər və təhsil alanlar (təhsili müəssisələrinin rəhbərləri, müəllimlər, istehsalat təlimi ustaları, metodistlər, təlimatçılar və b.) üçün ciddi çətinliklər yaradır. Belə ki, kompetensiyalara əsaslanan modul proqramlarının tətbiqində təlimin nəticələri mənimsənilmiş kompetensiyaları özündə əks etdirməsi təlimin metodikası və bütövlükdə pedaqogikası məsələlərini dəyişdirir. Məlum olduğu kimi istənilən innovasiya (müxtəlif təşəbbüslər, elmi tədqiqatlar əsasında formalaşan mütərəqqi xarakterli yeniliklər) asanlıqla özünə yer tapmır, müəyyən müqavimətlərlə üzləşməli olur. Çünki durğunlaşmış (köhnəlmiş) fikir və düşüncələrə son qoymaq birdən-birə heç də asan deyil. Bu ağrılı, uzun vaxt və səbir tələb edən prosesdir.

Kompetensiyalara əsaslanan modul proqramlarının təsirli tətbiqini reallaşdırmaq üçün fəal təlim metodlarından istifadə edilməsi, effektiv təlim şəraitinin yaradılması, təhsil alanların və təhsil verənlərin rol və funksiyalarına başqa cür baxılması çox vacibdir. Təhsil verənlər fəal (aktiv) metodlarla işləməyi öyrənməlidirlər. Təhsil verənlərin əsas vəzifələrindən biri də təhsil alanların fəallığını stimullaşdırmaq və onlarda müstəqil (sərbəst) öyrənmək həvəsi və marağı oyatmaqdır. Fəal təlim təhsil alanın və təhsil verənin fəal mövqeyini formalaşdırır, hər iki tərəf təlim prosesinin subyektlərinə çevrilir və təlimin nəticələrinə görə məsuliyyəti bölüşdürür.

Şagird yönümlü bu metodika özündə aşağıdakıları ehtiva edir:

- Müəyyən fəaliyyətləri həyata keçirtməyi və bu həyata keçirmənin nəticələrini müəyyənləşdirməyi;
- konkret bir halın öyrənilməsini, gələcəkdə bu cür (oxşar) hadisələrin təkrarlanmasında tətbiq etməyi öyrənilmiş konkret təcrübənin daha geniş dairəli hadisələr üçün ümumiləşdirməyi;
- bu prinsipləri yeni şəraitdə tətbiq etməyi.

Təhsilalanlar aşağıdakılara nail olsalar, kompetensiyalar o zaman müvəffəqiyyətlə mənimsənilər. Təhsilalanlar:

- Modulun məqsəd və vəzifələrini başa düşür və dərk edirlər;
- təlim prosesinin məsuliyyətini dərk edirlər;
- yeni bilik almağa can atırlar;
- təcrübədə bacarıqların əldə edilməsinin mahiyyətini dərk edirlər;
- təhsil verənlərlə daima əks əlaqə yaradırlar;
- daimaöyrənməyiöyrənirlər.

Yeni təcrübənin əldə edilməsinin ən səmərəli yolu təhsilalanların mənimsəyəcəyi iş əməliyyatlarının nümayişini müşahidə etməsidir.

Nəzəri materialların seçilməsi aşağıdakı qaydada aparılmalıdır:

*1.* Tələb olunan bilik hər bir modul üzrə müəyyən edilməli və real olaraq ayrıca nəzəri fənn kimi mühazirə şəklində deyil, praktik məşğələlərdə inteqrasiya olunaraq öyrənilməlidir.

*2.* Texniki modullarla birbaşa əlaqəli olan baza modulları (nəzəriyyə) ayrıca deyil, inteqrasiya olunmuş məşğələlərdə öyrənilməlidir. Çünki onlar konkret nəticəyə yönəlmiş vahid prinsip əsasında qurulmuşdur.

*3.* Hətta baza modulları (nəzəri təlim) ayrıca tədris olunsa belə, yenə də fəal təlim metodlarından istifadə edilməlidir.

Belə yanaşmalar ona görə lazımdır ki, təhsilalanlar verilmiş modulun mənimsənilməsi üçün nəzəri materialın öyrənilməsinin vacibliyini

başa düşsünlər. Bu halda nəzəri materiallar ümumi (aralıq ) və texniki modullar çərçivəsində hər bir məşğələdə təlimin və təlim mühitinin təşkili hesabına öyrənilir.

**Təlim metodları və tədris prosesinin təşkili -** Yuxarıda deyildiyi kimi, kompetensiyalara əsaslanan modul təlim texnologiyalarının əsas məğzi (ideyası) təhsil alanlara iş yerində və ya ona maksimum uyğun şəraitdə öyrənmələri üçün imkan yaratmaqdır. Belə təlim təhsil alanların real əmək fəaliyyətinə daha tez adaptasiya olunmalarına imkan verir. Müəllimlər təhsil alanlara sərbəst, hətta öz səhvləri üzərində (əgər bu səhvlər təhlükəsizliklə bağlı deyilsə) belə öyrənmələri üçün maksimum etibar etməlidirlər. Təlim prosesinin təşkili zamanı təkcə nəzəriyyə ilə praktikanın inteqrasiyasını deyil, ümumi modulların da kompetensiyaları təmin edilməlidir. Məsələn, təsirli ünsiyyəti texniki kompetensiyadan ayrı mənimsətmək mənasızdır.

Modulun həyata keçirilməsi alqoritmi hazırlandıqdan sonra hər məşğələnin müfəssəl planı hazırlanır. Nəzərə almaq lazımdır ki, biz eşitdiyimizin 20 faizini, gördüyümüzün 40 faizini, eşitdiyimizin və gördüyümüzün 60 faizini, eyni zamanda eşitdiyimizin, gördüyümüzün və özümüz yerinə yetirdiyimizin 80 faizini yadda saxlayırıq.

Yadda saxlamaq lazımdır ki, məşğələnin əvvəlində müəllim məqsədi qoyur və təlim prosesinin təşkili ardıcıllığını izah edir. Yalnız bundan sonra yeni təcrübənin əldə olunması nəzərdə tutula bilər. Məşğələ çərçivəsində ən səmərəli üsul o sayılır ki, əvvəlcə təhsil alanların mənimsəyəcəyi əməliyyatlar nümayiş etdirilsin, sonra isə nəzəri biliyin mənimsənilməsinə gətirən yeni təcrübənin müzakirəsi keçirilsin. Nəzəri biliklərin müstəqil mənimsənilməsini nəzərə alaraq maksimum əyani və ya strukturlaşdırılmış qısa məruzədən (5-10 dəqiqə) istifadə oluna bilər. Bundan sonra praktik bacarıqların mənimsənilməsi üçün təcrübi tapşırıqlar yerinə yetirilir.

## ƏDƏBİYYAT


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Олейникова О., Муравьева А., Аксенова Н. Обучение в течение всей жизни и профессиональное образование. М., 2011
3. Олейникова О. и д Разработка модульных программ, основанных на компетенсиях М.: Альфа-М, 2005.


# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN MƏZMUNUNA YENİ YANAŞMALAR


**Şərafət Baxışova ,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: sharafat_baxishova1960@mail.ru



***Açar sözlər:*** *məktəbəqədər təhsil, idrak fəaliyyəti, keyfiyyətin yüksəldilməsi, innovasiya, kompetensiya, şəxsiyyət.*

***Ключевые слова****: дошкольное образование, познавательная деятельность, повышение качества, инновации, компетенция, личность.*

***Key words:*** *preschool education, informative activity, improving the quality, innovation, competence, the person.*


Məktəbəqədər təhsilin məzmunu mühüm pedaqoji anlayışlardan biri kimi bilik, bacarıq və vərdişlərin sistemini əhatə etməklə yanaşı uşaqların əldə etdikləri idrakı, əxlaqi-mənəvi və fiziki dəyərlərə ehtiva edir.

Təhsil İslahatında nəzərdə tutulmuş əsas istiqamətlərdən biri olan pedaqoji innovasiyalardan, təlim texnologiyalarından istifadə edərək uşaqların idrak qabiliyyətlərini inkişaf etdirən, onları müstəqil qərar çıxarmağa sövq edən, onlarda fəal həyat mövqeyi formalaşdıran metodların təlim prosesinə gətirilməsidir.

Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərindən bu sistemdə baş verən innovasion dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir. Müasir pedaqoji təhsilin məqsədi informasiya, innovasiya cəmiyyətinin tələblərinə uyğun yeni formatlı müəllim kadrları hazırlamaqdır.

Məlumdur ki, məktəbəqədər təhsil sahəsində təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə pedaqoji kadrlara, xüsusən tərbiyəçilərə olan tələbatlar dəyişir. Şəxsiyyətyönlü kurikulumların tətbiqi tərbiyəçilərdən uşaqyönlü fəaliyyət mexanizmlərinin tətbiq olunmasını, ən müasir pedaqoji texnologiyalara istinad olunmasını tələb edir. Bunların daha uğurlu tətbiq olunmasını həyata keçirmək üçün birinci növbədə tərbiyəçilərin hazırkı şəraitdə fəaliyyəti ilə bağlı aydın təsəvvürə malik olmaq, onların peşə və ixtisas hazırlığının ümumi vəziyyətini meydana çıxartmaq vacib hesab edilir. Bunun üçün aşağıdakı problem xarakterli məsələlər əsasında işlərin aparılması təklif olunur:

1. Yeni kurikulumların tələbləri əsasında müasir tərbiyəçinin peşə keyfiyyətlərini əks etdirən kompetensiyalar (səriştələr) hazırlanmalı, onlara əsasən peşə karlıq səviyyəsini əks etdirən indikatorlar müəyyənləşdirilməlidir.

2. İndikatorlar müəyyənləşdirilərkən tərbiyəçilərin ixtisas biliklərinin inkişaf etdirilməsi ilə bağlı məsələlər də əhatə edilməlidir. İxtisasa aid baza biliklərindən istifadə bacarıqları tərbiyəçilərin ümumi inkişafını səciyyələndirən cəhətlərdən biri kimi nəzərə alınmalıdır.

3. Bu gün valideyn məktəbəqədər təhsil müəssisəsinin, o cümlədən tərbiyəçilərin fəaliyyətini müşahidə edən ən maraqlı tərəflərdən biridir. Onlar öz övladlarının təlim -tərbiyəsində sifarişçi tərəf kimi çıxış edirlər. Ona görə, onlar uşaq bağçaları ilə, tərbiyəçilərlə daha yaxından təmasda olur, onları qiymətləndirmək üçün kifayət qədər məlumatlara malik olurlar. Bu mənada tərbiyəçilərin peşəkarlıq səviyyəsi ilə bağlı real nəticəyə gəlməkdə valideynlərin də fikirləri əsas kimi götürülməlidir.

Uşaqların məktəbə hazırlığı, məktəbəqədər təhsil müəssisələri və məktəb arasındakı varisliyi sahəsində aparılan tədqiqatların təhlili zamanı görürük ki, məktəbəqədər təhsil üzrə dünya təcrübəsi bizə gələcəyi qurmaq problemini və onun həlli yollarını müəyyən etməyə əsas verir. Məktəbəqədər təhsilin məqsəd və vəzifələrini dəqiq müəyyən etmək çox vacibdir. Bizim fikrimizcə məktəbəqədər təhsilin məqsədi – uşağın sosial-emosional, intellektual potensialının inkişafı üçün şəraitin yaradılması; onlarda yüksək mənəvi-əxlaqi keyfiyyətlərin, idrak və kommunikativ mövqeyinin pozitiv formalaşdırılması; məktəb təliminə hazırlığıdır.

Məktəbəqədər təhsilin vəzifələri aşağıdakılardır:

- Məktəb təliminə əsaslı hazırlığın formalaşması (təlim motivasiyası).
- Sərbəst davranışın inkişaf funksiyası.
- Uşağın təlim fəaliyyətinin əsas komponentlərini mənimsəməsini təmin etmək.
- Şəxsi təlim bacarığının formalaşdırılması ( təkcə dinləmək yox, həm də eşitmək, böyüklərin və həmyaşıdların fikirlərini qəbul etməyi bacarmaq, təsviri ədəbiyyatın dilini anlamaq və qəbul etmək, əqli fəaliyyəti bacarmaq, müqayisə və analiz etmək və s. ) .
- Fəaliyyətin təşkili prosesinin frontal formasında həmyaşıdlarla qarşılıqlı münasibəti formalaşdırmaq.
- Müxtəlif praktik bacarıqların inkişafı ( hərəkətli, oyunlu, sosial düşüncəli, zəhmətli, qrafikli, musiqili - ritmik və s.).

Beləliklə, araşdırmalar göstərir ki, hərtərəfli inkişafa istiqamətlənmiş uşaqların yetişdirilməsi üçün aşağıdakı məsələlərin də həyata keçirilməsi məqsədəmüvafiqdir:

a) uşaq şəxsiyyətinin, onun yaradıcılıq qabiliyyətinin, bilik və bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi;

b) mənəvi və estetik hisslərin, özünə və ətraf aləmə pozitiv münasibətlərin tərbiyə olunması;

c) təlim-tərbiyə prosesində, müxtəlif fəaliyyət sahələrində uşağın subyekt kimi çıxış etməsinə imkan verən bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsinin təmin olunması;

ç) uşaqların psixi və fiziki sağlamlığının möhkəmləndirilməsi və mühafizə olunması.

Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərlə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyətə deyil, keyfiyyətə

yönəlməlidir. Bugünkü uşaqların inkişafı ilə müqayisədə zəmanəmiz məktəbəqədər yaşlı uşaqların inkişafını daha da sürətləndirir və bununla da təlimin məzmununa yenidən baxılmasını tələb edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004). I kitab. Bakı: Çaşıoğlu , 2005.

2. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.

3. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli 137 nömrəli qərarı // Kurikulum, 2010, № 4

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞINI TƏMİN EDƏN ŞƏRTLƏR

**Rəbiyə Qəniyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: rabiye.n@mail.ru

***Açar sözlər:*** *idrak, idrak fəallığı, şagirdlərin idrak fəallığı, idrak fəallığının inkişaf etdirilməsi, idrak fəallığının inkişaf etdirilməsi şərtləri*
***Ключевые слова:*** *познание, познавательная активность, познавательная активность учащихся, развитие познавательной активности, условие развития познавательной активности*
***Keywords:*** *cognition, cognitive activity, cognitive activity of students, development of cognitive activity*

Ümumtəhsil məktəblərinin yuxarı siniflərində xarici dilə, o cümlədən ingilis dilinə idrak marağının yaradılması dilin öyrənilməsini asanlaşdırır. Bu cəhət müəllimin diqqət mərkəzində dayanmalıdır. İdrak marağı idrak fəallığının, başqa sözlə, təhsilalanların təfəkkürünün, təxəyyülünün, qavrayışının inkişafını və tədris olunan materialın uzun müddət yadda saxlamasını təmin edir.

İngilis dili dərslərində məktəblilərin idrak fəallığına nail olmaq üçün müəllim bir sıra məsələləri diqqət mərkəzində saxlamalıdır. Onları nəzərdən keçirək:

1. İlk növbədə "fəaliyyət", "fəallıq", "idrak marağı", "idrak fəallığı" anlayışlarının mahiyyətini başa düşmək.

2. Məktəblilərin idrak fəallığının formalaşdırılması üzrə işin məqsəd və vəzifələrini aydın təsəvvür etmək.

3. Yadda saxlamalı ki, təhsilalanların təhsil-tərbiyə fəaliyyətinin təşkilinin elmi cəhətdən əsaslandırılmış pedaqoji sistemi onlarda idrak fəallığının mühüm vasitəsidir.

4. X-XI sinif şagirdlərinin idrak fəallığının formalaşdırılmasına təsir edən amilləri müəyyənləşdirmək.

Həmin amillər bölünür:

4.1. *Xarici* [prosessual] (ingilis dili müəlliminin şagirdlərlə işinin metodlarını, priyomlarını və vasitələrini, dərs və dərsdənkənar məşğələlərin keçirilmə formalarını özündə birləşdirir); *fəaliyyətyönlü-praktik* (məktəbliləri müxtəlif fəaliyyət növlərinə cəlb etməyi nəzərdə tutur); *ümumi* (valideynlərin, ictimaiyyət nümayəndələrinin, kütləvi məlumat vasitələrinin təsirini əhatə edir);

4.2. *Daxili* [əqli] (ingilis dili təliminin məqsədinin, tədris materialının şəxsiyyətyönlü və ictimai əhəmiyyətinin şagirdlər tərəfindən başa düşülməsini, şagirdlərdə məşğələlərə, ingilis dili üzrə sinifdənxaric tədbirlərə marağın yaradılmasını nəzərdə tutur; *emosional* (təlim prosesinə münasibətdə, emosional vəziyyətdə öz ifadəsini tapır); *iradi* (qarşıda dayanan məqsədə nail olmaq üçün fəaliyyətə cəhdi nəzərdə tutur).

5. Məktəblilərin idrak fəallığının formalaşdırılması modelini işləyib hazırlamaq və həyata keçirmək. Bu modelə daxil olan komponentlər aşağıdakılardır: şagirdlər tərəfindən ingilis dilinin öyrənilməsini təşkilati-metodik baxımdan təmin edən məqsəd, funksiyalar, prinsiplər, fəaliyyətin məzmunu, formaları, metodları, vasitələri və meyarları.

6. Şagirdlərin idrak fəallığının formalaşdırılmasının səmərəli yollarını aşkara çıxarmaq.

7. İngilis dili müəlliminin peşə səriştəliliyi və pedaqoji ustalığı nə qədər yüksək olarsa, məktəblilərin idrak fəallığını bir o qədər uğurla idarə etməyi bacarır.

8. İngilis dili müəllimi şagirdlərin müstəqil işlərinə geniş meydan verməklə bu prosesə metodik və pedaqoji rəhbərliyi həyata keçirir.

**ƏDƏBİYYAT**

1. L.A. Məmmədli. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsi yolları: Ped.ü.fəls.dok. ...dis.avtoref. Bakı, 2014.

2. Развитие познавательного интереса учащихся на уроках английского языка http://www.pedsovet.pro/index.php?option=com_content&view=article&id=6597:2014-07-30-16-01-36&catid=56:foreign-language&Itemid=68

# VII SİNİFLƏRİN TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLİKLƏRİNİN İNCƏSƏNƏTƏ DAİR DƏRS-SÖHBƏTLƏRİN APARILMASI BAXIMINDAN İMKANLARI

**Emilya Həsənova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*
E-mail: emilya-hesenova@bk.ru

***Açar sözlər:*** *V-VII sinif dərslikləri, təsviri incəsənət, təsviri incəsənət dərsliyi, söhbət, incəsənətə dair söhbətlər,*

***Ключевые слова:*** *учащихся 5-7 классов, изобразительное искусство, учебник изобразительного искусства, беседа, беседы об изобразительном искусстве*

***Keywords:*** *pupils of 5-7 classes, fine art, fine art tutorial, talk, talk about the fine arts*

Ümumtəhsil məktəbinin tədris planlarına daxil edilmiş fənlər arasında təsviri incəsənət fənninin özünəməxsus rolu və rolu vardır. Bu fənnin köməyilə şagirdlər təsviri incəsənətin tarixi və bu günü barədə ətraflı məlumat almaq imkanına malik olurlar.

Təsviri incəsənət fənni üzrə materiallarla təlim və təlimdənkənar məşğələlərdə tanış olan məktəblilərdə bədii zövq və yaradıcı təxəyyül inkişaf edir, onlar incəsənət əsərlərini dərk edərək qiymətləndirməyi bacarır, simvolik düşüncə tərzinə yiyələnirlər. Bu sahədə, təbii ki, fənn üzrə dərsliklər önəmli rol oynayır. Dərsin səmərəliliyini, maraqlı və cəlbedici olmasını isə bir sıra vasitələr təmin edir. Onların sırasında incəsənətə dair söhbətlərin özünəməxsus əhəmiyyəti vardır. Bunu nəzərə alan qabaqcıl müəllimlər, yeri gəldikcə, dərs-söhbətlərə müraciət edirlər. Dərs-söhbətlər dərslərin təşkili formalarından biridir.

Biz V-VII siniflərin təsviri incəsənət dərsliklərinin incəsənətə dair dərs-söhbətlərin aparılması imkanlarını araşdırdıq. Bu siniflərdə mövzular fənn kurikulumunun məzmun xətləri üzrə standartların həyata keçirilməsinə kömək göstərir və məktəblilərin idrak fəallığına və yaradıcı müstəqilliyinə istiqamətlənmiş texnologiyalara əsasən planlaşdırılmışdır.

V sinfin Təsviri incəsənət dərsliyindəki “Xalq sənətinin yaradıcılıq mənbəyi” bölməsinə daxil olan “Simvollara çevrilmiş təbiət”, “Azərbaycan daxmasının daxili dünyası”; “Ulu irsimiz - xalq geyimləri və Azərbaycan xalçaları” bölməsinə aid olan “Azərbaycan xalçaları”; “Dekor – insan, cəmiyyət, zaman” bölməsində nəzərdə tutulmuş “İnsanlara bəzək nə üçün lazımdır?”; VI sifin dərsliyindəki “Təsviri sənətdə janrlar” bölməsinə daxil olan “Təsvirlərdə insan obrazı” və “Təbiət motivləri”; eləcə də VII sinfin Təsviri incəsənət dərsliyinə salınmış “Azərbaycan memarlıq məktəbləri”, “Təsviri sənətdə əfsanəvi obrazlar”, “Heykəltəraşlıqda insan obrazı” və s. mövzular üzrə dərs-söhbətlər keçirmək mümkündür.

V sinfin Təsviri incəsənət dərsliyinə metodik rəhbərlikdə fənnin vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir: “-Azərbaycanın, eləcə də dünya incəsənətinin görkəmli nümayəndələri və onların yaradıcılığı ilə şagirdlərin tanış olmalarını təmin etmək;

-Həyati gerçəkliklərin və sənət əsərlərinin sagirdlər tərəfindən bədii-obrazlı qavranılmasını təmin etmək, onların estetik zövqünün inkişafına nail olmaq və təsviri sənət nümunələrinin timsalında ölçü, forma, simmetriya, harmoniya məfhumlarının mahiyyəti barədə şagirdlərin təsəvvürlərini dərinləşdirmək;

-Şagirdlərdə müqayisə, təhlil və təsvir qabiliyyətlərini təkmilləşdirmək, onlarda sadə tərtibat-dizayn bacarıqları formalaşdırmaq, təsviri sənət üzrə istedadlı uşaqların üzə çıxarılmasını təmin etmək” (4, 3).

Dərs-söhbətlər bu vəzifələrin həyata keçirilməsinə kömək göstərmək imkanına malikdir.

**ƏDƏBİYYAT**

1. Y. Cəlilova, K. Cəfərzadə. T. Məlik. Təsviri incəsənət: Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2014.
2. K. Cəfərzadə, Y. Cəlilova, M. Məmmədova, T. Məlik. Təsviri incəsənət: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2015.
3. K. Cəfərzadə, M. Məmmədova, T. Məlik. Təsviri incəsənət: Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Yaznəşr. 2014.
4. M. Məmmədova, B. Mirzəyeva, N. Əliyeva. Təsviri incəsənət: V sinif: Müəllim üçün metodik vəsait. Bakı: Aspoliqraf, 2012.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YAYILMIŞ GÜLÇİÇƏKLİKİMİLƏR FƏSİLƏSİNİN NADİR VƏ MƏHVOLMA TƏHLÜKƏSİNDƏ OLAN NÖVLƏRİNİN ŞAGİRDLƏRƏ TANIDILMASI

**Musa Piriyev,**
*Naxçivan Dövlət Universitetinin dosenti,*
**Hilal Qasimov,**
*NDU-nun baş müəllimi*
**Daşqin Qənbərov,**
*NDU-nun dosenti*

***Açar sözlər:*** *Rosaceae Juss., nadir, areal, yemişan, itburnu, armud, əzgil.*
***Ключевые слова:*** *Rosaceae Juss. редкие, ареал, боярышник, шиповник, груша, мушмула.*
***Keywords:*** *Rosaceae Juss. rare, habitat, hawthorn, wild rose, pear, loquat*

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil orta məktəblərində vətənə məhəbbət hissinin aşılanması üçün məktəb və məktəbdənkənar müəsisələrdə bölgənin tarixi, yealtı, yerüsü səvətləri təbiəti haqqında şagirdlərə faktlar əsasında təlim verilməlidir. Bunlarla yanaşı nadir və məhv olmaq təhlükəsi altında olan bitki və heyvan növləri şagirdlərə tanıtılmalıdır ki, onları qorumaq mümkün olsun. Bunun üçün dərslərdəki təlimlər yetərli deyil. Məktəbdən kənar ekoloji tərbiyə mərkəzlərində şagirdlərlə keçirilən digər tədbirlərlə yanaşı, Naxçıvan Muxtar Respublikanın təbiəti, nadir və məhv olmaq təhlükəsində olan bitki növlərinin tanıdılması faydalı olar. Respublikanın öxünəməxsus kserofit tipli bitki örtüyü və florası hələ qədim dövrlərdən bir çox görkəmli botaniklərin, tədqiqatçı səyyahların, təbiblərin və hətta həvəskar bağbanların diqqətini cəlb etmişdir.

Naxçıvanın təbiəti haqqında ilk yazılı məlumat 1700-1702-ci illərində S.P.Turnefor vermişdir. Sonradan tədqiqatçı alimlərdə Q.İ.Radde, A.A.Lomakin, B.Q.Levandovski, A.V.Fomin, S.Medvedev, Y.N.Voronov, A.A.Qrossheym, İ.Qavrilov, A.Q.Doluxanov, İ.İ.Karyaginin, L.İ.Prilipkonun T.S.Qeydeman, İ.Y.Hacıyevin, Y.M.İsayev və b. bölgənin təbiətini tədqiq etmiş bir çox elmi əsərlər yazmışlar. Muxtar respublikanın florasının sistemli, ardıcıl və dərindən tədqiq edənlər içərisində Ə.Ş.İbrahimov və T.H. Talıbovun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Onlar "Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması", "Naxçıvan Muxtar Respublikasının taksonomik spektri" və "Naxçıvan Muxtar Respublikasının Qırmızı kitab"ı kimi əsərləri nəşr etdirmiş, və dəqiqləşdirmələr aparmışdır. Naxçıvan MR florası üçün 2008-ci il məlumatına əsasən 2835 növ ali sporlu, çılpaqtoxumlu və çiçəkli bitki növləri olduğu dəqiqləşdirilmişdir ki, onlar da 170 fəsilədə, 874 cinsdə təmsil olunurlar. Bu miqdar Azərbaycan florasının 63%-i qədərdir. Gülçiçəklikimilərin fəsiləsi bitkilərinin isə Azərbaycanda 29 cins üzrə 195-ə qədər o cümlədən Naxçıvan MR ərazisində 153 növünə rast gəlinir. Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış gülçiçəklikimilər fəsiləsi bitkilərinin təbii fitosenozlarının, aqrofitosenozlarının, bioekoloji şəraitinin, geobotaniki xüsusiyyətlərinin, təbii ekosistemlərdəki müasir vəziyyətinin, antropogen təsirlərin, neqativ halların, az məhsuldarlığın, növlərin məhv olması səbəblərinin öyrənilməsi bütövlükdə flora və bitki aləminin qorunub saxlanmasına, yaxşılaşdırılmasına və bərpasına imkan yaradacaqdır. Beynəlxalq Təbəti Mühafizə İttifaqının məlumatında qeyd edilir ki, ali bitkilərin təqribən 10 %-nin qorunmağa ehtiyacı vardır. Müasir dövrdə

ekoloji şəraitin kəskin surətdə dəyişilməsi, antropogen faktorların durmadan artması, yabanı və mədəni bitkilərin bir çox növlərinin məhv olmasına, digərlərinin itmək təhlükəsinə məruz qalmasına səbəb olmuşdur. Buna görə bir zox bitkilərə xüsusi statuslar verilmiş və "Qırmızı kitab"lara salınmışdır. Bu bitkilər içərisində gülçiçəlikimilər fəsiləsinin növləri önəmli yerlərdən birini tutur [1].

Naxçıvan Muxtar Resublikası florasında yayılmış 153 növdən 28-i nadir və ya məhvolma təhlükəsi altında olduğu üçün müəyyən tədbirlərin görülməsi tövsiyyə edilir. Onların böyük əksəriyyəti meyvə-giləmeyvə bitkiləridir. Digərləri yaşıllaşdırma və bəzək-bağçılığı üçün yararlıdır. Eroziyaya, torpaq sürüşməsinə məruz qalmış sahələrin bərkililməsində mühüm əhəmiyyətə malikdirlər. Nəhayət arealı getdikcə kiçilən növləri qoruyaraq gələcək nəsillərə çatdırmaq hər bir vətənsevərin borcudur.

Muxtar respublikanın ərazisində Gülçiçəklikimilər fəsiləsinin 28 növü nadir və nəsli kəsilmək təhlükəsində olduğundan qorunması məsləhət görülür. Bunlar aşağıdakı növlərdir.Tamkənaryarpaq dovşan alması - *Coteneaster integerrimus Medi*, Suriya armudu - *Pyrus syriaca Boiss*, Voronov armudu - *Pyrus voronovii Rubtz*, Radde armudu - *Pyrus raddeana Woronow*, Zəngəzur armudu - *Pyrus zangezura Maleev*, Medvedev armud - *Pyrus medvedevii Rubtz*, Qafqaz armudu - *Pyrus caucasica Fed.*, Mehri armud - *Pyrus megrica Gladkova*, Yalançı Suriya armudu - Pyrus pseudosyriaca Gladkov, Alman əzgili - *Mespilus germanica* L., Türkmənistan yemişanı-*Crataegus turkestanica* Pojark., Şərq yemişanı - *Crataegus orientalis* Pall. ex Bieb., Pont yemişanı - *Crataegus pontica* C. Koch., Zəngəzur yemişanı - *Crataegus zangezura* Pojark., Pojarkov yemişanı - *Crataegus pojarkoviae* Kassym, Yaşılmeyvə yemişan - *Crataegus chlorocarpa* Lenne et C. Koch., Sonqar yemişan-*Crataegus songarica* C. Koch., Keçətüklü Itburnu - *Rosa tomentosa* Smith., Damak itburnu - *Rosa damascena* Mill., Tuşet itburnu - *Rosa tuschetica* Boiss., Nizami itburnu - *Rosa nizami* Sosn., Qaryagin itburnu - *Rosa karjagini* Sosn., Sosnovski itburnu - *Rosa sosnovskyana* Tamamsch., Rapin itburnu - *Rosa rapinii* Boiss., Cirəyarpaq itburnu - *Rosa pimpinellifolia* L. (*R. spinosissima* L.)., Subafzelian itburnu - *Rosa subafzaliana* Chrshan., Afzelian itburnu - *Rosa afzeliana Fries.* və İkirəng foetida-*Foetida bicolor Herrm.* növlərinin məhdud arelda yayıldığını, antropogen təsirlərə məruz qalığını nəzərə alaraq şagirdlərə tanıdılmalıdır ki, onlar qorunsun və gələcək nəsillərə ötürülsün.Bunun üçun müəllimlər bu bitkilərin rəngli şəkillərini əldə etməli, hər bir növün bomorfologi əlamətləri, yayıldığı ərazilər göstərilməli. Arealının kiçilməsi, nadir və ya məhv olma təhlükəsinə düşməsi səbəbləri izah edilməli, qorunma tədbirləri açıqlanmalıdır. Məhv olma təhlükəsində olan növləri artırmaq üçün hansı tədbirlərin görülməsi izah edilməlidir [3, 4] .

Məs. **Zəngəzur armudu- *Pyrus zangezura* Maleev**

Statusu: VU B1ac.

Yayılması: Muxtar respublikada Biçənək meşəsində, ümumən orta dağlıq qurşağın meşə və meşə talasında rast gəlinir.

Dağınıq çətirli, 9-10 m hündürlüyündə, tikansız ağacdır. Gövdəsi boz qabıqlı, cavan zoğları tünd darçını rəngli olub, tükcüklüdür. Yarpaqları ellips və ya yumurtaşəkilli olub, 5-9 sm uzunluğundadır. Qaidəsi dəyirmi, küt və sivri ucludur. Üst tərəfi tutqun yaşıl rəngli, alt tərəfi çılpaq və solğundur. Yalnız damarlar boyunca zəif tükcüklüdür. Yarpaqları quruyan zaman qaralıq. Meyvələri 3-4, bəzən 7-8 ədəd olmaqla, əsasən yumru olub, 2-3 sm uzunluğunda saplağa malikdir. Bitki aprel ayının axırı, may ayının əvəllərində çiçəkləyir. Meyvələri sentyabr ayında yetişməyə başlayır. Çəpər obası və Həsənalı bulağı ərazilərində rast gəlinir [2].

Ekoloji faktorların məhdudlaşdırıcı təsiri və növ sayının azlığı təbii ehtiyatının azalmasına səbəb olduğundan ərazidə çox nadir rast gəlinir. Çoxalması: Toxumladır.

Naxçıvan MR-in «Qırmızı Kitab»ına daxil edilmişdir. Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində yayıldığı sahələr xüsusi nəzarət altına alınmalı və mühafizə olumalıdır.

**ƏDƏBİYYAT**

1. Talıbov T.H. Naxçıvan MR flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı: Elm, 2001.
2. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) Naxçıvan, 2010.

3. Piriyev M.Z., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikasının ağac və kolları, yaşıllaşdırmada istifadə perspektivləri. Naxçıvan: Əcəmi, 2014.
4. Seyidov M.M.,İbadullayeva S.C., Qasimov H.Z, Salayeva Z.K.. Şahbuz dövlət təbiət qoruğunun flora və bitkiliyi, Naxçıvan: Əcəmi, 2014.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ RİYAZİYYATIN ELEKTRON ƏSASLARLA TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

**Vüsalə Firdovsi,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi*
E-mail: h.vusale@edu.gov.az

***Açar sözlər:*** *elektron tədris resursları, dərslik, informasiya cəmiyyəti*
***Ключевые слова:*** *электронные образовательные ресурсы, учебник, информационное общество*
***Key words:*** *electronic teaching resources, textbook, information society*

Təhsil sistemində aparılan islahatlar tədris prosesinə yeni tendensiyalar və yanaşmalarla təsir göstərir. Bu isə əksər hallarda müsbət nəticə verdiyi halda, bəzən müəyyən problemlərlə də müşayiət olunur. Son illərdə ölkəmizdə informasiya cəmiyyətinə keçidin təmin edilməsi, təhsil prosesində İKT-nin tətbiqi və elektron tədris resurslarından istifadənin genişləndirilməsi artıq nəinki günün tələbinə çevrilmiş hətta norma kimi qəbul edilməyə başlanmışdır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın dördüncü strateji istiqaməti də təhsil müəssisələrində informasiya kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri sisteminin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, regional universal mərkəzlərin yaradılması və digər bu tipli tədbirləri özündə ehtiva edir.

Təhsil sisteminin inkişafına görə nailiyyətlər qazanmış xarici ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Bu məqsədlə müasir təlim metodları və yanaşmalarının tətbiq edilməsi təhsil siyasətində mühüm yer tutur. Lakin bu, reallıqdır ki, təhsil sistemində elektron tədris resurslarından istifadə metodikası və ondan yerində istifadəetmə bacarığı hələ də tam mənimsənilməmişdir. Buna görə də, tədris prosesinin birbaşa aparıcısı və iştirakçısı olan müəllim-şagird kollektivi müəyyən problemlərlə üzləşir. Fikrimizcə, bəzən təchizat baxımından meydana çıxan çətinliklər daha çox qabardılır ki, bu da problemin həlli üçün önəmli olsa da, çıxış yolu deyildir.

Bu gün ümumtəhsil müəssisələrində fənlərin tədrisi zamanı İKT-dən istifadə edilməsi və elektron tədris resurslarına istinad edilməsi tövsiyə olunur. Ümumtəhsil məktəbləri üçün yazılmış dərsliklərə nəzər salsaq, görərik ki, heç də bütün dərsliklərdə elektron tədris resurslarına istinad edilməmişdir. Məsələn, ölkəmizin ümumtəhsil məktəbləri üçün yazılmış VII və VIII sinif “Riyaziyyat” dərsliklərinə nəzər yetirək. VII sinif “Riyaziyyat” dərsliyində ümumiyyətlə elektron resurslara istinad edilməmişdir. VIII sinif “Riyaziyyat” dərsliyində isə bəzi mövzuların tədrisində, yaxud çalışmaların həllində elektron resurslara müraciət olunması tövsiyə edilmişdir. Belə olduğu təqdirdə, həm dərslikdəki mövzunu şagirdlərə öyrətmək, həm də müəyyən elektron resurslara istinad edərək mövzunu izah etmək, yaxud tapşırıqları həll etmək bir çox hallarda mümkün olmur. Edilərsə belə, bu hal əksər hallarda istənilən nəticəni vermir və şagirdin diqqətinin haçalanmasına səbəb olur. Bu zaman yaranan problemlərdən biri də odur ki, müəllim hansı elektron tədris resursundan istifadə edəcəyini dəqiqləşdirə bilmir. Bu sahədə müşahidə edilən mövcud problemləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Elektron tədris resursları kimlər tərəfindən hazırlanmalıdır;
2. Hansı elektron tədris resurslarından istifadə edilməlidir;
3. Elektron tədris resurslarından nə zaman istifadə olunmalıdır;
4. Elektron tədris resurslarından hansı metodika ilə istifadə edilməlidir;
5. Şagird nailiyyətləri necə qiymətləndirilməlidir və s.

Qeyd edilənlərə istinadən belə nəticəyə gəlmək olar ki, İKT və elektron tədris resurslarından nə zaman və necə istifadə edilməlidir sualı tədris prosesinin, eləcə də riyaziyyatın tədrisinin müasir

problemləri sırasına daxil edilməlidir. Mövcud vəziyyətdə əksər ümumtəhsil müəssisələrində kağız dərsliklərlə elektron resurslar bir arada istifadə edilir və şagird nailiyyətləri standart forma əsasında qiymətləndirilir. Hesab edirik ki, bu, tamamilə yanlış yanaşmadır. Əgər tədris prosesində elektron resurslardan istifadə edilirsə, o zaman tamamilə elektron tədris mühitinə keçilməlidir ki, bu daha məqsədəuyğundur ya da fənnin elektron resurslarla tədrisi üçün əlavə dərs saatı ayrılmalıdır. Belə ki, əgər "Riyaziyyat" fənninin tədris üçün həftədə 5 dərs saatı ayrılırsa, o zaman əlavə olaraq ən azı 1 dərs saatını riyaziyyatın elektron resurslardan istifadə ilə tədrisinə ayırmaq olar. Riyaziyyatı elektron resurslardan istifadə edərək tədris edən müəllim həmin fənni sinifdə tədris edən müəllim olmaya da bilər. Bu zaman belə bir sual yaranır: hansı elektron tədris resurslarından istifadə edilməlidir? Hal-hazırda bu istiqamətdə çoxşaxəli işlər aparılır. Bəzi müəllimlər mövzuya uyğun elektron resurslar yaradır və tədris prosesində istifadə edirlər ki, bunun da özünəməxsus mənfi və müsbət cəhətləri vardır. Qeyd edək ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən də elektron tədris resurslarının hazırlanması istiqamətində mühüm işlər görülür. Yaradılan www.e-derslik.edu.az saytında ümumtəhsil məktəblərində istifadə olunan II, III, IV, VI VII və VIII (qismən) sinif dərsliklərin elektron versiyaları yüklənmişdir.

Yuxarıda sadalanan məsələlər Azərbaycanda bütün fənlərin, o cümlədən riyaziyyatın tədrisi prosesinin bu gün durmadan inkişaf etdiyinin bariz nümunəsidir. Qaldırılan problemlər və onların həlli isə bu inkişaf yolunda təhsil sistemimizin qabaqcıl ölkələrin təhsil sistemlərinə uyğunlaşmasını sürətləndirəcək, əldə olunan bilik, bacarıq və digər müasir kompetensiyalar təhsilalanın informasiya cəmiyyətinin fəal üzvü olmasına şərait yaradacaqdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
2. www.e-derslik.edu.az.
3. Ümumtəhsil məktəblərinin VII sinfi üçün Riyaziyyat dərsliyi. Bakı: Şərq-Qərb, 2014.
4. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün Riyaziyyat dərsliyi. Bakı: Radius, 2015.
5. Ümumtəhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları).


## İNTEQRATİVLİK ƏDƏBİYYAT FƏNNİNİN ƏSAS TƏDRİS PRİNSİPLƏRİNDƏN BİRİ KİMİ


**Sevil Cavadova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail:sevil_yusifova@mail.ru



***Açar sözlər:*** *inteqrasiya, tərbiyə, rol, tarix, məqsəd, vəzifə*
***Ключевое слово:*** *интеграция, воспитание, роль, история, цель, задачи*
***Key words:*** *integration, education, role, history, purpose, objective*


Bu gün ölkəmizdə cəmiyyətin tələb və ehtiyaclarına uyğun nəticələrdən ibarət şəxsiyyətyönlü təhsil sisteminin yaradılmasına səy göstərilir. Aparılan kurikulum islahatlarında təlim nəticələrindən ibarət yeni məzmunlu, yeni təlim strategiyaları və şagird nailiyyətlərinin qiymətləndirmə sistemi hazırlanır.

Müasir tələblərə cavab verən kurikulumlar bir çox cəhətlərinə görə ənənəvi təhsil proqramlarında fərqlənir. Bu cəhətlərdən biri də onların inteqrativ olmasıdır.

Pedaqoji mətbuat və metodiki vəsaitlər inteqrativliyi təhsilin məzmun komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsi kimi açıqlayır. Bu anlayışa verilən tərif həqiqətən də əhatəlidir.

İnteqrativ təlim mühüm pedaqoji problem kimi müasir dünyagörüşlü, fəal, yaradıcı, problemlərin həlli və müstəqil qərarlar qəbul etmək üçün zəruri təhsil səviyyəsinə və bacarıqlara malik şəxsiyyət formalaşdırılması vəzifəsinin ön plana çıxdığı hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Bu problemin tədqiqi və həlli təkcə fənlərin tədrisinin elmi, nəzəri əsaslarının inkişafı üçün deyil, müəllimlərin praktik fəaliyyəti üçün də böyük əhəmiyyət kəsb edir.

"Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (Milli Kurikulumu)" sənədi və onun əsasında hazırlanmış fənn kurikulumlarında fənlərin əlaqələrinin geniş tətbiqini nəzərdə tutur.

Əvvəllər şagirdlərdən əzbərləmək tələb olunurdu. Nəticədə isə şagirdlər həyatda onlara lazım olmayan məlumatları öyrənməli olurdular. Bu səbəbdən də onlar çox vaxt cəmiyyətdə və məişətdə baş verən proseslərdən baş çıxara bilmirdilər. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə faktları öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıqlardan müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək daxildir. Belə öyrənmə şagirdlərə müxtəlif fənlər arasında dəyərli əlaqələr yaratmaqda köməklik göstərir. Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan fənlər vasitəsi ilə müxtəlif sahələr üzrə seçilmiş məzmunu öyrənməli və tətbiq etməyi bacarmalıdır.

Nəzərə almaq lazımdır ki, tədris olunan fənlər məzmun etibarilə yüksək dərəcədə inteqrativdir. Çünki hər növbəti mövzu müəyyən dərəcədə əvvəlki ilə bağlıdır. Tədris olunan mövzular öz mahiyyəti, təbiəti etibarilə inteqrativ səciyyə daşıyır. Lakin bu inteqrativlik yalnız fənnin məzmun komponentləri arasında gözlənilməməlidir. Fənlər həm də həyatla inteqrasiya olunmuş şəkildə tədris olunmalıdır. Şagird elmi bilikləri sistemli, əlaqəli şəkildə mənimsəməli, onun şüurunda həyatın tam, dolğun mənzərəsi yaradılmalıdır.

Ədəbiyyat fənni öz-özlüyündə sinkretik fənn olduğundan bu fənnin geniş inteqrasiya imkanlarının mövcudluğu təəccüb doğurmur. Bu fənn kurikulumunda inteqrativlik fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrativlik məzmun xətləri üzrə əsas və alt standartlar arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Peşəkar müəllim bir dərsdə bənzər komponentlərə malik olan bir neçə fənnin standartlarını, mövzularını əlaqələndirə bilər. Bu müəllimə vaxta qənaət etməyə, az vaxt ərzində çox material mənimsətməyə imkan yaradır.

**ƏDƏBİYYAT**

Ümumi təhsilin dövlət standartları və proqramları // Kurikulum, 2010, № 3

## MUSİQİ MƏŞĞƏLƏLƏRİ VƏ MƏKTƏBLİLƏRİN EKOLOJİ TƏHSİLİ

**Sevda Həsənova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*
E-mail: sevdahasanova66@hotmail.com

***Açar sözlər:*** *ekoloji təhsil, musiqi incəsənti, musiqi dərsi, estetik tərbiyə, ekoloji mühit*

***Ключевые слова:*** *экологическое образование, искусство музыки, урок музыки, эстетическое воспитание, окружающая среда*

***Key words:*** *environmental education, the art of music, music lesson, aesthetic education, environment*

Musiqi sənəti vasitəsilə şagirdlərin estetik tərbiyəsinin formalaşdırılması müasir pedaqogika elmində birmənalı şərh olunur. Musiqi bir tərəfdən hər bir şagirdin bir fərd olaraq daxili aləminin inkişafında estetik təhsilin əhəmiyyətini şərh edir, digər tərəfdən isə bəzi müəlliflərin qeyd etdiyi kimi, musiqi uşağın daxili aləminə təsir göstərərək böyük dünyanın bəşəri dəyərlərini, onun öz təxəyyülü, fantaziyası və qabiliyyəti ilə üzə çıxarılmasında böyük rol oynayır.

Musiqi incəsənətinin tərbiyəvi əhəmiyyəti heç bir zaman bu günkü qədər aktual olmamışdır. Təəssüflə qeyd ediləsi haldır ki, sosial tədqiqatlara görə incəsənətin mənası estetik ehtiyacları çıxmaq şərtilə gənclərin şüurunun əsas maddi komponentləri ierarxiyasında axırıncı yeri tutur. Pedaqoji jurnalların səhifələrində təcrübəçi pedaqoqlar yaranan vəziyyətin səbəblərini belə qeyd edirlər: bütün bunlara səbəb mənəvi dəyərlərə, ətraf aləmə və insanlara laqeyd münasibətin, mərhəmətsizliyin nəticəsidir. Uşaq bütün bunları videofilmlərdən, cizgi filmlərindən və kompüter oyunlarından qəbul edir. Buna görə də musiqi dərsi şagirdlərin estetik mədəniyyətinin tərbiyəsində, estetik, mənəvi təcrübə sahəsində ən təsirli və vacib fənlərdəndir. Axı musiqi həmişə gözəlliyi, yaxşılığı və insanlığı özündə cəmləşdirən ən bədii və incə vasitələrdən biri olmuşdur.

Pedaqogikada olduğu kimi musiqi təhsilinin metodiki əsası da musiqi estetik təhsil nəzəriyyəsində xüsusi yer tutur.

Musiqi təhsili şagirdlərə musiqi incəsənəti haqqında vahid təsəvvürün inkişafına əsaslı bilik, bacarıq və vərdişlərin aşılanmasında, musiqi incəsənətində müstəqil fəaliyyət göstərməsinə böyük dəstək verir.

İbtidai siniflərdə "Musiqi" fənni aşağıdakı vəzifələri daşıyır: musiqi ilə məşğul olmaq, musiqiyə maraq göstərmək və ona olan sevgini inkişaf etdirmək, onun gözəlliklərini qiymətləndirmək, əsərlərin bədii obrazlarını təhlil etmək, şagirdlərin emosional hisslərini inkişaf etdirmək və s.

Musiqi və yaradıcı düşüncə incəsənət qanunauyğunluqlarını anlamağa köməklik edir, musiqi qavrayışını həyat ilə əlaqədar incəsənətin bu və ya digər sahələrində inkişaf etdirir.

İncəsənətin müxtəlif növləri arasında təbiətə olan estetik münasibətlərin formalaşdırılmasında musiqi böyük əhəmiyyətə malikdir. Xalq yaradıclığında doğma təbiət, onun simvolları və obrazları insan xarakterinə əsaslanaraq göstərilir.

Azərbaycan xalq mahnı və rəqslərində qızlar maral, ceyran, turac, bənövşə, lalə, oğlanlar isə aslan, şir, qoç və s. ilə müqayisə olunur. Bu cür gözəl müqayisə mahnını daha poetik, obrazlı, incə, şən və qəmli, əzəmətli və oynaq edir.

Müxtəlif yaş qruplu şagirdlərin maarifləndirilməsində elə əsərlər seçilməlidir ki, hansı ki, bu əsərlərdə uşaqların təbiətə münasibəti insan ilə təbiət arasındakı genetik bağlılıq daha da nəzərəçarpan şəkildə əks olunmuşdur. Məsələn, "Kəndimiz" ( Tofiq Quliyev), "Cücələrim" (Qənbər Hüseynli), "Söyüdüm", "Sərçənin nəğməsi", (Oqtay Zülfüqarov), "Xoş gəlirsən ay bahar" ( Rəşid Şəfəq), "Köhlən atım" (Cahangir Cahangirov).

Bütün bunlar musiqi dərslərində şagirdlərdə təbiət, ətraf aləm haqqında təsəvvürlər yaradır. Musiqi dərslərində təbiət təsvirləri verilmiş əyanilikdən, eləcə də təbiət, ekologiya, canlı aləmin, flora və faunanın qorunması, doğma torpağımızın təmizliyi haqqında söhbətlərdən də istifadə etmək lazımdır.

Təbiət mövzusunda yazılmış mahnıların oxunması şagirdlərin təbiətə faydalı münasibət göstərməsinə təsir edir. Şagirdlərdə təbiətə, onun müxtəlif gözəlliklərinə məhəbbət hissini tərbiyə etmək üçün incəsənətə məxsus olan müxtəlif bədii vasitələrdən istifadə edilməlidir. Çünki musiqidə təbiət təsvirləri özünəməxsus tərzdə, təkrarolunmaz şəkildə səslər vasitəsilə tərənnüm edilir.

Musiqi dərslərinin bütün mərhələlərində şagirdlərə təbiətə sevgi hissi aşılamaq mümkündür. Yəni mahnı və melodiyaların öyrənilməsi və musiqi əsərlərinin dinlənilməsi mərhələlərində şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılması üçün bir növ zəmin yaranmış olur. Məsələn, musiqi nümunələrinin öyrənilməsi prosesində istər mahnıların melodiya tərəfinin, istərsə də söz tərəfinin öyrənilməsi zamanı müəllimin üzərinə çox mühüm və ümdə vəzifələr düşür. Bu vəzifələrin həlli üçün isə musiqi müəllimi spesifik xarakterli iş həyata keçirilməlidir. Spesifik xarakterli işi isə musiqi müəllimi həyata keçirmək üçün ciddi hazırlaşmalı, mütəmadi mütaliə etməli, fənlərarası əlaqənin imkanlarından istifadə etməyi bacarmalıdır.

**ƏDƏBİYYAT**


1. F. Sadıqov, G. Əliyeva, M. Abbasov. Ekoloji tərbiyənin etnopedaqoji əsasları. Bakı: Nurlan 2007.
2. N.M. Kazımov. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005.


## TƏHSİLDƏ PRİORİTET İSTİQAMƏTLƏRDƏN BİRİ – MULTİKULTURALİZMİN TƏDRİSİ


**Ülviyyə Abbasova,**

*Bakı Slavyan Universitetinin kafedra müdiri,*

*filologiya üzrə fəlsəfə doktoru*

E-mail:*abbasova_u@mail.ru*



***Açar sözlər:*** *təhsil siyasəti, tolerantlıq, multikulturalizm, etnik qruplar*

***Key words:*** *educational policy, tolerance, multiculturalism, ethnic groups*

***Ключевое слова:*** *образовательная политика, толерантность, мультикультурализм, этнические группы*

Dövlətin inkişafı və münasibətlərin təkmilləşməsi yalnız və yalnız millətlərarası dostluq, qardaşlıq, sülhün formalaşması əsasında mümkündür. Təhsilin bütün pillələrində təhsilalanlar arasında dini, etnik, irqi zəmində müxtəlif münaqişələr, mübahisələr baş verir. Bu cür hallara bütün dünyada rast gəlinir. Belə münaqişələrin qarşısını almaq üçün təhsil sisteminin əsasında humanizm, hörmət, vicdan kimi dəyərlər dayanmalıdır. Təhsil insanların ideyalarını dəyişdirmək, xarakterlərini yaxşı istiqamətə yönəltmək üçün güclü silahdır. Bu səbəbdən təhsilin müxtəlif pillələrində multikulturalizm fənninin tədrisi prioritet istiqamətlərdən olmalıdır. Tolerantlığın tədrisi insanlar arasında sülhün bərqərar olmasına, dözümlülüyün artmasına, dostluq və qardaşlıq münasibətində yaşamaları üçün zəmin yaradacaqdır. Multikulturalizm və tolerantlıq sözləri termin kimi bizim üçün yenidir, mahiyyət etibarilə yeni deyil. Çünki bəşər övladı mövcud olandan yer üzündə sülh, hörmət, yaxşılıq, dözümlülük kimi dəyərlər vardır və bu gün də yaşayır.Xarici dövlətlərə nəzər salsaq görərik ki, tolerantlığın tədrisinə geniş yer verilir və bununla bağlı müxtəlif tədqiqat işləri aparılır. Ümumtəhsil ocaqlarında tolerantlığın və multikultural dəyərlərin aşılanması zəruridir. Belə ki, Azərbaycan xalqı tarixən müxtəlif millətlərin və dinlərin nümayəndələri ilə birgəyaşayış nümayiş etdirib və etdirir. Bu da ondan irəli gəlir ki, Azərbaycan Şərqlə Qərbin qovşağında və Tarixi İpək yolunun üzərində yerləşir. Məhz bu səbəbdən də Azərbaycanın fərqli tədris müəssisələrində müxtəlif dinlərin və xalqların nümayəndələri təhsil alır. Onların yerli tələbələrlə eyni səviyyədə təhsil almaları üçün biz ilk növbədə istər orta ümumtəhsil ocaqlarında, istərsə də ali təhsil ocaqlarında öz tələbələrimizə tolerantlığın və multikultural dəyərlərin aşılanmasının prioritet istiqamət kimi müəyyənləşdirməliyik. Məhz buna görə də alimlər bu sahəyə diqqətlə yanaşmalı, tolerantlıq və multikulturalizmlə bağlı dərsliklərin, dərs vəsaitlərinin və metodik vəsaitlərin yazılıb təhsil ocaqlarında istifadəsinə çalışmalıdırlar. Həmçinin multikulturalizm və tolerantlıq mövzusunda fakultativ dərslərin orta ümumtəhsil ocaqlarında təşkil olunması vacibdir. Belə ki, orta ümumtəhsil məktəblərində təhsilin aşağı pillələrindən başlayaraq tolerant və humanist davranışın mahiyyətini öyrətmək, şagirdlərə tolerant münasibətin şəxsi dəyərlər sistemində əhəmiyyətini anlamağa kömək edəcəkdir. Alimlər tərəfindən müşahidə olunub ki, tolerant və multikultural dəyərlərin tədrisi 4-9 yaş arası daha effektivdir. Kiçikyaşlı məktəbli üçün müəllim ən ideal şəxsdir. Bu səbəbdən müəllimlər buna yalnız sözdə deyil, öz davranış nümunələrində də əməl etməlidirlər. Unutmaq olmaz ki, kiçikyaşlı məktəbli daima müəllimi izləyir və onun etdiklərini təkrar edir. Bu sadaladıqlarımızın hamısı məktəblilərin gələcəkdə istər ölkəmizdə, istərsə də xaricdə ali təhsil ocaqlarında yüksək səviyyədə təhsil almaları üçün güclü silahdır. Belə ki, məktəbi bitirmiş fərd artıq bir şəxsiyyətə çevrilir və onun özünün ideoloji düşüncəsi formalaşır və bu düşüncəni ali təhsil ocaqlarında yaxud da adi həyatda dəyişdirmək çox çətindir. Ali təhsil müəssisələrində yaxşı səviyyədə artıq aşılanmış və tətbiq olunmuş tolerant və multikultural dəyərləri yüksək səviyyədə tələbələrə tədris etmək üçün professor – müəllim heyəti bu missiyanı davam etdirməlidir. Bunun üçün onlar tələbələrə yüksək keyfiyyətli mühazirələr oxumalı, konfranslar, dəyirmi masalar təşkil etməli və bu sahəni elmi – tədqiqat mövzusuna çevirməlidirlər. Tələbələrə şərait yaradılmalıdır ki, onlar bu mövzularda öz araşdırmalarını aparsınlar.Son nəticəyə gələndə onu deyə bilərik ki, multikulturalizm yeni elm sahəsidir və onun tədrisi, təbliği prioritet istiqamətlərdən biri olmalıdır.

**ƏDƏBİYYAT**

1. İsmayılov G. Tolerantlıq bildiklərimiz və bilmədiklərimiz. Bakı, 2014,
2. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015.

# DƏRSLİK PROBLEMİNƏ MÜASİR YANAŞMA

**Arifə Əliyeva,**
*Bakı şəhəri Xətai rayonu 254 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*
E-mail: arife.53@gmail.com

***Açar sözlər****: yeni dərsliklər, pedaqoji düşüncələr, milli kurikulum, ana dili*
***Ключевые слова****: новые учебники, педагогические размышления, национальный курикулум, родной язык*
***Kew words****: the new textbooks, pedagogical thinking, the national curriculum, the national curriculum*

Azərbaycan dili kurikulumu əsasında yazılan dərsliklərin yeni təlim texnologiyası və yeni təlim metodlarının didaktik imkanlarına uyğun olması başlıca şərt sayılır. Dərslik fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq etməli, onu tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirməlidir.

Dərslikləri kurikulumların tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm pedaqoji prinsiplərin gözlənilməsi zəruri hesab edilir.

1. Düzgünlük. Bu prinsip dərsliyi qeyri-ciddi faktlardan uzaqlaşdırır, inandırıcı, stimullaşdırıcı mənbəyə çevirir. Şagirdlər dərsliyə etibarlı tədris vəsaiti kimi yanaşırlar.

2. Əyanilik. Dərsliyi baxımlı etmək, onu şagirdin ən yaxın müsahibinə, eləcə də stimullaşdırıcı vasitəyə çevirmək üçün əyaniliyə mühüm didaktik prinsip kimi müraciət olunur.

3. Müasirlik. Dərsliyin ən mühüm atributlarından biri onun yeniliyi, müasirliyidir. Dövrün, zamanın tələb və ehtiyaclarını özündə əks etdirməsi, şagirdlərdə yenilik əhvali-ruhiyyəsi yarada bilməsidir.

4. Tamlıq. Tədris vəsaitlərindən biri kimi dərsliyin bütövlüyü, tamlığı onun məzmununda aşağıdakı müəyyən komponentlərin olmasını tələb edir:

5. Ardıcıllıq. Dərsliklərin məzmunundakı materialların sıralanmasında ardıcıllıq mühüm prinsiplərdən biri kimi gözlənilir.

6. Yaş səviyyəsinə uyğunluq. Dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmalıdır. Bu zaman iki əsas tələb diqqət mərkəzində saxlanılmalıdır: a) dizayn; b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı.

7. Təlim vaxtına uyğunluq. Təlim materiallarının miqdarı və ağırlıq çəkisi müəyyənləşdirilərkən ayrılan vaxt nəzərə alınır. Bu zaman nəzəri və praktik materialların balansının gözlənilməsi, standartların reallaşdırılmasına yönəldilməsi zəruri hesab edilir.

8. Oxunaqlılıq. Oxunaqlılığın nəzərə alınması üçün ilkin olaraq məzmun materiallarının maraqlı olması vacib hesab edilir. Belə materiallar şagirdlərin diqqətinə səbəb olur, onları öyrənməyə təhrik edir.

9. İnklüzivlik. Bu prinsip əsasında yazılmış dərslik özünün əhatəliliyinə görə seçilməlidir. Təlim prosesində yalnız bir səviyyəni deyil, müxtəlif səviyyələri ehtiva etməlidir. Həm istedadlı, həm də müəyyən səbəblərdən geridə qalan şagirdlərin təlim maraqlarını ödəyə bilməlidir.

10. Fəal təlim üçün şəraitin yaradılması. Fəal təlim müasir təhsil prosesinin əsas atributlarından hesab edilir. Onun qurulmasında bir çox amillərlə yanaşı, dərslik də həlledici rol oynayır.

## ƏDƏBİYYAT

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri: Metodik tövsiyə. Bakı: Kövsər, 2008.
2. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİNƏ VERİLƏN TƏLƏBLƏR

**İlahə Qafarova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail: ilahe.qafarova@mail.ru

***Açar sözlər:*** *məktəbəqədər təhsil, tələblər, hədəflər, proqram, uşaqlar*
***Ключевая слова****: дошкольное образование, требования, цели, программы, дети*
***Key word:*** *pre-school education, requirements, objectives, programs, children*

Məktəbəqədər təhsil pilləsində uşaqların təlim-tərbiyə işinin daha səmərəli, müasir tələblər səviyyəsində qurulması dövrün tələbidir. Məktəbəqədər təhsilin məqsədi uşağın fiziki, psixi, emosional, sosial və intellektual potensialının inkişafı üçün şərait yaratmaq, uşaqların sadə əmək vərdişlərinə yiyələnməsini təmin etmək, uşaqlarda məntiqi və yaradıcı təfəkkürün ilkin elementlərini formalaşdırmaq və istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını təmin etməkdən ibarətdir.(1) Yeni nəticə yönümlü məktəbəqədər təhsilin proqramında ( kurikulumda ) məktəbəqədər təhsilin tələbləri hədəflər şəklində təqdim edilmişdir. Hədəflər məktəbəqədər təhsilin səviyyəsinin tamamlanması mərhələsində uşağın mümkün nailiyyətlərinin ictimai cəhətdən-normativ yaş xarakteristikalarıdır.
Məktəbəqədər təhsilin proqramının hədəfləri;
a) məktəbəqədər təhsilin hədəflərini nəzərə alaraq ona uyğun olan səviyyələrin müəyyənləşdirilməsi;
b) məsələlərin həlli;
*Proqramın məzmununun müəyyənləşdirilməsi;*
*peşəkar fəaliyyətin təhlili;*
*ailələrlə qarşılıqlı əməkdaşlıq;*
c) 1 yaşdan 6 yaşadək uşaqların təliminin xüsusiyyətlərinin öyrənilməsi;
ç) valideynlərə məktəbəqədər təhsilin məqsəd və vəzifələri haqqında məlumatın verilməsi;
Məktəbəqədər təhsil proqramında uşağın yaş xüsusiyyətlərinin inkişafına uyğun olaraq aşağıdakı sosial-normativ hədəfləri var:
- uşaq ətrafdakı obyektlər ilə maraqlanır və onlara toxunur, oyuncaqlar və digər obyektləri ilə fəaliyyət göstərir
- uşaq gündəlik istifadə etdiyi əşyaları tanıyır və onlardan istifadə edir.
- sadə özünə xidmət vərdişlərini yerinə yetirir, fəaliyyət zamanı müstəqil hərəkət etməyə çalışır;
- uşaq ünsiyyət zamanı öz rolunu yaşına müvafiq qaydada tənzimləyir, kiçiklər, yaşıdları və yaşlılarla ünsiyyət qurmağa çalışır.
- böyüklə ünsiyyətə girməyə cəhd edir və hərəkətlərində onları fəal yamsılayır, böyüklərin hərəkətlərinə uyğun oyunlar qurur.
- uşaq öz yaşıdlarına maraq göstərir; onların hərəkətlərini müşahidə edir və onları yamsılayır;
- şerlərə, mahnılara və nağıllara maraq göstərir, şəkillərə baxır, musiqinin altında hərəkət etməyə çalışır; müxtəlif əsərlərə emosional reaksiya verir;
- uşaqda böyük və kiçik motorika inkişaf edir, o hərəkətin müxtəlif növlərinə (qaçış, dırmaşma, hoppanma və s.) yiyələnməyə çalışır.

Bu hədəflərin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- ailədə və məktəbəqədər müəssisələrdə uşaqların təhlükəsizliyinin qorunması;
- uşaqlarda sağlam həyat tərzinə aid müvafiq bacarıq və vərdişlərin formalaşdırılması;
- uşaqların fiziki, psixi,emosional, intellektual inkişafının təmin edilməsi;
- uşaqlarda Vətənə məhəbbət, millətinə, dilinə, dininə, dövlət rəmzlərinə, Azərbaycan xalqının, həmçinin digər xalqların milli-mənəvi dəyərlərinə hörmət hissinin yaranması və inkişafı;
- uşağın tələbat və maraqlarının müəyyən edilməsi, təhsildə bu amillərin nəzərə alınması;
- uşaqların məktəb təliminə hazırlanması.

***Məktəbəqədər təhsil pilləsinin sonunda uşaq bütün deyilənlər nəzərə alınaraq, proqrama əsasən bu nəticələrə nail olmalıdır:***

- sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir;
- qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir;
- böyük, kiçik və hissi (sensor) - motor hərəkətlərini koordinasiya edir;
- təhlükəsizlik qaydalarına əməl edir;
- nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir;
- sadə riyazi-məntiqi əməliyyatları yerinə yetirir;
- əşya və hadisələr haqqında ilkin təsəvvürlərə malikdir və anlayışları izah edir;
- səbəb - nəticə əlaqələrini müəyyən edir və fərziyyələr irəli sürür;
- sadə təqdimatlar edir;
- sosial və mənəvi dəyərlərə öz münasibətini bildirir.
- insanlara qarşı hörmət və dözümlülük (tolerantlıq) nümayiş etdirir;
- özündən kiçiklər, həmyaşıdları və böyüklərlə qarşılıqlı ünsiyyət qurur;
- sosial normaları dərk edir və davranışında ona riayət edir.
- sadə əmək bacarıqları nümayiş etdirir;
- sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir;
- özünüdərk bacarıqlarını nümayiş etdirir;
- mədəni - estetik təsəvvürlərə malikdir və yaradıcılıq bacarıqları nümayiş etdirir.

Məktəbəqədər yaş dövründə uşaqlarda hərəkətliliyə tələbat güclənir, operativ hafizə inkişaf edir, hərəkətlərin dəqiqliyi, uyğunluğu, ayrılmazlığı yaranır. Bütün hərəki fəaliyyətlər idrakı xarakter, dinamik və məqsədyönlü xarakter daşıyır. Fiziki çalışqanlıq artır. Xarakter, əqli və iradi keyfiyyətlər, motiv formalaşır.

**ƏDƏBİYYAT**

1. .Azərbaycan Respublikasının Təhsil Qanunu. //Təhsil xəbərləri. 2009, № 6

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı: TPİ Təhsil Texnologiyaları Mərkəzi, 2014.

\

## UŞAQ BAĞÇALARINDA RABİTƏLİ NİTQİN İNKİŞAFI

**Təranə Seyidova,**
*Naxçıvan şəhəri 1 nömrəli uşaq bağçasının tərbiyəçisi*

***Açar sözlər:*** *nitqin inkşafı, didaktik oyunlar, rabitəli nitq, əqli tərbiyə, tərbiyəçi*
***Ключевые слова:*** *развитие речи, дидактические игры, связная речь, умственное воспитание, воспитатель*
***Key words:*** *speech development, didactic gaames, connected speech, mental education, tutor*

Bağçada uşaqların əqli tərbiyəsinin mühüm vəzifəsi onların təfəkkürünün və nitqini inkişaf etdirməkdir. Bir-biri ilə sıx bağlı olan bu iki psixi proses uşağın ətraf aləmi dərketmə prosesində formalaşır. Nitqin inkişafı və ətraf aləmlə tanışlıq üzrə iş bağçada məşğələlərdə deyil, həm də rejim prosesində, uşaqların əmək fəaliyyətində yerinə yetirilir. Bağçada uşaqların rabitəli nitqinin inkişafı üzrə işin səmərəli təşkili onların nitqinin bu istiqamətdə inkişafı vəziyyətini əsaslı şəkildə öyrənməkdən ibarətdir. Nitqin inkişafı üzrə işə nitqin səs mədəniyyəti, uşaqların söz ehtiyatının zənginləşdirilməsi, qrammatik cəhətdən düzgün nitqə yiyələnmələri, rabitəli nitqin inkişafı daxildir. Uşaqlarda belə keyfiyyətlərin tərbiyə olunmasında didaktik oyunlar çox mühüm rol oynayır.

Oyunun istər hərəkətli-rollu, istər yaradıcı, istərsə də didaktik növündə uşaqların nitqinin inkişaf etdirilməsi üçün imkanlar var, lakin didaktik oyunlar bu baxımdan böyük imkanlara malikdir. Didaktik oyunlarda bu və ya digər vəzifə həll olunarkən təfəkkürün əsas prosesləri inkişaf edir. Belə oyunlarda uşaqlar əşyaların adı, əlamətləri, nədən hazırlanması, nəyə lazım olması, onlar arsındakı fərq, zaman və keyfiyyət münasibətləri haqqında biliklərini möhkəmləndirir və sistemləşdirirlər. Didaktik oyunlar

uşaqlarda beyin hərəkətliliyinə, elastikliyinə, diqqətin inkişaf etdirilməsinə, iradənin möhkəmləndirilməsinə, düzgünlük kimi keyfiyyətlərin yaranmasınaköməklik göstərir.

Bu oyunlarda uşağın bilik, bacarıq və vərdişlərə yiyələnməsində söz müstəsna əhəmiyyətə malikdir. Belə oyunların bir çoxu öz fikrini başqalarının başa düşəcəkləri şəkildə ifadə etmək bacarığı tələb edir.

Didaktik oyunlar o zaman maraqlı və məzmunlu olur ki, tərbiyəçi öz məsləhəti ilə vaxtında uşaqlara kömək göstərir. Tərbiyəçi oyunda uşaqlara sərbəstlik verməli, oyunu suallarla yükləməməli, düzgün cavab vermələrini təmin etməlidir.

Bu oyunlar həftədə iki məşğələdə 5-7 dəqiqə ərzində, əlavə olaraq gəzinti, müşahidə prosesində təşkil edilməlidir.

Rabitəli nitqdə məntiqlilik, ardıcıllıq, sübut etmə, tamlıq özünü göstərir. Rabitəli nitq, hər şeydən əvvəl, məzmunlu olmalıdır. Məntiqli ardıcıllıq, düzgünlük, aydınlıq, ifadəlilik məzmunun veriməsinə xidmət edir. Uşaqların belə nitqə yiyələnmələri texnologiyası təlim prosesinin müvəffəqiyyətini təmin edir.

Bağçada yalnız şifahi rabitəli nitqin inkişafı üzrə iş gedir. Bu yaşlarda uşaq ətraf aləm haqqında çox şey bilir, lakin onu rabitəli ifadə edə bilmir. O, hər hansı hadisə haqqında tələsik şəkildə bu və ya digər hadisəni buraxaraq danışır, nəticədə məzmun aydın başa düşülmür. Uşağın qarşısına həmişə "Mən nəyə görə danışıram?" sualı qoyulmalıdır. Məhz o zaman uşaq başlıca fikrini tam, aydın, dəqiq çatdırılmasına çalışaraq, sözün necə gəldi seçilməsi hallarına yol verməyəcək, düzgün və dəqiq, rabitəli nitqə yiyələnmək üçün uşaq buna bütün həyatı boyu rast gələcəkdir.

Deməli, rabitəli nitqin inkişafı üzrə işə erkən yaşlarda başlamaq və uzun illər davam etdirmək lazımdır.

## TEXNOLOGİYA FƏNNİNƏ AİD PRAKTİK TAPŞIRIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xuraman Səlimova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: xuraman.salimova@mail.ru

***Açar sözlər:*** *yaradıcı fəaliyyət, praktik tapşırıqlar, istehsalat təlimi, qiymətləndirmə standartları, təlim nəticəsi*

***Ключевые слова:*** *творческая деятельность, практические задания, производство обучения, стандарты оценивания, результат обучения*

***Key words:*** *creative work, practical tasks, the production of training, assessment standards of learning outcomes*

Ümumtəhsil məktəblərində çox sayda fənlər tədris edilir, onların hər birinin əməklə, iqtisadiyyatla bağlılıq imkanları vardır [1]. Fənnin məntiqini pozmamaq şərti ilə bu imkanlardan iqtisadi biliklərin öyrədilməsi üçün istifadə edilməlidir. Məktəb öz məzunlarını əməyə, həyata praktik cəhətdən də hazırlamalıdır, ikinciyə daha çox üstünlük verməlidir.

Texnologiya təlimi çərçivəsi sahəsində maarifləndirmə məsələlərinin həllinə müasir yanaşmaq aşağıdakılarla müəyyən olunur[5].

- Fəal düşünmə fəaliyyəti prosesində kiçik şagirdlər əmək fəaliyyətinin əsaslarına yiyələnirlər.
- Mümkün materialların ən sadə, texnoloji təlimi ilə tanış olur, yaradıcı fəaliyyət təcrübəsinə yiyələnirlər.

Texnologiya dərsləri qeyd olunmuş məsələlərə iki istiqamətdə yanaşır:

Birincisi, bütün mümkünlüklə şəxsiyyətin formalaşması: psixoloji keyfiyyətlərin inkişafı (düşüncə, təxəyyül, yaddaş, diqqət, nitq), estetik zövqün, praktiki yaradıcılıq fəaliyyəti tələbləri, eyni zamanda texniki və bədii elementlərin inkişafı sahəsində, konstruktiv bacarıqların toplusudur.

İkinci, ümumiləşmiş texniki –texnoloji biliklərin və şagirdlər üçün uyğun olan materiallarla əllə emal bacarıqlarının formalaşması.

Adları çəkilən məsələlərin məzmunlu həlli şagird tapşırıqlarına uyğun gələn düşünülmüş çalışmaların və məmulatların olması sayəsində realizə olunur:

1. Tapşırıqların həlli, o cümlədən məmulatların hazırlanması dərsin məqsədi deyil. Tapşırıq yalnız konkret tədris məsələlərinin həlli üçün vasitədir .

2. Hər bir praktik tapşırığın icrası asan olmalıdır. Belə ki, bu zaman onların icrası prosesində bir-iki yeni bilik və bacarıqlarının üzə çıxması, şagirdlər tərəfindən "açılması" nəzərdə tutulmalıdır.

3. Texnologiya dərslərində şagirdlərə təqdim olunmuş məmulatlar təsadüfi xarakter daşımamalıdır. Onlar hər bir dərsin məqsədinə cavab verməli və dəqiq ardıcıllığa riayət etməlidir.

4. Təlim şagirdlərə dünyəvi biliklər haqqında geniş məlumat verməli, eyni zamanda onların düşünmə qabiliyyətinin texniki və şəxsiyyətin mənəvi keyfiyyətlərinin yüksəldilməsinə xidmət göstərməlidir.

Hər bir dərsdə gizli konstruktiv xüsusiyyətləri olan ayrıca sxemlərin, çertyojların, eskizlərin hər hansı bir nümunənin olması vacibdir [3]. Bu şagirdlərə bir tərəfdən nümunənin bütün konstruktiv xüsusiyyətləri ilə dərk edilməsində, ikinci tərəfdən isə əşya vasitəsi ilə konstruktiv texnoloji problemlərin üzə çıxarılmasında onların müzakirəsinin həlli üçün müxtəlif yolların axtarışına kömək edir. Əgər bütün verilənlər məlumdursa, alətlər, materialın konkret işi üçün zəruri olan yarımçıq informasiyaların olması səmərəsiz işi istisna edir. Bu zaman zəruri olan tərəfin axtarışını stimullaşdırır və şagirdlərdə özünə nəzarət bacarıqlarının formalaşması yolu ilə məsələni həll edir.

Texnologiya dərslərində praktik tapşırıqların qiymətləndirilməsi aşağıdakı mərhələlərlə həyata keçirilir:

1. Hazırlıq mərhələsi (şagirdlərin qarşısında duran işə hazırlaşdırılması);

2. Tapşırıqla bağlı texnoloji məlumatlılığı (söhbətləri, müzakirə əsasında);

3. Tapşırığın təhlili (şagirdlərin müəllimlə birlikdə tapşırığın konstruktiv və texnoloji xüsusiyyətlərini müəyyənləşdirilməsi, imkan daxilində onun həyata keçirilməsi üsullarının müstəqil axtarışı, daha səmərəli yolların müəyyənləşdirilməsi).

4. Yerinə yetiriləcək praktiki məzmunlu tapşırığın planlaşdırılması (məmulatın hazırlanmasının texnoloji ardıcıllığında seçilmiş konstruktiv-texnoloji piriyomların dəqiqləşdirilməsi. Kortoçka üzrə sonradan özünü yoxlama da mümkündür.)

5. İş yerinin təşkili (material və alətlərin paylanması və yerləşdirilməsi)

6. Şagirdlərin praktik məzmunlu tapşırıqları müstəqil icrası (məlum üsul və hərəkətlərin və didaktik kartların vasitəsi ilə məmulatın konstruktiv və texnoloji xüsusiyyətlərinin təhlilini təmin edərək, şagirdlərin maksimal müstəqil şəkildə məmulatı hazırlamasının təşkili);

7. İş yerinin səliqəyə salınması;

8. Ümumiləşdirmə (dərs zamanı açılmış yeni biliklərin dərk edilməsi və formalaşdırılması, şəxsiyyətin yeni keyfiyyətlərinin üzrə çıxarılması);

9. Şagirdlərin dərsdə fəaliyyətinin qiymətləndirilməsi (işin keyfiyyətlə yerinə yetirilməsi əsasında tapşırığın icrası səviyyəsinin qiymətləndirilməsi).

Dərsdə praktik işin yoxlanılması üçün müəyyən meyarlar olmalıdır. Bu meyarlar mütləq işdən əvvəl tam olaraq düşünülməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // Kurikulum, 2009, № 2
2. Əliyev A., Hüseynova S. Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi. Bakı: Şərq – Qərb, 2011.
3. Əliyev A. Tikiş istehsalının texnologiyası. Bakı: Şərq-Qərb, 2011.
4. Mayılov İ., Əhmədov H. Əmək hazırlığı. Bakı: Maarif, 2010.
5. А. Юльяновна. Методика преподавания технологии. М., 2009.

# BİOLOGİYA FƏNN KURİKULUMUNUN MARAQLI CƏHƏTLƏRİ

**Günel Qocayeva,**
*Bakı şəhəri Nizami rayonu 201 nömrəli*
*məktəbin biologiya müəllimi.*
E-mail: gunel.qocayeva.80@bk.ru

***Açar sözləri:*** *biologiya, kurikulum, məzmun xətti, vəzifələr*
***Ключевые слова:*** *биология, курикулум, содержательная линия, задачи*
***Key words****: biology, curriculum, content line, objectives*

Orta ümumtəhsil məktəblərinin başlıca vəzifəsi gəncləri həyatı və özünü dərk edə bilən bir şəxsiyyət kimi yetişdirməkdən ibarətdir. Biologiya bu fənlərdən biri olmaqla canlılar aləmindən bəhs edir, şagirdlərə canlıların yaranması, quruluşu, yayılması, inkişaf, qorunması ən əsası isə biososial varlıq olan insanın öz orqanizminin quruluşu və həyati xassələrinin öyrənilməsinə şərait yaradır.

İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meydana gəlmişdir. Azərbaycanda bu keçən əsrin 90-cı illərinin axırlarından başlayaraq istifadə olunur. Hər zaman olduğu kimi hal-hazırda da təbiət elmlərinin öyrənilməsinə çox böyük maraq və ehtiyac duyulur. Ölkəmizdə fənn kurikulumunun tətbiqi ilə əlaqədar olaraq tədris olunan fənlərdən biri də biologiya fənnidir. Biologiya elminin məqsədi canlılara dair bilik və bacarıqları mənimsəməklə onlarda ekoloji mədəniyyət, esteti zövq və vətənpərvərlik keyfiyyətləri formalaşdırmaqdan ibarətdir.

Biologiya fənn kurikulumu hazırlanarkən müəllimlər, şagirdlər, valideynlər, dərslik və metodik vəsaitlər nəzərə alınmalıdır.

Biologiya fənn kurikulumunda canlıların hüceyrədən biosferədək təşkili səviyyələri, canlılar aləminin bioloji təkamülü, irsi dəyişikliklərin qanunauyğunluqları, ekoloji problemlə, onların həlli yolları sadədən mürəkkəbə doğru inteqrasiya nəzərə alınmaqla təqdim edilir.

Biologiya fənninin məqsəd və vəzifələri əsas götürülərək tam orta təhsil səviyyələri üzrə dörd məzmun xətti müəyyən edilmişdir:

Canlıların quruluşu və müxtəlifliyi.

Bioloji proseslər.

İnsan və onun sağlamlığı.

Canlılar və ətraf mühit.

Hər məzmun xətti üzrə ümumi təlim nəticələri və məzmun standartları müəyyənləşdirilmişdir. Təlim məqsədlərini həyata keçirmək üçün müəllim düzgün təlim strategiyası seçməlidir. Bu zaman şagirdlərin yaş xüsusiyyətləri, dərketmə qabiliyyətləri nəzərə alınmalıdır. O zaman şagirdlərdə zehni yorğunluq halları aradan qaldırılar, onların düşünmək və tədqiqatçılıq qabiliyyətləri inkişaf etdirilər və ən nəhayət təhsilə, elmə marağı artar.

Zamanın əsas tələblərindən biri yeni təlim üsullarından istifadə etməkdir. Hər müəllim sinif otağına girərkən sinifdə canlanma yaratmaq, şagirdlərin dərsə olan marağını artırmaq barədə düşünür və bunun üçün də daim axtarışlar aparır. Çalışır ki, hər bir dərs şagirdin yaddaşında öz izini qoymaqla onların təlim-tərbiyəsinin, dünyagörüşünün formalaşmasında böyük rol oynasın.

Bütün tədrisin sonunda şagird biologiya fənnindən aşağıdakılara yiyələnməlidir:

Canlı aləmi təşkil edən varlıqları səciyyəvi xüsusiyyətlərinə görə müqayisə etməli, bioloji varlıqlarda baş verən dəyişiklikləri müşahidə etmək üçün təcrübələr qoymalı, canlı varlıqlarda maddələr mübadiləsinin qanunauyğunluqlarının səbəblərini izah etməli, bitkilərin əkilməsi, becərilməsi, ev heyvanlarının və quşların bəslənməsi və onlardan məhsul alınması texnologiyasına yiyələnməli, ekoloji problemləri aradan qaldırmaq məqsədilə fiziki, kimyəvi və bioloji amillərin canlı varlıqlara mənfi təsiri barədə nəzəri məlumatlara yiyələnməli, zədələnmələr zamanı ilk tibbi yardım göstərmək və xəstəliklər zamanı profilaktik tədbirlər görülməsi üçün lazımi biliklərə yiyələnməlidir.

Ümumiyyətlə, biologiya fənn kurikulumu, nəticəyönlü, şagirdyönlü, şagirdlərin maraq və qabiliyyətlərinə əsaslanan, fənnin xarakterik xüsusiyyətlərini, məqsəd və vəzifələrini, məzmun xətlərini, təlim strategiyalarını və şagird nailiyyətlərinin qiymətləndirilməsini özündə əks etdirən sənəd olmalıdır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Ümumtəhsil Konsepsiyası (Milli Kurikulum) Bakı, 2006.
2. H.M. Hacıyeva. Biologiyanın tədrisi metodikasının inkişaf tarixi və metodologiyası. Bakı, 2009.
3. Z. Veysova. Fəal təlim metodları. Bakı, 2002.
4. Biologiya fənn kurikulumu. "Azərbaycan müəllimi "qəz., 2010.
5. Abbasov. Ə Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum, 2008, № 1

# TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ TAKSANOMİYANIN ROLU

**Günel Orucova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*BDU*

***Açar sözlər:*** *təlim keyfiyyəti, taksanomiya , qiymətləndirmə*
***Ключевые слова:*** *качество обучение, таксаномия, оценивание*
***Keywords:*** *the quality of training, taksanomiya, evaluation*

Təlim məqsədlərinin sistemli şəkildə xarakterizə olunması, təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatı üçün takoanomiya anlayışından istifadə olunur. Taksonomiya nədir və o təlimə hansı yenilikləri gətirmişdir? Taksonomiya yunan sözüdür (taxis – qayda ilə yerləşmə, namos – qanun deməkdir). Təlim məqsədlərinin sistemli və ya şəbəkəli təsnifatına taksonomiya deyilir. Təlim məqsədlərinin sistemli və ya şəbəkəli təsnifatı, yəni təlim məqsədlərinin taksonomiyası tədris prosesinin elmi-metodik səviyyəsində planlaşdırmaq və onun nəticələrini müəyyən etməyə imkan verir. Təhsildə taksonomiya qarşıya düzgün məqsəd qoymaq, təhsil alanın tapşırıqları düzgün formalaşdırmaq, adekvat qiymətləndirmə vasitələrini seçmək, təlim nəticələrini əsasən düzgün təhlil aparmaq üçün lazımdır.

Ənənəvi təlim monoloji təlim idi, bir səsin (müəllimin) təlimi idi. Müəllim sinifdə hakimi-mütləq idi. Pedaqoji fəaliyyətdə müəllimin dominant rolu bu anlama əsaslanırdı. Müəllim hər şeyi bilir, həqiqət işığı ilə biliksiz şagirdi maarifləndirir, sonra isə onun həqiqəti necə əks etdiyini yoxlayır. Dərs monoloqa çevrilir. Şagird danışanda da əslində müəllim monoloquna davam etdirirdi. Belə şəraitdə şagird təlimin obyektinə çevrilir. Belə təlimdə, təbii ki, təlim məqsədləri, sadəcə olaraq, şagirdin yaddaşına əsaslanırdı. Şagird ən yaxşı halda təlim materialını əzbərləyir, mexaniki şəkildə ifadə edirdi. Müasir dövrdə informasiyalı cəmiyyətdə öyrənənlərin idrak fəallığını təmin etməkdən ötrü, ilk növbədə, onları tənqidi düşünməkdən yönəltməkdən, dərketmə, düşünmə səviyyələrini nizamlamaqdan ibarətdir. Tənqidi düşüncə bizə - biz nə düşünürük, niyə başqa cür deyil, məhz belə düşünürük kimi suallar üzərində fikirləşmə imkanı verir. Tənqidi baxışla düşünə bilmək, düşüncələrimizin şüurlu olaraq bu məqsədə yönəlməsi deməkdir. Düşüncə və fikirlərimiz əvvəlcədən verilmiş hökmlərlə bağlı deyil, məntiqimizə və fərqli mənbələrdən toplayaraq süzgəcdən keçirib bir yerə cəmlədiyimiz məlumatlara söykənir. Tənqidi düşünə bilən şagirdlər öyrənməkdən zövq alırlar. Öhdələrinə götürdükləri ən çətin tapşırıqlarda belə bunun bir özünü inkişaf etdirmək və özünüifadə etmək fürsəti olduğunun fərqinə varırlar. Təbii ki, bu prosesdə müəllimin peşəkar bələdçiliyi vacibdir. Müəllimlər üçün də öyrətmə təcrübəsini maraqlı və cəlbedici edən bu amillərdir.

Ötən əsrin 30-cu illərindən başlayaraq öyrənənlərdə tənqidi düşüncəni formalaşdırmaqdan böyük əhəmiyyət kəsb edən taksonomiya konkret tədqiqat obyekti kimi araşdırılmağa başlamış, müxtəlif konseptual modellər yaradılmışdır. "Təhsil məqsədlərinin taksonomiyası" nəzəriyyəsini ilk dəfə Çikaqo universitetinin professoru Benjamin Blum 1956-cı ildə təklif etmişdir. Blum əsasən idrak taksonomiyasını tədqiq etmişdir. O, öyrənənlərdə tənqidi təfəkkürü inkişaf etdirmək, yaradıcı dərkertməni 6 səviyyəsini müəyyən etmişdir. Hazırda təlim məqsədlərinin taksonomiyası Milli Kurikulumun elmi-nəzəri və psixoloji əsasını təşkil edir. Təhsil pillələri hər sinif üzrə müəyyən olunmuş təlim nəticələrini (standartları) əsasında üç tərkibli taksonomiya durur. Məzmun standartları iki tərkib hissədə - bilik və fəaliyyətdən ibarətdir. Həmin tərkib hissələrin əsasını üç tərkibli taksonomiyaların öyrənmə və inkişaf

səviyyələri (taksonlar) təşkil edir. Öyrənmə səviyyəsində təhsilin məzmun tərəfi – öyrəniləcək bilik, bacarıq və vərdişlər, anlama, tətbiq və qiymətləndirmə nəzərdə tutulur. Öyrənən yeni faktları bilir, öyrədilənləri spesifik informasiyasını xatırladır, anlama səviyyəsində yeni informasiyaların mənasını dərk edir, fikir yürüdür, tətbiq etmə səviyyəsində həmin informasiyaları fərqli situasiyalarda istifadə edir, nümayiş etdirir. İnkişaf səviyyəsində məzmun standartlarının tərkib hissəsinin əsasını təşkil edir. İnkişaf taksonları çoxcəhətlidir. Onlar analiz etmə səviyyəsində öyrənən məlumatı bir neçə hissəyə ayırır, tədqiqat aparır, müqayisə edir. Əvvəlki biliklərə istinad edib, yeni ideyalar irəli sürür, ümumiləşdirir, faktları cəmləşdirir, tənqidi təfəkkürün, yaradıcı təxəyyülün əsasında biliklərini sadə formada təqdim edir, şagird öyrənə-öyrənə inkişaf edir.

B. Blum taksonomiyası idrakı davranışları faktiki olaraq sadədən mürəkkəbə doğru altı kateqoriyaya görə təsnif edir. Bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə (dəyərləndirmə).

Bilik – yadda saxlamanı, eləcə də yada salma və tanımanı vurğulayan kateqoriyadır, informasiyasına eşidildiyi formada təkrar çatdıra bilmək qabiliyyətidir;

Anlama – informasiyaları daha anlaşıqlı şəkildə qabiliyyətidir. Anlama digər səviyyələrə aparan mühüm qapıdır, əgər şagirdlər heç nəyi düşünmürlər, onlar materialdan keyfiyyətcə yüksək səviyyə tələb edən problemi həll edə və təhsil proseslərini həyata keçirə bilməzlər.

Tətbiqetmə - təklikdə və qrup halında problemin həllinə nail olmaq üçün istifadə olunmalıdır.

Analiz – müxtəlif kompleks proseslərin necə izah olunmasının məqsədini təşkil etmək və müəyyən bir məqsədə çatmaq üçün birgə işləməkdir, müəyyən bir ideyanın səbəblərini, nəticələrini və digər tərkib hissələrini tapa bilmək bacarığı, hər hansı vəziyyət və hadisəni götürərək müxtəlif fikirləri bir araya gələrək yekun effektini nümayiş etdirmək bacarığıdır;

Sintez – yeni və unikal mahiyyət yaratmaq üçün elementlərin kreativ (yaradıcı) şəkildə əlaqələndirilməsi bacarığı; əvvəllər mövcud olmayan struktur və ya nümunələri təşkil edən hissələrin birləşməsi prosesidir, bir neçə ideyanın bir yeni ideya halında birləşdirilməsi, köhnə ideyanın, yeni variantının yaradılması;

Qiymətləndirmə (dəyərləndirmə) – mübahisəli mövzularda qərar qəbul etməyi və bu qərarları möhkəm səbəblərlə əsaslandırmağı əks etdirir. Qiymətləndirmə şagirdləri fikirlərini və düşüncələrini əsaslandırmağı, mühakimə yürütməyi və bunları nəyə əsaslandırdığı ilə bağlı kriteri təqdim etməyi tələb edir.

**ƏDƏBİYYAT**


1. F. Məmmədov, N. İmamverdiyeva, İ. Şıxəliyeva. Pedaqogika. Bakı, 2015
2. Ə. Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
3. Bloom. B.S Taxanomod Educational Objectives. New York, 1971.


## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLAR ÜÇÜN DİDAKTIK OYUNLARIN ROLU


**Elnarə Seyidova,**
*Naxçıvan şəhər 10 nömrəli uşaq bağçasının müdiri*



***Açar sözlər:*** *didaktik oyun, uşaq, bacarıq, məşğələ, təlim.*
***Ключевые слова:*** *дидактические игры, дети, умения, занятие, обучение*
***Key words:*** *didactic game, child, skill, training, tuition*


Oyun uşaqların həyatında böyük əhəmiyyətə malikdir. Həyat üçün lazım olan müsbət keyfiyyətlərin inkişaf etməsində və qazanılmasında oyunun müstəsna rolu vardır. Oyunlar əsasən maraqlı, emosional və yaradıcı olmaqla uşaqların bir şəxsiyyətə çevrilməsində ahəngdar rola malikdir.

Didaktik materiallar şən əhval-ruhiyyə yaratmaqla, təlimi daha da əyləncəli və yadda qalan edir. Didaktik oyunların əsasən aşağıdakı tərkib elementləri var:

-Oyunun didaktik vəzifəsi; Oyunun problemi; Oyunun fəaliyyəti; Qaydalar; Nəticə.

Oyun fəaliyyəti uşağın psixi inkişafında əsaslı dəyişikliklər gətirib çıxarır. Oyun şəraitində və onun köməyi ilə uşaqlarda diqqət, qavrayış, xüsusilə müşahidəçilik, hafizə, təfəkkür və təxəyyülün inkişafı üçün əlverişli şərait yaranmış olur.

Məktəbəqədər yaşlı uşaqların həyatında didaktik oyunların tərbiyəvi əhəmiyyəti çox böyükdür. Didaktik oyunlar məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin etməklə bərabər, onun əqli qabiliyyət və əxlaqi keyfiyyətlərinin tərbiyə vasitələrindən biri hesab edir.

A.S. Makarenko uşaq oyunlarından bəhs etdiyi çıxışında belə demişdir: “Mən müəllim olmaq etibarı ilə özüm də uşaqlarla az-çox oynamalıyam. Əgər mən təkcə öyüd vermək, tələb, israr etməklə məşğul olsam, onda kənar qüvvə olaram, bəlkə də yaxşı qüvvə ola bilmərəm. Mən hökmən uşaqlarla bir qədər oynamalıyam. Bunu mən bütün yoldaşlarımdan tələb edirəm”.

Didaktik oyunların mühüm aspektləri var. Əsasən oyun fəaliyyət zamanı bir növ qarşıya qoyulan məqsədə nail olmaq üçün mövcud bilik və bacarıqları, qabiliyyətləri nümayiş etdirmək imkanı verir. Bu da uşaqlarda idrak fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır.

Didaktik oyunların təşkili metodikası müəllimin rəhbərliyi əsasında həyata keçirilir. Əsasən təhlil olunur və həyata keçirilir.

Didaktik oyunların hazırlıq səviyyəsi aşağıdakı kimi olur:

-Təhsil və müəyyən bir yaş qrupu üzrə uşaqların təlimi seçilmiş oyun proqramının tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi;

-Didaktik oyunların ən əlverişli vaxtını müəyyən etmək;

-Uşaqlar üçün təhlükəsiz, başqalarını narahat etmədən oynamaq üçün bir yer seçmək;

-Oyunçuların sayının müəyyən edilməsi;

-Oyun üçün vacib olan tədris materiallarının hazırlanması;

-Müəllimin oyun üçün hazırlanması: uşaqlara aşılayacaq oyunları öyrənmək, başa düşmək;

Didaktik oyunların təşkili zamanı əsasən aşağıdakı şərtlər nəzərdə tutulmalıdır.

1. Didaktik oyunu təşkil edən tərbiyəçi xüsusi bilik və bacarığa malik olmalıdır.

2. Oyun ifadəli olmalıdır. Uşaqlarda maraq yaratmalı, qulaq asmaq və iştirak etmək həvəsi yaratmalıdır.

3. Tərbiyəçi oyuna rəhbərlik etməli, vaxt məhdudiyyətini nəzərə almalı, oyunun qaydalarını düzgün icra etməlidir.

-Oyun optimal əyləncəyə malik olmalı, uşaqlarda şən əhval-ruhiyyə yaratmalıdır.

-Müəllim və uşaqlar arasında hörmət, anlaşma, inam və empati mühiti olmalıdır.

Belə ki, didaktik oyunlar səmərəli olmaqla uşaqların intellektual inkişafında mühüm əhəmiyyət kəsb edir. Uşaqların mühüm fəaliyyət növü olan oyunlar onların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsində mühüm rol oynayır.

## “BÜDCƏ SİSTEMİ” FƏNNİNDƏ “NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİ” MÖVZUSUNUN TƏDRİSİNƏ DAİR

**Nazim Əhmədov,**
*iqtisad üzrə elmlər doktoru, professor,*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail:nazimaxmedov@mail.ru

***Açar sözlər:*** *büdcə, gəlir, xərc, tarazlıq*
***Ключевые слово:*** *бюджет, доход, расход, баланс*
***Key words:*** *budget, income, expenses, balance*

Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra özünün müstəqil büdcə sistemini yaratmışdır.

Ölkənin maliyyə büdcə sistemini tənzimləmək üçün bir çox qanunlar qəbul edilmişdir.
Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunundan, bu qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, digər qanunlardan və normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Azərbaycan Respublikasının büdcə sistemini Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və Bələdiyyə (yerli) büdcələri təşkil edir.

Mövzunun tədrisi prosesində müəllim qeyd etməlidir ki, "Büdcə sistemi haqqında " Azərbaycan Respublikasının 2002-ci il 2 iyun tarixli Qanununa əsasən dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə qarşılıqlı əlaqəsi gəlir mənbələrinin bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Öz gəlir mənbələri kifayət etmədikdə ayrı-ayrı bölmələrin təxirəsalınmaz sosial – iqtisadi problemlərini həll etmək üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və digər büdcələrə dotasiya , subvensiya, subsidiya verilməsi nəzərdə tutula, onlara büdcə borclu (ssuda) ayrıla bilər.

Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Konstitusiyaları ilə "Büdcə sistemi haqqında " qanuna və digər qanunvericilik aktları ilə müəyyən edilir.

Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş dövlət vergiləri, digər ödənişlər, həmin vergi və ödənişlərə görə hesablanmış faiz və sanksiyalar, habelə digər daxil olmalar hesabına formalaşır.

Tədris prosesində müəllim xüsusi olaraq vurğulamalıdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən dövlət büdcəsinə 9 vergi növündən, Naxçıvan Muxtar Respublikasının büdcəsinə 8 vergi növündən, yerli (bələdiyyə) büdcələrinə isə 4 vergi üzrə daxil olmalıdır.

Beləliklə, Muxtar Respublika büdcəsinə aşağıdakı vergilər daxil edilir:

1. Fiziki şəxslərin gəlir vergisi;
2. Hüquqi şəxslərin mənfəət vergisi;
3. Əlavə dəyər vergisi;
4. Aksizlər;
5. Hüquqi şəxslərin əmlak vergisi;
6. Hüquqi şəxslərin torpaq vergisi;
7. Mədən vergisi;
8. Sadələşdirilmiş vergi.

Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti Muxtar Respublikanın sosial-iqtisadi inkişafı, əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi üçün istifadə edilir.

Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyinə uyğun olaraq tərtib olunur.

Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının büdcəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən təsdiq edilir və Muxtar Respublika mətbuatında dərc edilir.

Naxçıvan Muxtar Respublika büdcəsinin icrası dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir.

Naxçıvan Muxtar Respublika büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

Mövzu tədris olunarkən müəllim Muxtar Respublikanın büdcə gəlirlərinə və xərclərinə də toxunmalı və deməlidir ki, başqa büdcələrdə olduğu kimi Muxtar Respublikanın büdcə gəlirləri və xərcləri də ildən-ilə artır.

Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin gəlirləri 69 milyon manat, xərcləri isə 351,4 milyon manat təsdiq edilmişdir. Rəqəmlərdən göründüyü kimi Muxtar Respublikanın büdcəsində 282, 4 milyon manat kəsir əmələ gəlmişdir ki, bu rəqəm də Azərbaycan Respublikası dövlət büdcəsindən verilən dotasiya ilə örtülmüş və büdcədə tarazlıq yaranmışdır.

Sonra dərsi yekunlaşdıran müəllim deməlidir ki, büdcə kəsirinin aradan qaldırılması və onun daha da təkmilləşdirilməsi üçün dövlət xeyli işlər görür.

**ƏDƏBİYYAT**


1. "Şərq qapısı" qəz.. 2015, 23 dekabr
2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.
3. Əhmədov N. H. Maliyyənin əsasları. Bakı, 2016.
4. Maliyyə: Dərslik / A.M. Kərimov və N. R. Quliyevin redaktorluğu ilə. Bakı, 2001.

# BİOLOGİYA FƏNNİNİN TƏLİMİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYA

**Nəzakət Məmmədova,**
*Ordubad rayonu Yuxarı Əylis*
*kənd tam orta məktəbinin müəllimi*

***Açar sözlər:*** *biologiya, inteqrasiya, kurikulum, təlim, təhsil*
***Key words:*** *biology, integration, curriculum, training, education*
***Ключевые слова:*** *биология, интеграция, учебный план, обучение, образование*

İnteqrasiya termini XX əsrin sonundan daha fəal istifadə olunmağa başlasa da onun ifadə etdiyi mahiyyət və məzmun həyat yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır. Bəşəriyyətin tarixi boyu proqressiv xarakter daşıyan yeniliklər diferensial və həmçinin inteqrativ yanaşmaların fonunda yaranmışdır. Bütün elm sahələrində, o cümlədən sosiologiyada, eləcə də pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və s. anlayışlardan daha çox istifadə olunmağa başlamışdır. İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan son dövrlərdə "inteqrativ təlim", "inteqrativ dərs", "inteqrativ fənn" və s. anlayışlar da işlənir.

Respublikamızda yeni hazırlanan kurikulumun başlıca məqsədlərindən biri də dünyanı və özünü dərk edə bilən aydın təfəkkürə, geniş dünyagörüşə malik şəxsiyyətin formalaşdırılmasıdır. Elə buna görə də şagirdlərə dünya haqqında doğru, dürüst məlumatlar verilməlidir. Məlumdur ki, dünya tam və bütövdür. Yəni burada maddi və mənəvi nə varsa bir-biri ilə qarşılıqlı əlaqədədir. Belə olduqda canlılar aləmindən bəhs edən biologiya fənni üzrə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar da digər elmlərlə məntiqi əlaqəyə əsaslanmalıdır. Bu baxımdan biologiya fənn kurikulumunun hazırlanması zamanı canlı orqanizmlərin quruluşu, bioloji proseslər, canlıların bir-birilə və ətraf aləmlə əlaqəsi haqqında bilik və bacarıqların, fizika, kimya, coğrafiya və s. elmlərlə əlaqəli şərhi diqqət mərkəzində saxlanılmışdır.

Biologiya fənninin təlimində inteqrasiya iki istiqamətdə həyata keçirilir:

- Fəndaxili (üfüqi, şaquli) inteqrasiya
- Fənlərarası inteqrasiya

**Fəndaxili inteqrasiya**. Fəndaxili inteqrasiya ənənəvi təhsil sistemindən fərqli olaraq biologiya fənn kurikulumunda canlılar aləmi barədə bilik və bacarıqlar biologiyanın sahələrinin (botanika, zoologiya, insanın anatomiya, fiziologiya və gigiyenası, ekologiya və s.) ayrı-ayrılıqda təqdim edilməsi ilə deyil, canlıların quruluşunun, onlarda baş verən fiziki, kimyəvi, bioloji proseslərin, canlıların bir-biri ilə, ətraf mühitlə qarşılıqlı əlaqəsinin vəhdəti kimi təqdim edilmişdir. Bununla da canlılar aləminin və bütövlükdə dünyanın vahid bir sistem kimi qavranılmasına nail olmaq mümkün hesab edilmişdir.

Bu bilik və bacarıqlar hər bir təhsil səviyyəsində şagirdin yaşına və əvvəllər əldə etdiyi bilik və bacarıqlara uyğun olaraq təqdim edilir. Hər sinifdə əvvəlki mərhələdə verilən biliklərin genişləndirilməsi və dərinləşdirilməsinin nəticəsi olaraq "spiralvari" prinsipə əməl edilir.

Ümumi orta təhsil səviyyəsinin VI sinfində şagirdlər canlılara xas əlamətlər, canlıların quruluşu, orqanizmlərin təşkili səviyyələri, bioloji proseslərin xüsusiyyətləri, bitki və heyvanların insan sağlamlığında rolu, onlara qulluq barədə sadə bilik və bacarıqlara yiyələnirlər.

VII sinifdə artıq konkret olaraq canlıların müxtəlifliyi, təsnifatı, müxtəlif orqanizmlərdə gedən həyati proseslər, müxtəlif canlıların insan orqanizmində törətdiyi xəstəliklər, dərman bitkilərindən təyinatına görə istifadə, respublikanın flora və faunasının qorunma yolları ilə bağlı bilik və bacarıqların formalaşdırılması nəzərdə tutulur.

VIII sinifdə insan orqanizminin bir vahid kimi qavranılması məqsədi ilə insan orqanizminin hüceyrəvi quruluşunun, orqanizm üçün zərərli olan vərdişlərin, zədələnmələr və xəstəliklər zamanı ilkin

yardım göstərilməsinin əhəmiyyəti nəzərə alınmaqla, formalaşdırılacaq bacarıqlar insan orqanizmi barədə verilən digər məlumatlardan önə keçirilmişdir. Beləliklə, şagirdə ümumi orta təhsil səviyyəsində VI - VIII siniflərdə biologiya fənni üzrə canlılar, onların quruluşu, həyatı xüsusiyyətləri, bir - biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqəsi o cümlədən insanın biososial mahiyyəti haqqında zəruri bilik və bacarıqlar məntiqi ardıcıllıqla və inkişaf etdirilməklə təqdim edilir.

IX sinfin sonunda ümumi orta təhsil səviyyəsi başa çatır. Bunu nəzərə alaraq IX sinifdə bioloji bilik və bacarıqlar fənninin əhatə etdiyi bioloji qanunauyğunluqların tədrisi ilə yekunlaşdırılır . Canlıları öyrənən digər elm sahələri – sitologiya , histologiya , biokimya elmləri , canlıların kimyəvi tərkibi , irsi xəstəliklər, reproduktiv sağlamlıq, insanın ali sinir fəaliyyətinin mexanizmləri, regional ekoloji problemlər bu sinifdə bir qədər sadə, lakin əlaqələndirilmiş formada verilir.

Nəticədə ümumi orta təhsil səviyyəsində (VI-IX siniflərdə) canlıların quruluşu, təsnifatı, həyati prosesləri, insan və onun sağlamlığı, biologiyanın ümumi qanunauyğunluqları əlaqələndirilərək bir sistem halında tədris edilir. Ümumi orta təhsil səviyyəsində canlılar barədə sistemli biliklər tam orta təhsil səviyyəsinin X-XI siniflərində genişləndirilir və dərinləşdirilir.

X sinifdə bakteriyalardan başlayaraq insana qədər canlıların bütün təsnifat səviyyələri əhatə olunmaqla daxili və xarici quruluşu, qidalanması, tənəffüsü, orqanizmlərdə suyun və digər maddələrin daşınma xüsusiyyətləri və s. proseslər müqayisəli təqdim edilir. Bununla da canlıların bir sistem təşkil etdiyi, sadədən mürəkkəbə doğru inkişafı və dəyişiklikləri, orqanizmin quruluşu və həyati xüsusiyyətlərində mükəmməlləşmə haqqında şagirdlərdə tam təsəvvür yaranmış olur. X sinifdə canlıların çoxalması və inkişafı, hüceyrənin elektron mikroskopu səviyyəsində quruluşu, onun kimyəvi tərkibi, canlıların təkamülü və təkamülün dəlilləri, qlobal ekoloji problemlər, ekoloji tarazlığın qorunması, yoluxucu xəstəliklər məlumat verilir.

XI sinifdə seleksiya onun qanunları, biotexnologiya, bionika, regional ekoloji problemlər, sağlam ailənin qurulmasında sağlam həyat tərzinin rolu ilə bağlı bilik və bacarıqlar əhatə olunur, bioloji qanunauyğunluqlar daha elmi və məntiqi əsasda şagirdlərə çatdırılmaqla biologiya fənninin tədrisi yekulaşdırılır. XI sinfin sonunda canlılar aləmi haqqında geniş məlumata malik olan şagird gələcəkdə biologiya elminin hər hansı sahəsi üzrə elmin dərinliklərinin öyrənilməsinə hazırlanır.

**Fənlərarası inteqrasiya.** Fənlərarası inteqrasiyanın nəzərə alınması biologiya fənninin digər fənlərlə əlaqə imkanlarını meydana çıxarır. Zəruri məzmunun mənimsənilməsində rolu və əhəmiyyəti olan coğrafiya, kimya, fizika, riyaziyyat, texnologiya və s. fənlər üzrə anlayışların müəyyənləşməsinə şərait yaradır. Canlılar aləmi maddi gerçəkliyin tərkib hissəsi olmaqla kimyəvi maddələrdən təşkil olunmuşdur. Orqanizmlərdə baş verən proseslər də məhz fizikanın və kimyanın qanunlarına əsaslanır. Canlılar coğrafi mühitdə mövcud olmaqla daim mühitin təsiri ilə qarşılıqlı əlaqədə olur. Bioloji hadisələrin aydınlaşdırılmasında riyazi hesablamaların, diaqramların qurulmasının, məlumatların toplanması və təqdim edilməsinin də əhəmiyyəti olduqca böyükdür. Elə buna görə də biologiya fənn kurikulumunun məzmunu hazırlanarkən ayrı-ayrı fənlərin məzmununun nəzərə alınması zəruri hesab edilərək, diqqət mərkəzində saxlanmışdır. Bununla isə şagirdləri düşünməyə, axtarış aparmağa və digər fənlərlə əlaqəli fəaliyyət göstərməyə istiqamətləndirir.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ RİYAZİYYATIN ELEKTRON ƏSASLARLA TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

**Vüsalə Əliyeva,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi*
E-mail :h.vusale@edu.gov.az

***Açar sözlər:*** *elektron tədris resursları, dərslik, informasiya cəmiyyəti*
***Ключевые слова:*** *электронные образовательные ресурсы, учебник, информационное общество*

***Keyword:*** *electronic teaching resources, textbook, information society*

Bu gün ümumtəhsil müəssisələrində fənlərin tədrisi zamanı İKT-dən istifadə edilməsi və elektron tədris resurslarına istinad edilməsi tövsiyə olunur. Ümumtəhsil məktəbləri üçün yazılmış dərsliklərə nəzər salsaq, görərik ki, heç də bütün dərsliklərdə elektron tədris resurslarına istinad edilməmişdir. Məsələn, ölkəmizin ümumtəhsil məktəbləri üçün yazılmış VII və VIII sinif “Riyaziyyat” dərsliklərinə nəzər yetirək. VII sinif “ Riyaziyyat ” dərsliyində ümumiyyətlə elektron resurslara istinad edilməmişdir. VIII sinif “ Riyaziyyat ” dərsliyində isə bəzi mövzuların tədrisində, yaxud çalışmaların həllində elektron resurslara müraciət olunması tövsiyə edilmişdir. Belə olduğu təqdirdə, həm dərslikdəki mövzunu şagirdlərə öyrətmək, həm də müəyyən elektron resurslara istinad edərək mövzunu izah etmək, yaxud tapşırıqları həll etmək bir çox hallarda mümkün olmur. Edilərsə belə, bu hal əksər hallarda istənilən nəticəni vermir və şagirdin diqqətinin haçalanmasına səbəb olur. Bu zaman yaranan problemlərdən biri də odur ki, müəllim hansı elektron tədris resursundan istifadə edəcəyini dəqiqləşdirə bilmir. Bu sahədə müşahidə edilən mövcud problemləri aşağıdakı kimi ümumiləşdirmək olar:

6. Elektron tədris resursları kimlər tərəfindən hazırlanmalıdır;
7. Hansı elektron tədris resurslarından istifadə edilməlidir;
8. Elektron tədris resurslarından nə zaman istifadə olunmalıdır;
9. Elektron tədris resurslarından hansı metodika ilə istifadə edilməlidir;
10. Şagird nailiyyətləri necə qiymətləndirilməlidir və s.

Qeyd edilənlərə istinadən belə nəticəyə gəlmək olar ki, İKT və elektron tədris resurslarından nə zaman və necə istifadə edilməlidir sualı tədris prosesinin, eləcə də riyaziyyatın tədrisinin müasir problemləri sırasına daxil edilməlidir. Mövcud vəziyyətdə əksər ümumtəhsil müəssisələrində kağız dərsliklərlə elektron resurslar bir arada istifadə edilir və şagird nailiyyətləri standart forma əsasında qiymətləndirilir. Hesab edirik ki, bu, tamamilə yanlış yanaşmadır. Əgər tədris prosesində elektron resurslardan istifadə edilirsə, o zaman tamamilə elektron tədris mühitinə keçilməlidir ki, bu daha məqsədəuyğundur ya da fənnin elektron resurslarla tədrisi üçün əlavə dərs saatı ayrılmalıdır. Belə ki, əgər “ Riyaziyyat ” fənninin tədris üçün həftədə 5 dərs saatı ayrılırsa, o zaman əlavə olaraq ən azı 1 dərs saatını riyaziyyatın elektron resurslardan istifadə ilə tədrisinə ayırmaq olar. Riyaziyyatı elektron resurslardan istifadə edərək tədris edən müəllim həmin fənni sinifdə tədris edən müəllim olmaya da bilər. Bu zaman belə bir sual yaranır: hansı elektron tədris resurslarından istifadə edilməlidir? Hal-hazırda bu istiqamətdə çoxşaxəli işlər aparılır. Bəzi müəllimlər mövzuya uyğun elektron resurslar yaradır və tədris prosesində istifadə edirlər ki, bunun da özünəməxsus mənfi və müsbət cəhətləri vardır. Qeyd edək ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən də elektron tədris resurslarının hazırlanması istiqamətində mühüm işlər görülür. Yaradılan www.e-derslik.edu.az saytında ümumtəhsil məktəblərində istifadə olunan II , III , IV , VI VII və VIII (qismən) sinif dərsliklərinin elektron versiyaları yüklənmişdir.

Yuxarıda sadalanan məsələlər Azərbaycanda bütün fənlərin, o cümlədən riyaziyyatın tədrisi prosesinin bu gün durmadan inkişaf etdiyinin bariz nümunəsidir. Qaldırılan problemlər və onların həlli isə bu inkişaf yolunda təhsil sistemimizin qabaqcıl ölkələrin təhsil sistemlərinə uyğunlaşmasını sürətləndirəcək, əldə olunan bilik, bacarıq və digər müasir kompetensiyalar təhsil alanın informasiya cəmiyyətinin fəal üzvü olmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT

6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
7. www.e-derslik.edu.az.
8. Ümumtəhsil məktəblərinin VII sinfi üçün riyaziyyat dərsliyi. Bakı: Şərq-Qərb, 2014.
9. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün riyaziyyat dərsliyi. Bakı: Radius, 2015.
10. Ümumitəhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları).

# RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİ ZAMANI İSTİFADƏ OLUNAN FƏAL TƏLİM ÜSULLARI

**Elyanə Kərimova,**
*Abşeron rayonu 2 nömrəli*
*məktəbin riyaziyyat müəllimi*
E-mail: el@ramler.ru

***Açar sözlər:*** *vasitə, məktəb, seçmək, dəyər, nəticə, oxu prosesi*
***Ключевые слова:*** *средство, школа, выбирать, ценность, результать, процесс чтения*
***Key words:*** *means, school, to choose, value, result, the reading process*

Yeni kurikulumda təlim strategiyaları anlayışının işlənilməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması ilk növbədə əsas pedaqoji anlayışlardan biri kimi onun müasir baxımdan izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə proses, yaxud sadəcə nəticə kimi deyil, daha geniş mənada yanaşılması lazım gəlir. Xüsusən, təhsilin xarakteri ona bir neçə mövqedən yanaşmağı tələb edir. Belə ki, təhsilə dəyər, sistemli proses, nəticə kimi yanaşılması günün tələbidir.

İlk növbədə təhsilə özündə dili, milli mentaliteti, bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi və mədəniyyətlilik, kollektivçilik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir. Bütün sadalanan prinsiplərə fəal-interaktiv təlimin üsullarını həyata keçirməklə nail olmaq olar.

Fəal-interaktiv təlim metodlarının özünəməxsus xarakterik xüsusiyyətləri mövcuddur. Onlar aşağıdakılardır:

1. Diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşdırılmasına yönəldilir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olur.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim-şagird, şagird-şagird arasında əməkdaşlıq üçün şərait yaranır
6. Dərsin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin təşkilinə geniş yer verilir.

Ümumtəhsil məktəblərində tədris olunan ən mühüm fənlərdən biri olan riyaziyyatın şagirdlər tərəfindən düzgün mənimsənilməsi və tətbiqində bu prinsiplər mütləq nəzərə alınmalıdır.

Riyaziyyat şagirdin zehni inkişafının stimullaşdırılması üçün bir vasitə olduğundan təfəkkürün hər üç növünün inkişafında, nəticəçıxarma qabiliyyətinin yüksəlməsində əvəzedilməzdir. Şagirdlər riyazi məsələləri həll edərkən paralel olaraq təcrübə əldə edir, həm düşünmə vərdişlərinə yiyələnirlər. Onlarda həm də şəxsi keyfiyyətlər formalaşır. Riyaziyyat şəxsiyyətin ümumi inkişafına müsbət təsir göstərməklə yanaşı, onun xarakterinin formalaşmasına, mənəvi keyfiyyətlərinin inkişafına da təsir göstərir.

Yuxarıda verilmiş fəal təlim üsullarının düzgün həyata keçirilməsi nəticəsində riyaziyyatın məktəblərdə tədrisinin əsas məqsədlərinə maksimum dərəcədə nail olmaq mümkün olacaq. Riyaziyyatın müxtəlif üsullarla tədrisi şagirdin əmək qabiliyyəti və yaradıcılığının inkişafında müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan gənc nəslin formalaşdırılmasına yönəlmişdir.

## ƏDƏBİYYAT

1. Veysova.Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait, 2007.
2. Qədimova X. İnteraktiv təlim metodları, Bakı, 2005.

# MÜASİR VƏ ƏNƏNƏVİ TƏLİM PRİNSİPLƏRİNİN QARŞILIQLI ƏLAQƏSİ

**Tərbiyə Quluyeva,**
*Abşeron rayonu Mehdiabad qəsəbəsi*
*3 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

***Açar sözlər:*** *prinsip, fəal metodlar, ənənəvi metodlar, qarşılıqlı əlaqə*
***Ключевые слова****: принцип, активные методы, традиционные методы, взаимная связь*
***Key words****: principle, active methods, the traditional methods, the mutual relationship*

Bu gün biz yeni təlim prinsiplərinin tətbiqini və onların təlim prosesinin səmərəliliyinin yüksəldilməsində rolunu müşahidə etmişik. Lakin ənənəvi təlimdəki çox önəmli olan təlim prinsiplərinin qarşılıqlı əlaqəsindən istifadə etməliyik. Biz yalnız fəal və mənəvi təlim prinsiplərinin üst-üstə düşənlərindən, bir-birini təkrar edənlərdən imtina etməliyik.

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi. Bu prinsipində görə, təlim tələbənin maraq və tələbatlarına, onların bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim tərəfindən tələbəyə şəxsiyyət kimi yanaşmalı, hər bir tələbənin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır, onlara hörmət əsasında münasibət bəslənilməlidir.

2. Fəal idrak prinsiplərinə əsasən, tədris prosesi elə təşkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə fəaliyyəti doğursun, tələbəyə kəşf sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmə həvəsi yaratsın. İdrak fəallığı ilk növbədə təfəkkürün fəallaşdırılması əsasında yaranır.

3. Qabaqlayıcı təlim prinsipi. Cəmiyyətdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında tələbələrin mütəxəssis kimi həyata hazırlanmasına xidmət edir və bu istiqamətə yönəldilməlidir. Bunun üçün ilk növbədə təlim cəmiyyətin inkişaf meyillərini əks etdirməli, gələcəyin mütəxəssislərini istehsalata hazırlanmalıdır. Ali məktəb tələbələrə təkcə nəzəri biliklər, bacarıqlar, vərdişlər verməklə kifayətlənməməlidir.

4. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi ilk növbədə onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir. İctimai mühitin və tələbələrin dəyişən tələbatları nəzərə alınmaqla, tədris planları və proqramlarının məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistematik olaraq təzələnir. Çevik təlim-tərbiyə sistemində, daha çox təlimin diferensiallaşmasına, tələbələr tərəfindən müxtəlif məlumatların işlənməsinə və mənimsənilməsinə üstünlük verilir.

5. Əməkdaşlıq prinsipi tələb edir ki, “müəllim-tələbə” qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində bərabər tərəf müqabil kimi iştirak etməlidir. Ali məktəblərdə təlim prosesində əməkdaşlıq ilk növbədə təlim prosesinin kollegial və dinamik keçməsində özünü göstərir.

6. Dialoji təlim prinsipindən daha çox seminar məşğələlərinin təşkilində istifadə olunur. Seminar məşğələlərində mübahisəli məsələlərin birgə həlli prosesində özünün və digər üzvlərinin fikirlərini, imkanlarını bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədilə hər bir tələbənin müzakirələrdə iştirakı təmin edilmişdir.

Müasir prinsiplər tədris prosesinin bütün komponentlərinə - məntiqinə, məqsədinə və vəzifələrinə, məzmunun müəyyənləşdirilməsinə, forma və metodların seçilməsinə, stimullaşdırılmasına, planlaşdırılmasına, əldə olunmuş nəticələrin təhlilinə verilən tələbləri şərtləndirir.

## ƏDƏBİYYAT

1. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.
2. Məmmədov S. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2007.

# TƏLİMİN TƏŞKİLİNİN MÜASİR PRİNSİPLƏRİ

**Zeynəb Məmmədova,**
*İ. Əfəndiyev adına Elitar Gimnaziyanın*
*ibtidai sinif müəllimi*
E-mail: zeyneblola@rambler.ru

***Açar sözlər:*** *vasitə, məktəb, seçmək, dəyər, nəticə, oxu prosesi*
***Ключевые слова:*** *средства, школа, выбирать, ценность, результат, процесс чтения*
***Key words:*** *facilities, school, to choose, value, result, the reading process*

Təhsil insanı sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnmənin davamlı bir fəaliyyəti kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Təhsil həm də bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır.

Pedaqoji prosesin düzgün qurulmasında mühüm didaktik prinsiplərə istinad olunur. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)» haqqında sənəddə ümumi təhsil sistemində pedaqoji prosesin təşkilində aşağıdakı prinsiplərin əsas götürülməsi nəzərə alınmışdır:

1. Pedaqoji prosesin tamlığı - pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir. Standartdan məqsəd çıxarılarkən müəllim şagirdin eyni zamanda həm təlim almasını, həm tərbiyələnməsini, həm də inkişafa meyllənməsini əsas diqqət mərkəzində saxlamalıdır.

2. Təlimdə bərabər imkanların yaradılması – bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir. Müəllim şagirdlər arasında irqi, dini, milli, cinsi fərqlərə əhəmiyyət verməməli, onların qavrama, mənimsəmə səviyyələrini əsas gətirərək diskriminativ yanaşmamalıdır.

3. Şagirdyönlülük – şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Müəllim ilk növbədə tədris olunan mövzunun şagirdin maraq dairəsində olmasına, onun biliklərinin bacarıqlara çevrilməsinə diqqət yetirməlidir.

4. İnkişafyönlülük – şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir. Məktəbəqədər təhsil pilləsindən başlayaraq tam orta təhsil pilləsini bitirənə qədər şagirdin fəaliyyəti nəzarətdə saxlanılmalıdır. Onun fəaliyyət sahəsi genişləndikcə biliklərinin dərinləşməsinə xüsusi diqqət olunmalıdır.

5. Fəaliyyətin stimullaşdırılması – pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur. Şagirdin kiçik nailiyyətləri müəllim tərəfindən rəğbətləndirilməlidir.

6. Dəstəkləyici mühitin yaradılması – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır. Şagird informasiya-kommunikasiya texnologiyaları, kitabxana, dərsliklər, müasir tələblərə cavab verən sinif otaqları ilə təmin olunmalıdır.

Müəllim unutmamalıdır ki, dərs yalnız bütün pedaqoji prinsipləri ödənilən zaman uğurlu olur. Təlim fəaliyyətində sadalanan prinsiplərin nəzərə alınması müəllimin peşəkarlığının birbaşa göstəricisidir.

## ƏDƏBİYYAT

Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.

# TƏHSİLİN MİLLİ VƏ BƏŞƏRİ DƏYƏRLƏR ƏSASINDA TƏŞKİLİ

**Kəmalə Həşimova,**
*Bakı şəhəri Xətai rayonu 249 nömrəli*
*məktəbin musiqi müəllimi*
E-mail: heshimova.kemale@mail.ru

***Açar sözlər:*** *standart, fəaliyyət planı, qiymətləndirmə, kənar audit, daxili audit, proqnozlaşdırma, tədris ili, işgüzar mühit, metodik xidmət*

***Ключевые слова:*** *стандарт, план действий, оценивание, внешний аудит, внутренний аудит, прогнозирование, учебный год, деловая среда, методическая служба*

***Key words:*** *standart, the action plan, the assessment, external audit, internal audit, Forecasting, academic year, teaching, student orientation services*

Yeni yaranan idarəetmə mexanizmləri və texnologiyalarının təhsil sisteminə tətbiqi təhsilin keyfiyyətinə də təsir göstərir. Qeyd edək ki, məsələ şagirdlərə akademik biliklər verməkdən ibarət deyil, əmək vərdişləri, yaşamaq, dəyişən cəmiyyətə adaptasiya bacarıqlarının aşılanmasından gedir. Nazirlər Kabinetinin təsdiq etdiyi "Orta ümumtəhsil məktəbinin Nümunəvi Əsasnaməsi"ndə də məktəbin vəzifəsi belə müəyyənləşdirilmişdir: "Ümumtəhsil məktəbinin əsas vəzifəsi fərdin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyl, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq, onun şəxsiyyətini formalaşdırmaq, həyatda və cəmiyyətdə səmərəli fəaliyyətə hazırlanmasına, müstəqil, yaradıcı düşünən, ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətin yetişdirilməsinə xidmət etmək, şüurlu olaraq peşə seçməyə hazırlamaq, Azərbaycanın inkişafı naminə fədakarcasına çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir.

Təhsildə son nəticəni aşkar olunması uzun müddət tələb edir. Digər tərəfdən təhsil keyfiyyətinin qiymətləndirilməsinin mürəkkəbliyi onun vaxt baxımından dəyişkənliyində, dinamik xarakter daşımasındadır. Ümumi təhsilin son nəticələri və gələcəkdə üzə çıxan nöqsanları məzunlar məktəbi qurtardıqdan sonra daha qabarıq üzə çıxır. Bu səbəbdən onlar məktəbdə oxuduqları zaman nöqsanlar nəzərə alınıb, aradan qaldırılmalıdır. Demək, məktəbdaxili nəzarəti gücləndirən mexanizmin hazırlanması zəruridir. Nəzərdə tutulan istiqamətdə uğurlu nəticə əldə etmək üçün təhsilin proqnozlaşdırması, planlaşdırılması və təşkili mühüm mərhələlərdəndir. Əvvəlki fəaliyyət planının təhlilinə əsasən və təhsilalanın, cəmiyyətin, dövlətin sifarişinə əsasən yeni fəaliyyət planı hazırlanır. Həmin fəaliyyət planını ümumbəşəri dəyərlərə, milli mənəvi dəyərləri nəzərə almaqla yaratmalı, cəmiyyətin imkan və tələblərinə uyğun qurmalıyıq. Milli zəminə söykənərək ümumbəşəri dəyərdən bəhrələnmək, ümumtəhsil müəssisələrinin işinin əsasını təşkil edir.

Qloballaşma bu iki cəhəti eyni səviyyədə dəyərləndirməyi, bunların hər ikisini təhsilin təşkili və idarə olunmasında vacib məsələ kimi qarşıya qoyur. Diqqət mərkəzində saxlamaq lazımdır ki, qloballaşma insanlardan yeni əxlaq, yeni yanaşma, yeni düşüncə və həyat tərzi tələb edir. Bu, Azərbaycan reallığı üçün bir qədər mürəkkəb, çətin və vacib bir prosesdir. Bir tərəfdən insanlarda soykökünə qayıdış hissi meyli güclənir, digər tərəfdən kifayət qədər yad olan bir düşüncə və davranış tərzinə uyğunlaşmanı qəbul etmək tələb olunur. Milli və bəşəri dəyərlərin vəhdətini təşkil edən təhsil prosesi düzgün tənzimlənməlidir ki, özünəməxsusluğumuzu qoruyub saxlaya bilək. "Bəs milli və bəşəri dəyərləri hansı şəkildə təlimin məzmununa gətirmək olar?" sualının cavabı çoxvariantlı olsa da mahiyyət etibarı ilə eynimənalıdır. İstər idarəetmədə, istərsə də fənlərin tədrisində qloballaşmaya yanaşma yuxarıda deyilənləri əks etdirən vahid məzmuna xidmət etməlidir. Ümumtəhsil mərhələlərinə görə tədris olunan fənlər icbari; seçmə fənlər; dərsdənkənar məşğələlər bölünsə də, ümumbəşəri və milli mentalitetlərin aşılanması prosesini mərhələlərə və ya vaxta bölmək düzgün olmaz. Çünki hər mərhələ, hər dərs və dərsdənkənar məşğələlər şagirdin formalaşması, inkişafı və mükəmməl səviyyəyə malik olmasına xidmət edir.

## ƏDƏBİYYAT

Qəribov Ş. Təhsilin konseptual problemləri. Bakı, 2008.

# TARİX DƏRSLƏRİNDƏ BİLİK VƏ BACARIQLARIN QİYMƏTLƏNDİRMƏSİNƏ APARAN YOL

**Sevil Bəhrəmova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail:sevil_behremova@mail.ru

***Açar sözlər:*** *qiymətləndirmə, keyfiyyət, üsul, obyektiv qiymət, summativ*
***Ключевые слова:*** *оценивание, качество, метод, объективная оценка, сумматив*
***Key words:*** *assessment, quality, method, an objectiv achievement, summative*

Müəllim tədris prosesinin təşkilatçısı və bələdçisidir. O, şagirdlərin öyrənmə-mənimsəmə fəaliyyətinin məzmununu, xarakterini və ardıcıllığını müəyyən edir. Lakin müəllim yalnız o halda tədris prosesini müvəffəqiyyətlə təşkil edə bilər ki, o təkcə konkret olaraq tədrisin məqsədini müəyyən etmək deyil, eyni zamanda bu məqsədin həyata keçirilməsi üçün hansı tədris fəaliyyətini seçmək zəruri olduğunu müəyyən edə bilsin.

Suallara cavab prosesində yeni materialı daha yaxşı mənimsəməyə hazırlayan müsahibədə iştirak, tapşırığı yerinə yetirmək, yoldaşlarının cavabına qulaq asmaq, müəllimin düzəlişləri və yekunlaşdırılması ilə həyata keçirilən dərs prosesi qiymətləndirmə ilə də nəticələnir. Şagird öz fəaliyyətinə görə qiymətləndirilir və bu qiymətləndirmə obyektiv aparılmalıdır. Qiymətləndirmənin obyektivliyi isə standartın tələbinə və meyarlara uyğun ölçmədən irəli gəlir.

Müəllimin işi mövzu ilə bağlı olan materiallardan şifahi, yazılı, qrafik formada sualların qoyuluşu, cavab üçün tapşırığın verilməsidirsə, şagirdlə isə bu prosesdə yaxından iştirak etməlidir. Əvvəllər öyrənilmiş materiallar üzrə yoxlama və aktuallaşdırma dərsin müstəqil hissəsində və onunla əlaqədar olan yeni materialın öyrənilməsi zamanı aparıla bilər. Yəni bu zaman əlaqələndirici suallar verib fəndaxili inteqrasiya imkanlarını da sərf etmək etmək gərəklidir.

Tarix fənnin tədrisi zamanı bəzən, məsələn, ekskursiya dərsində, kino dərsdə təlim tapşırığı əvvəlki dərslərin birində verilə bilər.

Dərs mövzusunun öyrənilməsinin üç mərhələyə – 1. faktik biliyin mənimsənilməsi; 2. Onların dərk olunması; 3. Möhkəmləndirilməsi mərhələsi kimi də yoxlanıla bilər.

Şifahi, yazılı və qrafik formada həyata keçirilən təlimdə müvəffəqiyyətin qeydiyyatı və dərketmənin müstəqil mərhələsi materialın öyrənilməsi gedişilə əlaqədə həyata keçirilir.

Kiçik və Böyük summativlərə hazırlıq kifayət qədər mənimsənilməmiş təlim-tərbiyə vəzifələrini həyata keçirən materialın öyrənilməsi zamanı həyata keçirilir. Burada əsas diqqət xüsusi və çətin yadda qalan materialın – təyin etmə, qanunlar, terminologiya və s. təkrarına yönəldilir. Çətin yadda qalan, xüsusilə xronoloji material ona dəfələrlə qayıtmağı tələb edir. Artıq öyrənilmiş mövzuların təkrarında əsas tamamlayıcı təkrarın növləri – ekskursiya, kinofilmlərə, diafilmlərə və televiziya verilişlərinə baxmaq üstünlük təşkil edir.

Tarixi faktların mahiyyətinin şagirdlər tərəfindən dərk olunmasının müxtəlif yolları vardır. Şagirdlər müəllimin rəhbərliyi və dərsliyin köməyi ilə müstəqil surətdə bəzi tarixi faktların mahiyyətini aşkara çıxara bilərlər. Faktların düşüncəli mənimsənilməsi və bu əsasda tarixi təfəkkürün formalaşması yalnız məktəblilərin dünyagörüşündən asılıdır. Şagirdlərin əqli fəaliyyəti nə qədər fəaldırsa, onların tarixi təfəkkürləri daha dərin düşüncəli olur və bu fəaliyyətdə öz əksini tapır. Şagirdlərin bilik və bacarıqları formativ qiymətləndirmə vasitəsi ilə həyata keçirilsə də yekun qiymətlər summativ qiymətləndirmə ilə yoxlanılır.

## ƏDƏBİYYAT

1. Abbasov Ə. Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir. “Təhsil Problemləri” qəz., 2009, 11-20 iyun
2. Linda S. Levistik, Keith C.Barton. Doinq history, New York, 2011.
3. History 7-11 developing primary teaching skills. London? 1997.
4. Learning Outcomes and Assessment Criteria Rosie Bingham Learning and Teaching Institute Sheffield Hallam University r.s.bingham@shu.ac.uk 0 Rosie Bingham, Sheffield Hallam University, April, 2002

# İNGİLİS DİLİNDƏ FELİN TƏDRİSİ ZAMANI AZƏRBAYCAN DİLİ MATERİALLARI İLƏ MÜQAYİSƏDƏN İSTİFADƏ MƏSƏLƏSİ

**Leyla Zeynalova,**
*Naxçıvan Dövlət Universitetinin müəllimi*

Email:leylazeynalova@gmail.com

***Açar sözlər****: feil, tədris, zaman, kateqoriya, qrammatika*
***Ключевые слова****: глагол, обучение, время, категория, грамматика*
***Key words****: verb, tyaching, tynse, category, grammar*

Dünya dillərində bir sıra qrammatik kateqoriyalar vardır ki, bu kateqoriyalar içərisində felin zaman kateqoriyası semantik və qrammatik baxımdan seçkinliyi ilə diqqəti çəkir. İngilis və Azərbaycan dillərində zaman kateqoriyası özünə xas olan bir sıra cəhətlərə malikdir ki, tədris prosesində onların nəzərə alınması faydalı məsələlərdən biridir. Ümumiyyətlə, dillərin tədrisi zamanı müqayisə və qarşılaşdırmalardan istifadə dərsin keyfiyyətinə müsbət təsir edən amillərdəndir. Məlumdur ki, zaman anlayışı iki mənada başa düşülür: 1. Məntiqi (obyektiv) zaman. 2. Qrammatik zaman.

Məntiqi zaman obyektivdir. Qrammatik zaman məntiqi zamanın dildə ifadə formasıdır və dünyanın müxtəlif dillərində fərqli əlamətlərlə formalaşır. Azərbaycan və ingilis dillərində də zaman kateqoriyasının müəyyən morfoloji əlamətləri vardır. Azərbaycan təhsil müəssisələrində ingilis dili dərslərində felin zamanlarının tədrisi prosesində Azərbaycan dili materialları ilə müqayisə yüksək nəticələrə gətirib çıxarır.

İngilis dilində Azərbaycan dilində olduğu kimi, üç qrammatik zaman (keçmiş, indiki və gələcək) vardır. Lakin ingilis dilində bu zamanların məna incəlikləri onların ifadəsinin müxtəlifliyini əsaslandırır. Belə ki, ingilis dilində zaman formalarının 4 qrupa (sadə (qeyri-müəyyən) zaman formaları ( Simple Tenses ); davamedici zaman formaları (Continuous Tenses); bitmiş zaman formaları (Perfect Tenses); bitmiş davamedici zaman formaları (Perfect Continuous Tenses) ayrılması bir sıra morfoloji əlamətlərdən istifadə olunmasını tələb edir ki, Azərbaycan dili ilə müqayisədə bu, fərqli əlamətlərdən biridir. Belə ki, ingilis və Azərbaycan dillərində zaman kateqoriyasının qrammatik göstəriciləri kəmiyyət baxımından bir-birindən seçilir. Sözsüz ki, obyektiv aləmin insan təfəkküründəki ifadəsində müxtəlif dillərdə ayrı-ayrı əlamətlər özünü göstərir. Bu baxımdan, zaman anlayışı eyni olsa da, bu anlayışın dildə ifadəsi fərqli olur ki, bu da təbiidir. Çünki hər bir dilin özünəməxsus qrammatik xüsusiyyətləri vardır. Məsələn, ingilis dilində felin tərz kateqoriyasının zaman anlayışı ilə bağlılığı vardır və tədris zamanı bunun diqqətə çatdırılması vacib məsələlərdən biridir. Müasir Azərbaycan dilinə aid yazılmış qrammatika kitablarında isə felin tərz kateqoriyası haqqında bilgi yoxdur və bir zaman tərz kateqoriyası kimi qələmə verilən feil formaları çağdaş Azərbaycan dilində felin quruluşca mürəkkəb növünə aid edilir. Yəni mürəkkəb feillərin bir hissəsi “bacarmaq” mənasında olan “bilmək” felinin iştirakı ilə düzəlir ki, tarixi qrammatikada bu, felin bacarıq tərzi hesab edilmişdir. Məsələn: *gələ bilərəm, oxuya bilərsən, anlaya bilər* və s. İngilis dilində isə “ bilmək ” və “bacarmaq” felləri “ can ” modal feil anlayışı ilə meydana gəlir. “ Can ” modal feli bir şəxsin qabil olduğu, bacardığı hərəkəti bildirir. Məsələn: *I can come. You can read. He can understand.*

Felin tədrisində maraqlı məsələlərdən biri də “davamedici zaman” anlayışı və onun ifadə formasıdır. Azərbaycan dilində qrammatik baxımdan belə bir zaman yoxdur. Lakin bir zamanlar qrammatika kitablarında şəkil kateqoriyası ilə bağlı elmi-nəzəri fikirlərdə “felin davam şəkli” adlanan şəkildən də bəhs edilmişdir ki, bu şəkil məsdər şəkilçisi ( -maq, -mək ) ilə ismin yerlik halının morfoloji əlamətinin (-da, -də) birlikdə işlənməsi ilə formalaşır. Məsələn: *Qonaq gəlməkdədir. Yağış yağmaqdadır* və s. İngilis dilində isə geniş istifadə olunan davamedici zaman formaları (Continuous Tenses) yer almaqdadır .Bu qrupa daxil olan zaman formaları hal-hazırda, keçmişdə, yaxud gələcəkdə dəqiq bir vaxtda davam edən, inkişafda olan hərəkətləri ifadə etmək üçün işlənir. Bu halda həmin hərəkətin bir

proses kimi davam etməsi əsas götürülür. Məsələn: *He is sleeping . I am writting a letter . You are working.*

Beləliklə, ingilis dili dərslərində felin tədrisi zamanı Azərbaycan dili ilə müqayisələr dillərin hərtərəfli və dərindən öyrədilməsinə və öyrənilməsinə kömək edir.

**ƏDƏBİYYAT**

1. Alməmmədova S. İngilis dilində zamanlar sistemi: Metodik vəsait. Bakı, 2013.
2. Cəfərova B. İngilis və Azərbaycan dillərində felin zamanlar sistemi: müqayisəli-tipoloji tədqiqat. Bakı, AM E A Nəsimi adına Dilçilik İnstitutu, 2006.
3. Fəxrəddin qızı G. Türk dillərində zaman kateqoriyası. Bakı: Nurlan, 2010.

## VII SİNİFLƏRDƏ COĞRAFİYADAN "COĞRAFİ KORDİNATLAR" MÖVZUSUNUN TƏDRİSİ ZAMANI MƏQSƏDLƏRİN VƏ TƏLİM NƏTİCƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ

**Əli Həsənov**
*coğrafiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail:alihasanov51@mail.ru
**İsmət Həsənov**
*Naxçıvan" Universiteti*
E-mail:ismethesenli1965@gmail.com

***Açar sözlər:*** *Bilik, Təhsil, Metodika, Şagird, Müəllim*
***Key words:*** *Knowledge, Education, Methodics, Pupil, Teacher*
***Ключевые слова :*** *знание, образование, методика, ученик, учитель*

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında bütün sahələrdə oluğu kimi təhsil sahəsində də islahatlar keçirildi. Artıq təhsil sahəsində köhnə metodlarla işləmək yaramırdı. Bazar iqtisadiyyatını seçən ölkə ənənəvi metodika ilə işləyə bilməzdi. Ona görə də 1997-ci ildə islahat komissiyası yaradıldı və komissiya islahatın 3 mərhələdə həyata keçirilməsini nəzərdə tuturdu. İslahat dərinləşdikcə yeni yollar axtarılır və ən yeni səmərəli təhsil formaları yaradılırdı.

2007-ci ildən "Kurikulum" islahatları həyata keçirilməyə başlanıldı. Bu islahatın üstünlüklərindən biri nəticə yönümlü, sagird yönümlü və.s.olmasıdır. Fəal təlim metodlarının əsas əhəmiyyəti biliklərlə yanaşı bacarıqların da öyrədilməsidir. Bəzi təhsil işçiləri bacarıqlara üstünlük verirlər. Qeyd etmək lazımdır ki, alt standartlar 2 bərabər hüquqlu qala : bilik (kateqoriya) və bacarıqlardan (taksanomiya) ibarətdir. Bunları bir birindən ayırmaq olmaz. Biliksiz bacarıq olmadığı kimi bacarıqsız da bilik ola bilməz.

Ona görə də müəllim bütün tədris prosesində bu birliyi nəzərdə tutmalıdır. Müəllim hər hansı bir mövzuya hazırlaşarkən ilk növbədə mövzuya aid məqsədləri müəyyənləşdirməlidir. Qeyd etmək lazımdır ki, bütün siniflər üzrə metodik vəsaitlər nəşr edilmiş və müəllim qarşıdakı dərsə hazırlaşarkən kitabda olan metodik tövsiyələri icmal dəftərinə köçürür və bununla fəaliyyətini tamamlayır. Müəllimin öz fəaliyyəti olmur. Kiminsə fəaliyyətini öz fəaliyyəti kimi təqdim edir. Ona görə də müəllim mövzunun təlim nəticələrini özünün ortaya qoyduğu məqsədləri əsasında müəyyən etməlidir. Bizim məqsədimiz məqsədlərin və bunun əsasında təlim nəticələrinin çıxarılanmasını öz təcrübəmiz əsasında izah etməkdən ibarətdir. Nümunə üçün seçilmiş mövzu VII sinifdə 6-cı dərs, Coğrafi koordinatlardır. Mövzu məqsədlərinin müəyyən edilməsi üçün ilk növbədə müəllim nəzərdə tutmalıdır ki, bu mövzunun mənimsənilməsi üçün şagirdlərə biz hansı bilikləri öyrədəcəyik və hansı baza biliklərinə əsaslanacağıq. Coğrafi koordinatların öyrədilməsi üçün müəllim şagirdə coğrafi enlik, coğrafi uzunluq, meridian, paralellər, ekvator, başlanğıc($0^0$ –li, Qrivniç)m və $180^0$ –li meridianlar haqda biliklər verəcək. Şagirdlərə adlı paralellər meridianlar haqda bilik verəcəyik. Məqsədlər müəyyən edildikdən sonra təlim-nəticələrini çıxarırıq.

Fikrimizi aşağıdakı sxemdəki kimi nümayiş etdirək.

| № | Məqsədlər | Təlim nəticələri |
|---|---|---|
| 1. | Yerin xəyali oxu və qütbləri haqqında biliklər vermək | Kartoqrafik elementləri bilir və fərqləndirir |
| 2. | Meridian və paralellər haqqında bilik vermək | |
| 3. | Dərəcə toru haqqında məlumat vermək | Dərəcə torunu qurur və izah edir |
| 4. | Coğrafi enlik və uzunluq haqqında məlumat vermək | Coğrafi enlik və uzunluğu, meridian və paralellərin çəkilişinə görə hansı enlik və uzunluqda olduğunu bilir və izah edir. |
| 5. | Xəritə və qlobusda koordinatları təyin etməyi öyrətmək | Koordinatların verilmiş nöqtələrinin yerini tapır və izah edir |

Belə məqsədlərin aydınlaşdırılması müəllimin işini asanlaşdırır və dərsin effektliyini artırır.

Müəllimin məqsədləri müəyyən etmə bacarığı olarsa, bu onun metodik asılılığını azaldar. Belə olan halda biz şagirdlərə daha çox biliklər və bunların əsasında bacarıqlar aşılamış olarıq.

Bir şeyi qeyd etmək istəyirik ki, bir qrup məktəblərdə şagirdləri üz-üzə dördbucaq şəklində oturtmaqla kurikulum islahatını həyata keçirdiklərini hesab edirlər. Belə məktəb rəhbərlərinin və müəllimlərin nəzərinə çatdırırıq ki, bu, uşağın onurğasının , boynunun düzgün formalaşmamasında və qüsurlu vətəndaşlar yetişməsinə səbəb olur. Aid orqanlar bu işlə yaxından məşğul olmalı, partaların dördbucaq düzülməsi qadağan edilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumi Təhsil Konsepsiyası Milli Kurikulum. Bakı-2006
2. Ə.Həsənov "Pedaqoji ustalığa aparan yol" Dərs vəsaiti. Bakı- 2014
3. Coğrafiya VII sinif Müəlim üçün vəsait. Bakı 2014
4. "Mədəd" treyninq kursunun materialları

# ORTA MƏKTƏBDƏ RİYAZİYYATDAN SİNİFDƏNXARİC MƏŞĞƏLƏLƏRDƏ ŞAGİRDLƏRİN NƏZƏRİ BİLİKLƏRİNİN DƏRİNLƏŞDİRİLMƏSİ

**Orxan Cəfərov,**

*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *Sinifdənxaric məşğələ, qabaqcıl şagirdər, müxtəlif üsullar, dərsdən sonra, həyati məsələlər, tədris proqramı, məsələ nümunələri*

***Ключевые слова:*** *внеклассное занятие, успевающие ученики, разные приемы, после урока, жизненные вопросы, учебная программа, образцы задач*

***Key words:*** *extra class practice, leading pupils, various ways, after the lesson, vital matters, curriculum, The samples of sums*

Müasir ümumtəhsil məktəbi qarşısinda duran ən mühüm vəzifələrdən biri- sagirdlərin gələcək peşəyə uyğun hazırlığının və ümumi inkişafının təmin edilməsindən ibarətdir. Bu vəzifə müxtəlif yollarla və vasitələrlə həyata keçirilir.

Təlim prosesində biliyin verilməsi üçün müxtəlif metodlar, o cümlədən, müasir təlim metodları tətbiq olunur. Bu metodlarda həm də şagirddə fənnə, elmə maraq yaradan elementlər də vardır. Bunlardan əlavə, dərketməni sürətləndirmək üçün didaktik, əyani-illüstrativ materiallardan da istifadə olunur.

Təlimin məqsədlərini həyata keçirmək üçün tədrisin təşkili formalarından səmərəli şəkildə istifadə edilməsi də əhəmiyyət kəsb edir.

Məktəbdə təlim həm də sinifdənxaric məşğələlər vasitəsilə də həyata keçirilir. Bu növ məşğələlər məktəbdə riyaziyyat fənninin kütləviləşdirilməsində mühüm rol oynayır. Məktəbdə tətbiq olunan sinifdənxaric məşğələ forması şagirdlərin yaş və bilik səviyyələrinə cavab verən təlimin təşkili formasıdır.

Orta məktəbdə işləyən qabaqcıl riyaziyyat müəllimlərinin iş təcrübəsi göstərir ki, riyaziyyatdan sinifdənxaric məşğələlərdə onların ümumi riyazi hazırlığında və gələcək peşəyə istiqamətlənməsində mühüm rol oynayır. Riyaziyyatdan sinifdənxaric məşğələlər müxtəlif növlərdə olsa da, məqsəd eynidir. Ona görə də bu məşğələlərə riyaziyyata həvəsi, riyazi qabiliyyəti olan şagirdləri cəlb etmək lazımdır.

İndi məktəbdə sinifdənxaric işlərin xüsusiyyətlərini nəzərdən keçirək. Riyaziyyatdan sinifdənxaric işlərin birinci xüsusiyyəti - məşğələ mövzularının seçilməsində bir qədər sərbəstliyin olmasıdır. Lakin tədris proqramının imkanları və sərhədləri nəzərə alınmalıdır.

İkinci xüsusiyyət – şagirdlərlə iş formasının müxtəlif olmasıdır.

Üçüncü xüsusiyyət – maraqlı və əyləncəli, həyati tətbiqləri aşkar görünən materialın seçilməsi imkanlarının olmasıdır.

Dördüncü xüsusiyyət – məşğələlərin vaxt büdcəsini müəllim müəyyən edir.

Gələcək riyaziyyatçıların ilkin hazırlanması mərhələsi məhz məktəbdə dərs və sinifdənxaric məşğələlərdən başlayır.

Sinifdənxaric məşğələ dedikdə - dərsdən kənar keçirilən və bütün şagirdlər üçün məcbur olmayan təlim prosesi başa düşülür. Əsas formaları: dərnək məşğələsi, riyazi viktorinalar, riyazi axşamlar, riyaziyyatdan divar qəzeti və s. ola bilər.

Bizim məqsədimiz riyaziyyatdan sinifdənxaric məşğələlərdə verilən çalışmalar vasitəsilə şagirdlərin hesabdan nəzəri biliklərinin genişləndirilməsi və dərinləşdirilməsindən ibarətdir.

Orta məktəbin V-VI siniflərində dərnək məşğələsi üçün aşağıdakı tapşırıq nümunələrini göstərə bilərik:

**Məsələ 1.** Uzunluğu 225 m. olan qatar $54\frac{km}{saat}$ sürətlə 450m. uzunluğunda körpünü neçə saniyəyə keçə bilər?

**Həlli.** Bu hərəkətə aid məsələ olsa da, əslində qatara maddi nöqtə kimi deyil, ölçüsü nəzərə alınan bir obyekt kimi baxılır. Körpünün uzunluğu qatarın uzunluğundan 2 dəfə çoxdur (şəkil 1). Deməli, elektrovoz körpünü keçmək üçün 450 m. məsafə, bütün qatarın keçməsi üçün isə 450m.+225m. məsafə getməlidir. Bundan sonra hərəkətə aid adi məsələ alınır.



Şəkil 1

$$S=675m,\ V=15\frac{m}{san},\ t=?$$

$$V=\frac{S}{t};\quad t=\frac{S}{v}=675:15=45(san)$$

**Məsələ 2.** Boçkadan 6 litr kvas götürüb başka boçkaya tökmək üçün 9 litirlik vedrə və 5 litirlik bidondan istifadə etmək lazımdır. Bunu necə etmək olar?

**Həlli:** 5·3-9=6

**Məsələ 3.** Ata və oğulun ad günü eynidir. Ata oğuldan 11 dəfə böyükdür. 6 ildən sonra 5 dəfə böyük olacaqdır. Oğulun neçə yaşı var?

**Həlli:**

Oğul – x } x+6 
⇒
Ата – 11 x } 11x+6

11x+6=(x+6)·5

Cavab: 4

**Məsələ 4.** Şahmat taxtasının solda aşağı damadan at gedişi ilə hər xanada bir dəfə olmaqla sağdakı yuxarı damaya düşmək olarmı?

**Həlli:** Atın gedişi onu bir ağ xanadan qara xanaya aparır. Qara xanada yenə qara xanaya düşmək üçün cüt sayda gedişlər edilməlidir. Onda at tək sayda ağ xanalarda olmalıdır. Şahmat taxtasının xanaları cüt saydadır və ağ xanalar da cüt saydadır. Deməli, at hər xanada bir dəfə olmaqla, məsələnin tələbi ödənməz.

Bu məsələnin həllində aparılan mühakimə, nömrələmə, yerdəyişmə bilavasitə ədədlərin

xassələri ilə bağlıdır.

## FİZİKA FƏNNİNİN TƏDRİSİNİN ƏSAS PRİNSİPLƏRİ

**Sevinc Nəzərova,**
*Abşeron rayonu 2 nömrəli*
*məktəbin fizika müəllimi*
E-mail: seva-123@mail.ru

***Açar sözlər:*** *innovasiya, kompüter, bilik, bacarıq, idrak fəaliyyəti*
***Ключевые слова:*** *инновация, компьютер, знания, умения, познавательная деятельность*
***Key words:*** *innovation, computer, knowledge, skills, kognitive activity*

Təhsil insanın sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnməsini davamlı bir fəaliyyət kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Onun didaktik əsasını isə təbiətə müvafiqlik, praktiklik, istiqamətlilik, variativlik, mərhələlilik, fərdi ehtiyacların nəzərə alınması və fasiləsizlik təşkil edir.

Məktəb fizika kursu həqiqi vətəndaşın və müasir dünyagörüşlü şəxsiyyətin yetişməsində mühüm rolu olan fənlərdəndir. Bu baxımdan fizika təliminin düzgün prinsiplər əsasında təşkili olduqca vacibdir.

Ümumi didaktik prinsiplərdən əlavə hər bir fənnin tədrisinin spesifik prinsipləri mövcuddur. Bu prinsiplərdən isə müəyyən tələblər irəli gəlir. Fizika dərsinə verilən tələblər aşağıdakılardır:

- elmilik;
- intensivlik;
- inteqrativlik;
- əyanilik;
- texniki vasitələrdən istifadə.

Fizika təlimi qarşısında qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

- fizikanın düşünmə və idrak vasitəsi olması;
- fizika təlimi prosesində dünyagörüşünün təmin olunması;

Müəllimin fəaliyyətində sinifdə yaradıcı mühit yaradılması ön planda durmalıdır. Hər bir gənc fizikadan mənbələri oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı, fasiləsiz təhsilə hazır olmalıdır.

Fizika həyat elmidir. Həyatın bir sıra qanunları, qanunauyğunluqları bu elmin tədqiqat obyekti kimi araşdırılır. Şagirdlərin hələ məktəb yaşlarından bu qanun və qanunauyğunluqlara, müxtəlif fiziki hadisələrə yaxından bələd olması onların həyat, təbiət haqqında dünyagörüşünü artırmaqla yanaşı, cəmiyyətdə yaşamaq üçün bir sıra həyati bacarıqları mənimsəmələrinə imkan yaradır. Cəmiyyətin müxtəlif sahələrində həyatda bir insan kimi formalaşmalarına təkan verir. Bu prosesi tənzimləmək şagirdlərin inkişafını ardıcıl olaraq izləmək, onları istiqamətləndirmək üçün fizika fənninin məzmunu nəticələr formasında təqdim olunur. Mahiyyət etibarı ilə bacarıqlardan ibarət olan bu nəticələr ölçülə bildiyindən məzmun standart kimi qəbul edilərək fizika fənn kurikulumunda aparıcı yer tutur və bütövlükdə kurikulum üçün xarakterik cəhətlərdən biri olan nəticəyönlülüyü təmin edir.

### ƏDƏBİYYAT

1. Ümumi təhsilin dövlət standartları və proqramları // Kurikulum, 2010, №
2. “Fizika fənn kurikulumu”. “Azərbaycan müəllimi” qəz., 2010, 24 dekabr
3. Ə. Abbasov. “Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri” // Kurikulum, № 1

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANI VƏ QEYRİ-STANDART DƏRSLƏR

**Şəhla Mirzəyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*BDU*
E mail: mirzayeva.shehla@gmail.com

***Açar sözlər:*** *müzakirə, müsahibə, "Kitabi-Dədə Qorqud", qeyri-standart dərslər*
***Ключевые слова:*** *дискуссия, беседа, «Китаби- Деде Коркуд», нестандартные уроки*
***Keywords:*** *interview , discussion, "Kitabi- Dede Korkud", Non-Stan-Dard Lessons*

Köklü islahat və dəyişiklikərlə müşayiət olunan müasir təhsil konsepsiyasının üstünlüyü məhz ondadır ki, o, şəxsiyyətin formalaşmasını təhsil sisteminin başlıca vəzifəsi kimi dəyərləndirir. Əlbəttə, belə bir yanaşma cəmiyyət üçün təqdirəlayiqdir və bunun əsasında həyatımız üçün dəyərli və ləyaqətli şəxsiyyətlər yetişir. Bu prosesdə təlim struktur dəyişmələrinə məruz qalır, hafizə unudulmamaq şərtilə idrak prosesləri dərinləşdirilir, şagirdlərdə müstəqil düşüncə və mühakimə yürütmək vərdişləri, əqli nəticə çıxartma bacarıqları formalaşdırılır. Bu təlim-tərbiyə isə yeni pedaqoji təfəkkürün təzahür formaları kimi meydana çıxır. Əlbəttə, şagird üçün ən maraqlı dərs bilavasitə onun özünün aktiv iştirak etdiyi, təfəkkür imkanlarına əsaslanan tədris məşğələsidir. Təlimin təşkili formalarından biri də qeyri-standart dərslərdir. Belə dərslər mahiyyət etibarilə standart struktura malik olmurlar. Başqa sözlə, qeyri-standart dərslər strukturu olmayan improvizə edilmiş tədris məşğələləridir (dərs-ekskursiya, dərs-oyun, dərs-konfrans, kompüter-dərs, dərs-nağıl, dərs-yarış, dərs-kosmos və s.). Bu tədris məşğələlərinin yaranması təhsilin demokratik əsasda qurulmasının nəticəsidir. Dünyada humanist pedaqogikanın yaradıcısı kimi tanınan Rusiya Elmlər Akademiyasının akademiki, psixologiya elmləri doktoru, professor Ş. Amonaşvili 2014-cü il dekabrın əvvəllərində Bakıda olarkən paytaxtımızın məktəbliləri ilə belə dərslər təşkil edib. Konkret təlim standartlarının reallaşmasına yönəlmiş bu dərs nümunələrinin hər birinin ayrılıqda xüsusi təlim məqsədlərinin həyata keçirilməsinə xidmət edir.

İnformasiyaların çoxaldığı, uşaqların məlumatının artdığı hazırkı şəraitdə dərsləri daha mütəhərrik və dinamik şəkildə qurmaq, onu maraqlı fəaliyyət obyektinə çevirmək tələb olunur. Bu baxımdan qeyri-standart dərslərin imkanları böyükdür. Belə dərslərdə müəllim daha yaradıcı və daha sərbəstdir.

Dədə Qorqud mövzusunu məhz qeyri-standart formada təşkil olunmuş dərs vasitəsilə tədris etmək olar.

Belə dərslərdə şagirdlər diskussiya məzmunlu təlim prosesinə daha çox maraq göstərir, mübahisəyə girişməkdən, mövqeyini açıqlamaqdan çəkinmir, ədəbiyyat dərslərində, xüsusilə bədii əsərlərin tədrisində müxtəlif məzmunlu və istiqamətli diskussiyaların aparılmasına əlverişli imkan yaranır.

*Diskussiya metodu* elmi mübahisə deməkdir. Bu metod şagirdləri fəallaşdırır, təlimə maraq yaradır, biliklərin şüurlu mənimsənilməsinə imkan verir. Diskussiya zamanı müəyyən problem üzrə müxtəlif baxışlar, mövqelər irəli sürülür, hər kəs öz mövqeyinə haqq qazandırmağa, digər mövqeyi təkzib etməyə çalışır.

*Müsahibə metodu* sual-cavab deməkdir. Ondan bütün fənlərdə, təlimin bütün pillələrində geniş istifadə olunur. Müsahibə əsasən iki növdə olur: evristik və təkrarlama müsahibəsi.

Evristik müsahibə ("evrika" yunanca "tapdım" deməkdir) yeni qaydanı, qanunauyğunluğu sualların köməyi ilə şagirdlərə tapdırmaq metodudur. Vaxtilə bu metoddan qədim yunan filosofu Sokrat geniş istifadə etdiyi üçün buna Sokrat metodu da deyilir.

Evristik metodda sualların köməyi ilə müvafiq faktlar tapılır və nəticələr çıxarılır. Təkrarlama müsahibəsi keçilən bilikləri təkrar yolu ilə möhkəmlətməyi nəzərdə tutur.

Müsahibə zamanı sualların düzgün qoyulması əsas şərtdir. Sualın qoyuluşu müəyyən *tələblərə* cavab verməlidir: a) sual konkret və aydın olmalıdır; ümumi xarakterli sual aydın olmur . b) sual düşündürücü olmalıdır; "hə" və "yox" cavabı tələb edən sual şagirdləri düşündürmür; c)

sual yığcam olmalıdır; iki və çoxmərtəbəli sual vermək düzgün deyildir: belə sual yaxşı yadda qalmır və cavaba mənfi təsir göstərir; d) yanlış və çaşdırıcı suallar vermək olmaz. Belə suallar şagirdlərin təfəkkürünü səhv yola sövq edər və müəllimin biliyi haqda onlarda şübhə yarada bilər.

Müsahibə metodunun təşkilində müəyyən qaydanı gözləmək lazımdır: sual tək-tək şagirdə yox, sinfə verilir və istənilən şagirddən soruşulur. Cavab səhv və ya qeyri-dəqiq olarsa, səhv cavab şagirdin özünə, ehtiyac olduqda digər şagirdlərə düzəltdirilir, cavab yenə təminedici olmasa, müəllim özü izah edir.

Bədii əsərlərin təhlilinin diskussiya zəminində qurulması əsər haqqında, obrazların xarakteriktikası barədə şagirdlərdə müstəqil fikir söyləmək bacarığı yaratmaqla yanaşı, onlarda müsahibini dinləmək və növbə ilə danışmaq mədəniyyəti də formalaşdırır.

Bu tipli suallardan istifadə etmək olar:

-Sizin fikrinizcə, filmin dastandan fərqli bir şəkildə bitməsi uğurlu alınıb?

-Bəs siz ozünüz bu boya necə yaradıcı yanaşardınız?

-"Dədə Qorqud" möhtəşəm söz abidəmizdir" ifadəsi sizə nə deyir?

-Filmin dili haqqında nə deyə bilərsiniz?

- Filmdə bəzi məqamlarda bir çalğı aləti göstərilir, deyə bilərsinizmi, o, hansı çalğı alətidir?

- Qopuz haqqında nə bilirsiniz? Onun sazdan fərqi nədir?

- "Dədə Qorqud" mövzularında komediyalar da yazılıb: Altay Məmmədovun "Dəli Domrul" və Kamal Abdullanın "Casus" komediyaları. Onları oxumaq istərdinizmi?

-"Dədə Qorqud" motivlərinin komik planda işlənməsini təqdir edirsinizmi? Fikrinizi əsaslandırın.

**ƏDƏBİYYAT**

1. Ərgin Gözə. "Dədə Qorqud". "Tərcüman" qəzeti, 1983.
2. Ə.Ə.Əlizadə, H.Ə. Əlizadə "Əsrin meqameylləri: psixopedaqoji problemlər", I cild Bakı, 2008.
3. Əlizadə Ə.Ə. "Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi" Bakı, 1963.
4.Şalva Aleksandroviç Amonaşvili Təhsil Problemləri İnstitutunun dəvəti ilə Bakıya gəlir https://www.youtube.com/watch?v=UigTTw4cIiQ

## VISUAL BASIC-də SADƏ HESABLAMA PROSESLƏRİNİN ÖYRƏDİLMƏ METODİKASININ TƏHSİLƏ TƏTBİQİ

**Məftun Əliyev**,
*Naxçıvan Universiteti,*
**Nazilə Mahmudova,**
*AMEA-nın Naxçıvan bölməsi*
E-mail: meftun-aliyev@rambler.ru

***Açar sözlər:*** elmi-tədqiqat, operator, alqoritm
***Key words:*** scientific research, operator, algorithm
***Ключевые слова:*** научное исследование, оператор, алгоритм

İnsanların yeni informasiya texnologiyalarını öyrənməsi və onu müxtəlif sahələrə tətbiq etməsi müasir sistemlərin və proqramlaşdırma dillərinin yaranmasına və inkişafına səbəb olur. Kompüterlər cəmiyyətdəki bütün proseslərə o cümlədən elmi–tədqiqat işlərinə, iqtisadiyyata təsir göstərərək, ümumilikdə insanın fəaliyyət formasını dəyişdirir və praktikanın yeni sahələrinə daxil olur.

Hər hansı hesablama xarakterli məsələnin həlli üçün nəzərdə tutulmuş proqramın yazılması üçün ilk olaraq onun həlli alqoritminin tərtib edilməsi tələb olunur.

Dövrü hesablama proseslərində eyni əməliyyatlar təkrar olunaraq yerinə yetirilir. 1-dən 200-ə qədər müsbət tam ədədləri hesablamaq uşun dövrü hesablama prosesindən istifadə edək. Bunun üçün aşağıdakı operatordan istifadə edilir:

If...Ten
If...Then...Else
For...Next
For...Each...Next

Do...Loop

Sadə bir misala baxaq:

```
Private Sub Form_Load ()
MsgBox diskriminant (2, -3, -2)
End Sub
Function diskriminant(a, b, c As Double) As String
Dim D
D = b * b - 4 * a * c
If D < 0 Then
diskriminant = "helli yoxdur"
ElseIf D > 0 Then
diskriminant = "x1=" & (-1 * b + Sqr(D)) / (2 * a) & " x2=" & (-1 * b - Sqr(D)) / (2 * a)
ElseIf D = 0 Then
diskriminant = "x1=x2=" & (-1 * (b / 2 * a))
End If
End Function
```

## ETNODİDAKTİK AMİLLƏRİN ƏHƏMİYYƏTİ

**Sədaqət Əliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ADPU*
E-mail: aliyevasedaqet.29@mail.ru

***Açar sözlər:*** *etnodidaktika, etnodidaktik amillər, etnik mədəniyyət*
***Ключевые слова:*** *этнодидактика, этнодидактические факторы, этническая культура*
***Key words:*** *ethnodidactics, ethnodidactic factors, ethnic culture*

Ümumi didaktikada yeni istiqamət olaraq "etnodidaktika" etnik özünəməxsusluqla xarakterizə edilir. Xalq metod və üsullarına uyğun təlim forma və vasitələri etnodidaktika adlanır. Etnodidaktika etnopedaqogikanın tərkib hissəsidir. Etnodidaktika - bu etnik dərk olunan didaktikadır və uşağın etnik təbiətinə uyğun gələn təlimin nəzəriyyəsi və metodikasıdır. Etnodidaktika etnosun və ya etnik nümayəndələrin "nəyi öyrətmək?" və "necə öyrətmək?" sualına cavab verir.

Etnopedaqogikanın didaktik imkanlarının mənası gənc nəslə xalqın çoxəsrlik sosial-tarixi və istehsal təcrübəsinin, dünyagörüşünün, əxlaqi-estetik ideyalarının və ideallarının ötürülməsindədir. Yəni, təlim və təhsil nəzəriyyəsi əsasən etnopedaqogikanın didaktik imkanları hesabına yaranmış və inkişaf etmişdir.

Xalq didaktikası etnopedaqogikanın predmeti olaraq təbii, həyati, gündəlik, folklor, ənənəvi didaktikadır. Təlimin təbiiliyində nəhəng didaktik enerji vardır. Biz müdrik əcdadlarımızın sağlam fikirlərinə - didaktikaların ən müdriki olan xalq didaktikasına söykənməliyik və etnodidaktikaya müraciət xalqlar üçün çox dəyərli əhəmiyyət kəsb edir.

Təlimin forma və üsullarının təkmilləşdirilməsində xalq pedaqogikası ideyalarından istifadənin didaktik şərtlərindən biri tədris materialının məzmununun etnik mədəniyyət elementləri hesabına zənginləşdirilməsidir. Etnodidaktik metod və üsullardan, forma və vasitələrdən başqa təlim prosesində geniş istifadə edilən etnik mədəniyyətin çox keyfiyyətli elementləri də vardır, hansı ki, təlim prosesində bilavasitə iştirak etmir, lakin bilik, bacarıq və vərdişlərin əldə olunması prosesinə pozitiv təsir edirlər. Bunlar etnodidaktik amillərdir. Etnodidaktik amillər aktiv və passiv amillərə bölünür.

Etnik mədəniyyətin o elementləri aktiv etnodidaktik amillər adlanır ki, bəzi vəziyyətlərdə təlim vasitəsi kimi təlim prosesinin özündə bilavasitə iştirak edə bilirlər. Etnodidaktik amillərin istifadəsi uşaqları təlimə hazırlamağa, onlarda idraki bacarıq və vərdişlərin formalaşmasına, əqli və yaradıcı bacarıqların inkişafına yönəldilmişdir.

Uşaq psixologiyasını bilmək xalq pedaqogikası ustalarına şifahi xalq yaradıcılığının gözəl nümunələrini yaratmağa imkan vermişdir. Bu nümunələr uşaqların nitqinin, yaddaşının, düşüncəsinin, diqqətinin və vərdişlərin inkişafına yönəldilmiş didaktik məqsədlərə malikdir. Effektiv etnodidaktik vasitələrə oyunlar, xalq məsəlləri, atalar sözləri, nağıllar, tapmacalar, yanıltmaclar, sanamalar və s. aiddir.

Xalq oyunları çoxfunksiyalı etnodidaktik vasitə sayılır, hansının ki, əhəmiyyəti təkcə pedaqogikada deyil, həm də insanın fəaliyyətində qiymətsizdir. Ətraf təbiət və təzahürlər haqqında biliklər uşağın idraki bacarıqlarını genişləndirir. Məhz buna görə, xalq uşaq oyunları uşaqların təlimə hazırlığında, vərdişlərin mənimsənilməsində, biliklərin qavranılmasında başlıca etnodidaktik amil olaraq çıxış edir. Xalq didaktik oyunları maraqlı formada uşaqlara onları əhatə edən dünyanı dərk etməyə kömək edir, nitq və hərəkət aktivliyini artırır, diqqət və yaddaşı məşq etdirir. Oyun prosesində uşaqlar insanlar arasında münasibətləri modelləşdirirlər. Uşaqlar ətraf aləmdə müşahidə etdikləri vəziyyətləri oynayırlar. Bu üsulla etnososiumda qəbul edilən davranış stereotipləri qavranılır. Bu stereotiplər tədricən vərdişə, sonra isə normaya çevrilir, yəni etnoetika kimi özünü göstərir. Daha tam oyun fəaliyyəti uşaqların sosiallaşmasında, onun gələcək böyük həyata hazırlanmasında, etnososial rollara daxil olmasında, bəşəriyyətin sosial təcrübəsini qavramasında istifadə olunur. Peşəkar müəllimlər xalq oyunlarına yaxından bələd olarsa, oyun fəaliyyətində uşaqların düşüncə imkanlarının, onların fantaziya və yaddaşının, eşitmə və reaksiya itiliyinin inkişafına və fikirdən-fikrə keçid cəldliyinə nail olarlar. Oyunların nəticəsi uşaqların dəyərlərə istiqamətlənməsi, baxışların, mühakimələrin, həyat mövqelərinin, bir-birinə münasibətlərin yenilənməsi və xalq yaradıcılığının sirlərinin özünəməxsus dərk edilməsi ola bilər.

Uşaqlarda dinləmə və eşitdiyini təkrarlamaq bacarığı məzmunca müxtəlif olan nağıllar əsasında formalaşır. Əvəzolunmaz xalq təlim və etnodidaktik vasitə nağıl hesab edilir. Nağıl təlimləndirir, inkişaf etdirir və tərbiyələndirir. Təlim-tərbiyə prosesində nağıllardan istifadə uşaqların nitqinin, təxəyyülünün və fantaziyasının inkişafına, obrazlı düşüncə tərzinin formalaşmasına yönəldilir. Bu bacarıqlar uşaq şəxsiyyətinin təlimə hazırlığını xarakterizə edən başlıca intellektual bacarıqlara aiddir.

Atalar sözləri - çoxlu müşahidələr nəticəsində meydana gələn həyat haqqında mühakimələrdir. Atalar sözləri həyat təzahürlərinin çox mürəkkəb əlaqələrini əks etdirir. Atalar sözləri, adətən, hazır qiyməti, nəticəni özündə əks etdirir.

Tədris prosesində əsas təlimləndirici funksiyanı etnodidaktik vasitələr kimi tapmacalar və yanıltmaclar yerinə yetirir. Tapmacaların məzmunu uşaqlarda bilik ehtiyatını zənginləşdirir.

Beləliklə, etnodidaktikanın başlıca amillərinin bir-biri ilə çox dərin əlaqəsini müşahidə etmək olar ki, bu da hər bir uşağın ən kiçik yaşlardan ondan konkret bilik, bacarıqlar tələb edən real prosesdə aktiv iştirakına şərait yaradır. Əgər bu bacarıqlar hələ yoxdursa, onlar bu və ya digər dərəcədə yaranmağa başlayır.

Tədris prosesinə aidiyyatı olmayan, lakin ona pozitiv təsir edən etnik mədəniyyətin elementləri passiv etnodidaktik amillər adlanır. Bu amillərin özləri nə tədris prosesində, nə uşaqların təlimi prosesində iştirak etmirlər. Onlar sanki tədris-idraki fəaliyyətə təsir edən fon olaraq aktiv etnodidaktik amillərə xidmət edir. Passiv etnodidaktik amillərin istifadəsi xüsusi atmosferin - uşaqların idraki fəaliyyətini stimullaşdıran etnomədəni mühitin yaradılmasına yönəldilmişdir. Passiv amillərə əmək ənənələrini, etnik həyat tərzini və b. aid etmək olar.

Beləliklə, etnik mədəniyyətin elementləri nəhəng tədris potensialına malikdirlər. Tədris prosesində etnodidaktik amillərin bütün müxtəlifliyi ilə öyrənilməsi və istifadəsi təlimin uğuruna, uşaqların tədris-idraki prosesə hazırlanmasının effektivliyinə, ümumilikdə insanın formalaşmasına pozitiv təsir edir.

**ƏDƏBİYYAT**

1. Этнопедагогика. Вопросы и ответы. Чебоксары, 2011.
2. Həşimov Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı: Maarif, 1991.

# QEYRİ-SƏLİS CƏBRDƏ İSTİFADƏ OLUNAN SİMVOLLAR VƏ İŞARƏLƏMƏLƏR HAQQINDA

**Rövşən Həsənov,**
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: h_rovshan51@rambler.ru

***Açar sözlər:*** *qeyri-səlis cəbr, qeyri-səlis çoxluq, qeyri-səlis münasibət, simvol, qeyri-səlis relyasiyon tənlik*
***Ключевые слова:*** *нечеткая алгебра, нечеткое множество, нечеткое отношение, символ, нечеткое реляционное уравнение*
***Key words:*** *fuzzy algebra, fuzzy set, fuzzy realation, symbol, fuzzy relation equation*

XX əsrin görkəmli riyaziyyatçısı L.Ə. Zadə tərəfindən yaradılmış qeyri-səlis çoxluqlar nəzəriyyəsi bir çox elm sahələrində, xüsusilə riyaziyyat elmində yeni istiqamətlərin yaranmasına güclü təkan verdi. Riyaziyyatın müxtəlif klassik nəzəriyyələrində öyrənilən məsələlərin qeyri-səlis çoxluq əsasında öyrənilib işlənməsinə aid geniş tədqiqatlar aparılmağa başladı. Bununla bərabər, qeyri-səlis çoxluqdan istifadə etməklə elm, texnikanın və o cümlədən humanitar elm sahələrinin praktik məsələlərinin həlli ilə bağlı geniş spektrli tədqiqatlar böyük vüsət aldı. Bu zaman müxtəlif termin və riyazi işarələmələr meydana çıxır.

Alınmış nəzəri və praktik nəticələrin əsaslandırılması prosesində daxil edilmiş müxtəlif simvol və işarələmələrin məqsədəuyğun, vahid və ümumi şəkildə göstərilməsi, qeyri-səlis çoxluqlarla bağlı olan nəzəriyyələrin öyrənilməsi, inkişaf etdirilməsi və tətbiqində mühüm əhəmiyyət daşıyır.

Təqdim olunan iş qeyri-səlis cəbrdə işlədilən simvollar və işarələmələrin uyğun olaraq üç qrupa bölünərək araşdırılmasına həsr olunmuşdur.

1) Qeyri-səlis çoxluqlar və onlar üzərində aparılan əməllər üçün işarələmələr;

2) Qeyri-səlis münasibətlərlə əlaqədar olan simvollar və işarələmələr;

3) Qeyri-səlis ədədlər üzərində əməllər və qeyri-səlis tənliklər üçün istifadə olunan simvol və işarələmələr.

1. 1965-ci ildə görkəmli riyaziyyatçı tərəfindən verilmiş q/s çoxluq $U$ universal çoxluğunun $[0,1]$ parçasına $\mu_A: U \longrightarrow [0,1]$ inikası kimi təyin edilir, [1] Qeyri-səlis çoxluğu adi çoxluqdan fərqləndirmək üçün $\sim$ simvolundan istifadə edilir. Məsələn: $\underset{\sim}{A}$, [2] və ya $\widetilde{A}$, [3]. Fikrimizcə, $\underset{\sim}{A}$ kimi işarələmə daha sərfəlidir. $\underset{\sim}{A}$ qeyri-səlis çoxluğu müxtəlif formada təsvir olunur: $\underset{\sim}{A} = \left\{\mu_A(u) \middle| u\right.$, [1]; $\underset{\sim}{A}\{(u, \mu_A(u))\}$, [2]; $\underset{\sim}{A} = \left\{u \middle| \mu_A(u)\right\}$, [3] və s.

Vergül və nöqtəli vergül işarələrinin funksiyalarının çoxluğunu nəzərə alıb $\underset{\sim}{A} = \{U \mid \mu_A(u)\}$ kimi işarələnməni sərfəli hesab edirik. Çoxluğun tamamlayıcısını işarə etmək üçün $\neg$, $'$, $\bar{\ }$ kimi işarələrdən istifadə edilir. $\underset{\sim}{A}$ qeyri-səlis çoxluqlar üzərində təyin olunan qalan əməllər üçün A. Kofmanın əsərində [2], verilən işarələmələr məqbul hesab olunur.

2. Qeyri-səlis münasibətlər və onlar üzərində aparılan əməllərin işarələnməsində, qeyri-səlis münasibətin özü də qeyri-səlis çoxluq olduğundan, qeyri-səlis çoxluqlar üzərində əməllərin işarələmələrindən istifadə olunur. Qeyri-səlis münasibətlərin kompozisiyası, qeyri-səlis münasibətin proyeksiyaları, tranzitiv qapanması üçün işarələmələr, $U$ çoxluğunda binar qeyri-səlis münasibətin tipləri

üçün işarələmələr də $[2]$ metodik baxımdan daha münasib şəkildə verilmişdir. Qeyri-səlis münasibətin qeyri-səlislik xassələri ilə bağlı $[3]$- də verilən işarələmələr məqsədəuyğun hesab olunur. Bununla bərabər minimum göstərmək üçün $\Lambda$ simvolundan istifadə etmək daha münasibdir.

3. Genişlənmiş hesab əməlləri də $[4]$ təyin olunmuşdur. Fikrimizcə həmin əməllərin işarələri $\tilde{+}, \tilde{-}, \tilde{\cdot}, \tilde{:}$ simvolları ilə verilərsə daha düzgün olardı. Çünki həmin ədəbiyyatda göstərilən $\oplus$ toplama işarəsi, dizyunktiv cəmi göstərmək üçün də istifadə olunur. Üçbucaq şəkilli qeyri-səlis ədədlər üzərində əməllər və əmsalları bu tip ədədlər olan tənlikləri yazmaq üçün istifadə olunan işarələr $[5,6]$-da verilmişdir. Burada vurma əməli işarəsi olaraq “ $\cdot$ ” əvəzinə “ $\times$” simvolundan istifadə etmək lazımdır. Nəzərə alınmalıdır ki, “ $\cdot$ ” simvolundan onluq kəsrdə onluq hissəni tam hissədən ayırmaq üçün istifadə edilir. Qeyd edək ki, üçbucaq şəkilli ədədin $\tilde{a} = (a, a_l, a_R)$ şəklində təsviri münasibdir.

Relyasiyon tənliklərlə bağlı verilən elementlərdə $[7]$ –də verilən simvol və işarələmələrdən istifadə olunması məqsədəuyğundur.

### ƏDƏBİYYAT


1. Заде Л. Понятие лингвистической переменной и его применение к принятию приближенных решений. М.: Мир, 1976.
2. Кофман А. Введение в теорию нечетких множеств. М.: Радио и связь, 1982.
3. Мелихов А.Н., Берштейн Л.С., Коровии С.Я., Ситуационные советующие системы с нечеткой логикой. М.: Наука, 1990.
4. Нечеткие множества в моделях управления и искуственного интеллекта. Под. Ред. Д.А. Поспелова. М.: Наука, 1986.
5. В.А. Ибрагимов В.А. Элементы нечеткой математики. Баку, 2009.
6. Асаи К.и др. Прикладные нечеткие системы. М.: Мир, 1993.
7. Нечеткая логика: алгебраические основы и приложения; Автор создатель / Блюмин С.Л., Шуйкова И.Н., Сараев П.В., Черпаков И.В. М., 2002.
8. Həsənov R.Ə., Şıxlinskaya R.Y., Muradova N.L. Qeyri-səlis riyaziyyatın bəzi elementləri (xüsusi kurs). Bakı: Elm, 2011.


## TƏHSİLDƏ İNNOVASİYA NƏDİR?


**Yeganə Məmmədova**
*Bakı şəhəri 6 nömrəli məktəb-liseyin müəllimi*
E-mail: yegish2505@gmail.ru



***Açar sözlər:*** *təhsil, innovasiya, yenilik, təlim, tərbiyə, idarəetmə, yeni yanaşma, bacarıq, vərdiş, şəxsiyyət*
***Ключевые слова:*** *образование, инновации, обучение, управление, новый подход, умения, навыки, личность*
***Key words:*** *education, innovation, innovation, training, management, new approach, ability, skills, personality*


Müasir dövrdə “innovasiya” termini tez-tez eşitdiyimiz bir anlayış halına gəlib çıxmışdır. Hətta Avropada 2009-cu il "İnnovasiya və yaradıcılıq ili" elan edilmişdi. "İnnovasiya" nədir?

"İnnovasiya" və "yenilik" anlayışları sinonimlərdir, çox hallarda eyni mənada istifadə olunurlar. İnnovasiya (yenilik) - yeninin yaradılması və tətbiqi prosesidir, yəni elm, texnika, iqtisadiyyat və

idarəetməni birləşdirən mürəkkəb intellektual prosesdir. O, istehsal və istehlak münasibətləri kompleksini əhatə edir. İnnovasiya - yeniliyin məzmunu və reallaşmasıdır. Bu termindən iqtisadiyyatda, sonralar isə müxtəlif elmlərdə geniş istifadə etməyə başlamışlar. İnnovasiyaların, yeniliklərin yaradılması müxtəlif elm sahələrində spesifik cəhətlərlə müəyyən edilir.

Ən sadə tərifi ilə innovasiya- fərqli, dəyişik, yeni fikirləri inkişaf etdirmək və onları tətbiq etməkdir. Bu fikirlər, daha əvvəl həll edilməmiş problemləri həll etmək və ya daha əvvəl qarşılanmayan ehtiyaclara cavab vermək məqsədiylə inkişaf etdirilə bilər. Ya da onsuz da var olan bir çox məhsul və xidməti daha gözəl, daha rahat, daha çox insanın işinə yarayacaq hala gətirməyi məqsədəmüvafiq edə bilər. İnnovasiya prosesi fərdlərdə və cəmiyyətdə dəyişməyə olan istək, yeniliyə açıqlıq və sahibkarlıq ruhu ilə qaynayan bir mədəniyyət tələb edir.

Ancaq, yeni olan hər şey bir innovasiya olaraq qiymətləndirməməlidir.
Çünki innovasyanın təməl dinamikasını "yeni olan hər şey deyil, iqtisadi və ictimai bir əlavə dəyərə çevrilən yeniliklər " təşkil edir.

2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının başlıca məqsədi müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla, onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməkdir.

Əgər illər öncə təhsil almaq "öyrənmək", "tərbiyə almaq", "savadlanmaq", kimi başa düşülürdüsə, müasir dövrdə bu anlayış "inkişaf etmək", "bacarıq, vərdiş, dəyərlər qazanmaq", "şəxsiyyət kimi yetişmək" kimi dəyərləndirilir. Bu özü də innovasiyadır. Deməli, təhsilimiz innovasiya yolu ilə irəliləyir.

Ümumi təhsil sistemində innovasiyanın mahiyyəti gənc nəslin formalaşması üçün yeni yanaşmalar tapmaq və uğurla həyata keçirilməsidir. Yenilik dörd istiqamətdə daha çox istifadə edilməlidir:

- təlim
- tərbiyə
- idarəetmə
- yenidənhazırlanma

**ƏDƏBİYYAT**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
2. Ümumitəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). Bakı, 2013.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
4. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr: Müəllimlər üçün vəsait. Baki, 2005 (İREX təşkilatının xətti ilə).


## KEYFİYYƏTLİ TƏLİMİN TƏŞKİLİ PROBLEMİ


**Yeganə Hüseynova,**
*Bakı şəhəri Nəsimi rayonu 211 nömrəli məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi*
E-mail: yegana@mail.ru



***Açar sözlər:*** *vasitə, məktəb, seçmək, dəyər, nəticə, oxu prosesi*
***Ключевые слова:*** *средства, школа, выбирать, ценность, результат, процесс чтения*
***Key words:*** *facilities, school, to choose, value, result, the reading process*


Yeni kurikulumda təlim strategiyaları anlayışının işlənilməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması ilk növbədə əsas pedaqoji anlayışlardan biri kimi onun müasir baxımdan izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə nəticə, yaxud sadəcə proses kimi deyil, daha geniş məna çalarlarına malik ifadə tərzi kimi yanaşılması lazım gəlir. Xüsusən təhsilin xarakteri ona

bir neçə mövqedən yanaşmağı tələb edir. Belə ki, təhsilə dəyər, sistemli proses, nəticə kimi yanaşılması günün tələbidir.

İlk növbədə təhsilə özündə dili, mentaliteti, milli bacarıqları, adət-ənənələri ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi, mədəniyyətlilik, kollektivçilik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmiş «Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)» sənədində qeyd edildiyi kimi «Ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi ümumi təhsilin hər bir səviyyəsi üzrə təsdiq olunmuş təlim nəticələri və fənləri üzrə məzmun standartları aşağıdakı tələbləri ehtiva edir:

- fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;
- təhsilin nəticəyönlülük, şagirdyönlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;
- təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;
- keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;
- təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin olunması;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müvafiq standartların müəyyən edilməsi üçün etibarlı əsas yaradılması;
- təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması.

Bu tələblər əsasında hazırlanmış fənnin məzmununu, fəndaxili və fənlərarası inteqrasiyanı, müəllim və şagird nailiyyətlərinə dair texnologiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələlərini özündə ehtiva

Yeni təhsil sistemində pedaqoji prosesin mərkəzində duran müəllim və şagirdlərin funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Münasibətlər «subyekt + subyekt» formasına uyğun üfüqi istiqamətdə qurulur. Müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyətini məhdudlaşdırır. O, daha çox sinif şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi şagirdlərin müstəqil idrak fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir.

**ƏDƏBİYYAT**


1. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz. Bakı: Elm, 2000.
2. Hüseynzadə R. Tərbiyə işinin metodikası. Bakı, 2010.


## KİMYA VƏ RİYAZİYYAT FƏNLƏRİNİN ƏLAQƏLİ TƏDRİSİ


**Əntiqə Seyidova**
*Sumqayıt Dövlət Universitetinin baş müəllimi*
**Azad Gəncəliyev**
*Sumqayıt şəhər Təbiət elmləri*
*təmayüllü gimnaziyanın riyaziyyat müəllimi*
E-mail: entige.seidova@mail.ru



***Açar sözlər:*** *təlim, cədvəl, kimya, riyaziyyat, idrak*
***Ключевые слова:*** *обучение, таблица, химия, математика, познание*
***Kev words:*** *training, table, chemistry, mathematics, cognition*


Ənənəvi təlimdən fərqli olaraq fəal interaktiv təlim üsulları ilə keçilən dərslərdə əyaniliyə daha çox üstünlük verilir. Kimya dərslərində ən çox əyani vəsait kimi istifadə olunan D.İ. Mendeleyevin dövri sistem cədvəli də, dərsin gedişatında istifadə olunan məsələlər də riyaziyyatla sıx əlaqəlidir. Lakin kimya

dərslərində təkcə Mendeleyevin dövri sistem cədvəlindən istifadə olunmur. Ümumiyyətlə isə, pedaqoji prosesdə cədvəlləri tədris cədvəli, qrafik cədvəl, rəqəmli cədvəllər, mətn və qarışıq cədvəllərə bölürlər.

Tədris cədvəlləri - tədris materiallarının müxtəlif bölmə və ya mövzularına aid rəqəm, mətn və qrafik təsvirləri olan cədvəllərdir.

İllüstrativ cədvəllər izah məqsədi daşıyan şəkil, portret və müxtəlif qısa izahlı mətnə malik təsvirlərdən ibarət olur.

Qrafik təsvirlər sxemlər, layihələr, sxematik şəkillər, diaqramları olan qısa mətn və ya riyazi ifadəsi olan materiallardan ibarət olur. (Məsələn, sulfat turşusunun istehsalı cədvəli, "Azot turşusunun istifadəsi" cədvəli və s. )

Rəqəmli cədvəllər əsasən rəqəmlərdən ibarət olur, bəzən isə onlar bir qədər şəkilli və ya qrafik təsvirlərlə əhatə olunur. ( Həllolma cədvəli, Elementlərin nisbi elektromənfilik cədvəli və s.).

Mətn cədvəlləri az miqdarda köməkçi şəkil və ya qrafik işarələrlə, xətlərlə müşayiət olunan mətn materiallarından ibarət olur. " Əsas kimyəvi terminlərin ifadəsinin yaranma və inkişaf tarixi", "Ümumtəhsil məktəblərinin kimya kabinetlərinin ( laboratoriyalarının ) təhlükəsizlik texnikası qaydaları".

Qarışıq cədvəllər isə illüstrativ, qrafik, rəqəm və mətn materiallarından (bu dörd növ və ya onların bəziləri ) ibarət olan cədvəllərdir. Bəzi cədvəllər haqqında qısa qeyd olundu, lakin idraki, təlimat, məlumat və s. bir neçə cədvəl növləri də mövcuddur ki, bu cədvəllərdən kimya dərslərində istifadə etməklə tədris prosesində əyanilik prinsipinin gözlənilməsinə əməl etmək olar, bununla da təlim prosesinin səmərəliliyinin artırılmasına nail olmaq olar.

## ƏDƏBİYYAT

1. Педагогический словарь (В 3 томах). Т. 2 / Редакторы: Г.М. Воловникова и др. М.: Издательство АПН РСФСР, 1961.

2. Рунова Л.М., Федотова И.Э., Потёмкина Н.М., Петрова Е.В. Термины неорганической химии // Химия в школе, 2005, № 3

3. Правила безопасности для кабинетов (лабораторий) химии общеобразовательных школ // Химия в школе, 2005, № 2

# ŞAGİRDLƏRİN İDRAKI FƏALİYYƏTİNDƏ MÜASİR DƏRS TİPLƏRİNİN ROLU

**Gülzar Quliyeva**
*kimya üzrə fəlsəfə doktoru, dosent,*
Sumqayıt Dövlət Universiteti
E-mail:q.gulzar@mail.ru

***Açar sözlər :*** *sinifdənxaric iş, dərsdənkənar tədbir, dərs, benefis, didaktik oyun*
***Ключевые слова:*** *внеклассная работа, внеурочное мероприятие, урок, бенефис, дидактическая игра*
***Keywords:*** *working klass, exstracurricular event, lesson, benefit performance, didactic game*

Gündəlik keçilən eyni tip dərslər şagirdi də, elə müəllimin özünü də yorur. Bu əsasən ənənəvi üsullarla keçilən dərslərə aiddir. Çünki bu üsullar yalnız bilik verməklə kifayətlənir, şagirdin bilik, bacarıq və vərdişlərinin üzə çıxarılmasına xidmət etmir. Ənənəvi dərsin gedişatı zamanı çox az sayda şagird biliyini nümayiş etdirə bilir.

Böyük fizik və mütəfəkkir professor Nikolay Umovun fikrincə, "əgər öyrənənlərdə təşəbbüs və özfəaliyyət inkişaf etdirilmirsə, bütün biliklər məhv olur: öyrənənləri nəinki təfəkkürə, həm də istəyə alışdırmaq lazımdır". Tədqiqatçılar hələ ötən əsrdə maraqlı xarakter quruluşa malik olan müxtəlif tip dərslərdən istifadə etməyi tövsiyə etdilər. Bu dərs tiplərindən istifadə etməklə müəllimlər dərslərini daha canlı və daha maraqlı edə bilər. Məsələn, bir neçəsini sadalayaq: Tarixi dərslər, alimlər haqqında dərs, dərs-benefis, dərs-tarixi şərh, dərs-portret və s.

Oyun dərslər: dərs-işgüzar oyun, dərs-rollu oyun, dərs-didaktik oyun, dərs-yarış, dərs-səyahət və s. Səhnələşdirilmiş dərslər: dərs - tamaşa, dərs-xatirələr, dərs-məhkəmə, dərs-auksion və s.
Bu tip dərslər 45 dəqiqə müddəti ilə məhdudlaşmaya bilər, ona görə də onlardan sinifdənxaric işlərin təşkili zamanı istifadə etmək olar. Şagirdlərin özlərinin hazırlığında iştirak etdiyi bu dərslərdə həm də rolları ifa etmələri onlarda maraq oyadacaq və eyni zamanda onlar bacarıq və vərdişlərini də bu tip təşkil olunmuş dərslərdə nümayiş etdirə biləcəklər.

Müəllimlər sinifdənxaric işlər, dərsdənkənar tədbirlərin köməyi ilə şagirdlərdə tədris etdikləri fənnə marağı artıra bilərlər. Kimya dərslərini bu tip dərslərlə dərsdənkənar tədbirlərdə hazırlamaq olar. Müxtəlif kimyəvi prosesləri izah edən təcrübələrin nümayişi, yaxud kimyaçı alimlərin həyatı barədə səhnələşdirilmiş hekayələr və s. vasitəsilə gələcəkdə elə maraqlı və bacarıqlı şəxsiyyətin yetişdirilməsinə nail olmaq olar. əyani xarakter daşıyan dərslər qurmaq və elə bu əyanilik vasitəsilə şagirdlərdə nəzəriyyəyə maraq oyatmaq olar. Əyani materialları, təcrübələri, prosesləri izləyən və ya rollu, səhnələşdirilmiş dərslər zamanı müxtəlif məsələlərin, problemlərin qoyulmasında özləri də yaxından iştirak edən məktəblilərdə artıq kimya fənninin necə möcüzəli, maraqlı olduğuna əminlik yaranır. Bu tip dərslərin keçirilməsi, müxtəlif dərnəklərin, müsabiqələrin təşkil edilməsi şagirdlərin təffəkürünün inkişafına, yaradıcılıq, tədqiqatçılıq bacarıqlarının formalaşmasına kömək edir, eləcə də onların intellektli, savadlı şəxsiyyət kimi formalaşmasında xüsusi rol oynayır.

**ƏDƏBİYYAT**

Подласый И.П. Педагогика: 100 вопросов - 100 ответов: учеб. пособие для вузов М.: ВЛАДОС-пресс, 2004.

## DÜZGÜN TƏLƏFFÜZ ÜZƏRİNDƏ İŞ

**Humay Alıkişiyeva ,**
*ARTPİ-nin böyük elmi işçi*
E-mail:h85.a@mail.ru

***Açar sözlər:*** *tələffüz qaydaları, aparılacaq çalışmalar, tövsiyələr*
***Ключевые слова :*** *правила произношения, проведение исследований, рекомендации*
***Keywords:*** *pronunciation rules, conduct studies, recommendations*

Müasir dövrdə yüksək mədəniyyətli şəxslər tərbiyə edib yetişdirmək, onlara doğma dilin əzəmət və gözəlliyini duymağı, dərk etməyi öyrətmək üçün məktəbin əsas vəzifələrindən biridir. Bu məqsədlə şagirdlərə düzgün, aydın, məntiqi, məqsədəuyğun danışmağı və yazmağı, öz fikirlərini cazibəli, təsirli, emosional şəklində verməyi, dinləyicinin qəlbinə, zehninə, hisslərinə təsir etməyi bacarmaq üçün ifadəli oxu və ifadəli nitq vərdişləri aşılamaq lazımdır.

Azərbaycan dilinə yiyələnmə ailədən başlayır. Uşaq məktəbə gələnədək ətraf-aləm haqqında müəyyən təsəvvürlər əldə edir. Bu onun lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir, əşya və hadisələr haqqında fikirlərini formalaşdırır, başqalarının dediklərini anlamağa imkan yaradır. Məktəbdə isə həmin iş sistemli, ardıcıl, mütəşəkkil davam etdirilir.

Şagirdlərin orfoqrafiya və orfoepiya qaydalarına yiyələnmələri də məktəb illərindən başlayır. Şagirdlərdə bu bacarıqları düzgün formalaşdırmaq müəllimlərin üzərinə düşür.

Ədəbi tələffüz vərdişlərinin şüurlu mənimsədilməsində fonetika tədrisinin əhəmiyyətindən danışarkən professor B. Əhmədov yazır: “ Fonetikanın tədrisi ilə əlaqədar olaraq, müəllim dilimizin orfoepik qaydalarını şüurlu surətdə mənimsətməyə başlayır. Müəllimin ədəbi tələffüzünün aşılanması üzrə əldə edəcəyi hər cür uğur və uğursuzluğun əsası da öz bünövrəsini buradan götürür. Bunu nəzərə alaraq, fonetika dərslərində şagirdlərin orfoqrafik vərdişləri ilə yanaşı olaraq, ədəbi tələffüzə yiyələnmələrinə də xüsusi fikir vermək lazımdır ”.[1]

Orfoepik vərdişləri geniş mənada anlamaq lazımdır. Bunu yalnız vurğunu düzgün işlətmək, yaxud sözü doğru tələffüz etmək mənasında deyil, eyni zamanda ədəbi dilin ümumi saflıq və gözəlliyini

saxlamaq, onun ahəngdarlıq və rəngarəngliyini gözləmək, büllurluğuna diqqət etmək mənasında anlamaq lazımdır.

Orfoepik vərdişləri möhkəmləndirmək üçün birinci şərt - şagirdlərdə həmişə məzmunlu, düzgün və mədəni danışıq meyli və vərdişləri yaratmaq; ikinci şərt - müəllimin saf ədəbi dilə sahib olması; üçüncü isə - orfoepik vərdişləri tərbiyə etmək məqsədilə müntəzəm surətdə çalışmaların aparılmasıdır:

- şifahi nitqin doğru və ifadəli olması üzərində iş
- şagirdlərə bədii, elmi-kütləvi nəsr əsərlərinin nümunələrini əzbərlətmək yolu
- onların qiraət mədəniyyətini artırmaq üzərində müəllimin rəhbərliyi
- ayrı-ayrı şagirdlərin nitqlərində olan qüsurları aradan qaldırmaq üçün onlarla fərdi məşğul olmaq
- şagirdlərin şifahi və yazılı nitqində olan qüsurları müntəzəm surətdə islah etmək.
- orfoepik məşğələlərdə əyani vəsaitlərdən istifadə olunmalıdır.

Burada müəllim böyük pedaqoji ustalıq göstərməlidir. O, şagirdlərlə sərt danışmamalı, öz rəftarı ilə onlarda narazılıq deyil, əksinə, öz səhvlərini düzəltmək meyli və həvəsi oyatmalıdır. Müəllim şagirdin yaşadığı mühitin xüsusiyyətlərini nəzərə almalıdır. Əgər şagirdin nitqində mənsub olduğu yerin şivəsi özünü göstərirsə, bunun üzərində işlər aparılmalıdır. Hər bir şivənin tələffüz xüsusiyyəti həmin şəraitdə yaşayan şagirdin həm yazılı, həm də şifahi nitqində bu və ya digər dərəcə də özünü göstərir.

Bəzən qüsurlu tələffüz nəticəsində sözlərin tərkibində əmələ gələn fonetik dəyişmə, həmin sözləri başqa mənalı sözlərə çevirir.

1. Gödək-güdək (sifət – feil )
2. İki yüz-iki üz (say-say, isim)
3. Onlar – olar (əvəzlik, feil )
4. Özüm - üzüm (əvəzlik-isim)
5. Otur-otu ( feil - isim)

Aparılan bu cür müqayisə yolu ilə şagirdlər sözün mənasında əmələ gələn dəyişikliyi və bu dəyişikliyin nitqdə törətdiyi dolaşıqlığı şüurlu sürətdə dərk edirlər.

Ədəbi tələffüz vərdişlərinin şagirdlərə aşılanması uzun sürən bir proses olduğundan bu işi konkret dərs saatı çərçivəsində həll etmək mümkün deyildir. Ədəbi tələffüz üzrə iş şagirdin təhsil aldığı bütün illər boyu davam etdirilməlidir.

**ƏDƏBİYYAT**


1. B. Əhmədov. Şagirdlərin orfoepik vərdişlərini inkişaf etdirmək yolları haqqında // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 1962, № 5
2. N. Abdullayev. Ədəbi tələffüz təliminin metodikası. Bakı: Maarif, 1986.
3. Abdullayev A.S. Nitq mədəniyyəti və natiqlik sənəti. Bakı, 1981.
4. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
5. Abdullayev N.Ə. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı, 1995.


## İBTİDAİ SİNİFLƏRDƏ FOLKLOR NÜMUNƏLƏRİNƏ VERİLƏN YER VƏ FOLKLORUN TƏDRİSİNƏ MÜNASİBƏT


**Çinarə Rzayeva,**
*AMEA-nın Naxçıvan bölməsi folklorşünaslıq şöbəsinin elmi işçisi*
E-mail: cinarerzayeva@yahoo.com.tr



***Açar sözlər:*** *folklor, atalar sözü, laylalar, ibtidai sinif, müəllim*
***Keywords:*** *folklore, proverb, lullabies, primary school, teacher*
***Ключевые слова:*** *фольклор, пословица, колыбельные, начальная школа, учитель*


Azərbaycan ərazisində folklorun tarixi çox qədimdir. İlk insan məskənlərinin meydana gəlməsi ilə birlikdə folklor da yaranmağa başladı. Azərbaycan folkloru ilk növbədə janr baxımından rəngarəngliyi ilə diqqət cəlb edir. Ta qədim zamanlardan yurdumuzun sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun nümunələri-miflər, əfsanələr, nağıl və

rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən-nəslə , əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zəmanəmizə gəlib çatmışdır. Ağızdan-ağıza keçərək möhkəmlənmişdir.

Müasir dövrümüzdə milli kimliyimizi, folklorumuzu qoruyub saxlamaq xüsusilə zəruridir. Şübhəsiz ki, yüz illərlə yaşayan ədəbi nümunələrin bu qədər uzun yaşamasının sirri onların mahiyyətindəki obrazların mükəmməlliyindən, xalq həyatına bağlılığından və onun xalq tərəfindən yaşadılmasından, obrazlı söz və ifadələrin zənginliyindəndir. Ədəbiyyatın bu dəyərli cövhərini dərk etmək üçün hələ uşaqlıq dövründən daha çox valideynlər və müəllimlər tərəfindən həmin obrazlı söz və ifadələrin mahiyyətini gənc nəslə başa salmaq lazımdır.

Uşaqlar ana dilinin zərifliyini, incəliyini, saflığını və gözəlliyini lap körpəlikdən anlamalıdır. Analar dilin gözəlliyini beşik başında oxuduqları laylalar, bayatılar, əzizləmələr vasitəsilə uşağın ruhuna hopdurur. Bir sözlə uşaq dünyaya göz açan gündən folklor nümunələri ilə qarşılaşır, anaların şirin laylası ilə uyuyur, nənələrin, xalaların, bibilərin həzin mahnısı ilə əzizlənir, onlara xoş gələn duzlu oxşamalarla gülür, yanıltmaclarla dil açır və beləcə həyatda mənəvi nemətlərdən ilk payını alır.

Saf, təmiz ana dilinin öyrənilməsi prosesində məktəbəqədər uşaqların və ibtidai sinif şagirdlərinin intellekt qabiliyyətlərinin inkişaf etdirilməsi vacib problem kimi diqqəti cəlb edir. İbtidai sinif şagirdlərində intellekt qabiliyyətlərini, nitq və təfəkkürünü inkişaf etdirən Ana dili fənni digər fənlərin öyrənilməsinə də güclü təsir göstərir.

Bu gün təhsilimizin yeniləşməsini tələb edən mühüm amillərdən biri də fənlərin həddindən artıq çoxalmasıdır. Bu fənlərin tədrisi şagirdlərin dünya görüşünün artmasına, məntiq baxımdan inkişafına hədsiz təsir edir. Uşaqların yaxşı formalaşmasında bu fənlərin tədrisi ilə yanaşı folklorun tədrisinin də önəmi çoxdur. Folklor həm də uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətlərinin formalaşmasına böyük təsir göstərir.

Uşaq ana dilini öyrənməyə ana laylası ilə başlayır, paralel olaraq da folklorumuzu öyrənir. Onun beynində, ruhunda vətən sevgisi yaranır və elə də böyüyür. Hətta məktəbə qədərki dövrdə, yəni uşaqlar məktəbə gələnə qədər kifayət qədər şerlər əzbərləyir, nağıllar öyrənirlər. Bu biliyə malik olan uşaqlar məktəbə böyük bir həvəslə gəlirlər. Amma bəzi hallarda bu həvəsi uşaqlarda inkişaf etdirmək yerinə körpələrin poeziyaya olan marağını konkret bir qəlibə salır, onu məhdudlaşdırırıq. Bunun nəticəsi olaraq dünən şerləri , nağılları, əfsanələri, tapmacaları çox asanlıqla əzbərləyən, öyrənən bir uşaq birdən-birə passivləşir. Məktəbə qədər uzun-uzadı folklor nümunələrini birnəfəsə deyən balacalar sanki çevrilib başqa uşaq olur. Doğma diyardan - folklor dünyasından azad bir dünyadan ölçülü-biçili bir aləmə düşür. Bunu əksinə inkişaf etdirmək lazımdır. Bu da ibtidai sinif müəllimlərinin üzərinə düşür. Yəni poetikanın əsas xüsusiyyətlərini öyrətmək üçün müəllim özü bir ədəbiyyatşünas kimi onun ən incə xüsusiyyətlərini dərk etməli və ibtidai siniflərdə tədris prosesində folklorla bağlı dərslərin, tapşırıqların yerinə yetirilməsinə ciddi yanaşmalıdır.

**ƏDƏBİYYAT**

1.Naxçıvanfolkloruantologiyası. II cild. Naxçıvan: 2011.
2.Şifahixalqədəbiyyatınıntədrisiməsələləri", Metodikvəsait, Bakı, ADPU, 2013.

# İBTİDAİ SİNİFLƏRDƏ HESAB MATERİALI İLƏ ŞAGİRDLƏRİN KONKRET-İNDUKTİV TƏFƏKKÜRÜNÜN İNKİŞAFI

**Fatma Hacıyeva,**
*Naxçıvan Dövlət Universitetinin baş müəllimi*

***Açar sözlər:*** *anlayış, təklif, əqli nəticə, təfəkkür, hesab materialı, məntiqi çalışmalar*
***Ключевые слова:*** *понятие, предложение, мышление, арифметический материал, логические упражнения*
***Key words:*** *notion, offer, mental result, thinking, mathematical material, logical exercises*

İbtidai siniflərdə riyazi anlayışlar müəyyən məzmunda və həcmdə verilir və tədricən genişləndirilir. Riyazi anlayışların dərk olunması, onun biliyə çevrilərək tətbiq olunması-müəyyən əyani vasitələrin didaktik materialların tətbiqi və prosesini sözlərlə, cümlələrlə ifadəsi ilə müşayiət olunur. Kiçik yaşlı məktəblilərə riyazi anlayışların öyrədilməsində həm də cümlələrdən istifadə olunur. Bu cümlələrdən eləsi olur ki, təlim prosesində alınan nəticəni ifadə edir. Məsələn, məchul toplananı tapmaq qaydası. Bu qayda müəyyən alqoritmi ifadə edir. Deməli, həmin cümlə müəyyən dinamikanı, prosesi ifadə edir. Bu bilik təfəkkür formasıdır. Riyazi biliyin qazanılmasında anlayışlar, təkliflər mühüm rol oynamaqla, hələ tam bilik vermir. İki məlum təklifdən yeni bir nəticə çıxarılması da təfəkkürə xas olan keyfiyyət olub, təfəkkür formasıdır.

Anlayış, təklif və əqli nəticə təfəkkür formaları olmaqla, riyazi bilik, bacarıq və vərdişlərin qazanılmasında mühüm və əvəzsiz rol oynayır. Bu üç forma təfəkkür əməliyyatları əsasında yaranır və yenidən praktikada tətbiq olunur.

İbtidai siniflərdə riyaziyyat təlimi təfəkkür formaları üzərində qurulmaqla, şagirdlər üçün məqbul olan tədris materialının düzgün seçilməsi və münasib metodların tətbiq edilməsini tələb edir. Kiçikyaşlı məktəblilərdə riyazi təsəvvürlərin formalaşdırılması və tədrisinin inkişaf etdirilməsində hesab materialı daha münasibdir. Bu münasibliyin əsası ondan ibarətdir ki, hesab materialında konkretlik və əyani-induktiv şərh əsasında sayma, hesablama bacarıqları formalaşdırılır, sadə riyazi asılılıqlar əyani-didaktik materialların dinamikası əsasında aşkar edilir.

İbtidai siniflərdə şagirdlərin əyani-induktiv və təfəkkürünü formalaşdırmaqla yanaşı, mücərrəd təfəkkürlərini də inkişaf etdirmək lazımdır. Bu məqsədlə, riyaziyyat kursunun məzmununa həndəsə və cəbr elementləri də daxil edilmişdir. Bu elementlər təcrid olunmuş şəkildə deyil, hesab materialı ilə sıx əlaqəli olmaqla, məzmun xətlərini təşkil edir.

III sinifdə şagirdlər yazılı toplama və çıxma halları ilə yanaşı, cədvəl üzrə vurma və bölmə hallarını öyrənir və 100 dairəsində cədvəldənkənar vurma və bölmə ilə tanış olur, müxtəlif şifahi hesablamalarda həmin biliklərdən istifadə edirlər. Mütənasib kəmiyyətlərə, dördüncü mütənasib kəmiyyəti tapmağa, iki fərqə görə məchulların tapılmasına aid məsələlər həllini öyrənir, kilometr, qram və digər kəmiyyətlərin ölçü vahidləri ilə tanış olurlar.

IV sinifdə şagirdlər çoxrəqəmli ədədlərin "mərtəbələr sinfi" anlayışı ilə tanış olur, müxtəlif tip məsələlərin, məntiqi və ehtimala aid sadə məsələlərin həlli üsullarını öyrənirlər. Bu sinifdə kəmiyyətlərin ölçü vahidləri cədvəlləri tamamlanır.

Ümumiyyətlə, I-IV siniflərdə hesab materiallarına aid düşündürücü, inkişafetdirici, məntiqi çalışmalar şagirdlərin həm də nəzəri biliklərinin inkişafına böyük təsir göstərir.

Bütün bunlar sübut edir ki, I-IV sinif şagirdlərinin riyazi hazırlığının əsasını hesaba aid praktiki biliklər təşkil edir. Bu da konkret riyazi təfəkkürün formalaşmasında mühüm rol oynayır.

# İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT DƏRSLƏRİNİN TƏŞKİLİ METODİKASI

**Şəhla Həsənova,**
*Bakı şəhəri 246 nömrəli məktəb-liseyin*
*riyaziyyat müəllimi*
E-mail:shehla.hesenova71@mail.ru

***Açar sözlər:*** *İbtidai sinif, kompüter texnologiyası, şagird, riyaziyyat, öyrədici təlim*
***Ключевые слова:*** *начальная школа, компьютерные технологии, студенты, математика, учебная подготовка*
***Keywords:*** *elementary school, computer technology, students, mathematics, training*

Hazırda ibtidai siniflərdə tədris edilən həndəsi materiallar praktik məqsəd daşıyır. Belə ki, həndəsi fiqurların xassələrinin öyrənilməsi və şagirdlərdə onlar haqqında sadə təsəvvürlərin formalaşdırılması onlara sadə hesablama məsələlərinin həlli vərdişi və bacarıqlarını aşılayır. Ona görə də hesab məsələlərinin həllində istifadə edilən həndəsi materiallar müxtəlif məzmunda olurlar.

Beləliklə ibtidai siniflərdə həndəsənin tədrisi zamanı bu materialların məzmununa az diqqət yetirilir və ümumiləşmələr aparılmır və praktik olaraq əsasən müstəvi fiqurlar haqqında təsəvvürlərin formalaşdırılması həyata keçirilir.

İbtidai siniflərdə öyrənilən həndəsi materiallar riyaziyyat kursunun bir hissəsini təşkil etdiyindən onun öyrənilməsi riyazi materiallarla sıx əlaqədardır. Bu materialların öyrənilməsi zamanı şagirdlər həndəsi fiqurlar və anlayışlar haqqında təsəvvür əldə edir, kəmiyyətlərlə tanış olur, xətkeş, pərgar və sair alətlərdən istifadə vərdişi əldə edirlər. Həndəsi materialı öyrənən zaman şagirdlər real obyektlərin yalnız ölçülərinə diqqət yetirdiklərindən onlarda fəza təsəvvürləri inkişaf edir, müşahidə, müqayisə qabiliyyətləri artır.

Hər bir fənnin öyrənilməsi kimi həndəsi materialların öyrənilməsi zamanı əyanilik mühüm əhəmiyyət kəsb edir. Əyanilikdən yerində və səmərəli istifadə edilməsi, şagirdlərin qavrama qabiliyyətini artırmaqla bərabər onlarda bu materiallara olan marağı yüksəldər. Ancaq bu əyanilik təsadüfi xarakter daşımamalı, öyrənilən məsələ və reallıqla sıx uzlaşmalıdır.

Birinci sinifdə şagirdlər ilkin olaraq əşyalardan istifadə edərək saymanı öyrənərkən istifadə edirlər. Sonralar bu əşyalar həndəsi fiqurlarla əvəz edilir və onların kəmiyyət xarakteristikaları öyrənilir. Daha sonra bu fiqurlar vasitəsi ilə kəmiyyətlər və onların ölçü vahidləri öyrənilir.

İbtidai siniflərdə həndəsi materialların tədrisi şagirdlərə ilk növbədə həndəsi fiqurları ayırd etməyə və onları təsvir etməyə imkan verir. Bu həndəsi fiqurlar nöqtə, düz xətt, sınıq xətt, əyri xətt, parça, bucaq, kvadrat, düzbucaqlı, dairə, çoxbucaqlıdır. Şagirdlərin bu fiqurları ayırd etmələri üçün bu fiqurları və ya onların kompüter modellərini onlara göstərərək uyğun həndəsi adlarını demək kifayətdir. Bu zaman eyni fiqurun müxtəlif formalarından istifadə etmək lazımdır.

Yeni texnologiyaların tətbiqi tədrisin bu formada qurulmasını asanlaşdıraraq səmərəli edir. Bunun üçün yeni tədris planlarının və proqramlarının hazırlanması vacib məsələlərdən biridir. Tədris planı elə qurulmalıdır ki, proqramda nəzərdə tutulan materialların tədrisi uşaqlara aşağıdakı vərdişləri aşılasın: ətrafda, şəkillərdə, çertyojlarda əsas həndəsi fiqurları ayırd etmək; hissələrdən çox da mürəkkəb olmayan fiqurları yığmaq; onların formasını dəyişmək; fiquru hissələrə ayırmaq; kağız üzərində və ya kompüterdə fiquru təsvir etmək.

İbtidai sinif şagirdlərində əyani təfəkkürün inkişaf etməsinə baxmayaraq, fiqurlar üzərində aparılan çevrilmələrin nəticələrini onların ayırd etmələri çətinliklər törədir. Ona görə də bu çevrilmələrin təkrar-təkrar yerinə yetirilməsi zərurəti yaranır. Bu məsələni həll etmək üçün fiqurların kompüter modelindən istifadə etmək daha səmərəli və effektli olar. Belə ki, üzərində çevrilmə aparılacaq fiqurları yaradaraq onlar üzərindəki çevrilmələri şagirdlər özləri yerinə yetirirlər.

Hesab və həndəsi materiallar birgə öyrənilən zaman tədricən artan çətinlikli həndəsi qurma məsələlərinin yerinə yetirilməsi daha səmərəli olardı. Çünki nəticədə şagirdlər tapşırıqları fərdi yerinə

yetirmək vərdişinə yiyələnməklə, öz fəaliyyətlərini planlaşdırmaq və bu fəaliyyətə nəzarət etmək bacarığını əldə etmiş olarlar.

Praktik tapşırıqların yerinə yetirilməsi həmçinin şagirdlərin əqli yorulmasının qarşısını alır. Bu məqsədlə onlara verilən tapşırıqların əyləncəli olmasının da böyük əhəmiyyəti vardır. Tapşırıqlar elə seçilməlidir ki, şagirdlər nəticədə əldə etdikləri bilikləri ümumiləşdirə bilsinlər. Ümumiləşdirmə qabiliyyətini qurma məsələləri daha çox inkişaf etdirdiyindən onlara da geniş yer ayırmaq lazımdır. Ancaq tapşırıqlar elə seçilməlidirlər ki, onları ümumiləşdirmək mümkün olsun.

Qurma məsələsi dedikdə, biz daha sadə fiqurlardan müxtəlif üsullarla daha mürəkkəb fiqurların alınmasını nəzərdə tutacağıq. Bu tip tapşırıqları yerinə yetirməklə şagirdlər öz fəaliyyətlərini planlaşdırılar, yəni bu fəaliyyətin alqoritmini qururlar. Həmçinin onlar həll olunacaq məsələnin modelini qurmaq, onun həll alqoritmini tapmaq vərdişlərinə də yiyələnirlər.

Sadə fiqurlardan daha mürəkkəb fiqurları almaq üçün şagirdlər bu fiqurların xassələrini, təsviri üsullarını, modellərini qurmağı bacarmalıdırlar ki, bu da ibtidai siniflərdə tədris edilən həndəsi materialların məzmununu ifadə edir.

Həndəsi materialların praktik məsələlərinin yerinə yetirilməsi gələcəkdə qurma məsələlərinin yerinə yetirilməsi vərdişlərini şagirdlərə aşılamaqla bərabər, yuxarı siniflərdə keçiləcək daha mürəkkəb həndəsi materialları dərk etməyə onlara imkan verəcəkdir.

**ƏDƏBİYYAT**

1. Alışov M.Ə. Kompüter təliminə ibtidai siniflərdən başlamalı // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1998, № 4
2. Həmidov S.S. İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası, Bakı,: ADNA, 2006.
3. Ковалева И.А. и Наумова Н.Е. Роль компьютера в формировании исследователских умений младших школьников / Всероссийская научно-практическая конференция. Санкт-Петербург, 2009.

## TARİXİN TƏDRİSİ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

**Gülnarə Tanqrıverdiyeva,**
*Bakı şəhəri Nərimanov rayonu 39 nömrəli məktəbin tarix müəllimi*
E-mail: gulnara-34@rambler.ru

***Açar sözlər:*** *innovasiyalar, təlim metodları, informasiya-kommunikasiya texnologiyaları, təlimin məzmun standartları*
***Ключевые слова:*** *инновации, методы обучения, информационные и коммуникационные технологии, содержательные статдарты обучения*
***Key words:*** *innovation, training methods, communication of information technology, content standards of training*

Müasir dövrdə xüsusi istedada malik olan şəxslərə tələb çox böyükdür. Bu dövrü səciyyələndirən yüksək texnologiyalar və elmi-texniki tərəqqi insanların yaradıcılıq qabiliyyətlərinə mühüm tələblər irəli sürür. Bu günün yaradıcı müəllimlərindən indi daha çox düzgün təhlil etmək, ümumiləşdirmə aparmaq, təsnif etmək, nəticə çıxarmaq, vaxtında və düzgün qərar qəbul etmək, proqnozlaşdırmaq kimi qabiliyyət və bacarıqlar tələb olunur.

Dövrün bu tələbi təhsil sistemi qarşısında yeni məqsədlər qoyur. Əvvəllər təhsilin məqsədi şagirdlərə fənlər və ya fəaliyyət sahələri üzrə müəyyən bilik, bacarıq və vərdişlər mənimsətmək idi. İndi təhsilin əsas vəzifələrindən biri insanlarda müasir dünyagörüşü, milli və ümumbəşəri dəyərlər, dövrün və şəraitin tələblərinə uyğun bacarıqlar formalaşdırmaqdır. Başqa sözlə, müasir təhsil sistemi qloballaşan dünyanın tələblərinə cavab verən rəqabətə davamlı, kamil bir şəxsiyyət formalaşdırmalıdır.

Bu gün məktəbdə təlim keyfiyyətinin yüksəldilməsi nəticəsində aşağıda göstərilən keyfiyyətlərə malik məktəb məzunlarının yetişdirilməsi mümkün ola bilər:

- dəyişən həyati situasiyalara çevik uyğunlaşan, vacib olan bilikləri müstəqil şəkildə əldə edən və onlardan müxtəlif problemlərin həllində bacarıqla istifadə edən və bununla da həyatda həmişə öz yerini tapmağı bacaran;

- müstəqil tənqidi düşünmə tərzinə malik, real həyatda yaranan problemləri görməyi və müasir texnologiyalardan istifadə edərək onların səmərəli həlli yollarını tapmağı bacaran;

- əldə olunan biliklərin harada və hansı yolla istifadə olunacağını dəqiq dərk

edən, yaradıcı düşünməyi bacaran;

- alınan məlumatla savadlı işləməyi, müəyyən problemlərin həlli üçün vacib olan, faktları toplamağı, onları təhlil etməyi, problemin həllinə dair fərziyyələr irəli sürməyi, lazımi ümumiləşdirmələr etməyi, müqayisələr aparmağı, uyğunluqları aşkar etməyi, dəlilli nəticələr çıxartmağı, yaranan problemləri müəyyən etməyi və həll etməyi bacaran;

- müxtəlif sosial qruplar arasında ünsiyyət yaratmağı, müxtəlif sahələrdə, vəziyyətlərdə birgə işləməyi, hər hansı bir konflikt vəziyyətindən çıxmağı bacaran;

Bütün sadalanan irəliləyişlərə nail olmaq üçün mən də bir tarix müəllimi kimi fəal çalışmaqdayam. Fənnimin mənə yaratdığı imkanların hüdudsuzluğu bu gün məktəb təliminin keyfiyyətinin yüksəldilməsindəki rolumu birə-beş artırır.

Deyilənlər bu günün məktəblilərinin təlimində mütləq nəzərə alınmalıdır. Şagirdlərin tədqiqatçılıq fəaliyyətini, təfəkkür proseslərini xüsusi təşkil edilmiş tədqiqatlara yönəltmək təlimin keyfiyyətinin yüksəlməsinə birbaşa şərait yaradır. Belə fəaliyyətdə onlar ətraf aləmin dərki prosesində çətinlik çəkməyəcəklər.

**ƏDƏBİYYAT**

Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi // Tarix və onun problemləri, 2008.

## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN NAXÇIVAN QRUPU DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İŞLƏDİLƏN XÜSUSİ ADLARDAN İSTİFADƏ İMKANLARI

**Əhruz Mahmudova,**
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail:e.mahmudova.64@mail.ru

***Açar sözlər:*** *Naxçıvan dialekti, fənndaxili əlaqə, dialekt və şivə*
***Ключевые слова:*** *Нахчыванский диалект, межпредметная связь, диалект и наречие*
***Key words:*** *Dialect of Nakhchivan, proper nouns, intersubject relations, dialect and accent*

Ana dili dərslərində tədris olunan geniş mövzulardan biri isimlə bağlıdır. Yəni tədris zamanı ismin məna kateqoriyası, hal kateqoriyası və kəmiyyət kateqoriyası və s. haqqında geniş elmi biliklər aşılanır. Xüsusi isimlərin tədrisi zamanı şagirdlər bəzən müəyyən qədər çətinliklərlə üzləşməli olurlar. Müəllim şagirdlərə ümumi və xüsusi isimləri öyrədərkən xüsusi və ümumi anlayışını möhkəmləndirmək məqsədi ilə hər bir ümumi isimin qarşısında onu təmsil edən xüsusi ismin verildiyi cədvəldən istifadə edir.

| | |
|---|---|
| **at** | **Qara kəhər** |
| **inək** | **Qızıl, Kəhrəba** |
| şəhər | Naxçıvan, Bakı |
| Buzov | Təpəl buzov, Şəkil buzov |

Şagirdlər verilmiş nümunədə xüsusi isimlər arasında işlənmis Təpəl buzov, Şəkil buzov ifadələri ilə tanış olarkən Təpəl, Şəkil sözlərinin mənasını anlaya bilmirlər. Yaxud da yaşadıqları regionda *bizav// bizo//buzou//bizoy //buzəği//sən buzəği* və s. kimi leksemlərlə tanışdırlar. Bunlar şagirdlərdə çaşqınlıq yaradır. Bilirik ki, hər bir bölgə və ya yaşayış məntəqəsinin mənsub olduğu dialekt və şivə xüsusiyyətləri var və bu da onların adət ənənəsi ilə bağlıdır. Bu leksemlər respublikanın kənd və rayonlarında yaranmış əhalinin dilində, yaşlı insanların yaddaşında, müxtəlif yazılı mənbələrdə qorunaraq uzun tarixi inkişaf yolu keçərək zəmanəmizə qədər gəlib çıxmışdır. Naxçıvan Muxtar Respublikasında yaşayan əhalinin dialekt və şivələrində dialektal səciyyə daşıyan belə sözlər çoxdur. Xüsusi isimləri tədris edərkən müəllim bu məsələlərə ustalıqla yanaşaraq fəndaxili əlaqə yaratmalıdır. O, şagirdlərə xüsusi isimləri mənimsətməklə yanaşı dialektlərdə işlədilən terminləri də izah edərək gündəlik həyatda eşitdikləri və müşahidə etdikləri sözlərə aydınlıq gətirməlidir. Dərs prosesində müəllim həmçinin ümumi (apelyativ) adların xüsusi adlara (onomastik vahidlərə) çevrilməsi prosesi haqqında şagirdlərə yeni məlumatlar verir. Bu da şagirdlərin marağına səbəb olur. Yuxarıda verilmiş cədvəldə ümumi heyvan məfhumunu bildirən isimlərin zoonimlərə çevrilməsi fəndaxili əlaqədən istifadə imkanlarını bir daha göstərir.

**ƏDƏBİYYAT**

1. Ə.Muxtaroğlu. Azərbaycan dilinin Şahbuz rayon şivələrinin leksikası. Bakı-Elm və təhsil-2013.

## ESSE ŞAGİRD YAZISI KİMİ

**Tərانə Mirzəyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail:Talisman.Shumer.13.69.91@gmail.com

***Açar sözlər***: *problemin mahiyyəti, ünsiyyət bacarıqları, mühakimə, təhkiyə manerası, intellektual təkamül, özünüifadə, yaradıcı temperament*
***Ключевые слова:*** *суть проблемы, коммуникативные умения, рассуждения, манера повествования, интеллектуальное развитие, самовыражение, творческий темперамент*
***Keywords:*** *the essence of the problem, communicative skills, reasoning, narrative style, intellectual development, self-expression, creative temperament*

Ümumtəhsil məktəblərində ana dili müəlliminin ilkin vəzifəsi şagirdlərə şifahi və yazılı bədii, elmi, sosial-mədəni və işgüzar mətnlər tərtib etməyi öyrətməkdən ibarətdir. Ünsiyyət səriştələrinin formalaşdırılmasının, rabitəli nitqin inkişaf etdirilməsinin əsas vasitəsi yazı işləridir. Yazı işi müəllimə şagirdlərin gözünü dünyaya açmaq, onların ruhunu, hissini və təfəkkürünü inkişaf etdirmək üçün böyük imkanlar açmaqla yanaşı, şagirddən də bütün daxili qüvvələrini səfərbər etməyi tələb edir ki, bu da onun sonrakı intellektual və mənəvi təkamülü üçün zəmin yaradır. Məhz bu zaman yaradıcı təfəkkür işə düşür, dərindən düşünmə, mənimsənilmiş materialın analiz və sintezi baş verir ki, bu da şagirddə tədricən ünsiyyət bacarıqlarının formalaşmasına gətirib çıxarır.

Bir çox müasir tədqiqatçılar esse yazı formasını ünsiyyət bacarıqlarının inkişafı üçün ən müvafiq vasitə hesab edirlər. Rus tədqiqatçısı N. L. Karnaux yazır: “ Son illərdə ... proqramlara, müasir dərslik və dərs vəsaitlərinə şəxsiyyətin özünüifadəsinə və mənəvi imkanlarının yüksək dərəcədə açılmasına kömək edən ən təsirli janrlar daxil edilir ki, bunlardan biri də esse yazı formasıdır. ”

Şagird yazısı esse müəllimin təklif etdiyi mövzu üzrə şagirdin sərbəst yazı işidir( mövzu şagird tərəfindən də verilə bilər, ancaq mütləq müəllimlə razılaşdırılmalıdır.). Essenin məqsədi müstəqil yaradıcı təfəkkürün və şəxsi fikirlərin yazılı təqdimatı bacarıqlarının təkmilləşdirilməsidir. Adi inşadan fərqli olaraq, bu yazı növü şagirdin fərdi özünəməxsusluğunu, intellektual inkişaf səviyyəsini, müstəqil düşüncə qabiliyyətini, qarşılaşdırma, müqayisə etmə bacarığını daha aydın şəkildə açıb göstərir. Esse yazmaq şagirdin fikirlərinin dəqiq, doğru ifadə olunması, informasiyadan səmərəli istifadə, səbəb - nəticə əlaqələrinin müəyyən edilməsi, anlayışların müvafiq misallarla verilməsi, nəticələrin sübut edilməsi, nitqin elmi üslubuna bələd olmaq baxımından çox əhəmiyyətlidir.

Essenin yazdırılmasına hazırlıq bir neçə mərhələdə aparıla bilər:

**1.** Başlanğıc mərhələ: esse janrı ilə tanışlıq.

Bu mərhələdə şagirdlər müstəqil fəaliyyət nəticəsində öz səyləri ilə janr və onun xarakterik xüsusiyyətləri haqqında yeni biliklər əldə edirlər. Mürəkkəb problemli situasiyanın həllinin araşdırılması prosesində müəllim tərəfindən onlara yalnız yönəldici kömək göstərilib düzəlişlər aparıla bilər.

**2**. Əsas mərhələ: esse nümunələrinin təhlili və müzakirəsi.

Bu mərhələdə essenin müxtəlif növləri( bədii, ədəbi-tənqidi, tarixi, fəlsəfi və s.) üzərində işin aparılması məqsədəuyğundur. Mətn izahlı şəkildə oxunaraq adının mənası, kompozisiyası, dil, üslub və janr xüsusiyyətləri, təhkiyə manerasının spesifik cəhətlərinin müzakirəsi təşkil oluna bilər, müxtəlif müəlliflərin eyni mövzuda yazılmış esselərinin müqayisəsi aparıla bilər.

3. Yekun mərhələsi: qazanılmış biliklərin təcrübəyə tətbiqi.

Bu mərhələdə müstəqil şəkildə əldə olunmuş yeni biliklər təcrübədə reallaşdırılır. Şagirdlər reklam, məktub, oçerk, rəy, çıxış və s. kimi kiçik yazı növlərindən başlayaraq, tədricən müəyyən bir mövzunu əhatə edən öz şəxsi esselərini yazırlar.

Esse qoyulmuş problemin mahiyyətinin dəqiq təqdimatını, o cümlədən, onun müstəqil şəkildə aparılmış təhlilini və ümumiləşdirilmiş müəllif mövqeyini əks etdirməlidir.

Essenin planı aşağıdakı kimi tərtib oluna bilər:

**1. Giriş.** Bu hissə verilmiş mövzunun mahiyyəti və əsaslandırılmasını özündə əks etdirən məntiqi və üslubu cəhətdən əlaqələndirilmiş bir neçə tərkib hissədən ibarət olur.

**2. Əsas hissə** essenin bütün məzmununu, problemin nəzəri əsaslarını, əsas sualın qoyuluşunu əhatə etdiyindən nisbətən daha çətin hesab edilir.

**3. Nəticə.** Ümumiləşdirmələr və dəlillərlə təsdiqlənmiş həqiqətlərdən ibarət olan bu hissə sanki mövzuya yekun vurur, onu bir növ bağlayır, mənaya bir daha aydınlıq gətirir, əsas hissədə bəyan olunmuş məğzi daha da möhkəmləndirir.

Esse yazının qiymətləndirilməsi meyarlar üzrə aparılmalıdır. Formadan asılı olaraq bu meyarlar dəyişilə bilər. İlkin təcrübələr göstərir ki, aşağıdakı meyarlardan istifadə etmək məqsədəuyğundur:

1. Həcm yığcamlığı; 2. Verilmiş mövzuda müstəqil mühakimə yürütmə bacarığı, nəqletmə sərbəstliyi; 3. Fikrin dəqiq, düzgün və obrazlı ifadəsi; 4. Problemin dərk və qəbul olunmasında şəxsi mövqe; 5. Aktuallıq, orijinallıq, şəffaflıq; 6. Quruluş sərbəstliyi; 7. Daxili məna bütövlüyü; 8. Aydın düşüncə tərzi; 9. Abzasların əlaqələndirilməsi, məntiqi bağlılıq; 10. Bədii-yaradıcı vasitələrdən istifadə; 11. Mükalimənin danışıq intonasiyası və nitqi üzərində qurulması; 12. Savadlılıq; 13. İşin müstəqil yerinə yetirilməsi.

Beləliklə, şagirdin özünüifadəsi, yaradıcı "mən"inin uğurlu və birbaşa realizəsi baxımından essenin mobil imkanları bu yazı növünü şəxsiyyətin ifadə forması kimi təqdim edir. Müəllifinin mənəvi dünyasını, hisslər aləmini və yaradıcı temperamentini aşkara çıxarmaqda söz sənətinin bütün imkanları bu janrda asanlıqla səfərbər olunur.

**ƏDƏBİYYAT**

1. Методические рекомендации по написанию эссе. Государственный Университет Высшая Школа Экономики Санкт- Петербургский филиал. СПб., 2005.

2. Карнаух Н.Л., Щербина И.В. Письменные работы по литературе. 9-11 кл. М.: Дрофа, 2003.

3. Скиргайло Т. О. Методика обучения работе над сочинениями нетрадиционных жанров: пособие для учителей. М.: ООО «ТИД « Русское слово – РС» , 2004..

5. http://www.library.novouralsk.ru/recomends-esse.html

## AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ İKT VƏ FƏNLƏRARASI ƏLAQƏ TƏCRÜBƏSİNDƏN

**İlqar Abdullayev,**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK-nın tarix müəllimi,*
**Ramil Tanrıverdi,**
*Bakı şəhəri, Səbail rayonu, 16 nömrəli tam orta məktəbin tarix müəllimi*
E-mail: ilqar.heyderoglu@mail.ru

***Açar sözlər:*** *şəxsiyyət, vətəndaş, təhsil, inteqrasiya, İKT*
***Ключевые слова:*** *личность, гражданин, образование, интеграция, ИКТ*

***Key words:*** *personality, citizen, education, inteqration, ICT*

Ulu öndərimiz Heydər Əliyev cənabları Azərbaycan təhsilindən danışarkən onun başlıca məqsədini belə ifadə etmişdir: "İndi bizim təhsilimizin başlıca məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.

Şəxsiyyətin, vətəndaşın yetişdirilməsi Azərbaycan təhsilinin cövhərini təşkil etdiyindən deməliyik ki, bu işdə biz təhsil işçilərinin, müəllimlərin üzərinə xüsusilə böyük məsuliyyət düşür. Belə ki, şagirdlərin yetişdirilməsində, onların dünyagörüşünün formalaşdırılmasında hər bir müəllimin müstəsna dərəcədə böyük rolunun olması heç kəsə sirr deyil. Bu baxımdan deməliyik ki, onların geniş dünyagörüşünün, dərin səviyyələrinin formalaşdırılmasında fənlərarası əlaqənin, lazım olan məqamlarda İKT-dən rasional şəkildə istifadənin çox böyük rolu vardır.

Bu baxımdan deməliyik ki, tarix, ədəbiyyat, coğrafiya, eləcə də bir çox dəqiq fənlərdə (kimya, fizika və s.) fənlərarası əlaqənin şagirdlərin geniş dünyagörüşünün formalaşması, onların insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət kimi yetişməsində müstəsna dərəcədə böyük rolu vardır.

Belə ki, VII sinifdə "Azərbaycan tarixi" dərslərində Ərəblərin Azərbaycana hücum edərək bu yerləri işğal etməsindən danışarkən müəllimin bu mövzuları ədəbiyyatla da əlaqələndirmək imkanı olur. Məsələn, burada müəllim aşağıdakı atalar sözləri ilə tarixdən dediklərini möhkəmlədə bilər:

Ərəb hara, corab hara;
Ərəb öldü, qan düşdü;
Ərəb özü öz qanını içməsə doymaz,
Ərəbin qılıncı iki yanlı olar.

Bundan başqa, bu fənlərdən müxtəlif mövzuları keçərkən lazımi məqamlarda İKT – dən istifadə etmək də çox müsbət rol oynayır. Məsələn, VIII siniflərdə "Azərbaycan tarixi" dərslərində "Qaraqoyunlu" və "Ağqoyunlu" mövzularını keçərkən kompüterin proyektoru vasitəsi ilə lövhədə Qaraqoyunlulara və Ağqoyunlulara aid görüntüləri lövhədə şagirdlərə göstərirəm ki, bu da onların haqqında söz gedən mövzu ilə daha yaxından və daha dərindən tanış olmalarına səbəb olur. Ən əsası odur ki, bu zaman hər iki dövlətin sərhədləri lövhədə göstərildiyindən şagirdlər həm də bu ölkələrin konkret olaraq harada yerləşmələrini də incəliklərinə qədər öyrənirlər. Bu isə artıq həm də coğrafiya ilə fənlərarası əlaqəyə sübutdur.

Bəli, Azərbaycan təhsilinin prioritetləri haqqında danışarkən bir daha deməliyik ki, biz müəllimlər üçün ən əsas məqsəd vətənpərvər, milli dəyərlərə hörmət edən, öz xalqını, millətini alovlu bir məhəbbətlə sevən şagirdlər yetişdirməkdir. Bu işi həyata keçirmək üçün isə həddindən artıq çox üsullar vardır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün dərslik. Bakı: Təhsil, 2009.
2. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün dərslik. Bakı: Aspoliqraf, 2007.

## AZƏRBAYCAN TARİXİ VƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İKT VƏ FƏNLƏRARASI ƏLAQƏ TƏCRÜBƏSİNDƏN

**Elmin İmanov,**
*Bakı şəhəri Səbail rayonu, 6 №-li tam orta məktəbin tarix müəllimi, "İlin müəllmi" müsabiqəsinin ikiqat qalibi.*
**Könül Həsənova,**
*Bakı şəhəri Nərimanov rayonu, MLK -nın ingilis dili müəllimi*
E-mail: ilqar.heyderoglu@mail.ru

***Açar sözlər:*** *inteqrasiya, kompüter, internet, təhsil, İKT*
***Ключевые слова:*** *интеграция, компьютер, интернет, образование, ИКТ*
***Key words:*** *inteqration, computer, internet, education, ICT*

Ulu öndərimiz Heydər Əliyev cənabları təhsil haqqında danışarkən demişdir: "Təhsil millətin gələcəyidir". Bəli, deyilən fikirlə razılaşmamaq olmaz. Belə ki, yüksək səviyyədə təhsili olmayan xalq hazırkı – bəzilərinin "kompyuter", bəzilərinin "internet", bəzilərinin isə "elm, texnika" adlandırdığı bir dövrdə müvəffəqiyyət qazana bilməz. Hazırda ən yüksək səviyyədə inkişaf etmiş xalqların keçdikləri inkişaf yoluna nəzər salsaq onların da əvvəlcə təhsili hədəf seçmələrinin şahidi olarıq. Bu baxımdan Möhtərəm Prezidentimizin "hazırkı dövrdə hər şeyi elm, bilik, savad həll edir" sözləri tamamilə yerinə düşür. Belə ki, yaşadığımız dövrdə işlətdiyimiz məişət cihazları, habelə orduda olan kompyuter texnikasına əsaslanan ən yeni silahlar hamımızdan texnikanı, ingilis dilini, tariximizi bilməyi tələb edir.

Şagirdlərin alovlu vətənpərvər olmaları üçün onların Vətən tarixini kifayət qədər yaxşı bilmələri, qəhrəmanlıq tarixinə bələd olmaları, xalqımızın ayrı – ayrı qəhrəmanlarının həyatını dərindən öyrənmələri çox mühüm əhəmiyyət kəsb edir. Ona görə də dərslərdə Babəkin, Şah İsmayılın, Uzun Həsənin, Koroğlunun, Nadir şahın, Qaçaq Nəbinin, Qaçaq Kərəmin, Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Mübariz İbrahimovun, Etibar İsmayılovun və s. kimi qəhrəmanlarımızın həyatından müvafiq misalların çəkilməsi, onlarla əlaqədar olan mövzuların daha dərindən tədris edilməsi və s. kimi amillər şagirdlərdə vətənpərvərlik hisslərinin yaranmasında xüsusilə mühüm rol oynayır.

Hazırkı dövrdə təhsildə prioritet məsələlərdən biri də fənlərarası əlaqədir. Fənlərarası əlaqələrdən danışarkən tarix və ingilis dili fənləri arasında müvafiq əlaqələrin yaradılması xüsusilə mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Belə ki, Azərbaycanın dünyaya getdikcə daha geniş miqyasda inteqrasiya etdiyi müasir dövrdə şagirdlər üçün hər iki fənnin əhəmiyyəti gündən – günə artır. Ona görə də tarix dərslərində, məsələn, İngiltərə tarixi ilə əlaqədar mövzunun tədrisi zamanı "digger"lər, "leveler"lər haqqında danışılarkən onların ingilis sözləri olan "digger" – "yer qazan" və "to level" – "bərabərçilər" sözündən götürüldüyünü göstərmək  yerinə düşər. Belə ki, bu zaman şagirdlər həm tarix fənnində işlənən termini, həm də ingilis dilində sözü öyrənmiş olur. Tədrisdə İKT – dən istifadə etmək də prioritet məsələlərdəndir. Belə ki, haqqında söz gedən ifadə və terminlərin aid olduqları mövzuların tədrisi zamanı komyuterin proyektoru vasitəsi ilə lövhəyə müvafiq görüntülərin gətirilməsi çox səmərəli rol oynayardı. Belə ki, şagirdlər haqqında söz gedən terminlərə aid görüntüləri lövhədə görərkən onları daha yaxşı və uzun müddətə yadlarında saxlayırlar. Bütün yuxarıda göstərdiklərimiz müasir yanaşmalara nümunələrdir. Amma, əlbəttə, bunların sayını daha da çoxaltmaq olar. Şübhəsiz ki, bu zaman müəllimdən əsas tələb olunan cəhət onun ayrı – ayrı mövzulara daha yaradıcı şəkildə yanaşmasıdır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin VIII sinfi üçün dərslik. Bakı: Aspoliqraf, 2007. 208 səh.
2. Yeni tarix: Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. Bakı: Kövsər, 2011.

## GƏNCLƏRİN ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIĞI VƏ BİOLOGİYA DƏRSLƏRİNDƏ FƏNLƏRARASI ƏLAQƏ TƏCRÜBƏSİNDƏN

**Məlahət Məmmədova,**
*Bakı şəhəri, 132-134 nömrəli təhsil kompleksinin biologiya müəllimi*
**Vasif Piriyev,**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK- nın Gənclərin çağırışaqədərki hazırlığı müəllimi*
E-mail: ilqar.heyderoglu@mail.ru

***Açar sözlər:*** *təhsil, şagird, kompüter, mikroblar, tank*
***Ключевые слова:*** *образование, ученик, компьютер, микробы , танк*

***Key words:*** *education, student,communication, microbe, tank*

Möhtərəm prezidentimiz öz çıxışlarında dəfələrlə bildirmişdir: "İndi biz neft kapitalımızı insan kapitalı ilə əvəz etməliyik ". Əlbəttə, hazırkı dövrdə - yaxın keçmişdə çiçəklənən, inkişaf etmiş bir çox Yaxın Şərq ölkələrinin qan çanağına döndüyü hazırkı dövrdə bu sözlərin doğruluğu qətiyyən şübhə doğurmur. Belə ki, hazırda təhsilin bütün ölkələr üçün ən vacib və mühüm rol oynaması hamıya tam aydındır. Ulu öndərimiz isə təhsil haqqında demişdir: "Təhsil millətin gələcəyidir". Bəli, etiraf etməliyik ki, gələcəkdə Azərbaycanımızın nə dərəcədə güclü, qüvvətli, inkişaf etmiş vəziyyətdə olması bu gün parta arxasında oturan şagirdlərin bilik və bacarıqlarından bir başa asılıdır. Şagirdlərimizin daha savadlı və bilikli, geniş dünya görüşlü olmaları üçün fənlərarası əlaqənin çox böyük və mühüm rolu şəksizdir. Bu baxımdan biologiya və gənclərin çağırışaqədərki hazırlığı fənləri arasında fənlərarası əlaqənin şagirdlərin dünyagörüşünün və biliklərinin zənginləşməsi üçün çox böyük və mühüm rolu vardır.

Belə ki, şagirdlər biologiya fənnində ayrı – ayrı bakteriyalar, viruslar haqqında müxtəlif biliklərə yiyələnirlər. Gənclərin çağırışaqədərki hazırlığı fənnində isə döyüş meydanında yaralanan yaralının yarasına mikrobun düşməməsi, əgər düşərsə onun dərhal neytrallaşması üçün spirtlə təmizlənməsi, tənziflə bağlanmasının vacib əməllərdən olması şagirdlərə izah olunur. Şagirdlərin belə vərdişlərə malik olmaları üçün isə onların biologiya dərslərində spirtin, eləcə də digər dezinfeksiyaedici maddələrin yaraların iltihabının aradan qaldırılması üçün necə böyük rol oynaması haqqında şagirdlərə ətraflı məlumat verilir.

Yuxarıda qeyd edilən bakteriya və virusların şagirdlərin daha yaxşı qavramaları üçün onlar haqqında danışılan zaman onların kompüter və proyektor vasitəsi ilə lövhədə görüntülərinin göstərilməsi, onların tərkib hissələrinin ayrı-ayrı rəqəmlərlə göstərilməsi xüsusilə əhəmiyyətlidir. Belə ki, bu zaman bakteriyaların tərkib hissələrinin lövhədə göstərilməsi şagirdlər üçün əyani rol oynayır. Təbiidir ki, belə əyanilik şagirdlərin haqqında söz gedən bakteriya və viruslar haqqında daha zəngin təsəvvürə malik olmalarına səbəb olur.Bundan başqa Gənclərin çağırışaqədərki hazırlığı dərslərində kompüter və proyektor vasitəsi ilə tankın ən zəif yerlərinin görüntülərinin lövhədə göstərilməsi də şagirdlərin bu mövzu haqqında daha zəngin təsəvvürə malik olmalarına səbəb olur. Belə ki, tankın ən zəif yerlərinin bir-bir rəqəmlərlə göstərilməsi şagirdlərin bu məsələlər haqqında daha zəngin təsəvvürə malik olmalarına imkan yaradır.Eləcə də minanın, müxtəlif silahların (avtomatların, pulemyotların müxtəlif növlərinin)en kəsiklərinin "ağıllı lövhə "də göstərilməsi şagirdlərin adı çəkilən obyektlər haqqında biliklərinin artmasına səbəb olur.Göstərməliyik ki, yuxarıda göstərilən yanaşma növləri, fənlərarası inteqrasiya şagirdlərin biologiya və gənclərin çağırışaqədərki hazırlığı fənlərində ayrı-ayrı mövzuları daha yaxşı mənimsəmələrinə və uzun müddətə yadlarında saxlamalarına səbəb olur.

## ƏDƏBİYYAT

1. Biologiya: Ümumtəhsil məktəblərinin VI sinfi üçün dərslik. Bakı, 2013.
2. Gənclərin çağırışaqədərki hazırlığı: Ümumtəhsil məktəblərinin X sinfi üçün dərslik. Bakı, 2014.

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İTK VƏ FƏNLƏRARASI ƏLAQƏ TƏCRÜBƏSİNDƏN

**Lalə Məhərrəmzadə,**
E-mail: ilqar.heyderoglu@mail.ru
**Zəminə Əsədova,**
*Bakı şəhəri Nərimanov rayonu MLK- nın ingilis dili müəllimləri*
E-mail: ilqar.heyderoglu@mail.ru

***Açar sözlər:*** *elm, ingilis dili, tarix, digger, Trafalqar meydanı*
***Ключевые слова:*** *наука, английский язык, история, диггеры, площадь Трафальгарская площадь*
***Key words:*** *science, English, history, digger*

Məhəmməd peyğəmbər (s. a.) elm, bilik haqqında demişdir: "Hər kəsin dəyəri onun savadı, biliyi qədərdir". Düşünürəm ki, söylənilən fikir elmin, biliyin, savadın nə dərəcədə vacib və mühüm şərt olduğunu çox düzgün səciyyələndirir. Bu baxımdan müstəqillik yollarında inamlı addımlarla irəliləyən doğma Azərbaycanımızın da sabahı bugünkü şagirdlərimizin bilik və təhsilindən bir başa asılıdır. Hazırda dünya miqyasında baş verən hadisələri – yaxın keçmişdə çiçəklənən, neftlə zəngin bir çox Yaxın Şərq ölkələrinin qan çanağına dönməsini, əhalisinin böyük əksəriyyətinin qaçqına dönməsini düşündükdə bu günkü şagirdlərimizin təhsilinin son dərəcədə mühüm rol oynadığına bir daha əmin oluruq. Təsadüfi deyildir ki, Möhtərəm Prezidentimiz özünün bir çox çıxışlarında dəfələrlə bildirmişdir ki, biz öz neft kapitalımızı insan kapitalına çevirməliyik. Şagirdlərimizin nə dərəcədə savadlı və bilikli olması isə şübhəsiz ki, keçdiyimiz dərslərin səmərəsindən, keyfiyyətindən bir başa asılıdır. Dərslərimizin keyfiyyəti isə şübhəsiz ki, təhsilimizin prioritetləri – müasir yanaşmalardan, fənlərarası əlaqələrdən, İ K T – dən nə dərəcədə səmərəli istifadə etməyimizdən bir başa asılıdır. Fənlərarası əlaqələrdən danışarkən deməliyik ki, VI siniflərdə İngiltərənin paytaxtı Londonun mərkəzindəki "Trafalqar meydanı" mövzusunu keçərkən onun adının necə yaranması haqqında şagirdlərə suallar vermək yerinə düşərdi. Belə ki, bu zaman şagirdlər Trafalqar meydanının İngilis ordusunun 1805 – ci ildə Hapoleon donanması üzərində qazandığı tarixi qələbə ilə əlaqədar olaraq yarandığını öyrənirlər. Şübhəsiz ki, bu zaman şagirdlərin tarix və ingilis dili dərslərində öyrəndikləri biliklər fənlərarası əlaqənin həyata keçirilməsinə əlverişli imkan yaradır.

Yaxud, IX siniflərdə "Digger" (yer qazan) sözünü keçərkən onu şagirdlərin daha yaxşı başa düşmələri üçün bu sözü onların "İngiltərə burjua inqilabı" mövzusunu keçərkən də işlətdiklərini bildirmək yerinə düşər. Belə ki, 1642 – 1646 – cı illərdə İngiltərə burjua inqilabından danışılarkən Kromvelin Kral qoşunları üzərindəki qələbəsindən sonra bir qrup adamın Londonun kənarındakı torpaqları özbaşına "qazma"sından danışılır. Lakin bu zaman "qazma" dedikdə dərə qazmaq yox, torpağın sərhədi, çəpəri mənasında başa düşülməlidir. "Digger" sözünü dediyimiz mənada, yəni "çəpər" mənasında şagirdlərə dedikdə onlar bu sözün mənasını daha yaxşı başa düşür və təbii ki, uzun müddətə yadlarında saxlayırlar.

Uzun illərin təcrübəsi göstərir ki, dərslərdə İ K T – dən istifadə etmək də çox müsbət rol oynayır. Məsələn, yuxarıda haqqında danışdığımız "Trafalqar meydanı" haqqında danışdıqda kompüterin proyektoru vasitəsi ilə lövhədə Londonu, onun mərkəzindəki "Trafalqar meydanı"nın görüntüsünü göstərmək çox səmərəli olardı. Belə ki, bu zaman şagirdlər "Trafalqar meydanı"nın görüntüsünü lövhədə gördükdə bu, onların daha uzun müddət ərzində yadlarında qalmasına səbəb olar.

Bundan başqa Azərbaycana aid mövzulardan – Mingəçevirdəki sənaye müəssisələri haqqında danışılarkən – bu şəhərin görməli yerlərinin görüntüsünün kompüterin proyektoru vasitəsilə lövhədə göstərilməsinin də çox müsbət rol və əhəmiyyəti olardı. Belə ki, bu da şagirdlərin tədris edilən materialı daha yaxşı mənimsəmələrinə və uzun müddətə yadlarında saxlamalarına səbəb olardı.

## ƏDƏBİYYAT

1. İngilis dili: V siniflər üçün dərslik. Bakı: Aspoliqraf, 2014.
2. Yeni tarix: VIII siniflər üçün dərslik. Bakı: Çaşıoğlu, 2015

# PEDAQOJİ PROSESDƏ TƏLİMİN QANUN VƏ QANUNAUYĞUNLUQLARININ NƏZƏRƏ ALINMASININ KEYFİYYƏTƏ TƏSİRİ

**Hürü Kərimova,**
*Gəncə Dövlət Universitetinin müəllimi*
E-mail: shako_85@ mail.ru

***Açar sözlər:*** *təlimin qanunu, təlimin qanunauyğunluqları, pedaqoji proses, təlim keyfiyyəti, mənimsəmə, təlim ziddiyyətləri*

***Ключевые слова:*** *законы обучения, закономерности обучения, педагогический процесс, эффективность обучения, усвоение, противоречия обучения*

***Key words:*** *law of education, legality of education, pedagogical process, quality of education, appropriation, contradiction of education*

Təlim prosesində müxtəlif xarakterli ziddiyyətlərin meydana gəlməsi, onların xarakterinin müəyyən edilməsi və ziddiyyətlərin aradan qaldırılması həmişəyaşar köklü problemlərdən biridir. Pedaqoji prosesdəki ziddiyyətlərin mahiyyətinin tam açılması, onun düzgün elmi izahı, bütün pedaqoji prosesin əsasını təşkil edən qanunauyğunluqların və müvafiq qanunların aşkar edilərək dəqiq ifadə olunması, müəyyənləşdirilmiş və isbat olunmuş qanunauyğunluqların və qanunların pedaqoji prosesdə ustalıqla nəzərə alınması pedaqoji elmin bütün nəzəri və praktik məsələlərinin müvəffəqiyyətli həlli üçün xüsusi əhəmiyyət daşıyır.

Nəzəriyyədən məlumdur ki, pedaqoji prosesin qanunauyğunluqları və qanunlarının elmi cəhətdən izah və ifadə olunması pedaqoji proses zamanı onlardan səmərəli istifadə etməyin vacib və başlanğıc şərtidir. Tədqiqatdan aydın oldu ki, bir sıra pedaqoji ədəbiyyatda “pedaqoji prosesin qanunauyğunluqları” məfhumu qeyri-dəqiq və çətin başa düşülən formada həm izah olunur, həm də ona nümunələr gətirilir. Məsələn, prof. N.M. Kazımovun qeyd etdiyi kimi, İ.P. Podlasının “Pedaqogika” (M., 2000) adlı dərs vəsaitində “Pedaqoji prosesin dinamikliyi”, “Pedaqoji prosesin şərtlənməsi” və s. kimi qanunauyğunluqların adları çəkilir. Lakin onların mənası, yəni səbəb-nəticə əlaqələrinin mahiyyəti konkret olaraq açılmır, izah edilmir. (1, 52-53) Bu səpgidə yazılmış bir sıra tədqiqat işləri və pedaqogika üzrə dərs vəsaitləri də vardır. Belə xarakterli yazılar pedaqoji prosesin aparıcılarında, tərbiyəçi-müəllimlərdə çaşqınlıq yaranmasına gətirib çıxarır, pedaqoji prosesin qanunauyğunluğunun (müvafiq olaraq qanunun) həm qeyri-dəqiq ifadəsinə, həm də onun mənasının anlaşılmazlığına səbəb olur, qanunauyğunluğun düzgün və səmərəli nəzərə alınma imkanlarını məhdudlaşdırır.

Pedaqogika nəzəriyyəsindən o da məlumdur ki, pedaqogika müntəzəm olaraq həm bir elm kimi, həm də bir tədris fənni kimi tədqiq edilib öyrənilir. Ona görə də pedaqoji ədəbiyyatda qanunauyğunluqlar haqlı olaraq pedaqoji elmin və pedaqoji prosesin qanunauyğunluqlarına ayrılır. Şübhəsiz, tədqiqatçı-pedaqoq alimlər bunların hər ikisinin mahiyyətini və onları fərqləndirən başlıca əlamətləri düzgün bilməli, aydın ifadə etməyi və yeri gəldikdə onu yerində nəzərə almağı bacarmalıdır.

Orta ümumtəhsil məktəblərinin müəllimləri, o cümlədən ibtidai sinif müəllimləri pedaqoji prosesin həm ümumi, həm də ayrılıqda təlimin və tərbiyənin qanunauyğunluqlarının mahiyyətini və fərqli cəhətlərini dəqiq bilməli, tədris fənnindən və mövzunun xarakterindən asılı olaraq onların düzgün nəzərə alınmasını bacarmalıdır. Pedaqoji prosesin ümumi qanunauyğunluqları ayrılıqda həm təlim, təhsil, tərbiyə və psixoloji inkişafı əhatə etməklə yanaşı, həm də onların ümumi vəhdətinə də aid olur. Çünki təlim, təhsil, tərbiyə və psixoloji inkişaf vahid pedaqoji prosesi əmələ gətirir, bir-birinin inkişafını şərtləndirir.

Orta ümumtəhsil məktəblərinin ibtidai siniflərindəki uzunmüddətli iş təcrübəmiz və müşahidələrimizdən o da aydın olur ki, pedaqoji prosesin qanunauyğunluqları və qanunları ilə bağlı müəllimlərimizin böyük bir qisminin nəzəri bilikləri hədsiz zəifdir. Onların da bəziləri pedaqoji prosesin qanunauyğunluqları və qanunu terminlərinin adını söyləsələr də, lakin onların təsnifatı, qanunauyğunluqların mahiyyəti haqqında aydın məlumat verə bilmirlər. Apardığımız sorğunun nəticəsi isə göstərdi ki, qanunauyğunluqlar haqqında elementar məlumatı olan müəllimlər də pedaqoji prosesin səmərəliliyinin yüksəldilməsi işində təlimin qanun və qanunauyğunluqlarının əhəmiyyətindən, imkan və yollarından xəbərsizdir. Bunun da başlıca səbəbi orta ümumtəhsil məktəblərində pedaqoji prosesin gedişi zamanı təlimin qanun və qanunauyğunluqlarının nəzərə alınması probleminin konkret olaraq tədqiqata cəlb olunmamasındadır. Bunlar isə onu göstərir ki, pedaqoji prosesin səmərəliliyinin artırılması məqsədi ilə təlimin qanun və qanunauyğunluqlarından istifadənin imkan və yollarının araşdırılmasına, onların aşkar edilməsinə və elmi-nəzəri cəhətdən əsaslandırılmasına, məktəbdə pedaqoji prosesin bu istiqamətdəki ehtiyacını ödəməyə böyük tələbat var.

**ƏDƏBİYYAT**

1. Kazımov N.M. Məktəb pedaqogikası: Dərslik. Bakı, OKA Ofset, 2009.
2. Abbasov A.N. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
3. Sadıqov F.B. Pedaqogika (Dərs vəsaiti). Bakı: Adiloğlu, 2012.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika: Dərslik. Bakı: Çaşıoğlu, 2012.

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ İKT VƏ FƏNLƏRARASI ƏLAQƏ TƏCRÜBƏSİNDƏN

**Vəfa Fərmanlı,**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK-nın dil-ədəbiyyat müəllimi.*
**Ayna Səfərəliyeva,**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK-nın dil-ədəbiyyat müəllimi.*
E-mail: ilqar.heyderoglu@mail.ru

***Açar sözlər:*** *ədəbiyyat, tarix, inteqrasiya, konsepsiya, İKT*
***Ключевые слова:*** *литература, история, интеграция,концепция, ИКТ*
***Key words:*** *literature, history, inteqration, conception (idea), ICT*

Ulu öndərimiz Heydər Əliyev təhsil haqqında danışarkən demişdir: "Təhsil millətin gələcəyidir". Bəli, deyilən fikirlə razılaşmamaq çətindir. Belə ki, hazırda ən yüksək səviyyədə inkişaf etmiş, dünyanın aparıcı ölkələrinin tarixinə nəzər salsaq onların da ilk əvvəllərdən təhsili hədəf götürmələrinin şahidi olarıq. Möhtərəm Prezidentimiz İlham Əliyev də çıxışlarında dəfələrlə bildirmişdir: "Müasir dünyada hər şeyi elm, bilik, savad, təhsil həll edir." Ölkəmizin bütün istiqamətlərdə perspektiv inkişaf istiqamətini müəyyənləşdirən "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının 2012 – ci ildə qəbul olunması bu zərurətin təzahürü kimi diqqəti cəlb edir. Konsepsiyada göstərilir: "...artıq indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir".

İnsan kapitalının inkişaf etdirilməsində təhsil əvəzsiz rola malik olduğundan Konsepsiyada "Yeni təhsil sisteminin formalaşdırılması" əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Yeni təhsil sisteminin formalaşdırılmasından danışarkən isə burada əsas prioritetlərin – müasir yanaşmaların ön planda olduğunu ayrıca qeyd etməliyik. Müasir yanaşmalardan danışarkən isə ayrı – ayrı fənlər arasında inteqrasiya xüsusilə diqqəti cəlb edir. Belə ki, kurikulumun tələblərinə görə də fənlərarası inteqrasiya ən mühüm amillərdən biridir. Deməliyik ki, ədəbiyyat və tarix fənləri arasında fənlərarası inteqrasiya üçün çox böyük imkanlar vardır.

Məsələn, VI sinifdə ədəbiyyat dərslərində "Kitabi Dədə Qorqud" dastanını keçərkən erməni və gürcü feodallarının Bizansın fitnəkarlığı ilə Azərbaycana hücumundan danışarkən müvafiq fraqmentləri kompüterin proyektoru vasitəsi ilə lövhədə göstərilməsi çox faydalı olardı. Belə ki, bu zaman şagirdlər həm tarix, həm də ədəbiyyat fənlərindən müvafiq biliklərə malik olmaqla yanaşı, öyrəndiklərini lövhədə də əyani şəkildə görərlər ki, bu da onlara gördüklərini uzun müddətə yadlarında saxlamağa imkan verər.

Qeyd olunmalıdır ki, bu zaman müəllim həm də fənlərarası inteqrasiyanı həyat keçirmiş olar ki, bu da hazırda kurikulum tələblərinə görə ən önəmli amillərdən hesab olunur.

VII siniflərdə "Hacı Zeynəlabdin Tağıyev" mövzusunu keçərkən ağıllı lövhədə Tağıyevin Bakıda tikdirmiş olduğu müxtəlif binaları – Azərbaycanda ilk dəfə tikilən qız məktəbini, hazırda Azərbaycan Tarixi muzeyini, Bakının su problemini həll etmək üçün buraya çəkilən Şollar suyunu və s. göstərmək çox faydalı olardı. Belə ki, bu zaman Azərbaycan təhsilinin prioritetlərindən olan həm fənlərarası inteqrasiyaya, həm də dərsdə İKT-dən məqsədəuyğun istifadəyə nail olmaq olar. Belə metodun faydalı cəhəti əsasən onunla izah olunur ki, bu zaman şagirdlər oxuyub – eşitdiklərini əyani şəkildə lövhədə də görürlər. Bu isə onlara öyrəndiklərini uzun müddətə yadlarında saxlamağa imkan verir.Bəli, Azərbaycan təhsilində müasir yanaşmaların çoxlu səmərəli növləri vardır. Əsas məsələ müəllimin yaradıcılıq fantaziyası və səriştəliliyidir.

## ƏDƏBİYYAT

1. Ədəbiyyat: VI sinif üçün dərslik. Bakı: Təhsil, 2014.
**2.** Ədəbiyyat: VII sinif üçün dərslik. Bakı: Təhsil, 2014.

# ÜMUMTƏHSİL MƏKTƏBİNİN TƏLİM-TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ DİREKTOR MÜAVİNİNİN İDARƏETMƏ İŞİNİN İSTİQAMƏTLƏRİ

**Piralı Əliyev,**
*ARTPİ-nin şöbə müdiri*
*pedaqogika üzrə elmlər doktoru, professor*
E-mail: piralibexbud56@mail.ru

***Açar sözlər:*** *direktor müavini, standartlaşdırma, stimullaşdırma, kompetensiyalar, nəzarət funksiyası*
***Ключевые слова****: заместитель директора, стадартизация, стимулирование, компетенции, функции контроля*
***Key words:*** *vice-director, standardization, stimulation, competences, control function*

I. Təlim-tərbiyə işləri üzrə direktor müavini “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun, “Təhsil sahəsi işçilərinin qulluqçu vəzifələrinin vahid tarif-ixtisas sorğu kitabçası”nın, “Azərbaycan Respublikasının Əmək Məcəlləsi”nin, “Ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsi”nin və Təhsil Nazirliyinin normativ sənədlərinin tələbləri əsasında fəaliyyətini qurur.

II. Təlim-tərbiyə işləri üzrə direktor müavini 3 ildən çox pedaqoji stajı olan ən yaxşı müəllimlərdən biri direktorun təqdimatı əsasında Bakı şəhər Təhsil İdarəsinin, regionalarda isə yerli təhsil idarəetmə orqanlarının razılığı və məktəb direktorunun əmri ilə bu vəzifəni tutur. Zərurət yarandıqda təhsil idarəsinin əmri ilə direktoru əvəz edir.

III. Təlim-tərbiyə işləri üzrə direktor müavini məktəbdə təlim-tərbiyə prosesini təşkil edir; monitorinq və pedaqoji diaqnostika aparır; istedadlar bankı yaradır; inkişafi təmin edən forma və metodlardan istifadəni müəyyənləşdirir; məktəbdaxili nəzarəti planlaşdırır, materialla təmin edir və həyata keçirir; təlim prosesinin diaqnozlaşdırılmasının nəticələrini təhlil edir; tərbiyə prosesinin məzmun və təşkilinin nəzəri əsaslarını təhlil edir; tərbiyə işləri üzrə direktor müavinin (sinifdənkənar və məktəbdənkənar iş üzrə direktor müavinin) fəaliyyətinin diaqnostikasını və təhlilini, uşaq birliyi rəhbərinin və sinif rəhbərinin işinin təşkilinin analitik təhlilini aparır; pedaqoji kollektivin elmi-metodik ehtiyacını öyrənir və yardım göstərir; təhlükəsiz, normal təlim mühiti yaradır.

IV. Təlim-tərbiyə işləri üzrə direktor müavini fəaliyyətini aşağıdakı istiqamətlər üzrə qurur:

**1. Proqnozlaşdırır**

- tədris plan və proqramların(fənn kurikulumlarının) nəticələrinin reallaşdırılmasını;
- məktəbin inkişaf strategiyasının gedişatında korrektəsini, şəraitə uyğun ümumi dəyişmə tendensiyasını.

**2. Təşkil edir və planlaşdırır**

- təlim-tərbiyə prosesini;
- pedaqoji kollektivin fəaliyyətinin perspektiv və cari planlaşdırılmasını;
- Təhsil Nazirliyinin əmr və tövsiyələrinin pedaqoji kollektivə çatdırılmasını və işin icrasını;
- pedaqoji kollektivin peşə kompetensiyalarının təkmilləşdirilməsi və peşəkarlığının yüksəldilməsini;
- fakültativ və dərnək işlərini, təlimə sistemli nəzarəti, keyfiyyətin qiymətləndirilməsini;
- dərslərin və məşğələlərin dinlənilməsinin (həftədə ən azı 4 dərs), forma və məzmun seçiminin, nəticənin reallaşdırılmasının, tapşırıqların kompetensiyayönlü olmasının təhlilinin aparılmasını;
- BSQ-nin test bankının hazırlanmasını;
- BSQ və buraxılış imtahanlarına hazırlıq işini;
- Pedaqoji şuraya yarımillik və illik hesabatların hazırlanmasını;
- kitabxananın qəzet və jurnalla, bədii və elmi-metodik ədəbiyyatla təminatını;
- təlim-tərbiyə işinin təşkili ilə əlaqədar valideyn səriştəsinin artırılmasını;
- fənnin məzmununa uyğun kabinetlərin tərtibi, idman zalının, kimya və fizika laboratoriyasının, çağırışaqədərki hazırlıq kabinetinin, təlimin texniki vasitələrinin, internetlə təminatının sistemli nəzarətini, hesabatını və pasportlaşdırılmasını;
- proqram və layihələrin, tədqiqatların aparılmasını və məktəbin daxili işilə əlaqləndirilməsini;

- təlim prosesinin gedişatının optimallaşdırılmasını;
- təlim prosesində əməyin mühafizəsinin hüquqi normasını.

3. **Koordinasiya edir**

- məktəb müəllimlərinin zəruri tədris-metodik sənədləri hazırlamasını;
- pedaqoji işçilərin və məktəblilərin tədris plan və proqramının seçimini.

4. **Rəhbərlik edir**

- uşaq birliyi rəhbərinin, sinif rəhbərinin, tərbiyə işləri üzrə direktor müavininin fəaliyyətinə;
- təlim prosesində qabaqcıl təcrübənin tətbiqinə, ümumiləşdirilməsinə, öyrənilməsinə;
- məktəbdə məmnunluq mühitinin yaradılmasına.

5. **Nəzarət edir**

- təlim-tərbiyə prosesinə;
- müəllimlərin təlim yükünə;
- təlim-tərbiyə prosesinin resurslarla təminatına;
- uşaqların icbari təhsilə cəlb olunmasına və ümumi təhsili başa vurmasına;
- uşaqların həyat fəaliyyətinin təhlükəsizliyi ilə tanış olunmasına;
- müəllimlərin sinif jurnallarını və digər sənədlərin düzgün yazılmasına və tərtib olunmasına;
- məktəbli kitabçasının düzgün və hər gün yazılmasına;
- uşaq hüquqlarına təlim verənlərin riayət etməsinə:
- təlim-tərbiyə prosesində koorektəedici yanaşmaya.

6. **Tənzimləyir**

- rəsmi sənədləri;
- normativ sənədləri;
- məktəbin inkişaf proqramını və digər strateji sənədləri;
- təlim-tərbiyə prosesi üçün əmrləri.

7. **Konsultasiya verir**

- uşaq birliyi rəhbərinə, sinif rəhbərinə, tərbiyə işləri üzrə direktor müavininə, valideyn komitəsinə və valideynlərə;
- texnologiya və proqramın innovasiyalı işlənməsinə, pedaqoqların İKT-dən təlim prosesində istifadəsinə;
- əvəzçiliklə dərs deyənlərin əmək haqlarının cədvəlinin tərtibinə.

8. **Metodik işi qiymətləndirir**

- məktəbin elmi-metodik işinin planlaşdırılmasını;
- təlim prosesində müəllimlərin metodik tələbatının proqnozlaşdırılmasını;
- nəticəyönlü təhsilin keyfiyyətinin monitorinqini;
- yaradıcılıq müsabiqələrinin təşkilini;
- ötən tədris ilində metodbirləşmələrin gördüyü işlərin təhlilini;
- metodbirləmə sədrlərinin iş planlarının hazırlanmasını;
- elmi-nəzəri, pedaqoji-metodik seminarların, metodik iş həftəsinin nəticələrini;
- nəşrlərin: məcmuə, metodik tövsiyə və vəsaitlərin hazırlanmasında məktəb müəllimlərinin iştirakını.

9. **Qəbul edir**

- məktəbin inkişaf strategiyası sənədinin hazırlanmasına verilən təklifləri;
- fəaliyyət planına pedaqoji kollektivin və valideynlərin təkliflərini;
- sinif rəhbərlərinin təyin olunmasında valideynlərin fikirlərini;
- məktəb kontingentinin və siniflərin komplektləşdirilməsinə olan təklifləri;
- müəllimlərin diaqnostik qiymətləndirilmədən keçirilməsi üçün metodik hazırlıq işini.

10. **Təklif verir**

- pedaqoji şurada təhsil prosesinin təkmilləşdirilməsinə;
- konkret sosial proqram və layihənin tətbiqinin dayandırılmasına, yaxud davam etdirilməsinə;
- təlimin inkişafına xidmət göstərən işgüzar adamlarla əməkdaşlığa;
- təlim-tərbiyə işinin gedişatı ilə əlaqədar sinif rəhbərlərinə, fənn müəllimlərinə, uşaq birliyi rəhbərlərinə;
- mənfi hallara, həyat fəaliyyətinin təhlükəsizliyinə, sağlamlığın qorunmasına aid olan layihələrin gedişatına nəzarət və qiymətləndirilməsinə;

- sosial normaların təlim-tərbiyə prosesində peşəkar etikaya çevrilməsinə;
- təlim-tərbiyə fəaliyyətində yaranmış problemlərin həll olunmasına;
- seçmə fənlərin cədvəl üzrə tədrisə və onun optimallaşdırılmasına;

məktəbdaxili davranış qaydalarının pozulmasının aradan qaldırılmasına.

**ƏDƏBİYYAT**

1. Abutalov R., Məmmədov S., Quliyev S. İdarəetmənin əsasları. Bakı, 2014.
2. Əhmədov A.Ə. Ümumtəhsil məktəblərində fəaliyyət planının hazırlanması. "Azərbaycan müəllimi" qəz., 2015, № 34
3. Əliyev P.B. Ümumtəhsil məktəblərinin idarəedilməsi işinin planlaşdırılması. Bakı, 2016.
4. Rzayeva O.H., Məmmədov S.M., İsmayılov Ş. N. Təhsilin idarə olunmasının əsasları: Dərs vəsaiti. Bakı: Mütərcim, 2010.
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
6. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi. Bakı, 2011.

# TƏLƏBƏ AUDİTORİYASININ İDARƏ OLUNMASI

**Sahib Məmmədov,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*elmlər doktoru proqramı üzrə dissertan*
*ARTPİ*
E-mail: inqilab1962@mail.ru

***Açar sözlər:*** *müəllimin iş sistemi, tələbə auditoriyası, idarəetmə, tələbə auditoriyasının idarəetmə olunması, tələbələrin idarə olunması,*

***Ключевые слова:*** *система работы учителя, студенческая аудитория, управление, управление студенческой аудиторией, управление студентов*

***Keywords:*** *the audience of students, management, management of students' audience, student management*

**Keywords:** system of teacher's work, the students' audience, management, management of students' audience, students' management

Müasir dövrdə təhsilin həyatdakı rolu xeyli artmışdır. Təhsil gələcək mütəxəssis üçün zəruri bilikləri vermək və bacarıqları formalaşdırmaqla yanaşı onun həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi son dərəcə mühüm vəzifələri yerinə yetirməlidir. Təhsilin və tələbə auditoriyasının səmərəli və yüksək səviyyədə idarə olunması bu mühüm vəzifənin uğurla nəticələnməsinə kömək göstərir. Təhsil sisteminin idarə olunması problemi hazırda strateji əhəmiyyətli məqsədlərdən biridir. Dövlətimiz və hökumətiniz, respublika Təhsil Nazirliyi bu məsələni həmişə diqqət mərkəzində saxlayır. Məktəbə, o cümlədən institut, konservatoriya, təhsil akademiyası və universitetlərə rəhbərlik və həmin ali məktəblərin idarə edilməsinə xüsusi önəm verir. Bu, təsadüfi deyildir. Məhz düzgün idarəetmə nəticəsində təhsil müəssisəsi uğurlu nəticələrə yiyələnə bilər. Bu, həm ümumilikdə ali təhsil müəssisəsinin, həm pedaqoji kollektivin, həm də tələbələrin, tələbə auditoriyasının idarə olunmasına aiddir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"nunda bu vacib məsələ diqqət mərkəzində olmuşdur. Təhsil haqqında Qanunda təhsil müəssisəsinin idarə olunması məsələsinə ayrıca maddə (30-cu maddə) ayrılmışdır.

Həmin maddədə deyilir: "30.1. Təhsil müəssisəsi aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilir.

30.2. Dövlət təhsil müəssisəsinə ...dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə orqanı elmi və pedaqoji şuralardır.

30.6. Təhsil müəssisəsinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə təhsil müəssisəsində idarə və özünüidarə orqanları... yaradıla bilər" (1).

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsilin səmərəli idarəolunması mühüm tələb kimi irəli sürülmüşdür. "Strategiya"da deyilir: "Sürətlə

modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün *təhsili idarəetmə sisteminin yenidən qurulması,* bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir" (2).

Məlum olduğu kimi, Dövlət Strategiyası ölkəmizdə, keyfiyyət nəticələrinə və əhatəliliyinə görə dünyada aparıcı mövqeyə malik olan, peşəkar müəllimlərə və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması məqsədi ilə beş strateji istiqamətdə genişmiqyaslı tədbirlər müəyyənləşdirmişdir. "Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir" (2\).

Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisələrinin idarə edilməsinin səmərəliliyini artırmağı diqqət mərkəzində saxlayır. Bununla bağlı 2014-cü ildə Bakı şəhərinin ümumi təhsil məktəblərinin direktorları üçün keçirilən təlimlər deyilənlərə əyani sübutdur.

Layihənin başlıca məqsədi təlim iştirakçılarının idarəetmə sahəsindəki bilik və bacarıqlarının artırılmasına nail olmaqdan ibarət idi. "Təlimlər səmərəli məktəb, kurikulum və idarəetmə, təhsilalanlar və idarəetmə, təhsilverənlər və idarəetmə, maliyyə və mühasibatlığın əsasları, məlumatın toplanması və təhlili, hesabatların hazırlanması və məktəb idarəetməsinin hüquqi əsasları mövzularını" əhatə etmişdir. Təlimlər 10-12 həftə davam etmiş, müxtəlif modullara əsasən keçirilmiş, uğur sertifikatı almış iştirakçıların ümumtəhsil məktəblərində ayrı-ayrı pilot layihələrin icrasına cəlb edilmişlər. Haqqında danışılan pilot layihələr özünüidarəetməyə keçidi, şagirdbaşına maliyyələşmə mexanizminin tətbiqini, məktəb icmalarının təşkili və digər islahatların həyata keçirilməsinə kömək edəcəkdir. Belə təlimlərə ali məktəb rəhbərlərinin və müəllimlərinin də cəlb edilməsi faydalı olardı.

Respublikamızda məktəbə rəhbərlik və onun idarə olunması problemlərinə, məktəbşünaslığa aid bir sıra tədqiqatlar aparılmış, dissertasiyalar, kitab və kitabçalar, məqalələr yazılmışdır. Azərbaycanın müstəqilliyinə qədər və müstəqilliyinin ilk illərində və hazırkı günümüzdə M.M. Mehdizadə, M.Ə. Muradxanov, A.O. Mehrabov, İ. Hacıyev, İ. Vəlixanlı, N. Əhmədov, S. Zeynalov, N. Əhmədov, S. Rəşidov, R. Məmmədzadə, İ.M. Novruzlu, A. Abdullayev, Ə.A. Kəlbəliyev, R. Cabbarov, S. Rəsulov, Ə. Quliyev, R. Əzizov, O.H. Rzayev, S.M. Məmmədov, Ş.N. İsmayılov, F. Kərimova, MDB məkanına daxil olan ölkələrdə M.İ. Kondakov, Q.M. Polyanskaya, E.F. Filippova, Q.V. Dimitrenko, Q.Q. Yeremeyeva, V.V. Maskin, M.V. Kondrux, N.A. Şaray və başqaları öz əsərlərində məktəbşünaslığın aktual məsələləri tədqiq etmiş, qabaqcıl təcrübəni nəzərdən keçirərək təhlilə cəlb etmiş, məktəbdaxili rəhbərliyin və nəzarətin təşkili, kollegial orqanların (pedaqoji şura və s.) işi, təhsil müəssisəsinin fəaliyyətinin planlaşdırılması, dərs cədvəli, pedaqoji əməyin elmi təşkili, məktəb sənədlərinin hazırlanması və s. məsələləri diqqət mərkəzinə gətirmişlər.

Bundan başqa, prosessorlar M.Ə. Muradxanov, N.M. Kazımov, Ə.Ş. Həşimov, Ə.Ə. Ağayev, Y.R. Talıbov, A.N. Abbasov, F.A. Rüstəmov, H.Ə. Əlizadə, Ə.X. Paşayev, F.B. Sadıqov, L.N. Qasımova, F.N. İbrahimov, R.L. Hüseynzadə, dosentlər R.M. Mahmudova, M. İsmixanov, T. Dadaşova, Q. Abbasova və b. "Pedaqogika", "Məktəb pedaqogikası", "Sosial pedaqogika", "Ali məktəb pedaqogikası" dərsliklərində ümumtəhsil, orta ixtisas və ali məktəbin idarə olunması və təhsil müəssisəsinin fəaliyyətinə rəhbərliyin nəzəri və praktik problemləri aydınlaşdırılmış, haqqında danışılan məsələlərin səmərəli nəticələnməsi üçün faydalı məsləhətlər verilmişdir.

Tələbə auditoriyasının idarə edilməsi problemi pedaqoji aləmdə yeni məsələ olmasa da, xüsusi tədqiqatın obyekti də olmamışdır. Halbuki bu, son dərəcə aktuallığa malik bir problemdir. Tələbə auditoriyasının idarə olunması təhsil müəssisələrinin idarə edilməsi problemi ilə qırılmaz tellərlə bağlı olsa da, həmin problemin üzvi tərkib hissəsi kimi çıxış etsə də, məsələyə xüsusi yanaşma tələb edir. Təhsilin, universitet, institut, konservatoriya və təhsil akademiyasının idarə olunması dedikdə ilk növbədə həmin ali təhsil müəssisələrinin rəhbərliyi – rektor, prorektorlar, dekanlar, kafedra müdirləri, müəssisənin

ali orqanı elmi şura diqqət mərkəzinə gəlir. Tələbə auditoriyasını bilavasitə idarə edən isə mühazirə və seminar məşğələsini aparan müəllimdir, professor-müəllim heyətidir. Söhbət birbaşa müəllim-tələbə münasibətlərindən gedir, auditoriyanın təşkilindən, məşğələlərin yüksək səviyyədə, keyfiyyətlə aparılmasından, müəllim-tələbə münasibətlərinin düzgün qurulmasından, təlim prosesini idarə etməklə önəmli göstəricilərə və nəticələrə nail olmaqdan gedir.

Təlimin səmərəliliyi, optimallaşdırılması və təkmilləşdirilməsi tələbə auditoriyasında mənəvi və psixoloji iqliminin necəliyindən çox asılıdır. Bu iqlimin yaradılmasında müəllimin peşəkarlığı, səriştəliliyi, təlim və tərbiyə texnologiyalarına hansı səviyyədə yiyələnməsi böyük rol oynayır. Bu, bir həqiqətdir ki, heç də hər müəllim tələbə auditoriyasını tələb olunan səviyyədə idarə edə bilmir, rəhbərlik üslublarını düzgün seçmir, tələbələrlə ixtilaflı vəziyyət yaradır. Bütün bunlar isə, tələbə auditoriyasında problemlər yaradır.

**ƏDƏBİYYAT**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu". Bakı: Hüquq ədəbiyyatı, 2009.
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr

## MENECMENTİN PRİNSİPLƏRİ SƏMƏRƏLİ İDARƏETMƏNİN ƏSASI KİMİ

**Rahim Sadıqov,**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Biznes Universiteti*

***Açar sözlər:*** *menecment, prinsip, səmərəli idarəetmə, tabeçilik, rəhbər, hakimiyyət*
***Ключевые слова:*** *управление, принцип, эффективное управление, подчиненность, управление, власть*
***Keywords:*** *Management, principle effective management, subordination, management, power*

Menecment bazar münasibətləri şəraitində idarə etmə nəzəriyyəsi hesab edilir. Menecment və idarəetmə anlayış ları bir-birinə tam eyni olmayan sinonim kimi çıxış edir. İdarə etmə insanların fəaliyyətini istiqamətləndirməklə və onların davranışlarının əsaslarını yaratmaqla məqsədə nail olmaq bacarığıdır. İdarəetmə anlayışı insan fəaliyyətinin bütün sahələrinə aid edilə bilər. Baxmayaraq ki, menecment idarə etmə mənasında işlədilir, bütün idarə edən şəxslər menecerlər hesab edilmirlər

Menecment anlayışı yalnız bazar mühiti şəraitində fəaliyyət göstərən müəssisələrdə sosial-iqtisadi proseslərin, maliyyə təsərrüfat sahələrinin idarə olunmasını əks etdirir. Menecment məfhumunun məzmununu araşdırarkən aydın olur ki, o sərbəst peşəkar fəaliyyət növü olub, təkcə sənaye firmalarının elmi tədqiqat, layihə konstruktor işləri ilə deyil, həmçinin istehsal, texnoloji, təşkilati, maliyyə, satış sahələrini, həm də bank, sığorta təşkilatları, turizm agentliyi, mehmanxana, nəqliyyat kompaniyaları, ümumiyyətlə, bazara sərbəst daxil olan iqtisadi subyekt kimi bütün təsərrüfat vahidlərini əhatə edir.

Menecment daha az maddi, əmək və maliyyə ehtiyatlarından istifadə edərək səmərəliliyi yüksəltmək və mənfəəti artırmaq məqsədi ilə həyata keçirilən idarəetmə fəaliyyətidir. Fəaliyyətin səmərəli idarə edilməsində prinsiplərin lazımi səviyyədə tətbiq olunması vacibdir. Prinsip latın sözü olub, "əsas" deməkdir. Prinsip anlayışı öz mahiyyət və məzmununa görə fəaliyyətin həyata keçirilməsi qaydalarını özündə əks etdirir. Prinsip idarə etmənin metodları və funksiyaları sistemində aparıcı mövqeyə malikdir. Çünki idarəetmənin prinsipi idarəetmə funksiyalarının həyata keçirilməsində müdirlərin əldə rəhbər tutduqları ideyaları, qanun və qaydaları özündə əks etdirir.

Təşkilatın idarəetmə prinsipləri idarəetmə sisteminin strukturuna və təşkilinə olan tələbləri müəyyən edir. Yəni təşkilatın idarə edilməsi bütün səviyyələrdən olan menecerlərin əldə əsas tutduqları idarəetmə prinsipləri vasitəsilə həyata keçirilir. Bu qaydalar menecerin davranış xəttini müəyyən edir.

1912-ci ildə Amerika meneceri T. Emerson tərəfindən idarəetmənin səmərəli prinsiplərindən "

Məhsuldarlığın on iki prinsipi ” kitabında bəhs edilmişdir. Lakin əməyin elmi təşkilinin əsasını qoyanlardan biri, “inzibatçılıq nəzəriyyəsi”nin yaradıcısı A. Fayol idarəetmə prinsiplərinin sayının qeyri-məhdud olması barədə fikirlərini irəli sürmüşdür. Çünki idarəetmədə tətbiq edilən hər hansı qayda idarə etmənin prinsipləri arasında öz yerini tutur. İdarəetmə prinsiplərinə aşağıdakıları aid etmək olar:

*Sistemlilik prinsipi.* Sistemlilik prinsipi idarə etməyə sistem kimi baxmağı və idarəetməyə sistem halında yanaşmanı nəzərdə tutur. Bu prinsip idarə etmə prinsiplərinin idarəetmə sisteminin bütün tərəflərinə, elementlərinə, funksiyalarına tətbiqini tələb edir.

*Elmilik prinsipi.* Bu prinsipin əsas məzmunu elə bir tələbdən ibarətdir ki, təşkilatda atılan bütün məqsədli addımlar, yerinə yetirilən fəaliyyət elmi cəhətdən əsaslandırılmalıdır. Çünki idarəetmə elmi daim tədqiq olunur və inkişaf edir. Rəhbərlər, menecerlər idarəetmə elminə dair nəzəri biliklərə daha çox malik olarlarsa, təcrübədə onların fəaliyyəti elmi əsaslara söykənərsə nəticə uğurlu olar.

*İnteqrasiya prinsipi.* İnteqrasiya prinsipi idarəetmə fəaliyyətinin həyata keçirilməsində inkişaf etmiş müəssisələrin təcrübələrindən istifadə edilməsini, beynəlxalq idarə etmə sistemlərinə inteqrasiya olunmasını nəzərdə tutur.

*Hüquq və məsuliyyət prinsipi.* Bu prinsip tələb edir ki, hər bir şəxs öz hüquqlarından istifadə etməli, üzərinə düşən vəzifələri yerinə yetirməli və nəticəyə görə cavabdehlik daşımalıdır.

*Tabeçilik prinsipi.* Tabeçilik prinsipi idarəetmənin əsas və başlıca prinsiplərindən biridir. Tabeçilik prinsipi idarəetmənin yuxarı və aşağı pillələrinin bir-birindən asılılığını təmin edir. Bu prinsip yuxarı səviyyədən gələn qərarların, tapşırıqların, göstərişlərin, sərəncamların aşağı səviyyələrdə lazımi qaydada icra olunmasını, yerinə yetirilməsini nəzərdə tutur. Aşağı struktur vahidinin hansı yuxarı struktur vahidindən asılılığı müəssisənin təşkilati strukturu, daxili qaydaları, təlimatları əsasında müəyyən olunur və tabeçilik münasibətləri qeydşərtsiz yerinə yetirilir.

*Bərabərlik (bərabər hüquqluq) prinsipi.* Bərabərlik prinsipi eyni idarəetmə səviyyəsində fəaliyyət göstərən struktur vahidləri və ya funksional icraçıların bərabər hüquqlara malik olması ilə xarakterizə olunur. Çünki bərabərlik prinsipi əsasında səlahiyyət və əmək bölgüsünün həyata keçirilməsi, onlar arasında qarşılıqlı əlaqənin, sağlam ünsiyyətin formalaşmasına nail olmaq mümkündür.

*Obyektivlik prinsipi.* Obyektivlik (ədalətlilik) prinsipi rəhbərlər tərəfindən həyata keçirilməsi tələb olunan əsas prinsiplərdən biridir. Obyektivlik prinsipi, əsasən qərarların qəbul olunmasında, əmək bölgüsünün, vəzifə bölgüsünün həyata keçirilməsində, kadrların işə qəbulu, hərəkəti və işdən azad olunmasında, onlar haqqında inzibati tədbirlərin görülməsində istifadə olunur. Ədalətli qərarlar təşkilatda hüquq bərabərliyini təmin edir, müəssi sədə sağlam sosial-psixoloji mühitin formalaşmasına səbəb olur, motivləşmənin, stimullaşdırmanın əsasını təşkil edir.

*Müstəqillik prinsipi.* Müstəqillik prinsipi hər bir işçiyə əmək fəaliyyətində azadlıq və sərbəstlik verilməsi ilə əlaqədardır. Bu prinsip işçinin öz bacarığından, peşə vərdişlərindən, fəaliyyət imkanlarından müstəqil surətdə istifadə etməsinə şərait yaradır, onun təşəbbüskarlıq, novatorluq qabiliyyətinin inkişafına səbəb olur.

*Vahid rəhbərlik prinsipi.* Vahid rəhbərliyin mahiyyəti ondan ibarətdir ki, müəssisə rəhbəri onun səlahiyyətlərinə daxil olan məsələləri təkbaşına həll etmək hüququna malikdir. Əslində bu təşkilatın rəhbərinə və ya menecerlərinə idarəetmə funksiyalarının yerinə yetirilməsi üçün geniş səlahiyyətlərin verilməsidir. Lakin bu prinsip əsasən kiçik müəssisələr üçün səciyyəvidir. Bəzən böyük müəssisələrdə də bu prinsip tətbiq olunur ki, həmin müəssisələrdə idarəetmə fəaliyyətində, qərarların qəbul edilməsində kollektivin deyil, rəhbərlərin iradəsinə daha çox üstünlük verilir. Bu prinsipdən idarəetmənin avtokrat üslubunda daha geniş istifadə edilir.

*Kollegiallıq prinsipi.* Bu prinsip müxtəlif səviyyəli rəhbərlərin, icraçıların, habelə kollektivin rəyi əsasında qərarların işlənib hazırlanmasını nəzərdə tutur. Kollegiallıq prinsipində qərarlar kollektivin müzakirəsinə verildikdən və müzakirə süzgəcindən keçdikdən sonra qəbul olunur. Əsasən strateji qərarların qəbul edilməsində bu prinsipdən istifadə olunur. Kollegiallıq prinsipi idarəetmənin demokratik üslubunda daha geniş formada tətbiq edilir.

*Demokratik mərkəziyyət prinsipi.* Bu prinsip təşkilati-struktur vahidlərinin vahid rəhbərə tabe olmasını və bu tabeçiliyin demokratik prinsiplər əsasında həyata keçirməsini tələb edir. Hakimiyyət

müəssisədə rəhbərə məxsus olur, lakin demokratiyanın səviyyəsindən asılı olaraq aşağı rəhbərlər arasında səlahiyyətlər formasında bölünür. Təşkilatda ümumi və strateji məqsədlərin müəyyən olunması, ümumi nəzarətin həyata keçirilməsi, struktur vahidlərinin koordinasiyası vahid mərkəzdən gəlir. Deməli, demokratik mərkəziyyət prinsipi demokratik qaydalar əsasında hakimiyyətin təşkilatın yuxarı pillələrində cəmləşməsinə əsaslanır. İdarəetmənin aşağı səviyyələri isə, tabeçilik münasibətləri əsasında rəhbərin ətrafında birləşməli, yuxarıdan gələn qərarları icra etməlidirlər.

*Sahə və regional idarəetmənin əlaqələndirilməsi prinsipi.* Bu prinsip sahə strukturları ilə regional strukturların fəaliyyətinin əlaqələndirilməsini tələb edir. Çünki, bir sıra müəssisələr özünün regional strukturuna malik olurlar. Regional strukturların tərkibində sahə strukturları fəaliyyət göstərir. Bu prinsip müəssisənin regionlarda fəaliyyət göstərən sahə strukturlarının mərkəzi idarəetmə aparatından idarə olunmasını və onların koordinasiya olunmasını nəzərdə tutur.

## ÜMUMİ TƏHSİL MƏKTƏBLƏRİNİN "DÖVLƏT-İCTMAİ" XARAKTERDƏ İDARƏ EDİLMƏSİNDƏ DİREKTORUN SƏRİŞTƏSİ

**Fərəh Hüseynova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*

***Açar sözlər:*** *dövlət-ictimai xarakterli idarəetmə, idarə etmənin təkmilləşdirilməsi, yuxarı idarəetmə orqanları, idarəetmə mexanizmi, ictimai-dövlət xarakterli idarəetmə*

***Ключевые слова:*** *управление государственно-общественного характера, органы высшего управления, усовершенствование управления, механизм управления*

***Key words****: state-public management, development of management, higher management, organizations, management mechanism , public –state management*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, təhsil sistemində də əsaslı islahata başlandı. Müsbət ənənələri qoruyub saxlamaqla yanaşı, təhsilimizdə modernləşdirmə həyata keçirilir. İnkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsini öyrənərək milliliyi gözləməklə, yenilikləri təhsilimizə tətbiq etmək istiqamətində işlər həyata keçirilir. Bu mənada, təhsilin idarə edilməsinin dövlət-ictimai xarakterli olması mühüm əhəmiyyət kəsb edir və rəsmi sənədlərdə bu məsələyə geniş yer verilmişdir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının qanununda təhsil sahəsində dövlət siyasətinin əsas prinsipi: "demokratiklik - təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması" (3, 10) göstərilmişdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir ki, "...maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə təhsil müəssisələrinin: dövlət-ictimai xarakterdə (Valideyn-Müəllim Assosiasiyası, İdarəetmə Şurası, Qəyyumlar Şurası və s.) idarə olunmasının təmin olunması" (2,14) həyata keçirilməlidir. Elmi-pedaqoji ədəbiyyatın təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, idarə etmənin "dövlət-ictimai", "ictimai-dövlət" xarakterdə olması məsələsinə aydınlıq gətirilmişdir. Təhsilin idarə edilməsindən danışarkən, onlar bu ifadələri bəzən sinonim söz kimi, bəzən isə fərqli idarəetmə üsulu kimi qəbul edir.

"İslahat Proqramı"nda təhsil müəssisəsi səviyyəsində idarəetmənin təkmilləşdirilməsi məsələsi öz ifadəsini belə tapmışdı: "...Valideynlərin, yuxarı sinif şagirdlərinin, tələbələrin, təhsil müəssisəsi işçilərinin, sponsorluq edən müəssisə və təşkilatların, təhsillə bağlı digər qurumların təhsilin idarə olunmasında təmsil olunmasını təşkil etmək lazımdır" (1, 27). Dünyada təhsilin məqsəd və vəzifələrinə uyğun olaraq iki tip: dövlət-ictimai və ictimai-dövlət idarəetmədən istifadə olunur.

Dövlət-ictimai xarakterli idarəetmə əsasən vertikal (şaquli) tabeçiliyə əsaslanılır. Burada, yuxarı idarəetmə orqanların tövsiyəsi aşağılar üçün dəyişməz hesab olunur və dövlət nəzarəti güclü olur. Dövlətin idarəetmə mexanizmi müəssisənin məqsəd və vəzifələri dövlət qanunları ilə tənzimlənir, eyni qanunlarla idarə olunur və ictimai baxışları yaxın olur. Təhsildə birləşmə, ümumi quruluşda assosiasiya

və əlaqə Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, insanın hüquq və azadlıqlarına aid olan rəsmi sənədlər tabeçiliyə imkan verir. Qanunun prinsipləri ictimai idarəetmə və plüralizmi reallaşdırmağa şərait yaradır. Başqa bir sahə, qanun bütün gücü ilə idarəetmədə dövlət strukturu ilə bərabər hüquqda əməkdaşlıq etməyə imkan verir. Deməli, dövlət-ictimai xarakterli idarəetmədə xüsusi və əlavə hüquqi imtiyazlar da verilməlidir.

Məktəbin bütün strukturu ilə ictimaiyyətin əməkdaşlıq etməsinə praktik baza yaradılmalıdır. Təhsil Nazirliyinin tabeçiliyində olan məktəblərdə dövlət-ictimai xarakterdə idarə etməyə, Vətəndaş cəmiyyətinin məqsədini özündə əks etdirən hüquqi baza var.

Vətəndaş cəmiyyəti və dövlət marağı, təhsil sahəsində sosial-mədəni proses və məktəb sosial mədəni institut kimi fəaliyyətini tənzimləyir. Məktəb dövlət nəzarətində olan ictimai həyatın bir hissəsi kimi eyni ahəngli struktur elementidir. Bununla yanaşı, müasir idarəetmə sistemində ictimai-dövlət xarakterli idarəetməyə də maraq vardır. Bu özəl ümumi təhsil məktəblərinin idarə edilməsində tətbiq edilir.

İctimai-dövlət idarə edilməsində: ümumi strukturda vətəndaş cəmiyyəti-könüllüləri, vətəndaş təşkilatları və assosiasiyaları, təhsil sahəsində irəli sürülən siyasəti demokratik əsasda özünüidarə qaydalarına uyğun həyata keçirir. İctimai-dövlət idarəetməsi ümumtəhsil məktəbinin muxtariyyətini daha da güclü edir; təhsil sahəsində uşaq və böyüklərin hüquq və azadlıqlarını geniş şəkildə təmin edir; ictimai təşkilatlar məktəbin yerli özünüidarəsində demokratiyanın genişləndirilməsinə xidmət göstərir. İnkişaf etmiş ölkələrdə ictimai nəzarət aparıcı yer tutur. İctimai nəzarətin bir forması kimi İctimai Fəaliyyət Mərkəzləri ("Social Activity Centers") tanınır. İctimai nəzarət geniş fəaliyyət imkanlarına malik olur. Onlar monitorinq, müşahidə, yoxlama işləri görməklə yanaşı, keyfiyyətə nəzarət, büdcə ehtiyatlarından səmərəli istifadə, proqramların, planların qanunlara uyğun hazırlanması və icrasına nəzarət edir, təhsildə ictimai nəzarət prosesinin daha şəffaf və səmərəli olmasına kömək edir. Bu zaman bir sıra ictimai nəzarət üsullarından istifadə olunur: müşahidə; illik, yarımillik, kiçik və böyük summativ qiymətləndirmənin nəticələrinin müqayisəli təhlili; şagird və valideynlərlə, direktorla, rayon təhsil şöbəsinin (idarəsinin) müdiri ilə, icra hakimiyyətinin humanitar işlər üzrə müavini ilə görüş; şikayət və müraciətlərin toplanması; söhbət, müsahibə və qrup sorğuları; ictimai ekspertiza; praktik təcrübələr, ictimai sorğu; ictimai monitorinqdən istifadə etmək olar.

Dövlət və ictimai idarəetmənin güclü və zəif tərəfləri

| | Güclü tərəfləri | Zəif tərəfləri |
|---|---|---|
| Dövlət idarə etməsi | Təhsil müəssisələrinin maddi-texniki baza və maliyyələşmə ilə təmini.<br>Resurslarla təmin edilməsi. | İdarəetmə mövqeyi dəyişməz. Qərarların qəbulunda bürokratiya.<br>İdarəetmə strukturunda dəyişməzlik.<br>Təhsil siyasətinin dövlət resursları əsasında aparılması.<br>İdarəetmə vəzifələrinin icrasında ierarxiyanın gözlənilməsi.<br>Çoxluğun mövqeyinin qəbul edilməsi. |
| İctimai idarə etmə | Özünüidarə orqanlarının müstəqil olması.<br>Məktəbin fəaliyyətinin əsasını özünüidarə və özünümaliyyələşdirmə ictiami-sosial yanaşmanın təşkil etməsi.<br>Qərarların açıq müzakirələrindən və təcrübə üçün lazımlılığından sonra qəbul edilməsi.<br>Hamının istəyinin reallaşması.<br>Azlığın münasibətinin nəzərə alınması. | İnkişaf layihəsinin reallaşdırılmasına maliyyə resurslarının çatışmazlığı |

Buradan belə bir nəticəyə gəlmək olar ki, dövlət-ictimai idarəetmə forması: iştirakçıların fəaliyyətinin maraqlarını yüksək səviyyədə təmin edir; demokratiyaya birbaşa xidmət edən qaydada fəaliyyət göstərir.

Təhsil Nazirliyi ümumtəhsil məktəblərinin dövlət-ictimai xarakterdə idarə olunması üçün xeyli iş görmüşdür. Ümumi təhsil məktəbinin direktoru olmaq istəyənlərə təlim təşkil edilir və kursda onlara dövlət-ictimai xarakterli idarəetmə səriştəsi aşılanır. Xüsusilə valideynlərin idarəetmədə yaxından iştirak etməsi üçün məktəb direktoru yeni səriştələrə yiyələnməlidir.

**ƏDƏBİYYAT**


1.Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı, 1999.
2.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
3.“Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.


## TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI ÜZRƏ KADR HAZIRLIĞINDA YENİ MƏRHƏLƏ


**Mətanət Qurbanova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: metanetgurban@gmail.com



***Açar sözlər:*** *təhsil siyasəti, təhsilin idarə olunması, proqram, doktorantura, təhsil doktoru, təhsil meneceri*
***Ключевые слова:*** *образовательная политика, управление образования, программа, доктор образования, менеджер образования*
***Key words:*** *education policy, education management, programm, doctoral studies, doctor of education, education manager*


Təhsil siyasəti təhsil sisteminin fəaliyyətini tənzimləyən hüquqi normativ aktların məcmusu kontekstində dövlətin təhsil sahəsində siyasi qərarların qəbul edilməsi prinsiplərinin əsasında təmin edilir. Təhsil meneceri hazırlayan proqramların məzmunu və bu proqramın təhsilalanların əldə edəcəyi zəruri bilik və bacarıqların formalaşması ilə əlaqədar inkişaf etmiş qərb ölkələri başda olmaqla dünyada mütəmadi araşdırmalar aparılır. Dünyanın bir çox fərqli universitetlərində təhsilin idarə olunması sahəsində bakalavrdan sonrakı hazırlıq proqramları tətbiq yönümlü, təcrübi biliklər verən doktorantura proqramları təklif edirlər. Bu proqramlardan geniş yayılan təhsil doktoru (bundan sonra – TD (Ed.D.)) dərəcəsi verən, əsasən təcrübə yönümlü və ABŞ da daxil olmaqla bir çox inkişaf etmiş ölkədə yüksəkixtisaslı təhsil meneceri hazırlayan təhsil proqramıdır. Bu proqramlar, elmi-pedaqoji kadr hazırlığı məsələsindən daha çox idarəetmə sahəsində nəzəri və təcrübi bilikləri ümumiləşdirərək fəaliyyət göstərməyə çalışan təhsil sahəsində inzibati idarəetmə heyətini hədəf almışdır. İlk TD dərəcəsi 1920-ci il ABŞ-da Harvard universitetində verilmiş, son 20-30 ildə isə bu proqramlar Kanada, Avstraliya və İngiltərə, İrlandiya, Cənubi Afrika, Hindistan, Sinqapur tərəfindən də mənimsənilmişdir. Təhsil sahəsindəki doktorluq proqramları da digər sahələrdə olduğu kimi əsasən tədqiqatçı, yaxud elmi-pedaqoji kadr hazırlığına istiqamətlənmişdir. Daha təkmil məzmunda TD proqramları 1934-cü ildə Kolumbiya, 1940-cı illərdə Stanford, Berkli və Miçiqan kimi məşhur universitetlərdə həyata keçirilməyə davam etdirilmişdir.

Digər sahələrdə FD proqramlarına hər il az sayda doktorant qəbul olunmaqla və ilk illərdə dərin nəzəri alt strukturun qurulmasından sonra məsul müəllimin nəzarəti və rəhbərliyində araşdırma, layihələrdə iştirak tələb olunursa, təhsil sahəsində doktoranturaya daha çox sayda insanın qəbul olunması və təhsilalanların heç də hamısının nəzəri tədqiqat məsələlərində maraqlı olmamaları bu prosesi çətinləşdirir. Təhsilin idarə olunması sahəsində FD proqramları yüksək səviyyədə tədqiqatçı hazırlama məqsədinə nail ola bilmir.

Təhsil tədqiqatlarında statistik metodların və böyük ölçüdə məlumat mərkəzlərinin istifadəsinin artması, fəaliyyət göstərən idarəedici heyətin vəzifə və məsuliyyətlərində dəyişikliklərin olması bir proqramın eyni zamanda həm səriştəli tədqiqatçı, həm də səriştəli rəhbər hazırlama tələbini ödəməsini çətinləşdirir. 2007-ci ildə “Light PhD” hesab olunan TD proqramlarının öz hədəflərinə müvafiq şəkildə yenidən tərtib edilməsi məqsədi ilə bir çox nüfuzlu universitetin daxil olduğu “Karnegi Təhsil Doktorluğu

Layihəsi" çərçivəsində zəruri addımlar atılmışdır. Layihənin hədəfi - TD proqramının hədəfinin, məqsədinin müəyyənləşdirilməsi və proqramların məhz bu istiqamətdə tərtib edilməsi, eyni zamanda FD proqramlarının daha da təkmilləşməsinə şərait yaratmaqdır.

Hər iki proqrama müraciət edənlər eyni hüquqi prosedurdan keçməlidir: bakalavr və bakalavrdan sonrakı təhsil üçün transkript – qiymət cədvəli; referans məktubu; niyyət məktubu (2-3 səhifə); CV; təhsil sahəsində akademik yazı(məqalə); xarici tələbələr üçün dil yetərliliyi (TOEFL-80, İELTS-6.5); GRE (biznes, hüquq və tibbdən başqa sahələrdə magistratura və FD proqramı üçün keçirilən, tələb olunan imtahan) balı.

Bir çox universitetdə yuxarıda sadalanan ümumi qaydalardan əlavə hər iki proqrama müraciət etmək istəyən hər bir şəxs üçün xüsusi tələblər qoyulmuşdur(cədvəl):

| **Fəlsəfə doktoru (PHD)** | **Təhsil doktoru (EdD)** |
|---|---|
| Müəyyən sayda kreditin konkret semestr ərzində tamamlanması | İşləyən doktorantlar üçün iş qrafiki nəzərə alınmaqla həftə sonu iki gün və əsasən tətil aylarında kreditlərin verilməsi |
| Dissertasiya | Layihə |
| Fərdi iş | Qrup işi (fərdi də ola bilir) |
| Təhsilin idarə olunmasının ümumi nəzəri məsələləri | Bölgədə təhsilin idarə olunması məsələlərinə təsir edən xarakterik iqtisadi, sosial problemləri müəyyənləşdirmək, icma, sosial institutun sifarişini həyata keçirmək |
| Təhsilin problemlərini tədqiq edən institutlarda akademik heyətin tərkibində fəaliyyət göstərmək, tədqiqatlar aparmaq | Məzun olduqdan sonra regional təhsil idarələrində yüksək mövqedə təhsil meneceri, məktəb direktoru, digər rəhbər vəzifələrdə, həmçinin ali təhsil müəssisələrində pedaqoji fəaliyyət |
| proqrama müraciət edəcək hər bir şəxsin karyera hədəflərinin tədqiqat və elmi araşdırma istiqamətli olması vacibdir. | proqrama müraciət edəcək hər bir şəxsin karyera hədəflərinin professional olaraq təhsil sahəsində menecerlik fəaliyyəti ilə məşğul olmağa istiqamətlənməlidir. |
| araşdırma qabiliyyətinə sahib olmaqla yanaşı proqram daxilində elmi – pedaqoji kadrların tədqiqat mövzuları və istiqamətlərindən məlumatlı olmalıdır. | məktəb direktoru, təhsil analitiki, proqram koordinatoru və s. təhsil sahəsində liderlik mövqeyi baxımından maraqlı olan digər şəxslərin müraciəti məqsədəuyğun sayılır.<br>- bəzi universitetlər isə idarəetmə sahəsində xüsusi təcrübə tələb edirlər. |

Azərbaycanda məktəb direktoru və təhsil idarələrində rəhbər mövqelərə kadr hazırlığı işini mərhələli şəkildə ayrı-ayrı kursların fonunda ümumiləşdirməklə vahid proqram əsasında və modullar üzrə təşkil etməklə sistemləşdirmək mümkündür. FD proqramı üzrə dissertantura təhsili bu proqrama alternativ təşkil etsə də, fərq ondadır ki, ikincidə həftə sonu və yay aylarında modullar üzrə dərslər təşkil edilir, fərdi və qrup şəklində real layihələr həyata keçirilir. Hər il universitetlərdə təhsil sahəsində FD proqramı üzrə məhdud sayda yerlər ayrılır ki, bu da idarəetmə heyəti üçün müəyyən hüquq və imkanları məhdudlaşdırır, qəbulda verilən yerləri artırdıqda isə keyfiyyətə təsir göstərməklə səriştəli tədqiqatçı hazırlığı problemi yaranır. Proqramın məzmunu, tədris planları və məzunluq şərtləri məhz işləyən insanlara uyğun olmadığından onların proqrama davam etmələri və müvəffəqiyyətli olmaları çətinləşir. TD proqramı təklif edəcək müvafiq universitetlər müraciət etmək arzusunda olan bu insanların təhsil arzularını, tələb və ehtiyaclarını modullar üzrə verilən kreditlər əsasında nəzərə almalıdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası . “Azərbaycan” qəz, 2013, 25 oktyabr
2. Azərbaycan Respublikasında Təhsil menecerlərinin hazırlanması konsepsiyası. “Azərbaycan” qəz, 2004, 11 iyun
3. Əhmədov H.H., Azərbaycanda təhsilin inkişaf strategiyası. Bakı: Elm, 2010.
4. Qurbanova M.Q., Təhsil meneceri hazırlığı proqramlarının mövcud dünya modelləri AMEA // Gənc tədqiqatçı 2016, № 1, 2-ci cild
5. Nelson, J.K., & Coorough, C. (1994). Content analysis of the PhD versus EdD dissertation. The Journal of Experimental Education, 62 (2)
6. Doctor of Education (EdD). URL: https://en.wikipedia.org/wiki/Doctor_of_Education (istinad tarixi: 25. 09.2015)


# TƏLƏBƏLƏRDƏ İDARƏETMƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN MƏZMUNU


**Müjkan Məmmədzadə,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: mujkan@mail.ru



***Açar sözlər:*** *pedaqogika, tələbə, müəllim, tərbiyə, pedaqoji fəaliyyət*
***Ключевые слова:*** *педагогика, студент, учитель, образование, управление, педагогическая деятельность*
***Keywords:*** *pedagogy, student, teacher, education, pedagogical activity*


Ali pedaqoji tədris müəssisələrinin yüksək hazırlıqlı müəllim kadrların yetişdirilməsində dərin və hərtərəfli bilik və bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə və dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaq mühüm məqsəd kimi qarşıda durur. Bununla yanaşı şagirdlərin idrəedilməsinin nəzəriyyə ilə təcrübəsinə, idarəetmənin üsul və metodlarına dərindən bələd olan idarəetmə səriştəli, xalq təhsili təşkilatçıları tərbiyə etməkdə qarşıda qoyulmuş məqsədə çatmaq üçün əsas şərt sayılır.

Müasir dövrdə müəllim hazırlığı ilə əmək bazarının əlaqələndirilməsi bir çox ölkələrdə olduğu kimi, respublikamızda da aktual məsələ kimi qarşıda durur. Ölkəmizdə mövcud olan bazar iqtisadiyyatı və onun qanunları müəllim kadrlarının hazırlığına yeni tələblər verir. Bu məsələnin müvəffəqiyyətli həlli kadr hazırlığının elə səviyyədə qurulmasını tələb edir ki, əmək bazarına birbaşa çıxış təmin olunsun. Bu baxımdan təhsilin Avropa təhsil məkanına inteqrasiyası və Boloniya deklarasiyasının müddəalarının uğurla yerinə yetirilməsi üçün pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərində tələbələrin peşə mədəniyyətinin təkmilləşdirilməsinə, sosial-iqtisadi inkişafın müasir tələblərinə müvafiq yenidən qurulmasına ehtiyac yaranır.

Gələcək müəllimlərdə pedaqoji mədəniyyətin formalaşdırılması vacib pedaqoji problem olub, kadr hazırlığının əsas tərkib hissələrindən birini təşkil edir. Tələbələrdə zəruri pedaqoji keyfiyyətlərin tərbiyə edilməsi əsl usta-müəllim şəxsiyyətinin formalaşdırılması kimi mühüm pedaqoji vəzifənin həyata keçirilməsi ilə nəticələnir.

Müasir şəraitdə tələbələrdə idarəetmə mədəniyyətinin formalaşdırılması üçün fiziologiya, psixologiya, pedaqogikanın elmi əsaslarını dərindən bilmək, tədris proqramlarında istifadə edilən ideyaları qavramaq, müasir yenilikləri tələbələrə aşılamaq və bunları gələcək pedaqoji fəaliyyətlərində tətbiq etmək ön plana çəkilməlidir. Burada real şəraitin nəzərə alınması mürəkkəb pedaqoji məsələləri yaradıcılıqla həll edə bilər.

Ali məktəb müəllimi tələbələrdə idarəetmə mədəniyyətinin formalaşdırılması üçün xüsusi hazırlıq keçəli və peşəkarcasına pedaqoji fəaliyyətlə məşğul olmalıdır. Ümummilli liderimiz Heydər Əliyev müəllimin şərəfli vəzifəsindən danışarkən xüsusi olaraq qeyd etmişdir: “Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır və insandır. Ona görə də mən çox arzu edirm ki, sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız”.

Tələblərdə idarəetmə mədəniyyətinin formalaşdırılması zamanı aşılanmalıdır ki, gələcək fəaliyyətlərində pedaqoji biliklərlə müvafiq olaraq hərəkət etməyi bacarmalı, öz peşə borcunu keyfiyyətlə icra etmək üçün müəyyən olunmuş qaydada məsuliyyət daşımalıdırlar.

Müəllim adını daşıyan hər bir insan hər şeyə cavabdehdir, o, çox şeyi bilir və bacarır. Hər bir insanın və bütün xalqın taleyinin bu qədər çox asılı olduğu başqa fəaliyyət növünü təsəvvür etmək çətindir. İngilis atalar sözündə deyildiyi kimi, həkimin səhvi torpağın altına gömülər, mühəndisin səhvi torpağın üstünə yıxılar, müəllimin səhvi torpağın üstündə dolanar və dünyanı xarabazara çevirər.

Tələbələrdə idarəetmə mədəniyyətinin formalaşması anlayışını müəllim peşəsinin ən vacib mahiyyəti sırasına daxil edilir. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, idarəetmə yalnız texniki və istehsalat sahəsində deyil, həm də sosial sistemlər sahəsində də zəruridir. İdarəetmənin elmi əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər idarəetmə praktikasının nəzəri əsasını təşkil edir.

Ümumiyyətlə, idarəetmə dedikdə, zamanında düzgün qərarlar qəbul etməyə, idarə olunanı təşkil etməyə, ona diqqət göstərməyə, tənmizləməyə yönəldilmiş məqsəd, düzgün məlumata əsaslanaraq işin təhlili və ondan nəticə çıxarmaq başa düşülür. Müəllim qarşısında şagirdlər idarəetmə sisteminin subyektləri kimi çıxış edirlər və bu idarəetmə subyektini də gələcək müəllimlər ali məktəblərdə təhsil aldıqları müddətdə formalaşdırmalıdırlar.

**ƏDƏBİYYAT**

Abbasov A.N. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.

## ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ AKADEMİK MƏSLƏHƏTÇİ: VƏZİFƏLƏRİ VƏ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**Bəyimxanım Məmmədova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: memmedova49@mail.ru

***Açar sözlər:*** *orta ixtisas təhsili, tyutor xidməti, müasir dövr, tədris proqramları, kollec*
***Ключевые слова:*** *среднее специальное образование, тьюторские услуги, современный период, учебные программы, колледж*
***Keywords****: specialized secondary education, tutor service, the modern period, educational proqrams, college*

Müasir dövrdə cəmiyyətin bütün strukturlarında inkişaf olduğu kimi kolleclərin fəaliyyətində də yeniliklər özünü göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 26 dekabr 2014-cü il tarixli 354 saylı qərarla təsdiqlənmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə təhsilin təşkili qaydaları"nın 5-ci bölümündə orta ixtisas təhsili müəssisələrində akademik məsləhətçi (tyutor) xidmətinin təşkil edilməsinin labüdlüyü göstərilir.

Tyutorlar xidməti kredit sistemi ilə təhsil alan tələbələrə kömək göstərmək məqsədilə təşkil olunur.

Kolleclərdə fərdi tədris proqramları tyutorların köməyi ilə təhsil alanın təlim maraqlarını müdafiə edərək hazırlanmalıdır.Fərdi tədris planlarının hazırlanması və təhsil resurslarının axtarışı, təlimin fərdiləşdirilməsinə yönəldilmiş pedaqoji fəaliyyətdir.

Beləliklə, kollec şəraitində tyutor fəaliyyətinin məqsədini belə müəyyən edə bilərik ki, o, təlim dövründə tələbələrin peşə hazırlığının və fərdi xüsusiyyətlərinin inkişafı üçün respublikanın tələblərinə uyğun şəraitin yaradılmasına çalışır.

Kolleclərdə tyutorların vəzifələrini belə müəyyənləşdirə bilərik:

– tələbələri gələcək peşə fəaliyyətinə yönəltmək üçün motivasiyanın ən yüksək mərhələsini təmin edənə qədər istiqamətləndirmək;

– tələbələrin həyati maraqlarını aşkara çıxarıb inkişaf etdirmək;

– tələbələrə öz şəxsi tələblərini və ya inkişafını təmin edən kompitensiyalara ( səriştəliliyə ) nail olmaq üçün kömək göstərmək;

– hər bir tələbənin təhsilə subyektiv yanaşma dərəcəsini müəyyənləşdirmək;

– kollecdə tələbələrin fərdi təhsil çərçıvəsini müəyyənləşdirmək və onların fəaliyyətini istiqamətləndirmək;

– təhsilalanlara fərdi təhsillə əlaqədar məlumat toplamağa kömək etmək;

– "istedadlı uşaqlar" və "risk qrupuna daxil olanlar" kateqoriyalarını müəyyənləşdirmək üçün monitorinq keçirmək;

– fərdi planlar hazırlamaq və düzəliş vermək məqsədilə tələbələrlə müəllimlərin və digər pedaqoji işçilərin qarşılıqlı fəaliyyətini təmin etməyə çalışmaq.

Tyutor təlimin I ilində təhsilalanlarla fərdi və qrup şəklində tanışlıq zamanı onların şəxsi və təhsil problemlərini araşdırır. Təhsilalanların şəxsi xüsusiyyətlərini, baza təhsilinin və İKT sahəsində səriştəliliyini üzə çıxarmaq üçün müxtəlif tipli treninqlər keçirir.

Təlimdə fərdi motivasiyanın formalaşdırılması, tədris prosesinə adaptasiya, fərdi təhsil fəaliyyətinin formalaşdırılması, tələbələrin özünütəhsillə bağlı məlumat toplamağa istiqamətləndirilməsi tyutorun vəzifə borcuna daxildir.

Eyni zamanda, tyutor tələbələrlə müəllimlərin tədris-metodik fəaliyyətinin monitorinqini keçirməli, onların təhsil və dini maraqlarını, tövsiyə olunmuş kitabları oxumağı və kitabların fərdi müzakirəsini, dərsdənkənar vaxtlarda qruplarla muzeyə, sərgilərə və başqa yerlərə gəzinti təşkil etməyi bacarmalıdır.

Təlimin II ilində tyutor tələbələrlə fərdi söhbət aparır, onlara ixtisaslaşma sahəsinin seçimində , kurs işi və referatlara dair mövzuların müəyyənləşməsində, müxtəlif təlim, məlumat, məntiqi təfəkkür, səriştəlilik, rabitəliliyini, komanda da işləmək bacarığının formalaşdırılmasında köməklik göstırir.

Kollecdə yaradıcılıq işləri ilə bağlı fəaliyyətdə tələbələrə öz yerlərini müəyyənləşdirmək və müxtəlif hadisələrin elm-təhsil sahəsinə tətbiqini öyrənmək üçün təcrübə qazanmağa kömək edir.

Təlimin məzmunun mənimsənilməsinin tədris-metodiki hissəsində tyutorla müəllimlərin birgə fəaliyyəti zamanı tələbələrin akademik statusunun monitorinqini keçirir.

Təlimin III ilində tələbələrin buraxılış işlərinin mövzusunun seçilməsi və yazılmasına köməklik göstərmək üçün fərdi müsahibə aparır. Gələcək ixtisas fəaliyyəti ilə əlaqədar peşə səriştəliliyini inkişaf etdirmək üçün təcrübə bazasını seçməkdə tələbələrə kömək edir.Tələbələrin səriştəlilik səviyyəsinə əsasən onların gələcək peşə fəaliyyəti sahəsini müəyyənləşdirir, onlara elmi-tədqiqat işlərinin yerinə yetirilməsində köməklik göstərir.

Beləliklə, tyutor fəaliyyətinin xüsusiyyətləri ondan ibarətdir ki, o yalnız tərbiyə işinin deyil, kollecin təlim, elmi-tədqiqat işlərini, həm də tələbələrin müxtəlif layihələrdə sosial-aktivliyini artırır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı. 1993, 2009.
2. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 dekabr 2014-cü il tarixli 354 saylı Qərarı.

Kitab Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatında yığılıb, səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanıb: 10.06.2016. Kağız formatı: 60x90 1/8
Ofset çapı. Ofset kağızı. Həcmi: 40,87 ş.ç.v.
Sifariş 21. Tiraj 200. Müqavilə qiyməti ilə.

AZ, Bakı şəhəri Afiyəddin Cəlilov küçəsi 86.
Tel:(+994 12) 490 29 32, 490 29 34